

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

# MİLLİ-MƏDƏNİ İRS VƏ ONUN QLOBALLAŞMA ŞƏRAİTİNDƏ TƏBLİĞİ MƏSƏLƏLƏRİ

**Respublika elmi konfransının materialları**

# NATIONAL-CULTURAL HERITAGE AND ITS PROPAGANDATION IN CONDITIONS OF GLOBALIZATON

**Materials of the republican scientific conference**

# НАЦИОНАЛЬНО-КУЛЬТУРНОЕ НАСЛЕДИЕ И ВОПРОСЫ ЕГО ПРОПАГАНДЫ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

**Материалы республиканской научной конференции**

MİNGƏÇEVİR – 2016



*Biz öz milli mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir.*

**HEYDƏR ƏLİYEV**

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 93-CÜ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ “MİLLİ-MƏDƏNİ İRS VƏ ONUN QLOBALLAŞMA ŞƏRAİTİNDƏ TƏBLİĞİ MƏSƏLƏLƏRİ” MÖVZUSUNDA

## RESPUBLİKA ELMİ KONFRANSININ M A T E R İ A L L A R I

**22-23 aprel 2016-cı il**

Elmi konfrans Azərbaycan Respublikası Təhsil Nazirliyinin 26.02.2016-cı il tarixli 120 saylı əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən ali təhsil müəssisələrində 2016-cı ildə keçiriləcək beynəlxalq və respublika səviyyəli elmi konfrans və simpoziumların siyahısı” əsasında keçirilmişdir.

**MİNGƏÇEVİR – 2016**

THE MINISTRY OF EDUCATION OF AZERBAIJAN REPUBLIC

MINGECHEVIR STATE UNIVERSITY

# “NATIONAL-CULTURAL HERITAGE AND ITS PROPAGANDATION IN CONDITIONS OF GLOBALIZATON” DEDICATED TO THE 93rd ANNIVERSARY OF HEYDAR ALIYEV, NATIONWIDE LEADER

## M A T E R I A L S OF THE REPUBLICAN SCIENTIFIC CONFERENCE

**22-23 april 2016**

The scientific conference was held by order of the Ministry of Education of Azerbaijan Republic No: 120 on 26.02.2016, «On the basis of scientific conferences and symposiums on international and republican levels at the higher educational institutions functioning within the systems of Ministry of Education of Azerbaijan Republic in 2016».

.

MINGECHEVIR – 2016

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**МИНГЕЧЕВИРСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

# “НАЦИОНАЛЬНО-КУЛЬТУРНОЕ НАСЛЕДИЕ И ВОПРОСЫ ЕГО ПРОПАГАНДЫ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ” ПОСВЯЩЕННАЯ 93 ЛЕТИЮ СО ДНЯ РОЖДЕНИЯ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

**М А Т Е Р И А Л Ы**
**РЕСПУБЛИКАНСКОЙ НАУЧНОЙ КОНФЕРЕНЦИИ**

**22-23 апреля 2016 года**

Научная конференция проведена на основании приказа Министерства образования Азербайджанской Республики за номером 120 от 26.02.2016 года «Об утверждении списка конференций и симпозиумов международного и республиканского значения проводимых в 2016 году в высших учебных заведениях системы Министерства образования Азербайджанской Республики».

**МИНГЕЧЕВИР – 2016**

| | |
|---|---|
| **Elmi redaksiya heyəti:** | **Hacıyev A.N. p.f.d., dos., Əyyubov V.S. i.e.d., prof., Cəfərova E.H. s.f.d., dos., Mürşüdova R.N. Əməkdar müəllim, Məmmədov S.Ə. p.f.d., Əməkdar müəllim, İsmayılov M.Y. fil.f.d., Əməkdar müəllim, Hüseynova E.Y. i.f.d., dos., Mustafayev S.M. f.r.f.d., dos., Zeynalov N.D. t.f.d., Musayeva C.Q. i.f.d., Kələşov Q.T. f.r.f.d., dos., Qədimli N.A. i.f.d.,, dos. Səlimov İ.N. f.r.f.d.** |

| | |
|---|---|
| **İşçi qrupu:** | **Cəfərova E.H. s.f.d., dos., İsmayılov M.Y. fil.f.d., Əməkdar müəllim, Hüseynova E.Y. i.f.d., dos., Zeynalov N.D. t.f.d., Musayeva C.Q. i.f.d., İsmayılova S.C. Əməkdar müəllim, Hacıyeva E.Z., Zeynalov Ü.Ə., Yunusova G.K., Rəsulov Z.Y., Xəlilov E.O.** |

**© Mingəçevir Dövlət Universiteti, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Milli-mədəni irs və onun qloballaşma şəraitində təbliği məsələləri" mövzusunda Respublika elmi konfransının materialları, Mingəçevir, 2016, _______ səh.**

**Konfransın təşkilat komitəsi:**

| | | |
|---|---|---|
| **Əyyubov V.S.** | – | **sədr, Elmi işlər üzrə prorektor, i.e.d., professor** |
| **Mürşüdova R.N.** | – | **sədr müavini, Mingəçevir şəhər Təhsil şöbəsinin müdir müavini, Əməkdar müəllim** |
| **Cəfərova E.H.** | – | **sədr müavini, Humanitar fənlər kafedrasının müdiri, s.f.d., dos.** |
| **Məmmədov S.Ə.** | – | **Mingəçevir şəhər Təhsil şöbəsinin müdiri, p.f.d., Əməkdar müəllim** |
| **Kələşov Q.T.** | – | **Pedaqoji fakültənin dekanı, f.r.f.d., dos.** |
| **İsmayılov M.Y.** | – | **Dillər və ədəbiyyatın tədrisi kafedrasının müdiri, fil.f.d., Əməkdar müəllim** |
| **Zeynalov N.D.** | – | **İctimai və təbiət fənləri kafedrasının müdiri, t.f.d.** |
| **Səlimov İ.N.** | – | **Riyaziyyat və informatika kafedrasının müdiri, f.r.f.d.** |
| **Mustafayev S.M.** | – | **Riyaziyyat və kompüter elmləri kafedrasının müdiri, f.r.f.d, dos.** |
| **Hüseynova E.Y.** | – | **Sənayenin təşkili və idarə olunması kafedrasının müdiri, i.f.d., dos.** |
| **Musayeva C.Q.** | – | **İqtisadiyyat kafedrasının müdiri, i.f.d.** |
| **Rəsulov Z.Y.** | – | **məsul katib** |

| | | |
|---|---|---|
| **Xəlilov E.O.** | – | **Kompyuter tərtibatçısı və dizayner** |

**MİNGƏÇEVİR – 2016**

## MÜNDƏRİCAT

**HACIYEV A.N.**
*Giriş sözü*........................................................................................................................ 11
**CƏFƏROVA E.H.**
*Ulu öndər Heydər Əliyevin banisi olduğu Azərbaycan multikulturalizmi milli-mədəni dəyərlərin qorunması mexanizmi kimi* ................................................................................................. 12
**MƏMMƏDOV S.Ə.**
*Milli-mədəni irs – milli sərvətimizdir* .................................................................................. 16
**İSMAYILOV M.Y.**
*Qloballaşma və mədəni inteqrasiya şəraitində milli-mənəvi dəyərlərin təbliği məsələləri*............... 21
**İSMAYILOV A.N.**
*Şəxsiyyətin formalaşmasında milli-mənəvi dəyərlərin rolu* .................................................... 25

## MİLLİ-MƏDƏNİ DƏYƏRLƏR VƏ MULTİKULTURALİZM BÖLMƏSİ

**ALIYEV H.A.**
*Multikulturalizm və onun müxtəlif modelləri* ........................................................................ 28
**CƏFƏROVA E.H.**
*Qloballaşma şəraitində mütərəqqi dəyərlərin ekstrapolyasiyası: universalizasiya, kosmopolitizm, pasifizm* ........................................................................................................................ 30
**BAĞIROVA Ş.V.**
*Azıx mağarası Azərbaycan xalqının mədəni irsinin ən qədim sərvətidir* ................................... 33
**ƏZİZOVA Z.M., ƏLİYEVA M.D.**
*Qloballaşan dünyada milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və inkişafı* ........................ 35
**ƏLİYEVA H.M.**
*Azərbaycandakı epiqrafik abidələrin restavrasiyası və onların bu günki durumu haqqında*............ 37
**İSMAYILOV İ.M.**
*Demokratiyanın əsas nəzəri modelləri* .................................................................................. 41
**MƏMMƏDOVA O.İ.**
*Tarixi abidələrin mühafizəsi, restavrasiyası və təbliği məsələləri* ............................................ 43
**АБДИЕВА А.М.**
*Толерантность и демократизация общества* ....................................................................... 45
**ZEYNALOV N.D.**
*Azərbaycan Albaniyasının dəfn adətləri etno-mədəni göstərici kimi (antik dövr)* ........................... 48
**ƏLİYEV S.H., NƏCƏFOVA G.A.**
*Multikultural dəyərlərin milli-mədəni irsimizdə yeri və rolu* ..................................................... 50
**ALLAHVERDİYEV E.İ.**
*Multikulturalizm şəraitində dil və mədəniyyətlərarası əlaqələr* ................................................ 53
**QASIMOVA T.M.**
*Heydər Əliyev fondu və multikultural dəyərlər* ..................................................................... 57
**ABBASOV N.Y.**
*Milli-mənəvi dəyərlərin multikulturalizm şəraitində qorunub saxlanması və inkişafı* ...................... 58
**KƏRİMLİ S.S.**
*Azərbaycan tolerant ölkədir* ................................................................................................ 60
**YUSİBOVA T.F., ABDULLAYEV Q.B.**
*Ətraf mühitə antropogen çirklənmənin təsiri və ekoloji tolerantlıq* ............................................ 63
**CƏFƏROVA E.H., MƏMMƏDOV İ.M.**
*Multikulturalizm milli-mənəvi və ümumbəşəri dəyərlər kontekstində* ......................................... 65
**RƏSULOV M.B.**
*Diri Baba türbəsi YUNESKO siyahısına layiq abidədir* ............................................................ 68

**AĞAYEVA R.Ş.**
*Multikultural cəmiyyətdə dövlət – din münasibətləri* ........ 70
**ƏSƏDOVA J.A.**
*Multikulturalizm Azərbaycan cəmiyyətinin həyat tərzidir* ........ 72
**ZEYNALOV Ü.Ə.**
*Mədəniyyətlərarası toqquşma və multikulturalizm* ........ 74
**МАМЕДОВ Э.В.**
*Самунис-Мингечаур как один из ведущих античных городов Кавказской Албании с присущими элементами мультикультурализма* ........ 76
**BAYRAMOV M.C.**
*Axeoloji tapıntılar milli mənəvi dəyərlərimizin öyrənilməsində mənbə kimi* ........ 78
**MÖVLAYEVA V.Ə.**
*Mingəçevirin sosial-mədəni həyatı (1950-1960-cı illərdə)*........ 80
**QƏNİYEVA R.Ə.**
*Qloballaşma şəraitində İngilis dili mədəniyyətlərarası kommunikasiya vasitəsi kimi*........ 82
**QƏDİROVA A.R.**
*XIX-XX əsrin əvvəllərində Mingəçevir və ətraf bölgələrin əhalisinin maddi mədəniyyəti*........ 85
**ƏSKƏROVA S.V.**
*Müasir qloballaşma şəraitində mədəni əlaqələrin genişləndirilməsinin əsas istiqamətləri*........ 88
**ƏHMƏDOVA Ş.M.**
*Multukulturalizmin Azərbaycan modeli*........ 90
**МАХМУДОВА Р.Н.**
*Толерантность как важнейшая составляющая гуманной педагогики*........ 93
**İSLAMOVA N.M., HÜSEYNOVA L.T.**
*Tədris prosesində milli-mənəvi tərbiyə*........ 95
**MƏMMƏDOV İ.M.**
*Milli-mənəvi dəyərlərin formalaşmasında sinkretik və multikultural amillər*........ 97
**YUSİFOVA M.R.**
*Dialoq konsepsiyası multikultural cəmiyyətin əsası kimi*........ 99
**İSMAYILOVA M.M.**
*Milli-mənəvi dəyərlərimiz: "Qarabağnamələr"in dəyər sistemində Şuşa epik vətən kimi*........ 102
**MƏMMƏDOV Z.İ.**
*Azərbaycan və Türkiyə arasında mədəni əməkdaşlıqda mədəniyyət günlərinin əhəmiyyəti*........ 104
**CAMALOV M.B.**
*Azərbaycan Respublikasının multikulturalizm siyasəti*........ 107
**XƏLİLOVA X.Q.**
*Qloballaşma şəraitində milli-mənəvi dəyərlərin mühafizəsi məsələləri*........ 109
**YUSİBOVA G.F.**
*Dil milli-mənəvi dəyərlərin transformasiyası, qorunması və təbliği vasitəsi kimi*........ 110
**ƏHMƏDOVA S.F., ƏZİZOVA A.M.**
*Qloballaşan dünyada nitq mədəniyyətinin inkişafı ilə bağlı problemlər*........ 112
**VERDİYEVA Ü.M.**
*Milli-mənəvi dəyərlərimiz qürurumuzdur*........ 115
**QULİYEVA T.Ə.**
*Azərbaycanın maddi mədəniyyət abidələri avropalı səyyahların gözü ilə*........ 117
**QOCAYEVA A.M.**
*Milli-mədəni irsimizin qorunmasında tarixi-dini abidələrin rolu və təbliği məsələləri*........ 119
**QULİYEVA Ə.A.**
*Azərbaycanda multikulturalizmin inkişafı – müxtəlif mədəniyyətlər, adət-ənənələr*........ 121
**MƏMMƏDOVA N.F.**
*Multikultural dəyərlər, onların ümumtəhsil məktəblərində təbliği vasitələri*........ 123
**İSGƏNDƏROVA İ.M.**
*Multikulturalizm xalqların milli-mənəvi dəyərlərinə hörmət mexanizmi kimi*........ 126
**QAFFAROVA Q.M.**
*Azərbaycanda dövlət-din münasibətləri və dini müxtəlifliyin tənzimlənməsi siyasəti*........ 128

**CƏFƏROVA A.A.**
*Tarix və mədəniyyət abidələrimizə sahib çıxaq*........................................................................... 131
**BƏDƏLOVA Y.F.**
*Milli mədəni dəyərlər və multikulturalizm*.................................................................................. 133
**ATAYEV C.V.**
*Multikulturalizm xalqların milli-mənəvi dəyərlərinə hörmət mexanizmi kimi*.................................. 135
**HƏSƏNOV M.M.**
*Multikulturalizm və təhsil*.......................................................................................................... 138

## TƏDRİS PROSESİNDƏ MİLLİ-MƏNƏVİ TƏRBİYƏ BÖLMƏSİ

**İSMAYILOV M.Y., SALAHBANOVA Ç.A.**
*Milli mənəvi dəyərlər: Heydər Əliyevin dil siyasəti* ..................................................................... 141
**MANAFOV N.R.**
*Alman dili məşğələlərində atalar sözləri təhsil və tərbiyə prosesinin başlica funksiyasi kimi*.......... 143
**ƏZİZOVA Z.M. ABBASOVA G.T.**
*Nizami Gəncəvi yaradıcılığında hərbi vətənpərvərlik tərbiyəsi*....................................................... 144
**ДЖАБАРОВА Ш.Б.**
*Влияние мультикультурного образования на нравственное развитие студентов в Азербайджане*.................................................................................................................. 146
**KƏLƏŞOV Q.T., MƏMMƏDOVA M.S., KƏLƏŞOVA S.Q.**
*Orta məktəbdə "Xətlərlə hüdudlanmış fiqurların sahələrinin və fırlanmadan alınan cisimlərin həcmlərinin hesablanması"na müəyyən inteqralın tətbiqləri*........................................................... 149
**MUSTAFAYEV S.M., MƏMMƏDOV M.N., ƏHMƏDOV V.U.**
*Rezultantdan istifadə etməklə çoxhədlinin köklərinin tapılması*....................................................... 153
**ИСМАЙЛОВ М.Ё., ИСАЕВА Ш.Ч.**
*Интертекстуальность и массовая коммуникация*.......................................................................... 155
**ƏLİYEV S.H., İSMAYILOVA A.İ.**
*Məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik ruhunun ilkin elementlərinin aşılanması*................... 158
**MƏMMƏDOVA R.M.**
*Milli adət və ənənələr mənəvi dəyərlər sistemində*......................................................................... 160
**RƏSULOV M.B., ƏLİYEVA A.Ə.**
*Çoxhədlinin köklərinin məxsusi qiymət kimi tapılması*.................................................................... 162
**SƏLİMOV İ.N., ORUCOV T.S.**
*Riyaziyyat dərslərində şagirdlərin təbiət elmləri üzrə inteqrativ-riyazi komptensiyalarının inkişaf etdirilməsi*.................................................................................................................................. 165
**MƏHƏRRƏMOVA V.E.**
*Azərbaycan dili milli-mənəvi dəyərlərimizin tərkib hissəsi kimi*....................................................... 168
**MANAFOVA M.N.**
*"Tibbnamə"nin dilində sərbəst söz birləşməsi və tabeli mürəkkəb cümlələr*.................................... 169
**ƏHMƏDOVA A.X.**
*Toni Morrisonun yaradıcılığında milli-mənəvi dəyərlərin təbliği*...................................................... 171
**İBRAHİMOVA L.M.**
*Müxtəlif sistemli dillərdə tarixi, milli-mənəvi dəyərlərin ötürülməsində ad qruplu frazeoloji paradiqmlərinin rolu*.................................................................................................................... 173
**CABBAROVA K.H.**
*Qeyri-normativ davranışlı gənclərin mənəvi şüurunun və mənəvi tərbiyəsinin formalaşdırılması*..... 174
**YUSUBOVA X.M.**
*Müəllim hazırlığında tərbiyənin rolu*............................................................................................... 176
**QARAYEV T.A.**
*Qloballaşma: milli dövlətçilik, milli-mənəvi dəyərlər*....................................................................... 178

**HÜSEYNOVA P.A.**
*Sənətkarlıq anlayışı və ədəbi əsərin öyrədilməsində mövqeyi*............................................................ 180
**ABBASOVA G.A.**
*Hüseyn Cavid yaradıcılığında milli-mənəvi dəyərlər konsepsiyası*.................................................... 184
**SƏMƏDOVA S.R.**
*Şagirdlərin vətəndaş cəmiyyətinə hazırlanma prosesi milli-mənəvi dəyərlər kontekstində*................ 187
**AĞAKİŞİYEVA S.A.**
*Cavid yaradıcılığında milli-mədəni irsimizin əksi*............................................................................... 189
**QURBANOVA G.Q.**
*Gənc nəslin tərbiyəsində milli-mənəvi dəyərlərin rolu*....................................................................... 191
**SÜLEYMANOVA S.N.**
*Qloballaşma şəraitində milli-mənəvi dəyərlər: milli dilin qorunub saxlanılması məsələləri*............ 193
**İSAYEVA S.M.**
*Folklor xalqın mənəvi ehtiyaclarını ödəyən milli sərvəti kimi*............................................................ 196
**İSMAYILOVA İ.Ş.**
*Bədii ədəbiyyatda Avropa və milli dəyərlərə münasibət*..................................................................... 198
**YUNUSOVA P.M., NƏBİYEVA S.K.**
*Şagirdlərdə texnoloji təfəkkürün formalaşdırılmasında milli-mənəvi dəyərlərin rolu*........................ 201
**GÜLÜSTANİ Z.X.**
*Milli-mənəvi dəyərlərimiz Azərbaycan xalqının tarixində və ədəbiyyatında*...................................... 203
**NOVRUZOVA S.B.**
*"Kitabi-Dədə Qorqud" dastanında milli-mənəvi dəyərlər sistemi*....................................................... 205
**HÜSEYNOVA P.A.**
*Əbdürrəhim bəy Haqverdiyevin satirik bədii nəsrində müstəqillik ideyaları*..................................... 207
**QULİYEVA S.M.**
*Məktəblilərin hərtərəfli inkişafında mənəvi tərbiyənin mahiyyəti*...................................................... 211
**ВАХИДОВ К.И.**
*Специфика патриотического воспитания учащихся в условиях глобализации*.......................... 213
**İSMAYILOVA S.C.**
*Milli-mənəvi dəyərlərin aşılanmasında riyaziyyatın rolu*.................................................................... 216
**ƏLİYEVA A.V.**
*İnformasiya kommunikasiya texnologiyalarının mənəvi irsin təbliğində rolu*.................................... 219
**NƏBİYEVA Ş.C.**
*Ümumtəhsil məktəblərinin ibtidai siniflərində milli-mənəvi dəyərlərin aşılanması*............................ 221
**İBRAHİMLI İ.Y.**
*İngilis dili dərslərində milli-mənəvi dəyərlərin təbliği*........................................................................ 224
**ABDULXALIQOVA L.İ.**
*Milli-mənəvi dəyərlər və onların ədəbi əsərlərdə tərənnümü*.............................................................. 225
**TAHİROVA K.K.**
*Xarici dil dərslərində milli-mənəvi dəyərlərin təbliği*.......................................................................... 228
**MUSTAFAYEVA N.Ə.**
*Şagirdlərin milli-mənəvi tərbiyyəsində informatika fənninin rolu*...................................................... 230
**HACIYEVA R.N.**
*İbtidai təhsil pilləsində milli-mənəvi tərbiyənin aşılanması yolları*.................................................... 232
**İSAYEVA Ş.K.**
*Qloballaşma şəraitində hərbi vətənpərvərlik tərbiyəsi*......................................................................... 234
**MUSTAFAYEVA K.N.**
*Mənəviyyat varlığımızdır*....................................................................................................................... 237
**АЛИЕВА Т.И.**
*Формирование этнокультурной грамотности и установок толерантности в гуманитарной среде школы*.................................................................................................................................. 239
**YUSİFOVA E.V.**
*Ədəbi əsərlərdə milli-mənəvi dəyərlərin tərənnümü*............................................................................ 241

## SOSİAL-İQTİSADİ PROSESLƏRİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRƏ TƏSİRİ BÖLMƏSİ


**ƏYYUBOV V.S., ƏYYUBOV Z.V.**
*Qloballaşma şəraitində Azərbaycanın sosial-iqtisadi inkişafının Heydər Əliyev modeli*.................. 244
**MƏMMƏDOV F.Ə., MƏMMƏDOVA X.F.**
*Respublikamızın təhsil sistemində kadr hazırlığı xərclərinin səmərəli istifadəsi*............................. 246
**ƏLİYEV R.R.**
*Milli-mənəvi dəyərlər və müasirlik* ............................................................................................... 248
**HÜSEYNOVA E.Y.**
*Dünya iqtisadiyyatına inteqrasiyanın iqtisadi inkişafa təsiri* .......................................................... 251
**HÜSEYNOVA E.Y., NƏSİBOVA A.C.**
*Qloballaşma prosesində milli maraqların əhəmiyyətliliyi*................................................................ 255
**QƏDİMLİ N.A.**
*Multikultural cəmiyyətin formalaşması və inkişafı*.......................................................................... 256
**MUSAYEVA C.Q.**
*Ölkənin milli maraqlarının qorunmasında təbii sərvətlərin səmərəli istifadə edilməsi istiqamətləri*.. 259
**İSRAFİLOVA E.N.**
*İnformasiya texnologiyaları mədəni irsin xidmətində*..................................................................... 261
**SƏMƏDOVA O.M.**
*Qloballaşma prosesinin milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına təsiri*.............................. 264
**SƏMƏDOVA O.M., XƏLİLOV X.R.**
*Qloballaşma şəraitində inteqrasiya meylləri*.................................................................................... 265
**İSGƏNDƏROV F.A.**
*Qloballaşma şəraitində ali təhsil müəssisələrinin missiyası*............................................................. 267
**QARAYEV M.Ş., QARAYEVA Ş.N.**
*Qeyri-neft sektorunun inkişafı struktur formalaşdırıcı amil kimi*...................................................... 269
**MƏMMƏDOVA K.A.**
*Milli-mədəni irsimizin qorunmasında intellektual kitabxana-informasiya şəbəkəsi*.......................... 271
**QASIMOV A.M., KAZIMOV X.E.**
*Ölkənin sosial-iqtisadi inkişafında milli-mənəvi dəyərlər amili*........................................................ 273
**TAĞIYEV A.M.**
*Milli-mənəvi dəyərlərin və mədəni irsin qorunmasının sosial-iqtisadi əsasları*................................ 275
**ŞƏFAQƏTOV G.M.**
*Azərbaycanın qiymətli kağızlar bazarı: reallıqlar və perspektivlər*.................................................. 277
**HACIYEVA E.Z.**
*Müəssisənin rəqabət üstünlüyünün xüsusiyyətləri*........................................................................... 280
**SƏFƏROVA T.A., PAŞAYEVA S.B.**
*Ölkənin iqtisadi inkişafında multikulturalizmin rolu*......................................................................... 282
**PAŞAYEV M.Ə.**
*Qloballaşma və milli dövlətlərin problemləri*.................................................................................... 284
**АЛИЕВА З.А.**
*Диагностика – эффективный метод повышения надежности турбоагрегата*...................... 287
**ƏMİRASLANOVA R.İ.**
*Müasir Azərbaycanın İKT siyasəti ulu öndər Heydər Əliyevin irsindən qaynaqlanır*....................... 289
**NİFTƏLİYEV N.F.**
*Azərbaycanın inteqarsiya siyasəti və milli maraqların qorunmasının geoiqtisadi əsaslandırılması*.. 291
**MƏMMƏDLİ Y.Z.**
*Aqrar-sənaye kompleksinin dünya təsərrüfatına inteqrasiya meylləri*.............................................. 294
**MƏCİDOV R.H., ABDİYEVA G.Z.**
*Milli innovasiya ölkə iqtisadiyyatının inkişafının vacib elementi və iqtisadi proseslərin sürətləndiricisi kimi*........................................................................................................................... 296
**RƏSULOV Z.Y.**
*Korporativ mədəniyyət – milli-mədəni dəyərlərin tərkib hissəsi kimi*............................................... 297

**ƏLİYEVA T.Ə.**
*Qloballaşma şəraitində iqtisadi inteqrasiyanın Azərbaycanın sosial-iqtisadi inkişafına təsiri*.......... 300
**KƏRİMOVA M.A.**
*İqtisadi qloballaşma və milli-mənəvi dəyərlər*........................................................................... 302
**NAMAZOVA A.M.**
*Azərbaycanda milli-mənəvi dəyərlərin qorunmasında sosial-iqtisadi inkişafın rolu*........................ 304
**RƏHİMOVA M.F.**
*Qloballaşmanın sosial-iqtisadi proseslərin inkişafına təsiri*…………………………………………… 306
**ASLANOVA S.R.**
*Milli iqtisadi inkişafın modeli*.................................................................................................... 307
**ХАН-ХОЙСКАЯ И.В., БАГИРОВА А.М.**
*Тенденции развития национально-духовных ценностей в эпоху глобализации*.......................... 309
**KƏRİMLİ G.F.**
*Müasir dövrdə qloballaşma*........................................................................................................ 311
**ƏZİMOVA K.Z.**
*Qloballaşma, sosial-iqtisadi proseslər və milli-mənəvi dəyərlər*...................................................... 313

# GİRİŞ SÖZÜ

*Hacıyev Akif Novruz oğlu*
*Mingəçevir Dövlət Universitetinin rektoru*

Hörmətli konfrans iştirakçıları!
Hörmətli qonaqlar!

Mingəçevir Dövlət Universiteti, Mingəçevir şəhər İcra Hakimiyyəti və Mingəçevir şəhər Təhsil Şöbəsinin birgə keçirdiyi ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Milli-mədəni irs və onun qloballaşma şəraitində təbliği məsələləri" mövzusunda konfransda hamınızı ürəkdən salamlayıram.

Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi və inkişafı sahəsində əvəzsiz xidmətləri olmuşdur. Hələ SSRİ dövründə Moskvanın mənfur milli siyasətinə baxmayaraq, o, Azərbaycanın müstəqilliyi üçün iqtisadi və mədəni-mənəvi təməl yaratmış, böhranlı situasiyada xalqı fəlakətdən xilas etmiş, ölkəni sürətli inkişaf magistralına çıxarmışdır. Nəticədə, qısa bir zamanda Azərbaycan siyasi və iqtisadi müstəqilliklə yanaşı, həm də mədəni-mənəvi müstəqillik əldə etmişdir.

Qloballaşma şəraitində milli-mənəvi dəyərlərimizin böyük təhlükələrlə üzləşəcəyini və milli ideologiyanın formalaşmasını təmin etmədən bu təhlükədən xilas olmağın çətin olacağını vurğulayan ulu öndər Heydər Əliyev dövlət televiziyası ilə çıxış edərək "Məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir" – deyərək milli-mənəvi dəyərlərimizin qorunmasına yönəldilmiş bəyanat vermişdir.

Bu gün qloballaşan dünyada getdikcə dərinləşən sivilizasiyalararası toqquşmalar və ziddiyyətlər hər bir xalqın milli-mənəvi və dini dəyərlərinin qorunması zərurətini dövrün aktual məsələlərindən birinə çevirib. Möhtərəm prezidentimiz İlham Əliyev tərəfindən 2016-cı ilin "Multikulturalizm ili" elan olunması bu istiqamətdə qarşımıza mühüm vəzifələr qoyub və bu gün iştirakçısı olduğumuz konfransın keçirilməsi də bu sahədə həyata keçirilən dövlət siyasətinə, prezidentin siyasi kursuna əməli dəstəyiniz hesab edilə bilər. Belə ki, prezident 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan edərkən həm də xalqımızın tarixi kökündə formalaşan və yaşayan möhtəşəm mənəvi, mədəni, elmi və siyasi qaynaqlara əsaslanırdı. Bu qaynaqlar xalqımızın daxili aləmini, ruhunu, mənəvi zənginliyini adekvat əks etdirən çox sanballı mənbədir.

Bu gün Azərbaycan Heydər Əliyev siyasi kursu və azərbaycançılıq ideyası ətrafında sıx səfərbər olan xalqımızın birgə əməyinin, zəhmətinin və mübarizliyinin nəticəsi olaraq sürətli inkişafa, davamlı yüksəlişə nail olub.

Ulu öndərin qurduğu, Prezident İlham Əliyevin möhkəmləndirdiyi müstəqil Azərbaycan hər birimizin mənəvi istinadgahı və qürur mənbəyidir. Bu Vətən var olduqca milli-mədəni irsimiz də qorunacaq və inkişaf edəcəkdir.

**Hörmətli konfrans iştirakçıları!**

İcazənizlə konfransımızı açıq elan edim və konfransın işində hər birinizə uğurlar arzulayım.

UOT 32

## Ulu öndər Heydər Əliyevin banisi olduğu Azərbaycan multikulturalizmi milli-mədəni dəyərlərin qorunması mexanizmi kimi

*s.f.d., dos. Cəfərova Esmira Hilal qızı*
*Mingəçevir Dövlət Universiteti*
*Humanitar fənlər kafedrasının müdiri*

Bu gün öz əvvəlki çoxüzlülüyünü və çoxtərəfliliyini tədricən itirən dünya bütövləşməyə doğru addım-addım yaxınlaşır. Müxtəlif ölkələrdə insanlar eyni kommunal xidmətlərdən və nəqliyyat vasitələrindən istifadə edir, eyni növ paltar geyinir, eyni cür qidalanır, eyni televiziya verilişlərinə baxır, eyni xəbərləri dinləyirlər. Müasir sivilizasiyaların yaratdığı texnologiyalar, əmtəə, xidmətlər, informasiyalar və s. müxtəlif xalqların həyatına daxil olaraq onları bir-birinə oxşar edir.

Bu gün qloballaşma prosesini obyektiv əks etdirən ictimai şüur forması olan qloballıq da insanların kollektiv təfəkkür tərzinə can atdıqlarını, dünya sivilizasiyası ilə eyniləşdirmə tendensiyasını, artıq təkbaşına inkişafın mümkün olmadığını, multikultural şüurun və öz maraqlarını dərk edən sosial qrupların rol və əhəmiyyətinin artdığını göstərir.

Azərbaycan bu mühüm proseslə çox spesifik bir şəraitdə üzləşdi. XX əsrin sonlarında imperiya buxovlarından azad olaraq siyasi müstəqillik əldə edən ölkəmiz həm də iqtisadi, mədəni, mənəvi sahələrdə də müstəqilləşərək öz milli-mədəni irsini qoruyub inkişaf etdirmək şansı qazandı. Lakin müstəqilliyini qazandıqdan sonra dövlətimiz vətəndaş müharibəsi ərəfəsində, müstəqilliyini yenidən itirmək təhlükəsi ilə üz-üzə idi. Məhz ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi quruculuq siyasəti Azərbaycan xalqının milli mənəviyyatına əsaslanan milli dövlətin əsaslarını formalaşdırmağa yönəldi. Ulu öndər bununla da milli dəyərlərimizi təkcə milli varlığımızın yox, həmçinin dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirdiyini bəyan etdi.

Məlumdur ki, hər bir xalqın mövcudluğu onun ana dilinə, adət-ənənələrinə, öz mədəniyyətinə, tarixinə bağlılığından asılıdır. Azərbaycan xalqı da bu günədək məhz zəngin milli-mənəvi dəyərlərinə bağlılığı sayəsində özünün mövcudluğunu və özünəməxsusluğunu qoruyub saxlaya bilmişdir.

Xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə gələn ulu öndər Heydər Əliyevin bu məntiqə söykənərək müəyyənləşdirdiyi, milli maraqlara əsaslanan mütərəqqi inkişaf strategiyası ölkədə sabitliyin, demokratiyanın qorunmasına, bərqərar olmasına və davamlı yeni iqtisadi modelin formalaşmasına zəmin yaratdı. Ən əsası isə böyük tarixi şəxsiyyət olan Heydər Əliyev Azərbaycan Prezidenti seçildikdən sonra dövlət müstəqilliyinin möhkəmlənməsi və dönməzliyi təmin olundu. Ulu öndər öz nadir keyfiyyətləri sayəsində həmin mürəkkəb geosiyasi dövrdə ölkəni vətəndaş qarşıdurması və hərcmərclik, dərin iqtisadi, mənəvi və sosial-siyasi böhran vəziyyətindən çıxararaq, onu sabit inkişaf səviyyəsinə qaldırmağa nail oldu. Ona görə də, Azərbaycan XXI yüz ilə möhkəm siyasi, iqtisadi və mədəni təminatlı bünövrə üzərində qədəm qoyaraq milli təhlükəsizliyini, onun mühüm tərkib hissələri olan iqtisadi, enerji, ərzaq və ekoloji təhlükəsizliyini qısa zaman kəsiyində təmin edə bildi və beləliklə, qısa tarixi dövr ərzində qabaqcıl dünya dövlətləri arasında mövqeyinin möhkəmləndirilməsinə yol açdı.

Bu dövrdə Heydər Əliyev müdrik siyasəti ilə həm də Azərbaycanda əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik ənənəsini, multikultural dəyərləri, tolerantlığı, insan hüquqlarının aliliyini özündə ehtiva edən son dərəcə mütərəqqi milli-ideoloji konsepsiyanın konturlarını müəyyən edərək Azərbaycanda multikulturalizm fenomeninin formalaşmasına nail oldu.

Müdrik rəhbər uzaqgörənliklə insan təfəkküründə baş verən böhranlı məqamlar içərisində ən önəmlisinin insan fikrinin və bəşəri ideyaların transformasiyası olduğunu görürdü. Doğrudan da, bu gün qloballaşan dünyada qanunauyğun olaraq mövcud dəyərlərin yenidən qiymətləndirilməsi, nəticələrə yenidən baxılması, çoxüzlü və o qədər də təzadlı reallığın təyin edilməsi cəhdlərini müşahidə edirik. Müxtəlif nəzəriyyələrin inkişafı isə varlığın müxtəlifliyi, fərqliliyi, çoxtərkibliliyi və başqalığı ilə şərtlənir. “Multikulturalizm”, “Multikulturallıq”, “Multikultural cəmiyyət”

anlayışları da son vaxtlar formalaşmış, bununla belə qədim bir mənşəyi olan fenomenin ifadəsidir. Bu gün "mutikultural" adlanan cəmiyyətlər əvvəllər "multimilli", "multietnik", "seqmental" (ing. "segmental" – hissələr. Emil Dürkheymə görə ayrı-ayrı hissələrin müstəqil fəaliyyət göstərdiyi, eyni struktura və funksiyaya malik olduğu cəmiyyət) cəmiyyətlər adlanırdı. Belə cəmiyyətlərə "mədəni plüralizmin" (lat. "pluralis" – çoxlu deməkdir, bir birindən asılı olmayan varlıqların mövcudluğunu bildirir), "mədəni müxtəlifliyin" və "metisasiyanın" (lat. "mixticius" – qarışmaq, qarışıq genlər, qarışıq şəcərə, müxtəlif etnosların və irqlərin nümayəndələrinin populyasiyası) ifadəsi kimi baxılırdı. Multikulturalizm köhnə problemlərin müasir qaydalar əsasında həll olunması istiqamətində irimiqyaslı və uzunmüddətli proqramdır. Burada "etnos" kateqoriyasını "mədəniyyət", "kultura" kateqoriyası əvəz edir. Çünki "kultura" kateqoriyası müasir münaqişəli cəmiyyətlərin düsturunu daha geniş və dəqiq göstərir. Bununla əlaqədar bir çox mədəni məkanlarda zəruri olan multikulturallıq və mədəni çoxtərkiblilik kimi məqamları və nəzəriyyə ilə praktikanın vəhdəti olan multikulturalizmi dərindən dərk etmək lazımdır.

XX əsrin ortalarından başlayaraq bir neçə minillik tarixi olan dünyəvi dövlətlər multikultural dəyərlərin təsiri altında multikulturalizmi tarixi zərurət, alternativi olmayan dövlət siyasəti, tolerantlığın ali forması kimi qəbul edərək tolerant təfəkkür tərzinin inkişaf etdirilməsini günün təxirəsalınmaz tələbi olaraq meydana gətirmişlər. Bununla da insanların mənəvi dirçəlişində, onların sağ qalmasında, davamlı inkişafının təmin olunmasında tolerant təfəkkür tərzinin formalaşdırılması əsas şərtə çevrilmişdir. Tolerantlıq geniş mənada başqasına, başqa mədəni ənənəyə səmimi hörmət və rəğbət ifadəsidir. Tolerantlıq, həmçinin başqalarında mövcud olan dəyərlərin tanınması, başqasının mövcudluğuna xeyirxah münasibət, onunla dialoqa hazır olmaq, həqiqətə aparan yolların müxtəlif olmasının dərk edilməsidir. Tolerantlıq eyni zamanda bir fərdin, bir sistemin digər fərdlərlə və sistemlərlə ünsiyyətə və qarşılıqlı təsirə açıq olmasını ifadə edir. Bununla belə, təəssüflə qeyd etməliyik ki, tolerantlığın nə qədər qədim tarixi olsa da, o hələ də ümumbəşəri dəyər kimi təsdiq edilməmişdir. Həm də tarix sübut edir ki, tolerantlıq heç də bütün xalqların bəşəri ideyası olmayıbdır. Başqa şəxsiyyətin, başqa xalqın, başqa tarixin özünün də yüksək dəyər ifadə etməsini dərk etmək və qəbul etmək çətin prosesdir. Bu əsasən onunla bağlıdır ki, tarixən xalqlar öz milli-mədəni ideyalarını təbliğ edərək inkişaf etmişlər. Müəyyən zaman kəsiyində bu, onlar üçün mütərəqqi əhəmiyyət kəsb edərək, özünüdərk prosesini sürətləndirmiş, unikallığın qorunmasına xidmət etmişdir. Müasir dövrdə isə bəşəriyyət qarşısında başqa bir vəzifə durur – mövcud müxtəlifliyin birliyini qoruyub saxlamaq. Onu isə şəxsi eqonu və müstəsnalığı inkar etmədən yerinə yetirmək mümkün deyil. Bununla bağlı olaraq müasir insan cəmiyyəti çağdaş əlaqələndirici və birləşdirici mexanizmlərin yaradılmasını tələb edir. Hər bir xalqın mədəniyyətinin ən yaxşı nümunələrinə hörmət və başqasının azadlığı çərçivəsi ilə məhdudlaşan özünüifadə azadlığının təmin edilməsi bu mexanizmlərin fundamental elementləri olmalıdır.

Min illər ərzində tolerantlıq və multikulturalizm ənənələrinə sadiq qalan Azərbaycan xalqı bu ümumbəşəri dəyərləri öz tarixinin üzvi elementinə, həyat tərzinə çeviribdir. Azərbaycan tarixinin hansı səhifəsini nəzərdən keçirsək, orada müxtəlif etnosların, fərqli mədəniyyət mənsublarının vahid bir ailədə, bütöv bir orqanizm kimi birgə, əlbir, mehriban yaşadığını görərik.

Tolerantlıq Azərbaycanda milli-mənəvi sərvət, dünya xalqlarına nümunə göstəriləcək bir dəyərdir.

Ümummilli lider Heydər Əliyev, Azərbaycan tarixini çox gözəl bilən bu nadir şəxsiyyət deyirdi: "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki, onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir". Ulu öndər Azərbaycana rəhbərlik etdiyi bütün zamanlarda etnik və milli məsələlərə xüsusi diqqət yetirdiyi üçün multikultural dəyərlərin inkişafında da ciddi irəliləyişlər baş verirdi. Ölkədə sabitliyin və inkişafın təmin olunmasında bu amilin önəmli rol oynadığını əsas götürərək həyata keçirdiyi tədbirlər içərisində etnik-siyasi birliyin möhkəmləndirilməsi məsələsi diqqətdə saxlanılırdı. Bu baxımdan Azərbaycanda çoxlu azsaylı xalqların yaşaması və ümummilli lider Heydər Əliyev obrazının bütün bu xalqları birləşdirməsi təsadüfi deyildir.

Heydər Əliyev tolerantlıq və multikulturalizm siyasətini ölkənin demokratik inkişafının mühüm tərkib hissəsi hesab edir və deyirdi: “Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq”.

Beləliklə, fenomenal düha sahibi olan Heydər Əliyev tolerantlığı və multikulturalizmi nəinki dövlət siyasəti səviyyəsinə qaldırdı, eyni zamanda, son dərəcə gərgin etnik-siyasi və geosiyasi şəraitdə multikultural təhlükəsizliyi təmin edərək milli-etnik siyasətdə dünya dövlətlərinə nümunə olacaq yeni bir modelin – Azərbaycan multikulturalizminin formalaşmasının siyasi əsasını qoydu və ölkədə sabitliyin və davamlı inkişafın hüquqi təminatının da olması istiqamətində ciddi addımlar atıldı. Məhz ulu öndərin sayəsində Azərbaycanda milli azlıqların tarix, ədəbiyyat, mədəniyyət, dil, adət-ənənələrin qorunub saxlanmasına və inkişaf etdirilməsinə ilkin hüquqi zəmin yaradıldı. İlk növbədə, ulu öndərin şah əsəri olan, 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasına dini etiqad azadlığını təmin edən, dövlət-din münasibətlərini tənzimləyən müddəalar daxil edildi. Dövlət quruculuğunun dünyəvi mahiyyət daşıması, dinin dövlətdən ayrı olması, bütün dini etiqadların qanun qarşısında bərabər sayılması, dövlət təhsil sisteminin dünyəvi xarakter daşıması, insan ləyaqətini alçaldan, insanpərvərlik prinsiplərinə zidd dinlərin yayılmasının və təbliğinin qadağan olması barədə müddəalar həmin sənəddə əksini tapdı. Eyni zamanda hər kəsə fikir və söz azadlığı verildiyi, ölkə vətəndaşlarının dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ olduğu bəyan edildi. O vaxtdan dini etiqad azadlığının təmin olunmasına, icmaların dini ayin və mərasimləri sərbəst yerinə yetirməsinə, milli-mənəvi dəyərlərin təbliğinə və tolerantlıq ənənələrinin gücləndirilməsinə diqqət daha da artırıldı. Azərbaycan hökuməti bütün dinlərin nümayəndələrinə dini ayin və mərasimləri sərbəst yerinə yetirmək üçün bərabər imkanlar yaratdı, onların fəaliyyətinə əsassız müdaxilələrin qarşısını aldı. Eyni zamanda missioner təşkilatların və radikal qruplaşmaların fəaliyyətinə nəzarət daha da gücləndirildi.

Azərbaycanda müxtəlif xalqların birgə yaşamaq qaydası, müxtəlif dinlərə münasibət, cəmiyyətdə tolerantlıq mühitinin qorunması kimi məsələlərin müzakirəyə cəlb edilməsi hər zaman aktualdır. Sözsüz ki, ölkəmizdə tolerantlıq ənənələrinin qorunmasında dövlət-din münasibətləri mühüm rol oynayır. Bununla belə Azərbaycanda tolerantlıq mühitindən söz açarkən, ilk növbədə, ölkəmizdə hökm sürən siyasi sabitlik, sosial və iqtisadi inkişaf xüsusi vurğulanmalıdır. Müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayırsa, deməli Azərbaycanın tolerantlıq siyasətinin uğurlu modelinin dünya ictimaiyyətinin diqqətində olması təbiidir. Azərbaycanda müxtəlif inanc sahiblərinin bir-birlərinin dininə hörmətlə yanaşmaları dünya ictimaiyyəti üçün də nümunə ola bilər. Ölkəmiz yəhudilərin, müsəlmanların və xristianların yanaşı ibadət etdikləri məkandır. Azərbaycanda bütün dini konfessiyaların nümayəndələrinin öz dini etiqadlarını, ayinlərini sərbəst və bərabər şəkildə yerinə yetirmək imkanları var və ölkədə məscidlərlə yanaşı pravoslav, katolik, alban kilsələri və yəhudi sinaqoqları fəaliyyət göstərir. Azərbaycan dünyada yeganə dövlətdir ki, burada bir antisemitizm faktı belə qeydə alınmamış, ölkəmizdə yaşayan heç bir xalq assimilyasiyaya məruz qalmamış, onların hər biri öz dinini, ənənələrini, mədəniyyətini qoruyub saxlamışlar.

Multikulturalizmin bir ideya və anlayış kimi yarandığı Avropada isə XXI əsrin əvvəlləri elə multikulturalizmin böhranı, islamofobiya və ksenofobiya meyllərinin güclənməsi, tolerantlığın sıxışdırılması və mədəniyyətlərarası qarşıdurmanın daha da gücləndirilməsi ilə səciyyələnir. Bütün bunların fonunda, təbii ki, tarixən dini və dünyəvi dəyərlərin uzlaşdığı, etnik müxtəlifliyə və fərqli mədəniyyətlərə baxmayaraq, insanların bir arada yaşadığı və inkişaf etdiyi, sivilizasiyaların qovuşduğu məkan olaraq, həm də özünün milli, dini-mənəvi dəyərlərinə bağlılığını qoruyub saxlayan, başqa dinlərin və etnik qrupların nümayəndələri ilə tolerantlıq şəraitində mədəni plüralizm nümayiş etdirən müasir Azərbaycan cəmiyyəti bütün dünyaya nümunə ola bilər. Bütövlükdə isə Azərbaycan dövlətçiliyinin yalnız xalqımıza aid olan milli-mənəvi keyfiyyətlərə söykənməsi və onları qoruması ölkəmizdə dini zəmində qeyri-sabitliyin yaranmasının qarşısına həm də hüquqi sipər çəkmişdir.

Deməli, etnik azlıqların hüquqlarının müdafiəsi Azərbaycanda, eyni zamanda siyasi sabitliyin təminatıdır. Multikulturalizm Azərbaycan dövlətinin dövlət siyasəti, davamlı və ardıcıl həyata keçirilən siyasi kursudur. Bu multikulturalizmin alternativi olmayan möhtəşəm siyasi yol olduğunun, eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəni hüquqlarını tanıyan humanist dünyagörüşünün ən yüksək inkişaf səviyyəsinə çatdığının göstəricisidir. Çünki bu siyasət ayrıca götürülmüş bir ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliyinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına istiqamətlənir. Multikulturalizm də humanist və demokratik prinsiplərə söykənən ideologiya olaraq real humanizm, yüksək fərdi və beynəlxalq münasibətləri, insanlar arasında qarşılıqlı anlaşma, mənəvi zənginləşmə, dostluq və əməkdaşlıq təcəssüm etdirən tolerantlığı nəzərdə tutur.

Multikulturalizm, həmçinin mədəniyyətlərin və sivilizasiyaların dialoqunun çox mühüm mexanizmidir. Lakin o da məlumdur ki, bəzi xalqların nümayəndələri, o cümlədən, mənfur ermənilər bu və ya digər dövlətlərin milli mədəniyyətinə inteqrasiya olmaq istəmirlər. Bu nöqteyi-nəzərdən indi dünyada Azərbaycan multikulturalizmi həm də ənənəvi tolerantlıq siyasətinin ən təkmil modeli kimi qəbul edilir. Azərbaycanın bu sahədə təcrübəsi onu deməyə əsas verir ki, yalnız düşünülmüş multikulturalizm siyasəti nəticəsində ölkənin milli mədəniyyətinə uğurla inteqrasiya olunan müxtəlif xalqlar harmonik inkişaf edə bilər. Çünki məhz mədəniyyətlərin və dinlərin uzlaşdırılması siyasəti nəticəsində ölkəmiz həmişə müxtəlif millətlərin, mədəniyyətlərin və dinlərin inteqrasiya məkanı olmuşdur. Digər tərəfdən, ümummilli lider Heydər Əliyev azərbaycançılıq konsepsiyasının işlənib hazırlanmasına nail olarkən də nəinki Azərbaycanda, həm də xaricdə yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikası ətrafında sıx birliyinin və həmrəyliyinin, vahid azərbaycançılıq ideyasını rəhbər tutaraq səmərəli fəaliyyətinin təmin edilməsini, ölkəmizdə yaşayan icmaların, cəmiyyətlərin və birliklərin işinin əlaqələndirilməsini və gücləndirilməsini nəzərdə tuturdu. Bu məqsədlə 2001-ci ilin noyabr ayında ümummilli liderin sədrliyi ilə Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi və bu hadisə ilə bütün dünyaya bəyan edildi ki, dünyada yaşayan azərbaycanlıların Azərbaycan adlanan bir vətəni var və bu yurd, bu ocaq hamı üçün müqəddəsdir, dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq bu diyarda bütün azərbaycanlıların bəşəri və ilahi haqqı vardır.

Müxtəlif dinlərə mənsubiyyətinə görə ölkə vətəndaşları arasında ayrıseçkilik aparmaması, bütün səmavi dinlərin nümayəndələrinə eyni gözlə baxması, məscid, kilsə və ya sinaqoq olmasına baxmayaraq onların bərpa və tikintisinə dəstək verməsi Heydər Əliyev əzəmətinin və böyüklüyünün, xalqa, onun milli mənəviyyatına olan sevgisinin və ölkəmizdə illər boyu formalaşan tolerantlıq ənənələrinə dərin hörmətin təzahürü idi. Bu gün bu ənənə Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilir.

Beləliklə, multikulturalizm siyasəti görkəmli dövlət xadimi və müdrik siyasətçi Heydər Əliyevin müəyyənləşdirdiyi, Prezident İlham Əliyevin uğurla reallaşdırdığı və zənginləşdirdiyi inkişaf strategiyasıdır.

## Ədəbiyyat


1. Əliyev H. Dinimiz xalqımızın milli-mənəvi sərvətidir. B:, "İrşad mərkəzi", 1999, 165 s.
2. Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. B:, "Azərbaycan Universiteti" nəşriyyatı, 2001, 358 s.
3. Quluzadə M. Azərbaycanda dövlət və din münasibətləri (islam dininin timsalında 1920-2000-ci illər). B:, "Açıq dünya", 2002, 300 s.
4. Mehdiyev R. Tarixi idrakın elmiliyi problemlərinə dair. B:, "Şərq-Qərb" nəşriyyat evi, 2015, 320 s.
5. Şeyxülislam Allahşükür Paşazadə. Qafqazda islam. B:, "Azərnəşr", 1991, 223 s.

UOT 37 (091)

## Milli-mədəni irs – milli sərvətimizdir

*p.f.d., Əməkdar müəllim Məmmədov Sahib Əmirxan oğlu*
*Mingəçevir şəhər Təhsil şöbəsinin müdiri*

Yaşadığımız dünya öz gərginlikləri, siyasi və iqtisadi toqquşmaları ilə insanlar arasında sanki bir vahimə, qorxu durumu yaratmaqdadır. Əslində yalnız Yaxın Şərq deyil, bütün dünyanı sarmaqda olan radikallıq, ifrat mövqeçilik, millətçilik, ksenofobiya, antisemitizm, islamofobiya getdikcə daha böyük əraziləri bürüyür.

Dünyamızın belə bir durumunda müstəqil Azərbaycan dövləti insanlığa barış, qardaşlıq, həmrəylik, xoşgörülülük mesajı verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2016-cı ili Azərbaycanda multikultural ənənələrin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və tətbiqi məqsədilə "Multikulturalizm ili" elan edilməsi buna parlaq nümunədir. Sərəncamda göstərilir: "Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi barədə qərar qəbul etməsi dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətlərinin real ifadəsidir" [1].

Ümummilli lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində demokratiyanın ayrılmaz hissəsi olan multikultural dəyərlər bu gün dövlət siyasətinin ən önəmli istiqamətlərindən birinə çevrilmişdir. Artıq Azərbaycan multikulturalizmi prezident İlham Əliyev tərəfindən müdrikcəsinə inkişaf etdirilməklə dünya üçün bir nümunəyə çevrilib. Azərbaycan tolerantlığın, multikulturalizminin özünəməxsusluğu həm də onun tarixi kökləri ilə bağlıdır. İnsanlar hələ qəbilə-tayfa münasibətləri dövründə belə, ətraf mühiti dərk etməyə can atıb, müəyyən inanclara, əşyalara sitayiş ediblər. Bütün xalqlar bu yolu keçib. Azərbaycanda da multikultural dəyərlər son dərəcə önəmli yer tutub. Çox qədim tarixə malik olan xalqımız da ayrı-ayrı dövrlərdə müəyyən dinlərə sitayiş edib. Bu gün isə Azərbaycan etnosu tam şəkildə islamı qəbul edib, əhalinin 96%-i islam dininin daşıyıcısıdır. Respublikamızda ayrı-ayrı konfessiyalara nəzər salsaq, burada yəhudi, pravoslav, katolik və başqa məzhəblərin nümayəndələrini görə bilərik. Azərbaycan ərazisində müxtəlif dövrlərdə mövcud olmuş dövlətlərdə də multikultural dəyərlərə loyal münasibət bəslənilib. Bu dəyərləri sistemləşdirib, siyasi və hüquqi bir bazanın yaradılması isə XX əsrin sonlarında ümummilli lider Heydər Əliyevə nəsib olmuşdur. Ulu öndər ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra müstəqilliyimizin ilk dövründə bu sahədə dəqiq ideoloji hədəfi seçdi. Belə ki, əsrlər boyu Azərbaycanda formalaşmış çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirib, onu keyfiyyətcə yeni müstəviyə keçirmişdir. Ölkə Konstitusiyasında ulu öndər tərəfindən bununla bağlı imzalanmış sərəncam və fərmanlarda multikulturalizm ideyaları siyasi baxımdan öz əksini tapıb. Qeyd olunanlarla bağlı Konstitusiyanın 25-ci maddəsində bildirilir: "Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı oimayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır" [2].

Azərbaycan xalqı bu bəşəri dəyərləri yüz illərlə qoruyaraq gələcək nəsillərə ötürüb, Azərbaycanda bütün dinlərə və digər millətlərə mənsub olan toplumlara tarixən tolerant münasibət bəslənilib. Tolerantlıq hər kəsin fərqli ifadə tərzinə hörmətlə, ziddiyət təşkil etsə belə, onun fikirlərinə dözümlü yanaşmaqdır. Bu isə Azərbaycanın milli-mədəni, mənəvi dəyərləri, tarixi ənənələri və bütövlükdə türk millətinin xarakteri ilə bağlı olan məsələdir.

Müxtəlif dinlərin, mədəniyyətlərin daşıyıcısı olan xalqlar bəşəriyyətin əsas dəyəri olmaqla dünyamızın rəngarəngliyini təmin edirlər. Hər xalq öz zəngin adət-ənənələrini,

mədəniyyətini, folklorunu, elmi-texniki nailiyyətlərini, bir sözlə milli-mədəni irslərini təqdim etməklə dünyanı daha da zənginləşdirir və bu zənginlik üzərində qlobal inkişaf təmin olunur.

Məhz bu və ya digər səbəblər üzündən də zaman-zaman ayrı-ayrı cəmiyyətlərin qabaqcıl ziyalıları, mütəfəkkir insanları tərəfindən bütün Yer üzünün xalqlarını dostluğa, qardaşlığa səsləyən çağırışlar edilib. Yer üzündə xalqlar, mədəniyyətlər arasında həmrəyliyin gücləndirilməsi ilə bağlı bir çağırış da UNESKO-dan gəlib. Bu təşkilatın 16 noyabr 1995-ci il tarixli qərarı ilə hər il 16 noyabr bütün dünyada Beynəlxalq Tolerantlıq Günü kimi qeyd edilir. Beləliklə, həmin vaxtdan etibarən dünya müxtəlif dinlərə və sivilizasiyalara məxsus insanların planetimizdə birgə yaşamasının mümkünlüyünü qeyd edir.

Bu gün yaxın Şərqdə və Avropada müxtəlif sivilizasiyaların qarşı-qarşıya gəlməsinin insanlığa zidd olan acı fəsadlarına şahidlik etmək dərin təəssüf hissi doğurur. Demokratik dəyərləri ilə öyünən bir sıra ölkələrdə məhz dərisinin rənginə, fərqli inanclarına görə insanların qətlə yetirilmələri, onların təhsil və digər hüquqlarının müxtəlif qadağalarla məhdudlaşdırılması, xaricdən gələn məqsədyönlü ssenarilər əsasında öz ölkələrində rahat həyatları pozulan miqrantların qarşısına sığınmaq istədikləri dövlətlərdə keçilməz divarlar hörülməsi, uşaqların, qocaların, qadınların zorla geriyə – müharibənin, od-alovun içinə göndərilməsi bizi bəşəriyyətin gələcəyi barədə daha ciddi düşünməyə sövq edir.

Dünyadakı belə kədərli mənzərə fonunda multikultural və tolerantlıq çağırışlarının aktuallığı daha da artıb. Xalqları, dinləri, mədəniyyətləri ayıran deyil, birləşdirən cəhətləri təbliğ etməklə dünyanı yeni qütbləşmələrdən xilas etmək mümkündür. Xalqımızın mənəvi zənginləşməsində, dünya xalqları arasında öz rolunu və mövqeyini qoruyub saxlamasında mədəniyyətimizin əvəzsiz rolu olmuşdur. Hər bir xalq qədimdən süzülüb gələn adət-ənənələri ilə digərlərindən fərqlənir, seçilir. Bizim də özümüzə məxsus xeyli adət-ənənələrimiz var. Bu gün bizim bəşər mədəniyyətini zənginləşdirən mədəniyyət xadimlərimizlə, milli-mədəni irsimizlə fəxr etməyə hüququmuz var. Azərbaycan uzun illər SSRİ-nin tərkibində olsa da, xalqımız öz mədəniyyətini, milli-mədəni dəyərlərini ləyaqətlə qoruyub saxlaya bilmişdir. Biz ənənələrimizə bağlı xalqıq. Hər bir xalqı, milləti yaşadan və mövcudluğunu şərtləşdirən səbəblərdən biri də onun adət-ənənələri, milli-mədəni irsidir. Adət-ənənələrimiz hər zaman mövcud olmalıdır. Ənənələrimiz uzun illər ərzində qəlibləşərək bu günümüzə gəlib çatıb. Bu günədək onları, müxtəlif təzyiqlərə baxmayaraq, qoruyub bizə çatdırıblarsa, elə də onları gələcək nəslə çatdırmalıyıq. Biz onları yazılmayan qanunlar adlandırırıq. Elə şeylər var ki, onları dillə demək, qanunla yoluna qoymaq olmur. Məsələn, heç bir qanunda insanların bir-birinə yaxşılıq etməsi barədə maddə yoxdur. Qədim zamanlarda bəzi insanlar bir-birinə əl tutmağa, kömək etməyə çalışıb. Adət-ənənələrimizin hər birinin qayəsində əl tutmaq, yardım etmək, kədərinə və sevincinə şərik olmaq anlamı dayanır.

Xalqımızın mənəviyyatında və məişətində minilliklərlə yaşatmış olduğu, böyük çoşqu və şövqlə sevə-sevə qeyd etdiyi ən qədim bayramlardan biri və bəlkə də birincisi Novruzdur. Həyatın başlanğıcı qədim Şərq fəlsəfəsində dörd ünsürün vəhdəti şəklində qəbul edilir: od, su, hava və torpaq. Bahar bayramı həyatın yenilənən yaranışı, doğuşu kimi təzahür olunur. Təbiətin canlanması, bütün ağacların çiçəklənməsi, kol və bitkilərin yaşıllaşması, əkin işlərinin başlanması məhz baharda başlayır. Bu təbiət hadisəsinin müdrik xalqımız tərəfindən hər il qeyd edilməsi və həmçinin insanların yaxınlarını təbrik etməsi, küsülülərin barışması, günahların əhv edilməsi, zaman-zaman müxtəlif el deyimi, məsəllərdə formalaşmışdır. Azərbaycanın folklor, musiqi və təsviri sənət əsərlərində Novruz adət-ənənələri geniş və hərtərəfli şəkildə təzahür etdirilmişdir. Ulu öndər Heydər Əliyev Novruz bayramı ilə əlaqədar demişdir: “Novruz bizim ümummilli bayramımızdır. Mən hesab edirəm ki, indi artıq müstəqil Azərbaycan üçün bu bayramdan əziz bayram ola bilməz” [3].

Bütün bunlar bir daha təsdiq edir ki, yüz illər boyu yüksək mənəvi-əxlaqi və etnik-dini tolerantlıq ənənələrinin qorunub saxlandığı Azərbaycanda ayrı-ayrı xalqlar, dinlər və etiqadlar arasında qarşılıqlı hörmət, etimad və qardaşlıq münasibətləri mövcuddur. Onlar bütün əlamətdar günləri, o cümlədən multikultural ənənələrin daşıyıcısı olan Novruz bayramını böyük coşqu ilə qeyd edirlər. Bu baxımdan Novruz həm də onların bir araya gəlməsində mənəvi bağlantı olaraq geniş imkanlar yaradır. Eyni zamanda, xalqımız tarixin bütün mərhələlərində olduğu kimi, digər

xalqların mədəni ənənələrinə də hörmətlə yanaşmışdır. Müstəqil Azərbaycan dövlətinin multikultural dəyərlərə söykənən mədəni nailiyyətləri xalqımızın uzun illər yaşatdığı, nəsillərdən nəsillərə ötürdüyü milli-mədəni dəyərlərin əsasında formalaşmaqdadır.

Hər bir ölkənin yerləşdiyi coğrafi məkan, o yerin relyefi, hətta iqlimi belə buradakı insanların yaşayış tərzinə bu və ya digər şəkildə öz təsirini göstərir. Coğrafi baxımdan Avropa və Asiya qitələrinin sərhəddində yerləşən müasir Azərbaycan tarixi keçmişdə müxtəlif sivilizasiyaların: Əhəməni – Sasani, Roma – Bizans, Skif – Xəzər, Türk – Oğuz mədəniyyətlərinin kəsişməsində məkan tapıb. Əlverişli coğrafi şəraitdə yerləşməsi və zəngin təbiəti hələ qədim dövrlərdən bu ərazinin geniş yaşayış məskəninə çevrilməsinə səbəb olub. Bu gün Azərbaycan etnoqrafik rəngarəngliyi ilə seçilir. Azərbaycan türkləri ilə bərabər dağ yəhudiləri, tatarlar, talışlar, kürdlər, molokanlar, ingiloylar, saxurlar, avarlar, ləzgilər, xınalıqlar, buduqlular, qrızlar kimi etnik qruplar birgə yaşayırlar. Qeyd olunan etnik qrupların nümayəndələri özlərini azərbaycanlı saysalar da, hər bir qrup özünəməxsus fərqli mədəniyyətin elementlərini qoruyub saxlayır. Bu mədəniyyət məişət həyatında, sənətkarlıqda, mətbəxdə və müxtəlif mərasimlərdə öz əksini tapmaqdadır. Milli azlıqların hər birinin inkişaf yolu Azərbaycanla bağlıdır. Sevincini, kədərini, uğurunu yerli xalqla bölüşən bu azlıqları həm də əsrlərin ruh birliyi qovuşdurur. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva çıxışlarının birində bildirmişdir: "Ölkəmizin mədəniyyəti burada yaşayan xalqların qarşılıqlı birliyinin, sintezinin qovuşuğudur. Əgər onlar olmasaydı, mədəni irsimiz belə zəngin, mükəmməl olmazdı. Bundan sonra min il də keçsə, milli azlıqlarla azərbaycanlılar həmişə bir yerdə olacaqlar" [4].

Bizim mədəniyyətimiz, əxlaqımız bu istiqamətə yönəlmişdir. Bizim düşüncəmiz belədir ki, din ayrı, millət ayrı olan xalqlar bir-biri ilə mehribanlıq, dostluq şəraitində yaşamalıdır. Onda tərəqqi də, inkişaf da olacaq. Biz azərbaycanlılar gözümüzü dünyaya açandan ətrafımızda digər millətlərin nümayəndələrini görmüşük və onlara öz doğmalarımız kimi baxmışıq. Bunu bizə daha çox multikultural mədəniyyətimiz təlqin edib.

Ölkəmizdə multikultural dəyərlərə söykənən mədəniyyət formalaşmışdır. Bizim Azərbaycanda yaşayan millətlərlə ortaq mədəni dəyərlərimiz var. Bunu yaradanlar bu millətlərin sənətçiləri – bəstəkarları, rəssamları, kino xadimləri və başqalarıdır. Böyük Nizamidən başlayaraq, ədəbiyyat və incəsənət əsərlərində bu ideyaların təbliğinə məxsusi yer ayrılıb. Yəqin ki, çoxumuz udilər haqqında kinorejissor Hüseyn Mehdiyevin "Udilər" filminə baxmışıq. Filmdə udilərin həyat tərzi, məşğuliyyəti, ən əsası isə Azərbaycanda özlərini rahat hiss etmələri çox maraqlı faktlarla tamaşaçılara çatdırılır. Bu yaxınlarda rejissor Oqtay Mirqasımovun ekranlara çıxarılan "Qisas almadan ölmə. Keçmişdən məktublar" filmi isə alman-azərbaycan xalqlarının dostluğuna qiymətli töhfədir. Azərbaycanda yaşayan ləzgilər, ruslar və yəhudilər haqqında da belə əsərlər yaradılmışdır. Tarixi hadisələr də təsdiqləyir ki, Azərbaycandakı multimədəniyyətli cəmiyyətlər xalqlar arasındakı dostluq və həmrəylik daimi dəyərlərimizdəndir. Bu dəyərlər müxtəlif dövrlərə aid bədii əsərlərdə yer almışdır. Müxtəlif millətləri təmsil etsələr də bir-birini ülvi məhəbbətlə seçən gənclərin həyat hekayəsi bədii həyatımızda da əksini tapmışdır. Xalq yaradıcılığının təkrarolunmaz nümayəndələrindən olan tanınmış və bədii təxəyyülün nəticəsi olsa da qaynağını, süjetini real həyatdan alan "Əsli və Kərəm" dastanında, "Şeyx Sənan", "Bahadur və Sona", "Məryəm və Mahmud", "Əli və Nino" kimi əsərlərdəki hadisələr cəmiyyətin, ətraf mühitin təsir və təzyiqlərinə baxmayaraq gənclərin sonda qalib gələn saf duyğuları müasir dövrə xas olan multikulturalizmin ölkəmizdə tarixən mövcud olduğunu göstərən nümunələrdəndir. Bütün bunlar Azərbaycanın multikultural dəyərlərə sadiqliyinin ifadəsidir.

Dünyada milli-dini-irqi müxtəlifliyə münasibətdə müşahidə edilən neqativ mənzərə ilə müqayisədə Azərbaycandakı vəziyyət tamam fərqlidir. Hazırda Azərbaycan əhalisinin 96%-ni müsəlmanlar, 4%-ni xristian, yəhudi və digər dinlərin nümayəndələri təşkil edirlər. Respublikamızda 597 dini icma var, onlardan 21-i qeyri-müsəlman icmasıdır.

Lakin belə rəngarəngliyə baxmayaraq, ölkəmizdə müxtəlif dinlərə və mədəniyyətlərə məxsus insanlar arasında heç bir fərq qoyulmur. Deyilənlərin təsdiqi olaraq qeyd etmək yerinə düşər ki, bu gün Azərbaycanda yeddi sinaqoq, iki yəhudi orta məktəbi, bir "işiva" kolleci, üç uşaq bağçası və

Yəhudi evi fəaliyyət göstərir. Respublikamızda Pravoslav Dini – Mədəni Mərkəzi açılıb. Azərbaycanda udilərə məxsus abidələr yüksək səviyyədə bərpa olunaraq inanclı insanların istifadəsinə verilib. Cəmi 500 nəfərlik katolik icmasının üzvlərinə öz dini etiqadlarını qorumaları üçün hər cür şərait yaradılıb, onların toplaşdıqları kilsə sərbəst şəkildə fəaliyyət göstərir.

Deyilənlərdən də aydın olduğu kimi, dünyaya yüksək multikultural, tolerantlıq, mədəni müxtəliflik, dini dözümlülük nümayiş etdirməsi ölkəmizin mənzərəsini fərqləndirən əsas cəhətlərdən biridir. Əlamətdar haldır ki, Azərbaycanda tarixi ənənələrlə, milli-dini-mədəni müxtəlifliyə münasibətdə cəmiyyətdən gələn sosial sifaişlərlə dövlətin həyata keçirdiyi siyasət bir-birini tamamlayır. Ölkənin ayrı-ayrı regionlarında müxtəlif mədəniyyətlərin daşıyıcısı olan ailələr o qədər qaynayıb qarışıblar ki, onları fərqləndirmək belə çox çətindir.

Tarix boyu müxtəlif mədəniyyətlərin, dinlərin, millətlərin, etnik qrupların qarşılıqlı hörmət şəraitində yaşadığı ölkəmiz yeraltı və yerüstü sərvətləri ilə yanaşı, milli-mədəni sərvəti ilə də fərqlənir. Bu haqda danışan və ya nə isə yazmaq istəyən istənilən azərbaycanlının üzü həm tarix, həm də onu dinləyənlər qarşısında ağdır. Çünki biz tarix boyu həm dini, həm də milli baxımdan özümüzü kimdənsə üstün tutmamış, hamının haqqını tanımış, ədalətli mövqe nümayiş etdirməyə çalışmışıq. Azərbaycanda yaşayan hər kəsin vətəndaşlığına, dininə, mədəniyyətinə hörmətlə yanaşmağı bacarmışıq. Cəsarətlə və fəxarətlə deyə bilərik ki, bu tendensiya və ya ənənə, ayrı-ayrı şəxslərin istəyinə, yaxud hansısa siyasətə xidmət etməyib. Bu, bizim xalqımıza təbiətin verdiyi yüksək keyfiyyətlərdən biridir – milli sərvətimizdir. Son iki əsrdə birgə yaşadığımız bədnam qonşularımız bizim etibarımızdan, inancımızdan sui-istifadə edərək bizə qarşı dəfələrlə çirkin addımlar atsa da, bu milli-mədəni dəyərlərimizdən olan təbii multikurallıq və tolerantlıq hislərimizə xələl gətirməyib və heç zaman heç birimizin təfəkküründən pozulmayıb.

Ulu öndərimiz, ümummilli lider Heydər Əliyev demişdir ki, Azərbaycanın zənginliyi həm də burada yaşayan müxtəlif xalqların sayının çoxluğu ilə səciyyələnir. Bu gün ölkəmizdə mövcud olmuş tolerantlıq və multikulturalizm mühitinin daha da güclənməsində ulu öndər Heydər Əliyevin böyük xidmətləri olub və bu siyasət dövlət başçısı İlham Əliyev tərəfində uğurla davam etdirilir. Cənab prezidentin “Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır” [5] fikirləri, həmçinin 2016-cı ili “Multikulturalizm ili” elan etməsi də dövlətimizin hümanizmə, birgə yaşayış ənənələlərinə verdiyi dəyərin bariz nümunəsidir. Planetimizin əksər bölgələrində dini və etnik zəmində gedən bir sıra münaqişələrin əksəriyyəti məhz multikultural dəyərlərə, onun tərkib hissəsi olan tolerantlıq prinsipinə riayət olunmamasından irəli gəlir. Həmin bölgələrdə terrora və qarşıdurmalara rəvac verən əsas amillərdən biri də multikulturalizmin və tolerantlığın lazımi səviyyədə inkişaf etməməsidir. Dövlət başçısı cənab İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunda səsləndirdiyi, “Multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu, ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir” [6] fikirləri də ölkə rəhbərinin multikulturalizmə böyük önəm verdiyinin və onu dövlət siyasətinin priotitet istiqamətlərindən biri hesab etdiyinin göstəricisidir.

Ölkəmizin və xalqımızın sahib olduğu multikultural dəyərlərin, tolerantlıq ənənələrinin beynəlxalq ictimaiyyətə təqdim edilməsində Azərbaycan dövləti ilə yanaşı, dünyada maddi və qeyri-maddi irsin qorunmasında və təbliğində mühüm işlər görən Heydər Əliyev Fondunun da böyük əməyi var. Azərbaycanın milli-mənəvi irsinin inkişaf etdirilməsi və dünyada tanıdılmasına yönələn tədbirlər fondun fəaliyyətində mühüm yer tutur və bu istiqamətdə xarici ölkələrdə ardıcıl olaraq tədbirlər həyata keçirilir. Mehriban Əliyeva özü bu barədə belə demişdir: “Biz, azərbaycanlılar öz qədim və zəngin tariximiz və mədəniyyətimizlə fəxr edirik, dünyada Azərbaycanı əsrlər boyu mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu sülhsevər, qədim və bərəkətli bir torpaq kimi tanıtmaq istəyirik” [7].

Azərbaycan mədəniyyətinin hamisi olan Mehriban xanımın təşəbbüsü ilə Bakıda Müasir İncəsənət Muzeyi yaradılmışdır ki, bu da incəsənətin modern janrlarının inkişafına və bu sahədə ölkəmizin dünya mədəniyyətinə inteqrasiyasına böyük imkanlar yaratmışdır. Dünyanın məşhur musiqiçilərini – tanınmış ifaçıları, bəstəkarları bir araya gətirən, Şərq və Qərb musiqisinin vəhdətini

yaradan Qəbələ Beynəlxalq Musiqi Festifalı da hər il məhz Heydər Əliyev Fondunun dəstəyi ilə baş tutur.

Qədim və zəngin musiqi mədəniyyətinə malik olan Azərbaycanın qiymətli musiqi nümunələrindən biri kimi muğamın qorunması, yaşadılması və dünyada tanıdılması istiqamətində son illərdə həyata keçirilən məqsədyönlü tədbirlər də Mehriban xanımın adı ilə bağlıdır. Məhz möhtərəm prezidentimiz İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın səmərəli səyləri nəticəsində Qobustan Dövlət Tarixi – Bədii Qoruğu, İçərişəhər, Qız qalası, Şirvanşahlar Sarayı Kompleksi YUNESKO-nun Dünya Mədəni İrs Siyahısına; Azərbaycan muğamı, aşıq sənəti, xalçaçılıq sənəti, tar ifaçılığı və hazırlanması sənəti, eləcə də Novruz bayramı YUNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

Heydər Əliyev Fondunu dəstəyi ilə davamlı olaraq keçirilən Respublika muğam müsabiqəsi və Beynəlxalq Muğam Festifalı gənclərdə muğam sənətinə marağı artırmaqla yanaşı, milli musiqimizi beynəlxalq aləmdə daha yaxşı tanıdır. “Qarabağ xanəndələri” adlı nəfis albomun buraxılması isə milli musiqimizə qayğının təzahürü olmaqla yanaşı, həm də Qarabağ həqiqətlərinin dünyaya nümayişi baxımından da böyük əhəmiyyətə malikdir.

Heydər Əliyev Fondu hər il dünyanın müxtəlif ölkələrində mədəniyyətimizin təbliği çərçivəsində Azərbaycan mədəniyyəti günləri təşkil edir ki, Mehriban Əliyevanın dediyi kimi, bu, insanların və xalqların bir – birini daha dərindən tanıması, daha doğru anlaması üçün əvəzsiz bir vasitədir.

Müstəqilliyinin 25-ci ilini yaşayan, inkişaf edən Azərbaycan Respublikası bir dövlət olaraq tarixi irsimizə, mədəni, mənəvi dəyərlərimizə əsaslanan təməl üzərində inkişaf etməkdədir. Bu baxımdan, ölkəmizin tarixi, mədəni, elmi irsinin öyrənilməsi və təbliği aktuallıq kəsb etməkdədir. Bildiyimiz kimi Azərbaycan özünəməxsus qədim maddi və mənəvi irsi, mədəni dəyərləri olan bir ölkədir. Milli mədəniyyətin qorunması və inkişafı həm də milli dövlətçiliyin möhkəmləndirilməsi deməkdir. Müxtəlif tarixi şəraitlərlə üzləşən Azərbaycan xalqı ana dilinə, adət- ənənələrinə, mədəniyyətinə, ədəbiyyatına, tarixinə, eləcə də milli-mənəvi dəyərlərinə bağlılığı sayəsində bu günədək özünün milli identikliyini, özünəməxsusluğunu qoruyub saxlaya bilib. Bunun nəticəsidir ki, xalqımız tərəfindən əsrlər boyunca yaradılan və yaşadılan milli-mənəvi irsimizin böyük bir hissəsi bu gün cəmiyyət həyatının müxtəlif sferalarında qorunub saxlanılır və dövlətin siyasətində də əksini tapır.

Xatırladaq ki, dövlət başçısı 2013-cü il noyabrın 24-də mətbuat nümayəndələri ilə görüşündə də milli dəyərlərin qorunmasının vacibliyini vurğulayıb: “Biz öz milli və dini adət-ənənələrimizi qorumalıyıq, saxlamalıyıq və gələcək nəsillər, gənc nəsil də milli ruhda böyüməlidir” [8].

Bu nöqteyi nəzərdən təsadüfi deyil ki, respublikamızda maddi-mənəvi irsin qorunması dövlət tərəfindən həm qanunvericilik, həm də praktik tədbirlər səviyyəsində təmin olunur.

Xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsi, ölkəmizdə dövlət və din arasında anlaşmanın bütün dünya üçün parlaq bir örnəyinin yaradılması bu gün Azərbaycan prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin mühüm nailiyyətləri sırasında yer alır. Bütün bunlar dünyada islam həmrəyliyinin gücləndirilməsinə, beynəlxalq səviyyədə islam dəyərlərinin müdafiəsinə böyük töhfə verir. Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində ölkəmiz tolerantlıq, multikulturalizm və dini maarifləndirmə ilə bağlı regional və beynəlxalq konfransların, yüksək səviyyəli forumların keçirildiyi əsas məkana çevrilib.

Son illər dövlətimiz tərəfindən tarixi-mədəni irsimizin yaradılmasına və milli-mənəvi dəyərlərimizin dirçəlməsinə xüsusi qayğı ilə yanaşılaraq dini ziyarətgahların əsaslı təmirinə və yenidən qurulmasına böyük diqqət yetirilmişdir. Bunun nəticəsidir ki, Təzəpir, Bibiheybət, Əjdərbəy məscidlərində, “İmamzadə” kompleksində geniş tikinti və yenidənqurma işləri həyata keçirilib. “İmamzadə”ni bütün müsəlman aləminin qiymətli, dəyərli abidəsi adlandıran dövlət başçısı deyib: “Azərbaycan xalqı əsrlər boyu ictimai-siyasi quruluşdan asılı olnayaraq bu abidəni qorumuşdur, qoruyur və bundan sonra da qoruyacaqdır. “İmamzadə” bizim milli sərvətimizdir” [9].

Milli sərvətimiz olan milli-mədəni irsimizin qorunması və gələcək nəsillərə çatdırılması bütün dövrlərdə öz aktuallığını qoruyub saxlayan vacib məsələlərdən biridir. Çünki bu dəyərlərin

əsrlər boyu xalqımızın formalaşmasında, inkişafında böyük təsiri olduğu kimi, dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu var. Bu gün milli dəyərlərimiz xalq tərəfindən dövlətin himayəsi altında qorunur, daha da inkişaf etdirilir. Bu mənada Azərbaycan öz milli mədəniyyəti, mənəvi dəyərləri, tarixi keçmişi, adət-ənənələri ilə fəxr etməyə layiq az sayda dövlətlərdən biridir.

**Ədəbiyyat**:


1. 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 11.01.2016
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2015
3. Azərbaycanın dövlət müstəqilliyinin 10-cu ildönümünə həsr olunmuş müşavirədə Azərbaycan Prezidenti Heydər Əliyevin giriş və yekun nitqi. Bakı, 02.10. 2001
4. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda çıxışı. Bakı, 2011
5. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı. Bakı, 10.01.2016
6. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunda çıxışı. Bakı, 02.10.2014
7. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESCO-nun xoşməramlı səfiri. Milli Məclisin deputatı Mehriban Əliyevanın Azərtac-a müsahibəsi, 20.03.2008
8. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mətbuat nümayəndələri ilə görüşü. Bakı, 24.11.2013
9. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gəncədə "İmamzadə" dini kompleksində nitqi. Gəncə, 17.02.2016


UOT 008:316.722

## Qloballaşma və mədəni inteqrasiya şəraitində milli-mənəvi dəyərlərin təbliği məsələləri

*fil.f.d., Əməkdar müəllim İsmayılov Mayıl Yolçu oğlu*
*Mingəçevir Dövlət Universitetinin*
*Dillər və ədəbiyyatın tədrisi kafedrasının müdiri*

*Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər heç vaxt vətəninə, xalqına ögey münasibət bəsləməz. Gənclərimiz bizim tariximizi, dilimizi, keçmişimizi, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz.*

***Ümummilli lider Heydər Əliyev***

Bu bir həqiqətdir ki, XXI əsrin ilk onilliklərində sürətlə inkişaf edən və yayılan informasiya-kommunikasiya texnologiyaları və bununla bağlı geniş vüsət almış qlobal, planetar xarakterli amillər ölkələrin iqtisadi həyatına nə dərəcədə təsir edirsə, sosial həyat normalarına da, humanitar-mədəni dəyərlərə də bir o dərəcədə təsir göstərir.

Biz istəsək də, istəməsək də qloballaşma nəticəsində sərhədlərin açılması, televiziyanın "dünyanı böyük bir kəndə çevirməsi" (Maklüen), insanları,ölkələri, mədəniyyətləri, adət-ənənələri, bir sözlə, milli-mənəvi dəyərləri eyniləşdirməyə və yekcinsliyə doğru aparır. Belə olan halda milli-mənəvi dəyərlərin qorunub saxlanması və təbliği müasir dünya siyasətində qlobal, regional və lokal

proseslərlə bağlı olduğundan ölkəmiz üçün də xüsusi aktuallıq kəsb edir. Ümummilli liderimiz Heydər Əliyevin dövlət müstəqilliyimizlə bağlı söylədiyi bir obrazlı fikri milli-mənəvi dəyərlərimizə şamil edib deyə bilərik ki, milli-mənəvi dəyərlərimizin varlığı nə qədər şərəflidirsə, onları qoruyub saxlamaq və təbliğ etmək ondan da şərəfli və məsuliyyətlidir.

Bu gün qürur doğuran hal odur ki, o nəinki Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyini təmin etdi, eyni zamanda müstəqilliyimizin və dövlətçiliyimizin təməl prinsiplərini, Azərbaycançılıq məfkurəsini, milli-mənəvi dəyərlərimizi irs olaraq müəyyənləşdirdi.

Beləliklə, ölkəmizin inkişaf konsepsiyasında "Vətəndaş cəmiyyətinə yol açan ideyalar"ın (Ak. Ramiz Mehdiyev), milli-mənəvi dəyərlərin nəzərə alınması müstəqil Azərbaycan Respublikasında dövlət siyasətinin tərkib hissəsinə çevrildi.

Bəs bəşəri dəyərlərlə milli dəyərlərin çulğalaşması və sintezi zamanı gündəmə gələn prosesləri necə səciyyələndirmək olar? Bəs vətəndaş cəmiyyətinə yol açan əsas ideyaların mənbəyi və hərəkətverici qüvvələrini necə müəyyənləşdirməli?

Bütün bunlarla bağlı qloballaşma prosesinin tələbləri və diqtəsi nədən ibarətdir?

Sosioloji təhlil göstərir ki, bu kimi sualların müsbət cavabı və həlli bir sıra amillərlə şərtlənir:

1. Dil, din, mədəniyyət, adət-ənənə;
2. Dövlət və cəmiyyət;
3. Cəmiyyətin sosial-iqtisadi və siyasi inkişafı;
4. Milli ideologiya;
5. Milli mentalitet;
6. Milli-mənəvi dəyərlər və varislik;
7. Gənc nəslin mənəvi-əxlaqi tərbiyə sistemi;
8. Şəxsiyyətin mənəvi yüksəlişi problemi;
9. Milli-mənəvi dyərlər və xalq mənəviyyatı və s. və ilaxır....

Müasir dünyada milli-mənəvi dəyərlərimiz milli varlığımızın, milli kimliyimizin, ən əsası dövlət quruculuğumuzun fövqündə duran siyasi varlığımızın, əxlaqi paklığımızın atributlarına çevrilmişdir. Çünki "Mənəvi paklıq həmişə insanı ucaldır, ona hörmət qazandırır" (Heydər Əliyev).

Bu gün milli-mənəvi dəyərlər kontekstində dil, din, adət-ənənələrlə bağlı dövlət səviyyəsində həyata keçirilən tədbirlər bir daha sübut edir ki, mənəvi dəyərlərimiz təkcə milli varlığımızın deyil, həm də siyasi varlığımızın, dövlət quruculuğu prosesinin mühüm atributlarındandır.

XX əsrin 60-cı illərinin sonunda təkcə Novruz bayramının dövlət səviyyəsində keçirilməsində nə kimi çətinliklər yaşanması yaşlı nəslə yaxşı məlumdur.

Bir faktı xatırlamaq yerinə düşər ki, həmin dövrdə Novruz bayramının keçirilməsi Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərlik edən Heydər Əliyevin xeyir duası ilə baş tutmuşdur. Üstündən illər ötəndən sonra Heydər Əliyev ona ünvanlanan "Ən çox sevdiyiniz bayram?" sualına məhz "Novruz" deyə cavab vermişdi.

Qloballaşma prosesi milli-mənəvi dəyərlər sisteminə öz təsirini göstərməklə qalmır, əsrlər boyu şüurlarda Qərb və Şərq mədəniyyətləri kimi formalaşmış sterotipləri, başqa sözlə, təbii nizamı pozur. Müasir qlobal cəmiyyətdə "Mədəni ekspansiya" baş verir. Xüsusilə milli dilə, dini dünyagörüşə, adət-ənənələrə güclü dəyişdirici təsir göstərir. Dilimizin saflığını qorumaqla yanaşı, digər dəyərləri də gələcək nəsillərə ötürmək hər bir şəxsin müqəddəs vəzifəsi olmalıdır.

Xalqımızın simasının aynası hesab edilən bayram adət-ənənələri, toy, yas mərasimləri, islam dininin, islam əxlaqının bəşəri hissləri bu qəbildəndir.

Nahaq yerə deyilmir ki, mənəviyyat insanın olduğu kimi görünməsi və göründüyü kimi olmasıdır. Xalqın mənəviyyatı isə onun daxili zənginliyini xarakterizə edir, onun gələcək nailiyyət və tərəqqisini şərtləndirən amilə çevrilir. Mənəviyyatca zəngin xalq ümummilli mənafeni önə çəkməyi, bu yolda hər cür çətinliyə dözməyi bacarır və düzgün qərar verməklə zamanın sınaqlarından üzüağ çıxa bilir. Məhəmməd Peyğəmbər insanın mənəviyyatına böyük əhəmiyyət verir və deyirdi: "Millətim üçün üç şeydən qorxuram: alimin xətasından, münafiqin Quran haqqında cəfəng danışığından və mənəviyyatı məhv edən mühitdən" [4].

Eyni fikri ümummilli liderimiz Heydər Əliyev belə ifadə etmişdir: "Mən Azərbaycan xalqının yüksək mənəviyyatını xalqımızın böyük sərvəti hesab edirəm. Tarixi mənəvi irsə diqqətlə...

yanaşmaq lazımdır. Biz keçmişin təcrübəsinə və nailiyyətlərinə daha çox irəliləmək, inkişaf etmək üçün müraciət edirik” [1].

Sevindirici haldır ki, prezidentimiz İlham Əliyev bu sahədəki varisliyə tam sadiqdir. Ölkəmizdə dövrün müasir çağırışları kontekstində həyata keçirilən bütün quruculuq işlərində onun göstərdiyi dəyanət və təşəbbüskarlıq qürur doğurmaya bilmir. Onun haqlı olaraq dediyi – “Dünyada qloballaşma prosesi gedir. Biz bu vəziyyətə özümüzü uyğunlaşdırmalıyıq. Bir-birimizlə bağlı olmalıyıq, bir-birimizin əlini möhkəm tutmalıyıq ki, gücümüz daha da artsın” sözləri təkcə bu günə çağırış deyil, xalqa, xalqın gələcəyinə, vətənin bütövlüyünə inamın, etibarın etirafıdır. Bəllidir ki, dövlət və cəmiyyət uzun bir tarixi prosesin məhsuludur. Cəmiyyət inkişaf etdikcə, milli – mənəvi dəyərlər, əxlaq və davranış normaları daha da zənginləşir, yenilənir və mürəkkəb mahiyyət alır. Belə olan halda biz nəyi qorumalı, nədən imtina etməliyik? Biz nəyi qəbul etməli, nədən qorunmalıyıq?

Qeyd edildiyi kimi, xalqımızın zamanın sərt sınaqlarından çıxmış dilinə, dininə, əxlaqi dəyərlərinə, mədəniyyətinə, adət-ənənələrinə dövlət səviyyəsində göstərilən qayğı fərəh doğurur. Sevindirici haldır ki, mənəvi dəyərlərimizin qorunub saxlanması və inkişaf etdirilməsi dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir. Mədəni-iqtisadi islahatlarla yanaşı, milli-əxlaqi dəyərlərimizə, tariximizə qayıdış, xarici ölkələrin mütərəqqi təcrübəsindən bəhrələnmək, demokratik mədəniyyət siyasəti xətti yeritmək və müasir dünya mədəniyyətinə inteqrasiyanın zəruriliyi ilə eyni kontekstdə həyata keçirilir.

Bir məsələyə də münasibət bildirməyi vacib sayırıq. Bu günə qədər dərsliklərimizdə “gənclərin mənəvi tərbiyəsindən” bəhs edərkən yalnız uşaq və yeniyetmələrin mənəvi tərbiyəsi ön plana çəkilir, mahiyyəti yalnız həmin çərçivədə başa düşülürdü.

Ancaq Heydər Əliyev irsi bizi öyrədir ki, milli-mənəvi tərbiyə ilə bağlı qarşıda duran vəzifələri müəyyənləşdirərkən mənəvi tərbiyə sistemi və bu sistemdə Azərbaycan cəmiyyətinin bütün nəsillərinin mənəvi tərbiyəsini əhatə edən kompleks məsələlər önə çəkilməlidir. Başqa sözlə, bu sistemin prioritet istiqamətləri Azərbaycan gənclərinin bütün təbəqələrini əhatə etməlidir. Bu zaman millətin tarixi yaddaşı, mədəniyyəti, adət-ənənələri, tarixi itkiləri və nailiyyətləri, müvəffəqiyyətləri, uğurları, qələbələri və məğlubiyyətləri məqsədyönlü və metodoloji baxımdan müasir təfəkkür müstəvisinə çıxarılmalı və elmi cəhətdən əsaslandırılmalıdır.

Bununla əlaqədar cəmiyyət həyatının mənəvi və əxlaqi tərbiyəsinin nəzəri və praktiki məsələləri, ideya, mənəvi və əxlaqi tərbiyənin optimal sistemlərinin işlənib hazırlanması ilə məşğul olan bütün elmlər qarşısında Heydər Əliyev böyük maraq doğuran vəzifə qoyur: milli mənəvi və əxlaqi dəyərlərdən, adət-ənənələrdən istifadə edərək, tarixi və sosial yaddaşın bütün imkanlarına istinad edərək, keçmişi indiki zamanla birləşdirmək və bununla da Azərbaycan xalqının mənəvi mədəniyyətinin bütöv nəzəri modelini yaratmaq. Dünyada gedən qloballaşma proseslərini, hər bir xalq tərəfindən dünya sivilizasiyasının nailiyyətlərinin mənimsənilməsi zərurətini nəzərə almaqla, Heydər Əliyev bu ideyanı daha da inkişaf etdirir. Onun fikrində mənəvi mədəniyyətin milli modellərinin tələb olunan imkanlara malik olması üçün onları ümumbəşəri dəyərlərlə, yüksək əxlaqi və mənəvi paklığın tarixi nümunələri əsasında zənginləşdirmək və təkmilləşdirmək lazımdır.

Babək və Nəsimin həyatı və ləyaqətli ölümü – Azərbaycan xalqının onlarla nəsilləri üçün mənəvi tərbiyə məktəbi olmuşdur. Lakin şəxsiyyətin mənəvi paklığı və əxlaqi bütövlüyü siyahısına Sokratın da ölümünü daxil etməklə biz müasir gənclərin ləyaqətli ölümün mənəvi dəyər olması, onun ideya və mənəvi tərbiyə üçün böyük əhəmiyyəti haqqında təsəvvürlərini daha da genişləndirmiş olarıq.

Eyni qaydada mənəvi və əxlaqi tərbiyə sisteminə daxil edilən milli ədəbiyyat, milli adət - ənənələr ümumbəşəri mütərəqqi dəyərlərlə zənginləşməlidir. Əgər Homer və Esxilin, Demokrit və Diogenin, İbn-Haldun və İbn-Sinanın, J.J.Russo və Volterin, Şekspir və L.Tolstoyun, Yunis İmrə və Rabindranat Taqorun, Kant və Şveysterin əsərləri və humanist ideyaları əxlaqi tərbiyə sisteminə daxil edilib bizim mütəfəkkir, şair və yazıçılarımızın ideya və fikirlərini tamamlasa, bundan mənəvi tərbiyə sistemi ancaq özü qazanar. Nəticə etibarı ilə, Heydər Əliyevin dəfələrlə qeyd etdiyi kimi, gözə çarpacaq dərəcədə mənəvi pozğunluq mövcud olan cəmiyyətdə mənəviyyatın şansları genişlənmiş olar.

Mənəvi tərbiyə birtərəfli qaydada həyata keçirilə bilməz. Bu iş gənclərdə ləyaqət və qürur, milli "Mən" hissinin inkişaf etdirilməsi, həmçinin sosial və tarixi məsuliyyət kontekstində həyata keçirilməlidir. Müasir mənəvi tərbiyə sisteminin ən zəif həlqəsi gənclərdə sosial və tarixi məsuliyyət hissinin zəif inkişaf etməsidir [1].

Yuxarıda qeyd edildiyi kimi, biz istəsək də, istəməsək də qloballaşma hərəkatından mədəni inteqrasiya prosesindən kənarda qala bilmərik. Ancaq bu prosesin müsbət cəhətlərinin cəmiyyətimizin müsbət tərəqqisinə xidmət etdiyini danmamaq şərti ilə, neqativ təzahürlərin qarşısını almaq barədə də düşünməliyik.

Biz, bu gün qloballaşma şəraitində demokratik dəyərlərdən bəhrələnməklə, insan hüquq və haqlarını dəstəkləməklə, gender bərabərliyini bərqərar etməklə bərabər, cəmiyyətimizdə hər bir ziyalıda utanc yaradan yüngül şou əxlaqına, qız uşaqlarının təhsildən yayındırılıb, erkən nikahına yox deməliyik! "Ailə institutunun formalaşmasında adət-ənənələrimizin rolunu artırmaqla Avropada həyat normasına çevrilmiş və adi hal sayılan ancaq Şərq təfəkküründə, eləcə də, Azərbaycan mühitində böyük milli fəlakətə çevrilən kütləvi boşanmaların gələcək fəsadları barədə düşünməliyik.

Xalqımızın ruhani duyğuları ilə süslənən el-oba təəssübkeşliyi, vətəndaşlıq, yurdsevərlik, qonaqpərvərlik, səxavətlilik övladlarımızın canına, qanına hopdurulmalıdır! – kimi çağırışlarla kifayətlənə bilərikmi?!

Kiçiyə qayğı! Ata-anaya ehtiram! Ailəyə sədaqət, ağsaqqala – ağbirçəyə hörmət! – deməklə bərabər, uşaq evlərində ata-ana nəvazişindən məhrum edilən körpələrin, övlad etinasızlığından "qocalar evi"ndə məskunlaşan valideynlərin timsalında kövrək Avropa dəyərlərinə nə kimi münasibət bəsləməliyik?!

Xalqımızın yaddaşında öz valideynini səbətdə meşəyə aparıb azdırmaq istəyən övladla bağlı rəvayət bizə hansı dərsi verir?

Bugünkü Azərbaycan həqiqətləri kontekstində fədakar övladlarımızın timsalında deyə bilərik: Mənəviyyat, mənəvi prinsiplər, mənəvi fəaliyyət və mənəvi mədəniyyət o zaman bərqərar olur ki, bu problemlər hər bir vətəndaşın özünün daxilindən və taleyindən keçmiş olsun, şəxsi mənəvi borc səviyyəsinə qalxsın.

Ölkənin bu günü və gələcəyi, millətin sabahkı günü üçün yüksək məsuliyyət hissi formalaşsın, millət və cəmiyyətin mənəvi və əxlaqi birliyi təmin edilsin. Sosial və siyasi əhəmiyyətli məqsədlər həyata keçirilsin.

Nəticə olaraq qeyd edilməlidir ki, xalqımızın milli-mənəvi dəyərlər modelinə, cəmiyyətlə bağlı mənəvi prinsipləri özündə ehtiva edən tərbiyə kodeksinə varislik prizmasından yanaşmalı və gələcək nəsillərə ötürməliyik.

## Ədəbiyyat

1. Heydər Əliyev: Mənəviyyat, Mənəvi dəyərlər, Mənəvi tərbiyə. Bakı: "Müəllim" nəşriyyatı, 2008, 637 səh.

2. Heydər Əliyev: Müstəqillik yollarında. I cild, Bakı, 1994

3. Cəfərov N. Milli-mənəvi dəyərlərimiz Azərbaycan dövlətinin əsaslarını təşkil edir. "Səs" qəzeti, 24 oktyabr, 2013

4. Həsənli S. 101 hədis. Bakı: "Gənclik" nəşriyyatı, Dan yeri PHK, 1990, 32 səh.

5. Милосердова Е.В. Национально-культурные стереотипы и проблемы межкультурной коммуникации. И Я в школе - Москва, 2004, № 3

UOT 17:37.01

## Şəxsiyyətin formalaşmasında milli-mənəvi dəyərlərin rolu

*İsmayılov Anar Nadir oğlu*
*Mingəçevir şəhər 7 №-li tam orta məktəbin direktoru,*
*Gəncə Dövlət Universitetinin doktorantı*

“Mən bu gün bir Azərbaycanlı kimi, özündə həm milli-mənəvi dəyərləri, həm də ümumbəşəri dəyərləri cəm edərək deyirəm ki, bizim xalqımızın mənəvi əxlaqi mentaliteti onun milli sərvətidir. Şübhə yoxdur ki, hər bir xalqın ən böyük sərvəti onun milli mənəvi dəyərləri, bu dəyərlərdən formalaşan adət-ənənələri, mədəniyyət nümunələridir. Vətənimizdə mükəmməl tolerantlıq mühitinin, dini dözümlülüyün yaranması, Azərbaycan xalqının xarakterik xüsusiyyəti və unikal milli-mənəvi sərvəti olmasına dəlalət edir.

“Mənəvi dəyərlər” insanı cəmiyyətdə formalaşdıran inkişafa kömək edən davranış qaydalarıdır. Bu qaydalar dünya sivilizasiyasının təməli qoyulandan yaranmağa başlayıb. Dəyərlərin formalaşması prosesi nəticəsində dünyada hər bir fərdin haqlarını daha dolğun təsdiq edən xüsusiyyətlər yaranır. Dünya xalqları arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyalar, adət ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutur.

Azərbaycan Respublikasının müstəqillik yolu ilə irəlilədiyi, demokratik, hüquqi, sivil və açıq cəmiyyət qurduğu bir vaxtda milli-mənəvi dəyərlərin qorunması, onun şagirdlərə aşılanması aktuallıq kəsb edir. Milli soykökə qayıdış, milli özünüdərk, ailədə uşaqların tərbiyəsindən başlayaraq, məktəbəqədər müəssisələrdə və orta məktəblərdə davam etdirilməlidir. Bu iş elə təşkil olunmalıdır ki, məzmunda bir sistem yaradılsın. Bəs məktəbliləri hansı milli-mənəvi dəyərlər ruhunda tərbiyə etmək lazımdır?

Milli-mənəvi dəyərlərimiz böyük bir dərya, ümman xatırladır. Bunun hamısını birdən aşılamaq mümkün deyildir. Lakin şagirdlərin yaşına, biliyinə və fərdi xüsusiyyətlərinə uyğun olaraq onlara aşılamaq vacibdir. Şəxsiyyətin formalaşmasında ailənin rolu böyükdür. Ailə insan üçün mədəni-məişət şəraiti yaradır, emosional həyat sahəsinə təsir edir, ilk sosial və mədəni təsəvvürlərin formalaşmasında, xarakterin təşəkkülündə vasitə rolunu oynayır. Gərək məktəbin, dövlətin ailələrin arzu və istəkləri nəzərə alınaraq tərbiyə sahəsində yeni konsepsiya yaradılsın. Burada Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Prezidentinin təhsillə əlaqədar fərman və sərancamları, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunları və qərarları, Təhsil sahəsində qanun, qərar və əmrləri və digər hüquqi-normativ sənədlərində irəli sürülmüş tələblər, müddəalar, göstərişlər istiqamət üçün əsas götürülməli, onlara istinad olunmalıdır.

“Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu”nda yazılır: “Gənclər siyasətinin əsas prinsipləri bunlardır – Gənclərin vətənpərvərlik, Azərbaycançılıq, dövlətçilik prinsipi əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunmalıdır”.

Hazırda cəmiyyətin qarşısında duran vəzifələrin yerinə yetirilməsi xeyli dərəcədə fəal və hərəkətli inkişaf etmiş şəxsiyyətin formalaşdırılması prosesinin səmərəliliyindən asılıdır. Şəxsiyyətin inkişafı ilə əlaqədar olaraq yalnız bugünkü təcrübənin deyil, həm də pedaqoji fıkrin zəngin ideyalarını nəzərə almaq lazımdır. Rus nəzəriyyəçisi Boris Dubin ekspermentlərilə belə nəticəyə gəlmişdirki, insana mənəvi keyfiyyətlər irsən verilmir, bunlar tərbiyənin və ictimai mühitin nəticəsidir. İnsan şəxsiyyət kimi doğulmur. İnsanın fərdi inkişafı, onun şəxsiyyətinin formalaşması son mərhələdə ictimai həyat şəraitindən, ictimai münasibətlər sistemindən və istehsal münasibətlərdən asılı olur. İnsan ictimai münasibətlərin məcmusudur. İctimai mühit deyərkən insanın həyat fəaliyyətini, inkişafını əhatə edən xarici şərait nəzərdə tutulur. İctimai mühit daim dəyişir və yeniləşir. İnsan inqilabi fəaliyyəti vasitəsilə həm mövcud ictimai mühiti dəyişib öz arzusuna müvafiq qura bilir, həm də bu prosesdə fəal fəaliyyət göstərməklə öz təbiətini dəyişdirir. Tərbiyə sayəsində uşaqda yeni qabiliyyət və keyfiyyətlər yetişir, müəyyən xarakter yaranır və

formalaşır. Uşaq təlim və tərbiyə vasitəsilə ictimai həyata hazırlanır, geniş dünyagörüşünə sahib olur.

Azərbaycan maarifpərvərləri şəxsiyyətin ən müsbət cəhətlərini onun cəmiyyətdəki münasibət və fəaliyyətində axtarmışlar, çünki münasibətlər insanın həyat təcrübəsinin nəticəsi olmaqla onun hərəkətlərini və daxili hisslərini müəyyənləşdirir.

Nəticədə insanın bir şəxsiyyət kimi formalaşması prosesinə təsir edən amillər haqqında müxtəlif fikirlər meydana gəlmişdi. Əsrlər, min illər boyu bu amillər içərisində üstünlük irsiyyətə verilmiş və belə bir fikir irəli sürülmüşdür ki, valideynlərdə müsbət və mənfi nə varsa övladlara keçir. İrsiyyət nəzəriyyəsinin hakim olduğu dövrlərdə zəka sahibləri həmin nəzəriyyəni qəbul etməklə yanaşı, tərbiyəyə böyük əhəmiyyət verirdilər. Elmin, təhsilin, tərbiyənin böyük gücünə inanan və onu təbliğ edən Nizami Gəncəvi bəzən irsiyyətin mütləq təsirini inkişafın əsas amili kimi götürürdü.

Tarixən olduğu kimi, müasir dövrdə də şəxsiyyətin formalaşması onun bilik, bacarıq və qabiliyyətləri, şəxsi keyfiyyətləri, mədəni səviyyəsi cəmiyyət üçün ləyaqətli vətəndaş kimi inkişaf etdirilməsi ilə vəhdətdə götürülür. Və bu vəziyyət şəxsiyyət probleminə, insan amilinə nəzər salmağa, yeni dövrün tələblərinə cavab verə bilən şəxsiyyətlər formalaşmağa sövq edir. Bütün bunlar isə təhsili cəmiyyət həyatının mərkəzinə qoyur. Bu heç də yenilik deyil ki, təlim və tərbiyə vəhdətdə olmalıdır. Yeni təhsil sistemində başlıca vəzifələrdən biri də cəmiyyətin inkişafının mühüm komponenti olmaqla təhsilalanları real şəraitə hazırlamaqdır. Hazırkı təhsil islahatlarına diqqət yetirilən məsələlər təlimə yönəlib. Unutmaq olmaz ki, təlim və tərbiyə vəhdətdədir. Birində uğur qazanıb, digərində uğursuzluğa düçar olmaq mümkün deyil. Təhsilin birinci vəzifəsi ləyaqətli şəxsiyyətlər formalaşdırmaqdır.Təlim-tərbiyə prosesinin şəxsiyyətyönümlülüyü öyrənənin yaradıcılıq imkanlarının inkişaf xüsusiyyətlərini nəzərə almağa, tədris fəaliyyətinə nəzarət sisteminin yaradılmasına və qiymətləndirilməsinə də imkan yaradır.Eyni zamanda öyrənənin peşəkarlıq səviyyəsinə və tədris fəaliyyətinə nəzəarəy sisteminin yaradılması və qiymətləndirilməsi ilə yanaşı, onun inkişaf dinamikasını mütamadi izləmək və vaxtında müvafiq tədbirlər görmək mümkün olur.Təhsil prosesinin şəxsiyyət yönümlülüyü,qazanılmış biliklərin həqiqiliyinin ümumiləşdirilməsi və qəbul olunmuş qərarın şəxsi dəyərlər,yeni ynaşmalar və qazanılmış bacarıqlar əsasında qiymətlənirilmıəsi müasir təlim-tərbiyə prosesinin əsasını təşkil edir.Belə bacarıqların formalaşması şəxsiyyət daxili strukturların yüksək dərəcəd intekrasiyasını və təfəkkür və dəyərlər istemi arasındakı əks əlaqənin yaradıcılıqlahəyata keçirildiyini göstərir.Bu qarışılıqlı əlaqələr nəticəsində dərketmə yüksək dərəcəd aktivləşir və özünündərkə gətirib çıxarır.Tərbiyəsində, mənəviyyatında  naqislik olan şəxslər ləyaqətli vətəndaş ola bilməzlər. Hazırda milli-mənəvi, əxlaqi dəyərlər başlıca məsələ olmalıdır. Təhsil özü də mədəni-tarixi əsaslara söykənməlidir. Cəmiyyət həyatının reallıqları və insana verilən yeni tələblər, başqa sözlə, yeni insanın formalaşdırılması təhsil sistemində də yeni strategiyanın qurulmasını tələb edir. Təhsil elə qurulmalıdır ki, şəxsiyyətin sosiallaşmasını təmin edə bilsin. Bunu bir yolu da şagirdləri yalnız sinif  otaqlarında deyil, ondan kənarda kollektivə, kollektiv tərbiyəyə, kollektiv vasitəsilə tərbiyəyə alışdırmaqdır.

Ulu Öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü: Hər bir Azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir.  Azərbaycançılığı milli bir ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə söhkənən məhəbbət duyğularıyla yanaşan görkəmli dövlət xadimi müdrik şəxsiyyət kimi yaxşı başa düşürdü ki, aydın və dərk olunmuş milli ideologiya hər bir xalqın irəliyə doğru inkişafının yol göstərəni və bələdçisidir. “Mən fəxr edirəm ki, Azərbaycanlıyam!”– deyən Ulu Öndər bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin və zəngin adət-ənənələrimizin keşiyində durdu.

Dövlət dilini mənəvi dəyərimiz hesab edən Ulu Öndər Heydər Əliyev rəsmi tədbirdə Azərbaycan dilində çıxış edərək, 1978-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dilinin dövlət dili statusu almasına nail olmuşdur.

Ümummilli lider Heydər Əliyev milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən yüksək formasını milli dövlətçilikdə görürdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" nda göstərilir ki, strateji istiqamətlərdən biri də "Təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur." Həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımlı şərait yaradır. Göründüyü kimi, strategiyada başlıca hədəf insandır, onun inkişafıdır və nəticədə bütövlükdə cəmiyyətin mədəni səviyyəsinin yüksəldilməsidir. Hazırda təhsil sferasında tez-tez işlənən fikirlərdən biri də " hafizə məktəbindən" "təfəkkür məktəbinə" keçilməsi ilə bağlıdır.

Yüksək mənəvi-əxlaqi dəyərləri parlaq şəxsiyyətində cəmləyən Azərbaycan qadını kimi Mehriban Əliyeva isə demokratik, hüquqi dövlət quruculuğu yolunda surətlə irəliləyərək sivil dəyərləri əks edən cəmiyyətimizin həyatına Birinci xanıma xas yüksək ənənə gətirib. Əslində nə vaxtsa çağdaş dünyanın bizim dövlətçilik irsimizdən mənimsədiyi tarixin hansısa mərhələsində unutduğumuz ənənələrin müstəqil Azərbaycan dövlətində yenidən bərpası faktı məhz birinci xanımın adı ilə bağlıdır. Yeni məscidlərin, ziyarətgahların, xristian və induizmin məbədlərinin tikintisi və bərpasında Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev fondunun məqsədyönlü və ardıcıl fəaliyyəti xüsusi ilə qabarıq və nəzərə çarpır.

Azərbaycan Respublikasının təhsil naziri cənab Mikayıl Cabbarov öz çıxışında belə qeyd etmişdir. Son illərdə ölkə Prezidenti İlham Əliyev cənablarının həyata keçirdiyi düşünülmüş uzaqgörən siyasət sosial həyatımızın bütün sahələrinin, o cümlədən elm, mədəniyyət və təhsilin tərəqqisinə güclü təkan verib. Bu bir reallıqdır ki, müasir dövrdə ölkələrin tərəqqisi elm və təhsilin inkişafı ilə birbaşa bağlıdır. Dünya təcrübəsi göstərir ki, istənilən dövlətin inkişaf səviyyəsini ölkənin təbii sərvətlərinin bolluğu deyil, bu sərvətlərin yüksək potensiala malik insan kapitalına çevrilməsi, bilik iqtisadiyyatının formalaşması müəyyən edir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Sabunçu rayonundakı 148 nömrəli tam orta məktəbdə 2015-ci ildə Bilik günündəöz çıxışında belə demişdir: "Vətənpərvərlik, milli ruh, milli dəyərlər – budur bizim cəmiyyətimizin əsasları. Bəzi xarici qüvvələr bu əsasları sarsıtmaq, bizi öz köklərimizdən ayırmaq istəyirlər. Biz əsrlər boyu başqa ölkələrin, imperiyaların tərkibində yaşamışıq, ancaq öz milli mənliyimizi, dilimizi, dinimizi, adət-ənənələrimizi qorumuşuq. Bu gün də qoruyuruq və qoruyacağıq. Bizim cəmiyyətimizin mənəvi dayaqlarını sarsıtmaq istəyənlər ölkəmizi məhv etmək istəyirlər. Budur məqsəd. Ona görə güclü milli mənəvi dəyərlər əsasında qurulmuş bugünkü Azərbaycan regionun sabitliyində də öz rolunu oynayır. Gənc nəsil Vətənə bağlı, vətənpərvər, Vətəni hər şeydən üstün tutan insanlar olmalıdır.Milli dəyərlər, mənəviyyat, vətənpərvərlik, ləyaqət, milli qürur - budur bizim dəyərlərimiz. Biz bu dəyərləri qoruyacağıq və bizə qarşı aparılan kampaniyalara layiqli cavabımızı veririk və verəcəyik. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə, bizi müstəqillik, azadlıq yolundan döndərə bilməz."

Çıxışımın sonunda qeyd etmək istəyirəm ki, tarixən olduğu kimi bu gündə milli-mənəvi dəyərlərə Azərbaycan Respublikasında ən önəmli yer verilmişdir və diqqət mərkəzində olmuşdur. "Təhsil müəssisələrində uşaq və gənclərin milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" 2015-ci il üzrə Təhsil Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə Fəaliyyət planınının icrası məqsədilə "Milli-mənəvi dəyərlər haqqında düşüncələrim" mövzusunda inşa yazı müsabiqəsi keçirilmişdir. Müsabiqədə ümumtəhsil məktəblərinin 30 mindən çox IX-XI sinif şagirdləri iştirak edib. Fərəhləndirici haldır ki, Mingəçevir şəhər R.Mirabov adına 7 №-li tam orta məktəbin XI sinif şagirdi Mustafayeva Səbinə Nemət qızı II dərəcəli Diplomla təltif olunmuşdur.

## Ədəbiyyat


1. Bayramov Ə.Ə. Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri, Bakı, 1967
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 1998
3. Məmmədov A. Təlimin psixoloji əsasları. Bakı, 1993
4. HəsənovA., Ağayev Ə, Pedaqogika, Bakı, 2007
5. Quliyev S.M. Məktəblilərin mənəvi siması. Bakı, 1982
6. Azərbaycan məktəbi. 2015, №2
7. Azərbaycan məktəbi. 2015, №4

# MİLLİ-MƏDƏNİ DƏYƏRLƏR VƏ MULTİKULTURALİZM BÖLMƏSİ

UOT 291

## Multikulturalizm və onun müxtəlif modelləri

*t.e.d., dos. Alıyev Həmid Alıhüseyn oğlu*
*Sumqayıt Dövlət Universiteti*

Multikulturalizm elə bir siyasətdir ki, o, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Bu, ölkə əhalisinin etnik irqi və dini müxtəlifliyindən asılı olmayaraq, onların hamısının hüquq və azadlıqlarına hörmətlə əlaqədardır. Multikultural cəmiyyətdə hər bir vətəndaş öz mədəniyyətini, dilini, ənənəsini, etnik və dini dəyərlərini inkişaf etdirmək, ana dilində məktəb açmaq, qəzet və jurnal dərc etdirmək sahələrində bərabər hüquqlara malikdir. Multikulturalizm siyasəti assimilyasiyanı inkar edən inteqrasiyaya aparır. Məhz buna görə də bu siyasəti təkcə siyasi elita deyil, eyni zamanda millətin yüksək vəzifə tutmayan digər nümayəndələri ilə yanaşı həm də milli və dini azlıqlar da dəstəkləyirlər.

Multikulturalizmin nəzəri əsasını liberalizm, xüsusən də liberalizmin azadlıq, bərabərlik və qardaşlıq kimi dəyərləri təşkil edir. Bu səbəbdən də multikultural cəmiyyətdə nəinki sosial ədalətsizliyi aradan qaldırmağa nail olmaq mümkündür, həm də burda irqçiliklə bağlı ədalətsizliyə qətiyyən yol verilmir. Lakin multikulturalizmlə liberalizm arasında bir mühüm fərq vardır. Liberalizmdən fərqli olaraq multikulturalizm fərdlərin deyil, qrupların hüquqlarını ön plana çəkir.

Multikultural cəmiyyətin formalaşması və inkişafı – tarixi təkamülün xüsusiyyətləri ilə, konkret olaraq, sosial amillərlə müəyyənləşmişdir. Onu da qeyd edək ki, multikultural cəmiyyətin formalaşmasında və inkişafında demokratiya mühüm rol oynayır, daha dəqiq desək, demokratiya multikultural cəmiyyətin təkamülü üçün əlverişli şərait yaradır. Multikultural cəmiyyət ilk növbədə Qərbi Avropanın və Şimali Amerikanın demokratik ölkələrində mövcud olmuşdur. Həmin ölkələrdəki tolerantlığın, əxlaqi qaydalara uyğunluğun və demokratiyanın yüksək inkişaf səviyyəsi orada multikulturalizmin ideyalarının yayılması üçün münbit şərait yaratmışdır.

Yuxarıda deyilənləri nəzərə almaqla, qeyd edək ki, bölgələrin tarixi inkişafındakı müxtəlifliyə uyğun olaraq, həmçinin multikultkralizmin də müxtəlif modelləri mövcuddur. Bu spesifik modellərin arasında mən Amerika, İsveç, Avstraliya və Kanada modellərini qeyd etmək istərdim.

A. Multikulturalizmin Amerikan modeli.

1960-cı illərin ortalarınadan etibarən ABŞ anqlo-saksonları imiqrantlarla bir yerə qatan bir növ "əridici qazan" ("melting pot") rolunu oynayırdı. Bu «qazanda» anqlo-saksonlar üstün mövqeyə malik idilər. Lakin bir müddət keçdikdən sonra vəziyyət tamamilə dəyişdi. "Əridici qazan" proqramı multikulturalizm ideologiyası ilə əvəz olundu. Bunun əsas səbəbi iki mühüm qanunun – "Vətəndaş Hüquqlarına dair Qanun" (1964) və "İmmiqrasiya haqqında Qanun" (1965) – qəbul edilməsi olmuşdu. Birinci qanun ölkədə anqlo-saksonların mövqelərini bir qədər zəiflətməklə yanaşı, bütün millətlərin bərabərliyini təmin etdi. İkinci qanun isə ölkəyə immiqrasiyanı sürətləndirdi.

Bu gün biz ABŞ-ın multikultural siyasətində bir tərəfdən – mühacirlərin Amerika cəmiyyətinin dəyərlərini qəbul etməsini; digər tərəfdən isə – etnik və irqçi ekstremizmin qarşısını alan əlavə mexanizmlərin formalaşması kimi bu cəmiyyətdə etno-mədəni oxşarlğın çatışmazlığını qörürük.

B. Multikulturalizmin İsveç modeli.

Multikulturalizmin İsveç modelinin xüsusiyyəti ondan ibarətdir ki, cəmiyyətdə mədəni müxtəlifliyin saxlanılmasında dövlət fəal rol oynayır. Dövlətin bu cür fəallığı ilk növbədə ölkədəki konkret siyasi durumla əlaqədardır. Belə ki, İsveçdə uzun müddət çox güclü siyasi mövqeyə malik

Sosial-Demokrat partiyası hakimiyyətdə olmuşdur. 1976-cı ildə İsveç hökuməti əcnəbilərə səs vermək hüququ verdi. 1997-ci ildə qəbul olunmuş "İmmiqrasiya haqqında Qanun" isə İsveçi multikulral cəmiyyət kimi qələmə verir.

İsveçin multikultural siyasətinin əsas istiqamətləri – dil və təhsil strategiyalarıdır. Bu strategiyalar immiqrantları həm öz doğma dillərini, həm də İsveç dilini öyrənməyə sövq edir. İsveç hökuməti ölkədəki mədəni müxtəlifliyə vacib və zəruri olan bir reallıq kimi yanaşır.

C. Multikulturalizmin Avstraliya modeli.

Avstraliyada multikultural cəmiyyətin formalaşması uzun müddət dövlət tərəfindən təqib edilən izolyasionizm siyasəti ilə müşaiyət olunmuşdur. 1901-ci ildə Avstraliyada qəbul olunmuş "İmmiqrasiya haqqında Qanun" izolyasionizm siyasətininin idarə olunmasında hakim elita üçün inzibati əsas rolunu oynamışdır. Situasiya yalnız aşağıda adı çəkilən qanunların qəbul edilməsi ilə dəyişməyə başlamışdır: "Vətəndaşlıq haqqında Qanun" (düzəlişlərlə) (1948); "Miqrasiya haqqında Qanun" (düzəlişlərlə) (1958), "Əcnəbilər haqqında Qanun" (düzəlişlərlə) (1984) və "Viza rejimi haqqında Qanun" (düzəlişlərlə) (1997).

Qeyd etmək lazımdır ki, "multikulturalizm" termini siyasi leksikona ilk dəfə 1970-ci ildə – Avstraliyada İmmiqrasiya naziri vəzifəsində çalışmış Al Kresbi tərəfindən daxil edilmişdir. O, anglo-saksonlarla yeni avstraliyalılar arasındakı nifaqın aradan götürülməsində çox səy göstərmişdir. 1979-cu ildə hökumət Mədəni Müxtəlifliyin Problemləri üzrə Avstraliya İnstitutunu, 1987-ci ildə isə Multikulturalizm Problemləri Komitəsini yaratdı. Bu, Avstraliya dövlətinin immqrasiya siyasətində necə mühüm rol oynadığının və onun irqçilikdən multikulturallığa qədər inkişafında əldə etdiyi parlaq uğurların göstəricisidir.

D. Multikulturalizmin Kanada modeli.

Kanadada multikultural cəmiyyətin formalaşması 1960-cı illərə təsadüf edir. Kanada hökuməti əhalinin irqi, etnik və konfessional müxtəlifliyini qəbul edirdi ki, bu da Kanada cəmiyyətinin əsas milli xüsusiyyətinə çevrilmişdi. Bu o deməkdir ki, multikulturalizm kanadalıların ən mühüm milli xüsusiyyətlərindən biridir. Bu ölkədə multikulturalizm Azadlıq və Hüquqlar Kanada Nizamnaməsinin 27-ci maddəsi ilə qorunur.

ABŞ və Avstraliyadan fərqli olaraq Kanadada etnik azlıqlara münasibətdə hakim etnik qrup tərəfindən assimilyasiya siyasəti yeridilmir. Kanadada hər bir etnik qrupun üzvləri öz ana dilini azad şəkildə istifadə etmək, həmçinin öz doğma dillərində təhsil almaq hüququna malikdirlər. Bu vacib situasiya Kanadada yaşayan etnik azlıqların öz mədəni dəyərlərini qoruya bilməsinə şərait yaradır.

Beləliklə, multikulturalizmin müxtəlif modellərinin müqayisəli təhlili nəticəsində bir neçə ümumiləşdirmə aparmaq istərdim:

1) Multikulturalizm – pozitiv sosial təzahürdür. O, cəmiyyətin inkişafı üçün münbit şərait yaradır; etnik münaqişələrin qarşısını alır və müxtəlif xalqlar arasında etimadı möhkəmlədir;

2) Multikulturalizm – cəmiyyətin mədəni müxtəliflik əleyhinə etirazını səngitmək üçün alternativ siyasət kimi meydana gəlmişdir;

3) Demokratiya multikultural cəmiyyətin formalaşmasında ən mühüm amillərdən biridir;

4) Bölgələrin tarixi inkişafının xüsusiyyətləri multikulturalizmin fərqli modelininin yaranmasını müəyyən etmişdir;

5) Multikulturalizmin müxtəlif modelləri arasında bəzi fərqlərin olmasına baxmayaraq, heç şübhəsiz ki, multikultural cəmiyyətinin formalaşmasında və multikultural ətraf mühitin dəstəklənməsində aparıcı rol dövlətə məxsusdur.

## Ədəbiyyat

1. Bünyadzadə K. İslam fəlsəfəsi: tarix və müasirlik. Bakı: "Çaşıoğlu", 2010, 154 s.

2. Din və etiqad azadlığı. Beynəlxalq, regional və milli hüquqi sənədlərlə. AMEA İnsan Hüquqları İnstitutu. Bakı: "Elm və Təhsil", 2012

3. Əliyev H. Dinimiz xalqımızın milli-mənəvi sərvətidir. Bakı: "İrşad", 1999, 165 s.

4. Əlizadə A. Xristianlıq: Tarix və fəlsəfə (ilk çağlar). Bakı: “Əbilov, Zeynalov və oğulları”, 2007, 172 s.
5. Полосин А.В., Али-заде А. Ислам не такой! А какой? 40 ответов критикам Ислама. М.: «Ансар», 2008, 288 стр.
6. Пивоев В.М. Философия культуры: Учебное пособ Учебное пособие для вузов, М.:Гаудеамус, 2009, 426 стр.

UOT 81

## Qloballaşma şəraitində mütərəqqi dəyərlərin ekstrapolyasiyası: universalizasiya, kosmopolitizm, pasifizm

*s.f.d., dos. Cəfərova Esmira Hilal qızı*
*Mingəçevir Dövlət Universiteti*

XX əsrin sonlarından planetar miqyasda baş verən sosial-iqtisadi və etnik-siyasi proseslərin təsiri altında mədəni universallaşma qloballaşma kimi xarakterizə olunmağa başladı. Qloballaşma ümumbəşəri mədəni dəyərlərin və mütərəqqi əhəmiyyət kəsb edən yüksək iqtisadi, siyasi, mədəni və texniki nailiyyətlərin planetar miqyasda yayılmasını nəzərdə tutur. Bu fenomen özündə nə qədər mütərəqqi elementləri ifadə etsə də, hər zaman diskussiya obyekti olaraq qalır. Bu baxımdan hətta elmi ədəbiyyatlarda “qara qloballaşma” kimi termin də öz əksini tapmışdır ki, onun da əsas məzmunu bütün milli mədəniyyətlərin kosmopolit mədəni standartlara tabe etdirilməsini nəzərdə tutur və vesternizasiyanın (Qərb mədəni dəyərlərinin və həyat tərzinin digər ərazilərdə yayılması) radikal forması kimi təzahür edir. Faktiki olaraq qloballaşma iqtisadi, siyasi, sosial və mədəni əlaqələri əhatə edən sərhədsiz bir prosesdir. O, insanlar, dövlətlər və mədəniyyətlər arasında qarşılıqlı əlaqələrin genişlənməsi yolu ilə daim davam edən tarixi proses kimi, eyni tipli iqtisadi-siyasi və mədəni dünyanın qurulmasına istiqmətlənmiş və mərhələlərlə davam edən, ümumiləşdirmə və homogenizasiya (yun. homogenis – eyni tipli deməkdir) ilə müşayət olunan ümumbəşəri universallaşdırma kimi, nəhayət, milli sərhədlərin ayrı-ayrı qlobal proseslərin təsiri altında açılması kimi təzahür edir [2]. Müasir dünyada cərəyan edən qloballaşmanın əsas xassəsi liberal-demokratik və bütün digər mütərəqqi dəyərlərin ekstrapolyasiyası ilə bağlıdır. Ekstrapolyasiya (lat. ekstra – yüksək, kənar, polio isə düzəltmək, dəyişmək deməkdir) hər hansı obyektin, yaxud hadisənin, hər hansı bir hissəsinə aid olan nəticələrin və prinsiplərin, onların digər hissələrinə, eləcə də bütün toplum elementlərinə yayılmasını nəzərdə tutan məntiqi-metodoloji prosedurdur. Bu o deməkdir ki, dünya ölkələrinin hamısında iqtisadi, siyasi, hüquqi və s. sistemlər identifikasiyaya məruz qalır və ölkələrarası əlaqələr misli görünməmiş miqyas kəsb etməyə başlayır. Bəşər tarixində ilk dəfə olaraq insanlar, xalqlar və mədəniyyətlər biri birilərindən maksimum qarşılıqlı asılılıq şəraitində mövcud olmağa başlayırlar. Dünyanın hər hansı nöqtəsində yaranmış problemlər dərhal dünyanın digər yerlərində də əks olunur və ümumbəşəri problemə çevrilir.

Qloballaşma və homogenizasiya vahid ümumdünya cəmiyyətinə aparan yoldur və bu cəmiyyətdə vahid normalar, institutlar, mədəni dəyərlər formalaşır və tədricən bərqərar olur. Dünya, özündə identifikasiya olunmuş dəyərləri ifadə edən vahid bir məkan kimi təzahür edir. Internasionalizm, liberalizm, kosmopolitizm, universalizasiya, pasifizm və s. kimi dəyərlər bütün bəşər cəmiyyətinin nailiyyətinə və qiymətləndirmə əmsalına çevrilir.

Qloballaşma bipolyar dünyanın dağılmasına və homogen aləmin formalaşmasına xidmət edir. Bu tendensiyanı “bəşər tarixinin sonu” kimi qiymətləndirən alimlər (Esixiro Frensis Fukuyama – 1952, Amerika filosofu) də vardır və onlar dünya tarixinin keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymasını əsas götürərərək, iddia edirlər ki, əksliklərin vəhdəti və mübarizəsi kimi əzəli və

əbədi qanunauyğunluğun süni üsullarla aradan qaldırılması, bəşəriyyətin vahid bir cəmiyyətə çevrilməsi onun inkişafında əsas hərəkətverici qüvvənin məhv edilməsi anlamına gəlir [5].

Qloballaşma ilə əlaqədar formalaşan planetar miqyaslı yeni nizam, milli mədəniyyətlər, onların qorunması və davamlı inkişafı gündəmə çoxlu sayda problemlər çıxarır. Məsələni, milli mədəniyyətə tarixi yaddaşın təcəssümü kimi yanaşmaqla həll etməyə çalışan alimlərin fikrincə bu proses yeni nəsilləri müasir zaman və məkan ölçüləri səviyyəsində tərbiyə etməklə yanaşı, keçmişlə, milli mədəniyyətlə, lokal tarixi ənənələrlə əlaqələrin tədricən kəsilməsinə və tarixi yaddaşın pozulmasına gətirib çıxara bilər. Milli mədəniyyət özündə kollektiv yaddaşı ifadə etməklə davamlı olaraq həyat tərzinin, cəmiyyətin sosial və mənəvi təcrübəsinin yaddaşlarda möhkəmlənməsi və qorunması kimi vacib vəzifə daşıyır.

Qeyd etmək lazımdır ki, qlobalizasiya, universalizasiya, kosmopolitizm, pasifizm kimi anlayışlara və onlarla bağlı olan proseslərə eyni şəkildə münasibət göstərmək mümkün deyil. Lakin onların bəşər cəmiyyətinə son dərəcə müsbət təsiri danılmaz fakt kimi ortaya çıxır. Bu qarşısıalınmaz proseslərin sayəsində bəşəriyyətin böyük bir hissəsi əvvəllər misli görünməmiş texniki və texnoloji tərəqqi sayəsində yüksək biliklərə və vacib informasiyalara sahib olur. Nəticədə məhsuldar qüvvələrin tarixdə analoqu olmayan inkişaf templəri baş verir, elmi nailiyyətlər indiyədək sirli qalan sferalara maneəsiz şəkildə nüfuz edir, kapital qlobal miqyasda sosial-iqtisadi sabitliyin təmin edilməsinə yönəldilir və ümumi rifaha xidmət edir.

"Universalizasiya" (lat. universalis – ümumi) anlayışı mədəni fenomen kimi fövqəladə şəkildə cəlbedici bir qüvvəni özündə ifadə edir və ona, bu və ya digər hadisələrin Universuma, yəni hər şeyi əhatə edən dünyaya aid olması kimi əlamət məxsusdur. Bütün bəşəriyyətin ümumi evi kimi qiymətləndirilən universum təbii olaraq özündə dəyərlər sistemini ifadə edir. Qlobal sferada bəşəriyyəti daim maraqlandıran və məşğul edən ən başlıca məsələ bu ümumi evdə ləyaqətlə yaşamağın yollarını tapmaqdır. Ellinizm mədəniyyətində süurun və sözün (hikmətin) dəyərini ən ali prinsip elan edən universallaşma, orta əsrlərdə mütləq, universal monoteizmin diktə etdiyi prinsiplərlə üz-üzə qaldı, müasir dövrdə isə bu fenomen elmdə, bilikdə, informasiyada təcəssüm olunmağa başladı. Universallaşma anlayışına daha dolğun çağdaş məzmun vermək məqsədi ilə mütəxəssislər elmi dövriyyəyə "yeni universalizm" anlayışını daxil ediblər. Bu terminin yaranması o zərurətdən irəli gəlir ki, müasir dövrdə "Qərbin dünya tarixini yazan subyekt kimi rolu tədricən məhdudlaşır". Postmodern cəmiyyətin inkişafı vahid universal məkanda müxtəlifliyin birgə mövcudluğunu və inkişafını ifadə edən nəzəriyyə kimi ortaya çıxır. O, qloballaşma və universallaşma şəraitində müxtəlif mədəniyyətlərin ideallarına dəyər xarakteri verməklə seçilir. Qloballaşmanı bəşəriyyətin özünütəşkil prosesinin təkamülü kimi qəbul edərək, universallaşmanı sivilizasiyalararası əlaqələrin mürəkkəbləşməsinin nəticəsi kimi nəzərdən keçirmək olar. O, sivil inkişaf prosesində partnyorların (iştirakçıların) bərabərliyini nəzərdə tutur. Məhz universalist təfəkkürün belə anlamı rakursunda konkret qlobal problemlərin səmərəli həlli mümkündür.

Qloballaşma və universalizasiya son nəticədə beynəlxalq sosial-iqtisadi və ictimai-siyasi münasibətlər sisteminə yeni anlayışlar daxil edir: məsələn, apatrid (lat. apatris – vətəndaşlığı olmayan şəxs, hər hansı vətəndaşlığı, yaxud təbəəliyi olmayan fiziki şəxs), denasionalizm (ecperanto – sennasiismo – millət məfhumunu inkar edən mədəni doktrina), mondializm (lat. mundus – dünya, ümumdünya hökümətinin yaradılmasını nəzərdə tutan qlobal layihə), planetarizm (müasir dünyanın bütün müxtəlifliyi və vəhdəti, bütün ölkələrin və xalqların qarşılıqlı əlaqəsi ilə birlikdə dərk edilməsini, sülh şəraitində çiçəklənən və bütün bəşəriyyətə məxsus olan həyatın ümumi rifah kimi tanınmasını ifadə edən nəzəriyyə) və nəhayət kosmopolitizm (yun. kosmopolites – dünya insanı, dünya vətəndaşı – planetar miqyasda insanı azad fərd kimi nəzərdən keçirən, ümumbəşəri maraqları, ayrıca götürülmüş millətin, yaxud dövlətin maraqlarından üstün tutan dünya vətəndaşı haqqında ideologiya). C. Sola (Con Rolston Sol – 1947. Kanada yazıçısı, hal-hazırda fəaliyyət göstərən PEN-klubun prezidenti (ing. PEN international - Beynəlxalq qeyri-hökumət təşkilatı) görə kosmopolitizm dünyanın birliyini universallığını dərk etməyə yönəlmiş mədəni təyinat və dünyagörüşüdür [3]. Kosmopolitizm haqda ilk fikri e.ə. Sokrat söyləmişdir. Özünü kosmopolit kimi birinci olaraq Dioqen Sinoplu adlandırmışdı [3]. Qədim Yunanıstanda stoiklər fəlsəfi məktəbinin banisi Kitionlu Zenon kosmopolitizmi hər bir insan həyatının vahid ümumdünya

qanunu ilə mümkünlüyünü və inkişafını nəzərdə tutan ictimai ideal kimi nəzərdən keçirmişdi. Sofistlər (yun. müdrik, biləndər) kosmopolitizmə ümumi rifah mövqeyindən yanaşaraq qeyd edirdilər ki, "harda ki, insan rifaha çatır və layiqli həyatın nemətlərindən bəhrələnir", ora onun vətənidir" ("Ubi bene, ibi patrid").

Orta əsrlər Avropasında kosmopolitizm ideyalarının daşıyıcısı kimi katolik kilsəsi, Şərqdə isə islam ideologiyası çıxış edirdi. Dünya vətəndaşlığı haqqında mücərrəd-humanist ideal kimi kosmopolitizm ideyaları Maarifçilik dövründə də geniş şəkildə inkişaf etmişdi. H.Lessinq, İ. Höte, F. Şiller, İ. Kant, İ. Fixte və digər dünya şöhrətli dühalar kosmopolitizm ideyalarının daşıyıcıları olmuşlar. 1544-cü ildə Qiyom Postel (1510-1581–fransız filosofu, mistik) "kosmopolitizm" terminini yenidən kəşf etdi və ona səmavi deyil, bəşəri məna verərək "ümumdünya dövlətini" hər kəsin azad seçiminə əsaslanan və millilik üzərində qurulmuş qeyri-dini qardaşlıq kimi təqdim etdi [7]. Qeyd etmək lazımdır ki, orta əsrlərdə "qardaşlığın inkişaf strukturuna və siyasi təsir qüvvəsinə rəğmən massonçuluq kosmopolitizmin yayılmasında ilk irimiqyaslı hadisə oldu [7]. Kosmopolitizm dünyagörüşünün təşəkkülü davamlı müharibələrdən yorulmuş Avropa sivilizasiyasının pasifist əhval-ruhiyyəsinin formalaşması ilə üst-üstə düşürdü. Pasifizm (lat. pacifer, pacificus – sülhyaradan, pax – sülh və facio – edirəm) zorakılığın tamamilə aradan qaldırılmasına yönəlmiş müqavimət hərəkatı və onunla bağlı olan ideologiyadır. Pasifizm sülh uğrunda, müharibəyə qarşı ictimai hərəkat kimi siyasi münaqişələrin hərbi üsullarla həll edilməsinə qarşı mübarizə aparır. Çox vaxt antimilitarist və antiimperialist hərəkat kimi də təzahür edir. Pasifistlər hər hansı xarakterli (azadlıq, müqəddəs, ədalətli, ədalətsiz) müharibəni qınayırlar və müharibənin özünün mümkünlüyünün hüquqi yönümlü olmasını inkar edirlər. Onlar müharibələrin qarşısının alınmasının dinc nümayişlərlə və digər sülh tədbirləri ilə mümkünlüyünə inanırlar. Pasifizm özünün normativ məzmununa görə müxtəlif formalarda təzahür edir. Bunların içərisində: 1) ideya-mənəvi cəhətdən müharibəyə və zorakılığa qarşı qoyulan passiv pasifizm; 2) aktiv, lakin güc üsullarına əsaslanmayan müqavimət. A. Nobel, L.Tolstoy, B.Rassel, M. Qandi, A. Eynşteyn kimi məşhurlar əqidəli pasifistlər olmuşlar.

Maarifçilik dövründən başlayaraq (Volter, Monteskye və b.) bir çox mütəfəkkirlər mövcud problemlərin həllini "Avropanın vahid respublikada birləşdirilməsində" görürdülər. Sosial kataklizmlərin sərhədsiz şəkildə cərəyan etdiyi XX əsrdə isə, inqilablarla və total hərbi münaqişələrlə bağlı olan güclü ictimai təlatümlərin təsiri altında kosmopolitizmin intibahı baş verdi. II Dünya müharibəsindən sonra kapitalist ölkələrində bir neçə uğurlu layihələrdə ifadə olunmağa başladı: məsələn, 10 dekabr 1948-ci ildə "Ümumi insan hüquqları haqqında qətnamə", 1954-cü ildə Harri Devis tərəfindən yaradılmış "Dünya Vətəndaşlarının Ümumdünya Hökuməti" ("World Service Authority") və s.

XXI əsrdə kosmopolitizm ümumi qloballaşma dalğasında öz inkişafını davam etdirir. Nihilizmə (lat. nihil – heç nə, hamı tərəfindən qəbul edilmiş dəyərləri, idealları, mənəvi normaları ifrat şəkildə inkar edən dünyagörüşü mövqeyi) və individualizmə (lat. individuum – bölünməz, şəxsi müstəqilliyi, şəxsiyyətin birinci dərəcəli əhəmiyyətini, fərdi azadlığını qeyd edən mənəvi, sosial və siyasi dünyagörüşü) qarşı çıxan libertarianlıq (ing. Liberti – azadlıq) və kommunitarist (lat. communito – birlik - hər hansı ayrıca götürülmüş insanın icma, yaxud cəmiyyət tərəfindən formalaşdırılmasını iddia edən nəzəriyyə) dünyagörüşü baxımından kosmopolitizm insan azadlığının ən mühüm təməllərindən biri kimi qəbul edilir.

Beləliklə, qloballaşma şəraitində müxtəlif xarakter kəsb edən planetar miqyaslı və əhəmiyyətli hadisələrin sintezi nəticəsində, nəzəri cəhətdən qarşımızda son dərəcə orijinal bir tarixi-siyasi mənzərə canlanır. Bu mənzərədə ümumbəşəri mütərəqqi dəyərlərin, hər hansı şərti sərhədləri aşaraq yayılması, bütün xalqların ümumi nailiyyətinə və prinsipial düşüncə tərzinin başlıca elementlərinə çevrilməsi aparıcı motivlər kimi çıxış edir.

**Ədəbiyyat**

1. Брок П. Отношение к ненасилию в пацифистских сектах в средние века и раннее новое время. Ненасилие как мировоззрение и образ жизни. М:, ИВИ РАН, 2000, 302 с.

2. Гринин Л.Е. Глобализация и национальный суверенитет. История и современность. №1, 2005
3. Деррида Ж. Глобализация. Мир. Космополитизм / перевод Дмитрия Ольшанского // журнал «Космополис», № 2 (8), 2004
4. Кузовков Ю. Глобализация и спираль истории. В 2-х частях. М:, "Анита-пресс" 2010
5. Кулиджанишвили А.Э. Глобализация и национальные культуры. // Человек: соотношение национального и общечеловеческого. Под ред. В.В.Парцвания, Санкт-Петербург, 2004, с.142-154
6. Молчанов Н. Н. «Война войне» - фрагмент из книги «Жан Жорес» (ЖЗЛ), М:, Молодая гвардия, 1986, 399 с.
7. Фрейхоф В. Космополитизм // Мир Просвещения. Исторический словарь. М:, Памятники исторической мысли, 2003

UOT 902; 94 (479.24)

**Azıx mağarası Azərbaycan xalqının mədəni irsinin ən qədim sərvətidir**

*t.f.d., dos. Bağırova Şəlalə Vaqif qızı*
*Azərbaycan Dillər Universiteti*

Azıx mağarası Azərbaycan elmində çox mühüm əhəmiyyəti olan kəşflərdəndir. Keçən əsrin 50-ci illərinə qədər Azərbaycan ərazisində yüzlərlə maddi-mədəniyyət nümunələrinin aşkara çıxarıldığı halda, heç bir paleolit düşərgəsinin qeydə alınmaması o zamankı sovet tarix elmində bu yerlərdə məskunlaşmanın gec olması haqqında fikirlərin ortaya çıxmasına zəmin yaratmışdı. Sovet arxeoloqu Z.N.Zamyatin 1950-ci ildə öz məqalələrinin birində yazırdı ki, son zamanlara qədər Qafqazın şərq hissəsində, o cümlədən, Azərbaycan ərazisində daş dövrü abidələrinin qeydə alınmaması təəssüf doğurur, halbuki Bakı şəhəri yaxınlığında Binəqədi ərazisində paleontoloji materialların taplması Azərbaycan ərazisində ibtidai insanların yaşaması üçün əlverişli təbii coğrafi şəraitin olmasını göstərir [2]. Elə həmin illərdə arxeoloq Məmmədəli Hüseynov tərəfindən Qərb bölgəsində aparılan axtarışlar nəticəsində daş dövrünün sonrakı mərhələlərinə aid olan Damcılı, Daşsalahlı mağaralarının qeydə alınması daha qədim mərhələlərin üzə çıxarılacağı haqqında inam doğurdu. Daha sonra yorulmaz alimin rəhbərliyi ilə ekspedisiya qrupu Qarabağ bölgəsində Quruçay və Köndələnçay vadilərində Azıx, ardinca Tağlar mağarasını kəşf etdi. Azərbaycanın ən qədim sakinləri haqqında biliklər mağaralarda aşkar olunan arxeoloji qazıntılar zamanı sübuta yetirildi.

Azıx mağarası dünya arxeologiyasında xüsusi yer tutaraq, özünün maddi-mədəniyyət qalıqlarına görə keçmiş SSRİ ərazisində yeganə abidə sayılır. Burada aparılan kompleks tədqiqatlar zəminində arxeoloqlarla yanaşı, paleozooloqlar, paleogeoloqlar, paleogeomorfoloqlar, paleontoloqlar və başqa elmi sahələrin mütəxəssisləri yaxından iştirak etmişdir [1]. Mağarada aparılan tədqiqatlar mərhələlərlə davam etmişdir. Abidə 1960-cı ildə Qarabağ bölgəsində, hal-hazırda Ermənistan dövlətinin işğalı altinda olan Füzuli rayonu ərazisində, Quruçayın sol sahilində, dəniz səviyyəsindən 1400 metr yüksəklikdə olan Tuğ və Tağlar silsiləsindəki əhəng qayalıqda qeydə alınmışdır. Mağarada aparılan çoxillik axtarışlar onun dünya miqyasında böyuk dövrü əhatə edən ibtidai icma cəmiyyətinin çoxtəbəqəli qədim paleolit düşərgəsi olmasını sübuta yetirmişdir [9].

Qazıntılar nəticəsində müəyyən edilmişdir ki, ilk insanlar Azıx mağarasına Quruçay dərəsindən köçmüş və həmin dərə onların əsas iqtisadi bazası olmuşdur. İstehsal alətləri düzəltmək üçün də lazım olan xammal mağaraya Quruçaydan aparılmışdır [7]. Mağaranın alt təbəqələrindən çoxlu daş alətləri aşkar olunmuşdur. Bunlar əsasən bəsit, kobud çapacaqlardan, qəlpələrdən ibarət qazıyıcı və deşici alətlərdən ibarətdir. Bunların içərisində adi çay daşlarından düzəldilmiş iri alətlər də vardır. Belə alətlər parçalamaq, kəsmək, doğramaq üçün əlverişli sayılmışdır. Kobud çapacaqlardan isə güman edilir ki, ağac doğramaq, sümük çapmaq, öldürülmüş heyvan cəsədlərini

parçalamaq üçün istifadə edilirmiş. Daş alətlərin yanında çoxlu heyvan sümükləri də aşkara çıxarılmışdır. VII-X təbəqələrdən tapılmış daş məmulatının dünya arxeologiyasında oxşarı olmadığı və bunların tamamilə yeni bir arxeoloji mədəniyyətə aid olması müəyyən edilmiş və Quruçay mədəniyyəti adlandırılaraq Azərbaycan xalqının mədəni irsinin ilk qatı kimi tarixə düşmüşdür. Bütün bu tapıntılarla yanaşı, mağaradan həmin ərazidə əkinçiliyin formalaşmasını sübut edən əl ilə hazırlanmış kobud, qalın divarlı, forması müəyyən edilməyən saman qatışıqlı gil qabların oturacaq və divarlarına aid məxsus qırıqlar və bir ədəd sümük biz də aşkara çıxarılmışdır.

Mağaradakı altıncı təbəqənin aşağı təbəqələrə nisbətən geniş yayılması, alətlərin zənginliyi, 600-700 min illik ocaq yerinin aşkar olunması əsasında müəyyən etmək olur ki, bu dövrdə ulu icma adlanan insan dəstələri böyümüş, üzvlərinin sayı artmışdı. Ümumilikdə, mağarada üç yerdə müxtəlif dərinlikdə üç ocaq yeri qeydə alınıb öyrənilmişdir. Ocaq yerinin müəyyən olunması odun əldə edilməsi tarixi ilə bağlı yeni fikirlərin yaranmasına gətirib çıxarmışdır. Çox güman ki, qədim insanlar odu süni yolla əldə edirmişlər. Ocaq yerlərindən birinin sahəsi 10 kv.m olub, daşdan tikilmiş dairəvi divarın daxilində aşkar edilmişdir. Divar qalığının hündürlüyü 30 sm-dən artıq olmamışdır [7]. Ocaq yerinin kənarlarının daşlarla hörülməsi qədim insanların tikinti vərdişlərinə malik olmasından xəbər verir.

Azıx mağarasında üzə çıxarılmış qədim insanın çənəsi ən böyük elmi nailiyyət hesab olunur. Məmmədəli Hüseynov tərəfindən tapılmış çənə sümüyü üzərində professor Dəmir Hacıyev uzun müddət elmi tədqiqat işi aparmışdır. Çoxtəbəqəli Azıx düşərgəsinin V təbəqəsindən tapılmış bu tapıntı ölkəmizin ərazisində ən qədim insana məxsus olub, 350-400 min il bundan əvvəl Azərbaycan ərazisində yaşamış 18-22 yaşlı qadına məxsusdur. Fiziki tipinə görə bu çənənin sinantrop tipli insanla neandertal adamı arasında keçid mərhələsində olması müəyyən edilmiş və ona şərti olaraq azıxantrop, yəni Azıx adamı adı verilmişdir [2]. Həmin çənə hal-hazırda Azərbaycan Tarixi muzeyində saxlanılır.

Qeyd olunanlara əsasən müəyyən olunmuşdur ki, tikinti kompleksinin, ocaq qurğularının meydana gəlməsi qədim insanlar arasında ünsiyyətin yaranmasına səbəb olmuş və onları bir yerə toplamışdır. Bir fakt da danılmazdır ki, əgər Azıx paleolit düşərgəsi Azərbaycan ərazisində ibtidai insanların uzun müddət yaşadıqlarını göstərmişdirsə, Tağlar mağarasındakı tədqiqatlar neandertal tipli insanların inkişaf edib, müasir insanların ulu əcdadlarının bu ərazidə meydana gəlməsini elmi əsaslarla sübuta yetirmişdir [5].

Onu da qeyd etmək vacibdir ki, Azıx və Tağlar paleolit düşərgələrindən elmi tədqiqatlar zamanı kəşf olunmuş maddi-mədəniyyət qalıqları beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılmış, onların əhəmiyyəti dünya miqyaslı konfranslarda təhlil olunmuş və öz layiqli qiymətini almışdır. Hər iki mağaranın aşkar olunmuş maddi-mədəniyyət nümunələri 1981-1982-ci illərdə Parisin "İnsan" muzeyində nümayiş etdirilmiş və "Avropanın ilk sakinləri" adlı əsərdə həmin düşərgələr haqqında geniş məlumat verilmişdir. Təkcə azıxantropun elmi əhəmiyyəti beynəlxalq ədəbiyyatda öz əksini taparaq, onun dünya arxeologiyasında yüksək yer tutduğu qeyd olunmuşdur. Ancaq əfsuslar olsun ki, Azıx mağarası kəşf olunduqdan sonra bədxah qonşularımız onu erməniləşdirmək məqsədi ilə primitiv yalanlara əl atmışlar, lakin onların bu cəhdləri öz elmi əsasını tapmamışdır. Bunlar Azıx mağarasında guya aşel mədəniyyətinə aid erməni qadınının heykəlinin tapılması, hətta libasının da müasir erməni qadının geyiminə bənzəməsi, 150 min il yaşı olan küp qabların aşkara çıxarılması və bu kimi digər cəfəngiyyat və xülyalardan ibarət olmuşdur. XXI əsrin əvvəllərindən də dövri mətbuatda ermənilərin işğal etdikləri Qarabağ ərazisində, xüsusilə də Azıx mağarasında aparılan qazıntılar haqqında bir sıra məlumatlar dərc olunmuşdur. Misal üçün, 2003-cü il sentyabr ayında ermənilətin internet saytlarının birində "Dağlıq Qarabağın Azıx mağarasında qazıntılar davam edir" sərlövhəli məlumati verilmişdir. Orada bildirilir ki, guya Azıx mağarasında paleontoloqlar qazıntı aparırlar [4]. Halbuki arxeoloji düşərgələrdə yalnız arxeoloqlar qazıntı aparır, paleontoloqlar orada iştirakçı qismində ola bilərlər. Ermənilərin əcnəbi arxeoloqlar ilə birgə mağarada yaşı 300 min olan ayı sümüklərini də tapdıqları mətbuata məlumdur. Maraqlıdır ki, Azərbaycan alimlərinin Azıx düşərgəsində aşkara çıxardıqları mağara ayılarının, kərgədanın, öküzün və digər heyvanların sümüklərinin yaşı 600 min ilə yaxındır. Göründüyü kimi, bədxah

qonşularımızın bu fikirləri də elmi cəhətdən əsassızdır, hətta onlarda arxeologiya elminin inkişaf etməsini şübhə altına salır.

Bir məqamı da vurğulamaq vacibdir ki, beynəlxalq hüquq normalarına görə, Azərbaycan dövlətinin rəsmi icazəsi olmadan respublika ərazisində əcnəbilərin arxeoloji qazıntılar aparmaq ixtiyarları yoxdur. Bu baxımdan, Ermənistan arxeoloqlarının və onlarla işbirliyi quran əcnəbi tədqiqatçıların Azərbaycan ərazisində yerləşən dünya əhəmiyyətli abidələrdə hər hansı bir axtarış aparmaları özbaşınalıqla yanaşı, beynəlxalq elmi və hüquqi qaydaların kobudcasına pozulmasıdır. Azıx paleolit düşərgəsi Azərbaycan torpağına məxsusdur və bütün dünyada Azərbaycan abidəsi kimi tanınmışdır. Ermənilərin bu özbaşınalıqları Azərbaycan mədəni irsinə təcavüzlə yanaşı, bəşər mədəniyyətinə qarşı cinayətdir.

## Ədəbiyyat


1. Azərbaycan tarixi. Yeddi clddə, I cild. Bakı: Elm, 2007, 520 s.
2. Azərbaycan arxeologiyası (Daş dövrü). I cild. B., 2008
3. Bünyadov T. Azərbaycan arxeologiyasının oçerkləri. B., 1960
4. Cəfərov Ə. Qarabağın arxeoloji abidələri və onların tarixini saxtalaşdırmaq cəhdləri. “Xalq qəzeti”, 2005, 24 aprel, № 92
5. Cəfərov T. Azıx dünya arxeologiyasında. “Xalq qəzeti”, 2010, 6 iyun, № 121
6. Əliyev T. Qarabağın arxeoloji abidələri (ən qədim dövrdən Əhəməni dövrünədək). // Azərbaycan arxeologiyası və etnoqrafiyası, 2006, № 1, s. 58-66
7. Hüseynov M., İsmayılov Q., Quliyev N. Azərbaycanın arxeoloji abidələri (qədim daş dövrü-orta əsrlər). B., 1981
8. İsmayılzadə Q. Quruçay və Köndələnçay hövzəsində qədim mədəniyyət izləri. B., 1981
9. Мамедали Г. Древний палеолит Азербайджана (по материалам пещерных стоянок). Б., 2010


UOT 37.013

## Qloballaşan dünyada milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və inkişafı

*p.f.d., dos. Əzizova Zenfira Mirsəfər qızı*
*Əliyeva Maya Dilənçi qızı*
*Mingəçevir Dövlət Universiteti*

Milli-mənəvi dəyərlər əsasında gənc nəslin tərbiyəsi, cəmiyyətin milli-əxlaqi durumu, zaman-zaman dəyərlərin aşınması problemləri kompleks elmlərin, o cümlədən etnopedaqogikanın, etnopsixologiyanın, ədəbiyyatşünaslığın, sosiologiyanın və başqa elmlərin qarşısında duran vacib problemlərdəndir. Aydındır ki, etnosun yad, gəlmə ünsürlərə psixoloji müqaviməti, milli-mənəvi dəyərlərin bünövrəsi güclü, davamlı, sabit olmayanda yad, zərərli dəyərlərin təsirinə tez məruz qalır, özünəməxsusluğu, milli mədəniyyətini itirməyə məhkum olur.

Məhəmməd Peyğəmbər insanın mənəviyyatına böyük əhəmiyyət verərək deyirdi: “Millətim üçün üç şeydən qorxuram: alimin xətasından, münafiqin (riyakarın) Quran haqqında cəfəng danışığından və mənəviyyatı, əxlaqı məhv edən mühitdən” [1].

Təbiətin hər bir xalqa bəxş etdiyi ən qiymətli miras onun milli mənəvi dəyərləridir. Cəmiyyətin tarixi sübut edir ki, insanların mənəviyyatı, əxlaq normaları və baxışları ilə bağlı olan milli mənəvi dəyərlərin yaradıcısı xalqdır. Dünyanın ən qədim xalqlarından sayılan azərbaycanlılar da tarixən dini və dünyəvi dəyərləri uzlaşdıraraq, fərqli mədəniyyətləri bir arada yaşatmış, inkişaf etdirmiş və doğma yurdları olan Azərbaycanı sivilizasiyaların qovuşduğu bir məkana çevirmişlər.

Azərbaycan Şərqin zəngin tarixə malik ən qədim ölkələrindəndir. Onun bu günkü dininin, elminin, dilinin, mədəniyyətinin, sənətkarlığının kökləri uzaq qərinələrdən gəlir. Zamanın sərt sınaqlarından çıxmış xalqın bu mənəvi dəyərləri ilk insan məskənlərindən biri olan Azıx mağarası, sehirli Gəmiqaya yazıları, Qobustan qayaüstü rəsmləri və təkrarolunmaz örnəkləri ilə özünü dünyaya tanıtdırmışdır.

Azərbaycan xalqı tarixən formalaşmış zəngin milli-mənəvi və əxlaqi dəyərlər sistemi ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr vermiş, ülvi və saf ideallara sarsılmaz bağlılığı ilə daim özünəməxsusluğunu qorumuşdur. Bizim xalqımızda əsrlərdən bəri formalaşmış, gəlmiş adətlər vardır: kiçiyin böyüyə hörməti, böyüyün də kiçiyə qayğısı, övladın valideynlərinə hədsiz hörməti, valideynlərin də öz övladlarına olan qayğısı və məhəbbəti. Bu, bizim xalqımızın mentalitetidir. Ölkəmizi dünyada tanıdan, təbliğ edən muğam sənəti bu gün də hər kəsi heyran etməkdə davam edir. Dədə Qorqudun bizlərə əmanəti olan ozan-aşıq sənətini indi həm də muğamla davam etdiririk. Tarın, kamanın, qavalın sədaları altında Azərbaycan mədəniyyəti muğamla bütün elləri-obaları gəzir. Bu da təbii ki, Azərbaycan dövlətinin dünyada milli dəyərlərinin təbliğinə xidmət edir. Bütün dünyanı heyran edən bu milli-mənəvi dəyərlərimiz Azərbaycan xalqının müqqədəs sərvətidir. Elə buna görə də Muğamımız YUNESKO-nun dünya irsinin ilk siyahısına daxil edilmişdir.

Müasir qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı real həyatda yüksək nailiyyətlərə, mütərəqqi dəyişikliklərə yol açsa da, bu prosesin tarixi-mədəni irsə, əxlaqi-mənəvi dəyərlərə müəyyən təhlükə meyilləri də özünü qabarıq göstərir. Şərq-Qərb sivilizasiyasının bir-birinə yaxınlaşdığı, bəzən də gizli və açıq mübarizələrin getdiyi bir zamanda soykökə qayıdışın, milli özünüdərkin böyük əhəmiyyəti vardır. Mürəkkəb siyasi proseslərin dünyanı çalxaladığı bir vaxtda Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev çıxışlarının birində demişdir: "Dünyada qloballaşma prosesi gedir. Biz bu vəziyyətə özümüzü uyğunlaşdırmalıyıq. Bir-birimizlə bağlı olmalıyıq, bir-birimizin əlini möhkəm tutmalıyıq ki, gücümüz daha da artsın" [2].

Azərbaycan milli-mənəvi dəyərlərinə yiyələnməklə gənc nəslin milli ruhda tərbiyə olunması məsələsi Heydər Əliyev tərəfindən əsas vəzifələrdən biri kimi irəli sürülmüşdür. Dövlət başçısı bu məsələdən bəhs edərkən belə deyirdi:"Gənclərimiz milli ruhlda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz" [3].

Milli mənəvi dəyərlər sırasında ümummilli lider Heydər Əliyev ana dilinə xüsusi önəm verirdi. Xalqımızın ümummilli lideri Heydər Əliyev rəhbərlik etdiyi bütün illərdə milli-mənəvi dəyərlərimizə həmişə qaygı ilə yanaşmış və bununla bağlı bəyanatlarla çıxış etmiş, qanunlar imzalamışdır. O, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi ruhda tərbiyələndirirməyin dövlətimiz, xalqımız qarşısında ən zəruri, həlli qaçılmaz vəzifələr olduğunu 13 avqust 2001-ci il tarixli bəyanatında da söyləmişdir: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir"[3].

Xalqın tarixən formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiyanın həyata keçirilməsi zərurəti pedaqogika elminin tanınmış nümayəndələrinin üzərinə böyük məsuliyyət qoyur. Müxtəlif təsirlər içərisində yaşadığımız bir zamanda milli dəyərlərimizi qorumaq getdikcə çətinləşir və böyük vətandaşlıq məsuliyyəti tələb edir. Milli mənəvi dəyərlər gələcək nəsillərə daha da zənginləşdirilmiş halda ötürülməlidir. Şübhəsiz, mədəniyyət dəyişmədən və zənginləşdirilmədən varlığını qoruya bilməz. Bu məqsədlə müasir pedaqogikada yaradıcı və qurucu səciyyəli hər cür fəaliyyət təşviq edilməli, yeni qabiliyyətlərin kəşf edilməsi, istiqamətləndirilməsi, dəyərləndirilməsi fəaliyyətlərinə mühüm əhəmiyyət verilməlidir. Mədəniyyətlərin bir-birinə nüfuz etdiyi və hətta bəzi hallarda assimilyasiyaya uğradığı indiki

qloballaşan dünyada Azərbaycan xalqının milli-mənəvi keyfiyyətlərini mühafizə edərək gələcək nəslə ötürməsi maddi-mənəvi irsimizin öyrənilmə və qorunub saxlanma səviyyəsindən asılı olacaqdır. Milli-fəlsəfi fikrin, əxlaqın, adət-ənənələrin yeni nəslə çatdırılması, davam etdirilməsi üçün milli-mənəvi abidələrin, bədii ədəbiyyatın rolu həqiqətən böyükdür. Milli dəyərləri qorumaqla biz həm də tariximizi qorumuş oluruq. Özümüzü dərk edirik. Milli dəyərlər sayəsində cəmiyyət inkişaf edib və müasirləşə bilər. Milli dəyərlərini qoruya bilməyən xalq bir gün məhv olmaq qorxusu ilə üzləşə bilər. Milli dəyərlərini anlamayıb müasirliyə can atan millətin gələcəyi isə zülmət qaranlığa bənzəyir. İnamla irəliləmək üçün yolumuza işıq saçan dəyərlərimizi qorumalıyıq. Öz milli-mənəvi dəyərlərimizi ümumbəşəri dəyərlərlə birləşdirib, zənginləşdirib Azərbaycan xalqının ümumi dəyərlərini, mənəvi dəyərlərini yaratmalıyıq.

### Ədəbiyyat


1. Sabir Həsənli 101 hədis. (Həzrəti Məhəmməd Əleyhissəlamın söylədikləri.) Bakı: Gənclik nəşriyyatı, 1990, 32 səh.

2. 2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı. 2008-ci il 10 iyun.

3. Heydər Əliyev Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatı, 13 avqust 2001-ci il. Xalq qəzeti 14 avqust 2001-ci il.



UOT 069.4(09)


## Azərbaycandakı epiqrafik abidələrin restavrasiyası və onların bu günki durumu haqqında


*t.f.d. Əliyeva Həbibə Mirpaşa qızı*

*AMEA Milli Azərbaycan Tarixi Muzeyi*


Qafqazın ən önəmli mərkəzlərindən olması səbəbindən Azərbaycan bütün dövrlərdə diğər ölkələrdə yaşayan xalqların nəzər diqqətini cəlb etmişdir. Tarixi Azərbaycan torpaqlarında məskunlaşan müxtəlif dillərdə və fərqli əlifbalarda yazan xalqlara aid epiqrafik yazı nümunələri əsrlərlə mövcud olmuşdur. Dövrümüzə qədər gəlib çıxan bu maddi mədəniyyət abidələri üzərindəki müxtəlif əlifbalarda yazılan kitabələr və yazılı mənbələrdə də bu barədə söylənilən fikirlər bunu sübut edir. Məs. “Albaniya tarixi”nin müəllifi Moisey Kalankatuklu öz əsərində romalı, yunan, alban və digər xalqların da adların qeyd edir [7].

Azərbaycan xalqının qədim və orta əsrlər tarixinə aid yazılı qaynaqların azlığı, bu qaynaqların böyük bir qisminin yabançı (yunan, iran, ərəb, çın, rus, erməni və b.) xalqlar tərəfindən məhv edilməsi və bu türk dilli xalqlar haqqında kənar mənbələrdə bir-birnə zid məlumatlar müxtəlif dövrlərdə araşdırılmasına ciddi problemlər yaratmışlar. Arxeoloji qazıntılardan əldə olunan materiallar və epiqrafik abidələr isə bu problemin çözümündə özəl mövqeyə sahibdir [1].

Bunu da qeyd etmək lazımdır ki. Azərbaycanın qədim yaşayış yerlərində arxeoloji qazıntılar XIX əsrin sonunda başlasa da əsasən, II Dünya müharibəsindən sonra daha geniş inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu arxeoloji tapıntılar və müxtəlif əlifbalarda olan epiqrafik abidələr vasitəsilə qədim Azərbaycan-türk xalqlarının Azərbaycanda e.ə. və orta əsrlərdəki yaşayış tərzini, mədəniyyətini, tarixini əks etdirən maddi mədəniyyət abidələrinin rolu böyükdür [2].

Yazılı mənbələrlə yanaşı Azərbaycan tarixinin açıqlanmasına xidmət edən faktlardan biri də ilk qayaüstü rəsmlərdən, ən geniş yayılmış əlifbalara qədər çox yazı örnəyinin üzərində qalmaqdadır. Belə yazı örnəyindən biri latın kitabəsidir. Qobustanın Böyükdaş dağı ətəyində 1948-

ci ildə arxeloq İ.M.Cəfərzadə tərəfindən aşkar edilmiş bir qaya parçası üzərində Roma qoşunlarının qədim Azərbaycanda olmasını sübut edir. Kitabədə Roma imperatoru Domisianın (81-96-cı illər) və XII Roma Legionunun yüzbaşısı Lusi Yuli Maksimin adları həkk olunmuşdur [9]. Lakin, son zamanlar təbii fəlakət, heyvan və cahil insan faktoru səbəbindən bu abidələrin "yox olma" təhlükəsilə qarşılaşdığı üçün onların qorunması, restavrasiya və konservasiyası məsələsi gündəmə gəlmişdir. Belə ki, Milli Azərbaycan Tarixi Muzeyində 2004-2007-ci illərdə aparılan bərpa zamanı bəzi epiqrafik abidələrin də restavrasiyası italyalı mütəxəsisslərə həvalə olunmuşdur. Yüksək səviyyədə aparılan tarixi abidələrin bərpasından sonra Qobustandakı latın kitabəsinin də restavrasiya və konservasiyasını 2008-ci ildə Milan Unversitetinin professoru Lyuci Skrinziya həvalə olunmuşdur. Açıq havada məhv olma təhlükəsi qarşısında qalan kitabəni maharətli bərpaçı layiqincə restavrasiya və konservasiya etməyi bacarmışdır [10] ( şəkil 1).

Bizə məlumdur ki, XIX əsrin əvvəllərindən Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində aşkarlanan qədim yazı nümunələri Milli Azərbaycan Tarixi Muzeyində nümayiş olunur [4]. Muzeydə qorunan ən nadir sayılan qədim epiqrafik abidələrdən biri IV-VII əsrlərə aid alban kitabəsidir (şəkil 2).

1946-1953-cu illərdə Mingəçevir SES-in tikintisi ilə əlaqədar arxeoloq S.M.Qazıyevin rəhbərliyilə aparılan arxeoloji qazıntılar nəticəsində əldə olunan çoxsaylı maddi mədəniyyət abidələrinin aşkar edilməsi Azərbaycan tarixi üçün olduqca böyük əhəmiyyətə malik olmuşdur. Belə ki, ekspedisiya nəticəsinə görə ilk tunc dövründən tutmuş orta əsrlərədək olan dövrə aid zəngin material aşkar etmiş və muzeyin Arxeologiya fonduna təhvil verilmişdir. Bu materiallar içərisində seçilən əsasən nadir alban kitabəsi və saxsı küp fraqmentleri, xeyli şamdanlar Albaniyanın Ön Asiya ölkələri ilə qarşılıqlı əlaqələri barəsində danışmağa imkan verir [8]. Azərbaycanın Mingəçevir ərazisindən 1948-ci ildə məbəd tikintisi yerindən tapılan bu kitabə, dördkünc olub onun bir yanı üzündə boyunlarında lent bağlanmış od və alov ilahəsinin simvolu sayılan tovuz quşu və aralarındakı lalə gülü təsviri, relyefdən yuxarıda daşın karniz hissəsində 70-ə yaxın alban hərflərindən ibarət olan yazı həkk edilmişdir [12].

Muzeylərə və mədəniyyət ocaqlarına böyük qayğı göstərən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Milli Azərbaycan Tarixi Muzeyini tarixi memarlıq abidəsi kimi bərpa və mühafizə edilməsi üçün 2004-ci ilin son rübündə böyük vəsait verməyə qərar verdi. 2004-2007-ci illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin birbaşa təşəbbüsü ilə dünya standartları səviyyəsində təmir və bərpa olunan muzeydəki epiqrafik yazılı daş kitabələr italyalı mütəxəssilər tərəfindən restavrasiya edildi. Muzeyin ekspozisiya zalında IV-VII əsrlərə aid olan alban kitabəsi italyanlı mütəxxəsis tərəfindən restavrasiya olduqdan sonra açıq formada yox, vitrində nümayiş olunmaqdadır.

Digər kitabə isə italyalı mütəxəssislər tərəfindən restavrasiya olunan İslam epiqrafik memarlıq abidəsinə aiddir. Belə ki, Azərbaycanın Böyük Ərəb Xilafətinin tərkibinə qatılması (VIII əsrin sonu), vahid din olan İsalama etiqad, ərəb dilində ibadət, elmi, rəsmi və ünsiyyət dili kimi yayılması maddi və mənəvi mədəniyyətimizdə əsaslı dəyişikliklərə səbəb oldu. Azərbaycanda memarlıq, əlyazma kitablar, sənədlər, təsviri, tətbiqi sənətlərdə - ornamentlər ilə yanaşı ərəb əlifbasının kufi, suls, nəsx, nəstəliq, reyhani və başqa xətt növlərindən dövrün sənətkarları və kalliqrafları istifadə etmişdilər [3].

Lakin, Azərbaycanın qədim İslam memarlıq abidələri keçmiş Sövetlər dövründə, yəni 70 il (1920-1991) ərzində bir qismi ya məhv edilmiş, ya da digər ölkələrə daşınmışdır. Bu maddi mədəniyyət nümunələrimizin cüzi hissəsi isə günümüzə qədər gəlib çatmışdır. O dövrdə dinə qarşı çıxan ateist dövlət başçıları memarlğ abidələrimizin dağıdılmasına və yaxud da anbarlara çevirlməsinə şərait yaratmışdılar. Lakin, son zamanlar Azərbaycanın memarlıq abidələrinin bərpa məsələsi yüksək səviyyədə həll olunmağa başlanıldı. Məhz, Azərbaycan Respublikasında qədim və orta əsrlərə aid tarixi abidələrin bərpası 1991-ci ildə Azərbaycan yenidən müstəqiyyiyini qazandıgından sonar geniş vüsət aldı.

Bunun sübutu olaraq, Milli Azərbaycan Tarixi Muzeyində nümayiş olunan bir neçə İslam epiqrafikasına aid kitabələrin də restavrasiya məsələləri həll olundu. Onlardan biri XI əsrə aid olan ağ daşdan oyma üsulu ilə üzəri kufi xətlə həkk olunan ərəb dilində Şəmkir göz qalasının

kitabəsidir. XI əsrdə inşaa olunan Şəmkir minarəsinin hündürlüyü 60 m-ə yaxın olmuşdur ki, bu da gecələr mayaka rolunu oynayırdı. XIX əsrin ikinci yarısınacan Səlcuqlar dövrünün mil minarələrindən, hündürlüyü ilə seçilən, səyyah və mütəxəssisləri heyrətləndirən Şəmkir minarəsi dağılıb yox olmuş və kitabələi parçalanaraq torpağa qatışmışdır [6]. Məşhur epiqrafçı alim Məşədi xanım Nemət qeyd edir ki, bu kitabə təsadüfən aşkarlalarkən daş bir neçə hissəyə parçalanmışdır (şəkil 3). Bu səbəbdən də kitabənin bəzi həriflərini oxumaq mümkün olmamışdır. Azərbaycanın XI-XX əsrin əvvələrinə aid olan epiqrafik abidələrimizin tədqiqatçısı M. Nemətin bu kitabənin muzeyə gətirilməsində və oxunmasında rolu çox böyükdür [11].

Hazırda mükəmməl restavrasiyadan sonra Şəmkir minarəsinin nadir kitabəsi ekspozisiyada nümayiş etdirilir. Lakin, qeyd etmək lazımdır ki, muzeylərmizdə və başqa üzəri örtülü vəziyyətdə olan sərgi salonlarındakı epiqrafik kitabələrin qorunması digər bölgələrdə açıq havada saxlanılan muzeylər üçün örnəkdir. Muzeylərin ekspozisiya zallarını bəzəyən az sayda epiqrafik abidələr qapalı vəziyyətdə qorunarkən, açıq havada qalan daş əsərlərimiz təbii şəraitdə heyvanların və bəzi cahil insanların üzündən "yox olma" təhlükəsilə qarşılaşaraq məhv olurlar. Açıq havada və muzeylərmizdə hələ də bərpasına ehtiyac duyulan maddi məddəniyyət abidələrimiz var. Bunun üçün isə professional bərpaçı mütəxəssislərə ehtiyac duyulur. Buna misal olaraq, Milli Azərbaycan Tarixi Muzyinin "Xanlıqlar dövrü" adlı ekspozisiya zalında Azərbaycan xanlarına aid mərmərdən yonulmuş baş daşları möhtəşəmliliyi ilə seçilir. Bunlardan biri- mərmər üzərində nəstəliq xətlə fars dilində həkk olunan kitabədir. Qarabağ torpağının muzeymizdəki yadigarı olan Qarabağ xanı Pənah xan Cavanşirin (ölüm tarixi h.1172 =m.1758-1759) məzarüstü qəbir daşıdır ki, daş aşağı hissəsindən bir parça sınmışdır. Digər kitabə isə Azərbaycanın vahidliyi uğrunda çalışan Quba xanı Fəth Əli xanın (ölüm tarixi h.1203=m.1788-1799) mərmərdən hazırlanmış və üzərində ərəb və fars dilində nəstəliq xətti ilə kitabə həkk olunmuş məzar daşıdır[11]. Epiqrafik abidə paralel olaraq iki hissədən horizontal vəziyyətdə sınmışdır. Birinci üfüqi xətt SSRİ-nın ateizm ideologiyasının vurduğu ziyanın sübutudursa, digər xətt isə eksponat daşınarkən ciddi zədə alması səbəbindəndir. Belə ki, 1936-cü ildə Bibiheybət məscidini bolşeviklər dinamitlə partladarkən onunla yanaşı, yaxınlığındakı qəbir daşları da parçalanmış və məhv edilmişlər. Oradakı, yüzlərlə qəbir daşları kimi Fətəli xanın da baş daşı partlayış nəticəsində sınmış və hal-hazırda bu daşın restavrasiyasına ehtiyac duyulur (şəkil 4).

Lakin, əlimizdə olan maddi mədəniyyət abidələrimizdən başqa, həmçinin erməni işğalçılarına məruz qalan minlərlə epiqrafik tarixi abidələrimiz bu günə kimi məhv olma təhlükəsindədir. Ərazimizdəki yazılı abidələrimiz ilk və orta əsrlər Azərbaycanın sosial, siyasi, mədəni həyatından nadir məlumatlar verən, bəzən yeganə mənbələrdir. Onlara əsasən qədim türk tayfalarının Cənubi Qafqazda məskunlaşma arealı təyin edilmiş və Azərbaycanın tarixi ərazisi müəyyənləşdirilmişdir. Bu da öz növbəsində bizə qarşı bu gün ərazi iddiaları irəli sürən və torpağımızın 20% işğal edən bədxahlarımıza tutarlı cavabdır.

Azərbaycan ərazisində qeydə alınan epiqrafik abidələr sırasında ərəb qrafikalı kitabələr qədimliyi, çoxluğu və müxtəlifliyilə seçilir. Onların da böyük bir qismi bu gün İran, Ermənistan, Gürcüstan ve Dağıstan sərhədləri içində qalan tarixi Azərbaycan torpaqlarındadır. Maraqlıdır ki, ərəbdilli kitabələrin Qafqazdakı ən qədim örnəklərinə daha çox Azərbaycan ərazisində rast olunur.

Daşınan və daşınmayan tarixi memorial abidələr alimlərimiz tərəfindən araşdırılmalı və bu epiqarfik abidələrin məhv olmasının qarşısının almaq məqsədilə tədbirlər görülməlidir.

## Ədəbiyyat


1. Alyılmaz C. Azerbaycanda Eski Türk İzleri / I Uluslararası Uzak Asyadan Ön Asyaya Eski Türkçe Bilgi Şöleni Bildirileri. Afyon, Karahisar: Afyon Kocatepe Universitesi Yayınları, 2010, s. 9-23.
2. Azərbaycanın Tarixi Abidələri. Bakı: AEA nəşriyyatı, 1958, 148 s.
3. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. B.: Azərnəşr, 1989, 336 s.

4. Əliyeva H.M. Azərbaycandakı Muzeylərin Bugünki Durumu //TÜRKSOY – Uluslararası Forum Türk Dünyasının Kültürel Mirası ve Müzeler Bildirilər Kitabı (üç dildə) // Bursa- İstanbul, 8-12 kasım 2013, Bursa – 2015, s. 22-41.
5. Xəlilbəyli G. Qədim xalq sənəti – xəttatlıq "Şərq qapısı" qəzeti, 22 dekabr 2012-ci il, № 243 (20.648)
6. Qiyasi C. Nizami dövrünün memarlıq abidələri. Bakı:İşıq nəşriyyatı, 1991, 51 s.
7. Moisey Kalankatuklu, "Albaniya tarixi". Mxitar Qoş, "Alban salnaməsi". Ziya Bünyadovun tərcüməsində, Bakı, Elm, 1993, 296 s.
8. Алиев К.Г. Античная Кавказская Албания. Баку: Азернешр,1992, 238 с.
9. Джафарзаде И.М. Гобустан. Баку: Азернешр. 1973, 162 с.
10. Луиджи Скринзи. Автограф Центуриона // İRS - Наследие, 2008, № 36 с. 60-63
11. Неймат М.С.. Корпус эпиграфических памятников Азербайджана. Баку, Элм, 1991, 248 с.
12. Тревер К.В. Очерки по истории и культуре Кавказкой Албании. Москва-Ленинград: Изд-во АН СССР, 1959, 389 с.
13. Ямпольский З.И. К римской надписи в Азербайджане // Известия АН АзССР, 1949, №1, с. 83-89


Şəkil 1


Şəkil 2


Şəkil 3


Şəkil 4

UOT 321.74

# Demokratiyanın əsas nəzəri modelləri

*s.f.d. İsmayılov İlham Mehdixan oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Neçə minilliklərdir ki, düşüncələrdə formalaşmış demokratiya anlayışı cəmiyyətşünaslıq elmində ən qədim terminlərdən biridir. Müxtəlif zamanlarda, əsrlərdə siyasi fikir tarixində bu anlayışa birmənalı olmayan şərhlər verilmişdir. Əsrlər boyu dəyişiliklər baş verdikcə və cəmiyyətin siyasi mənzərəsi mürəkkəbləşdikcə demokratiyaya müraciət edilmiş və o, labüd olaraq müxtəlif doktrinalar çərçivəsində müxtəlif şərhlərə məruz qalmışdır.

Demokratiya ideyası düşüncələrə hopduqca, anlayışın özü yeni çalarlar kəsb etdikcə onun müvafiq modelləri də yaranmağa başlayır. Demokratik prosesin subyekt –obyekt münasibətləri müasir demokratiyanın meyarları barədə söyləməyə imkan verir. Lakin sonuncunu mürəkkəbləşdirən hal budur ki, demokratiyanın ideal forması ilə onun real formasının təcəssümü arasında həmişə ucunun mövcud olur. Belə bir ziddiyyəti nəzərə alan italiya politoloqu N.Bobbio qeyd edir ki, demokratiya bir-birinə doğru gələn proseslərdir: idealdan reallığa və reallıqdan ideala gedən prosesdir ki, bunların da gedişində hər ikisinin birləşməsi baş verir [5].

Beləki, fransız sosioloqu A.Turen demokratiyanın aşağıdakı üç ölçüsünü göstərir: hakimiyyətin məhdudlaşdırılması (yəni hakimiyyət bölgüsü və dövlətlə vətəndaş cəmiyyəti arasında daha çevik münasibətlərin yaradılması), siyasi aktorların təmsilçiliyi və vətəndaşlıq [3]. Burada, əsasən, demokratiyanın institutsional cəhətləri göstərilir. Bizə elə gəlir ki, prosessual aspektdə demokratiyanın empirik səviyyədə qavranılmasının daha dəqiq və sadə əlamətlərini Q.Sorenson verə bilmişdir. O, demokratiyanın meyarları kimi demokratik iştirakı, yarışı (yəni siyasi rəqabəti) və vətəndaş və siyasi azadlıqları qəbul edir [8].

Bütün bunları demokratiyanın nəzəri modellərini tipikləşdirmək zərurəti şərtləndirmişdir, onları da meydana gətirən siyasi inkişafın real praktikasıdır. Müasir modellərin tipikləşdirilməsinin ilk cəhdlərindən biri Kanada politoloqu K.Makfersona məxsusdur. Bu model sonralar D.Xeld tərəfindən daha dərin işlənmişdir.

Bu, ilk növbədə liberal demokratiya ideyalarına, yəni demokratiya ideyalarını liberalizm ideologiyası və siyasəti məcrasında inkişaf etdirən nəzəriyyə və konsepsiyalar məcmusuna aiddir. İnsanın həyat, azadlıq və xüsusi mülkiyyət hüquqları liberal konsepsiyalarda mərkəzi problem olmuşdur. Yarış elitizmi konsepsiyası liberal demokratiyanın vaxtaşırı böhranlarına bir reaksiya kimi meydana gəlmişdir. Təmsilçi idarəetmənin erroziyaya uğramaq təhlükəsini qeyd edən konsepsiyanın müəllifləri, məsələn, M.Veber və V.Şumpeter demokratiyanı daha istedadlı və səriştəli hakim elitanın seçilməsi metodu kimi nəzərdən keçirmişlər [4].

Yarış elitizminin modelinin müxtəlif variantlarından biri M.Veberin plebissitar demokratiya nəzəriyyəsidir. Əgər Veberin konsepsiyasının məntiqindən çıxış edilsə, belə bir mülahizə irəli sürmək olar ki, liberal demokratiyanın inkişafı prosesində parlamentdə fərdi müstəqil deputatların təmsilçiliyi tədricən siyasi partiyaların təmsilçiliyi ilə sıxışdırılır. Siyasi partiyalar isə öz növbəsində vahid istiqaməti işləyib hazırlayır və ciddi intizam yaradaraq bürokratik təşkilata çevrilirlər.

Partiyalarda hakimiyyət partiya aparatında sistematik çalışanlarda qalır və son nəticədə peşəkar siyasətçilər ətrafında cəmləşirlər. Belə halda partiya maşını öz tərəfdarları üzərində, parlament üzvləri daxil olmaqla, nəzarət mexanizmini müəyyən edirlər. Nəticədə belə vəziyyət yaranır: partiyalar parlamentdə üstünlük təşkil edirlər, liderlər isə partiyalarda dominant rol oynayırlar. M.Veber qeyd edir ki, belə bir vəziyyət partiyanın başçısını seçmək üçün mühüm əhəmiyyət kəsb edir. Partiya başçısı yalnız parlamentin başı üstündən keçməklə maşına tabe olana tabe olur. Başqa sözlə, belə maşınların yaradılması plebissitar demokratiyanın mövcudluğunu bildirir. V.Şumpeterin nəzəriyyəsinin əsasında demokratiyanın klassik və müasir metodlarının

qarşıqoyulması yerləşir. Liberalizmin klassik nəzəriyyəsinə görə, “demokratik metod siyasi qərarların qəbul edilməsinin institutsional vasitələrinin elə məcmusudur ki, bunların köməkliyilə seçkilər vasitəsilə xalqın özünə fərdləri seçmək problemini həll etməklə ümumi neməti həyata keçirmək hüququ verir [7].

Lakin Şumpeterin fikrincə, belə metodun böyük qüsuru ondadır ki, müxtəlif fərdlər ümumi nemətə müxtəlif məzmun verirlər. Nəticədə demokratiya reallıq deyil, daha çox ideal fenomenə çevrilir. Buna görə də Şumpeter klassik şərhin əksinə olaraq demokratiyaya öz yanaşmasını təklif edir: demokratik metod siyasi qərarları qəbul etmək üçün elə bir institutsional quruluşdur ki, burada seçicilərin səsləri uğrunda rəqabət mübarizəsi yolu ilə fərdlər qərar qəbul etməklə hakimiyyəti əldə edirlər [7].

Yarış elitizmi konsepsiyasından fərqli olaraq plüralist modelin nümayəndələri (R.Dal, D.Trumen) çoxlu sayda hakimiyyət mərkəzlərinin olmasında israr edirlər və bununla həm də siyasi qərarların qəbul edilməsi mərkəzlərinin olmasını zəruri sayırlar. Siyasi liderliyin mühümlüyünü inkar etməyən plüralist demokratiya tərəfdarları hesab edirlər ki, hər hansı bir elitanın bütün cəmiyyətin maraqlarının təmsilçisi olması mövqeyi özünü doğrultmayır.

Poliarxiya konsepsiyası belə bir reallıqdan çıxış edir ki, demokratiya nəzəriyyəsində demokratik inkişafın yüksək dəyərləri və məqsədləri üzrə son konsensusa nail olmaq mümkün deyil, istər azadlıq, sosial-iqtisadi bərabərlik, iqtisadi ədalət və s. olsun. Lakin abstrakt idealdan praktik reallığa doğru hərəkətin gedişində bu konsepsiya baxımından, yuxarıda qeyd etdiyimiz substansional problemlər son nəticədə demokratik prosedurlar məsələsinə dirənir. Ona görə də, poliarxiyanı çox zaman prosedur-prosessual demokratiya tipi kimi nəzərdən keçirirlər.

Plüralist demokratiya konsepsiyalarına yaxın model birgə demokratiya təlimidir, yəni ictimai strukturun çoxtərkibli xarakteri ilə fərqlənən bir sıra ölkələrdə demokratik inkişaf modeli çox yaxındır. Hollandiya mənşəli Amerika politoloqu A.Leyphartın işləyib hazırladığı bu model iki əsas xüsusiyyətləri ilə fərqlənir: birincisi, həmin dövlətlərin əhalisinin müxtəlif dil, etnik, irqi, yaxud ideoloji ümumiliklərə vertikal seqmentasiyası ilə, ikincisi, onların qarşılıqlı əlaqəsinin institutlaşması prosesi ilə, özü də bu proses həmin ümumiliklərin elitaları səviyyəsində həyata keçirilir [6].

A.Leyphartın modeli bir sıra dövlətlərin (Avstriya, Belçika, Kanada, Niderland, İsveçrə) siyasi inkişaf təcrübəsinin empirik tədqiqatlarının müqayisəli təhlilinə əsaslanır. Bu model Q.Abnondun əsasən homogen, yaxud heterogen mədəniyyətləri ilə bağlı siyasi sistemlər tipologiyasını şübhə altına alan nəticəyə gətirib çıxarır. Bu tipologiyaya görə, birtərəfliliklə seçilən ingilis-amerikan sistemlərdən fərqli olaraq avropa kontinental sistemləri siyasi mədəniyyətlərin parçalanması ilə fərqlənir ki, bu da cəmiyyətdə siyasi qeyri-sabitlik faktoru ola bilər.

Demokratiyanın mövcud modellərindən çoxu ya demokratiyanın ayrı-ayrı aspektlərini vurğulayır, ya da müxtəlif dəyərlərə (məs.siyasi rəqabət, yaxud azadlıq dəyərinə) üstünlük verirlər. Bu barədə alman alimi B.Quqqenberger gələcəkdə kompleks demokratiya nəzəriyyələrinin yaranacağını vurğulayaraq göstərir ki, müasir elmin standartlarını qane edən istənilən demokratiya nəzəriyyəsi kifayət qədər kompleksli və çevik olmalıdır. Demokratiya nəzəriyyəsi özünü bir məqsədlə məhdudlaşdırmamalıdır, əksinə hakimiyyət məqsədlər barədə təsəvvürlərdən mümkün qədər çoxunun kombinasiyasından istifadə etməlidir [1].

Beləliklə, cəmiyyətin demokratikləşməsi prosesində Qərb demokratiya nəzəriyyələrindən, eləcə də, demokratik praktikada özünü doğrultmuş və sosial əhəmiyyət kəsb edən idarəetmə prinsiplərindən yaradıcılıqla, sistemin xarakterinə və spesifikasına uyğun şəkildə istifadə olunmalıdır.

## Ədəbiyyat


1. Гуггенбергер Б. Теория демократии // «Полис», 1991, №4, с. 131-138
2. Даль Р. Введение в теорию демократии. М., 1992, 450 с.
3. Демократия: методология исследования, анализ перспектив. М.: Изд-во, «Алкигамма», 2004,

4. Макферсон К. Жизнь и времена либеральной демократии. М., Высшая школа экополитики, 2011, 423 ст
5. Лобер В.Л. Демократия: от зарождение идеи до. М., 1991, ст.62
6. Лейпхарт А. Демократия в многосоставных обществах. Сравнительное исследование. М., 1998, 287 с
7. Шумпетер Й. Капитализм, социализм и демократия. М., 1995, 540 с
8. Sorenson G. Democracy and Democratization-Boulder. 1993. 294 s

UOT 72

## Tarixi abidələrin mühafizəsi, restavrasiyası və təbliği məsələləri

*mem.f.d., dos. Məmmədova Ofelya İdris qızı*
*Mingəçevir Dövlət Universiteti*

Mədəniyyət və Turizm Nazirliyinin müvafiq şöbələri, regional bölmələri, AMEA-nın müvafiq institutları, bütövlükdə alimlər, doktorantlar, magistrlər, tələbələr, yerli sakinlər, KİV-lər, yerli və beynəlxalq mədəni irs tədqiqatçıları və mədəniyyətşünaslar üçün faydalı olacaq "Mədəni irsimizə ictimai münasibət" adlı araşdırma aparılıb. Araşdırmalar Ağsu, Gəncə, Qazax, Şamaxı, İsmayıllı və Şəmkir rayonlarına aiddir. Araşdırlılan abidələrdən biri Sarıtəpə qədim yaşayış məskənidir. Sarıtəpə qədim yaşayış məskəni Qazax şəhərinin qərb qurtaracağında yerləşir. Bu yaşayış yeri hələ tunc dövrünün sonu, dəmir dövrünün əvvəllərində meydana gəlmiş e.ə. I minilliyin son rübünədək orada yaşayış davam etmişdir.

Abidənin diametri 100 metr, hündürlüyü isə 10 metr olan möhtəşəm bir təpədir. 1956-1958-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun əməkdaşları tərəfindən burada tədqiqat işləri aparılmışdır. Alimlərin əksəriyyəti Sarıtəpəni böyük tayfa ittifaqlarından birinin mərkəzi hesab edirlər. Orada tapılan iki ədəd sütun altlıqları bütün Qafqaz üçün unikal tapıntı sayıla bilər. Onlar bir çox əlamətlərinə görə qədim İranın Suz və Persopol şəhərlərindəki memarlıq abidələrinə oxşardır. Bu isə sübut edir ki, Sarıtəpədə üzə çıxarılan sütun altlıqları Yaxın Şərq analoqlarına uyğun olaraq e.ə.V-İV yüzilliklərə aiddir.

Aparılan sorğular zamanı məlum oldu ki, hazırda abidə qorunmur. Bu sorğuda yerli mədəniyyət və turizm şöbələrinin əməkdaşları, bələdiyyə üzvləri, muzey işçiləri və s. insanlar iştirak ediblər. Əksəriyyət insanlar Qazax rayonunda yerləşən abidəni Sarıtəpə kimi tanıdığını bildirib. Bəziləri onun hündür, sarı rəngli təpə olduğuna görə, bəziləri isə içərisindən sarı rəngli əşyalar tapıldığına görə belə adlandırıldığını bildiriblər.

Növbəti abidə Orta əsr Şəmkir şəhəri olub. Orta əsr müəllifləri Azərbaycanın abad və nemətlərlə zəngin şəhərləri sırasında Şəmkirin də adını çəkirlər.

Orta əsr Şəmkir şəhərinin xarabalıqları Şəmkirçayın sol sahilində, Azərbaycan Respublikasının Şəmkir rayonunun Muxtariyyə kəndinin şimalında yerləşir. Orta əsr Şəmkir şəhər yerinin öyrənilmə tarixi XIX əsrin ilk rübündən başlansa da, orada geniş miqyaslı arxeoloji qazıntılar yalnız XXI əsrin ilk onilliyinə təsadüf edir. Regionların İnkişafı İctimai Birliyinin dəstəyi ilə 2006-2013-cü illərdə Şəmkir şəhər yerində arxeoloji qazıntılar aparılmış və hazırda da tədqiqatlar davam etdirilir.

Şəmkir şəhər yerini bəziləri Şəmkir qalası, bəziləri orta əsr Şəmkir şəhər yeri, yaxud Nadirşah qalası, bəziləri isə "Şam" və "Kür" sözlərindən əmələ gəldiyini bildiriblər. Bildirilir ki, turistlər abidəni tez-tez ziyarət edirlər və abidənin qədimliyi, memarlıq xüsusiyyətləri aşkar olunan tapıntılar onlar üçün çox cəlbedicidir.

Dövlət tərəfindən abidənin yaxşı qorunduğu qeyd edilir. Belə hesab edilir ki, abidənin turizm marşrutlarına daxil edilməsi həm bölgənin inkişafına, həm də yerli sakinlərin yaşayış səviyyəsinə müsbət təsir göstərər.

Növbəti tarixi abidə Orta əsr Gəncə şəhəridir. Kür çayının sağ qolu olan Gəncə çayının hər iki sahilində yerləşən Gəncə Azərbaycanın ən qədim şəhərlərindəndir.

Orta əsr Gəncə şəhərində kompleks arxeoloji tədqiqatlar Nizami Gəncəvinin anadan olmasının 800 illiyi ilə əlaqədar olaraq 1938-1940-cı illərdə Azərbaycan SSR Dövlət Tarix Muzeyi və Tarix İnstitutunun birgə ekspedisiyası tərəfindən aparılmışdır. Arxeoloji tapıntılar hal-hazırda Milli Azərbaycan Tarix Muzeyi, Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Gəncə Tarix və Diyarşünaslıq Muzeyində qorunur və nümayiş olunur.

Növbəti abidə Cavanşir qalasıdır. Cavanşir qalası – İsmayıllı rayonu ərazisində Talıstan kəndi yaxınlığında yerləşir. Qafqaz Albaniyasında Mehranilər sülaləsinin hakimiyyəti dövründə inşa edilmiş bu qala hökmdar Cavanşirin adını daşıyır. Albaniya tarixinin son dövrləri, onun əsas vilayətlərindən olan Girdiman vilayəti və tanınmış sərkərdəsi Cavanşirin adı ilə bağlıdır. Cavanşir qalası respublika səviyyəsində diqqət mərkəzində saxlanılan tarixi abidələrimizdən olmağa layiqdir. Təəssüf ki, abidə yaxşı qorunmur.

Növbəti monitorinq Xınıslı yaşayış yerində (Qədim Şamaxı şəhəri) aparılmışdır.

Xınıslı – Şamaxı rayonu ərazisində antik və ilk orta əsrlər dövrünə aid arxeoloji abidədir. II əsrdə Klavdi Ptolemey şəhərin adını Mamexiya kimi yad etmişdir.

Tədqiqat nəticəsində tapılan ən qiymətli nümunələr içərisində Xınıslı dəfinəsi xüsusi yer tutur, abidənin qorunması haqqında heç bir göstərici nişan yoxdur.

Növbəti məntəqə Orta əsr Ağsu şəhəridir. Ağsu şəhəri XVIII əsrdə əhalisinin sayına görə Azərbaycanın ən böyük şəhəri idi. 1735-ci ilin mayında Nadir şah tərəfindən Ağsu kəndi yaxınlığında tikdirilən qala uzun müddət bu bölgədə ən əhəmiyyətli iqamətgah olmuşdur. 2010-cu ilin mart ayından etibarən MİRAS Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin təşəbbüsü ilə "Orta əsr Ağsu şəhəri" Arxeoloji Turizm Kompleksi layihə-sinin həyata keçirilməsinə başlanmışdır. Araşdırmalar göstərdi ki, abidə yüksək səviyyədə qorunur, xüsusi mühafizəçilərin, xüsusi mühafizə kameralarının quraşdırıldığı qeyd olunur.

Hər bir ölkənin tarixi abidələri xalqın qürur mənbəyi olmaqla yanaşı həm də həmin diyarı digərlərindən fərqləndirən simvolları kimi qəbul edilirlər. İstənilən ölkəyə turist marağının səviyyəsi əsasən tarixi abidələrin sayının çoxluğundan asılıdır. Lakin hər ölkədə də elə tikili olur ki, o digərlərindən kəskin şəkildə fərqlənir və həmin ölkənin simvolu olur. Romanı "Kolizey"siz, Parisi "Eyfel"siz, Nyu-Yorku "Azadlıq abidə"siz, Rio-De-Janeyronu "İsa heykəli"siz, Afinanı "Akropol"suz, İstanbulu "Ayasofya"sız, Londonu "Biq-Ben"siz təsəvvür etmədiyimiz kimi, Bakının da adı çəkiləndə bir sıra abidələr göz önünə gəlir.

Azərbaycanın çoxəsrlik tarixə malik maddi mədəniyyət nümunələri hesab olunan tarixi abidələrə zaman-zaman dövlət səviyyəsində diqqət göstərilir. Bu qədim tarixi abidələrin restavrasiyası üçün lazımi işlər görülür.

Bakının restavrasiya olunmuş abidələrindən danışanda ilk növbədə Qız Qalasınım adını çəkmək lazımdır. Abşeronun ən möhtəşəm və sirli memarlıq abidəsi olan Qız Qalası bəzi mənbələrə görə Şumerlər dövründə tikilib, digər mənbələrə görə isə XII əsrdə inşa edilib. Qala divarı üzərində bir kitabədə ərəb dilində "Davudun oğlu Məsudun qülləsi" yazılması da onun XII əsrdə tikilməsinə sübutdur.

Bakının ən müəmmalı və əzəmətli abidəsi olan Qız Qalası 2000-ci ildə UNESKO-nun Dünya Maddi İrs Siyahısına salınıb. Abidə UNESKO tərəfindən qorunur. 2011-ci ilin aprel ayından etibarən Qız Qalasının bərpası və konservasiyası işlərinə başlanıb.

2013-cü ilin aprel ayının 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Qız Qalasının bərpa və konservasiyasının sürətləndirilməsi və muzey ekspozisiyasının yenidən qurulması ilə bağlı əlavə tədbirlər çərçivəsində "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinə 2,5 milyon manat pul ayrılıb. Elə həmin ilin dekabrında bərpa işləri başa çatdırılb və Qız Qalası yerli və xarici turistlər üçün yenidən açılıb.

SSRİ dövründən fərqli olaraq, indi istər Qız Qalasına, istərsə də içərişəhərdə yerləşən Şirvansahlar abidəsinə maraq daha çoxdur.

Bakının restavrasiya olunan qədim tarixi abidələrindən biri də Şirvanşahlar Saray Kompleksidir. Şirvanşahlar saray kompleksi əvvəllər saray kimi tanınmayıb. SİKP MK baş katibi Nikita Xruşov Bakıya gələn zaman Şəki Xan sarayından fərqləndirmək üçün adına Şirvanşahlar

sarayı dedilər. Bura qədimdə ibadətgah yeri olub. Şirvanşahların bütün qohumları orada dənf ediliblər. Saray alimi Seyid Bakuvinin türbəsi də bura daxildir.

Orta əsr Şərq memarlığının nadir incilərindən biri olan Şirvanşahlar Saray Kompleksi 1964-cü ildə dövlət tarix-memarlıq qoruq-muzeyi elan edilib. 2000-ci ildə unikal memarlıq və mədəniyyər kompleksi sayılan Şirvanşahlar Sarayının Bakının qala divarları ilə əhatə edilmiş tarixi hissəsi UNESKO-nun Dünya Maddi İrs siyahısına daxil edilib.

Sarayın tikilmə tarixinə gəlincə bu, Şamaxıda 1192-ci ildə baş verən dəhşətli zəlzələ ilə bağlıdır. Şirvanşah I Axsitan bu zəlzələdə arvadı İsmət ad-Dini, oğlu və vəliəhdi Məniçöhrü və qızlarını itirir. Bu hadisədən sonra Axsitan iqamətgahını Şamaxıdan Bakıya köçürür.

Qeyd etmək lazımdır ki, tarixi abidələrimizi dünya miqyasında tanıtmaq üçün geniş təbliğat işlərinə ehtiyac vardır.

Qız Qalası və Şirvanşahlar Sarayının restavrasiyasından sonra "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən verilən məlumata görə UNESKO-nun Dünya Maddi İrs Siyahısında yer almış içərişəhərin dünya əhəmiyyətli abidələri – qız Qalası və Şirvanşahlar Sarayı kompleksi hər il minlərlə yerli və xarici qonağı qəbul edir. Daha bir memarlıq incisi olan "İcərişəhər" haqqında onu deyə bilərik ki, "İçərişəhər" xalq arasında həm də "Qala" və ya sadəcə "Qədim şəhər" kimi tanınan tarixi kvartal Bakının ən qədim hissəsi, həmçinin tarixi-memarlıq qoruğudur.

1977-ci ildə içərişəhər tarix-memarlıq qoruğu elan edilib, 2000-ci ildə isə Qız Qalası və Şirvanşahlar Saray kompleksi ilə birlikdə UNESKO Ümumdünya irsi Siyahısına daxil edilmişdir. İçərişəhər Azərbaycandan Ümumdünya irsi Siyahısına daxil edilmiş ilk obyektdir.

17 fevral 2003-cü ildə ulu öndərimiz Heydər Əliyev "Bakı şəhərində İçərişəhər Tarix-Memarlıq Qoruğunun mühafizəsi və bərpası ilə bağlı bəzi tədbirlər haqqında" sərəncam imzaladı.

10 fevral 2005-ci ildə Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin yaradılması haqqında" sərəncam imzaladı. 17 dekabr 2009-cu ildə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun inkişaf tədbirləri haqqında" prezident sərəncamına əsasən, İçəri şəhərin ərazisində uçmuş və uçmaq təhlükəsi olan, tarixi-memarlıq əhəmiyyətinə malik olmayan tikililərin yerində, ənənəvi küçə şəbəkələri olduğu kimi saxlanılmaqla turizm infrastrukturu obyektlərinin qurulması, yaşayış binalarının təmiri və mühəndis kommunikasiyalarının dəyişdirilməsi, ərazidə abadlaşdırma işlərinin aparılması üçün vəsait ayrılmışdır. Qoruq dövlət tərəfindən qorunur, onların dağıdılması, köçürülməsi və dəyişdirilməsi qadağan olunur.

İçəri şəhərdəki Məhəmməd məscidi (memar Məhəmməd ibn Əbubəkr) Almaniyanın Remmers və Avstriyanın Atelier Erich Pummer GmbH şirkətlərinin mütəxəssisləri tərəfindən bərpa edilir.

Tarixi abidələrin restavrasiyasına aid Şəki Xan Sarayını da göstərmək olar. UNESKO ilə əməkdaşlığımız abidələrin və tarixi yerlərin mühafizəsi, onların bərpası, tədqiqi sahəsində zəngin dünya təcrübəsinin öyrənilməsi üçün ölkəmizə geniş imkanlar açmışdır. Ölkəmiz artıq 23 ildir ki, UNESKO-nun tamhüquqlu üzvüdür.

## Ədəbiyyat

1. Cəfər Qiyasi: Nizami dövrü. Memarlıq abidələri. B:, "İşıq" nəşriyyatı. 1991-ci il, 258 s.

UOT 8

## Толерантность и демократизация общества

*д.ф.ф, доц. Абдиева Адалят Мурад кызы*
*Азербайджанский Университет Языков*

Как показывают исследования, идея толерантности начала актуализироваться в результате конфликтов, имевших место в Европе в XVI-XVII веках и связанных с религией. Вестфальский мирный договор, подписанный в 1648 году, считается первым документом, связанным с религиозной терпимостью. Толерантное мышление в Западном мире

формировалась в течение долгих веков в странах, где царила религиозная инициативность. Многочисленные вооружённые конфликты XX века доказали необходимость закрепления толерантного отношения между людьми поликультур на международном уровне, что и произошло в 1995 г., когда ЮНЕСКО была принята Декларация принципов толерантности, включающих уважение, принятие и правильное понимание богатого многообразия культур, направленность на достижение мира и содействие замене культуры войны культурой мира. Толерантность понятие, которое часто интерпретируется как терпимость к лицам, социальным группам, институтам, мнениям или практикам, которые считаются недопустимыми, отклоняющимися от нормы. Толерантность таким образом, включает в себя момент осуждения по отношению к объекту толерантности. Если этот момент отсутствует, то речь может идти только об отношении безразличия или согласия, а не о толерантности.

С усилением глобализационных процессов наблюдается открытая агрессивность в отношении попыток сохранить национальную самобытность, что в особенности наблюдается у европейских стран. Попытки, направленные на притеснение исламской религии и мусульманских стран, в результате усиливают в Европе, выступающей под лозунгом «будем более толерантными», дух нетерпимости. Именно в результате этого мы сегодня и наблюдаем все учащающиеся призывы к массовому изгнанию мусульман из стран Европы. Эти призывы сопровождаются также «исламофобией» и попытками террора, что говорит о наличии поистине серьезной опасности. В Европе антиисламская кампания носит поистине масштабный характер, а к мусульманам на евроконтиненте относятся отнюдь не толерантно. В некоторых Западных государствах, пытающихся «ввезти демократию» в постсоветские страны, необходима борьба с ксенофобией.

Более того, сегодня можно уверенно сказать, что межцивилизационное столкновение, начавшееся несколько лет назад с карикатуры на Пророка Мухаммада, что оскорбило мусульман, продолжается на сегодняшний день расширением запрета на ношение хиджаба.

Как правило, толерантность, проявляемая в качестве не только моральной, но и политической и правовой потребности, - это свобода мышления, сформированная на основе признания прав и свобод человека. Она нив коем случае не приветствует нарушение врожденных или приобретенных прав человека, в то же время не отрицая принципа равенства каждого перед законом.

По сферам проявления выделяют политическую, научную, педагогическую и административную толерантность. Применительно к личности психологи различают несколько видов толерантности: естественная (натуральная), моральная и нравственная.

Толерантность – это явление связано не только с демократией. Она может существовать и вне демократии. Но политическая толерантность может существовать только в демократическом обществе.

В тоже время в наши дни значительная часть граждан нетолерантна. Почему же, особенно среди молодёжи мы видим примеры национальной, культурной и иной нетерпимости С одной стороны, толерантность как социальное явление является необходимым условием выживания мировой цивилизации, здорового развития любого социального организма. Она позволяет людям разных политических, конфессиональных, этнических принадлежностей идентифицировать себя как представителей единого человеческого рода, этноса в целом, погасить крупные социальные конфликты, такие как гражданские войны, межнациональные и межконфессиональные столкновения. Толерантность в данном случае согласуется с плюрализмом во всех его проявлениях. Тоже самое касается и межличностного общения, поскольку индивидуальность предполагает разные взгляды по разным вопросам, от бытовых, личных, до глобальных.

С другой стороны, как не может быть неограниченной свободы человека, так и толерантность должна иметь более-менее очерченные рамки. Можно выделить несколько главных требований к толерантности в современном демократическом обществе:

1. уважение к мнению собеседника, соблюдение методов цивилизованного разрешения

конфликтной ситуации (уровень политической толерантности в Европе и США достаточно высок);

2. равенство сторон;

3. уважение позиции большинства;

4. уважение к обычаям, традициям, культуре титульной нации или коренного населения (Как обратный пример может служить рост конфликтности в странах Запада между коренным населением и эмигрантами, которые создают свои «чайнатауны», требуют соблюдения норм шариата в традиционно христианских странах или в светских государствах и т.п.) Образно выражаясь, «идут со своим уставом в чужой монастырь» Отсюда и рост конфликтности. Вспомнить хотя бы недавние погромы в Париже, устроенные выходцами из Азиатско-Африканского региона.

5. Признание на государственном уровне, легитимирование приоритета титульной нации, её языка, культуры. Проще говоря, эмигрант должен соблюдать законы той страны, в которую прибыл на какое-либо время или постоянное местожительства. Со своей стороны, принявшее эмигранта (мигранта) государство обязывается уважать его право на свободу совести, обычаи и традиции его народа, если они не нарушают действующих в данной стране законов.

В данный момент в государствах Западной и Центральной Европы наблюдается обратный процесс, который характеризуется убывающей толерантностью. В частности, он вызван не только опасением наплыва неевропейцев и размыванием в их массе титульной нации, но и противоречием культур.

В бедных и развивающихся многонациональных государствах имеется ещё одна причина убывающей толерантности - разница в доходах и уровне жизни коренного и некоренного населения.

Таким образом, из вышесказанного видно, что степень толерантности не является стабильной единицей. Она зависит от уровня развития демократических институтов в обществе, его моно - или полиэтнического состава, степени правовой культуры граждан, менталитета, компромиссности поликультурных сообществ, качества жизни и других относительно стабильных показателей. Эта относительность стабильности приводит к колебаниям толерантности. Давайте разъясним смысл этого закона и приведём примеры.

Имеются и другие причины убывания толерантности в современном обществе: снижение уровня жизни, агрессивное влияние инокультуры («вестернизация» культуры), столкновение монокультур, зарождение здорового национализма как любви к своей нации, к своему языку, к своей культуре, к своим традициям, к своей истории, к своему государству, умение защищать интересы своей нации перед агрессивным натиском инородных монокультур и культурной агрессии Запада, рост числа неблагополучных семей, недостатки в воспитании, наркомания, алкоголизм.

### Литература

1. Безюлева Г.В., Шеламова Г.М. Толерантность: взгляд, поиск, решение. М.: Вербум-М, 2003.

2. Клепцова Е.Ю. Психология и педагогика толерантности. М.: «Академический проект», 2004.

3. Щеколдина С.Д. Тренинг толерантности. М.: «Ось-89», 2004.

4. Психология беженцев и вынужденных переселенцев: опыт исследований и практической работы. М.: Смысл, 2001 г.

5. nicbar.narod.ru/democraty3.htm

6. http://www.polit.nnov.ru/2006/10/10/suverendem/ Исторические перспективы "суверенной демократии" в России или "суверенная демократия" как архаичный формат суверенности элиты

7. http://www.polit.nnov.ru/2006/10/16/khrushdem/

8. www.polit.nnov.ru/2007/02/28/democracypast/

UOT 902; 94 (479.24)

## Azərbaycan Albaniyasının dəfn adətləri etno-mədəni göstərici kimi (antik dövr)

*t.f.d. Zeynalov Nizami Dilənçi oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Azərbaycan Albaniyasının antik dövrə aid olan dəfn adətlərinin etno-mədəni göstərici baxımından öyrənilməsi və təbliği böyük aktuallıq kəsb edir. Bu, bir tərəfdən, bəzi lokal variantlara malik olan erkən Alban mədəniyyətinin müəyyən edilməsində, digər tərəfdən, Albaniya ərazisində ayrı-ayrı yerli və gəlmə etnosların yaratdığı mədəni dəyərlərin hələ qədim dövrlərdən dinc yanaşı inkişaf etməsinin tarixi köklərinin müəyyən edilməsində mühüm rol oynayır. Uzun illərdən bəri "Böyük Ermənistan" xülyaları ilə zəhərlənmiş başabəla erməni "alimləri" Azərbaycan xalqının əsrlər boyu yaratdığı bütün tarixi-mədəni irsə, o cümlədən antik Albaniyanın etno-mədəni irsinə sahib çıxmağa can atırlar [2]. Odur ki, qarşıya qoyulan problemin işıqlandırılması tarixi-mədəni irsimizi yaxından tanımaq, ona sahib çıxmaq və onu təbliğ etmək baxımından da böyük əhəmiyyət kəsb edir.

Aparılan çoxillik arxeoloji tədqiqatlar Azərbaycan Albaniyası ərazisində antik dövrə aid edilən müxtəlif tipli qəbir abidələrinin mövcudluğunu üzə çıxarmışdır. Müəyyən edilmişdir ki, Albaniya ərazisində yaşayan etnoslar öz mərhumlarını sadə torpaq, küp, saxsı təknə, daş qutu, quyu, çiy kərpic sərdabə, katakomba, taxta qutu qəbirlərdə dəfn etmişlər [4]. Əlbəttə, qəbir tiplərinin bu cür müxtəlifliyi onların Albaniyanın bu və ya digər etno-sosial qruplara mənsubluğu məsələsini xeyli çətinləşdirir. Bəzi nekropollarda isə müxtəlif qəbir tiplərinin paralel şəkildə mövcud olması məsələni daha da mürəkkəbləşdirir. Nəzərə almaq lazımdır ki, antik dövrdə qəbir tiplərinin və dəfnetmə adətlərinin müxtəlifliyi təkcə, əhalinin dini dünyagörüşü və mənəvi mədəniyyəti ilə deyil, həm də etnik tərkibi ilə bilavasitə əlaqədar idi. Məhz bu dövrə aid qəbir abidələrini obrazlı şəkildə desək, həm də əhalinin "etnik pasportu" adlandırmaq olar. Lakin qəbir konstruksiyalarının müxtəlifliyinə baxmayaraq dəfnetmə adətlərinin diqqətlə araşdırılması, xüsusilə qəbirlərdən aşkar edilən maddi-mədəniyyət nümunələrindəki və dəfn ayinlərindəki oxşarlıq eyni zamanda, Albaniya ərazisindəki etno-mədəni ümumilikdən xəbər verir. Hesab etmək olar ki, artıq e.ə. IV-III əsrlərdən başlayaraq bütün Albaniyanın tarixi ərazilərini əhatə edən vahid xarakterli erkən Alban mədəniyyəti formalaşmşdı [1]. Antik Albaniyanın dəfn adətlərindən danışarkən ilk növbədə yerli və gəlmə etnoslara aid olan qəbir tiplərini və dəfnetmə ayinlərini müəyyənləşdirmək lazımdır. Aparılan arxeoloji tədqiqatlar antik dövrə aid edilən qəbir tipləri arasında sadə torpaq, küp, saxsı təknə, quyu, daş qutu qəbirlərini yerli etnoslara, çiy kərpic sərdabə, katakomba və taxta qutu qəbirlərini isə gəlmə etnik qruplara şamil etməyə imkan verir. Yerli etnoslara aid edilən qəbir tiplərinin müxtəlifliyi çox güman ki, Albaniya əhalisinin müxtəlif qəbilələrdən təşkil olunması, habelə müxtəlif dini inancların mövcudluğu ilə izah edilə bilər. Təsadüfi deyil ki, qədim yunan müəllifi Strabonun məlumatlarında albanların 26 dildə danışması, günəş, ay və ildırım tanrılarına sitayiş etməsi vurğulanmışdır [Strabo, XI, 4, 6-7]. Albanların dəfn adətləri ilə bağlı Strabon başqa bir məlumatı da xatırladır. Müəllif qeyd edir ki, "albanlar mərhumlarla birlikdə onun bütün əmlakını da dəfn edirlər, elə buna görə də ata əmlakından məhrum olaraq kasıb yaşayırlar" [Strabo, XI, 4, 7]. Beləliklə, Albaniya ərazisindəki qəbir abidələrindən aşkar edilən külli miqdarda məişət avadanlığı, əmək alətləri, müxtəlif növ bər-bəzək əşyaları, silahlar və s. albanların axirət dünyasına inamının maddi sübutu olmaqla yanaşı, həm də bu dəfn adətinin yazılı qaynaqlar vasitəsilə də təsdiq edildiyini göstərir.

Antik Albaniya ərazisində geniş təsadüf edilən dəfn adətlərindən biri mərhumların saxsı qablarda dəfn edilməsidir. Bu tip saxsı dəfn qablarına iri təsərrüfat küplərini və saxsı təknələri aid etmək olar. Küp qəbirlərinə Albaniyanın demək olar ki, əksər ərazilərində, Kür çayının hər iki sahilində, Şirvan və Mil düzündə daha çox təsadüf edilmişdir. Antik dövrə aid olan saxsı təknə qəbirləri isə əsasən Şamaxı zonasında tədqiq edilmişdir. Tədqiqatçılar arasında saxsı qablarda dəfn ayininə münasibət birmənalı olmamışdır. Bəzi tədqiqatçılar bu dəfn ayinini zərdüştlük dini ilə, saxsı

təknələrdə dəfnetmə adətini isə gəlmə əhali qrupları ilə əlaqələndirmişlər [3]. Lakin hesab etmək olar ki, saxsı qablarda dəfnetmə adətinin nə zərdüştiliklə əlaqələndirilməsi, nə də qeyri-alban elementi kimi təqdim olunması həqiqətə uyğun deyildir [1]. Çünki istər küplərdə, istərsə də saxsı təknələrdə dəfn edilən mərhumların təbii anatomik vəziyyəti pozulmamışdır. Məlumdur ki, zərdüştiliklə bağlı olan dəfn ayinində mərhumun sümükləri yığılaraq ayrıca dəfn edilir. Bu isə skeletin təbii anatomik vəziyyətinin pozulmasına səbəb olur. Yuxarıda göstərilən qəbir abidələrində mərhumlar eynilə digər alban qəbir abidələrində olduğu kimi, sağ və ya sol böyrü üstə bükülü vəziyyətdə dəfn edilmişdir. Digər tərəfdən, yazılı qaynaqlarda da Albaniya ərazisində antik dövrdə zərdüştiliyin yayılması ilə bağlı heç bir məlumat yoxdur. Görünür, antik Albaniyanın böyük bir hisəsində əhalinin dini dünyagörüşündə öz mərhumlarını saxsı qablarda dəfn etmək ayini mövcud olmuşdur. Bu isə o deməkdir ki, Albaniyada mövcud olan küp və saxsı təknə qəbirləri etno-mədəni və dini pərakəndəliyi deyil, əksinə, alban qəbilələrində eyni dini inama əsaslanan dəfn ayinində müxtəlif tipli saxsı dəfn qablardan istifadə edildiyini göstərir [1].

Antik Albaniya ərazisindən aşkar edilən qəbir abidələrində odla bağlı olan dəfn ayinlərinə də rast gəlinmişdir. Od ayini icra edilmiş qəbirlər əsasən Şamaxı ərazisindən aşkar edilən sadə torpaq qəbirlərdir. Qeyd etmək lazımdır ki, antik Albaniyada od ayini icra edilmiş qəbir abidələrinin zərdüştiliklə əlaqələndirilməsi də yolverilməzdir. Nəzərə almaq lazımdır ki, oda inam, mərhumun ruhunun odla təmizlənməsi ayini zərdüştiliklə əlaqəsi olmayan digər xalqlarda da mövcud olmuşdur. Oda təmizləyici qüvvə kimi inanılması və dəfn zamanı od ayininin icra olunması Albaniya ilə şimaldan həmsərhəd olan Sarmatiya qəbilələrində də geniş yayılmış adət idi. Buna görə də Şamaxı ərazisindəki sadə torpaq qəbirlərində od ayininin icra olunması albanların şimal qonşusu olan sarmat qəbilələrinin və sarmatlarla qarşılıqlı əlaqələrinin təsiri ilə izah oluna bilər [4]. Lakin bununla belə, od ayini icra olunmuş qəbirlərin yerli etnoslara məxsus olması heç bir şübhə doğurmur. Çünki bu qəbirlərdəki avadanlıq və mərhumların bütün hallarda sağ və ya sol böyrü üstə bükülü vəziyyətdə dəfn edilməsi sarmat qəbilələri üçün xarakterik deyildir.

Antik Albaniya ərazsinidə ən geniş yayılmış dəfn ayinlərindən biri də mərhumların bükülü vəziyyətdə, sağ və ya sol böyrü üstə dəfn edilməsidir. Qeyd etmək lazımdır ki, bu cür dəfn adəti Albaniya ərazisində əvvəlki dövrlərdə də geniş yayılmışdır. Vətən tarixində mərhumların bükülü vəziyyətdə sağ və ya sol böyrü üstə dəfn edilməsi yerli etnoslara xas olan adət kimi qəbul edilmişdir. Çünki qəbir konstruksiyalarının müxtəlif olmasına baxmayaraq demək olar ki, bütün qəbir ölülərin bu cür vəziyyətdə dəfn olunmasına rast gəlinir. Antik Albaniya ərazilərindən aşkar edilmiş küp, sadə torpaq, daş qutu, quyu qəbirlərində ölülər bir qayda olaraq bükülü vəziyyətdə sağ və ya sol böyrü üstə dəfn edilmişlər. Hətta gəlmə etnoslara aid edilən bəzi qəbir tiplərində də bu vəziyyətdə dəfn edilmiş skeletlərə rast gəlinmişdir. Belə ki, Mingəçevir ərazisindən aşkar edilən və gəlmə alan tayfalarına aid edilən 200 qədər katakomba qəbirlərində ölülərin küpdə, bükülü vəziyyətdə dəfn edilməsi hallarına da rast gəlinmişdir. Heç şübhəsiz ki, katakombaların qəbir kamerasında yerləşdirilmiş küplərdə bükülü vəziyyətdə dəfn edilən mərhumlar yerli əhaliyə mənsub olmuşlar. Bu fakt yerli və gəlmə etnoslara məxsus mədəni dəyərlərin kəsişdiyini, bu əhali qruplarının tez bir zamanda qaynayıb-qarışdığını, katakomba və küp qəbirlərindən ibarət sinkretik bir mədəniyyətin formalaşdığını göstərir.

Vətən arxeologiyasında mərhumların sağ və ya sol böyrü üstə bükülü vəziyyətdə dəfn edilməsi adətinə münasibət birmənalı deyil. Bu adətin izahı hələ ki, qəti şəkildə həll edilməmiş qalır. Heç şübhəsiz ki, əhalinin dini dünyagörüşü ilə bilavasitə bağlı bu dəfn adəti müəyyən məna kəsb etmişdir. Maraqlıdır ki, bu dəfn adəti ilə bağlı olan dini təsəvvür qəbir konstruksiyalarının müxtəlifliyinə baxmayaraq antik Albaniyanın bütün ərazisində yayılmışdır.

Antik Albaniya ərazisindən aşkar edilən qəbir abidələrində mərhumların başlarının müxtəlif səmtlərdə qoyulması müşahidə olunmuşdur. Görünür, Albaniya əhalisi əsas etibarı ilə dəfn zamanı mərhumların başlarının hansı səmtə qoyulmasına əhəmiyyət verməmişlər. Yeganə olaraq Mingəçevirdən aşkar edilən bir sıra qəbirlərdə mərhumların başlarının şimal-qərb istiqamətində qoyulması üstünlük təşkil edir. Ehtimal ki, bu hansısa dini ayinin icrası ilə əlaqədar olmuşdur. Strabonun məlumatına görə alban qəbilələri daha çox Ay allahına sitayişə üstünlük vermişlər. Ay allahının məbədi isə İberiyanın sərhəddinə yaxın ərazidə yerləşirdi [Strabo, XI, 4, 7]. Deməli, Ay

allahının məbədi Mingəçevirdən şimali-qərb istiqamətində yerləşmişdir. Çox güman ki, Mingəçevirdən aşkar edilən bir sıra qəbirlərdə mərhumların başlarının şimal-qərb istiqamətində qoyulması Ay allahına inamla sıx bağlı olmuş və Ay allahının məbədi istiqamətində qoyulmuşdur.

Beləliklə, antik Albaniya ərazisindəki qəbir abidələri və dəfn adətləri bəhs edilən dövrdə özündə Albaniyanın etno-mədəni ümumiliyini əks etdirən erkən Alban mədəniyyətinin formalaşmasının, ayrı-ayrı etnoslara məxsus olan mənəvi mədəniyyətlərin dinc yanaşı yaşamasının göstəricisi kimi çıxış edir.

**Ədəbiyyat**


1. Xəlilov M.C. Antik Albaniyanın nəzəri arxeologiyası XX-XXI əsrlərin qovuşuğunda // Azərbaycan arxeologiyası, 2004, № 1-4, s. 31-37
2. Mahmudov Y.M. Qafqaz Albaniyasının dövlətçilik tarixi və etno-mədəni irsi Azərbaycan xalqına məxsusdur. İrəvanda antiazərbaycan hay-küyçülərinin daha bir toplantısı keçirilmişdir // AMEA Tarix İnstitutunun Elmi Əsərləri, 22-ci cild, 2007, s. 3-6
3. Османов Ф. История и культура Кавказской Албании: IV в. до н.э.- III в. н.э. (на основании археологических материалов). Баку: Тахсил, 2006, 288 с.
4. Халилов Дж.А. Материальная культура Кавказской Албании (IV в. до н.э.- III в. н.э.). Баку: Элм, 1985, 276 с.


UOT 008; 351.85

## Multikulturalizm dəyərlərinin milli-mədəni irsimizdə yeri və rolu

*p.f.d. Əliyev Sahib Hümmət oğlu*
*Nəcəfova Günel Alim qızı*
*Mingəçevir Dövlət Universiteti*

Xalqımızın öz milli mənəvi dəyərlərini yüksək səviyyədə qoruya bilməsi və inkişaf etdirməsi müasir Azərbaycanın inkişafına öz təsirini göstərmişdir. Azərbaycanda multikulturalist dəyərlər formalaşmış və cəmiyyətimizin həyat tərzinə çevrilmişdir. Ölkə Prezidentinin 11 yanvar 2016-cı il tarixli sərəncamı ilə 2016-cı il "Multikulturalizm ili" elan olunmuşdur. Qədim tarixi İpək yolu üzərində yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi formalaşmışdır. Bu gün Azrərbaycanda etnik-dini durum stabil vəziyyətdədir, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq, çoxəsrlik ənənələrə malik tolerantlıq mühiti, ayrı-ayrı dinlər və etiqadlar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətləri hökm sürür. Ölkə rəhbəri dövlət-din münasibətlərinə xüsusi həssaslıqla yanaşır, zəngin multikultiralizm ənənələrinin qoruyub saxlanması, təbliği və təşviqi istiqamətində dövlət siyasəti həyata keçirir.

Azərbaycan çoxmillətli bir məkandır. Burada tarixən bizimlə birgə yaşayan xalqlar özlərini azad, firavan hiss ediblər, çünki onlar özlərinə həmişə müsbət münasibəti görərək, əzilmədən yaşayıblar və yaşayırlar. Müxtəlif nəsillərin timsalında mədəniyyətlərini yaşadırlar. Bu gün ölkəmizdə başqa xalqların nümayəndələri öz ana dillərində, ibtidai sinif səviyyəsində olsa da, təhsil ala bilir, öz dini inanclarına uyğun ibadət edir, heç bir ögey münasibətlə üzləşmədən müxtəlif sahələrdə çalışa bilirlər. Bu da onu deməyə əsas verir ki, Azərbaycan multikulturalizmin əsas tarixi məkanlarından biridir.

Multikulturalizm eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun olan siyasətdir. O, ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların

mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmoniyasına, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir. Humanist və demokratik nəzəriyyə yaxud ideologiya olaraq multikulturalizm, tolerantlığın təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil [4].

Cəmiyyətimizdə son zamanlar tez-tez işlədilən multikulturalizm anlayışının kökündə müxtəlif millətlərdən olan insanların hər birinin şəxsiyyətinə hörmət qoyaraq, qanunlar əsasında birgə yaşaması ideyası durur. Multikulturalizm və tolerantlıq, qanunlara, bir-birinin azadlığına hörmət hissini təşkil edir.

Filosof və sosioloqlar bildirir ki, multikulturalizmlə tolerantlıq arasında sıx bağlılıq var. Tolerantlığın mövcud olmadığı yerdə multikulturalizmdən danışmaq mümkünsüzdür. Elmi ədəbiyyatda verilən məlumata görə, multikulturalizm anlayışı çox da qədim tarixə malik deyil. “Multikulturalizm”sözü ingiliscədən hərfi tərcümədə "çoxmədəniyyətlilik" (multi - çox, kulturalizm - mədəniyyətlilik) anlamına gəlir.

Multikulturalizm özündə hansısa ölkədə, eləcə də bütün dünyada mədəni müxtəlifliyin qorunub saxlanmasına və inkişafına yönəlmiş siyasəti və bu siyasəti əsaslandıran ideologiyanı ehtiva edir.

Multikulturalizm Azərbaycan xalqının həyat tərzinə, gündəlik yaşayışına çevrilib. Çünki biz hər gün bu münasibəti başqalarına göstəririk. Tolerantlıq, multikulturalizm Azərbaycanın dövlət siyasəti olmaqla yanaşı, həm də cəmiyyətin daxilinə sirayət edən, əsrlərdən bəri qanında, canında daşıdığı mənəvi məsələdir.

Azərbaycan multikulturalizmin əsas ünvanlarından, məkanlarından biri olaraq artıq dünyada məşhurdur. Azərbaycan dövlətinin apardığı siyasətin də əsas xəttlərindən biri multikulturalizmlə bağlıdır.

Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş multikulturalizm siyasəti müasir dövrdə Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müxtəlif tədbirlərdə, irimiqyaslı beynəlxalq toplantılarda çıxışı zamanı mütləq multikulturalizm məsələsinə yer ayırır. Ölkə başçısı bildirib ki, multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir: "Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir" [2].

Azərbaycanda müxəlif dini, milli dəyərlərə məxsus insanların siyasi və hüquqi bərabərliyinin təmin olunması, etnik azlıqların milli-mədəni inkişafına qanunla əsas yaradılması, cəmiyyətin də bu prosesə adi normal yaşayış qaydası kimi baxması ölkədə birliyin sarsılmazlığını təmin edir. Prezident İlham Əliyevin fikirlərinə istinad edərək deyə bilərik ki, bu gün ölkəmizdə sağlam tarixi köklərə malik multikulturalizm dövlət rəhbərliyinin siyasəti ilə daha da inkişaf edir, yeni pozitiv çalarlarla zənginləşir.

Multikulturalizmin vətəndaş cəmiyyətində həyat tərzinə çevrilməsi onun inkişafının ən yüksək mərhələsidir. Bu mərhələdə bəşəri dəyərlərin, mərhəmət, şəfqət, dözümlülük, dəyərvermə kimi hisslərin cəmiyyətdə yayılması xüsusi məna kəsb edir. Multikulturalizm ideyaları ictimai şüurda möhkəmlənir.

Azərbaycanın demokratik inkişaf sahəsində mənəvi təcrübəsi böyükdür. Dastanlarımızdan, nağıllarımızdan, klassik ədəbi nümunələrimizdən qədim demokratik prinsiplərlə bağlı yetərincə misal və nümunələr göstərmək olar. Tarix boyu Azərbaycanın mənəvi həyatında olan tolerantlıqdan xeyli danışmaq mümkündür. Bunlar, təbii ki, multikultural dəyərlərin Azərbaycan cəmiyyətinə öncədən xas olmasına bir sübutdur.

Etnik birliklərin dili, tarixi, ədəbiyyatı öz-özlüyündə öyrənilməli, onlar ölkə daxilində özlərini yad kimi hiss etməməlidirlər. Ümumazərbaycan mədəni konteksti onların hər biri üçün mənəvi məkana çevrilməlidir. Bu siyasi xətt bu gün Azərbaycan dövlətinin əsas hədəflərindən biridir.

Azərbaycanda multikultural ənənələr əsrlərdən bəri xalqımızın qəlbində, beynində formalaşmış dəyərlərdir. Bu dəyərlər Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin ən üzdə olan nümunələrinin içərisində bir inci kimi tarix boyu səpələnmiş şəkildədir. Azərbaycan da multukulturalizmin bir siyasət kimi formalaşması, ölkəmizin

multukultural ənənələrinin siyasi müstəviyə gətirilməsi bilavasitə Umummili lider Heydər Əliyevin adı ilə bağlıdır. "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhvəsini verir." - ümummilli lider Heydər Əliyevin bu fikirləri hər dəfə səslənəndə bir daha multikulturalizmin, tolerantlığın düşüncə tərzində bir fenomen olduğu öz təsdiqini tapır.

Prezident cənab İlham Əliyev əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu siyasəti uğurla davam etdirir. Azərbaycan öz həyatını multukultural dəyərlər olmadan təsəvür etmir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qeyd edir ki, "multikulturalizm ənənələri Azərbaycanda əsrlər boyu həmişə mövcud olub. Sadəcə, müxtəlif cür adlanıb, lakin mahiyyəti dəyişməyib".

Bu gün Azərbaycanın həqiqlətləri, xoş niyyəti dünyaya multukulturalizm vasitəsi ilə təqdim edilir. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən yaradılan Bakı Beynəlxalq Multukulturalıizm Mərkəzi bu sahədə atılan vacib və əhəmiyyətli addımlardan biridir. Multukulturalıizm Mərkəzinin əsas istiqamətlərində biri "Azərbaycan multukulturalizmi" anlayışını dünya ictimayyətinə çatdırmaqdır.

Bu gün "Azərbaycan multikulturalizmi" bir fənn kimi də avropalıları özünə cəlb edir. "Azərbaycan multukulturalizmi" fənni Avropanın 13 ölkəsində, Azərbaycanın 28 universitetində tədris olunur. Bu fənni öyrənmək istəyənlərin sayı günü-gündən artır. Belə ki, belə bir fənnin ölkədaxili və dünya universitetlərində tədrisinin özü də multikultural təhlükəsizlik prinsiplərindən biridir [4].

Multikultural təhlükəsizlik prinsipləri Azərbaycan kimi kiçik, amma dərin kökə və tarixə malik ölkələr üçün digər təhlükəsizlik prinsipləri qədər vacib və zəruridir. Burda sadalanan prinsiplərin Azərbaycanda bərqərar olması isə Azərbaycan vətəndaşlarının birgə səyi və əməyi nəticəsində mümkün olmuşdur. Kənar ideoloji müdaxilələrin qarşısının alınması, təxribat xarakterli meyillərin minimuma qədər zəifləməsi bu prinsiplərin həyata keçirilməsindən də asılıdır. Ulu öndərin dəqiqliklə göstərdiyi ideoloji hədəfə doğru yaxınlaşdıqca dünya bizi daha adekvat tanıyır, daha maraqla öyrənir. Bu isə Azərbaycana qarşı loyallığın ən müxtəlif məkanlarda güclənməsi deməkdir [6].

Mədəni müxtəlifliyin qorunmasında vacib şərtlərdən biri bu işlə dövlətlə yanaşı vətəndaş cəmiyyəti və onun fəaliyyətini dəstəkləyən qurumların da məşğul olmasıdır.Bunlardan Heydər Əliyev Fondu, Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və b. bu istiqamətdə real işlər görürlər.

Dövlət-din münasibətləri Azərbaycanda xüsusi yer tutur. Tolerantlıq ənənələrini qoruyub saxlamaq dövlət siyasətinin əsas prioritetlərindən biridir. Ölkəmizdə məscidlərin, katolik, pravoslav kilsələrin, sinaqoqların təmiri və tikintisini dövlət öz üzərinə götürür və bu sahədə heç bir ayrı-seçkilik yoxdur. Hər bir insanın digər dinə hörməti öz dinindən başlayır və hər bir cəmiyyətin gücü onun dini və milli müxtəlifliyindədir.

Vətənimiz öz milli, dini rəngarəngliyi, fərqliliyi ilə seçilir. Azərbaycan doğmalığın, isti münasibətin, qarşılıqlı hörmət hissinin, bir sözlə, multikulturalizmin bərqərar olduğu bir məkandır. Azərbaycan multikulturalizmin əsas məkanlarından biri kimi hələ uzun əsrlər sonra da nümunə olaraq qalacaq.

Məhz bu multikultural tarixi şəraitdə əhalinin böyük əksəriyyətini təşkil edən azərbaycanlılar müxtəlif azsaylı xalqlarla, etnik və milli qruplarla birgə öz etnik özünəməxsusluğunu saxlamaqla bərabər digər xalqların və etnik qrupların həyat tərzinə, məişətinə, adət və ənənəsinə hörmət edərək birgə yaşayış qaydalarına əməl edilmiş və mehribanlıq şəraitində yaşamışlar.

Bu gün Azərbaycanda bütün mədəniyyətlərin dəyərlərinə yüksək qiymət verilir, qarşılıqlı hörmət əsasında müxtəlifmədəniyyətlilik təmin olunur.

Azərbaycan Prezidenti İlham Əliyev bu məsələlərlə bağlı fikirlərini də çox dəqiq ifadə etmişdir. "... bütün siyasi proseslərdə, dinlərarası, millətlərarası münasibətlərdə daim dövlət dəstəyi olmalıdır. Azərbaycan Dövlətinin bu məsələlərlə əlaqədar çox düşünülmüş siyasəti vardır və ölkəmizin hərtərəfli inkişafı məhz bu şəkildə mümkün olacaqdır. Hər bir vətəndaş eyni hüquqlara

malikdir. Biz bunu təkcə rəsmi qanunlarla yox, konstitusiya ilə yox gündəlik fəaliyyətlə hər gün təsdiq etməliyik. Elə etməliyik ki, ölkəmizdə yaşayan bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq özlərini tam hüquqlu vətəndaşlar kimi hiss etsinlər. Ölkəmizin ictimai, siyasi, iqtisadi həyatında fəal rol oynasınlar" [3].

## Ədəbiyyat


1. "Dini tolerantlığın möhkəmləndirilməsi" mövzusunda Beynəlxalq konfransın materialları. 17-18 noyabr 2014-cü il. Bakı, 2014, 344 s.
2. İlham Əliyev. Azərbaycan Tolerantlıq örnəyidir. Bakı: "Elm və Təhsil", 2015, 615s.
3. İlham Əliyev. Milli, etnik, dini müxtəliflik bizim böyük sərvətimizdir və bizim üçün güc mənbəyidir. Dövlət və Din, 2015, № 05.
4. Multikulturalizm dövlət siyasətinin ən yaxşı modellərindəndir. "Azərbaycan" qəzeti, 15 yanvar 2016-cı il.
5. Zeynalov Ş. Dinlərarası dialoq: multikulturalizm perspektivindən dəyərləndirmə // Dövlət və Din, 2016, № 01
6. Tolerantlıq Azərbaycan multikulturalizmin əsas sütunudur. "Azərbaycan" qəzeti, 19 yanvar 2016-cı il


UOT 81

## Multikulturalizm şəraitində dil və mədəniyyətlərarası əlaqələr

*fil.f.d. Allahverdiyev Elşad İsa oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Müstəqillik əldə etdikdən sonra respublikamızda mədəniyyətlərarası əlaqələr daha da inkişaf etmişdir. Hazırda müxtəlif dünya dövlətləri ilə hərtərəfli əlaqələr qurulmağa başlanılmışdır. Mədəniyyət sahəsində də illərdən bəri formalaşmış əlaqələr daha da inkişaf etdirilir və genişləndirilir. Milli mədəniyyətimiz qlobal mədəni sferaya inteqrasiya edir, müasir dünyada formalaşmış müxtəlif mədəniyyət nümunələri, ədəbiyyat və incəsənət işləri də Azərbaycanda tanınır, milli mədəni prosesin inkişafına müsbət təsir göstərir.

Müasir dövrümüzdə, «mədəniyyət» anlayışının müxtəlif mənbələrdə açıqlamasını göstərmək olar. Məsələn, Vikipedia internet ensiklopediyası «mədəniyyət» sözünün əsasən 3 mənada işləndiyini qeyd edir:

- təsviri incəsənət və humanitar elmlər sahəsində əla zövq;
- simvolik fikir və sosial tədqiqatların həcmindən asılı olan bilik, inam və davranışın birləşmiş modeli;
- hər hansı təşkilat və ya qrupu xarakterizə edən rəy, dəyər, məqsəd və təcrübələrin toplusu [8].

«Azərbaycan dilinin izahlı lüğəti» də bu sözü 3 mənada şərh edir: insan cəmiyyətinin istehsal sahəsində ictimai və mənəvi həyatda əldə etdiyi nailiyyətlərin məcmusu; hər hansı bir xalqın və ya sinfin müəyyən dövrdə əldə etdiyi belə nailiyyətlərin səviyyəsi; təsərrüfat və ya zehni fəaliyyətin hər hansı birisinin inkişaf səviyyəsi; savadlılıq, elmlilik, biliklilik; cəmiyyətdə özünü apara bilmə, tərbiyəlilik; adamın tələblərinə uyğun olan həyat şəraitinin məcmusu [1].

Mədəniyyət dəyişən, təkmilləşən tarixi kateqoriyadır. Buna görə mədəniyyət də başqa ictimai hadisələr kimi inkişaf edir, şaxələnir, yeni-yeni keyfiyyətlər qazanır. Mədəniyyətin inkişafı üçün insan fəaliyyəti əsas vasitədir. Bəşəri mədəniyyət insanın fiziki və zehni, xarici və daxili fəaliyyətinin nəticəsində tərəqqi edir. Hər yeni nəslin fiziki və zehni nailiyyətləri mədəniyyətin inkişafı üçün mənbədir. Bu nailiyyətlər keçmiş nəslin təcrübəsi əsasında, ona istinad olunaraq əldə edilir [2]. Yəni, hər bir insan dünyaya göz açdığı gündən etibarən doğulduğu yerin, etnik tərkibin

və aid olduğu sosial sistemin mədəniyyətinin təsirinə məruz qalır, bu təsir altında böyüyüb inkişaf edir, həmin cəmiyyətin tərkib hissəsini təşkil edir.

Dilçilik sahəsində mədəniyyət və dil arasında əlaqələr əsasən XX əsrdən başlayaraq tədqiq edilməyə başlanılıb. Məsələyə tam aydınlıq gətirmək üçün 3 əsas sualı cavablandırmağa çalışaq:

1. Dil mədəniyyətin tərkib hissəsi hesab edilə bilərmi?
2. Bəs mədəniyyət necə, dilin tərkib hissəsidirmi?
3. Əgər mədəniyyət və dil bir-birinin tərkib elementini təşkil edirsə, onlar arasında nə kimi əlaqələr var ? Biri digərinə təsir edirmi?

Birinci sual belə bir cavabla izah olunur ki, dil özü yalnız insan müəyyən qədər özünü dərk edəndən sonra yarana bilərdi. Dil işarələr sistemidir, bu isə birbaşa mədəniyyətin predmetidir. Bu işarələr sistemini yalnız mədəni baxımdan inkişaf etmiş insan dərk edib tətbiq edə bilər. Buradan da belə nəticə çıxarmaq olar ki, dil birbaşa olaraq mədəniyyətin tərkib hissəsi deyil, burada insan faktoru var. Yəni dil yalnız insan vasitəsilə mədəniyyətin tərkib hissəsinə çevrilir, insan inkişaf etdikcə mədəniyyət də, dil də nəsillərdən nəsillərə ötürülür.

İkinci suala aydınlıq gətirən cavab ondan ibarətdir ki, mədəniyyət haqqında dilçilərin qəbul etdiyi əsas fikir onun tam şəkildə dildə əks olunmasıdır. Heç də təəccüblü deyil ki, tədqiqatçıların əksəriyyəti dili hətta mədəniyyətin güzgüsü adlandırırlar. «Dünyanın mədəniyyət xəritəsi özünəməxsus olub, müxtəlif xalqlarda fərqlənir. Bura bir neçə amil təsir edir, coğrafiya, iqlim, tarix, sosial vəziyyət, adət-ənənələr, həyat tərzi və s. Dil bütün bunları özündə əks etdirir» [4]. Dünya xalqlarının hər birinin özünəməxsus mədəniyyəti olsa da, bu mədəniyyət milli çərçivə ilə məhdudlaşmır, mədəniyyətlər bir-birinə təsir edir. Bu proses tarixi proseslərin, beynəlxalq əlaqələrin təsiri altında baş verir. Bütün bunlar isə mütləq hər bir xalqın dilində öz əksini tapır.

Üçüncü sual dil və mədəniyyət arasında əlaqələri araşdırmaqda kömək edir. Yuxarıda qeyd edilənlərdən belə bir nəticə əldə etmək olar ki, dil və mədəniyyət bir-biri ilə qarşılıqlı asılılıq vəziyyətindədir. Dil mədəniyyətin, mədəniyyət isə öz növbəsində dilin inkişafına imkan və şərait yaradır. Dünya ədəbi dillərinin meydana gəlməsi, formalaşması, inkişaf edib zənginləşməsi mədəniyyətlə sıx bağlıdır. Millətin əsas əlamətlərindən olan dil, o dildə danışan xalqın milli mədəniyyətini ifadə edir [2]. Rus dilçisi MDU-nun professoru Svetlana Terminasova dil və mədəniyyət arasında əlaqələrdən bəhs edərək yazır ki, dil təkcə insanın mədəniyyətini əks etdirmir, dilin əsas funksiyası mədəniyyəti qoruyub saxlayaraq nəsillərdən nəsillərə ötürməkdir [4]. Bu fikri XIX əsr dilçisi Vilhelm Humbolt da qeyd edirdi: «Nəsillər bir-birini əvəz edir, amma dil qalır, hər nəsil dili ondan əvvəlkilərin qoyduğu formada gəlib görür, amma dil həmin nəsildən daha güclü və qüdrətli olur. Nəsillərdən heç biri dilin tam dərinliyinə varmır və onu gələcək nəsillərə ötürür. Dilin xarakteri, özünəməxsusluğu isə yalnız bir neçə nəsil dəyişdikdən sonra bilinir, amma dil bütün bu nəsilləri bir-birinə bağlayır, onlar da öz növbəsində özlərini məhz dildə biruzə verirlər....çünki dil millətin özünü əks etdirir və onu təmsil edir» [5]. Həmçinin hər bir dil ayrılıqda öz istifadəçilərinin məxsusi cəhətlərinin daşıyıcısı olsa da digər dünya dilləri ilə də daim kontaktdadır. Dillər arasında əlaqələrin olması dillərin inkişafında başlıca amillərdən biridir. Dilçilərin əksəriyyəti dünyada kontaktlaşmayan dilin olmadığı fikrindədir. Rus dilçisi Boduen de Kurtene öz məqaləsində bu məsələyə toxunaraq qeyd edir ki, «Dillərin bir-biri ilə qaynayıb qarışması məsələsinə baxsaq, razılaşmalı olacağıq ki, saf və digər dillərə qarışmayan dil yoxdur və ola da bilməz» [6]. E.Sepir bununla bağlı yazırdı: «Ünsiyyətə olan tələbat hər hansı bir dildə danışanların qonşu və ya vasitəli kontaktına səbəb olur. İzolyasiya edilmiş hər hansı bir dil və ya dialekt göstərmək çətin olardı» [7]. Buna əsasən müxtəlif mədəniyyətlərə aid materialların tərcüməsi də təsir edir. Mədəniyyətlərarası əlaqələrin yaranmasında tərcümələr mühüm rol oynayır. Əgər əvvəlki dövrlərdə fars və ərəb dillərindən tərcümələr Şərq dilləri və mədəniyyəti ilə əlaqələrimizi sıxlaşdırmış və nəticədə dillərin zənginləşməsinə səbəb olmuşdusa, XIX əsrdən başlayaraq bölgədə rus dilinin aparıcı rol oynaması ilə əlaqədar rus dilindən edilən tərcümələr artmışdır. Müxtəlif sənədlər, həmçinin rus klassiklərinin əsərləri dilimizə tərcümə edilməklə həm dilin lüğət tərkibini zənginləşdirmiş, həm də müxtəlif üslubları inkişaf etdirərək cümlə quruluşlarında yeniliklərə səbəb olmuşdur.

Dünyanın ən qədim xalqlarından biri olan azərbaycanlılar çox qədim mədəniyyətə malikdir. Azərbaycan mədəniyyət və incəsənətindən olan nümunələr ABŞ, Britaniya, Fransa, İran, İtaliya, Misir, Türkiyə və s. kimi dünyanın bir çox ölkələrində muzeylərdə qorunub saxlanılır. Mədəniyyət incilərinin belə rəngarəng olmasına isə təbii ki, Azərbaycan xalqının yüksək zövqə malik olması, yaşayış tərzi və inkişaf tarixi təsir göstərmişdir. Arxeoloji qazıntılar zamanı tapılan nümunələr bir daha sübut edir ki, Azərbaycan xalqı qədim dövrlərdən bəri müxtəlif sənət növləri ilə məşğul olmuşdur. Azərbaycan mədəniyyətinin müxtəlif sahələrini nəzərdən keçirsək görərik ki, hər bir sahə özünəməxsus gözəlliyi, orijinallığı və milliliyi ilə fərqlənir. Bu, dövrümüzə qədər gəlib çatmış nümunələrdə hər tərəfli öz əksini tapmışdır. Misal olaraq, qədim xalçaları, zinət əşyaları, gündəlik istifadə qabları, alətlər, heykəllər, şəkillər, ədəbiyyat və musiqi nümunələrini və s. göstərmək olar. Nəsillərdən-nəsillərə ötürülən musiqimiz çox qədim tarixə malik olmaqla yanaşı, ürəkləri fəth etmə xüsusiyyəti ilə də yalnız xalqımızın deyil bütün dünya xalqlarının zövqünü oxşamışdır. Heç də əbəs yerə deyil ki, muğamlarımız və aşıq sənəti BMT təşkilatı olan UNESCO tərəfindən dünya mədəniyyəti irsinə daxil edilmişdir [9]. Azərbaycan musiqisi təkcə muğamlarla məhdudlaşmasa da (burada xalq mahnıları, aşıq sənəti, rəqslər, bəstəkar musiqilərini və s. yaddan çıxarmaq olmaz) onlar Azərbaycan mədəniyyətini dünyaya tanıdan fəxrimizdir. Həmçinin, memarlıq sahəsində dövrümüzə qədər gəlib çatmış öz əzəməti ilə insanları heyran edən tarixi abidələrimiz var. Qədim insanların həyat tərzini təsvir edən - 5000 illik yaşı olan Qobustan qaya rəsmləri, eləcə də, paytaxtımız Bakının simvolu sayılan Qız qalası, İçəri şəhər, Şirvanşahlar sarayı, memar Əcəminin müəllifi olduğu Möminə xatun türbəsi, şimali və cənubi Azərbaycanı birləşdirən Xudafərin körpüsü və s. milli memarlığın parlaq nümunələri hesab edilir. Eynilə ədəbiyyat sahəsində olan inciləri göstərmək olar. N. Gəncəvi, M. Füzuli, İ.Nəsimi, M.P. Vaqif, M.F.Axundov, C.Məmmədquluzadə, S.Vurğun, İ.Əfəndiyev, B.Vahabzadə və s. kimi dahilərin milli ədəbiyyatımıza verdiyi töhfələr əvəzolunmaz dəyərə malikdir. Bu kimi nümunələri rəssamlıq, kino, teatr və s. mədəniyyət sahələrində də qeyd etmək olar.

Hazırda Azərbaycan müstəqilliyini və dövlətçiliyini möhkəmləndirərək, sosial-siyasi və iqtisadi dəyişikliklər həyata keçirərək, milli maraqları əsas götürərək dünyada sivil, demokratik cəmiyyət quran bir dövlət kimi tanınır. Bu gün əminliklə demək olar ki, Azərbaycan qloballaşan dünyada dinamik və sabit inkişaf edən dövlətlər sırasındadır [10]. Qeyd etmək lazımdır ki, son 10 ildə ölkəmizdə çox dəyişikliklər getmişdir. Bu dəyişikliklərə gedən yol təbii ki, uzaq tarixi proseslərdən keçmişdir. Bədii ədəbiyyatın (xüsusilə də dramaturgiya kimi xalq dilinə yaxın janrların) inkişaf etdirdi (1873-cü ildə “Hacı Qara” komediyası tamaşaya qoyuldu, 1875-ci ildə ilk qəzet “Əkinçi” nəşr edildi, 1883-cü ildə teatr binası istifadəyə verildi, 1906-cı ildə satirik jurnal “Molla Nəsrəddin”dərc edildi. 1908-ci ildə ilk opera yazıldı, 1910-cu ildə opera və balet teatrının binası inşa edildi və s.) 1918-ci ildə Şərqdə ilk Demokratik Respublikanın qurulması faktı özü də siyasi və mədəniyyətlərarası əlaqələrin təsirinin nəticəsi idi.

Hər bir xalqın mədəniyyətinin tərkib hissəsi olan milli geyimlər, kulinariya, bayramlar, gündəlik həyat tərzi və s. də mədəniyyətlərarası əlaqələrin təsiri nəticəsində dəyişikliklərə uğrayır. Mədəniyyətə daxil olan yeniliklər isə dildə yeni sözlərin istifadəsinə və bununla da dilin zənginləşməsinə səbəb olur. Avropa-amerika mətbəxinə aid ölkəmizə və dilimizə gəlmiş yeniliklərə aşağıdakılar misal ola bilər: çips, çizburqer, hamburqer, sendviç, biskvit, çizkeyk, kroassan, trüfel, julyen, pizza, qril, spaqetti, steyk, şnitsel, barmen, brendi, kapuçino, kofe, kokteyl, likör, şeyk, viski və s.

Həmçinin ölkəmizdə dünya ölkələrinin geyim tərzi nümunələrinə rast gəlmək olar ki, onların adları da dilimizə yeni sözlər kimi əlavə olunub: bandana, beret, brici, kapri, klaç, korset, manto, mokasin, leqins, pijama, ponço, topik və s. Milli geyimlərdə əsaslı şəkildə dəyişikliklər Avropalaşma meyli XIX əsrin sonları – XX əsrin əvvəllərindən etibarən hiss olunur. Müasir dövrün geyimləri ilə müqayisə etdikdə mədəniyyətlərarası əlaqələrin əvvəlki dövrlərin geyimlərinə nə qədər təsir etdiyini və onların hansı dəyişikliklərə məruz qaldığını açıq-aydın görmək olar.

Artıq qeyd edildiyi kimi, mədəniyyətlərarası əlaqələr ingilis dilindən dilimizə xeyli miqdarda yeni söz gətirmişdir. Bu sözlər adi gündəlik danışıq dilində və eləcə də, dövrü mətbuatda tez-tez istifadə edilir: 1. Azərbaycanda ilk animasiya filminin yaranmasının 75 illik yubileyi keçirilib. 19

dekabr 2008; 2. Tiflisdə.... terrorizmə qarşı mübarizə mövzusunda treninq keçirilib. 10 dekabr 2008 [11].

Müasir dünya siyasətində cərəyan edən hadisələr göstərir ki, beynəlxalq münasibətlərdə dövlətlərin və beynəlxalq təşkilatların fəaliyyəti təkcə siyasəti və iqtisadiyyatı deyil, eyni zamanda mədəniyyət sahəsini də əhatə edir. Qloballaşma şəraitində mədəniyyətlərarası və dinlərarası dialoqun inkişaf etdirilməsi beynəlxalq siyasətdə prioritet vəzifələrdən hesab olunur. Müasir dövrün beynəlxalq münasibətlər sistemində mədəniyyət faktoru dövlətlər və xalqlar arasında əməkdaşlığın inkişaf etdirilməsi, dövlətlərin beynəlxalq imicinin möhkəmlənməsi və dünya dövlətləri sırasında layiqli yer tutması üçün xüsusi rola malikdir. Mədəniyyətlərarası əlaqələrin inkişafı üçün dövlətlərarası münasibətlərdə mədəniyyət diplomatiyasından geniş istifadə olunur. Beynəlxalq miqyasda Azərbaycan mədəniyyətinin təbliği, dünya ictimaiyyətinin məlumatlandırılması, cəmiyyətdə intellektual mədəniyyətin inkişaf etdirilməsi, ölkə xaricində qarşılaşdığımız iddialara qarşı intellektual mədəni mübarizənin lazımi səviyyədə həyata keçirilməsi, elm adamlarının bu proseslərə fəal cəlb olunması Azərbaycan Respublikasının mədəniyyət diplomatiyasının aktual istiqamətləridir [10]. Həmçinin, Azərbaycan mədəni sərvətlərinin qədimliyi, zənginliyi, dinamik inkişaf meyli, mədəni proseslərin aktivliyi, sivil dəyərlərə maraq, İslam və Avropa dəyərlərini birləşdirmək sahəsində tarixi və müasir təcrübənin mövcudluğu, tolerantlıq kimi xüsusiyyətlər də mütləq qeyd edilməlidir.

Əsrlərdir ki, xalqımız tolerantlıq, dözümlülük, başqa dinlərə və mədəniyyətlərə hörmət prinsiplərini həyat tərzinə çevirərək bu prosesə mühüm töhfələr verib. Ona görə də Prezident İlham Əliyevin 2016-cı ili Azərbaycan "Multikulturalizm ili" elan etməsi heç də təsadüfi deyil və bunun dərin tarixi kökləri var.

Multikulturalizm - çox mədəniyyətlik, bir çox fərqli mədəniyyətin bir arada yaşadığı cəmiyyəti təyin edən sözdür. O, ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir [8]. Humanist və demokratik nəzəriyyə yaxud ideologiya olaraq multikulturalizm, tolerantlığın təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil.

## Ədəbiyyat


1. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə, Bakı: Şərq-Qərb, 2006, I c. - 744 s. II c. –792 s. III c. - 672 s. IV c. - 712 s.
2. Qurbanov A. M. Ümumi dilçilik. 2 cilddə, I c. Bakı: Maarif, 1989, 568 s. II c. 1993, 548 s.
3. Rəcəbov Ə.Ə. Dil, şüur, cəmiyyət, tarix. Bakı: Azərnəşr. 1993,160 s.
4. Тер-Минасова С.Г. Язык и межкультурная коммуникация. М.: Слово, 2000, 624 с.
5. Гумбольт В. О влиянии различного характера языков на литературу и духовное развитие.// Избранные труды по языкознанию. М.: Прогресс, 1984, с. 324-326
6. Бодуэн де Куртенэ И. А. О смешанном характере всех языков // Избранные труды по общему языкознанию. М.: Издательство Академии наук СССР, 1963, с. 362- 372
7. Sapir E. Language. New York: Kessinger Publishing 2005, 268 p.
8. www.wikipedia.org
9. www.azeri.ws/culture/providence/shtml
10. www.azerbaijan-news.az
11. www.apa.az

UOT 351.85

# Heydər Əliyev fondu və multikultural dəyərlər

*f.f.d. Qasımova Təzəgül Mirzə qızı*
*AMEA Fəlsəfə və Hüquq İnstitutu*

Bu gün müasir Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu çətin sınaqlardan keçərək yüksək səviyyəsinə çatmışdır. Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasının xarakteri və mahiyyətini ümumiyyətlə dəqiq təsvir etmək mürəkkəb işdir. Bu problemə tarixi baxımdan yanaşsaq deyə bilərik ki, Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu prosesi dinamik və daimi amil kimi yalnız ötən əsrin 90-cı illərinin axırlarına təsadüf edir. Bu islahatlar kütləvi şüurun tədricən və keyfiyyətcə dəyişməsinə gətirib çıxarmışdır. Hazırda ölkədə ictimai təşkilatlar güclü şəkildə siyasiləşmişdir və onların fəaliyyət vektoru daha da kənara yönəlmişdir. Vətəndaş cəmiyyətinin hüdudları yoxdur, ona görə də özünün təsisatları vasitəsilə dövlətin müsbət xarici siyasət xəttini beynəlxalq aləmdə Azərbaycanın iqtisadi, mədəni və digər əlaqələrinə kömək etməlidir [4].

Ümumiyyətlə, vətəndaş cəmiyyəti siyasi sistemin struktur elementi olsa da, qeyri-siyasi təmayülü və xarakteri ilə fərqlənir. Belə ki, vətəndaş cəmiyyəti dövlətdən asılı olmayan, amma dövlətlə əlaqəsi olan inzibati deyil, könüllü qaydada yaranan sosial birlikdir.

Müstəqil Azərbaycanda ictimai həyatın demokratikləşməsinin əsas istiqamətlərindən biri və deyə bilərəm ki, ən əsası məhz vətəndaş cəmiyyəti institutlarının inkişaf etdirilməsidir. Vətəndaş cəmiyyəti mülki şəxslərin könüllü birləşməsi nəticəsində yaranan, özünütənzimləmə və özünüidarə mexanizminə malik olan, qeyri-siyasi səciyyəsi ilə sivil şəxslər və münasibətlər sistemini ehtiva edən ictimai birlik kimi səciyyələndirilir [3]. Vətəndaş cəmiyyəti institutlarının inkişaf dərəcəsi isə hər bir dövlətdə demokratiyanın inkişaf səviyyəsini əks etdirir. Azərbaycanda qeyri-hökumət, qeyri-kommersiya təşkilatı olan Heydər Əliyev Fondu bir vətəndaş cəmiyyəti institutu kimi baş verən bütün ictimai-siyasi proseslərdə yaxından iştirak edir.

Bu gün ulu öndərin adını daşıyan Heydər Əliyev Fondu multikulturalizm ideya və dəyərlərinin təbliğinə geniş yer ayırmışdır. Multikulturalizm Azərbaycanda illərdən bəri formalaşan dəyərlər toplusudur. Dastanlarımız, şifahi və yazılı ədəbiyyatımız uzaq keçmişdən bu günə qədər cəmiyyətimizdə multikultural ənənələrin mövcudluğunu aşkar şəkildə sübut etdi. Bu ənənələr öz yerini tapsalar da, hüquqi və siyasi müstəvidə onun yerini müəyyən etmək günün aktual məsələsi idi. Bunu isə ulu öndər Heydər Əliyev etdi. Ulu öndər Azərbaycanın gələcək inkişafı üçün dəqiq ideoloji, siyasi yol seçdi və öz müdrik siyasəti ilə əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək, onu yeni mərhələyə, yeni səviyyəyə qaldırdı. "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq" [1] deyən ulu öndər bütün siyasi fəaliyyətini bu sərvətin əbədi olmasına yönəltdi. Bu mərhələni şərh etdikdən sonra əminliklə demək olar ki, ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir.Ulu öndər multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokartiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Bu gün Azərbaycanda multikulturalizm sahəsində bir-birini tamamlayan, sistemli xarakter daşıyan siyasi iradə və onun gerçəkləşməsi proqramı uğurla həyata keçirilir.

Vətəndaş cəmiyyəti institutu kimi Heydər Əliyev Fondu multikultural dəyərlərin qorunub saxlanılması, təbliği ilə bağlı möhtəşəm layihələr həyata keçirir. Bu layihələr Azərbaycan multikulturalizminin bir ölkə çərçivəsində qapalı inkişafını deyil, dünya çərçivəsində dinlərin və mədəniyyətlərin müxtəliflikləri rejimində fəaliyyət göstərməsini reallaşdırır. "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", "Qloballaşma şəraitində mədəniyyətlərin rolu", "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşama", "Azərbaycan tolerantlıq məkanı" layihələrini xüsusi qeyd etmək olar.

Əsrlər boyu iki dünyanın Avropa və Asiyanın təkcə coğrafi deyil, həm də mədəni baxımdan "kəsişmə nöqtəsində" yerləşən Azərbaycanda multikultural dəyərlərin qorunub saxlanılmasına xidmət

edən siyasi kurs aparılır. Və bu kursu həyata keçirməkdə dövlətin yanında vətəndaş cəmiyyəti institutu olan Heydər Əliyev Fondu durur. Tolerant cəmiyyət modelinin özünəməxsus və nadir formasının yaranmasında, qorunub saxlanmasında H.Əliyev Fondunun rolu danılmazdır. Heydər Əliyev Fondu olduqca əhəmiyyətli, möhtəşəm proqramlar həyata keçirir. Bu proqramlar Azərbaycan multikulturalizminin bir ölkə çərçivəsində qapalı inkişafını deyil, dünya çərçivəsində dinlərin və mədəniyyətlərin müxtəliflikləri şəraitində fəaliyyət göstərməsini reallaşdırır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etməsi sahəsində həyata keçirilən siyasi kurs yeni mərhələdə prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev dördüncü Bakı Beynəlxalq Humanitar Forumunda demişdir: "Azərbaycan həm Avropa Şurasının, eyni zamanda İslam Əməkdaşlıq Təşkilatının üzvü kimi multikulturalizmi bir missiya kimi öz üzərinə götürmüşdür. Biz hesab edirik ki, multikulturalizmin müasir dünyada alternativi yoxdur. Multikulturalizmin alternativi yalnız ayrıseçkilik, irqçilik, ksenofobiya, islamafobiya və antisemitizm ola bilər" [2].

Bu gün Azərbaycan multikulturalizminin özəlliyi ondadır ki, multikulturalizmin bir sıra dünya dövlətlərində iflasa uğradığı bir dövrdə, şəraitdə Azərbaycan Respublikası multikulturalizmi özünün dövlət siyasəti bəyan etmişdir. Azərbaycan dünyada tolerantlıq, sivilizasiyalar arasında dialoq məkanı kimi qəbul edilir. Bütün bu tolerantlıq ənənələrinin dünyada təqdim edilməsi işində Azərbaycan dövləti ilə yanaşı, dünyada maddi və qeyri-maddi irsin qorunmasında və təbliğində böyük fədakarlıq göstərən xeyirxah əməlləri ilə əsl islami dəyərləri təlqin edən bəşəriyyəti mərhəmətə, qarşılıqlı köməyə, sülhə çağıran Heydər Əliyev Fondunun da böyük əməyi var. Ona görə multikulturalizm və tolerantlıq məsələsi Heydər Əliyev Fondunun fəaliyyəti danılmazdır. Bu ondan irəli gəlir ki, ölkəmizdə tarixən formalaşmış tolerantlıq və dözümlülük Azərbaycan cəmiyyətini səciyyələndirən gözəl bir ənənəyə çevrilib. Heydər Əliyev Fondu isə fəaliyyəti ilə müxtəlif xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına, ölkəmizdə formalaşmış gözəl ənənəyə töhfəsini verməkdədir.

**Ədəbiyyat**


1. Kamal Abdullayev. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir. "Azərbaycan qəzeti", 23 iyul 2014
2. Məmmədov H. Heydər Əliyev siyasi irsinin politoloji aspektləri. Bakı: MSA, 2013, 456 s.
3. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. Bakı: YNE, 2005, 464 s.


UOT 008:39; 008:351.858

## Milli-mənəvi dəyərlərin multikulturalizm şəraitində qorunub saxlanması və inkişafı

*f.r.f.d. Abbasov Nizami Yusif oğlu*
*Mingəçevir Dövlət Universiteti*

*Biz öz milli dəyərlərimizlə fəxr etməliyik. Bizim milli dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli dəyərləri olmayan millət həqiqi xalq ola bilməz... Biz heç vaxt öz milli dəyərlərimizi unutmamalıyıq. Onu yaşatmaq, ondan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir.*

***Ümummilli lider Heydər Əliyev***

Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz, milli-mənəvi dəyərlər və azərbaycançılıq – bu sözlər hər bir Azərbaycan vətəndaşı üçün doğma, əziz və müqəddəsdir. Bu həm də milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşın fundamental prinsiplər əsasında formalaşması deməkdir.

“Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır.” Azərbaycanda dövlət quruculuğunun ilk zamanlarında ümummilli lider Heydər Əliyevin dediyi bu sözlər əslində, milli-mənəvi dəyərlərimizin qorunmasının başlıca prinsipinə çevrildi. Çünki inteqrasiya, qloballaşma, sivilizasiyaların fərqliliyi dünya siyasətində yeni addımlayan dövlətlərin, millətlərin milli dəyərlərinə təsirsiz ötüşmürdü. Məlum olduğu kimi, yad mədəniyyətlər, fərqli dini cərəyanların Azərbaycana axınının şahidi olduq və bu özlüyündə keçmişdən qopmaya münbit şərait yaradırdı. Amma Heydər Əliyevin bu yanaşması və mövcud yanaşmanın azərbaycançılıq ideologiyası ilə sütunlaşması Azərbaycanda milli-mənəvi dəyərlərin qorunmasına müstəsna müsbət təsirini göstərdi. Bu gün isə Azərbaycan tolerantlığın, mədəniyətlərarası dialoqun bir mərkəzinə çevrilməkdə, öz genetik kodlarını qorumaqdadır. Hələ bir neçə il öncə Azərbaycan tolerantlığın, mədəniyyətlərarası dialoqun mərkəzinə çevrilmə xətti tutanda bir çox ekspertlər düşünürdü ki, Azərbaycanın milli-mənəvi dəyərləri istər Şərqdən, istərsə də Qərbdən gələn baxışların, mədəniyyətin təsiri ilə sıradan çıxacaq. Amma o zaman Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban Əliyeva maraqlı bir fikirlə çıxış etdi: “Azərbaycan bütün mədəniyyətlərə açıq olmalıdır. Öz mədəniyyətinə inamı və genetik kodlarını qorumaq səbəbiylə”. Əslində, bu, ümummilli lider Heydər Əliyevin Azərbaycan üçün cızdığı yaşam xəritəsinin bir hissəsi idi və bu məqam sübut etdi ki, Azərbaycan Ermənistan və digər dövlətlər kimi yad təsirlərdən qorunmaq üçün qapalı cəmiyyətə çevrilmək niyyətində deyil və dünyaya açılmaqla əslində, Azərbaycanın milli və mənəvi dəyərlərini təbliğ etmək, müasir dünyaya inteqrasiya etmək niyyətindədir. Bu proses heç də pərakəndə şəkildə yox, ciddi fəlsəfi yanaşmalara, praktik təcrübələrə əsaslandı. Elə götürək Azərbaycanda dini tolerantlığı, sirr deyil ki, milli-mənəvi dəyərlərin formalaşması və müasir dünyaya inteqrasiyası zamanı dini məqamlar bəzi hallarda fəsadlar yaradır və bu düzəni pozur. Bu gün inkişaf etmiş Avropanın özü belə sivilizasiyaların toqquşmasından qurtula bimir, islamafobiya az qala, yaşam tərzinə çevrilib. Azərbaycana gəldikdə isə bunun tam əksini görürük.

Bu gün Azərbaycanda milli-mənəvi dəyərlərin qorunmasında, dini tolerantlığın formalaşmasında bir prinsip əhəmiyyətli rol oynayır və bu səbəbdən ümumilikdə cəmiyyətdə bir aqnostik yanaşma var. Bu yanaşma əslində genetik kodlarımızın zənginləşməsinə müsbət təsirini göstərir. Bu gün Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması və müasir dünya ilə ayaqlaşmasının başlıca səbəblərindən biri də dövlət və din arasında məsafənin olması, milli – mənəvi dəyərlərin qorunması üçün isə dövlətin himayədarlıq etməsidir. Həqiqətən də bu gün dinin dövlətdən kənarda olması, milli-mənəvi dəyərlərin isə dövlət tərəfindən himayəyə götürülməsi bir bütövləşmədir və bu səbəbdən qloballaşmada Azərbaycan modelini qoruyub saxlaya bilirik. Hesab etmək olar ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılan və bu gün Prezident İlham Əliyev tərəfindən həyata keçirilən milli-mənəvi dəyərlərin qorunması konsepsiyasının kökündə bu amil dayanır. Başqa cür desək, mövcud olan bütün yeniliklər, cəmiyyətin tanış olduğu yeni konsepsiyalar dərindən öyrənilir və milli-mənəvi dəyərlərimizin inkişafına doğru istiqamətləndirilir. Prezident İlham Əliyev məhz bu səbəbdən açıq şəkildə bəyan edir: “Biz öz milli-mənəvi dəyərlərimizə sadiqik, bu dəyərləri qoruyuruq, saxlayırıq, ənənələri yaşadırıq və bizim gücümüz də bundadır”. Bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət, daha çox ikitərəfli əməkdaşlığa maraq göstərməsi ümumilikdə mənəvi baxışlarımıza daha müsbət təsir edir. Ən azından ona görə ki, bütün ideyalar, bütün baxışlar diqqət mərkəzinə gəldikdə ilk növbədə Azərbaycanın çıxarları nəzərə alınır. Çünki Prezident İlham Əliyev fəaliyyəti müddətində Azərbaycanın çıxarlarını və insan faktorunu əsas götürərək Azərbaycan xalqının iradəsini nümayiş etdirir. Onu da unutmayaq ki, milli-mənəvi dəyərlərin inkişafı, müasir dünya ilə vəhdətinin təşkili özlüyündə cəmiyyətdə insanların aktivlik şkalasına da müsbət təsir göstərir. Çünki milli-mənəvi dəyərlərin inkişafı fərdlərin individual inkişafına müsbət təsir göstərir və nəticədə kütlə psixologiyasının təsir imkanları zəifləyir. Bu, cəmiyyətdə kütlə psixologiyasının zəifləməsi, insan resursunun nəzərə alınması və beyin mərkəzlərinin formalaşması ilə nəticələnir. Məhz bu faktoru nəzərə alaraq deyə bilərik ki, postsovet məkanındakı dövlətlər sırasında Azərbaycan özünəməxsus yer tutur. Çünki milli-mənəvi dəyərlərin inkişafı, beyin mərkəzlərinin formalaşması istər-istəməz maddi kapitalın intellektual kapitala keçidini tənzimləyir [2].

Bu baxımdan, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Bilik Fondunun, Prezident Yanında Strateji Araşdırmalar Mərkəzinin yaradılması xüsusi olaraq vurğulanmalıdır. Bu gün Azərbaycanda milli-mənəvi dəyərlərin qorunmasında, dini tolerantlığın təmin olunması baxımından Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rolunu xüsusi olaraq qeyd etmək lazımdır. Yada salaq ki, bu yaxınlarda Bakıda 500 nüfuzlu dövlət və ictimai xadimin istirakı ilə III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirildi və Prezident İlham Əliyev, həmçinin əcnəbi dövlət xadimləri Azərbaycandakı dini tolerantlığın durumundan razılıqlarını bildirdilər [1].

Bu gün milli-mənəvi dəyərlərin qorunması istiqamətində QHT-lərin də fəaliyyətinə xüsusi diqqət ayırmaq vacibdir. Dövlət tərəfindən QHT-lərə ayrılan maliyyə yardımı və təklif olunan qrant layihələrin böyük əksəriyyəti milli-mənəvi dəyərlərimizin təbliğinə, inkişafına yönəlib. Bu baxımdan Heydər Əliyev Fondu əhatə dairəsini daha çox genişləndirərək Azərbaycanın milli-mənəvi dəyərlərini dünyaya tanıtdi və bu proses davam etdirilməkdədir. Azərbaycan muğamının, xalçaçılığının və s. dünyaya tanıtdırılması vacib faktor kimi nəzərə alınmalıdır. Həmçinin Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın UNESCO və İSESCO kimi təskilatların xoşməramlı səfiri olaraq mədəni irsimizin, bir çox tarixi abidələrimizin bu təşkilatlarda qeydiyyata alınmasına nail olması da tarixi uğur hesab olunmaldır. Bu gün Azərbaycan hakimiyyəti həmçinin, tarixi köklərimizə bağlı olan Ərdəbil, Təbriz, Dərbənd, İrəvan, Göyçə mədəni irsinin də qorunması və əxlaqi tərbiyəmizdə səmərəli istifadəsinə nail olub.

Beləliklə, çıxara biləcəyimiz nəticə budur ki, Azərbaycan elə xalqlardandir ki, bu xalqın məhz, özünəməxsus milli-mənəvi dəyərləri, xarakterləri var.Bununla bağlı ümummilli lider Heydər Əliyevin bir deyimini yada salmaq doğru olardı: “Mən bu gün bir azərbaycanlı kimi, özündə həm milli-mənəvi dəyərləri, həm də ümumbəşəri dəyərləri cəm edən bir insan kimi deyirəm ki, bizim xalqımızın milli-əxlaqi mentaliteti onun ən böyük sərvətidir, milli-mənəvi dəyərləri onun milli sərvətidir. Biz bunları qiymətləndirməliyik”.

Bu gün Azərbaycan xalqının yaratdığı Heydər Əliyev liderliyi və İlham Əliyev siyasəti ortadadır. Bir xalq olaraq inkişaf etməyimiz, milli-mənəvi dəyərlərimizi qorumaq üçün heç bir maneəmiz yoxdur.

**Ədəbiyyat**

1. Azərbaycan Prezidenti İlham Əliyevin Üçüncu Bakı Beynəlxalq Humanitar Formundakı nitqi. Bakı Beynəlxalq Humanitar Forumunun materialları (31 oktyabr – 1 noyabr 2013-cü il). 2 cilddə: I cild. Bakı: “Şərq-Qərb”, 2014. s. 7–11

2. Əliyev P.B., Əhmədov H.H, Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı: “Təhsil” nəşriyyatı 2006, 263 s.

UOT 21/29

## Azərbaycan tolerant ölkədir

*t.f.d. Kərimli Samir Səlim oğlu*
*Sumqayıt Dövlət Universiteti*

Dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan Azərbaycan hal-hazırda bir çox cəhətdən digər xalqlara nümunə sayıla bilər. Bu çoxsaylı cəhətlərdən biri ölkəmizdə əsrlər ərzində formalaşmış olan milli və dini zəmində dözümlülük – tolerantlıqdır. Əsrlər boyu ölkəmizdə islam, xristian, yəhudi və digər dinlərin nümayəndələri tarixən qarşılıqlı anlaşma və əmin-amanlıq şəraitində yaşamış və yaşayırlar.

Bu gün Azərbaycanda dünya dinləri ənənəvi olaraq qarşılıqlı etimad və əmin-amanlıq şəraitində fəaliyyət göstərir, islam və qeyri-islam dini icmaları öz etiqadlarını azad və sərbəst

şəkildə yerinə yetirirlər. Ölkəmizdə dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün etnik-dini təbəqələrin mili-mənəvi dəyərlərinə sahib olması üçün hərtərəfli hüquqi və demokratik şərait təmin edilmişdir.

Müxtəlif etnoslardan, etnik qruplardan ibarət ölkə əhalisi ağır işğalçılıq müharibələrinə, məhrumiyyətlərə, təzyiqlərə, mürtəce təbliğatlara baxmayaraq bütün dövrlərdə birliyini qoruyub saxlaya bilmişdir. Çoxsaylı müxtəlif səbəblər sırasında ölkənin əsas əhalisi olan və böyük əksəriyyəti təşkil edən Azərbaycan türklərinin mentalitetindəki tolerantlığı xüsusi qeyd etmək zəruridir.

Dünyada dini mənsubluğuna görə islam dövləti kimi tanınan Azərbaycanda müsəlmanlarla bərabər xristianlıq, iyudaizm və digər qeyri-ənənəvi dinlərə mənsub xeyli sayda vətəndaş və vətəndaşlığı olmayan insanlar yaşayır. Həmçinin burada ənənəvi dini bağlılıqları olmayan toplumlar, məsələn, qaraçılar da yaşayır. Hər hansı bir başqa dinə və millətə mənsub olduğuna görə Azərbaycan ərazisində insanlara cəmiyyət tərəfindən radikal münasibət göstərilməyib.

Bu gün Bakının küçələrində, eləcə də regionlarda çinlilər, pakistanlılar və Azərbaycana pənah gətirmiş digər millətlərin nümayəndələri çox rahat şəkildə ticarətlə məşğul olur. Onlara istər vətəndaşlar, istərsə də rəsmi strukturlar tərəfindən dini və milli bağlılıqlarına görə hər hansı bir mənfi münasibət göstərilmir. Əksinə, bu əcnəbilərin problemlərinə həssaslıqla yanaşılır.

Azərbaycanın dini və milli tolerantlıq sahəsində uğurlara nail olmasının nəticəsidir ki, bu gün digər dövlətlərdə rahat yaşaya bilməyəcəklərini anlayan, yaxud oradakı arzuolunmaz mühitlə üzləşən həmvətənlərimiz Azərbaycana üz tuturlar. Qeyd etmək lazımdır ki, bu tarixi ənənənin qorunub saxlanılmasında dövlətin də rolu çox böyükdür. Əlbəttə ki, dini və milli tolerantlıq həm də insan hüquq və azadlıqlarının, demokratiyanın təməl prinsiplərindəndir. Bu baxımdan dövlət tolerantlığın daha da inkişaf etməsində maraqlı olmaya bilməz. Eyni zamanda Azərbaycanda tolerantlığın formalaşmasında dini icmaların fəaliyyəti də danılmazdır.

Bəşər sivilizasiyanın müxtəlif mədəniyyətlərinin qorunması üçün dinlər və mədəniyyətlər arasında dialoqun yaranması böyük əhəmiyyət daşıyır. Bu baxımdan tolerantlıq və dözümlülük ənənələri zəngin olan ölkə və regionların təcrübəsi nümunə ola bilər. Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc və mehriban yaşamasının unikal nümunəsidir. Ölkəmizdə tolerantlıq ənənənin kökləri tarixin dərinliklərinə gedib çıxır. Tədqiqatçıların verdiyi məlumata görə, eramızın birinci yüzilliyinin ortalarında xristianlığın ilk ardıcılları Azərbaycana pənah gətirmiş və sonradan burada yaranan Alban aftokefal kilsəsinin əsasını qoymuşlar. İslamın Azərbaycana gəlişi ilə dini dözümlülük ənənələri daha da möhkəmlənmişdir. Müsəlman tolerantlığının əsasını Qurani-Kərimin surə və ayələri təşkil edir: "Dində məcburiyyət (zorakılıq) yoxdur…" (əl-Bəqərə, 256). Tarixçilərin dediklərinə görə, VII-VIII əsrlərdə müsəlmanlar Yəhudilik, Xristianlıq və Zərdüştiliyin tərəfdarlarına qarşı ehtiram və dözümlülük göstərmişlər.

Azərbaycan ərazisində yaşayan çoxsaylı etnik-dini qruplar arasında möhkəm əlaqələrin formalaşmasında tarixin acı həqiqətlərinin də müəyyən rolu olmuşdur. Azərbaycanlılarla qaynayıb qarışan müxtəlif etnik-dini qruplar imperiya və işğalçı dövlətlərin təzyiqinə və fitnəsinə baxmayaraq, bir çox hallarda Azərbaycan xalqının tolerant düşüncəsinə etibar etmiş, rəğbət göstərərək, mehriban qonşuluq əlaqələri qurmuş və onu qorunub saxlamağa səy göstərmişlər.

Sovetlər dövründə mərkəzi hakimiyyətin "qardaş millətlər", "xalqlar dostluğu" adı altında həyata keçirdiyi milli siyasət süni beynəlmiləlçilik mahiyyət daşıyırdı və "allahsızlıq məzmunundan" da azad deyildi. Sovet rejimi hər vasitə ilə Azərbaycan xalqını milli-mənəvi dəyərlərdən, İslam dininə olan bağlılığından uzaqlaşdırmağa çalışırdı. Lakin xalq bu tarixi sınaqdan da uğurla çıxdı. Dini məzmunlu heç bir qarşıdurmaya yol vermədi.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli koduna çevrilmiş tolerantlığın daha da inkişaf etdirilməsi üçün münbit şərait və hüquqi baza yaradılmışdır. Lakin keçən əsrin sonlarında Vətənimizdə tarixən mövcud olan dini dözümlülüyün möhkəmləndirilməsinə minlərlə günahsız insanın ölümü, bir milyondan artıq soydaşımızın yurd-yuvalarından didərgin düşməsi və 20%-dən çox tarixi torpaqlarımızın işğalı ilə nəticələnən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi mane olurdu. Münaqişə dini zəmində baş verməsə də, işğalçı Ermənistanın həmin dövr dini lideri I Vazgen separatçı hərəkatı qızışdıranlardan biri idi. Ermənilər

hər vasitədən istifadə edərək ölkəmizdə əmin-amanlıq və qardaşlıq şəraitində yaşayan digər dini konfessiyalar arasında qarşıdurma yaratmaq istəyirdilər.

Erməni separatizminin ideoloqları hər imkandan istifadə edərək, Qərbə və Rusiyaya belə bir mif təlqin etməyə çalışırdılar ki, güya Azərbaycandan "islam təhlükəsi" gözlənilir. Digər tərəfdən, Azərbaycanda anti-müharibə və hətta ermənipərəst meyllərin yayılması üçün bəzi qüvvələr respublikanın müsəlman əhalisinin xristianlaşdırılmasından istifadə edirdilər. Şübhəsiz ki, belə hərəkətlər dinlərarası dialoqun möhkəmlənməsinə xidmət etmirdi. Lakin bu hadisələr respublikadakı dini konfessiyalar arasında olan münasibətlərə həlledici mənfi təsir göstərə bilmədi.

Müstəqilliyin ilk illərində Ermənistan ilə mövcud olan müharibə şəraitilə bərabər siyasi gərginlik, məmur özbaşınalığı və iqtisadi böhran milli-mənəvi dəyərlərin qorunması işini zəiflədirdi. Lakin 1993-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xalqın təkidi ilə yenidən hakimiyyətə gəlişindən sonra bütün sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərinin qorunması, tolerant münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində də canlanma yarandı. Uzun illər istifadəsiz qalmış məscid və kilsələr əsaslı təmir edilərək xalqın istifadəsinə verildi. Bundan əlavə, yeni ibadətgahların inşasına başlanıldı. Bir sözlə, Azərbaycan xalqı öz soy-kökünə, adət-ənənələrinə və dini etiqadlarına qovuşmuş oldu.

Müasir Azərbaycan dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Ölkə vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı, dövlət respublikada yaşayan digər din mənsublarında da yüksək qayğı göstərir. Belə ki, 1920-ci ildə bağlanmış Jen-Mironosets Baş kafedral kilsəsinin binası 1991-ci ildə Rus Pravoslav kilsəsinə verilmişdir. Azərbaycanda səfərdə olan Moskvanın və Bütün Rusiyanın sabiq Patriarxı II Aleksi 27 may 2001-ci il tarixdə bu məbədi müqəddəs elan etmiş və ona Baş kafedral kilsə statusu vermişdir. Bundan başqa, 1999-2001-ci illərdə paytaxtda digər pravoslav məbədi Müqəddəs Məryəmin miladı Baş kafedral kilsəsi bərpa olunmuşdur.

Respublikamızda yaşayan azsaylı katolik icmasının üzvləri də dövlət qayğısından kənarda qalmamışdır. Ümummilli Lider Heydər Əliyevin göstərişi əsasında Bakının mərkəzində Roma-katolik kilsəsinin inşası üçün yer ayrılmışdır. 2005-ci ildə məbədin tikintisinə başlanmış, nəhayət 2008-ci ilin mart ayının 7-də Bakıda Müqəddəs Məryəm katolik kilsəsinin rəsmi açılış mərasimi keçirilmiş və müasir üslubda tikilmiş bu məbəd katoliklərin ixriyarına verilmişdir.

Respublikada qədim ənənələrə malik olan yəhudi icmasının mədəni irsi də Azərbaycan hökumətinin qayğısı ilə əhatə olunur. 1990-cı ildən respublikada "Azərbaycan-İsrail" dostluq, habelə "Soxnut" cəmiyyətləri fəaliyyət göstərirlər. Bakıda nəzəriyyəçi-fizik, Nobel mükafatı laureatı Lev Landau, respublikanın əməkdar həkimi Solomon Qusman, Qarabağ müharibəsi qəhrəmanı Albert Aqarunov və digər tanınmış yəhudi şəxsiyyətlərinin yaşadıqları binalarda xatirə lövhələri qorunub saxlanılır.

1997-ci-ildə "Coynt" yəhudi komitəsinin maliyyə dəstəyilə gürcü yəhudilərinin sinaqoqu bərpa edilmişdir. 2003-cü ilin martın 9-da Bakıda yeni yəhudi sinaqoqu açılmışdır. Bu, Avropada ən böyük sinaqoqlardan hesab olunur. 2003-cü ilin sentyabr ayından isə Azərbaycanda ilk yəhudi məktəbi fəailiyyət göstəriri.

Azərbaycanda antisemitizmə heç vaxt yer olmayıb və indi də yoxdur. Ümummilli Lider Heydər Əliyev 15 noyabr 1998-ci ildə yəhudi icmaların rəhbərlərilə keçirilən görüşdə qeyd etmişdir: "Respublikada belə hadisələr baş vermir və biz onların yaranmasına heç vaxt imkan verməyəcəyik".

Azərbaycanın dinlərarası dialoq və əməkdaşlıq sahəsində nadir təcrübəsi xarici dövlətlər tərəfindən yüksək qiymətləndirilmişdir. Patriarx I Varfolomey 2003-cü il aprelində Azərbaycanda rəsmi səfərdə olmuşdur. Ölkəmizdki mövcud dini durumu, dövlətin dini konfessiyalara göstərdiyi qayğını yüksək dəyərləndirən I Varfolomey demişdir: "Mən buradakı tolerantlığın səviyyəsindən məmnunam. Azərbaycanda hər kəs istədiyi dinə etiqad edir, istədiyi kimi ibadət edə bilir".

Təəssüflə qeyd edək ki, xalqımızın tolerantlıq keyfiyyətindən sui-istifadə edən, dövlət səviyyəsində etnik təmizləmə və işğalçılıq siyasəti aparan Ermənistanın Azərbaycana qarşı təcavüzü davam edir. Bu təcavüzün qurbanları arasında tarixi-dini abidələrimiz, fərqli dini konfessiyaların və

müxtəlif xalqların mənsubları da vardır. Azərbaycandakı dini konfessiyaların nümayəndələri Ermənistanın təcavüzkarlıq və etnik təmizləmə siyasətindən əl çəkməsi, qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum olmuş bir milyondan artıq Azərbaycan vətəndaşının öz yurd-yuvasına qayıtması tələbi ilə dəfələrlə beynəlxalq təşkilatlara və dünya ictimaiyyətinə müraciət etmişlər. Lakin işğalçı Ermənistan hələ də məkrli planlarından əl çəkmək istəmir. Bununla belə dini konfessiyaların başçıları Azərbaycan xalqının sülh istəyini və dövlət başçısının apardığı sülhpərvər siyasəti təqdir edərək dəstəkləyir və onun uğurlu, müdrik siyasəti nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarının azad ediləcəyinə əmindir.

## Ədəbiyyat

1. Abbasov Ə.F. Milli maraqlar və milli ideologiya. Bakı: Təknur, 2012, 240 s.
2. Ağayev M.B. XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi. Bakı: «Nurlan», 2008, 168 s.
3. Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. Bakı, «Azərbaycan Universiteti», 2001, 358 s.
4. Mehdiyev Ramiz. XXI əsrdə milli dövlətçilik. Bakı: XXI YNE, 2003, 248 s.
5. Ümummilli Lider Heydər Əlirza oğlu Əliyevin irsi və milli ideolgiyanın formalaşması məsələləri. Bakı: «ADPU-nun mətbəəsi », 2013. 260 s.
6. Tağıyev Ə.M., Şükürov M.A. İki əsrin qovşağında Azərbaycan: milli və millətlərarası problemlərin həlli yolunda. Bakı: «Adiloğlu» nəşriyyatı, 2004, 194 s.

UOT 502.175;504.5/6

## Ətraf mühitə antropogen çirklənmənin təsiri və ekoloji tolerantlıq

*f.r.f.d., dos. Yusibova Təranə Firqət qızı*
*Abdullayev Qərib Budaq oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Bəşəriyyət ekoloji böhranın astanasında dayanmışdır. İnsanın təbiətə amansız müdaxiləsi onun özü üçün təhlükə yaratmış və həlli çətin olan problemlərlə üz-üzə qoymuşdur. Belə ki, Yer kürəsinin bir sıra ərazilərində təbii və antropogen tullantıların təsiri ətraf mühitdə ekoloji tarazlığı dözülməz dərəcədə pozmuş, insanların və digər orqanizmlərin həyatına təhlükə yaratmışdır. Ekoloji böhran yalnız havanın, suyun, torpağın, qida məhsullarının çirklənməsində deyil, təbii eko sistemlərin sıxışdırılması və məhv edilməsi nəticəsində boigeo kimyəvi dövriyyənin, sonda isə ətraf mühitin dayanıqlığının pozulmasına şərait yaradan amilə çevrilmişdir. Bu da təbiətin təbii tarazlığının pozulmasına səbəb olur.

Dünyada olan başqa qaydalarla birlikdə qlobal qaydaların da alternativ variantları və ssenariləri mövcuddur. Onlardan ən humanist və ədalətlilərini müdafiə etmək vaxtı gəlib çatmışdır. Bunu ilk "təbiət-cəmiyyət" münasibətlərinə aid edə bilərik. Doğrudan da, sənaye inqilabının başlandığı dövrdən iqtisadi mühit (cəmiyyət həyatının maddi şəraiti) sürətlə dəyişmişdir. Məhsuldar qüvvələrin fasiləsiz inkişafı və buna müvafiq olaraq tələbat predmetlərinin artımı müşahidə olunurdu. Diqqət çəkən cəhətlərdən biri də əvvəllər bəşər cəmiyyətinin inkişafına fərqli baxışın olmasında idi. Elə hesab olunurdu ki, bəşər cəmiyyəti ətraf mühitin xüsusiyyətlərindən asılı olmayaraq öz qanunları ilə hərəkət edir. İndi isə bu baxışlar köklü surətdə dəyişmişdir. Son 100 ildə insan fəaliyyəti planetar miqyasa çıxa bilmişdir. Fasiləsiz olaraq ətraf mühitə yüklənən antropogen yükün çəkisi artmaqdadır. İnsan təbiəti özünə tabe edərək, onu öz maraqlarına xidmət etməyə məcbur etmişdir. Hər şey – su, hava, yerin təki, flora, fauna insanların sağlamlığı və hətta insanın özünün mövcudluğu belə təhlükə altına düşmüşdür. Belə bir şəraitdə insan və təbiəti ayrı-ayrılıqda nəzərdən keçirmək deyil, birlikdə təbiət- cəmiyyət sistemində çərçivədən keçirmək lazımdır.

Sənayenin, energetikanın, nəqliyyatın artımı kənd təsərrüfatının və məişətin kimyalaşması əhalinin yüksək artım sürəti, urbanizasiya prosesinin getdikcə genişlənməsi də çirklənmə prosesində yaxından iştirak edir.

Hidrosferin çirklənməsi bir sıra neqativ nəticələrə səbəb olur. Məsələn, dünya okeanlarına hər il külli miqdarda tullantı atılır və bunun nəticəsində də okeanlarda çirklənmənin səviyyəsi artmaqda davam edir. Təkcə hər il neft və neft məhsullarının 10 milyon tonu okeanlara atılmaqla onu çirkləndirir. Dəniz heyvanlarında müxtəlif zəhərlər, o cümlədən, civə, qurğuşun və s. qidalanmaya mənfi təsir göstərir. Avropanı əhatə edən dənizlərdə də vəziyyət ağırdır. Həmin dənizlərin sahillərinə yaxın olan sularında salmonella və bağırsaq çöpləri görünməkdədir.

Onu da qeyd etmək lazımdır ki, ətraf mühit sürətlə artmaqda olan radiasiya çirklənmələrinə də məruz qala bilər. Nüvə silahlarının sınaqları nəticəsində radioaktiv tullantılar artır ki, onu da ört-basdır etmək getdikcə çətinləşir. Vaxtı ilə təbiətdə olmayan elementlər nüvə energetikasının inkişafı ilə əlaqədar olaraq Yer kürəsinin kifayət qədər geniş ərazilərində yayılmışdır.

Ümumiyyətlə, ən böyük çətinliyi sürətlə artmaqda olan tullantılar problem yaradır. Bəşəriyyət biosferin özündən min dəfələrlə çox tullantı yaradır və yaratdığı tullantı da hər 15 ildən bir iki dəfə artır.

Biosferdə gedən neqativ proseslər xüsusi həyəcan doğurur. Bəzən onların hamısını "biosfer böhranı" anlayışında birləşdirirlər. Məlum olduğu kimi biosfer dedikdə, bu bütöv razılaşdırılmış şəkildə fəaliyyət göstərən sistemdir, insan isə onun ayrılmaz hissəsidir. Son yarım əsr ərzində antropogen təsirlə şərtlənən proseslər bu və ya digər dərəcədə bütün orqanizmlərə, populyasiyaya, ekosistemlərə aid edilə bilər. Əslində, qloballaşmanın ətraf mühitə təsiri, onun müsbət və mənfi tərəfləri haqqında müxtəlif baxışlar var. Problemlər isə öz həllini gözləyir. Ətraf mühitin çirklənməsi ekoloji tolerantlığın məhvinə aparan əsas amillərdən biridir. Təbiətdə tolerantlıq təkamül prosesi nəticəsində baş vermişdir və böyük əhəmiyyət kəsb edir.

Yaşayış mühiti canlı orqanizmləri əhatə edən təbiətin bir hissəsi olub onlarla bilavasitə qarşılıqlı əlaqədədir. Mühitin tərkib hissələri və xassələri çox müxtəlif və dəyişkəndir. Hər bir canlı daim mürəkkəb və dəyişkən həyatına uyğunlaşır və onun dəyişkənliyinə uyğun olaraq həyat tərzini nizamlayır.

Orqanizmlərin yayılması onların məskunlaşdığı mühitin şəraitindən asılıdır. Mühit - orqanizmlərin həyat fəaliyyətinə təsir edən əhatə olunmuş kompleks şəraitidir. İstənilən orqanizmin mühiti çoxsaylı üzvi və qeyri-üzvi təbiət elementlərindən, eləcə də insanın təsərrüfat fəaliyyəti ilə əlaqəsindən, obyektlərdən asılıdır.

Kompleks şərait müxtəlif elementlərdən – mühit amillərindən asılıdır. Mühit amilləri arasında tamamilə lazımi yaşayış amili (məskunlaşma) var ki, bunsuz bitkilərin və heyvanların həyatı mümkün olmazdı. Yaşıl bitkilər üçün o, oksigen, karbon, istilik, su, torpaqla qarışmış mineral duzlardır. Bu amillər müxtəlif olmaqla yanaşı, həm də əvəzolunmazdır. Bunlar hamısı yaşamaq uğrunda mübarizədə lazım olan mühit amilləridir.

Orqanizmin amillərinin maksimum və minimum qiymətləri hüdudlar daxilində olduqda onun üçün əlverişli şərait yaranır. Temperatur bu hədlərdən hansınasa yaxınlaşanda heyvan ya soyuqluqdan, ya da istilikdən əziyyət çəkir, onun həyat fəallığı zəifləyir. Bu qanunauyğunluq istənilən amil üçün mümkündür. Orqanizmin özünü rahat hiss etdiyi şəraitə dözümlülük hüdudu və ya tolerantlıq deyilir.

Tolerantlıq qanununun bir sıra köməkçi prinsipləri vardır:

- orqanizmlərin dözümlülük hüdudları bir amilə görə geniş, başqa amilə görə isə məhdud ola bilər;

- bütün amillərə görə geniş tolerantlıq hüdudlarına malik orqanizmlər adətən geniş və yayılmış olur;

- əgər bir ekoloji amil üzrə şərait növ üçün optimal deyilsə, onun digər ekoloji amillərə görə dözümlülük sərhədləri də darala bilər. Məsələn, torpaqda azot çatışmazlığı, taxılın quraqlığa dayanıqlığını aşağı salır. Azot çatışmazlığı nəticəsində bitkinin qurumasının qarşısını almaqdan ötrü, yüksək miqdarda qat-qat artıq su sərf edilməlidir;

- hər bir orqanizm üçün çoxalma dövrü böhran dövrü hesab olunur: bir çox amillər məhdudlaşdırıcı olur. Məsələn, yaşlı sərv ağacı həm suda, həm də quru təpəlikdə yaşayıb böyüyə bilir. Lakin o yalnız torpaqda çoxalır, su altında qalan torpaqda çoxala bilmir.

Hər bir bitki və heyvan növü üçün müəyyən təsir amillərinin əlaqəli hədləri var: minimum, maksimum və optimal. Minimum hədd – intensiv amillərin elə bir həddidir ki, bu nöqtədən aşağı və yuxarı hədd olduqda bitki məhv olur; maksimum hədd – amilin ən böyük təsir gücüdür. Bundan yuxarı olduqda məhv olur. Optimal hədd – lazımlı həyati həddir, onun təsir səviyyəsi elədir ki, canlı orqanizmlərdə bütün proseslər nisbətən effektli olur.

Təbiətdə ekoloji tolerantlıq əsasən xarici amillərin təsiri ilə ekosistemin öz strukturunun funksional xüsusiyyətlərini saxlamaq qabiliyyəti ekoloji davamlılıq adlanır və əsas rol oynayır. Antropogen təsirlər nəticəsində ekoloji tarazlığın pozulması təbii fəlakətli hadisələr və digər faktlar altında ekoloji deformasiya baş verə bilir və canlılarda məhv olmaya şərait yarada bilir.

Ekosistemdə baş verən bütün proseslərə təsir göstərən orqanizmlər qrupu ekoloji davamlılığın məhv olması ekosistemin pozulmasına şərait yaradır və təbii ekosistemlərin məhvinə səbəb olur və s. Məsələn, təbii meşə sahələrinin məhv olması, bəzi bitki və heyvan növlərinin nəslinin kəsilməsi buna aid edilə bilər.

**Ədəbiyyat**

1. Sadıqov E. Qloballaşmanın ətraf mühitə təsirə. AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Elmi əsərlər №1. Bakı, 2012
2. Şükürov A. Qlobalistika və ekoloji fəlsəfə. Bakı, “Elm”, 2001
3. Şükürov A. Sosial ekologiya. Bakı, “Elm”, 1999
4. Панарин А.С. Ислушение глобализмом. Москва, Русский Национальный Фонд, 2000

UOT 351.85

## Multikulturalizm milli-mənəvi və ümumbəşəri dəyərlər kontekstində

*s.f.d., dos. Cəfərova Esmira Hilal qızı*
*Məmmədov İlham Mabud oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Məşhur rus mütəfəkkiri Vladimir Solovyovun (Vladimir Serqeyeviç Solovyov (1853-1900) – rus filosofu, mistik, şair) “Ümumi birlik etikası”na görə xeyir (“Xeyirin bəraəti”) bir ideal varlıqdır, o şərtsiz xarakter daşıyır və insan həyatının əsas mənası kimi izah olunur. Bu ideya varlığın bütün elementlərinin mütləqdə azad birliyini nəzərdə tutur [2]. Burada Mütləq olan vahid və monolitdir, lakin eyni zamanda özündə hər şeyi ifadə edir. Filosofun bu ideyası multikulturalizmin nəzəri əsaslarını fundamental şəkildə əks etdirir. Multikulturalizm müasir cəmiyyətdə tolerantlığın bir aspekti kimi kütləvi mədəniyyətin ümumbəşəri dəyərlər sitemində müxtəlif mədəniyyətlərin, etik-mənəvi və milli dəyərlərin paralel şəkildə mövcudluğunu, onların qarşılıqlı şəkildə biri birilərinə nüfuz etməsini, biri birilərini zənginləşdirməsini və inkişafını nəzərdə tutur. Avropa təfəkkürünün məhsulu olan multikulturalizm bu gün Avropanın özündə böhran dövrünü yaşayır. Lakin Şərq ölkələrində bu siyasət cəmiyyətin təhlükəsiz və uğurlu gələcəyini təmin edə biləcək yeganə, alternativi olmayan proqram kimi qiymətləndirilir. Tarixi proses sübut edir ki, qloballaşma, multikulturalizm, tolerantlıq, postmodern kimi baza ideyalar və onlara məxsus olan dəyərlər şəxsiyyətin inkişafına dinamik şəkildə təsir göstərən ən mütərəqqi amillərdir. Onlar şəxsiyyətə maksimum azadlıq verir və ən yüksək zirvələri fəth etməyə sövq edir. Nasionalizm isə multikulturalizmin antipodu kimi diaqonal şəkildə əks olan effektlər və onlarla əlaqədar nəticələr vəd edir. Müasir dünyada nasionalizm və onun ifrat formaları diskreditasiya olunmuşdur. Çünki ictimai şüur üçün o, nasizmlə, rasizm və marginallığın müxtəlif formaları ilə əlaqələndirilir [3]. Qeyd etmək lazımdır ki, özünün ilkin anlamında millət qan qohumluğu əsasında yaranmış toplum

kimi deyil, ruhani əsaslara söykənən birlik kimi təzahür edib. Tarixi proses nəticəsində isə onun ayrı-ayrı formaları təşəkkül tapıb. Bunların içərisində siyasi ənənələrə və etnik dəyərlərə əsaslanan milli birliklər daha geniş yayılmışdır. Qeyd etmək lazımdır ki, milli müstəsnalığın təbliğatı son nəticədə qatı millətçiliyə və şovinizmə gətirib çıxarır. Qatı millətçilik, yaxud nasionalizm etnik, mədəni və dini dözümsüzlüklə assosiasiya olunur. Nasionalizm və onunla əlaqədar ictimai və etnik-siyasi proseslər müasir dünyada "Pandoranın qutusu" (yun. pandora – hər şeydən hədiyyə almış. Yunan əsatirində Zevsin göstərişi ilə, Prometeyin insanlara od bəxş etməsinə görə cəza kimi Hermes tərəfindən yaradılmış ilk qadın. Zevs tərəfindən ona bəxş edilmiş qutunun açılması ilə bəşəriyyətə bədbəxtliklər və fəlakət yayılır, dərhal örtülən qutunun dibində isə yalnız "ümid" qalır. Müasir leksikonda qanadlı frazeoloji birləşmə kimi geri dönməz nəticələr verən hərəkət mənasında işlədilir) kimi alleqorik anlamla xarakterizə olunursa, "multikulturalizm çoxlu sayda ictimai xəstəliklərə qarşı panaseya, eliksir kimi qiymətləndirilir. Nasionalizm cəmiyyətə hipertrofiyaya məruz qalmış, ümumbəşəri mənəvi, əxlaqi və sosial mədəni dəyərlər bazasından məhrum olmuş şəxsiyyət bəxş edirsə, multikulturalizm qəlbində həqiqi mərhəmət, tolerantlıq, şəfqət, alicənablıq, zəkasında isə mütləq pozitivizmə köklənmiş ziya və kamal daşıyan insan bəxş edir [12].

"Böyük millət" o zaman tanrı qarşısında öz böyüklüyünü sübut edir ki, o, bütün milli-mənəvi dəyərlərin mövcudluğuna hörmətlə, mərhəmətlə və məhəbbətlə yanaşır. Beləliklə, "Böyük millət" özünün müstəsnalığını əlində bayraq tutaraq digər millətləri əsarət altında saxlayan millət deyil, əlində bərabərlik, ədalət, mərhəmət, multikulturalizm bayrağı daşıyan millətdir.

Tarixən qatı millətçiliyin məhz Avropa xalqlarının təfəkkür tərzi və onunla bağlı davranışı olması təsadüfi deyil. Belə ki, Şərq aləmindən fərqli olaraq müasir Qərb dünyasının tarixən formalaşmış ənənəvi millətlərinin milli identifikasiyası kifayət qədər sabit və davamlı deyil. Bunu çoxlu sayda əxlaqi-mənəvi faktorlar və milli genetik kodun kifayət qədər güclü və davamlı olmaması təyin edir. Məsələn, yaponların, çinlilərin, ərəblərin, türklərin, hindlilərin və digər Şərq xalqlarının antropoloji xüsusiyyətləri və genetik kodları minilliklər ərzində demək olar ki, dəyişməmişdir. Min il bundan əvvəl yaşamış hindus, ərəb, türk, yapon, yaxud çinli milli identifikasiya cəhətdən bu gün bu adı daşıyan individlərdən, demək olar ki, fərqlənmir. Avropada isə bunun tam əksi müşahidə olunur. Məsələn, müasir ispanlar, italyanlar, yunanlar, fransızlar və bir çox başqaları milli identifikasiya baxımından özlərinin qədim əcdadlarına demək olar ki, bənzəmirlər. Məhz bu səbəbdən bir çox Avropa liderləri multikulturalizmi "iflasa uğramış siyasət" kimi dəyərləndirirlər [5]. Məsələnin əsl mahiyyəti isə, milli identifikasiyanın, antropoloji xüsusiyyətlərin, əxlaqi dəyərlərin, təfəkkür tərzinin tədricən itirilməsi təhlükəsidir. Buraya Avropada baş verən etik-mənəvi böhranın nəticələrini, qeyri-ənənəvi oriyentasiyaların "üzdəniraq təntənəsini", dini və patriarxal dəyərlərin ənənəvi təsir qüvvəsini itirməsini, qarışıq nikahların sürətlə artmasını əlavə etsək müasir Avropa sivilizasiyasının, əsasən də, siyasi inkişafın narahatlığını anlamaq çətin deyil.

Antropologiya və etnoqrafiya xalqların məişətini və adət-ənənələrini, onların miqrasiyasını və yayılmasını, tarixi-mədəni münasibətlərini, bilavasitə müşahidə etmək metodu ilə təhlilə məruz qoyur. Multikulturalizm mövqeyindən yanaşma isə, Yer kürəsində yaşayan bütün xalqların, etnik azlıqların və dini icmaların vahid ailədə bərabər mövcudluğunu, razılıq, təbii müqavilə, qarşılıqlı anlaşma və qarşılıqlı yardım şəraitində yaşamasını nəzərdə tutur. Etnoqrafiya konkret faktlarla sübut edir ki, müxtəlif dillərdə danışan xalqlar maddi-mənəvi mədəniyyət baxımından çoxlu sayda ümumi xüsusiyyətlərə malikdirlər, qohum xalqlar isə əksinə, çox vaxt çoxlu sayda fərqli cəhətlərlə seçilirlər. Buna görə də "təsərrüfat-mədəni tiplər" və "tarixi-etnoqrafik ərazilər" kimi anlayışlar meydana gəlmişdir. Bu isə oxşar və eyni təbii-coğrafi ərazidə məskunlaşmış, oxşar sosial-iqtisadi inkişaf səviyyəsinə malik olan müxtəlif xalqların və etnik azlıqların tarixən formalaşmış təsərrüfat-mədəni xüsusiyyətlərinin kompleksi kimi ortaya çıxır. Deməli, müasir dövrdə vahid etnik-siyasi məkanda qərar tutmuş bütün xalqların ləyaqətli həyatının dövlət səviyyəsində təminatı və vahid sosial-iqtisadi və etnik-siyasi mühitdə yaşayan müxtəlif dünyagörüşü, əqidə, adət-ənənə sahibləri olan insanların ümumi rifaha, sülhə, əminamanlığa, ümumbəşəri dəyərlərə xidmət və məhəbbət ruhunda tərbiyə edilməsi və bu dəyərlərin həyat normasına, mütləq zərurətə çevrilməsi multikultural dəyərlərin əsas qayəsini təşkil etməlidir. Əgər bəşəriyyətin kompleks inkişafı təbii zərurət və tanrı

hökmüdürsə, bu nizamın pozulması, son nəticədə küfrün və tanrıtanımazlığın ən ifrat formalarından biri kimi təzahür edir. Bu cür nizamsızlığın acı nəticələrini biz bu gün dünyanın bir çox regionlarında müşahidə edirik. Tarixin belə inkişafı isə müəyyən zaman kəsiyində "şərin xeyir üzərində təntənəsi" kimi qiymətləndirilə bilər. Bu baxımdan milli identiklik, ali mənəvi dəyərlər, əxlaqi dəyərlər kimi anlayışların və onlarla bağlı özəlliklərin mahiyyətini açıqlamaq zərurəti yaranır. Milli identiklik insan identiktliyinin tərkib hissəsi olub onun hər hansı etnosa, yaxud millətə mənsubiyyət hissi ilə bağlıdır. Milli identiklik millət və vətəndaşlıq anlayışları ilə vəhdət təşkil etmir, lakin onlar amil kimi ona təsir göstərə bilirlər. Milli identiklik əzəli, aprior hadisə deyil. O, həyatda qazanılan təcrübənin, mədəniyyətin, tarixin, dilin müəyyən insan qrupu tərəfindən ümumiliyinin dərk edilməsində təzahür edir. Buraya konkret dövlətə mənsubiyyət, dövlət identikliyinə, milli ideyaya və simvollara bağlılıq və s. daxildir [6].

Mənəviyyat, yaxud əxlaq insanlar arasında qarşılıqlı əlaqələri tənzimləyən mütləq meyardır. Onlar ali dəyərlər kimi çıxış edir, çünki müxtəlif sosial qruplar və cəmiyyətlər üçün universal xarakter daşıyır. Mənəvi və əxlaqi prinsiplər hər şeydən üstündür və onların əsas devizini "özünə rəva bilmədiyini başqasına da rəva bilmə" kimi etik-fəlsəfi tövsiyə və digər moralist çağırışlar təşkil edir.

Ali mənəvi dəyərlər bir qayda olaraq həm ümumbəşəri, həm də milli-mənəvi xarakter daşıyır. Bu dəyərlər içərisində bəşəriyyətin davamlı inkişafının etik təməlləri olan xeyirxahlığı, mərhəməti, ümumi rifahı, bəşəri ixlası, dürüstlüyü xüsusi qeyd etmək lazımdır. Məhz bu dəyərlər multikulturalizmin prinsipial əsaslarını təşkil edir.

Şərin, neqativin, mənfinin əksi olan xeyir və xeyirxahlıq insanın başqa insanlara münasibətdə təmənnasız və səmimi şəkildə ümumi rifaha, yardıma və ixlasa can atmasıdır. Əzəli olaraq insan xeyirin tərəfində durur, bu istiqamətdə inkişaf etməyə çalışır, öz hərəkətlərini xeyirlə assosiasiya olunan dəyərlər əsasında koordinasiya edir. Mərhəmət zəifə, yetkin olmayana, xəstəyə, kiçiyə və s. münasibətdə əzabkeşliyi, qayğını, şəfqəti, alicənablığı ifadə edir. Ittiham etməkdən imtina və ləyaqətindən asılı olmayaraq insana hörmət mərhəmətin əsas prinsipidir. Ümumi rifah insanın şəxsi rifahının bəşəriyyətin rifahına proyeksiya olunmasında ortaya çıxır, ümumi mənada eqoizmə qarşı qoyulur və humanizm kimi təzahür edir. Bəşəri ixlas müxtəlif dini-əxlaqi və fəlsəfi təlimlərdə təbliğ olunan ruhun halətidir və insan məhz ona can atmalı, onun naminə əxlaqlı və mənəviyyatlı olmalı, müvafiq həyat tərzi seçməlidir. Dürüstlük insan əxlaqının keyfiyyət dərəcəsinin ən sadə göstəricisidir. Yalana qarşı qoyulmuş ən elementar həqiqət əmsalıdır.

Beləliklə, mənəvi dəyərlərin qısa xarakteristikası multikulturalizmin söykəndiyi mütləq prinsiplər kimi ortaya çıxır. Nəticə etibarı ilə bu dəyərlərin və prinsiplərin reallaşdırılması lokal miqyasda millətlərin, qlobal miqyasda isə bəşəriyyətin ixlasına xidmət edir. Bu gün Azərbaycan Respublikasında praktiki cəhətdən bu dəyərlərə əsaslanan mütərəqqi siyasət həyata keçirilir. Qeyd etmək lazımdır ki, tarixən, həmçinin müasir dövrdə Azərbaycan özündə müxtəlif dəyərləri, ənənələri, konfesiyaları və ideologiyaları ifadə edən mürəkkəb, lakin təbii və təşkilati nizama əsaslanan simbioz kimi çıxış edir. Bu gün multikultural ənənələrin qorunması və inkişafı ideyasını əlində bayraq tutan Azərbaycan xalqı və Azərbaycan dövləti milli-mənəvi və ümumbəşəri dəyərlər sistemində misli görünməmiş mütərəqqi və səmavi ədalətə əsaslanan siyasət reallaşdırır.

## Ədəbiyyat:


1. Əliyev H.Ə. Dinimiz xalqımızın milli-mənəvi sərvətidir. Bakı: Əbilov, Zeynalov və oğulları, 1999, 165 s.
2. Абрамов А.И. Философия всеединства Соловьева. Москва, 2000, с.272
3. Берлин И. Две концепции свободы // Современный либерализм. М:, 1998, с.19-43
4. Бодрияр Ж. Прозрачность зла. М:, Добросвет, 2000, 258 с.
5. Британский премьер осудил политику мультикультурализма//Лента.ру.
6. Кортунов В.С.Национальная идентичность. Москва, 2000
7. Межуев В.М. Проблема современности в контексте модернизации и Глобализации / Этатистские модели модернизации. М:, ИФРАН, 2000, 154 с.

8. Геллнер Э. Условия свободы. Гражданское общество и его исторические соперники. М.:, Московская школа политических исследований, 1995, 222 с.
9. Гумилев Л.Н. О термине «этнос» // Доклады отделений комиссий Географического общества СССР, вып., 1967, с. 3-17
10. Гусейнов А. А., Иррлитц Г. Краткая история этики. М:, Мысль, 1987, 589 с.
11. Гусейнов А. А. Этика и мораль в современном мире / Этическая мысль: Ежегодник, Вып.1, М.: ИФ РАН, 2000

UOT 72.1

## Diri Baba türbəsi YUNESCO siyahısına layiq abidədir

*f.r.f.d. Rəsulov Mehman Bulud oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Diri Baba türbəsi qədim Bakı-Şamaxı karvan yolu üzərində böyük bir qayalıqda tikilmişdir. Pir və eyni adlı türbə öz adını xalq arasında yayılmış rəvayətdən almışdır.

Diri Baba dünya möcüzələrindən biridir, onun haqqında ilk yazılı məlumata Əbdür-Rəşid əl-Bakuvinin "Abidələrin xülasəsi və Qüdrətli Hökmdarın (Allahın) Möcüzələri" əsərində rast gəlirik. Müəllif Şirvan haqqında dəyərli məlumatlar verərək yazır: "Bəziləri sübut etməyə çalışırlar ki, Musa ilə Xızırın hekayəti bura aiddir. Orada mağarası olan bir dağ var və bu mağarada oturmuş halda bir kişinin çürüməyən cəsədi var. Bu yeri camaat ziyarət edir" [3].

Diri Baba mənəvi-fəlsəfi dünyagörüşümüzün böyüyü, müqəddəs müəllimimizdir. Deyilənlərə görə, Diri Baba həyatda müdrik bir ağsaqqal, nurani, nəsihət verən şəxs olub. Diri Baba folklorumuza zəngin xəzinə bəxş etmişdir. Ayrı-ayrı folklor nümunələrində onun gecə-gündüz yatmayıb ibadət etməsi, dirilik suyu içməsi, qeyb olması haqqında fikirlər vardır [8,9].

Qədim karvan yolu üzərində yerləşən Diri Baba türbəsinin qayalıqda yerləşməsi, əzəmətli görünüşü, gözəl memarlıq xüsusiyyətləri, əsrarəngiz kitabəsinə və naxışlarına görə vaxtilə Qafqaza gəlmiş bir çox alim və səyyahları valeh etmişdir. Evliya Çələbi, Adam Oleari, Pazuxin qardaşları, Kornelius de Bruin, İ.A.Bartolomey, B.Dorn və b. Diri Baba və türbə haqqında dəyərli məlumatlar vermişlər. Bu məlumatlar tərcümə edilərək XVII əsrin 30-cu illərindən dünyanın bir çox ölkələrinə yayılmışdır. Diri Babanın çürüməyən bədənini öz gözləri ilə görmüş E.Çələbi yazır: "Həqiqətən, irşad sahibi (olan) bir pir hündür dağın ətəyində yerləşmiş müqəddəs astanası içərisində bir küncdə səccadə üzərində oturmuşdur. Hal-hazırda müqəddəs bədəni pambıq kimi ağarıb, çürüməmiş, tər-tərmiz və təzədir. Bu qədər illərdən bəri (onun), müqəddəs üst paltarı üzərinə bir zərrə toz qonmamışdır... gözəllikdə, əzəmətdə bu astanaya yalnız Məşhəddəki imam Musarza astanası bərabər ola bilər" [4].

Mütəxəssislər türbəni orijinal memarlıq forması, mütənasibliyi, dekorativ bəzək elementlərinin zərifliyi, ətrafdakı təbii mənzərə ilə əlaqələndirilməsi, əsrarəngiz kitabəsi və s. keyfiyyətlərinə görə Azərbaycan memarlığının ən maraqlı və qiymətli abidələrindən biri, XVII əsrdən bəri ən çox diqqəti cəlb edən, nadir, Şirvan memarlığının incisi kimi qiymətləndirirlər.

Alimlər qeyd edirlər ki, bu türbəyə oxşar olan abidə tapmaq çətindir. Türkmənistanda Kopet-dağın şimal-qərbindəki Parau-bibi məzarı öz yerləşməsinə və bəzi plan xüsusiyyətlərinə görə Diri Baba türbəsinə oxşayır. Türbənin yazıları Təbrizdəki Göy Məscidin (1465) yazılarına yaxındır. Diri Baba türbəsinin bəzi hissələri stilizə edilmiş nəbati ornamentlərlə bəzədilmişdir. Türbənin daş üzərində bədii oyma ilə yaradılmış naxışları Bakıdakı Şirvanşahlar sarayının naxışlarından geri qalmır. Memarlıq üslubu baxımından bu iki abidə arasında ümumilik, genetik qohumluq vardır [1,9].

Abidə 1956-1961-ci illərdə bərpa edilib. Bərpa işləri sovet dövründə inşa edildiyindən güman edirik ki, Ə.V.Salamzadə, L.S.Bretanitski və b. şəxsi arxivlərində açılmamış faktlar var. Abidənin layihəyə tam uyğun bərpa edilmədiyi də təəccüb doğurur [1,2].

Diri Baba türbəsinin ən qiymətli hissələrindən biri təəssüf ki, bizim zamana qədər gəlib çatmamış kitabəsidir. M.X.Nemətova yazır: “B.Dornun ekspedisiyası zamanı kitabənin üzü memar İ.A.Bartolomey tərəfindən çıxarılmışdı. Lakin B.Dornun fondunda aparılan axtarışlar nəticəsində bu estamp tapılmadı. 1963-cü ildə B.Dornun fondunda apardığımız əlavə axtarışlar zamanı “Diri Baba” türbəsinin kitabəsindən əllə çəkilmiş, kiçildilmiş bir surət aşkar edə bildik...və beləliklə, ərəbcə yazılmış kitabəni tam şəkildə bərpa edə bildik. Kitabənin tərcüməsi belədir: “Ən böyük sultan, xalqların ixtiyar sahibi, sultan oğlu sultan, Cəlal-əd-Dünya və-d-din (dünyanın və dinin şöhrəti) Şeyx İbrahim xanın – Allah onun dövlət və hökmranlığını əbədiləşdirsin və hər iki dünyanı onun dəlili ilə aydınlaşdırsın – hakimiyyəti günlərində, səkkiz yüz beşinci (1402/03) ilin aylarında, onu (kitabəni) Dərviş yazdı”[6].

M.X.Nemətova son illərdə Diri Baba haqqında dövri mətbuatda yayılmış “elmi əsası olmayan” fikirləri təkzib etmişdir. O, “Şirvan eyhamı” üslubundan məharətlə istifadə etmişdir [7].

Qeyd etmək lazımdır ki, S.Kərimzadə də kitabəni bərpa etməyə çalışmışdır. O, mülahizələr əsasında kitabənin bərpası üçün layihə işləmişdir (1960-cı il). Müəllif həmin layihədə orijinala xas olan əsrarəngiz gözəlliyi layiqincə qoruyub saxlaya bilmişdir.

Fikrimizcə, kitabədə ərəb hərflərinin xətləri ilə nəbati naxışların zərif cizgiləri tam üzvi vəhdət, ülvi gözəllik yaratmışdır. Bu kitabənin, eləcə də türbədəki naxışların hələ açıqlanmamış sirri var.

Təsadüfi deyil ki, abidə XX əsrin I yarısında öz xarici görkəmini müvəqqəti olaraq azacıq itirsə də, onun naxışları və kitabəsi əsrarəngiz gözəlliyinə və məzmununa görə alimlərin, turistlərin və zəvvarların diqqətini yenə də cəlb etmişdir.

Hələ 1959-cu ildə M.X.Nemətova “Şirvanın XIV-XVI əsrlərdə tarixinin öyrənilməsinə dair (epiqrafik abidələr əsasında)” kitabında belə yazırdı: “kitabə öz xəttinin gözəlliyi və naxışları cəhətdən Azərbaycanın epiqrafik abidələri içərisində birinci yeri tuta bilər” [5].

Diri Baba türbəsinin naxışları və kitabəsi daş üzərində oyma sənətinin XIV-XV əsrlərdə Şirvanda necə inkişaf etdiyini aydın göstərir. Dövrünün ən nəfis incəsənət, memarlıq və epiqrafik incilərinin bir abidədə cəmlənməsi səbəbsiz deyil.

Kitabənin yuxarıda qeyd olunan hər iki müəllif tərəfindən oxunuşunda Diri Babanın öz adı məlum olunmur. Hansısa səbəbdən kitabə bərpadan sonra abidənin üzərinə həkk edilməyib. 7 cildlik “Azərbaycan tarixi”nin III cildində təsviri verilən Diri Baba türbəsinin kitabəsini yerində həkk etmək daha məqsədəuyğun olardı. Həmin kitabə abidənin ən gözəgəlimli yerində olub, türbəyə bənzərsiz gözəllik bəxş edib. Lakin bu gün abidəni görən zəvvarlar və turistlər o gözəllikdən xəbərsiz keçir. Çox təəssüf ki, III cildin son səhifələrində memarlıq abidəsinin fotosu verildiyi halda, epiqrafik abidəsinin kiçik hissəsi belə verilməmişdir.

Diri Baba türbəsi türkcülüyümüz, milli müstəqilliyimiz və dövlətçiliyimizin nişanəsidir. Abidənin planlarında və pəncərəsinin daş şəbəkələrində səkkizguşəli ulduzlardan geniş istifadə olunmuşdur. Təsadüfi deyil ki, hələ 1925-ci ildə nəşr edilmiş “(Şimali) Azərbaycanın qısa tarixinin oçerki” kitabının müəllifi V.M.Sısoyev türbənin kitabəsinə xüsusi diqqət vermişdir.

A.Kanikin Azərbaycana aid şeirlərini və poemanı ayrıca kitab şəklində çap edib. Kitabın içindəki birinci şeir də, kitabın adı da “Diri Baba”dır. Həmin şerdə müəllif Diri Babanı “el ağsaqqalı”,“müəllim”, “möcüzə sahibi”, “Peyğəmbər adına layiq” bir şəxs kimi qəbul edir. Maraqlıdır ki, müəllifin rus dilində yazdığı şerdə “ağsaqqal”, “müəlim” sözləri Azərbaycan dilində olduğu kimi təqdim edilir. Bu kitabın üz qabığındakı şəkil də diqqəti cəlb edir. Ətrafda çovğun, çiskin təsvir olunub, ağaclar əyilib, yarpaqlar tökülüb, qaranlıq çöküb. Lakin Diri Baba əzəmətli vüqar ilə dağa söykənib, türbədən aləmə nur saçır. Sovet dövrundə (1984-cü ildə) Moskvanın lirik şairi və rus rəssamı tərəfindən Diri Babaya belə hörmət, ehtiram gördükdə insanın qəlbi riqqətə gəlir.

Alimlər, şairlər və yazıçılar bu mövzuya çox müraciət etmişdilər. Diri Baba türbəsi haqqında internet səhifələrində Azərbaycanca, türkcə, rusca, ingiliscə, almanca, ərəbcə geniş məlumatlar, filimlər vardır. Respublikamızda fəaliyyət göstərən ən müxtəlif KİV, o cümlədən, “Moskvanın 1-ci kanalı” dəfələrlə Diri Babanı yad etmişdir. Mingəçevir Televiziyasının 2006-cı il 23 fevral tarixində “Azan səsi” verilişində bu məzmunda geniş elmi söhbət olmuşdur.

Deyilənlərdən aydın olur ki, Diri Baba türbəsi YUNESCO siyahısına layiq abidədir. Bunun elmi əsası vardır. Həmin abidə dünyada məşhurdur [9]. Bu məzmunda, artıq, internet səhifələrində də məlumatlar vardır.

### Ədəbiyyat


1. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, III cild, Bakı: ASE nəşriyyatı, 1979, 600 s.
2. Azərbaycan Memarlıq tarixi. 5 cilddə, III cild. Bakı: "Şərq-Qərb Nəşriyyat Evi'', 2013, 232 s.
3. Bakuvi Əbdürrəşid. "Abidələrin" xülasəsi və Qüdrətli Hökmdarın möcüzələri, Bakı: Şur, nəşriyyatı, 1992, 176 s.
4. Çələbi E. Səyahətnamə. Bakı: Azərnəşr, 1997, 92 səh.
5. Nemətova M.X. Şirvanin XIV-XVI əsrlər tarixinin öyrənilməsinə dair (epiqrafik abidələr əsasında), Bakı, "ELM",1959, 167 s.
6. Nemət M.X. Azərbycanda pirlər. Bakı: Azərnəşr, 1992, 104 s.
7. Nemət M.X. Bir daha "Diri Baba türbəsi" haqqında. "Qobustan" jurnalı, 2005. № 2, s. 75-78
8. Paşayev S. "Xalqın söz mirvariləri". Bakı: Azərnəşr, 1999, 110 s.
9. Rəsulov M.B."600 yaşlı türbə"."Mədəni Maarif" jurnalı, 2003, № 11, s. 13-15



UOT 2; 141.45


## Multikultural cəmiyyətdə dövlət – din münasibətləri


*f.f.d. Ağayeva Rayihə Şəmsəddin qızı*
*Mingəçevir Dövlət Universiteti*


Coğrafi baxımdan Avropa və Asiya qitələrinin sərhədlərində yerləşən müasir Azərbaycan zərdüştlük dininin vətəni, Qafqazda xristianlığın ilk beşiyi, İslam dininin geniş yayıldığı məkan, müxtəlif etnosların sülh və bərabərlik içində yaşadığı ərazi, rəngarəng mədəniyyətlərin bir-birindən bəhrələnərək inkişaf etdiyi bir ölkədir.

Tarixən Azərbaycan müxtəlif dini baxışları özündə birləşdirib. Müxtəlif dinlərin nümayəndələri bu məkanı özləri üçün əminamanlıq və sığınacaq yeri bilmişlər [2]. Ərazidə Azərbaycan türkləri ilə bərabər dağ yəhüdiləri, tatlar, talışlar, inqiloylar, saxurlar, avarlar, ləzgilər, xınalıqlılar, malakanlar, kürdlər və s. kimi etnik qruplar yaşayırlar. Bu siyahıya torpaqlarımıza vaxtı ilə sürgün edilmiş xalqları da əlavə etsək palitra tamamlanar. Bu qədər müxtəlifliyə baxmayaraq Azərbaycanda heç vaxt dini zəmində münaqişələr olmamış, bütün dinlərə qarşı tolerantlıq göstərilmişdir. Bu tolerantlıq nəinki vətəndaşlar arasında, eyni zamanda dövlət siyasətində də öz əksini tapmışdır. Belə ki, 1918-ci ildə Azərbaycanda Xalq Cümhuriyyətinin yaradılmasından sonra İstiqlal Bəyannaməsində ölkənin bütün vətəndaşlarının irqindən, dinindən, sosial mənşəyindən, cinsindən asılı olmayaraq bərabərhüquqlu olduğu qeyd edilirdi. Bugünki Azərbaycan da Xalq Cümhuriyyətinin siyasi varisidir. Müstəqil Azərbaycan dünyəvi prinsipləri əsas tutaraq sivil dünyaya inteqrasiya etməsinə baxmayaraq, dini-mənəvi dəyərləri uca tutur, müsəlman ölkəsi olduğunu vurğulayır. Dövlət atributlarından olan üç rəngli bayrağımızın rənglərindən birinin yaşıl olması islam dininin dəyərləndirilməsinə sübutdur, bu da dövlət və din münasibətlərinin əsasını təşkil edir.

1998-ci ildə Bakıda "Müstəqillik və dini-mənəvi dəyərlər" adlı Beynəlxalq konfransda Heydər Əliyev demişdi: "Biz müsəlmanlar fəxr edirik ki, mənsub olduğumuz islam dini dünyanın böyük bir hissəsini əhatə edir və bəşər tarixi boyu insanların mənəvi cəhətdən yüksəlməsinə və dünyada inkişafa, sülhün, əmin-amanlığın yaranmasına həmişə xidmət etmişdir"[5].

Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə din sahəsində gərginliyin azalması, dövlət-din münasibətlərinin tənzimlənməsi, radikal qrupların fəaliyyətinin qarşısının alınması və s. mühüm

tədbirlər görüldü. 1992-ci ildə qəbul olunan "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə dini mərkəzlərin, idarələrin fəaliyyəti tənzimləndi. Dini qurumların dövlət qeydiyyatına alınması və fəaliyyətinə xitam verilməsi qaydaları müəyyənləşdirildi. Bütün bunlara nail olmaq elə də asan başa gəlməmişdir. Missioner təşkilatlar Azərbaycan xalqının humanistliyindən, qeyri-sabit vəziyyətdən və Qarabağda aparılan müharibədən istifadə edərək Bakını təriqətçilik təbliğatı aparacaq mərkəzə çevirməyə can atırdılar. "Din etiqad azadlığı haqqında"Azərbaycan Respublikasının Qanununa edilən dəyişikliklərdən sonra müvafiq dövlət qurumları dini təbliğat aparan missioner və humanitar təşkilatların qanuna zidd əməllərinin qarşısı alındı.

Dövlət dəstəyi ilə Bakıda bütün dinlərə şərait yaradılmışdır. Provaslav və katolik kilsələri, sinaqoqlar, məscidlər öz əzəmətli binaları ilə göz oxşayır. Azərbaycanda dinlərin vəhdəti və birliyi bir çox dövlətlər üçün qibtə ediləcək səviyyədədir. Azərbaycan xalqına aqressivlik, dözümsüzlük kimi xüsusiyyətlər yaddır. Tarixən də bu keyfiyyətlər Azərbaycan xalqının tolerant xarakterli olduğunu ortaya qoymuşdur [3]. Bu gün Azərbaycanda bütün dinlər bərabərhüquqludur.

Dövlət-din münasibətlərini sivil qaydada formalaşmasında Azərbaycan modelini nümunə kimi göstərən II Aleksi bu siyasətin yaradılmasında Ulu öndər Heydər Əliyevin rolunu xüsusi qeyd etmiş, bu sahədə Azərbaycan təcrübəsinin öyrənilməsi zərurətini göstərmişdi.

Dövlətçiliyimizin inkişafında din amilindən də istifadə etmək vacib sayılır. İslam dinində mənəvi aləmə nüfuzetmə xüsusiyyəti, səfərbəredici potensialı, azadlığa hörmət ruhu var. Ulu öndər Heydər Əliyev dinimiz haqqında demişdi: "Müasirlik və dini-mənəvi dəyərlər, bir-biri ilə bağlanmalıdır. Dini-mənəvi dəyərlər bizi geri çəkməməlidir, irəli aparmalıdır. Çünki islam dininin mənəvi dəyərləri insanları həmişə inkişafa aparmışdır". Tarixə nəzər saldıqda görürük ki, islam dini meydana gəldiyi gündən cəhalətə, nadanlığa qarşı çıxaraq həmişə elmə, inkişafa xüsusi önəm verib.

Azərbaycan Respublikası Konstitusiyasında dinin dövlətdən ayrı olduğu öz təsdiqini tapmışdı [1]. Bu, bütün demokratik ölkələrə xas olan bir xüsusiyyətdir [2]. Müstəqillik dövründə isə bu daha qabarıq şəkildə özünü göstərdi. Bu dövrdən başlayaraq 2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət komitəsi yaradıldı və dövlət –din münasibətlərində yeni mərhələ başladı. Bu komitə ölkədə dini gərginliyin yaranmaması, dini ayrı-seçkilik meyllərinin yüksəlməsinə yol verilməməyi, dini mərasim altında müxtəlif antidövlət meylli şəxs və qrupların qarşıdurma yaratmaq cəhdlərinin qarşısının alınması, ictimai təhlükəsizlik və sosial sabitliyin qorunması, din-dövlət münasibətlərinin normal səviyyədə tənzimlənməsi üçün mövcud dini duruma lazımi nəzarəti təşkil edir.

Bu gün konstitusiyası dinə əsaslanan dövlətlərin bir çoxunun aqibəti məlumdur. Suriya, Səudiyyə Ərəbistanı, Küveyt, İraq, Misir və s. kimi dövlətləri misal göstərmək olar. Yaxın Şərqdə din pərdəsi altında qarşıdurmaların törədilməsi minlərlə günahsız insan qanının tökülməsinə səbəb olmaqdadır. Belə bir zamanda Azərbaycanda bütün dünyaya nümunə ola biləcək növbəti addım atıldı. Bakıda Heydər məscidindəki vəhdət namazı təlatüm yaşayan islam dünyasının birliyə çağırışı, harayı idi. Bu addım məzhəblər arası dözümsüzlüyün həlli probleminin ifadəsi idi [4]. Ölkəmizin vəhdət və multikulturalizm ideyası ilə çıxış etməsi bütün türk və islam dünyasını birləşdirməyə yönəlib. Azərbaycanda din dövlət siyasətinə qarışmasa da, hər zaman onun təşəkkül tapmasına, varlığına öz köməyini əsirgəmir. Bu müxtəlif konsepsiyalı dövlətimizdə dini icma başçılarının müstəqilliyimizə xələl gətirə biləcək hər bir hadisəyə birgə bəyanatlarında özünü göstərir. 2004-cü ildə Vatikanda keçirilən görüşdə pontifik Azərbaycanda dini konfessiyalar arasında mövcud münasibətləri yüksək qiymətləndirmişdi.

Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan möhtərəm Prezidentimiz İlham Əliyev dövlət-din münasibətlərinin inkişafı üçün öz töhvəsini verməkdədir.

Beləliklə, ölkəmizdə din və dövlət birliyi xalqımızın rifahı üçün çalışmaqdadır. Son illərdə Bakıda keçirilən və nəzərdə tutulan beynəlxalq humanitar forumlar, IV İslam Həmrəyliyi oyunları da, dünya ölkələrinə multikultural bir dövlət olduğunu bir daha vurğulamaqdadır.

Hazırda Azərbaycan xalqının və dövlətinin qarşısında duran əsas vəzifələrdən biri bu zəngin irsin və mədəniyyətin, tolerantlığın qorunub saxlanması, gələcək nəsillərə çatdırılmasıdır. Bu ənənələrin zəiflədilməsinə yönələn bütün cəhdlərin dövlət tərəfindən davamlı olaraq qarşısı alınır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Maddə 18
2. Bədəlov Ə. Tolerantlığın Azərbaycan modeli müsəlman aləmi üçün əsl nümunə sayılır. Xalq qəzeti, 18 yanvar 2016, (66695)
3. Bədəlov Ə. Prezident İlham Əliyev: Bizim dini dəyərlərimiz milli dəyərlərimizin tərkib hissəsidir. Xalq qəzeti, 21 iyul 2016, (46737)
4. Anar Turan. Azərbaycanda dövlət və din münasibətləri yüksələn xətlə inkişaf edir. Xalq qəzeti, 24 mart 2016(66283)
5. Əliyev H. Müstəqilliyimiz əbədidir. XVII cild, Bakı, 2008

UOT 1

**Multikulturalizm Azərbaycan cəmiyyətinin həyat tərzidir**

*kiçik elmi işçi Əsədova Jalə Alik qızı*
*Azərbaycan Dillər Universiteti*

Azərbaycan dünyanın humanitar kataklizmlər baş verməyən nadir ölkələrindəndir. Humanitar məsələ bu gün özündə mədəniyyətlərin, sivilizasiyaların, konfessiyaların qarşılıqlı münasibətlərini ehtiva etməkdədir. Ölkəmizdə tarixən bu sahəyə ən pozitiv mövqe sərgiləndiyi üçün bu gün Azərbaycan dünyanın humanitar əməkdaşlıq mərkəzinə çevrilib. Azərbaycanda hökm sürən ictimai-siyasi quruluşdan asılı olmayaraq bütün dövrlərdə Azərbaycan dözümlülük, tolerantlıq məkanı olmuşdur. Bu gün müstəqil Azərbaycan öz siyasətini bu təməl üzərində qurur. Yaşadığımız XXI əsrin xarakterik xüsusiyyəti bütün dövlətlərin istər iqtisadi, istər siyasi arenasına, istərsə də sosial həyatına qloballaşma prosesinin təsirlərini gətirməsidir [3].

Azərbaycanda tarixən bütün etnoslar qardaş kimi yaşayıb, milli-dini zəmində qarşıdurma heç bir vaxt baş verməyib. Bu keyfiyyət xalqımızın qədimdən-qədim özünəməxsus dövlətçilik ənənəsini yaşatması və inkişaf etdirməsi ilə bağlıdır və hazırkı qlobalizm prosesində çox pozitiv və nümunəvi bir yaşam təcrübəsidir. Azərbaycanda millətlərarası, dinlərarası münasibətlərin sağlam zəmində qurulması və dövlətin siyasi, iqtisadi və sosial həyatında müsbət nəticələrlə müşayiət olunması bu gün çox xarakterik və artıq dünyada da təsdiq və təqdir olunan bir göstəricidir. Həmçinin, Azərbaycanda müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin nümayəndələrinin sərbəst yaşamaları üçün bütün zəruri şərait yaradılıb [1].

Azərbaycan bu gün dünyanın ən sabit, multikulturalizmi yaşadan, qoruyan ölkələrindəndir. Burada yaşayan müxtəlif xalqların mənəvi yaddaşı tarixi inkişaf mərhələsində zərdüştlükdən üzübəri dünyanın bütün əsas dinlərinin ən ülvi, bəşəri dəyərləri ilə zənginləşərək, mədəniyyət və mənəviyyatın çoxsaylı cəhətlərini özündə miras saxlamışdır. Tarixən polietnik və müxtəlif dinli ölkə olan Azərbaycanda multikulturalizm göstəricisi özünün rəngarəng tərkibi ilə fərqlənən və bu müxtəlifliyin etnik-milli mənbələrini qorumuş, burada yaşayan etnik-dini birliklərin qarşılıqlı münasibəti və mədəniyyəti, folklor, dialekt, adət, məişət tərzi, inam sistemi və s. müxtəlifliyin vəhdətini müəyyən edən obyektivlikdir [3].

Multikulturalizm - çox mədənilik, bir çox fərqli mədəniyyətin bir arada yaşadığı cəmiyyəti təyin edən sözdür. İlk növbədə, multikulturalizm bir ölkədə mədəniyyətlərin qarşılıqlı təsirində müəyyən "keyfiyyət"ə nail olunmasına yönəlmiş demokratik dövlət strategiyasıdır. Multikulturalizm hamı tərəfindən tanınan, müxtəlif mədəniyyətlərə tolerant münasibətə əsaslanan dinc, yanaşı yaşama prinsipidir. O, ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir. Humanist və demokratik nəzəriyyə yaxud ideologiya olaraq multikulturalizm, tolerantlığın

təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil. Bu baxımdan qeyd etmək yerinə düşərdi ki, Azərbaycan üçün fərqli baxışlara, adətlərə, vərdişlərə dözümlülük mövqeyi bəsləmək əlbəttə ki, təbiidir. Müxtəlif xalqların, millətlərin, dinlərin xüsusiyyətlərinə tolerant münasibət azərbaycanlıların mentalitetinə xasdır [7].

Multikulturalizm bir ideya və termin kimi ilk dəfə Qərbdə, Avropada dövriyyəyə çıxarılsa da və son dövrlərdə bu ideyadan geriçəkilmələrə yol verilsə də, Azərbaycan mühitində bu sahə artıq cəmiyyətin əxlaq kateqoriyasına çevrilib. Respublikada multikulturalizm bir kampaniya deyil, Azərbaycan dövlətinin milli-mənəvi, ümumbəşəri, humanist dəyərlərinə söykənən siyasi kurs kimi davamlı və ardıcıldır. Dövlət bu sahədə yarana biləcək problemlərə qarşı qabaqlayıcı tədbirləri yubanmadan həyata keçirməkdədir.

Hazırda ölkədə keçirilən çoxsaylı beynəlxalq tədbirlərdə dünyada milli və dini tolerantlığın gücləndirilməsi, mutikulturalist dəyərlərin təbliği, dini zəmində ekstremizmə və ayrıseçkiliyə qarşı birgə mübarizə yollarının araşdırılması, fərqli dinlərin və mədəniyyətlərin daşıyıcısı olan insanlar arasında dialoq və qarşılıqlı anlaşmanın bərqərar edilməsi və s. aktual problemlər geniş müzakirə olunur. Amma təəssüflə onu da qeyd etmək lazımdır ki, Azərbaycanın sürətli inkişafı, ölkədəki sabitlik, vətəndaş həmrəyliyi, dini və milli tolerantlıq mühiti bəzi daxili qrupların və xarici qüvvələrin, müəyyən əcnəbi dairələrin maraqlarına cavab vermir. Azərbaycan dövləti isə buna müvafiq olaraq ölkədəki dini ibadət azadlığından və multikulturalist mühitindən sui-istifaədə etməyə cəhd edən müxəlif təriqətlərin, missioner təşkilatların anti-milli fəaliyyətinə qarşı qəti və barışmaz möqe nümayiş etdirir [7].

Multikulturalizm siyasəti ölkənin demokratik inkişafının, insanların hüquq və azadlıqlarının müdafiə olunmasının tərkib hissəsidir. Bir neçə Qərb ölkəsinin dövlət başçılarının multikulturalizmin iflasa uğradığını qeyd etdiyi bir dövrdə Azərbaycan Respublikası multikulturalizmi özünün dövlət siyasəti olduğunu bəyan etmişdir. Azərbaycan Respublikası bu məsələyə ölkənin ümumi inkişafının mühüm məqsədlərindən biri olan demokratik inkişafın, insanların hüquq və azadlıqlarının müdafiə olunmasının tərkib hissəsi kimi yanaşır [3].

Azərbaycan multikulturalizm ənənəvi siyasətinin çox yaxşı modelidir. Deməli, müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multukulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Azərbaycanın inkişafıdır ki, burada ölkənin milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər. Multikulturalizmdən imtina isə bütün dünyada getdikcə artan anlaşılmazlığa, fobiyaya, qarşıdurmaya, milli və dini münaqişələrə aparan yoldur [7].

Mədəniyyətlərin və dinlərin harmonizasiyası və ənənəvi siyasəti sayəsində Azərbaycan həmişə müxtəlif etnosların nümayəndələrinin mədəniyyətləri və dinlərinin inteqrasiya məkanına çevrilib. Müsəlman, xristian və yəhudi əhalisinin nümayəndələri arasındakı tolerant və dostluq münasibətləri Azərbaycan xalqının humanist ruhi mədəniyyəti üçün hər zaman xarakterik olub [6].

Multikulturalizm – ölkədə etnik-mədəni dəyərlərin qorunmasına və inkişaf etdirilməsinə yönələn bir siyasətdir. Multikulturalizm dövlət siyasətinin əsas məqsədi ölkədə yaşayan bütün xalqların etnik-mədəni dəyərlərinin qorunmasına, inkişafına və cəmiyyət daxilində bu xalqların inteqrasiyasına nail olmaqdır. Azərbaycanın ərazisində yaşayan bütün xalqların, o cümlədən milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması və inkişafı məsələsinə Azərbaycan Respublikası özünün dövlət siyasətinin həm məqsədi, həm də vasitəsi kimi yanaşır [8].

2014-cü il fevralın 28-də Azərbaycanda Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi təsis edilməsi və 2014-cü il 15 may tarixində Prezident İlham Əliyev tərəfindən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında sərəncam imzalanması multikulturalizmin Azərbaycan cəmiyyətinin həyat tərzinə çevrilməsinin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən dövlət siyasəti elan edilməsinin əyani sübutudur. Onu da qeyd edək ki, BBMM multikulturalizmin Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda, bədii, psixoloji-mənivi müstəvidən kənara çıxmayan dəyərlər toplusu kimi mövcud olduğunu göstərir [6].

Müasir Azərbaycanda multikulturalizmin möhkəmləndirilməsi və saxlanmasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev xüsusi rol oynayıb. Ümummilli lider Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan, tarixən, sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa edib. Ulu öndər Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və müdrik siyasəti ilə əsrlər boyu formalaşan çox mədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Onun rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir [2].

**Ədəbiyyat**


1. Heydər Əliyev, "Müstəqillik yolu", Seçilmiş fikirlər. Bakı, 1997
2. Abdullayev K.M. Ulu Öndər Azərbaycan multikulturalizmin siyasi banisi kimi. Azərbaycan qəzeti, 23.07.2014
3. Mehdiyev R.Ə. Azərbaycan: Qloballaşma dövrünün tələbləri, Bakı, 2012
4. "Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi və mənəvi inkişafın harmoniyası"- Dəyirmi masanın materialları.
5. http://metbuat.az/news/345464/prezident-ilham-eliyev-multikulturalizm-azerbaycanda-heyat-t.html
6. http://metbuat.az/news/345809/multikulturalizm-azerbaycanda-dovlet-siyaseti-xalqin-heyat-t.html
7. http://manera.az/cemiyyet/913-multikulturalizm-azerbaycanlilarin-heyat-terzidir-maneraaz.html


UOT 327

## Mədəniyyətlərarası toqquşma və multikulturalizm

*Zeynalov Üzeyir Ələmşah oğlu*
*Mingəçevir Dövlət Universiteti*
*AMEA Fəlsəfə və Hüquq İnstitutunun dissretantı*

Sovet ittifaqının süqutu mərhələsində, XX əsrin 90-cı illərində Qərbdə mövcud olan multikulturalizm tendensiyaları 2001-ci ilin sentyabr ayından sonra yerini mədəniyyətlərarası toqquşma düşüncəsinə verdi. Hazırda bir tərəfdən siyasi arenada müxtəlif şəkillərdə konfliktlərin meydana gəlməsi və bəzi regionlarda bunun hərbi yollarla həlli mövzunun aktuallığından xəbər verir.

Soyuq müharibənin başa çatması ilə Fransis Fukuyama "Tarixin sonu" tezisi ilə modern liberalizmin bütün ideologiyalar üzərində qələbə çaldığını iddia etdi. Samuel Huntiqton isə mədəniyyətlərarası toqquşmanın qlobal siyasət kontekstində izah edir. Ona görə mədəniyyətlərin fərqlilikləri ontolojik olaraq onların əsasını təşkil edir və Qərb bu gün digər mədəniyyətlər ilə müqayisədə fövqəladə qüdrətinin zirvəsindədir [1].

Multikulturalizm hazırda mədəniyyətlərarası toqquşmanın qarşısını almaq üçün alternativ funksional rola malikdir. Belə ki, Fukuyama və Huntiqtonun mədəniyyətlər arasında mübarizə, toqquşma düşüncələrindən fərqli olaraq multikulturalizmin alternativliyini müdafiə edən Çarlz Taylor, Yurgen Habermas, Biku Parek, Vil Kimilka, Emi Qutman və b. filosof və siyasətşünasların düşüncələri daha praqmatikdir.

Multikulturalizmin əsas məfhumlarından biri olan "tanıma" (recognition) birlikdə yaşayan müxtəlif etnosların qarşılıqlı bir-birlərini anlama və dəyərləndirmə prosesinin əsasını təşkil edir. Müasir dövrdə bütün cəmiyyətlərin multikultural məzmun və mahiyyət daşıdığı getdikcə artır. Məhz Çarlz Taylora görə inkluziv cəmiyyətlərdə müxtəlif etnoslar öz mövcudiyyətlərini davam etdirməklə multikultural mühitin yaranmasına səbəb olurlar [5].

Mədəniyyətlərarası toqquşmanın əksinə olaraq multikultural nəzəriyyəyə görə hər hansı bir cəmiyyət daxilində müxtəlif etnik kimliklərin və mədəni topluluqların olması onların inteqrativ münasibətlər qurmasının da başlıca amillərindəndir. Məhz mədəni müxtəliflik insan azadlığının ən mühüm şərtlərindən biridir və özündən başqa mədəniyyətlərlə insanın əlaqə qurması bu azadlığın

üfqünü daha da genişləndirir [4]. Bu mənada, mədəni fərqlilik toqquşmanın deyil, qarşılıqlı anlamanın əsasını təşkil edir.

Multikulturalizm insan hüquqları, azadlıq kimi universal prinsiplərə istinad etməklə bərabər fərqliliyi vurğulayan və onları tanıyaraq aktual hala gətirən postmodern situasiyaya da istinad edir. Bu səbəblə də qloballaşma ilə postmodern situasiyanın motivə etdiyi multikulturalizm üçün ən əsaslı problem universal olduğu iddia edilən dəyər və prinsiplərlə fərqli kimlik və mədəniyyətlərin tələblərinin eyni anda necə birlikdə mühafizə ediləcəyi məsələsidir.

Müasir dövrdə insan hüquqlarının universal məzmun və mahiyyət daşıması ilə birlikdə insan şərəfinin bütün insanlarda müştərək olduğu düşüncəsi aktuallıq kəsb edir. Bu, özlüyündə insanların bərabərhüquqlu olma fikrini də ehtiva edir. Demokratik sistemlərin özləri də mədəniyyət tərkibi olaraq etik prinsipləri əhatə edir. Bu səbəblədir ki, liberal demokratiya öz siyasət sistemində hüquq və əxlaq uzalaşmasına böyük önəm verir. Məhz deomokratik sistem daxilində hər hansı bir etnosa malik vətandaş etik şüurla tolerant düşüncənin daşıyıcısı olaraq hərəkət edir. O hər hansı bir mədəniyyətin mütləq olmadığını və plüralistik düşüncə tərzinə malik olaraq hüquq və etik bütünlüyü qorumalıdır. Məhz liberal demokratik baxış tərzi müxtəlifliyə universal insan hüquqları və azadlıqları çərçivəzində baxır.

Mədəniyyətlərarası toqquşmanın əksinə multikulturalizmin alternativliyi iki aspektdən əhəmiyyət kəsb edir; bunlar "konstitusional" və "multikultural" vətəndaşlıq kateqoriyalarıdır. Dövlət çoxmədəniyyətlilik mühitinin özündə maraqlı olduğu üçün bu mühitə qarşı yarana biləcək potensial təhdidləri milli təhlükəsizlik əleyhinə yönəlik bir məzmunda qəbul edir. Bu səbəbdən də konstitusional vətandaşlığı ilkin olaraq şərtləndirən prinsip vahid dövlətdə yaşayan müxtəlif etnik, dini, sosial, siyasi, iqtisadi, nəsillərarası təbəqələşmələrin yaratdığı multikultural situasiyanın qorunub saxlanması və inkişaf etdirilməsidır. Yurgen Habermas, konstitusional vətandaşlığı və demokratiyanı müxtəliflikləri də əhatə edəcək şəkildə əsaslandırır: "Konstitusional prinsiplərin içində yer aldığı siyasi hakimiyyət daxilində bütün vətandaşlar eynidir. Məhz multikultural cəmiyyətdə siyasi strategiya, müxtəlif həyat anlayışlarının plüralizmini və inteqrasiyasını şüurlu şəkildə təşviq edən konstitusional vətandaşlığa istinad etməlidir" [2].

"Multikultural vətandaşlıq" məfhumu Vil Kimilkaya məxsusdur. Bu məfhumunun istinad etdiyi multikultural vətandaşlıq siyasəti hətta tarixən liberal dəyərlər üzərində yetərincə inkişaf etmiş cəmiyyətlər üçün də nümunəverici mahiyyətdədir. Multikultural vətandaşlıq siyasəti ölkədə etnik-dini müxtəlifliyin cəmiyyət həyatına inteqrasiya prosesində iştirakının elə bir ədalətli təminatını yaradır ki, burada ayrı-ayrı etnik-dini qrupların ümumi maraqları dar və məhəlli siyasi məqsədlərlə istifadəyə məruz qalma risklərindən tamamilə sığortalanmış olur. Siyasi partiyaların etnik-dini zəmində fəaliyyətlərinə qanunvericilik məhdudiyyətləri multikulturalizm situasiyasını etniklər və dinlərarası dağıdıcı siyasi rəqabət kataklizmlərindən qorumaq və dövlətin milli təhlükəsizliyini təmin etmək məqsədi güdür [3]. Tarixi təcrübə göstərir ki, multikultural vətəndaşlığın tətbiq edilən inteqrasiya prinsipi daha doğru bir siyasətə təminat verir. Bu mənada konstitusional və multikultural vətandaşlıq məfhumları mədəniyyətlərarası toqquşmanın qarşısını almaq üçün multikulturalizmin alternativ modelinin tətbiqini labüd edir.

## Ədəbiyyat

1. Huntigton S. The Clash of Civilizations // Foreign Affairs, 1993, vol. 72, № 3, p. 22-49

2. Gutmann A. Multiculturalism: Examining the Politics of Recognition. Princeton: Princeton University Press, 1994., 175 p.

3. Kymilcka W. Multicultural Citizenship: A Liberal Theory of Minorty Rights, Oxford: Oxford University Press, 1995, 265 p.

4. Parekh B. Rethinking Multiculturalism Cultural Diversity and Political Theory. Harvard: Harvard University Press, 2002, 381 p.

5. Taylor C. Multiculturalism: Examining the Politics of Recognition. Princeton: Princeton University Press, 1994, 175 p.

UOT 902

## Самунис-Мингечаур как один из ведущих античных городов Кавказской Албании с присущими элементами мультикультурализма

*Мамедов Эмин Вагиф оглы*
*Докторант и младший научный сотрудник*
*научного отдела Археологии Национального*
*музея истории Азербайджана при НАН*

Историческая территория Азербайджана издревле была ареной различных исторических событий и частичных переселений древних этнических групп. Государства Кавказской Албании в античный период являлись связующим звеном различных этнических культур, которые передвигались как с Севера на Юг, так и с Юга на Север [4].

Древний Самунис-Мингечаур находился в Самухском районе Азербайджана, недалеко от современного города Мингечаура, в зоне Мингечаурского водохранилища, созданного в 1946-54 гг. при строительстве крупного на всем Южном Кавказе ГЭС.

Населенный пункт античного Самуниса-Мингечаура был расположен на двух берегах Куры. Более того, поселения, сформировавшиеся на правом берегу Куры, были зафиксированы многослойным историческим периодом [7]. Археологические артефакты, обнаруженные на верхних слоях эллинистического периода из Мингечаура и Ялойлутепе [8] датируются периодами с VII в. до н.э. по I-II вв. н.э. [6].

В I-II вв. н.э. экономическое и культурное развитие, наблюдавшееся на правом берегу Куры, оказывало свое воздействие и на ход развития левобережья. Об этом факте свидетельствуют многочисленные археологические предметы, выявленные из кувшинных и других типов погребений, содержащих обильный инвентарь. Однако возникновение новых поселений следует рассматривать, как результат бурного экономического и культурного развития заселений правого и левобережья Куры. Процесс развития древнего города Самуниса-Мингечаура целесообразнее было бы рассматривать не как отдельные поселения, а как единый мегаполис в античный период.

Как уже ранее было отмечено, Самунис-Мингечаур являлся одним из крупных торговых узлов, расположенных на пересечении водных и караванных путей, таким образом, был связующим звеном между Западом и Востоком.

Археологами были выявлены следы древних дорог и остатки разрушенных мостов. Местное население Мингечаура называла остатки этих дорог как «Элчи йолу» («Дорога послов») [7]. До настоящего времени топоним «Мингечаур» был слабо изучен лингвистами. Однако местное население этого региона, осмысливая это название, интерпретирует его от трех связующих слов: «Мин-Гяль-Чевир», что в переводе означает «садись, приезжай, и иди обратно», что также означает переправу [7].

Следует особо отметить, что относительно вопроса возникновения топонима «Мингечаур» в научной литературе существуют несколько версий.

В монографии Тревера «Очерки по истории и культуре Кавказской Албании IV в до н.э.- VII в н.э.» (1959) отмечается, что по сообщению Плутарха (I в.до н.э.), албанский царь Оройс ожидал войска римского полководца Помпея именно на территории современной плотины Мингечаурской ГЭС [9]. Более того, царь Оройс разделил часть своих войск на «манги» и при необходимости отдавал им приказ «Мангача, вур». Например, есть основание полагать, что название «Мингечаур» связан с именем сасанидского царя Манучехра. Академик Зия Буниятов в своей монографии «Азербайджан в VII- IX вв.» (1965) связывал слово «Мингечаур» с именем арабского полководца Минкиджафра Аль-Фаргани (или ал-Усрушани), посланного в Азербайджан для подавления восстания Бабека в конце 30-х г. IX века [3]. По другой исторической версии дочь арабского полководца Манучехра, посланного в Азербайджан для подавления восстания Ильханидов-Хулагуидов, погибает здесь, и ее отец предает дочь земле вместе с мечом и конем на берегу реки Куры.

Средневековые сведения о местности Мингечаур также были указаны в сочинениях известного турецкого путешественника XVII века Эвлия Челеби, который описывал местность Мингечаур, как очень крупный населенный пункт, с большими мечетями, банями, шелковыми и ткацкими мастерскими и т.д.

О месте расположения античных городов Кавказской Албании в период I в. до н.э. и II в. н.э. мы располагаем данными Плиния и Птолемея, которым посвящены многочисленные научные труды как российских и зарубежных, так и национальных исследователей. В большинстве работ, посвященных исследованию античных городов, авторы пытаются по созвучию современных топонимических названий, локализовать тот или иной птолемеевский город по аналогии с приведенными у Птолемея наименованиями.

Но города, как известно, меняют свои названия, тем более на протяжении почти двух тысяч лет. По топонимическому созвучию можно локализовать тот или иной географический пункт только в том случае, если имеются еще и другие показатели, если можно доказать, что данное наименование восходит к глубокой древности, а не сложилось в более поздний период [9].

В конце первой половины XIX века территория Мингечаура привлекала к себе внимание ряда исследователей. Впервые в 1846 г. Л.В. Яновский предпринял попытку расшифровать карту, составленную Клавдием Птолемеем. Анализируя города Кавказской Албании, указанные на карте Птолемея, Л.Яновский расположил город Самунис непосредственно в зоне расположения современного города Мингечаура. В последующие годы исследования, проводимые К.В.Тревером [10], Дж.А.Халиловым [11], И.А.Бабаевым [2] и Г.О.Гошгарлы [5], в целом подтвердили достоверность выводов Л.В.Яновского.

Сведения об истории античных городов и населенных пунктов Кавказской Албании в древних письменных источниках освещены очень скудно. В своих научных трудах Клавдий Птолемей перечисляет 29 известных ему античных городов и поселений Кавказской Албании. Среди них он рассматривал Самунис, как один из наиболее развитых к тому времени античных городов Кавказской Албании.

Труд Клавдия Птолемея весьма оригинален, так как географическое описание городов позволяет судить о степени проникновения греческих и римских торговцев в далекие страны Востока, а также проследить направление некоторых торговых путей. В одиннадцатой главе пятой книги Птолемей сообщает о географическом расположении древней Кавказской Албании - о северных, западных и южных границах.

В период проведения археологических раскопок в 1946-1953 гг. на территории Мингечаура были выявлены четыре типа поселений, относящихся к разным историческим периодам. Кроме того, в этих поселениях были обнаружены разные конструкции гончарных печей, храмов, три могильника, а также не менее десяти основных видов погребений: 1. Погребения конца энеолитического периода и начала бронзы, 2. Ходжалы-Човдаро-Кедабекские типы (грунтовые погребения с сильно скорченным костяком), 3. Курганные погребения, 4. Грунтовые погребения с вытянутым скелетом, 5. Грунтовые погребения со слабо скорченным скелетом, 6. Кувшинное погребения, 7. Срубные погребения, 8. Катакомбные погребения, 9. Христианские погребения, 10. Мусульманские погребения.

Все эти погребения за исключением поздних христианских и мусульманских, содержали погребальный инвентарь [6]. Следует особо отметить, что все перечисленные типы захоронений, относящихся к различным периодам нашей многовековой истории, наглядно свидетельствуют о наличии элементов мультикультурализма в Азербайджане.

В заключение отметим, что весь археологический комплекс, обнаруженный в Мингечауре в 30-50-х гг. XX века, охватывает исторический возраст длительностью около 4000 лет [1]. На основания археологических материалов, хранящихся в фондах Национального музея истории Азербайджана, сформирован огромный научный потенциал, позволяющий исследователям комплексно изучить древнюю историю Кавказской Албании. Более того, это позволяет в значительной степени восстановить картину жизни древнего

Самуниса-Мингечаура, его хозяйства, быта и культуры, сформировавшейся на протяжении многих тысячелетий.

**Литература**

1. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур (эпоха энеолита и бронзы) Баку, 1959
2. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. – III в. н.э. Баку,1990
3. Буниятов З.М. Азербайджан в VII- IX вв. Баку, 1965
4. Велиев С.С. Древний древний Азербайджан. Баку, 1983
5. Гошгарлы Г.О. Албанский город Самунис и его некрополь // Antik və orta əsr Azərbaycan şəhərləri: arxeoloji irsi, tarixi və memarlığı. Beynəlxalq elmi konfransın materialları. Bakı, 2012
6. Казиев С.М. Альбом кувшинных погребений. Баку, 1960
7. Казиев. С.М. Материальная Культура Азербайджана. Т-1, Баку,1949
8. Казиев С.М. Ялойлу-тепинская культура. Документальный фонд Научного Архива института истории. Инв. № 305
9. Мамедов Э.В. Античный город Мингечаур-Самунис по материалам археологических исследований // Milli Azərbaycan Tarixi Muzeyi. Bakı, 2012
10. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании IV в. до н.э. - VII в. н.э. М-Л, 1959
11. Халилов Дж.А. Материальная культура Кавказской Албании. Баку, 1985

UOT-902

## Axeoloji tapıntılar milli-mənəvi dəyərlərimizin öyrənilməsində mənbə kimi

*Bayramov Müşfiq Cabir oğlu*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun dissertantı*

Qədim və zəngin tarixə malik Azərbaycan xalqı üçün milli-mənəvi dəyərlərinə sahib çıxmaq, onları qorumaq və gələcək nəsillərə çatdırmaq hər zaman aktuallıq kəsb etmişdir. Dünyada qloballaşmanın geniş vüsət aldığı, Azərbaycanın Avropaya və dünya birliyinə sürətlə hər tərəfli inteqrasiya etdiyi bir dövrdə ölkəmizdə milli mənəvi dəyərlərimizin öyrənilməsi, təbliği, qorunub saxlanılması, gələcək nəsillərə ötürülməsi istiqamətində mühüm işlər görülür. Çunki hər bir xalqı digər xalqlardan, millətlərdən fərqləndirən onun milli-mənəvi dəyərləri, mədəniyyəti, mənəviyyatıdır. Hər hansı bir xalq və ya millət haqqında fikir söyləyərkən ilk növbədə onun hansı milli mənəvi dəyərlər əsasında formalaşdığını nəzərdən kecirməli oluruq. Azərbaycan xalqı bu baxımdan milli-mənəvi irsi ilə qururlana, milli mənəviyyat qaynaqları ilə fəxr edə bilər. Ümummilli lider Heydər Əliyev deyirdi: "Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızı fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz."

Son illərədə Azərbaycan tarixşünslıq elmində mədəni irsimizin tədqiq olunması əsas məsələlərdən birinə çevrilmişdir. Qədim tarixi köklərə malik mədəni irsimizin əşyavi təcəssümü özünü arxeoloji abidələrdə və onlarda aşkar edilmiş çoxsaylı maddi-mədəniyyət nümünələrində tapmışdır. Keçmişimizin mədəni yaddaşını əks etdirən arxeoloji tapıntılar müxtəlif olmaqla, mədəni irsiin həm maddi-mədəni, həm də mənəvi dəyərləri haqqında geniş və dəqiq təsəvvür yaradır [4].

Azərbaycan müstəqillik əldə etdikdən sonra, xüsusən milli-mənəvi dəyərlərimizə yüksək qiymət verən Ümumilli liderimiz H.Əliyev və onun layiqli davamçısı İ.Əliyevin hakimiyyəti

illərində Azərbaycan xalqının minilliklər boyu yaratdığı, onun zəngin və keşməkeşli tarixini, mədəniyyətini, təsərrufat həyatını, milli mənəvi dəyərlərini özündə əks etdirən abidələrinin tədqiq edilməsi sahəsində mühüm işlər görülmüşdür. Milli irsə yüksək qiymət verən ulu öndər arxeoloji və etnoqrafik tədqiqatları daim diqqət mərkəzində saxlamış, bu sahəyə həmişə böyük diqqət və qayğı göstərmişdir. Bunun nəticəsi olaraq XXI əsrin ilk onilliklərində Azərbaycanın bütün bölgələri arxeoloji tədqiqatlara cəlb olundu. Müxtəlif dövrlərə aid müxtəlif tipli abidələrdə arxeoloji tədqiqatlar aparılmış, milli mənəvi dəyərlərimizin tarixi köklərini araşdırmaq üçün çox əhəmiyyətli yeni materiallar əldə edilmişdir.

Müstəqillik illəri xalqımızın öz milli-mənəvi dəyərlərinə qayıdışı, milli ruhuna uyğun həyat və düşüncə tərzinin formalaşması illəridir. Bu illər ərzində respublikamızın ayrı-ayrı bölgələrində aşkar edilmiş, əcdadlarımızın minilliklər ərzində qoyub getdiyi arxeoloji abidələr və onlardan əldə edilmiş maddi-mədəniyyət nümunələri: mağaralar, yaşayış yerləri, meqalitik tikililər, qayaüstü təsvirlər, qəbirlər, qalalar, saray kompleksləri, daş kitabələr, numizmatik tapıntıları, bəzək əşyaları, silahlar, çoxsaylı saxsı qablar və s. xalqımızın tarixi keçmişini,onun qüdrətini, milli-mənəvi dəyərlərini özündə ehtiva edir [5].

Respublikanın müxtəlif bölgələrində aparılmış tədqiqatlar zamanı xalqımızın çoxəsrlik bədii təfəkkürünün məhsulu olan çoxsaylı saxsı məmulatı, bəzək əşyaları, silah nümunələri, müxtəlif növ metaldan hazırlanmış məişət avadanlıqları, sümük əşyalar və s. ən qədim dövrlərdən orta əsrlərədək böyük bir tarixi dövrü əhatə edir. Bu bədii sənətkarlıq nümunələri xalqın geyimindən tutmuş müxtəlif təsərrüfat məmulatı, bəzəyi və memarlığına qədər geniş bir sahəni əhatə edir. Onlar üzərindəki təsvirlər xalqımızın məişət xüsusiyyətlərini, estetik zövqünü, folklorunu, adət-ənənələrini, milli-mənəvi dəyərlərimizin öyrənilməsində və gələcək nəsillərə çatdırılmasında əsas mənbələrdir.

Çox yüksək sənətkarlıq nümunələri olan bu maddi mədəniyyət nümunələrinin bir hissəsi indi dünyanın ən zəngin muzeylərində nümayiş etdirilir. Bu nadir tapıntılar bizi dünyada yüksək mədəni irsə, milli mənəvi dəyərlərə sahib olan bir xalq kimi tanıtdırır.

Naxçıvanda Gəmiqaya abidəsində, Qobustanın "Böyükdaş", "Kiçikdaş", "Cingirdağ", "Şonqardağ" və digər qayalarında, Kəlbəcərdə "Soltan Heydər", "Qurbağalı çay", "Turşsu", "Ayçınqıllı", "Gəlinqayası", "Böyükdəvəgözü", "Sərçəli" və s. yerlərdəki qayaüstü təsvirlərdən ibarət yazılı daş salnamələrimiz Azərbaycan xalqının milli-mənəvi dünyasını, xalqın adət ənənələrini, onun müsiqi mədəniyyətini təbliğ edilməsində mühüm elmi əhəmiyyət kəsb edir. Qayaüstü rəsmlər – petroqliflər qədim incəsənətin yaranması və təkamülü kimi mühüm elmi problem məsələlərin öyrənilməsi üçün əsas mənbələrdir. Qədim insanların sosial həyat tərzi, ideologiyası, müxtəlif adət-ənənələri, estetik və fəlsəfi baxışları ilə əlaqədar yaranmış qayaüstü rəsmlər, qiymətli təsviri sənət əsərləri olmaqla yanaşı, bir növ bəşəriyyətin ilkin inkişaf mərhələlərini əks etdirən sirli piktoqrafik yazılardır [1].

Milli adət-ənənələrə malik Azərbaycan xalqının özünəməxsus folkloru vardır. Milli dəyərlərimizin əsasını təşkil edən Azərbaycan xalq musiqisinin, musiqi folklorumuzun çox geniş yayılmış və qədim tarixə malik olan janrlarından biri də rəqslərdir. Milli rəqslər Azərbaycan folklorunun tərkib hissəsidir. Qobustan qayalarındakı yallı rəqsi, Gəmiqaya abidələrində əl-ələ verib dövrə ətrafında rəqs edən insan təsvirləri milli musiqi mədəniyyətimizi özündə yaşadan ölməz sənət nümunələridir. Həmçinin Gəmiqayadakı və Naxçıvanın boyalı qabları üzərindəki rəqs səhnələri, Qobustandakı qaval daşlar eneolit və tunc dövründə Azərbaycanda musiqi mədəniyyətinin yüksək inkişaf etdiyini göstərir.

Azərbaycan xalqının özünəməxsus folklor nümunələrindən biri xalq oyunlıarıdır. Qobustandakı yastı daşlar üzərində tədqiqatçıların fikrincə, çox qədim Azərbaycan əhalisinin əyləncə oyunlarının, o cümlədən "pul-pula", "ev köçdü" və ya "mərə-mərənin" təsviri verilmişdir [4].

Maddi mədəniyyətin bütün başqa ünsürlərindən daha çox geyim xalqın milli xüsusiyyətini əks etdirir. Xalq yaradıcılığı hər zaman öz əksini geyimlərdə tapır. Azərbaycan xalqının geyimləri haqqında XVI əsrə qədər əlimizdə heç bir konkret nümunə yoxdur. Lakin müxtəlif dövrlərə aid abidələrdən əldə edilmiş arxeoloji materiallar Azərbaycan xalqının geyimlərini öyrənmək üçün əsas

vasitələrdir. Arxeoloji qazıntılar zamanı tapılmış parça hissələri, təsviri sənət nümunələri bu barədə müəyyən fikir söyləməyə imkan verir. Məlum olduğu kimi, qədim dövrlərdən başlayaraq, Azərbaycan xalqının geyimləri, onların növləri, xalqın adət və məişəti heykəllərdə, divar rəsmlərində, minatürlərdə və sairədə əks etdirilmişdir. İndiyə qədər qalmış və tapılmış ayrı-ayrı tarixi dövrlərə aid bu əsərlər Azərbaycan xalqının qədim geyimlərinin öyrənilməsində ən qiymətli vasitələrdən biridir. Bu baxımdan arxeoloji qazıntılar zamanı Mingəçevirdən aşkar edilmiş metaldan düzəldilmiş bədii sənətkarlıq nümunələri xüsusi ilə maraqlıdır. Buradan əldə olunmuş başı möhürlü tunc üzüklər üzərində verilmiş şirlə vuruşan adam, nizə və qalxanlı döyüşçü və s. təsvirlər dövrdəki insanların geyimləri, adət-ənənələri və s. haqqında müəyyən təsəvvür yaratmağa imkan verir [2].

Beləliklə, arxeoloji abidələr, onlardan əldə olunan arxeoloji materiallar Azərbaycan xalqının milli özünüdərkində, özünütəsdiqində, milli ideologiyasının formalaşmasında, milli mənəvi dəyərlərimizin təbliğində son dərəcə böyük elmi əhəmiyyət kəsb edir. Onların tədqiq olunması, sistemləşdirilməsi bu gündə ən aktual məsələlərdən biridir.

## Ədəbiyyat


1. Əliyev V. Gəmiqaya abidələrində Naxçivan tarixinin səhifələri // Azərbaycan Arxeologiyası, 2010, № 2, s. 9-22.
2. Əfəndi R. Azərbaycan maddi mədəniyyət nümunələri. Bakı: Azərnəşr, 1960
3. Göyüşov R. Azərbaycan Arxeologiyası. Bakı: İşıq, 1983, 186 s.
4. İsmayilzada Q. Arxeologiya və Azərbaycan mədəni irsi // Azərbaycan Arxeologiyası, 2009, № 1, s. 24-29.
5. Vəliyev Ş. Milli mədəniyyətin, mənəvi dəyərlərin, mədəni irsin, qorunmasi, muhafizəsi və təbliği // Mədəniyyət dünyası, 19-cu buraxılış, 2010, s. 119-121.



UOT 94 (479.24)


# Mingəçevirin sosial-mədəni həyatı (1950-1960-cı illərdə)


*Mövlayeva Vüsalə Əlican qızı*
*Mingəçevir Dövlət Universiteti*
*AMEA Tarix İnstitutunun doktorantı*


Məlumdur ki, Su Elektrik Stansiyasının istifadəyə verilməsi Mingəçevirin həyatında yeni bir mərhələnin başlanğıcı oldu. Mingəçevir şəhəri dövrün və şəhərsalmanın tələblərinə uyğun inkişaf etməyə başladı. Mingəçevirdə sənaye müəssisələri ilə bərabər yeni yaşayış binalarının, mədəni, məişət, səhiyyə ocaqlarının inşasına başlanıldı. Bir-birinin ardınca sosial infrastrukturlar, yaşayış binaları tikilib istifadəyə verildi. Şəhərdəki inkişaf əlbəttə ki, əhalinin say dinamikasına da təsir göstərmişdir. Belə ki, 1949-cu ildə əhalinin sayı 6414, 1959-cu ildə 21,1 min, 1963-cü ildə 32,5 min nəfər, 1965-ci ildə 33,5 min nəfər olmuşdur. Əhalinin artımı mənzil tikintisi sahəsində işlərin sürətlənməsinə səbəb olmuşdur. Mingəçevirdə 1946-1955-ci illərdə əsasən həyətyanı sahələrlə birlikdə bir mərtəbəli, 1955-1960-cı illər arasında iki mərtəbəli evlər tikilirdisə, artıq 1960-cı ildən etibarən şəhərdə 4 və 5 mərtəbəli binaların inşasına başlanılmışdır. Qeyd edək ki, bəhs olunan dövrdə respublikanın iqtisadiyyatını inkişaf etdirmək vəzifələri xalq təsərrüfatının V-VIII beşillik planlarında o cümlədən yeddiillik (1959-1965) planda müəyyən edilmişdir. Mingəçevir büdcəsində yeddiillik (1958-1965-ci illər) plan ərzində kapital qoyuluşu 16 mln.rubl təşkil etmişdir ki, bunun da 13 mln.rublu yaşayış mənzillərinin, 2100 min rublu mədəni maarif müəssisələrinin tikintisinə sərf edilmişdir [1].

Bəhs olunan dövrdə şəhərin təhsil şəbəkələri genişlənmiş, yeni məktəb binaları tikilib istifadəyə verilmişdir. 1959-1960-cı tədris ilində gənc şəhərdə ümumilikdə 9 səkkizillik orta ümumtəhsil məktəbi mövcud idisə, artıq 1965-cı ildə 2 orta, 9 səkkizillik, 1 internat, 4 fəhlə-gənclər, 1 qiyabi məktəb fəaliyyət göstərirdi. Bu ildə məktəblərdə 8962 nəfər təhsil alırdı ki, bunun da 1454 nəfəri istehsalatda çalışan gənclər olmuşdur [5]. Mingəçevir əhalisinin tərkibi çoxmillətli olduğundan şəhər məktəblərinin doqquzu beynəlmiləl idi. 1962-1963-cü tədris ilindən başlayaraq Mingəçevirdə Azərbaycan Politexnik İnstitutunun tədris məsləhət məntəqəsi fəaliyyətə başladı. Məntəqə istehsalatdan ayrılmadan təhsilini davam etdirən qiyabiçi tələbələrə kömək məqsədilə yaradılmışdır. Bu məntəqə Mingəçevirlə bərabər Göyçay, Ağdaş, Yevlax, Bərdə, Gəncə, Şəmkir, Tovuz, Qazax rayonlarında yaşayıb qiyabi təhsil alan tələbələrə də xidmət göstərirdi [4]. Əlbəttə ki, Mingəçevir sənaye şəhəri olduğundan burada ixtisaslı fəhlə kadrlarının hazırlanmasına xüsusi diqqət yetirilirdi. Sənayenin inkişafı respublikada politexnik təlimə marağı daha da artırmışdır. Elə bu məqsədlə Mingəçevirdə 1966-cı ildə Texniki peşə təhsili məktəbi və Politexnik Texnikumu fəaliyyətə başladı. Texniki peşə məktəbində dülgərlik, rəngsazlıq, elektrik, qaz və elektrik qaynaqçıları, bənnaçı şöbələri fəaliyyət göstərirdi. 1969-cu ildə şəhərdə digər yeni bir tədris müəssisəsi tibb mama-məktəbi fəaliyyətə başladı.

Şəhər oxucularının istifadəsində 122 min nüsxəli kitab fondu olan doqquz kitabxana fəaliyyət göstərirdi. 11 mindən çox oxucu bu kitab fondundan istifadə edirdi. "Kosmos" və "Bahar" kinoteatrları Mingəçevirlilərin tez-tez gəldiyi istirahət mərkəzlərindən biri idi. Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə 1968-ci ilin yanvarında Mingəçevirdə daha bir önəmli ictimai müəssisə Mərkəzi Dövlət Arxivinin Mingəçevir filialı yaradılmışdır [2].

Azərbaycan SSR Mədəniyyət Nazirliyinin 9 aprel 1959-cu il tarixli qərarı ilə respublikada yaradılan özfəaliyyət teatrlarından biri də Mingəçevir Xalq Teatrı olmuşdur. Dram teatrın kollektivi C.Məmmədquluzadənin, N.B.Vəzirovun, M.Şamxalovun müxtəlif pyeslərini səhnələşdirib şəhər zəhmetkeşləri qarşısında tez-tez çıxış edirdilər. Mingəçevir şəhər teatrı 1962-1965-ci illərdə respublikada özfəaliyyət teatrlarına keçirilən baxışlarda birinci və ikinci yerləri tutmuş, 1966-cı ildə SSR "Bilik" cəmiyyətinin fəxri fərmanına layiq görülmüşdü. Teatrın bazası əsasında Azərbaycan SSR Nazirlər Sovetinin 13 yanvar 1969-cu il tarixli qərarı ilə Mingəçevirdə Dövlət Dram Teatrı yaradılmışdır [3]. Teatr kollektivi Mingəçevirlə yanaşı Ucar, Zərdab, Ağsu, Kürdəmir, Göyçay, İsmayıllı, Ağdaş rayonlarının əhalisi qarşısında müxtəlif tamaşalarla çıxış edirdilər.

1954-cü ildə Mingəçevir sakinlərinin istifadəsinə şəhər stadionu verildi. Şəhərin yeniyetmə və gəncləri idmanın müxtəlif növləri ilə məşğul olurdular. Avarçəkmə şəhər gənclərinin ən sevimli idman növü idi. 1965-cı ilin sentyabrında Moskvanın Ximki kanalında kişilər arasında keçirilən akademik avarçəkmə üzrə SSRİ birinciliyi uğrunda yarışlarda Mingəçevir avarçəkənləri şəhərin idman tarixində ilk dəfə Azərbaycan yığma komandasının tərkibində respublikamızı təmsil etmişdilər [6]. Mingəçeviri iki hissəyə bölən Kür çayının sol sahilində Ümumittifaq əhəmiyyətli geniş və gözəl "Kür" adlı Respublika Avarçəkmə bazasının yaradılması şəhər gənclərinin bu idman növünə marağını daha da artırmışdır. 1958-ci ildə istifadəyə verilən Mingəçevir Turist bazası respublikada ən böyük bazalardan biri olmuşdur. Hər il bu bazada 10-12 min turist qonaq olurdu.

Mingəçevirdə tibbi xidmətin yaxşılaşdırılması istiqamətində də işlər davam etdirilmiş və səhiyyə müəssisələrinin sayı artırılmışdır. Mingəçevir ərazisi üçün xarekterik olan malyariya və digər yoluxucu xəstəliklərin yayılması demək olar ki, aradan qaldırılmışdır. Şəhərin bütün sənaye müəssisələrində tibb məntəqəsi fəaliyyət göstərirdi. Artıq ötən əsrin 60-cı illərinin sonunda Mingəçevirdə 80 tibb müəssisəsi fəaliyyət göstərirdi. Bu müəssisələrdə 655 tibb işçisi, o cümlədən 60 nəfər ali təhsilli həkim çalışırdı. Şəhər əhalisinin hər 60 nəfərinə bir tibb işçisi, hər on iki nəfərinə bir xəstəxana çarpayısı düşürdü.

Mingəçevirdə fəaliyyət göstərən ticarət, ictimai iaşə, məişət xidməti idarələrinin fəaliyyət dairəsi də genişləndirilmiş, şəhər əhalisinə yeni xidmət növləri göstərilməyə başlanılmışdır. 1968-ci ildə Mingəçevirlilərə 105 növdən artıq kommmunal və məişət xidməti göstərilirdi. Yeni su, işıq, qaz xətləri çəkilmiş, 300-dən çox mənzil əsaslı təmir olunmuşdur. Şəhərin qaz xətlərinə 4 yeni paylayıcı qoyulmuş, 400-ə qədər mənzilə qaz, 24 binaya isə istilik xətti çəkilmişdir. 1969-cu ildə şəhərin Lenin (indiki H.Əliyev) prospektində şəhərlər arası danışıq məntəqəsi istifadəyə verilmişdir. Füzuli,

Nizami, prospektlərinin, Xaldan şossesi, Axundov küçələrinin xarici görünüşü yenidən qurulmuşdur.

1948-ci ildən "Mingəçevir inşaatçısı" və "Minqeçaurski stroitel" adı altında nəşr olunan Mingəçevir şəhər qəzetləri 1954-cü ilin avqustundan "Mingəçevir işçisi" və Minqeçaurski raboçi" adı ilə nəşr olunmağa başladı. Bu qəzetlərdə dünya, ölkə xəbərlərilə yanaşı şəhərin sosial, iqtisadi, mədəni həyatı ilə bağlı xəbərlər yer alırdı. 1962-ci ildə ölkədə bir sıra qəzet və jurnalların nəşrlərinin dayandırılması ilə əlaqədar olaraq Mingəçevir qəzetlərinin də nəşri 1963-cü ilin 1 yanvar tarixindən dayandırıldı. Mingəçevir qəzetləri 1965-cı ilin sentyabrından "Mingəçevir işıqları" və "Oqni Minqeçaura" adları altında öz nəşrlərini davam etdirmişdilər. Bəhs olunan dövrdə əsas təbliğatçı vasitə olan mətbuat ümumiyyətlə sovet vətəndaşlarının həyatına çox möhkəm daxil olmuşdur. Mingəçevir şəhəri mətbuatın yayılmasına görə respublikada ikinci yeri tuturdu. 1969-cu ildə şəhər əhalisi 610 adda 42 min nüsxədən çox dövri mətbuat alırdı. Şəhərdə hər min nəfərə 1365 nüsxə qəzet və jurnal düşürdü [7].

1969-cu ildə Mingəçevirdə 2500-dən artıq partiya, sovet, həmkarlar ittifaqı və komsomol fəallarını əhatə edən 20-dən çox ictimai təşkilat fəaliyyət göstərmişdi. Bu təşkilatlar şəhərin abadlaşdırılması, müəssisələrdə əmək intizamının yaxşılaşdırılması, əhali arasında sanitar qaydalarına əməl edilməsi, əhaliyə keyfiyyətli mədəni, məişət, ticarət və s. bu istiqamətli müxtəlif tədbirlərin keçirilməsinin təşəbbüskarı olmuşdular.

Mingəçevir sənaye şəhəri kimi formalaşdıqdan sonra müxtəlif sahələrdəki xidmətləri ilə respublikamızın xalq təsərrüfatında çox mühüm rol oynamışdır. Qısa müddət ərzində bu şəhər bütöv bir regionun sosial-iqtisadi inkişafına güclü təkan vermişdi.

## Ədəbiyyat


1. Azərbaycan Respublikası Dövlət Arxivi Mingəçevir Filialı, fond 72, siyahı 1 iş 162 (ARDA)
2. ARDA MF f 72, s.1 iş 193
3. ARDA MF f 72, s.1 iş 1
4. Dilbazi F. İstehsalatçı gənclərin təhsili üçün. Mingəçevir işıqları 11 noyabr 1965 № 29 (1312)
5. "Mingəçevir işıqları qəzeti". 7 noyabr 1965 № 27(1310)
6. "Mingəçevir işıqları qəzeti". 7 sentyabr 1965 № 1(1264)
7. "Mingəçevir işıqları qəzeti". 2 sentyabr 1969 № 104 (1894)


UOT 81

## Qloballaşma şəraitində İngilis dili mədəniyyətlərarası kommunikasiya vasitəsi kimi

*Qəniyeva Rəbiyə Əli qızı*
*Mingəçevir Dövlət Universiteti*
*Gəncə Dövlət Universitetinin doktorantı*

Qloballaşma prosesinin genişlənməsi və informasiya texnologiyalarının inkişafı şəraitində mədəniyyətlərarası kommunikasiyalar ilə bağlı problemlərə maraq fövqəladə şəkildə artmışdır. E.M.Vereşaqinə (Yevgeniy Mixayloviç Vereşagin – filologiya elmləri doktoru, professor REA-nın V.V. Vinaqradov adına Rus dili institutunun Baş elmi işçisi) görə mədəniyyətlərarası kommunikasiya müxtəlif milli mədəniyyət mənsubları arasınada adekvat qarşılıqlı anlaşmaya əsaslanan əlaqələndirici aktdır [2]. Şübhəsiz, təhsil prosesində xarici dillərin öyrənilməsi gənc nəsli mədəniyyətlərin dialoqu şəratində aktiv həyata hazırlayır. Bu proses özündə çoxlu sayda müstəsna dəyərlər ifadə edir. Məsələn, xarici dil tədris-təlim aktı kimi şəxsiyyətin məntiqi və kreativ

keyfiyyətlərinin inkişafında humanist funksiyaları yerinə yetirir. Digər tərəfdən müasir dövrdə xarici dillərə kommunikativ səviyyədə sahib olmaq mütəxəssislər arasında işçi əlaqələrin yaradılmasına imkan verir. Daha bir nümunə isə dil baryerinin aradan qaldırılması, başqa milli dəyərlərə nüfuz etmək imkanlarının əldə edilməsi və öz milli dəyərlərinin təbliğatı, yayılması və tanınması imkanlarının əldə edilməsi ilə bağlıdır. Bununla əlaqədar olaraq ali təhsil sisteminin qarşısında məzunların xarici dilləri mənimsəməsi prosesində, onların kommunikativ kompetensiyalarının formalaşmasına ciddi nəzarət kimi bir vəzifə durur. Xarici dillərin öyrənilməsi sahəsində kommunikativ kompetensiya dedikdə tələbələrin və öyrəncilərin xarici dil üzrə, o dilin normalarına uyğun olaraq müxtəlif situasiyalarda hazırlığı və bacarığı başa düşülür. Buraya, bir qayda olaraq xarici dildə ifadə olunmuş məlumatlarla iş, sosial-linqvistik və sosial-mədəni biliklərin mənimsənilməsi, mədəniyyətlərin dialoquna hazırlıq və s. aiddir. Bu baxımdan xarici dilin məimsənilməsi üzrə hər hansı təlim, ilk növbədə mədəniyyətlərin çuğlaşması və mədəniyyətlərarası kommunikasiyalar sahəsində növbəti praktika kimi təzahür edir. Beləki, "hər hansı xarici söz, yaxud ifadə xarici mədəniyyəti, başqa bir xalqın dünyasını təsvir edir, hər cümlənin arxasında isə digər xalqın milli şüuru ilə şərtlənən dünya haqqında təsəvvürlər durur" [6].

Hər bir mədəniyyət bəşəri dəyərlər sistemində öz normalarını kommunikasiya vasitələri ilə ifadə edir. Əvvəllər bu missiyanı bədii və elmi-kütləvi ədəbiyyat yerinə yetirirdisə, qloballaşma şəratində bu vəzifə sosial şəbəkələrin, elektron kitabxanaların və geniş informasiya portallarının üzərinə düşür.

Məlumdur ki, mədəniyyətlər ümumi rəmzlərin yaradılması, qorunması və gələcək nəsillərə ötürülməsinə rəğmən mövcuddurlar. Onun mənsubları isə bu rəmzlərə müəyyən məna verir və onların əsasında məlumat mübadiləsi edirlər. Öyrənilən dildə kommunikativ kompetentliyin formalaşmasına nail olmaq üçün, ilk növbədə ünsiyyətin sosial-mədəni aspektini mənimsəmək vacibdir, bu isə öyrənilən dilin təmsil etdiyi dəyərlərin, davranış qaydalarının, sosial münasibətlərin və mentalitetin öyrənilməsini nəzərdə tutur. Hər hansı mədəniyyətin müəyyən edilməsi aşağıdakı elementlərin kateqoriyalarının təyin edilməsinə əsaslanır:

- artefaktlar, yəni bütün fiziki obyektlər və substansiyalar;
- inanclar sistemi, mənəvi dəyərlər və əxlaqi təsəvvürlər də daxil olmaqla bütün anlayışlar;
- sosial mədəniyyət.

Bütün bu dəyərlər isə, əlbətdə ki, sosiumun ümumi ifadə vasitəsi olan dildə öz əksini tapır. Mədəniyyətlərin dialoqunda iştirak etmək üçün ünsiyyətin həm verbal (lat. verbalis – "sözlü", yalnız sözlərin, ifadələrin və nitqin köməyi ilə həyata keçirilən ünsiyyət), həm də qeyri-verbal (dilin və nitqin iştirakı olmadan, obrazlar, intonasiyalar, əl hərəkətləri, mimika, pantomima və s. vasitəsi ilə həyata keçirilən ünsiyyət) formalarından istifadə etməyi bacarmaq lazımdır. Bu baxımdan müasir virtual aləmdə İnternetin bütöv xidmət spektri fəaliyyət göstərir və onlar ünsiyyətin dialoq tipinə əsaslanır. Bu siyahıya elektron poçt, telekonferensiyalar, iternet-peycerlər və s. daxildir.

Bu gün qlobal miqyasda baş verən inteqrativ proseslərin getdiyi bir dövrdə vahid kommunikativ vasitə kimi təzahür edən "beynəlxalq dil" məsələsi yenidən gündəmə gəlmişdir. Kommunikasiya məqsədi ilə Yer kürəsində yaşayan xalqların əksəriyyəti tərəfindən istifadə olunan dil status baxımından "Beynəlxalq dil" hesab olunur. Bu termini daha aydın şəkildə ifadə etmək üçün "Dünya əhəmiyyətli dil" anlayışından da istifadə edilir. Hal-hazırda dünyada 10-na yaxın dil beynəlxalq dil xarakteri daşıyır. Beynəlxalq dil kimi, həmçinin millətlərarası ünsiyyət vasitəsi olan süni dilləri də göstərmək olar. Məsələn, polşalı həkim-okulist Lazar (Lyudvik) Markoviç Zamenqof tərəgindən 1887-ci ildə latın əlifbası əsasında yaradılmış "esperanto" (bütöv adı Esperanto, Linqvo İnternasia). Zamenqofun təxəllüsü (Esperanto – latın dilində mənası "ümid edən" deməkdir) ilə əlaqədar belə adlandırılmışdır. Esperanto dilində dərc olunmuş ilk kitab "Linqvo internasia. Antaüparolo kaj plena lernolibro" ("Beynəlxalq dil. Ön söz və tam dərslik") adlanırdı [9]. Hal-hazırda esperanto bütövlükdə öz mövqelərini ingilis dilinə vermişdir (dünyada cəmi 2 milyon əhali bu dildən istifadə edir). XVII-XVIII əsrlərdə isə üniversal yazı forması olan "paziqrafiyanın" (yun. "pas" – hər hansı, "qrafos" isə yazı deməkdir. "Linqua philosophica" termini əvəsinə "paziqrafiya" termini işlədilmişdir) yaradılmasına cəhd göstərilmişdi. Ilk dəfə Corc Dalqarno tərəfindən təklif

edilmiş, 1797-ci ildə Józef de Maymye tərəfindən işlədilmişdir. Lakin zaman göstərdi ki, bu və ya digər dilin beynəlxalq dil olması üçün o, mütləq aşağıdakı tələblərə cavab verməlidir:

- onu doğma dili hesab edən çoxlu sayda insanların olması;
- çoxlu sayda insanların onu ikinci dili hesab etməsi;
- bu dildə doxlu sayda ölkələrdə, qitələrdə və mədəni dairələrdə danışılması;
- çoxlu sayda ölkələrdə bu dilin xarici dil kimi öyrənilməsi;
- bu dildən beynəlxalq təşkilatlarda, konfranslarda, iri beynəlxalaq və transmilli korporasiyalarda rəsmi dil kimi istifadə edilməsi.

Antik dövrdə "beynəlxalq dil" statusu bütün ellinistik məkanda (Qədim yunan mədəniyyətinin yayıldığı areal) yayılmış qədim yunan dilinə mənsub idi. Daha sonra min il ərzində bu statusu əvvəlcə Aralıq dənizi hövzəsində, daha sonra isə bütün Avropada latın dili daşımağa başladı. Orta əsrlər Islam aləmində analoji status ərəb dilinə, daha sonra isə türk dilinə mənsub idi. Şərqi Asiyada uzun müddət beynəlxalq dil funksiyasını "venyan" (qədim çin dili) yerinə yetirirdi. XVI-XVII əsrlərdə beynəlxalq dil kimi ispan dili geniş yayıldı. XVIII əsrdə isə bu vəzifə fransız dilinin üzərinə düşdü. XIX əsrdə alman mütəfəkkirlərinin əldə etdikləri nailiyyətlərə rəğmən alman dili böyük beynəlxalq əhəmiyyət kəsb etməyə başladı. XX əsrin 50-ci illərindən etibarən Sosialist düşərgəsinə daxil olan ölkələrdə rus dili millətlərarası ünsiyyət vasitəsinə çevrildi. XX əsrin II yarısından etibarən isə ingilis dili ən vacib və əvəzolunmaz beynəlxalq dil kimi özünü təsdiq etdi. Bu gün ingilis dilinin beynəlxalq kommunikasiya vasitəsi olması danılmaz faktdır. Lakin bu statusa sahib olana qədər ingilis dili uzunmüddətli, çətin və mürəkkəb yol keçmişdir. Bu proses tarixdə İngiltərə hərbi dəniz donanmasının 8 avqust 1588-ci ildə La Manş döyüşündə İspaniyaya məxsus və "Məğlubedilməz armada" adlanan ispan flotiliyasını darmadağın etdikdən sonra başlayıb [9]. Dənizlər, okeanlar, ölkələr bir-birinin ardınca ingilis silahının, nəcibliyinin, məsuliyyətinin və alicənablığının qüdrətinə tabe olub. Bununla da ingilis dili Yer kürəsinin bütün guşələrinə nüfuz etməyə başlayıb. Ingilislər dünya iqtisadiyyatının təşəkkülünə, beynəlxalq münasibətlərin formalaşmasına təkan veriblər. Böyük Britaniya kimi təşəkkül tapmış qüdrətli bir sivilizasiya, ona məxsus olan koloniyalarda yüksək təşəkküllü idarəçilik və təhsil sistemi təsis edib. XX əsrdə isə bu missiyanı ABŞ öz üzərinə götürüb. Bu dəfə də ingilis dili amerikan variantı ilə dünyanı fəth etməyə başlayıb. Sözügedən dövrdən etibarən "Amerika arzusu" xöşbəxtlik və rifah idealı kimi təcəssüm olunub. Ayrı-ayrı ölkələrin vətəndaşları bu arzuya maksimum yaxınlaşmağa can atıblar. Ingilis dili isə bu işdə əsas vasitə olub. Okeanın o tayından filmlər, musiqi, gənclər hərəkatı və s. vasitəsi ilə bizim mədəniyyətimizə ingilis dilli mədəni ənənələr nüfuz etməyə başlayıb.

Bu gün ingilis dili beynəlxalq dil statusuna malikdir. Yer kürəsində yaşayan 400 milyon əhali üçün o doğma dildir. 300 milyon əhali onu ikinci dili hesab edir. 500 milyon əhali bu və ya digər formada ondan istifadə edir. Ingilis dili diplomatiya, ticarət və biznes dilidir. 90 % müxtəlif xarakterli müqavilələr ingilis dilində bağlanılır. Dünya birjaları və fondlar öz funksiyalarını ingilis dilində həyata keçirir. Hansı ölkədə yerləşməsindən asılı olmayaraq maliyyə qiqantları və iri transmilli korporasiyalar öz fəaliyyətlərində yalnız ingilis dilindən istifadə edirlər. İngilis dili tədris dilidir. Bütün dünyanın ali və orta ixtisas məktəblərində ingilis dili, öyrənilən xarici dillər içərisində ən populyarıdır. Dünyanın ən prestijli ali məktəbləri ingilis dillidir. Ingilis dilini mükəmməl bilmək yaxşı təhsil almaq və uğurlu karyera qurmaq imkanı verir. Ingilis dili turizm və səyahət dilidir. Bütün dünya ölkələrində ingilis dilinin sayəsində yerli əhali ilə ünsiyyət yaratmaq mümkündür. Ingilis dili elm və texnika dilidir. Ingilis dili universal dildir. Bütün bunlara əlavə olaraq ingilis dili estetik və melodiki dildir, asan öyrənilir. O, ən zəngin söz ehtiyyatına malik olan dillərdən biridir, eyni zamanda o kifayət qədər asan qrammatikaya malikdir. Məhz belə bir asan və lakonik dilin beynəlxalq ünsiyyət vasitəsinə çevrilməsi bəşəriyyətin uğurudur. Təsadüfi deyildir ki, 1996-cı ildə Filippinin paytaxtı Manila şəhərində keçirilən Beynəlxalq konfransda ingilis dili Asiyanın dili elan olunub (English an Asian Language). Beləki, Asiya-Sakit okean regionunda 90% Beynəlxalq təşkilatlar sənədləşmələri bilavasitə ingilis dilində aparır.

Qeyd etmək lazımdır ki, ingilis dili təkcə Britaniya dühasını bütün dünyada təbliğ etmək və yaymaq ideyası ilə məhdudlaşmır. Bu dil vasitəsi ilə ayrı-ayrı xalqlara məxsus milli mənəvi dəyərlər qlobalaşma obyektinə çevrilir, ümumbəşəri mədəni və intellektual dövriyyəyə daxil olur.

Bu baxımdan azərbaycan xalqına məxsus milli mənəvi dəyərlər də istisna deyil. Məhz ingilis dilinin köməkliyi ilə əsrlərin sınağından çıxmış milli-mənəvi dəyərlərimiz lokal sərhədləri aşaraq bütün bəşəriyyətin elmi-tədqiqat obyektinə, təkrarolunmaz mənəvi dəyərlərinə və mədəni sərvətinə çevrilir. Azərbaycanın milli-mənəvi dəyərlərinin – musiqisinin, folklorunun, bədii ədəbiyyatının və səhnə əsərlərinin ingilis dilində səslənməsi bu dəyərlərə yeni bir forma və planetar miqyaslı məzmun verir. Bu isə qloballaşma şəraitində Azərbaycanın mədəni irsinin bütün dünyada yayılması və tanınması istiqamətində misli görünməmiş perspektiv imkanlar açır.

**Ədəbiyyat**


1. 1.Альтамира-и-Кревеа Р. История Испании / Сокр. пер. с исп. Е. А. Вадковской и О. М. Гармсен. Под ред. С. Д. Сказкина и Я. М. Света.– М.: Издательство иностранной литературы, 1951. Т. 2. 359 с.
2. Верещагин Е.М.,. Костомаров В.Г. «Язык и культура». Москва, 1990
3. Грушевицкая Т.Г., Попков В.Д., Садохин А.Л. Основы межкультурной коммуникации. Москва, 2003
4. Кабакчи В.В.Лингвореволюция конца XX века и изменение лингвистической парадигмы // Англистика в XXI веке. Материалы конференции. СПб 22-24.11.2001. – Филол. фак-т СПбГУ, 2002
5. Куликова Л.В. Коммуникативный стиль в межкультурном общении. Москва, Флинта-Наука, 2009
6. Милосердова, Е. В. Национально-культурные стереотипы и проблемы межкультурной коммуникации // ИЯ в школе. 2004. № 3
7. Прошина З.Г. Английский язык и культура народов Восточной Азии. Владивосток: Изд-во Дальневост. ун-та, 2001, 441 с.
8. Сухова Л.В.. «Коммуникативно-ориентированное обучение иностранным языкам и языковая парасреда - как его системообразующий фактор». Иностранные языки в школе, №5, 2007
9. Эсперанто // Энциклопедический словарь Брокгауза и Ефрона : в 86 т. (82 т. и 4 доп.). - СПб., 1890 - 1907. Том 84


UOT 902(4/9)

## XIX-XX əsrin əvvəllərində Mingəçevir və ətraf bölgələrin əhalisinin maddi mədəniyyəti

*Qədirova Aygün Raqif qızı*
*Mingəçevir Dövlət Universiteti*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun dissertantı*

Etnoqrafiya elmində maddi mədəniyyət dedikdə, insanın həyati və məişət ehtiyaclarını ödəyən yaşayış məskənləri və evlər, geyimlər və bəzəklər, yeməklər və içkilər, nəqliyyat və rabitə vasitələri, əmək alətləri, sənət məhsulları və s başa düşülür. Azərbaycanın heç bir tarixi-etnoqrafik bölgəsinə aid edilməyən, Mingəçevir və ətraf bölgələrin tarixi-etnoqrafik rayonlaşdırma məsələsində təsnifatdan kənarda qalması da [4] ərazinin etnoqrafik tədqiqata cəlb olunmasına rəvac vermişdir. Məsələ burasındadır ki, etnoqraf-alimlər A.A.Abbasov və E.Ə.Kərimov Azərbaycanın tarixi-etnoqrafik bölgələrinin təsnifatını apararkən Yevlax rayonunu Qarabağ bölgəsinə, Goranboy rayonunu Qərb bölgəsinin Şimal-Qərb yarım bölgəsinə aid etmiş, Mingəçevir və Xaldan rayonunu heç bir tarixi-etnoqrafik bölgəyə aid etməmişlər [2]. Tərəfimizdən aparılan ilkin etnoqrafik müşahidələr söyləməyə imkan verir ki, sözügedən Mingəçevir və ətraf bölgələr Qarabağ və Qərb (Gəncəbasar) bölgələrinin qovuşuğunda yerləşməklə, hər iki bölgəyə məxsus maddi mədəniyyət

irsindən bəhrələnmiş və burada özünəməxsus məhəlli-lokal spesifika ilə fərqlənən yeni çalarlı maddi mədəniyyət kompleksi formalaşmışdır. Bölgənin maddi mədəniyyət nümunələrinin öyrənilməsində arxeoloji qazıntılar zamanı tapılan materiallar, muzeydə saxlanılan eksponatlar, arxiv sənədləri və müasir dövrümüzə qədər gəlib çatmış məişət əşyaları mühüm rol oynayır. Mingəçevir və ətraf bölgələrin etnoqrafik baxımdan tədqiqinə əsasən XIX əsrin sonlarından etibarən başlanmışdır. Lakin qeyd olunan dövrə qədər bölgənin maddi mədəniyyət tarixinin öyrənilməsində müxtəlif səyyahların və müəlliflərin əsərlərində olan qeydlər diqqəti cəlb etmişdir. İngilis səyyahı A. Cenkinson, türk coğrafiyaşünası Evliya Çələbi "Səyahətnamə" əsərində bölgə haqqında məlumatlar vermişdirlər.

Mingəçevirdə arxeoloji abidələrin mövcudluğu barədə ilk dəfə 1873-cü ilin dekabr ayında Peturburqda keçirilən II Arxeoloji qurultayda Qafqaz arxeoloji komitəsinin sədri A.P.Berje tərəfindən məlumat verilmişdir. Onun bir qədər də dəqiq olmayan məlumatları və gəldiyi nəticələr həvəskar arxeoloq F.C.Bayerin Mingəçevir abidələri barədəki səthi məlumatlarına əsaslanırdı. Bundan başqa E.A.Paxomov 1934-1939-cu ilə qədər hər il Mingəçevirdə qısa müddətli həfriyyat aparmış və nəticədə bir çox küp qəbirlər açmışdır. Mingəçevirdə ilk dəfə sistemli və planlı şəkildə 1946-1953-cü illərdə S.M.Qazıyevin rəhbərliyi ilə aparılan arxeoloji ekspedisiyanın nəticəsində Erkən Tunc dövrünün son mərhələsindən başlayaraq son orta əsrlərə qədər bütün tarixi mərhələlər öyrənilmiş və 20 mindən artıq maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

Azərbaycan etnoqraflarından Z.A. Kilçevskaya XIX əsr Xaldan rayonunun Öcək kəndinin qadın geyimlərini, M.İ.Atakişiyev "Mingəçevir şəhərinin ətraf kəndlərində ev avadanlığı haqqında" adlı məqaləsi bölgənin maddi-mədəniyyətinin öyrənilməsində əvəzsizdir.

Maddi mədəniyyətin ayrılmaz tərkib hissəsi olan yaşayış məskənlərinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bölgənin yaşayış məskənlərinin müxtəlif tip və formaları olmuşdur. XIX-XX əsrin əvvəllərində Mingəçevir və ətraf bölgələri üçün qışlaq ərazilər və kənd yaşayış məskənləri xarakterikdir. Bu bölgənin kəndlərinin tarixi, yerləşmə mövqeyi və formaları müxtəlifdir. Yevlax ərazisi, xüsusilə Kür qırağı ərazilər və meşələr XIX-XX əsrin əvvəllərində ovlaq yeri və qışlaq yeri kimi məşhur idi. Bu şair və yazıçıların əsərlərində də göstərilmişdir (Y.V.Çəmənzəminlinin "Qan içində" romanı, M.P.Vaqifin "Hayıf ki, yoxdur" qoşması). Kənd tipli yaşayış məskəninə keçidin son mərhələsi hesab olunan qışlaq ərazilər bu yerlərə gələn tayfa və ya nəsillərin oturaq həyata keçməsi nəticəsində meydana gəlmişdir. XIX-XX əsrin əvvəllərində Mingəçevir və ətraf bölgələri Azərbaycanda ən geniş yayılmış kənd yaşayış məskənlərindən biri olmuşdur. Tədqiqatçılar kəndlərin təsnifatını elmi cəhətdən apararkən relyef xüsusiyyətlərinin planlaşdırılmasına və ictimai-iqtisadi inkişaf formalarına görə əsaslandırmışdırlar. Məskunlaşmanın əsas istiqamətləri yolkənarı, çaykənarı, düzənlik və şəhər ətrafı məskunlaşma tiplidir. Mingəçevir və ətraf bölgələrin kəndlərinin təsnifatına diqqət yetirdikdə məskunlaşma tiplərinin bütün formalarına rast gəlmək mümkündür. XIX əsrdə ən geniş yayılmış kənd formaları koma-koma, pərakəndə (dağınıq), sıx-qarışıq tərkibli yığcam kəndlər olmuşdur. Kənd məfhumu geniş yayılmış və daimi yaşayış məskənidir. F.Vəliyevə görə kənd, oturaq əhaliyə məxsus daimi yaşayış evləri olmaqla, təsərrüfat tikililəri, həyətyanı sahələri, inzibati, sosial-mədəni və dini mərkəzləri, ümumi otlaqları, əkin sahələri, içməli suları, ayrıca qəbiristanlığı olan və əhalinin etnik tərkibinin ümumiliyi ilə xarakterizə olunan yaşayış məskənidir [5].

Ənənəvi xalq geyimləri və bəzəklər maddi mədəniyyətin digər sahələri kimi, hər bir xalqın milli xüsusiyyətlərini, iqtisadi və mədəni həyat səviyyəsini, təsərrüfat məşğuliyyətinin istiqamətini, onun başqa xalqlarla tarixi əlaqə və qarşılıqlı təsir məsələlərini, etik normalarını, estetik və bədii zövqünü, etnik və sinfi mənsubiyyətini müəyyənləşdirməkdə əhəmiyyətli mənbə rolunu oynayır. Mingəçevir və ətraf bölgələrin milli qadın geyimləri «alt paltarı» və «üst paltarı» olmaqla iki variantda mövcud idi. Qadın alt paltarı alt köynəyi (müxtəlif bölgələrdə ona «can köynəyi» və «ət köynəyi» də deyirdilər), cütbalaq (taylı tuman) və darbalaqdan (dizlik) ibarət olmuşdur. Burada üst geyimlərinin əsas elementləri köynək, arxalıq, içlik(canlıq), çəpkən, taylı tumanlar, ayaq və baş geyimlərindən ibarət olaraq uzun müddət istifadədə olmuşdur. Bölgənin ənənəvi kişi geyimləri alt paltarı və üst paltarı kimi dəstlənirdi. Üst geyimləri də öz növbəsində çiyinə geyilən və belə bağlanan olmaqla iki variantda hazırlanırdı. Geyim materialları başlıca olaraq yun, pambıq, kətan

və ipək parçalardan, keçədən, dəridən ibarət olur, geyim hazırlığı ilə məşğul olan sənətkarlar tərəfindən hasilə gətirilərək bölgəyə yaxın olan Gəncə, Şəki, Bərdə və Ağdam, sonralar isə Şuşa bazarlarından satınalma yolu ilə əldə edilirdi. Burada kişi geyimləri köynək, şalvar, zıvın (zıbın), arxalıq, çuxa, kürk, yapıncı kimi gündəlik və mövsüm səciyyəli geyimlər olmuşdur. XIX-XX əsrin əvvəllərində Mingəçevir ətraf bölgələrinin qadın baş geyimləri əvvəlki dövrlərdən elə də fərqlənmirdi. Bölgədə qadınların baş geyimlərinə çutqu, ləçək, kəlağayı, şal, örpək və alafa daxil idi. Ənənəvi kişi geyimlərini tamamlayan baş və ayaq geyimləri əsasən dəridən, parçadan, keçədən və yundan hazırlanırdı, müxtəlif çeşidləri ilə seçilirdi. Xüsusilə kişi baş geyimləri milli ləyaqət, qeyrət, namus simvolu olduğundan, ona tələbat da böyük olmuşdur. Etnoqrafik-çöl materialları və ədəbiyyat göstəriciləri də təsdiq edir ki, bölgə əhalisinin kişi baş geyimləri içərisində qoyun və quzu dərisindən hazırlanmış böyük papaqlar (çoban papağı, motal papaq, şələ papaq və s.) geniş yayılmışdır. Yevlax rayonu Xanabad kəndində yaşayan məlumatçımız Cəfərov Bəhram Cəfər oğlu söyləyir ki, bizim tərəflərdə daqqa papaqlar da olub. Bölgədə qadınlar "yar-yardan incidi" adlı qadın ayaqqabısı və eyni adlı kəmərdən istifadə etmişdirlər. "Yar-yardan incidi" adlanan qadın kəməri bölgənin ən qiymətli kəməri hesab olunardı. Onun toqqa hissəsində bir-birinə əks istiqamətdə düzəldilmiş (bir-birinə arxa çevirmiş) qarmaqlar olardı ki, bu qarmaqların duruşuna görə kəmər belə adlanırdı. Yevlax şəhər Diyarşünaslıq muzeyində qorunan kəmərlərə nəzər salsaq görərik ki, kəmərlər iki cür olur: qalın və nazik kəmərlər. Gözəl və milli ornamentlərlə bəzədilmiş kəmərləri daha çox varlı qadınlar bağlayırdılar.

Maddi mədəniyyətin ən mühafizəkar sahələrdən olan yeməklər uzun tarixi inkişaf yolu keçərək çeşidini artırmışdır. Mingəçevir və ətraf bölgələrin XIX-XX əsrin əvvəllərində ərzaq məhsulları iki tərkibdə: bitki mənşəli və heyvan mənşəli kimi qruplaşdırılmışdır. Tədqiqat apardığım bölgənin başlıca məşğuliyyəti əkinçilik və maldarlıq olduğundan, hər iki sahənin əldə etdiyi məhsullarından hazırlanan yeməklər burada üstünlük təşkil edir.

Çörək məhsullarından Mingəçevir və ətraf bölgələrin XIX-XX əsrin əvvəllərində təndir çörəyi, yuxa, lavaş, fətir, yannama, oma, xamralı, kömbə, küllü kömbə, südlü çörək, qoz çörəyi və kətə bişirilərdi. Xəmir xörəklərindən xəngəl, əriştə, sürfüllü və düşbərə bişirirdilər. Adları çəkilən yeməklər özləri də bir neçə cür hazırlanırdı: ətli əriştə, maşlı əriştə, sadə əriştə, südlü əriştə, qiyməli xəngəl, soğançalı xəngəl, çığırtmalı xəngəl və şorakkalı xəngəl.

Azərbaycan mətbəxində 50-dən çox aş növü mövcud olmuşdur [3]. Bölgədə bişirilən döşəməli aş, qaraltılı aş (qavlamalı), lobyalı aş, boranılı aş, südlü aş, şüyüdlü aş, həlim tökmə və ya qatılı aş ( üzərinə balıq qoyulur), qartdama (ilan balığı ilə hazırlanır)aş və səbzəli aşı qeyd etmək lazımdır. Bundan başqa bölgənin daha çox bişirilən yeməkləri içərisində ağsolax, balıqdan hazırlanan yeməklər, hədik, ət yeməklərindən: qovurma, soyutma, buğlama, qızartma, kabab, piti, kəllə-paça, çığırtma, qiymələnmiş ətdən: dolma, kiftə, düşbərə və başqalarını qeyd etmək olar.

Mingəçevir və Yevlax ərazisindən keçən Kür çayı bölgədə balıqçılığın inkişafında mühüm rol oynayır. Məhz bu səbəbdən bölgənin balıq yeməkləri çox çeşidliyi ilə seçilir. Burada balıq kababı, balıq çığırtması, balıq buğlaması, qızardılmış balıq, balıq səbzəsi, balıq şorbası (uxa), həlim tökmə və ya qatılı aş (üzərinə balıq qoyulur), qartdama (ilan balığı ilə hazırlanır) aş və başqa balıqdan hazırlanan yeməkləri qeyd etmək olar.

Mingəçevir və ətraf bölgələrin etnoqrafik cəhətdən təsvirini verərkən maddi mədəniyyətin əsas tərkib hissələrindən olan nəqliyyat vasitələrini öyrənmək mühümdür. Təbii coğrafi şəraitdən və relyefdən asılı olaraq yaranan nəqliyyat vasitələri tarixən iki istiqamətdə: quru və su nəqliyyatı olaraq inkişaf etmişdir. Quru nəqliyyat vasitələri isə üç qrupa ayrılır: sadə yük nəqliyyatı, minik nəqliyyatı, qoşqu nəqliyyatı. Mingəçevirdə aparılmış arxeoloji qazıntılar zamanı Kürün sol sahilində geniş, qədim qəbiristanlıq da bükülmüş vəziyyətdə olan torpaq qəbirdən 1947-ci ildə bir ədəd ikitəkərli gil araba modeli tapılmışdır. Arabanın hündürlüyü 9,5, uzunluğu 20,5, eni isə 8 sm-ə qədərdir. Arabanın geniş təsviri "Qədim Mingəçevir" kitabında öz əksini tapmışdır [1].

XIX-XX əsrin əvvəllərində Mingəçevir və ətraf bölgələrin təbii-coğrafi şəraitindən, relyefindən və təsərrüfat məşğuliyyətindən asılı olaraq yaranan minik-yük nəqliyyatı təsərrüfatda böyük rol oynayırdı. Bölgənin minik yük heyvanları at, ulaq, kəl, öküz və dəvə olmuşdur. Etnoqrafik materiallar və informatorlardan topladığım materiallara əsasən XIX-XX əsrin

əvvəllərində Mingəçevir və ətraf bölgələrin gediş-gəlişini təmin etmək üçün kəl və öküz arabalarından, "Malakan", "Adinoçka", "Drojka" adlanan tək adamlıq dördtəkərli minik arabalarından istifadə olunmuşdur. İki təkərli arabalar bölgənin təsərrüfatında mühüm rol oynamışdır. Yerli əhali arasında ona bəzən "qara arabalar" deyiblər.

Azərbaycan da su nəqliyyatı baxımından Kür və Araz çayları xüsusi əhəmiyyət daşıyır. Tədqiqat apardığım bölgənin iqtisadi həyatında Kür çayı böyük rol oynayır. Mingəçevir yaxınlığında Kür üzərində bərə-keçidinin olması bölgənin iqtisadi inkişafı üçün şərait yaratmışdır. Qədim su nəqliyyatının kötük, sal, tuluq, qayıq, kolaz, bərə, kələk, pələ, barj, kirjim, sandal və gəmi kimi növləri olmuşdur. Bölgədən topladığım məlumatlara əsasən kötük, sal, qayıq, bərə, teploxod və gəmi kimi nəqliyyat vasitələrindən istifadə etmişlər.

Bölgənin ilk teleqraf rabitəsi XIX əsrin 80-ci illərinə təsadüf edir. Yevlağın ilk məktub daşıyanı Sibir Qasım olmuşdur. 1917-ci ildə Azərbaycandakı 93 poçt-teleqraf müəssisələrindən biri Yevlaxda, biri isə Ərəşdə yerləşmişdir. 1883-cü ildə Bakı-Tiflis dəmir yolunun işə düşənə qədər Yelizavetpol quberniyasında 46 poçt stansiyası vardı ki, bunlardan biri Yevlaxda idi. Bu stansiyalarda 672 at saxlanılırdı [6].

## Ədəbiyyat


1. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку: Изд-во АН. Азерб. ССР, 1959. 293 səh.
2. Kərimov E.Ə. Azərbaycanın tarixi-etnoqrafik bölgələri. "Tarix və onun problemləri", 1998, № 3, 1999, № 2;
3. Mustafayev A.N.. Azərbaycanın maddi-mədəni irsi"(etno-tipoloji tədqiqat). Bakı: "Adiloğlu" nəşriyyatı, 2010, 640 s,
4. Трофимова А.Г. К вопросы об этнографических зонах Азербайджанской ССР // Краткие сообщения Института Этнографии АН СССР, вып. XXXII, М., 1959.
5. Vəliyev F.İ. "XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi-mədəniyyəti" (tarixi-etnoqrafik tədqiqat). Bakı: "Şərq-Qərb". 2010. 424 səh. 22 s.
6. İsayev V. Yevlax sənədlərdə və yaddaşlarda. Bakı: "Azərnəşr", 2001, 456 s,


UOT 008(100)

# Müasir qloballaşma şəraitində mədəni əlaqələrin genişləndirilməsinin əsas istiqamətləri

*Əskərova Sevinc Vaqif qızı*
*Azərbaycan Dövlət Mədəniyyət və*
*İncəsənət Universitetinin doktorantı*

Tarix boyu bütün dünya xalqları, ölkələri həmişə bir-biri ilə münasibətlər qurmağa, ikitərəfli əlaqələr halında_yaşamağa çalışmışlar. Bu da ilk növbədə ayrı-ayrı ölkələrin iqtisadi ehtiyatlarının müxtəlifliyindən, bir sözlə insanların iqtisadi ehtiyaclarından doğmuşdur. Tarixi mənbələrin təhlili göstərir ki, ökələrdən ölkələrə, xalqlardan xalqlara ilk müjdə yetirən, həmişə hər yerdə tacirlər olmuş, onların ardınca elçilər, diplomatalar, zəvvarlar gedib-gəlməyə başlamış, nəhayət müntəzəm əlaqələr bu istiqamətdə işə düşmüşdür.

Dünya xalqlarının yaranma tarixi müxtəlif olmaqla yanaşı özünəməxsus yol keçmişdir. Hər bir xalq yaranır, formalaşır, inkişaf edir, öz qüdrətini artırır. Xalqların indiki inkişaf mərhələsinə çatması yəqin ki, onların tarixin ağır sınaqlarından uğurla çıxması nəticəsində mümkün olmuşdur. Lakin, danılmaz faktdır ki, qəbilə dönəmindən bəri bütün insanlar ünsiyyətə möhtac olmuş, digər xalqlarla təmas qurmağa çalışmışlar. Sonradan isə bu ünsiyyət prosesi öz şəklini dəyişərək

mürəkkəb formaya malik olmağa başlamışdır. Bu cür davamlı proseslər bir tərəfdən münaqişə zəminində, digər tərəfdən isə ticari mübadilə yolu ilə baş vermişdir [1].

Əsrlər keçdikcə ticari əlaqələr inkişaf edərək siyasi-iqtisadi, diplomatik, və ən nəhayət isə mədəni əlaqələr şəklində təzahür etmişdir. Qədim ticarət əlaqələrindən öz başlanğıcını götürən mədəni əlaqələr bu günədək böyük tarixi yol keçmişdir. Tarix saysız - hesabsız müharibələrin şahidi olsa da, qılıncları, top - tüfəngi susduran məhz həzin musiqilər, ecazkar rəqslər, möhtəşəm teatr səhnələri və digər yaradıcı kompozisiyalar olmuşdur. Geniş məcmu əhatə edən mədəni əlaqələr elm, incəsənət, musiqi, teatr, ədəbiyyat, turizm kimi mühüm sahələri özündə birləşdirir [2].

Müasir dövrdə müxtəlif mədəniyyətlərin bir-birinə qarşılıqlı təsiri multikulturalizm fenomenini doğurur. Məhz qarşılıqlı təsir nəticəsində mədəniyyətlər arası əlaqələr zənginləşərək inkişaf edirlər. Elə bu səbəbdən də XXI əsrin başlanğıcından xarici siyasətdə humanitar amilə diqqət artır. Təbii ki, mədəniyyət güc qismində hərbi və iqtisadi gücdən daha sivil və humanist bir məfhumdur. İqtisadi amildən mədəniyyətə keçidi ifadə edən sivilizasiya geosiyasəti fərqli cəhətlərə malikdir. Lakin geosiyasətdə mədəniyyətin hansı məqsədlərlə istifadə edilməsi məsələsi də önəmlidir. Təəssüf ki, hələlik sivilizasiya geosiyasəti termini daha çox söz olaraq qalmaqdadır**.**

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev üçüncü Bakı Beynəlxalq Humanitar forumun açılışında çıxış edərkən demişdir: “XXI əsrdə multikulturalizmə alternativ yoldur. Əlbəttə ki, biz yeni əsrdə ayrı-seçkilik, diskriminasiya, ksenefobiya, islamofobiya kimi xoşagəlməz meyllərə biganə yanaşa bilmərik. Ona görə multimədəniyyətli cəmiyyətlərin formalaşması üçün hər birimiz bu ideyaların təbliğinə öz töhfəmizi verməliyik” [3].

Mədəniyyətinin və ədəbiyyatının ilkin vətəni, qədim beşiyi Ikiçayarasında olan dünya sanki bu gün keçmişini unudub, gələcəyinin necə olacağını bilmir və beləcə qlobal səviyyədə xaos situasiyasi formalaşır. Son illəri ərzində olan lokal müharibələr göstərir ki, dünyanın böyük gücləri mədəniyyətdən başqalarını təsir altında saxlamaq, onun mədəni məkanına müdaxilə və nəzarət etməklə öz siyasi, hərbi və geosiyasi məqsədlərinə çatmaq üçün istifadə edirlər. Əvvəlki dövrlərdə dünya dövlətləri hərbi və ya iqtisadi güclə zəbt edilirdisə, indi qabaqcıl ölkələr tərəfindən istila prosesində_mədəniyyət, texnologiyalar, incəsənət və ideologiya qismində bu məsələlər ön plana çıxmaqdadır. Regional dövlətlərarası etnokonfessional və müxtəlif mədəniyyətlərin yaxınlaşması Qərbin Şərqə qarşı qoyulması dövrünün artıq tarixə qovuşduğunu bir daha sübut edir.

Ümumən diqqət etsək görə bilərik ki, mədəni əlaqələr xalqların qarşılıqlı şəkildə daim mehribanlıq və bir-birini yaxından tanımaları üçün birgə səy nümayiş etdirilməsini tələb edir, çünki elm, incəsənət, musiqi, teatr, ədəbiyyat, turizm kimi sahələri özündə ehtiva edən mədəniyyətin mayasında humanizm, insanpərvərlik və qarşılıqlı ünsiyyət durur [4].

Mədəni əlaqələr xalqları birləşdirən qədim ticari əlaqələrdən başlayaraq ta bu günkü mədəni əlaqələrədək böyük spektrı əhatə edir. Mədəniyyət – formaca milli, məzmunca beynəminəl, ümumbəşəri xarakter daşıyır. Yəni hər bir milli mədəniyyət qazandığı uğurlarla eyni zamanda dünya mədəniyyətini zənginləşdirmiş olur. Artıq dünyada mədədniyyətlər bir-biriləri ilə təməsda olaraq zənginləşib, bir-birinə daha yaxından inteqrasiya edirlər.

Müasir qloballaşma şəraitində mədəni əlaqələrdə mütərəqqi əsərlərin təbliği və nümayişinin genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin artırılması, mübadilə təşkilatları ilə əlaqələrin möhkəmlənməsi kimi məsələlər ən mühüm şərtlərdən hesab olunur. Məhz_mədəni əlaqələr dünya xalqlarının ölməz ədəbi əsərlərin yaranmasına və yazılmasına münbit zəmin yaradır.

Getdikcə qloballaşan dünyamızda mədəniyyətlər arasında əlaqələrin öyrənilməsi mühüm aktuallıq kəsb edir. Mədəni əlaqələr hər şeydən əvvəl xalqların mənəvi dəyərlərinin, qarşılıqlı əlaqələrinin inkişafına xidmət edən mühüm sahələrdən biridir [5].

Müasir iqtisadi şəraitdə xalqlar arasında sanki bir qırılmaz körpü rolunu oynayan mədəni əlaqələr prossesinin ən mürəkkəb və keyfiyyətcə yeni bir mərhələsini tarixin müasir dövrü təşkil edir. Müasir tarixdə mədəni əlaqələr və mədəniyyətlərin sintezi sosial cəhətdən ziddiyyətli,bəşəriyyətin milli dəyərlərə şüurlu münasibətin formalaşdığı bir zamanda gerçəkləşir.

XX əsrin sonundan etibarən mədəniyyət həm ayrıcı həm də birləşdirici rol oynayır. İnsanlar ideoloji cəhətdən fərqlənə bilərlər, lakin ümumi vahid mədəniyyət onları birləşdirir. Son illər

mədəni qohumluğu olan dövlətlər daha yaxın iqtisadi və siyasi əməkdaşlıq etməkdədirlər. Ümumi mədəniyyətə malik olan dövlətlər tərəfindən_yaradılmış beynəlxalq təşkilatlar (məs Avropa Birliyi) öz inkişaf yollarında daha uğurlu nəticələr əldə etmişlər.

Mədəniyyət bir yaradıcı forma olaraq qalmamış, beynəlxalq əlaqələrə, diplomatik sahələrə sirayət etmişdir. Belə ki, mədəniyyət beynəlxalq münasibətlər sahəsində artıq mühüm bir ünsürə çevrilərək, təbliğat sahəsində geniş istifadə olunur.

İyirminci əsrdə mədəni əlaqələrdən əsasən təbliğat məqsədilə istifadə olunması yeni bir hadisə deyil. I Dünya müharibəsi ərəfəsində Böyük Britaniya, Fransa, Almaniya təkbaşına siyasət aparmasına baxmayaraq, ABŞ həyata keçirməyi nəzərdə tutduğu mədəni tədbirlərdə siyasi təsirlərini digər ölkələrə yaymağa cəhd etmişdir. Keçmişdən bu günə qədər mədəni əlaqələrlə, sənət və elmi tədbirlər vasitəsilə digər ölkələr üzərində təsirli olmaq və beynəlxalq nüfuz qazanmaq bütün dövlətlərin əsas məqsədləri arasında yer almaqda davam edir [5].

Məsələn, Sovet və Çin hökumətləri də tətbiq etdikləri mədəni mübadilə proqramları çərçivəsində öz təsirlərini daha ucuz, lakin yüngül metodla yaymağa çalışıblar. Çünki sənət və mədəni tədbirlərin təbliğat məqsədi daşıyacağı bir çox şəxsin ağlına gəlmədiyi üçün sosialist ölkələr bir çox ittihamlara beləcə, daha asan cavab vermək imkanı da tapmışlar.

Son olaraq belə nəticəyə gəlmək olar ki, mədəni əlaqələr prosesində milli və beynəlmiləlçiliyin dialektikası zəruri və obyektiv cəhətdən şərtləndirir. Bu dialektika mədəni əlaqələrin bütün sahələrində öz əksini tapır. Milli və beynəlmiləl cəhətlərin dialektikası planetar mədəniyyətin formalaşması və dünyanın qloballaşması prosesinə təkan verən əsas amillərdən biridir.

### Ədəbiyyat


1. Babaoğlu H. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı: Çinar-Çap, 2010, 568 s.
2. Бондарев А.П. Полицентризм как диалогическая форма поликультурности // Вестник Московского государственного лингвистического университета, 2013, выпуск 24 (684), Исторические и политические науки, с. 76-91
3. Bakı Beynəlxalq Humanitar Forumunun materialları. Bakı: Şərq-Qərb, 2013, 544 s.
4. Beynəlxalq mədəni əlaqələr: dərslik / red. M.C.Manafova, N.T. Əfəndiyeva. 2 cilddə, 2-ci cild. Bakı: Sabah, 2009, 399 s.
5. Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013, 264 s.


UOT 291

## Multukulturalizmin Azərbaycan modeli

*Əhmədova Şəhla Müzəffər qızı*
*Sumqayıt Dövlət Universiteti*
*AMEA Tarix İnstitutunun dissertantı*

*Dinindən,dilindən,irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdir və bu hüquqlar qorunmalıdır.*

***Ümummilli lider Heydər Əliyev***

Mədəni mübadilə və qarşılıqlı zənginləşmə xalqların sosial mədəni inkişaf təcrübəsini artırır. Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir. Məhz elə "multikulturalizm" sözünün anlamı da – çox mədənilik, bir çox fərqli mədəniyyətlərin bir arada yaşadığı cəmiyyəti təyin edən deməkdir. Bir ölkədə və ya dünyada müxtəlif dinlərə və

mədəniyyətlərə məxsus xalqların dini-mədəni müxtəlifliklərinin qorunması inkişafı və inteqrasiyasına yönəldilmiş siyasət deməkdir. Multikulturalist, tolerant cəmiyyətdə daima hümanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, zənginləşmə dostluq və əməkdaşlıq olmuşdur.

Müasir multi mədəni cəmiyyətlər kulturalist strategiyalara əsaslanan düşünülmüş multikulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Azərbaycan Respublikasının inkişafıdır ki, burada Azərbaycanın Milli Mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri hormonik inkişaf edirlər. Azərbaycan tarixən müxtəlif dinə, məzhəbə mədəniyyətə malik insanlara vətən olmuşdur.

Azərbaycanın tarixi ərazisi ilk insan məskənlərindən biri olmaqla yanaşı, həm də qədim zamanlardan dini inanc və əqidələrin yarandığı, eləcə də yayıldığı məkan olmuşdur.

Şamanizm, zərdüştilik, atəşpərəstlik Azərbaycanın tarixi ərazilərində formalaşan, xalqımızla bağlı olan, yəhudilik, xristianlıq isə meydana çıxdıqları ilk dövrlərdən etibarən bu ərazidə yayılan dinlərdir. Müxtəlif dinlərin və dini fəlsəfi cərəyanların yayıldığı bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələri formalaşmış, milli, irqi və dini zəmində heç bir ayrı seçkilik faktı qeydə alınmamışdır.

Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkədir. Ölkəmizdə ayrı-ayrı etiqad və inanclara malik etnosların min illərlə əmin amanlıq şəraitində yaşamasında, etnik mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında Azərbaycan xalqına xas olan humanizm və çoxmillətlilik dəyərlərinin müstəsna rolu vardır.

Azərbaycanın tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi ta qədimdən burada müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. Ayrı-ayrı dövrlərdə bütpərəstlik, zərdüştilik, yəhudilik, xristianlıq, islam və bir çox başqa dini inanclar ölkədə bu və ya digər dərəcədə yayıla bilmiş, bir-birinə qarşılıqlı təsir göstərmiş, dini həyatın özəlliyini şərtləndirmişdir. Bütpərəstlik təsəvvürlərinin kökləri çox qədimlərə gedib cıxır. Ölkə ərazisində məskunlaşan əhalinin böyük qismi odu müqəddəsləşdirmiş, ona siyatiş etmişdir.

Azərbaycanda tarixən dağ yəhudiləri ilə təmsil olunan yəhudilərin ölkəyə gəlişi eramızdan əvvəl I əsrə aid edilir. Onların əcdadları yəhudiliyə ilk iman gətirənlərdən olmuş, Fələstindən kənarda yaşamış və xristianlıq yəhudiliyin içindən çıxan bidətçi bir firqə kimi təşəkkül tapmağa başlayanda İsa Məsihi təqib edənlər arasında olmamışlar [4].

Ölkəmizin ərazisində yaşayan dağ yəhudiləri yerli əhali ilə sıx təmasda olsalar da, dinlərini, adət-ənənələrini, həyat və düşüncə tərzlərini qoruyub saxlamışlar. Onlar özlərinin milli bayramları olan Raş-Na Şana, Sukkot bayramlarını, Simxattor gününü sərbəst şəkildə qeyd etməklə bərabər Azərbaycan xalqına xas olan adət ənənələri də mənimsəmişlər. Dağ yəhudiləri onlara olan isti münasibətə görə vətənimizi öz doğma vətənləri hesab edirlər. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Milli Qəhrəmanlarının sırasında dağ yəhudilərinin mərd oğlu Albert Oqoronov da vardır.

Xristianlıq Azərbaycan ərazisinə hələ İsa Məsihin həvariləri dövründə Qafaz Albaniyası vasitəsilə nüfuz etmişdir. Sinayda aşkar edilmiş “Alban yazısında və alban dilində” leksionları dünyada xristianlığın ən qədim kütləvi qiraət kitablarından sayılır.

Azərbaycanda xristianlıq özünün pravoslavlıq, katoliklik və protestantlıq qolları, habelə müxtəlif sektant icmaları ilə təmsil olunmuşdur. Bakıda ilk pravoslav kilsəsi 1815-ci il yanvarın 1-də rus qoşunlarının Şamaxı quberniyasındakı baş komandanı general N.F.Patişşevin sərəncamı ilə açılmışdır.

Bundan əlavə Rusiya imperiyası dövlət şurasının 1830-cu ildə qəbul edildiyi qərara əsasən, Voronej, Saratov, Tombov, Orenburq, Tavriya və Yenisey quberniyalarından və Bessarabiya vilayətindən Bakı quberniyasına rusların və ukraynalıların köçürülməsi nəzərdə tutulmuşdur.

XIX əsrdə Azərbaycanda 27 təriqətçi kəndi var idi. Sosialist inqilabından əvvəl Azərbaycanda xristianlığın başqa formalarını təmsil edən onlarca kilsə, Kostyol və ibadət evləri mövcud idi. Təkcə Bakı şəhərində erməni qriqorianlarının “Müqəddəs qriqori” sobor kilsəsi (1863) və kotolik

almanların iri kostyolları, yəhudilərin xoral sinaqoqu (indiki Mahnı Teatrı) və bir neçə məhəlli sinoqoqları var idi [3].

Xristian və yəhudi din formalarının yüzlərlə kilsə və sinaqoqları Bakı və Yelizavetpol quberniyalarının – Quba, Şamaxı, Şəki, Gəncə, Şəmkir şəhərlərində, Yelendorf (Xanlar), Tovuz, Qazax yaşayış məntəqələrində, Qarabağın ermənilər yaşayan kəndlərində əhalinin dini tələbatını ödəmək və ailə-məişət işlərini idarə etməklə məşğul olurdu. Təkcə Yelizavetpol quberniyasında 1908-ci ildə 662 kilsə, kostyol, sinaqoq, xristian təriqətçilərinin 101 ibadət evi və 4 xristian monastrı vardı [2].

Bu dini ibadət yerləri dini dünyagörüşünü tətbiq edib yaymaqla bərabər, çarizmin ölkənin ucqarlarında yeritdiyi müstəmləkə siyasətinin təcəssümü idi.

Təsadüfi deyildir ki,carizm öz havadarları olan erməni millətçilərinin arzusuna uyğun olaraq 1836 ci ildə Qarabağda olan yeganə Alban kilsəsinin varlığına son qoyub onu erməni qriqoryanlarına güzəştə getdi.

Azərbaycanın islamlaşması erkən islam fütuhatları ilə hicrətin 18-ci ilindən (639-cı il) başlamışdır. Tarixçi Bəlazurinin məlumatına görə, artıq xəlifə Əli bin Əbu Talibin hakimiyyəti dövründə (656-661) Azərbaycan əhalisinin əksəriyyəti islamı qəbul etmişdi. Sasanilərlə bizanslılar arasında şiddətli mübarizənin nəticəsində ölkədə gah zərdüştilik, gah da xristianlıq güclənmiş, belə bir şəraitdə bölgəyə gələn islam sürətlə yayılmaq imkanı əldə etmişdir [1].

Regionda tarixən dözümlülük mühitinin formalaşmasında islamın Azərbaycanda yayılmasının böyük rolu olmuşdur. Çünki mərhəmət, sevgi və əxlaq dini olan islamda tolerantlıq, dözümlülük yüksək mənəvi dəyər və mədəniyyət kimi qiymətləndirilir. Bu baxımdan əsrlər boyu müsəlmanlarla yanaşı yaşayan digər dinlərin mənsubları da regionda dinc və ayrı-seçkiliyə məruz qalmadan yaşamışlar.

Təsadüfi deyildir ki, islam dininin və bütün dünya müsəlmanlarının müqəddəs kitabı olan Quranı Kərimdə sülh haqqında iyirmi dəfədən çox söhbət açılır. Müqəddəs Quran buyurur. “Yer üzündə dağıntı etməyin”... (7.56). Daha sonra: “hamıdan uca olan ilahi sizin hamınızı sülhün dərgahına çağırır”... (10,25) və s.[5]

Azərbaycan Prezidenti İlham Əliyevin qayğısının nəticəsi olaraq bu gün dövlət və din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayır və Milli Məclisdə təmsil olunurlar. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir.

Son illərdə dünya xalqları arasında dialoqun təşviqi və inkişafında Azərbaycan mühüm rol oynamaqdadır. Bu gün Azərbaycan, həm Avropa Şurasına, həm də İSESCO-ya üzv olan yeganə müsəlman ölkəsidir, Azərbaycanın həm islam dövlətləri, həm də Qərb ölkələri ilə möhkəm dostluq və əməkdaşlıq münasibətləri vardır.

Müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multukulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Azərbaycan Respublikasının inkişafıdır ki, burada azərbaycanın milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər. Multikulturalizmdən imtina etmək yaxşı heç nə vəd etmir, çünki bu, təəssüf ki, bütün dünyada getdikcə artan anlaşılmazlığa, fobiyaya, qarşıqoymaya və qarşıdurmaya, milli və dini münaqişələrə aparıb çıxaran yoldur.

Multikulturalizm Azərbaycan xalqının milli sərvətidir. Bu gün dünyada yeni müharibə ocaqları, qarşıdurmalar yaranır, ayrı-seçkilik təzahürləri baş qaldırır. Lakin bəşəriyyət gec-tez dünyaya xoşbəxtlik, səadət gətirəcək, sivil inkişafın, demokratiyanın, dünyəvi humanizmin ana xəttinə çevriləcək multikulturalizmin Azərbaycan modelindən faydalanacaqdır.

**Ədəbiyyat**


1. Azərbaycan tarixi. II cild. Bakı, 1964, səh.827
2. Əhədov A.F. Azərbaycanda din və dini təsisatlar. Bakı, 1991, s.21,174

3. İsgəndərli C. Azərbaycanda qeyri-ənənəvi dinlər və təriqətlər. Bakı, 2008, s.63, 65
4. Dövlət və din (ictimai fikir toplusu) dekabr-2007, s. 98, 99
5. Qurani-Kərim. Bakı-2005 (Azərbaycan dilində), s.211,157

UOT 37

## Толерантность как важнейшая составляющая гуманной педагогики

*Махмудова Ризвана Намаз кызы*
*аспирант Московского Педагогического*
*Государственного Университета*

Азербайджан – полиэтническая страна, которая всегда отличалась своим миролюбием, терпимостью по отношению к представителям других наций. В стране проживают представители таких национальностей и этнических групп, как русские, украинцы, грузины, татары, лезгины, аварцы, таты, талыши, цахуры, хиналыгцы, будухи, крызы, удины, курды, турки-месхетинцы, которые обладают равными правами с азербайджанцами, являющимися титульной нацией и составляющими большинство населения страны.

На современном этапе перед нашим государством стоят важные задачи: с одной стороны, стране необходимо занять свое достойное место среди цивилизованных стран мира, органически вписаться в мировое культурно-цивилизационное, правовое, политическое, экономическое, культурное, образовательное пространство, с другой – сохранить свою национальную самобытность, формировавшуюся на протяжении длительного исторического периода. Азербайджану в период независимости, а он вошел в период независимости в очень сложных условиях, все-таки удалось отстоять свою национальную культуру, свою самобытность, язык и национальную гордость. Как дальше удастся сочетать свою самоидентификацию в этом сложном мире с такой непростой проблемой, как глобализация различных процессов, в том числе и процессов образования? Сомнет ли нынешнее общение самобытность азербайджанской культуры, сможет ли она уничтожить эту сокровищницу многовековой культуры, конечно же, зависит от преподавателей, от того, насколько серьезно они отнесутся к сочетанию, с одной стороны, тенденции глобализации, а с другой стороны – к сохранению своей национальной культуры.

Дети часто испытывают трудности, связанные с неумением, а отсюда и нежеланием принять и понять «другого» именно как другого. В большинстве своем они не могут даже представить себе, что перед ними другая культура со своей собственной, особой логикой мышления и поведения. И зачастую пытаются проецировать на других собственные мысли и качества.

Как отмечают исследователи, уже в начальных классах среди учащихся русской национальности встречаются проявления элементов неосознанного шовинизма, пренебрежения к нерусским ученикам. Явления наивного шовинизма среди какой-то части детей, как правило, развиваются в условиях отсутствия специальной воспитательной работы по их предупреждению и влиянию социально-психологического феномена преобладания чувства «толпы» [1].

По мнению педагогов, эффективность воспитания межнационального общения во многом зависит от учёта этнокультурных и этнопсихологических особенностей всех участников многонационального коллектива. Ибо в многонациональном общении представитель любого народа проявляет себя как носитель самобытной культуры, своеобразной психологии данного народа.

Необходимо в контексте данной работы, немного подробнее остановиться на национально-психологических особенностях детей, принадлежащим той или иной

этнической группе. Следует отметить, что в формировании этих особенностей большую роль играет история этноса, религиозные воззрения, природа и другие факторы.

Русские дети отличаются стремлением к добру и правде, снисходительностью, душевностью, доброжелательностью, чуткостью к душевному состоянию своих родных.

Подобными национально-психологическими особенностями характеризуются и дети, являющиеся представителями народов Поволжья и Приуралья. Поскольку Поволжье и Приуралье – яркий пример многовекового сосуществования разных народов, представителей различных культур, языков и религий (это башкиры, марийцы, мордва, чуваши, татары, удмурты и др.), дети данной этнической группы также отличаются этнической терпимостью, радушием, гостеприимством и т. д.

Отдельно следует остановиться на народах, исповедующих ислам (башкиры, ногайцы, татары). Детям мусульман прививается гибкость в преодолении проблем; собранность, организованность; реализация себя в активной деятельности; умение сопереживать в беде, сострадать, оказывать помощь нуждающимся; миролюбие, стремление мирно решать сложные жизненные проблемы, терпимость к иным взглядам, религиям, обычаям; уважение старших; доброжелательство.

Национально-психологические особенности детей Северного Кавказа (абхазы, ингуши, кабардинцы, черкесы, чеченцы и др.) определяются превалированием чести, справедливости, равенства, коллективизма, добрососедства. Детей воспитывают в духе народных традиций. Важное место занимает семья и честь семьи. Определяющими общими чертами национального характера всех кавказских народов являются особая эмоциональность, энергичность, темпераментность, неутомимость, подвижность.

Подробнее хотим остановиться на азербайджанских детях. Они охотно общаются и взаимодействуют с детьми разных национальностей. При общении с такими ребятами следует проявлять как можно больше такта, внимательности, подлинного уважения. Доверием, дружеским отношением и участием от них можно добиться большего, нежели давлением и принуждением [2].

В этой связи большое значение приобретают прогрессивные идеи поликультурного образования, которые прочно заняли свое место в образовательной практике развитых стран мира, так как крайне важно утвердить в сознании молодежи правильное соотношение между «своим» и «чужим». Поэтому «освоение этнокультурного опыта должно способствовать осознанию того, что родная культура является одной из форм культурного многообразия мирового сообщества, частью достижений целостного зависимого мира. В контексте поликультурного образования акцент смещается на заложенные в этнических культурах ценности, имеющие прогностическое значение и способствующие развитию личности, духовному, социальному и научно-техническому прогрессу, установлению добрососедского сотрудничества на межличностном, государственном, международном уровнях. Включение в учебные планы интегрированных курсов литературы, культуры, истории, религии, искусства народов регионов помогает понять взаимовлияние, взаимопроникновение и взаимообогащение культурно-исторического опыта различных этнонациональных общностей, выявить его общечеловеческий потенциал».

В конечном итоге это позволит воспитать подрастающее поколение в духе толерантности, т. е. воспитать у молодежи потребность и готовность к конструктивному взаимодействию с людьми и группами людей независимо от их национальной, социальной, религиозной принадлежности, взглядов, мировоззрения, стилей мышления и поведения. Достижение этой цели возможно при решении целого ряда конкретных задач, к числу которых относятся следующие: формирование негативного отношения к насилию и агрессии в любой форме; формирование уважения и признания к себе и к другим людям, к их культуре; развитие способности к межнациональному и межрелигиозному взаимодействию; развитие способности к толерантному общению, к конструктивному взаимодействию с представителями социума независимо от их принадлежности и мировоззрения; формирование умения определять границы толерантности.

Решение этих задач невозможно без создания соответствующей толерантной среды в обществе и в сфере образования. Достичь этой цели можно, решив следующие задачи: профилактика терроризма, экстремизма и агрессии в обществе; гуманизация и демократизация существующих в обществе взаимоотношений; модернизация системы обучения и воспитания, внедрение в образовательную практику учебно-воспитательных учреждений прогрессивных идей поликультурного образования, педагогики сотрудничества и толерантности; адаптация системы подготовки будущих педагогов к современным требованиям, формирование у них профессиональных умений и навыков в области воспитания толерантности.

## Литература

1. Ленский И.Л. Культура межнациональных отношений в педагогической публицистике // Педагогика. 1998, № 6, с. 25-29
2. Махмудова Р.Н. Формирование профессиональной готовности педагога к межнациональному общению с учащимися // Среднее профессиональное образование, 2011.№ 7, с. 28-30

UOT 17:37.01

## Tədris prosesində milli-mənəvi tərbiyə

*İslamova Nərgiz Məmmədkərim qızı*
*Hüseynova Lalə Tohid qızı*
*Mingəçevir Dövlət Universiteti*

Təbiətin hər xalqa bəxş etdiyi ən qiymətli miras onun milli-mənəvi dəyərləridir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: “Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir” [4].

Bu gün Azərbaycan Respublikası beynəlxalq miqyasda tanınmasına, müstəqilliyimizin möhkəmləndirilməsinə dair ardıcıl olaraq tədbirlər keçirib və keçirməkdədir. Buna görə də mənəvi dəyərlərimizin qorunub saxlanması və inkişaf etdirilməsi müstəqil respublikamızın təhsil siyasətinin əsas prioritet vəzifəsi hesab edilir.

Hər bir ali məktəb öz tələbələrinə təkcə bilik verməklə kifayətlənməyib, həm də onların hərtərəfli inkişafını və peşə hazırlığını təmin edir. Tələbələrin tərbiyəsi və təhsili bir-biri ilə vəhdət təşkil edir. Təhsilin və tərbiyənin vəhdətinin pedaqoji mahiyyəti ondan ibarətdir ki, müəyyən savada malik olan tələbə şəxsiyyətinin inkişaf meylləri, o cümlədən, onların xarakteri və qabiliyyətləri, dünyagörüşü, yüksək mənəvi duyğuları, intellektual qabiliyyətləri, estetik tələbatı və zövqünün təminatına zəmin yaradılmalıdır.

Elmi-texniki tərəqqi şəraitində, hərtərəfli və ahəngdar inkişaf etmiş şəxsiyyətin formalaşmasında elmin əhəmiyyətinin artdığı bir dövrdə ali məktəb müəllimlərinin rolu da artır. Onların fəaliyyəti yüksək sosial əhəmiyyət kəsb edərək, cəmiyyətin mənəvi mədəniyyətinin yaranmasında mühüm yer tutur.

“Tələbə” (“студент”) termini mənşə etibarilə latın sözü olub, mənası – səylə işləyən, məşğul olan, yəni ”biliklərə yiyələnən adam” deməkdir. Tələbənin həyatında əsas istiqamət – oxumaq, öz intellektini inkişaf etdirmək, mənəvi, əxlaqi, fiziki və estetik baxımdan inkişaf etmək, peşəyə yiyələnməkdir. Birinci kursda oxumağa gələn müasir tələbə istər yaşca, istərsə də sosial kamillik mənasında əvvəlki illərin tələbələrindən seçilir. Tələbəni bir şəxsiyyət kimi öyrənərkən, bilməliyik

ki, 18-20 yaş mənəvi və estetik hisslərin inkişafında, xarakterin formalaşması və sabitləşməsində, vətəndaşlıq, ictimai-siyasi, peşə-əmək və digər vəzifələrin bütün kompleksinə yiyələnməsində ən fəal dövrdür. Bu yaş dövrü insan xarakteri və intellektinin formalaşmasının mərkəzi dövrü kimi fərqləndirilir.

Bu gün cəmiyyət gəncləri həm savadlı, dünyagörüşlü, həm də zəngin mənəviyyata malik görmək istəyir. Məhz buna görə də təhsil prosesində əsas məqsəd tələbələrin hərtərəfli hazırlıqlı şəxsiyyət kimi formalaşdırılmasıdır. Tanınmış rus pedaqoqu K.D.Uşinski yazırdı ki, tərbiyənin başlıca vəzifəsi mənəvi təsirdir.

Tədris prosesində milli-mənəvi tərbiyənin problemlərinin aktuallığı aşağıda göstərilən 4 əsas amillərdən ibarət olmalıdır :

1. Müasir cəmiyyətimiz bu günün reallıqlarına uyğun olan yüksək milli-mənəvi keyfiyyətə malik, geniş dünyagörüşlü, savadlı mütəxəssislər tələb edir;

2. Hazırki gəncləri əhatə edən cəmiyyət müxtəlif neqativ və pozitiv xarakterli hadisələrlə dolu olduğundan onların həyat tərzinə və inkişafına böyük təsir göstərir ki, bu onların mənəviyyatının formalaşmasını şərtləndirir.

3. Milli-mənəvi dəyərlərin inkişafına təkcə təhsil prosesi tam zəmin yarada bilməz, çünki hər bir insanın şəxsiyyət kimi formalaşmasında ətrafdakı mühit və insanlar, onların arasındakı münasibətlər, qarşılıqlı hörmət və ehtiram böyük rol oynayır.

4. Milli- mənəvi dəyərlərin öyrənilməsi tələbələri müasir cəmiyyətdəki normalar, onlara əməl olunmadıqda hansı fəsadlar olacağı ilə bağlı təsəvvürlər yaradır.

Hər zaman nəzərə alınmalıdır ki, tərbiyə ətraf reallığın öyrənmə prosesidir və buna görə də müasir gənclərin necə tərbiyə olunmasından, şəxsiyyət kimi hansı mənəvi dəyərlərlə zənginləşməsi asılıdır. Onların ətrafında baş verən istənilən hadisə gələcək həyatlarına və əmək fəaliyyətlərinə təsirsiz olmaya bilməz.

Bugünki təhsil sistemi sürətli və fasiləsiz texnoloji proseslərin fonunda böyük dəyişikliklərə məruz qalır. Yeni texnologiyalar müasir təhsil sisteminə də təsirsiz ötüşmür.Vaxtaşırı, yeri gəldikdə onlardan düzgün və səmərəli istifadə ilə bağlı məlumat vermək çox vacibdir. Axı tələbələrin milli-mənəvi dəyərlərinin formalaşması və sosial mahiyyəti zamanın tələbi ilə müəyyənləşdirilir, çünki məhz cəmiyyətin mənəvi cəhətdən necə olması və gələcəyi elə bundan asılıdır. Hər bir insan yüksək mənəviyyata malikdir, ona görə də tarix boyu yaranan mənəvi dəyərlərimiz gündəlik həyatımızda hər an öz yerini tapmalıdır.

Ölkə ali məktəblərində Boloniya prosesinin tətbiqi, təhsilin kredit sisteminə keçidi tələbələrin daha çox müstəqil çalışmasını tələb edir. Müstəqil çalışan, əməli fəaliyyət göstərən tələbə daha çox bilik qazanır və öyrənir.

Məlumdur ki, insan bilik almaq məqsədi ilə öz üzərində nə qədər çox və hərtərəfli işləsə, ona müxtəlif cəhətlərdən yanaşsa hafizəsində əldə etdiyi informasiya daha möhkəm yer tutar, çünki tələbə material üzərində müstəqil işləyərkən onu hərtərəfli təhlil edir, şüurunda eyni bir məsələyə bir neçə dəfə qayıtmalı olur. Bütün bunlar həmin materialın hafizədə uzun müddət qalmasına, praktiki əhəmiyyət kəsb etməsinə səbəb olur.

Müasir gənc mütəxəssis yüksək bilik və dünyagörüşünə malik olmaqla bərabər, həm də tədqiqatçılıq qabiliyyətinə malik olmalı, müstəqil düşünməyi və qərar verməyi bacarmalıdır. Bunun üçün də indiki şəraitdə, təhsilin qlobal xarakter aldığı bir dövrdə, tələbənin proqram materialına sahib olması minimum tələb kimi meydana çıxır. Geniş nəzəri bilik və dünyagörüşünə sahib olmaq üçün daha çox oxumalı, əlavə mənbələrdən istifadə etməli, biliklər genişləndirilməli və tətbiq edilməlidir. Bu mənada sərbəst iş tələbənin kiçik elmi-tədqiqat işi hesab edilə bilər. Milli-mənəvi dəyərlərin təbliğ olunması tədris prosesində aparılan tərbiyə işinin tərkib hissəsi kimi xarakterizə olunmalıdır ki, vətənimiz, milli qəhrəmanlarımız, şəhərlərimiz, tarixi günlərimiz və bayramlarımızla bağlı mövzular da bu siyahıda əsas yer tutur.

Tələbələrin sərbəst iş mövzuları üzərində apardığı tədqiqatlar fənnin daha da dərindən mənimsənilməsinə kömək etdiyi kimi, onların tədqiqatçılıq bacarığını da inkişaf etdirir, elmə həvəsini artırır, müstəqil çalışmaq vərdişlərini möhkəmləndirir.

Dediklərimizdən belə çıxır ki, milli- mənəvi tərbiyənin müasir təhsil sisteminə böyük təsiri vardır. Bütün dünyada və əksər xalqların mentalitetinin əsasını təşkil edən ümumbəşər dəyərləri demək olar ki, eynidir. Onlardan əsasən Vətənə və torpağa ülvi məhəbbət, böyüklərə və ətrafdakılara hörmət, xalqına sədaqət, əsrlər boyu yaradılan tariximizə, doğma musiqimizə, incəsənətimizə maraq və böyük ehtiram, düzgünlük, əməksevərlik, xeyirxahlıq, humanizm, tolerantlıq, xeyriyyəçilik kimi xüsusiyyətlər bizim xalqımıza daha çox xas olan, ulu babalarımızdan bizə miras qalmış ümumiləşən dəyərlərdir ki, onları nəsillərdən- nəsillərə ötürmək biz müəllimlərin üzərinə düşür.

## Ədəbiyyat


1. Bəşirov B. Ali məktəb didaktikası. B.: Maarif, 1992
2. Король Ю. А. Молодой ученый. Москва, 2013, с.474
3. Кружкова. Л. А. Формирование духовно-нравственных ценностей в образовательном процессе. Калуга, 2006
4. http://www.olaylar.az/news/social/128762


UOT 32

## Milli-mənəvi dəyərlərin formalaşmasında sinkretik və multikultural amillər


*Məmmədov İlham Mabud oğlu*
*Mingəçevir Dövlət Universiteti*


Sivilizasiya tarixinin ən aparıcı motivlərindən biri qloballaşma, miqrasiya və inteqrasiya nəticəsində etnik-mədəni dəyərlərin bir-birinə qarışması ilə bağlıdır. Homo sapiensin təşəkkülündən başlayaraq bu proses bu gün də yüksək templərlə davam edir və bəşəriyyətin iqtisadi-mədəni və əxlaqi-mənəvi məzmununun formalaşmasında həlledici rol oynayır. Millətlərarası dialoqun nəticəsi olaraq bütün tarixi mərhələlərdə ayrı-ayrı mədəniyyətlərin sintezi baş verib və bu proses müxtəlif tarixi dövrləri bir-biri ilə qırılmaz şəkildə bağlayan faktor kimi təzahür edir. Çağdaş dünyada baş verən demoqrafik, ekoloji, elmi-texniki, siyasi, mədəni və informativ proseslər Yer kürəsində yaşayan bütün xalqların ümumi işinə çevrilib. Təbii ki, bu proses xalqların yaxınlaşmasını, sıx qarşılıqlı əlaqəsini, sülh şəraitində yaşamasını və birliyini təmin etməlidir. Xalqların mənəvi dirçəlişində, onların sağ qalmasında, bir-birinə hörmətlə və ehtiramla yanaşmasında sinkretizmin və multikultural dəyərlərin xüsusi rolu vardır. “Sinkretizm” qədim yunan sözü olub (yun. synkretismos – birləşdirmə deməkdir. Termin ilk dəfə Plutarx tərəfindən “Krit adalarının federasiyası” mənasında işlədilmişdir) “parçalanmaz”, “differensiasiyanın olmaması” mənalarını verir [3]. Sinkretizm dəyərlər sistemi baxımından müxtəlif mənşəli mədəni elementlərin qeyri-üzvi qarışığı kimi təzahür edir. Hələ ibtidai cəmiyyətin xarakterik elementi kimi ortaya çıxan sinkretizm belə bir anlama gəlir ki, təsərrüfat bacarıqları, ictimai həyat, ünsiyyət formaları, mentalitet, nəhayət, mədəniyyət və incəsənət Yer kürəsində indiyədək yaşamış və yaşayan insanlar üçün ümumi kökləri olan hadisə və nailiyyətdir. Onlar bilavasitə insanların birliyinə xidmət edir. Beləliklə, ibtidai mədəniyyətlərdən başlayaraq müasir mədəniyyətlərə qədər bəşəriyyətin bütöv bir sintez halında ifadəsi ortaya çıxır. Sinkretizm insan həyatının və fəaliyyətinin bütün sahələrinə həlledici dəyər kimi nüfuz edib. Məsələn, linqvistik sinkretizm (leksika və morfologiyada müxtəlif işarə və ifadələrin birliyi), dini sinkretizm (müxtəlif dinlərin və dini təlimlərin vahid dini sistemdə birləşməsi), fəlsəfi sinkretizm (müxtəlif mənşəli fəlsəfi təlimlərin bir sistem çərçivəsində sintezi) və s. İncəsənətdə sinkretizm ayrı-ayrı incəsənət növlərinin bir cərəyanda, yaxud istiqamətdə birləşməsində ifadə olunur.

Sənətkarlıqda isə sinkretizm konkret şəxsin, kollektivin, birliyin, cəmiyyətin, xalqın və s. bilik və bacarığının, elmi və praktiki təcrübəsinin vəhdəti kimi ortaya çıxır.

Qeyd etmək lazımdır ki, sivilizasiya tarixi sinkretizm prosesinin bilavasitə nəticəsi olsa da, çağdaş dünyada başqa şəxsiyyətin, başqa xalqın, başqa tarixin özündə yüksək dəyər ifadə etməsini, onun bəşəriyyətin inkişafı üçün son dərəcə zəruri olmasını, tanrının kainat miqyaslı mövcudat ideyasında inkarolunmaz yeri olmasını dərk etmək və qəbul etmək çətin, hətta təzadlı və münaqişəli prosesə çevrilmişdir. Bu əsasən onunla bağlıdır ki, tarixən xalqlar öz milli-mədəni ideyalarını təbliğ edərək inkişaf etmişlər. Müəyyən zaman kəsiyində bu onlar üçün mütərəqqi əhəmiyyət kəsb etsə də, milli özünüdərk prosesini sürətləndirsə də, unikallığın qorunmasına xidmət etsə də, müasir dünyada bəşəriyyət qarşısında başqa bir kainat miqyaslı tapşırıq durur - mövcud müxtəlifliyi və bu müxtəlifliyin birliyini qoruyub saxlamaq. Belə bir bəşəri tapşırığı layiqincə yerinə yetirmək üçün şəxsi və milli eqoizmi, eləcə də "üzdəniraq müstəsnalığı" inkar etmək tələb olunur. Bu isə, bilavasitə "multikultural dəyərlərin qorunması" kontekstində mümkündür. Multikultural dəyərlərin qorunması, ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada mədəni müxtəlifliyin qorunmasına və inkişafına yönəlmiş nəzəriyyə, ideologiya və siyasət kimi təzahür edir. Multikultural dəyərlərin qorunması etnik azlıqların və dini icmaların fəaliyyəti və inkişafı üçün real sosial-iqtisadi şəraitin, tolerant, mədəni mühitin yaradılması praktikasıdır, düşünülmüş siyasətə əsaslanan insanlıq aktıdır, filantropiyanın alicənablıqla sintez təşkil etdiyi fenomendir, bəşəriyyətin təhlükəsiz gələcəyinə hesablanmış ən mütərəqqi fəaliyyət növüdür. Bu isə bütöv bir mədəniyyətin və onun tərkib hissəsi olan milli-mənəvi dəyərlərin qorunması və inkişafı kimi nəcib bir fəaliyyət növü və eləcə də yüksək təşəkküllü nəcabətə əsaslanan sosial-mədəni davranışdır. Bununla əlaqədar olaraq etnosların antropoloji və milli-mənəvi xüsusiyyətlərinin öyrənilməsi də mühüm əhəmiyyət daşıyır ki, bu da "dünyada hökm sürən mürtəce millətçi-şovinist cərəyanların iddialarına" konkret və layiqli elmi cavab kimi ortaya çıxır [3].

Fəlsəfi baxımdan sinkretizm sintetik tarixi prosesdirsə, multikultural dəyərlərin qorunması analitik hadisədir. Hər ikisi bəşəri-mənəvi və milli-mənəvi dəyərlərin təşəkkülünə və inkişafına, milli mədəniyyətlərin formalaşmasına xidmət edir. Bu tarixi faktı əsaslı şəkildə sübut etmək üçün bir neçə nümunə gətirmək kifayətdir. Məsələm, manilik, yaxud manihəyya (canlı gəmi). Özündə xristianlığın, yəhudiliyin, buddizmin, induizmin, zərdüştlüyün və digər dini-fəlsəfi ənənələrin ən parlaq elementlərini birləşdirən bu təlim III əsrdən etibarən qüdrətli Sasani imperiyasının rəsmi ideologiyasına çevrilmiş və sonrakı dövrlərdə Avropadan Sakit okeana qədər böyük bir ərazidə yayılaraq hər hansı təzaddan təmizlənmiş bütöv bir mənəvi doktrina kimi insanların mədəni birliyinə xidmət etmişdir. Daha bir nümunə, 1556-1605-ci illərdə Böyük Moğollar imperiyasına rəhbərlik etmiş "Böyük Əkbər" kimi tanınan, ədalətli hökmdarın canlı təcəssümü, vicdan azadlığına və mərhəmətə xüsusi önəm verən Əbülfəth Cəlaləddin Məhəmmədin fəaliyyəti ilə bağlıdır. Çingizxanın və Teymurun nəslindən olan Əkbər böyük bir ərazidə yaşayan insanların mənəvi birliyini təmin etmək məqsədi ilə dini islahat keçirir (1579-1582) və "dini ilahi" adlanan, başlıca olaraq özündə islamın və induizmin, həmçinin buddizmin, xristianlığın və digər dini təlimlərin və mənəvi doktrinaların ən gözəl ənənələrini birləşdirən dini sistem yaradır. Böyük Əkbər bununla əlaqədar olaraq deyirdi: "Yalnız o inanc həqiqətdir ki, onu şüur təqdir edir. Bəzi ağılsızlar, "ənənə düşkünləri" sələflərinin adətlərini şüurun göstəricisi kimi qəbul edərək, özlərini əbədi rüsvayçılığa məruz qoyurlar" [1].

"Milli-mənəvi dəyərlər" və "milli mədəniyyət" anlayışlarını açıqlayarkən qarşımızda belə bir tarixi-ekzistensial mənzərə yaranır: Milli-mənəvi dəyərlər tarixi inkişaf prosesində toplanmış mədəni, mənəvi və əxlaqi dəyərlər sistemidir. Bu dəyərlərin formalaşmasına aşağıdakı faktorlar həlledici təsir göstərir: yaşayış məskəni, təbii-coğrafi və iqlim şəraiti, maddi nemətlərin istehsalı, qidanın əldə edilməsi, keyfiyyəti və mənimsənilməsi üsulları, ətraf mühit və s. Milli mədəniyyət isə tarixi cəhətdən müəyyən, konkret cəmiyyətin lokal mədəni dəyərləridir. Milli mədəniyyət, bir qayda olaraq tarixi sinkretizmin, sivilizasiyaların qarışmasının və müxtəlif mədəni elementlərin davamlı sintezinin nəticəsidir. Milli mədəniyyət xüsusi rəmzlərin, inancların, dəyərlərin, davranış normalarının toplusu kimi təzahür edir, bu, yaxud başqa ölkədə və dövlətdə insan birliyinin mənəvi həyatını xarakterizə edir. Onu da qeyd etmək lazımdır ki, bu dəyərlərin reallaşdırılması ayrı-ayrı

tarixi dövrlərdə insanlar arasında barışığa, qlobal və lokal miqyasda cəmiyyətin sabit inkişafına xidmət edib və bu proses bu gün də davam edir.

Beləliklə, bu gün minilliklər ərzində baş verən təbii prosesin məntiqi davamı baş verir. Çünki planetar miqyasda sivilizasiyaların inkişafının başqa ssenarisi mövcud deyil.

## Ədəbiyyat


1. 1.Абульфазль Аллами. Акбарнаме. Книга 6. Перевод И.Клубковой, А. Дунаева. Москва, Издательство Агни, 2011
2. Алаев, Л. Б. Средневековая Индия. СПб: Алетейя, 2003. 304 с.
3. Андерсон Бенедикт. Воображемые общества. Москва, 2001
4. Беляева Е.В. Исторические типы религиозного синкретизма. Брест, 2008
5. Зиммель Г. Конфликт современной культуры // Избр. произв. Т. 2. – М.: Юность, 1996, 608 с.
6. Кравчук Л. А. Синкретические религиозные учения: история современность // Религиоведение, 2002, № 4, с.141-145
7. Митрохин Л.Н. Религия и культура. М.: ИФРАН, 2000, 318 с.
8. Тейлор Э.Б. Первобытная культура. М.: Политиздат, 1989, 573 с.


UOT 316.33

## Dialoq konsepsiyası multikultural cəmiyyətin əsası kimi

*Yusifova Mətanət Rizvan qızı*
*Mingəçevir Dövlət Universiteti*

Qloballaşma müasir dünyanın inkişaf proseslərini səciyyələndirən əsas anlayışlardandır. Bəşəriyyətin üzləşdiyi yeni reallıqlar ictimai həyatın ən müxtəlif sahələrində özünü göstərən qloballaşma proseslərinin sürətlə getməsi və qarşılıqlı əlaqəsi ilə müəyyən edilir. Buna görə də bütün dünyanın taleyi, həmin proseslərin harmonik inkişafından bilavasitə asılıdır.

Qloballaşma bir tərəfdən vahid iqtisadi, siyasi, informasiya məkanının formalaşması üçün real imkanlar açırsa, digər tərəfdən, o, müxtəlif inkişaf mərhələlərində, necə deyərlər "müxtəlif start vəziyyətləri"ndə olan unikal mənəvi, mədəni dəyərlərə malik birliklər qarşısında ciddi tələblər qoyur. Bir sıra hallarda qloballaşma mədəniyyətlər arasında mövcud münaqişələrin kəskinləşməsi, yeni münaqişələrin yaranması, milli ənənələrin sıradan çıxması ilə nəticələnir. Ümumiyyətlə, qloballaşma və inteqrasiya proseslərindən ən çox ziyan çəkən də məhz milli-mənəvi dəyərlər olur. Qloballaşan dünyada mədəniyyətlərin rəqabətində yalnız əksər insanların mənəvi tələbatlarına və arzularına cavab verən mədəniyyətlər öz üstünlüklərini qoruyub saxlayırlar. Mədəniyyətlər buna təkcə öz milli xüsusiyyətlərini və fərqliliklərini mütləqləşdirməklə deyil, həm də ümumbəşəri tələblərə və məqsədlərə, universal dəyərlərə istiqamətlənməklə nail ola bilərlər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qeyd etdiyi kimi, qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur [1]. Buna baxmayaraq qloballaşma qaçılmazdır, ondan yayınmaq, imtina etmək mümkün deyildir. Obyektiv olaraq qloballaşma bəşəriyyətin vahidliyinə, vahid dünya sivilizasiyasının, yaxşı mənada bəşər mədəniyyətinin təşəkkül tapmasına gətirib çıxarmalıdır. Təəssüf ki, hələlik qloballaşma bəşəri dəyərlərin vəhdətinə aparsa da, bu, əsasən kütləvi, istehlak mədəniyyətinin dəyərləridir. Bəşəriyyətin vəhdətinə alternativ yoxdur, əks halda o, müxtəlif sivilizasiyaların, mədəniyyətlərin rəqabəti, mübarizəsi nəticəsində məhv ola bilər. Ona görə də qloballaşma prosesinin perspektivləri hamımızı düşündürməlidir.

Dünyada gedən mədəni qloballaşma prosesinin əsas təzahürlərindən sayılan multikulturalizmin də dəyərləndirilməsi zərurəti yaranır. Multikulturalizm sosial-mədəni davranışın və müvafiq siyasi strategiyanın modeli kimi nəzərdən keçirilir. Ənənəvi olaraq multikulturalizm bir

dövlət, cəmiyyət daxilində çoxmədəniyyətliliyin mövcudluğunu bildirir. Multikulturalizm bütün millətlərin, milli azlıqların, etnik qrupların birgəyaşayışının milli barışığının və vətəndaş sülhünün təminatçısıdır. Ən ümumi aspektdə multikulturalizm siyasi ideologiya və sosial-mədəni praktika kimi milli dövlət üçün ümumi olan siyasi, sosial və hüquqi məkanı dəstəkləyən ideyadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2010-cu ilin oktyabrında Bakıda "XXI əsr: ümidlər və çağırışlar" devizi ilə keçirilmiş Beynəlxalq Humanitar Forumundakı çıxışında demişdir: "Multikulturalizmin alternativi yoxdur. Multikulturalizmin alternativi özünütəcriddir. Mən inanmıram ki, XXI əsrdə qloballaşan dünyada hər hansı bir siyasi qüvvə özünütəcrid siyasətini aparmağa cəhd etsin. Multikulturalizmin dəyərləri, əsasları möhkəmləndirilməlidir" [2]. Milli-etnik mənsubiyyətindən asılı olmayaraq Azərbaycan dövlətinin vətəndaşı olmaqdan qürur duyan hər kəs üçün Azərbaycan doğma vətəndir. Heydər Əliyevin qeyd etdiyi kimi, respublikanın ən başlıca sərvəti qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirirsə, bir o qədər zəngin olar [3]. Azərbaycanın polietnikliyi dövlətimizin, xalqımızın tolerantlığının, humanistliyinin əyani sübutudur. Əks təqdirdə bəzilərinin sayı bir neçə min nəfəri təşkil edən bu azsaylı etnik qruplar və xalqlar çoxdan assimilyasiya olunaraq dünyanın etnik xəritəsindən silinmiş olardı. Onların dilini, mədəniyyətini, etnik varlığını qoruyub saxlayan, milli hüquqlarının təminatında olan, bununla da planetin mozaik etnik mənzərəsini daha da zənginləşdirən məhz Azərbaycan dövlətidir. Əslində bu etnomədəni müxtəliflik xalqımızın bədxahlarına verilən ən tutarlı cavabdır.

Ölkəmiz etno-mədəni münasibətlərin unikallığı baxımından dünyaya əsl örnək ola biləcək təcrübəyə malikdir. Bu gün Azərbaycan Respublikasında bütün xalqların etnik-milli hüquqları ən yüksək səviyyədə qorunur. Burada millətlərarası münasibətləri tənzimləyən mütərəqqi milli qanunvericilik sistemi, həyata keçirilən milli-mədəni siyasət dilindən, dinindən, irqindən, etnik mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquq və azadlıqlarını tam təmin etməyə imkan verir.

Hazırda bəşəriyyət öz inkişafının elə səviyyəsinə gəlib çatmışdır ki, sosial həyatın əsas məsələlərini mədəniyyət amilini nəzərə almadan həll etmək mümkün deyildir. Müasir şəraitdə mədəniyyətin statusu və rolu, hər bir sosial qrupun mədəni potensialı artmağa başlayır, mədəniyyət əsas birləşdirici qüvvəyə çevrilir. Bu amil mədəniyyətlərarası dialoqun əhəmiyyətini daha da artırır. Çünki dialoq həm xalqlar arasında qarşılıqlı əlaqənin əsası kimi, həm də onların mədəni potensialının üzə çıxarılması vasitəsi kimi çıxış edir. BMT Baş Məclisinin 2001-ci ili sivilizasiyalararası dialoq ili, 2010-cu ili Beynəlxalq Mədəniyyətlərin yaxınlaşması ili elan etməsi, "Sivilizasiyalar alyansı" və digər beynəlxalq təsisatların təşəbbüsləri dünyada mədəniyyətə və mədəni dialoqa verilən önəmi bir daha sübut edir.

Dialoq, tamamilə yeni mədəni-tarixi proses olub, mədəniyyətlər, sivilizasiyalar, xalqlar, ölkələr arasındakı münasibətlərin yeni paradiqması, sülh və dinc yanaşı yaşamaq uğrunda hərəkatdır. Dialoq müxtəlif dövlətlər arasında qarşılıqlı anlaşma və əməkdaşlıq, mədəniyyətlər arasındakı münaqişə və toqquşmaların qarşısının alınması, XXI əsrdə bəşəriyyət qarşısında duran qlobal problemlərin uğurlu həlli vasitəsidir." Bəşəriyyətin məhvinin qarşısını alacaq yeganə vasitə dialoq və əməkdaşlıqdır" fikri bütün insanların düşüncəsinə hakim kəsilməlidir. Bu ideya bütün ölkələrdə humanitar təhsilin əsasına çevrilməli, kütləvi informasiya vasitələri, bədii ədəbiyyat bunu təbliğ etməlidir.

Dialoq insan həyatının mühüm aspektidir. Dialoq təkcə danışıqlar aparmaq demək deyildir. Əgər danışıqlarda iştirakçı tərəflər öz mənafelərini təmin etməyə çalışırlarsa, dialoqda, əksinə, iştirakçılar həqiqəti birgə axtarmağa can atırlar. Dialoqun məqsədi fərqləri müəyyənləşdirmək və tərəflərin mövqeyini daha da yaxınlaşdırmaqdır. Onun köməyi ilə daha az əhəmiyyətli fərqlərə hörmət etməklə mədəniyyətləarası dəyərlərin vəhdətinə nail olmaq mümkündür. Beynəlxalq münasibətlərin bütün subyektlərinin mədəni dialoqa cəlb edilməsinə səy göstərməklə, mədəniyyət və dialoqun siyasiləşdirilməsinə yol vermək olmaz, əksinə, siyasətin mədəniləşdirilməsinə, beynəlxalq məsələlərdə mədəni-etnik problemlərin, mənəviyyatın, ədalətin, intellektual mədəni varisliyin bərqərar olmasına çalışmaq lazımdır. Məsələn, sirr deyildir ki, uzun illərdir Avropa xalqları amerikan kütləvi mədəniyyətinin müdaxiləsinə qarşı açıq şəkildə mübarizə aparırlar. Ona

görə də qlobal mədəniyyətin digər mədəniyyətləri udan monstr kimi qavranılmaması üçün bütün bəşəriyyətin ümumi sərvəti olan mənəvi prinsiplər hamının həyat tərzinə çevrilməlidir.

Mədəniyyətlərin, sivilizasiyaların dialoqunda hər bir xalq malik olduğu mədəni irsi, mənəvi potensialı ilə iştirak edir. Millətlərin zəngin irsini dərk edib mənimsəmədən bəşəriyyətin gələcək inkişafını aydın təsəvvür etmək mümkün deyildir. Mənəvi irs yalnız tarix və mədəniyyət deyildir, o keçmişi indi ilə bağlayan və indini daha yaxşı gələcəyə can atmağa məcbur edən birləşdirici halqadır. Bu, gələcək nəsillərə ötürmək üçün bizə əcdadlarımızdan qalan qiymətsiz mənəvi xəzinəni sevməyə və qorumağa vadar edən qüvvədir [4]. Keçmişin mənəvi irsinə arxalanmadan, onları milli və ümumbəşəri tarixi yaddaşa daxil etmədən qlobal sivilizasiyanın təşəkkül tapmasına nail olmaq mümkün deyildir. Ona görə də ümumbəşəri tərəqqiyə çatmağın əsas yollarından biri də xalqların zəngin mədəni irsinin, mədəni müxtəlifliyinin qorunması, onlar arasında mədəni əməkdaşlığın inkişaf etdirilməsi olmalıdır [3].

Dialoq konsepsiyası terrorizmi, müharibələri, münaqişələri, zorakılıqları beynəlxalq və ölkədaxili münasibətlər praktikasından çıxara biləcək yeganə yoldur. Azərbaycan dövlətinin bu istiqamətdə həyata keçirdiyi siyasət, atdığı addımlar təkcə bizim milli maraqlarımıza deyil, bütün bəşəriyyətin ümdə maraqlarına cavab verir və getdikcə daha çox beynəlxalq birlik tərəfindən dəstəklənir. Dialoq, həm də müxtəlif mədəni ənənələrin qarşılıqlı hörməti, qarşılıqlı anlaşması və təsiri kimi də başa düşülməli, hər hansı dəyərlər sisteminin birtərəfli üstünlüyünə yol verilməməli, bərabərhüquqlu tərəfdaşların əməkdaşlığı şəraitində həyata keçirilməlidir. Bu isə, ilk növbədə, bir sıra ümumi dəyərlərin – insan ləyaqətinin, vicdanın, azadlığın, ədalətin, demokratiyanın, bərabərliyin – hamı tərəfindən qəbul edilmiş prinsiplərin mövcudluğunu tələb edir. Əks halda, heç bir mədəniyyət ayrılıqda potensial çağırışlar qarşısında tab gətirə bilməyəcəkdir.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin dəstəyi ilə həyata keçirilən beynəlxalq mədəni tədbirlər, Heydər Əliyev Fondunun, Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü sayəsində Azərbaycanda və bir sıra xarici ölkələrdə baş tutmuş digər mədəni forumlar mədəniyyətlər arasında dialoq prosesinin daha da dərinləşməsinə, genişlənməsinə kömək etməklə yanaşı, ölkəmizin bu prosesdə öz tarixi-coğrafi missiyasını daha səmərəli şəkildə həyata keçirməsinə, dialoq mədəniyyətinin şüurlarda kök salmasına xidmət edir.

Beləliklə, mədəniyyətlərarası dialoq tarixin bütün dövrlərində, bütün cəmiyyətlərdə aktual olmuşdur. Bu gün ölkələrin qarşısında duran ən mühüm məsələlərdən biri də qloballaşma şəraitində milli mədəniyyətlərin gələcək taleyi ilə bağlı məsələlərdir. Qloballaşan mədəniyyətlə milli-mədəni dəyərlərin dinc yanaşı yaşaması mümkündürmü? Qloballaşmanın doğurduğu bu və ya digər suallara cavabı bütün bəşəriyyət axtarmalıdır. Bunun üçün isə əsas şərt yenə də mədəniyyətlərin dialoqudur. Azərbaycan dövlətinin mövqeyi milli mədəniyyətlərin, dünyanın mədəni müxtəlifliyinin qorunub saxlanılmasının bəşəriyyətin sabit və dayanıqlı inkişafı üçün əsas şərti olması və bütün xalqların, dövlətlərin, beynəlxalq qurumların bunun üçün öz səylərini birləşdirməsidir. Qloballaşmanın ən məqbul modeli bütün xalqların öz milli mədəni özgünlüyünü saxlamaqla bu prosesdə iştirak etməsini təmin edən modeldir. Buna nail olmağın əsas yollarından biri də bütün dünyada çoxmədəniyyətliliyin, multikulturalizmin və dialoqun hamı tərəfindən bir konsepsiya kimi qəbul olunmasıdır. Cari ilin aprel ayında (25-27 aprel) Bakıda BMT-nin Sivilizasiyalararası Alyansının 7-ci Qlobal Forumu keçiriləcəkdir ki, bu da dediklərimizin təsdiqi üçün kifayətdir.

**Ədəbiyyat:**


1. Əliyev İ. II Bakı Beynəlxalq Forumunda çıxış, “Azərbaycan” qəzeti, 2010, 10 oktyabr.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. Çoxcildlik, I cild, B.: Azərnəşr, 1997, 612 s.
3. Cəfərov N. Azərbaycanşünaslığa giriş. B.: Bakı Dövlət Universiteti Nəşriyyatı, 2001, 120 s.
4. Gələcək gənclərindir. red. Ə.M.Qarayev. B.: Azərbaycan Nəşriyyatı, 2004, 496 s.

UOT 398:801.6

**Milli-mənəvi dəyərlərimiz: "Qarabağnamələr"in dəyər sistemində Şuşa epik vətən kimi**

*İsmayılova Mətanət Məmməd qızı*
*Mingəçevir Dövlət Universiteti*

Hər bir milli dövlətin dəyərlər sistemi milli tarixə və tarixi mətnlərə istinad etdikdə faydalı nəticələr verir. Bu baxımdan, tarixi salnamələr xalqın ictimai-siyasi tarixində taleyüklü, mühüm və vacib hadisələri bədiiləşdirir və öz yaddaşına köçürərək hifz edir. Bu cəhətdən, folklorun tarixi aspektdən öyrənilməsi hər zaman aktual mövzudur.

Qarabağ tarixinə aid olan bu salnamə – "Qarabağnamələr" XIX əsr Azərbaycan tarixi diskursunun janrları olsalar da, süjet yaradıcılığı və xronotop təşkilində folklor substratı dayanır. Tarixi təcrübənin əsas qaynaqlarından biri folklor yaddaşıdır. S.Rzasoyun dediyi kimi, "folklor – xalqın yaddaşıdır: fərdi yaddaşı, etnos yaddaşı, millət yaddaşı və xalq yaddaşı... Xalqın varlığı söz və sənət kodları ilə onun yaddaşında inikas olunur... Yaddaş "qalar-qopar" dünyada "gəlimli-gedimli" ritmlə öz yaşamını gerçəkləşdirən xalqın fiziki-mənəvi mövcudluğunun fövqünə qalxır: yaddaşı yaradan xalqın mövcudluğu yenə də birbaşa onun yaddaşına müncər olunur... Milli yaddaşda millətin tarixi bütöv xalqın taleyindən keçdiyi kimi, hər bir fərdin taleyindən də keçib gələcəyə gedir... Folklor xalqın taleyidir: hər bir etnosun taleyi onun milli yaddaşa nə dərəcədə bağlılığından asılıdır. Yaddaşına qayıda bilən xalq onu millətlər içində millət edən zirvəyə qalxa bilir... Hər bir xalqın bir millət kimi bütövlüyü, ölkə kimi tamlığı və təhlükəsizliyi etnokosmik yaddaşın onu hansı şəkildə ayaqda saxlamasından birbaşa asılıdır..." [1].

"Qarabağnamələr" öz dövrünün tarixi-bədii düşüncə kodunu gerçəkləşdirməklə "tarix" janrında yazılmışdır. Tarixilik mifoloji düşüncənin əsas mahiyyəti formalarından biridir. Müəlliflər üçün mifin varlığı əslində tarixi həqiqətin ifadəsidir. "Qarabağnamələr"in baş qəhrəmanı əfsanəvi Qarabağ xanı Pənah Əli xandır.

Pənah xan mədəni qəhrəman funksiyasını yerinə yetirir. Mədəni qəhrəman əcdad arxetipinin formalarından biridir. Mədəni qəhrəman toplumun sabitliyini, rifahını və ritualını birləşdirən mifoloji personajdır. Mədəni qəhrəman öz varisləri üçün ədalətli qanunlar və ya mühüm sosial təsisatlar yaradır.

Pənah xan salnamələrdə epik ənənəyə uyğun olaraq əcdad arxetipinin təzahürü kimi çıxış edir, mədəni qəhrəmana xas olan bir sıra atributlar daşıyır və funksiyaları yerinə yetirir: qalalar tikir, kəndlər salır, Şuşanı bina edir, Qarabağ xanlığının dövlət sərhədlərini müəyyənləşdirir. Mirzə Camal belə yazır: "...Məşvərətdən sonra, Kəbirli mahalı içində olan Bayat qalasının əsası qoyuldu. Qısa bir zaman möhkəm hasar və xəndək düzəldildi, bazar, hamam, məscid tikildi, xan bütün ailəsini, qohumlarını və el böyüklərinin əhl-əyalını oraya topladı. Ətrafda olan camaat hətta xanın tərəqqisini, onun rəftar və məhəbbətini eşidən Təbriz və Ərdəbil vilayətlərinin bir çox əhalisi və sənətkarları belə öz ailələri ilə birlikdə gəlib Bayat qalasında yerləşdilər" [2].

Pənah Əli bəyin bütün həyatı və fəaliyyəti dastan qəhrəmanlarının yolunu xatırladır.

Qəhrəman sanki öz mübarizəsini adətən təkbaşına davam etdirir.

Başlanğıcda qəhrəmanın tək olması, macəraları eposun süjet məntiqinə və fəlsəfəsinə uyğun olur, dastanların təməl qaydalarından biri olan bir səhnədə ancaq iki şəxsin olması və digər bir təməl, qanun olan əkslik təşkil etməsi qaçılmazdır. Yəni diqqət daima əsas qəhrəmanın üzərində olmalıdır.

Pənah Əli xan da epos qəhrəmanı kimi düşmənlərlə təkbaşına mübarizə aparır. O, başqa xanların ciddi müqaviməti, təhdidləri, düşmənçiliyi ilə Talış, Xəmsə və Giləbərd məliklərinin fitnə-fəsadı ilə üzləşir. Məsələn, Bayat qalasında məğlubiyyət acısını unutmayan Şəki xanı Hacı Çələbi xanın da hədələri, təhdidləri azalmır. Ancaq o bütün düşmən qüvvələrlə çətin savaşlar keçirib onlara qalib gəlir.

Mirzə Adıgözəl bəy yazır: "(Pənah xan) İran, Rum (Türkiyə) padşahlarına və sair ölkələrin hökmdarlarına boyun əyməmiş, Qarabağ, Şəki, Şirvan, Təbriz, Naxçıvan, Ərdəbil, Xoy, Marağa, İrəvan və İraqla Azərbaycan hüdudlarında olan Qaplan kaya qədər hökmdar oldu. Bu vilayətlərin hakimlərini işdən götürmək və yenisini təyin etmək də onun hökm və fərmanı ilə icra edilirdi" [2, 48]. İbrahimxəlil xanın var-dövlətinin, cah-calalının İran padşahından qat-qat zəngin olması fikri səslənir ki, bu da folklor düşüncəsində mübaliğə arxetipindən gəlir.

"Qarabağnamələr"də Qala (Şuşa qalası) epik məkanın obrazı kimi təqdim edilir. Salnamə təfəkkürü epik mərkəzin seçimini "Epik məkan modelinin onurğasını, əlbətdə, epik vətən anlayışı təşkil edir. Epik vətən bir qayda olaraq, dünya modelinin şaquli və üfüqi planlarının kəsişdiyi orta nöqtədə yerləşir. Qəhrəman buradan dörd tərəfə və aşağı-yuxarı istiqamətlərdə hərəkət edərək fəaliyyətini gerçəkləşdirir. Epik vətən bütün parametrlər mifoloji dünya modelinin bir manifestasiyasıdır. Mifologiyada olduğu kimi, epik məkann modelində də yer üzü ilin saktel mərkəz ətrafında konsentərk dairələr şəklində nizamlanır. Qəbiləyə, boya aid ərazi ("doğma vətən") sakral səciyyə daşıyır (qutsaldır): bu ərazi "mistik enerjinin" yüksək səviyyədə olduğu xüsusi bir məkandır (bax: Acaloğlu, 119-120) Türk dastanlarında "Oğuz eli", "Çənlibel", "Kan Altay", "Çideli Baysun" və s. epik vətən adları keçir.

"Koroğlu"da Çənlibel də belə təsvir olunur. Dastanın birinci qolunda Rövşən atasına deyir: "Ata, bura hər tərəfi sıldırım qayalıq, çənli, çiskinli bir dağ belidir". M.H.Təhmasib eposun "Koroğlu" hekayəsi adlı variantına istinad edir: "Dağlar kibi yığdığı daşın yetişəcək miqdarda olduğunu görüncə binayə başlayıb qırq arşın yüksəklikdə bir qüllə yapdı. Binanın alt qatında dört oda ev üst qatı dört tərəfi mazğallı bir qələ idi" [3].

Mirzə Adıgözəl bəyin əsərində də bu məkan quruculuğu aktı təsvir olunur: "bundan sonra Pənah xan düşündü ki, mən təzə binə bir adamam. Cavanşir və otazını elatı yağı, xəmsə məliklər də mənə düşməndirlər. Mən gərək möhkəm bir yerdə məskən və mənzil salam. Düşməni dəf etməkdə kahallıq və fəsad əhli ilə mübarizədə səhlənkarlıq etməyəm. Buna görə də Bayat şəhərini dağıtdı və gəlib bu təpənin ətəyində Şahbulaq adı ilə məşhur olan Tərnəkütdə bir qala bina etdi. Daş və əhəngdən məscidlər, evlər, çarşı və hamamlar tikdi. Bu işlər 1165-ci ildə bitərək oranı özünə məskən etdi" [2].

"Koroğlu"nun A.Xodzko variantında deyilir: "Az bir müddətdə balaca Şamlıbel kəndi 800 ailəli bir şəhərə çevrildi" [3].

Şuşa üçün məkan seçimi Çənlibelin seçiminə bənzəyir: "Şuşa dəniz səviyyəsindən 1800-2000 metr yüksəklikdə olan və üç tərəfdən təbii müdafiəsi olan, meşələrlə örtülmüş, bir tərəfdən uçurum, digər tərəfdən sıldırım qayalarla əhatə olunmuş bir yerdə bərqərar olur." Xanın (Pənah xanın) bir neçə nəfər bilici və məlumatlı adamı gedib, qalanın yerini və ətrafını yoxladı. Qalanın içində iki-üç bulaqdan başqa axar su yox idi. Bu bulaqların suyu isə qala camaatına kifayət etməzdi. Ona görə duman gələn yerlərdə quyu qazdırıb, müəyyən etdilər ki, buranın bir çox yerlərində su quyuları qazmaq mümkündür.

Bu xəbəri mərhum Pənah xana çatdırdılar. Xan sevinərək, bir neçə nəfər öz yaxın adam ilə buraya gəldi, yerlə tanış olub, əzmlə qalanın əsasını qoydu" [2].

Digər versiyaya görə mövcud siyasi durum qeyri-sabitliyi ilə əlaqələndirilir. Pənah xanın işgüzar bacarıqlı adamları yığışıb ona məsləhət görürlər: "Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daima açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz (bir an belə) kəsilməməlidir [2].

Mirzə Adıgözəl bəy Şuşa qalasının işğalından sonra Pənahəli xanın daha da gücləndiyini, qüdrətli hökmdara çevrildiyini qeyd edir: "Meqri, Güney mahallarını Bərgüşada qədər Qarabağ hakiminin əlindən alıb özünə tabe etdi. Tatev və Sisyan mahallarının Təbriz bəylərbəyisindən aldı. Kolamların məskəni olub, Uşacıq kəndindən Göyçə sərhədinə qədər uzanan Tərtərçay sahilindəki yerləri İrəvan hakimindən aldı. Gəncə hakimlərinə aid və Xudafərin körpüsündən Kürək çayına qədər olan yerləri də öz əlinə keçirdi" [2].

Mirzə Camal göstərir ki, Pənahəli xan Xaçın məlikliyinin düşmənçiliyinə, fitnə-fəsadlarına silah yolu ilə son qoyduqdan sonra Şahbulaq adı ilə məşhur olan Tərnəküt qalasının binasını qoydu.

Xanın müşavirləri olan əyan-əşrəfin məsləhəti ilə Barat qalası tərk olundu. Şahbulaqdakı bəyin çeşmə yanında qalası tikildi. Onun ətrafında yüksək yerlər boyunca hündür qaladivarları hörüldü, bazar, çarşı, hamam və məscid tikildi. Hicri tarixi ilə 1165-ci il (1751-1752-ci illər) elat camaatının bütün evləri, sənətkarları, xanın yaxın adamları və xidmətçiləri (ailəsi) Şahbulaq qalasına köçürüldü" [2].

Bu faktı Əhməd bəy Cavanşir də təsdiqləyir, Pənahəli xanın öz iqamətgahını Bayat qalasından Şahbulaq qalasına köçürüldüyünü yazır.

Mirzə Adıgözəl yazır: "Sonra Pənah xan öz ailəsi üçün uca imarətlər və geniş binalar saldırdı. Hünərli ustalar, sənət sahibi və işbilən memarlar barı, hasar, bürc və divar çəkdilər. O divarların hasarı, bəzi yerlərdə indi də durur [2].

Beləliklə, epik vətən obrazı salnamələrdə qəhrəman surətinə təsir etmişdir. "Qarabağnamələr"də Şuşa Pənah xan obrazının tərkib hissəsidir.

## Ədəbiyyat


1. Axundov N. Qarabağ salnamələri. Bakı, Yazıçı, 1989, 232 s.
2. Rzasoy S. Ədəbiyyat və mifologiya / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XXX kitab. Bakı, 2003, 200 s.
3. Qarabağnamələr. Bakı, 1989, 214 s.
4. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 399 s.
5. Леви-Строс К. Структурная антропология М.: Наука, Глав. Ред. Вост. Лит., 1985, 536 с.


UOT 930.22

## Azərbaycan və Türkiyə arasında mədəni əməkdaşlıqda mədəniyyət günlərinin əhəmiyyəti

*Məmmədov Zaur İbrahimxəlil oğlu*
*Lənkəran Dövlət Universiteti*

Azərbaycanla Türkiyə arasında mədəniyyət sahəsində əlaqələrinin inkişafına nəzər salarkən, ən başlıcası onu qeyd etmək lazımdır ki, Türkiyə - Azərbaycan mədəni əlaqələri təkcə dövlətlərimiz arasında deyil, insanlarımız arasında da inkişaf etməkdə və genişlənməkdədir. Bu artıq qarşısında heç kəsin dayana bilməyəcəyi bir axına çevrilmişdir. Qarşılıqlı olaraq, hər iki ölkənin mədəniyyət və insəcənəti təbliğ edilir. Bu baxımdan tədqiq olunan illərdə iki ölkə arasında mədəniyyət bağlı əlaqələrimiz genişləndikcə, ölkələrimiz, xalqlarımız arasındakı münasibətlər inkişaf edir, qloballaşma dövründə Türk Dünyasının yeri möhkəmlənir.

Bildiyimiz kimi, mədəniyyət günlərinin əsas məqsədi hər hansı bir ölkədə Azərbaycanın mədəniyyət və incəsənətini tanıtmaqdır. Gəlin etiraf edək ki, dünyanın heç bir xarici ölkəsində Azərbaycan mədəniyyəti, incəsənəti, musiqisi Türkiyədəki kimi davamlı şəkildə təmsil olunmur. Bunun üçün, ilk növbədə, tarixən mövcud olmuş intensiv mədəni əlaqələri yaşadan insanların fəaliyyətini yüksək qiymətləndirmək lazımdır. Niyazinin, Rəşid Behbudovun, Zeynəb Xanlarovanın Türkiyədə çıxışları, konsertləri möhtəşəm bir bayrama çevrilmişdir.

Sovet hakimiyyəti illərində Azərbaycanla Türkiyənin birbaşa mədəni əlaqələri 1987-ci ildə baş tutdu. Belə ki, 1987-ci ilin iyulunda Azərbaycan Respublikasının Mədəniyyət Naziri Zakir Bağırov Türkiyənin Mədəniyyət Naziri Məsud Yılmazla Ankarada görüşdü və bu görüşdə iki qardaş ölkə arasında mədəni əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olundu. 1990-cı ilin yanvar ayında Azərbaycanın Mədəniyyət Naziri Polad Bülbüloğlu ilə Türkiyənin Mədəniyyət Naziri N.K.Zeybək arasında mədəni əməkdaşlıq haqqında imzalanmış sazişə əsasən elə həmin ildə Türkiyədə Azərbaycanın mədəniyyət günləri keçirildi. Tədbirdə Türkiyə əhalisi Azərbaycanın bir

çox görkəmli mədəniyyət və incəsənət xadimləri ilə yaxından görüşmək imkanı əldə etdilər. Bu əlaqələrin reallaşmasında «Vətən» cəmiyyətinin, xüsusilə həmin cəmiyyətin sədri Elçin Əfəndiyevin xüsusi xidmətləri olmuşdur.

1991-ci il oktyabrın 18-də Azərbaycan öz dövlət müstəqilliyi bərpa etdikdən sonra, ölkəmiz müasir beynəlxalq münasibətlərdə iştirakı üçün əlverişli şərait yaratdı. Bu şəraitdən istifadə edən Azərbaycan Respublikası müasir dünya reallıqlarını və xalqın milli mənafelərini nəzərə alıb fəal xarici siyasət yeritməyə başladı.

1993-cü ildə Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanla Türkiyə arasında münasibətlər yüksələn xətlə inkişaf etməyə başladı. İki ölkə arasında mədəni əlaqələrinə böyük töhfələr bəxş etmiş Heydər Əliyev deyirdi ki, "Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir. Biz bütün imkanlardan istifadə etməliyik ki, mədəni-humanitar və digər əlaqələr lazımı səviyyədə inkişaf etdirilsin. Türk xalqı ilə Azərbaycan xalqının tarixində, milli ənənələrində, mədəniyyətində çox oxşarlıq var. Ona görə də Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin sıx olması təbii bir haldır" [1].

1994-cü ildə Ankarada "Çankaya" köşkündə Azərbaycan Prezidentinin şərəfinə verilən ziyafətdə söylənilən bu fikirlər sonralar əlaqələrimizin inkişaf etdirilməsi üçün hədəf seçilən bir mayaka çevrilmiş, irəliyə doğru hərəkətə istiqamət vermişdir. Səfər zamanı Heydər Əliyev TBMM-də çıxış edərək demişdir: "Türkiyə ilə Azərbaycan arasında əlaqələrin böyük tarixi var. Biz kökü bir olan xalqdır. Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir. Əsrlər boyu xalqlarımız bir-birinə oxşayan, yaxud azca fərqlənən adət və ənənələrini, mədəniyyət və elmini qoruyub saxlamış və inkişaf etdirmişdir. Əsrlər boyu xalqlarımız bir olmuş, çiyin-çiyinə vermişlər. Azərbaycan ilə Türkiyə arasında əlaqələri dostluq, qardaşlıq əlaqələri adlandırmışlar. Bu əlaqələr bir xalqdan, bir kökdən gələn xalqların əlaqələridir. Bu, keçmişdə də belə olmuşdur və əlaqə saxlamağa imkanımız olmadığı vaxtlarda da qəlbimizdə məhz belə olmuşdur, indi də belə olaraq qalır. Ona görə də tariximiz, milli köklərimiz, adət və ənənələrimizin hamısı bizi bir-birimizə sıx bağlayıbdır. Əsrlər boyu tarixin bütün mərhələlərində bizi bir-birimizdən çox ayırmağa çalışsalar da, buna müvəffəq olmamışlar. Odur ki, bundan sonra da heç bir qüvvə bizi bir-birimizdən ayıra bilməyəcəkdir"[1].

Müasir mərhələdə əsasi Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan-Türkiyə mədəni əlaqələri son dövrdə daha yüksək templə inkişaf etməkdədir, bunu son vaxtlarda dövlət və hökumət rəhbərləri səviyyəsində, cəmiyyətlər və diasporlar əməkdaşlığında qeyd edilən tədbirlər də təsdiqləməkdədir. 2007-ci il martın 9-da Heydər Əliyev adına Sarayda Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumun Azərbaycan Prezidenti İlham Əliyev bəyan edirdi ki, Türkiyəni Azərbaycanla birləşdirən tarixi əlaqələr çox güclüdür. Həm siyasi, həm də iqtisadi, mədəni, hərbi – bütün sahələrdə bizim aramızda ən yüksək iş birliyi, anlaşma var. Belə forumların keçirilməsi bizim birliyimizi daha da gücləndirir. Bütün türk dünyasının birliyini gücləndirir. Biz böyük qüvvəyik. Gərək elə edək ki, maraqlarımız tam şəkildə təmin olunsun, bizi narahat edən problemlər aradan qaldırılsın, ədalət zəfər çalsın və xalqlarımız rahat yaşasınlar. Biz buna layiqik və birgə səylərlə, birgə işlərlə buna nail olacağıq. Bu gün Azərbaycana bütün türk dünyasının nümayəndələrinin və qonaqlarının gəlməsi bu gözəl birliyin əyani sübutudur. Öz maraqlarımızı təmin etmək üçün biz güclü olmalıyıq [2].

Müstəqillik dövründən ötən illərdə Azərbaycanla Türkiyə arasında mədəniyyət sahəhəsində əməkdaşlıq yüksək səviyyədə inkişaf etməsinə baxmayaraq, təəssüflər olsun ki, iki ölkə arasında mədəniyyət sahəsində əlaqələnin inkişafına ciddi təsir göstərən mədəniyyət günləri digər dövlətlərlə müqayisədə çox az təşkil edilmişdir. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Azərbaycan indiyə qədər dünyanın 40 ölkəsində mədəniyyət günləri keçirib. Lakin Türkiyə ilə əlaqələrimiz yüksək səviyyədə olduğu halda, indiyədək qardaş ölkədə belə bir dəbdəbəli tədbir düzənlənməyib.

Lakin bütün bunlara baxmayaraq Azərbaycanın uğurlu göstəriciləri arasında mədəniyyət sahəsində əldə etdiyi nailiyyətlər də diqqət çəkməkdədir. Dövlətin milli-mənəvi dəyərlərimizə, bütövlükdə ədəbiyyatımıza, mədəniyyətimizə, incəsənətimizə göstərdiyi qayğı müstəqil Azərbaycanın mədəni həyatında əsaslı yüksəlişə səbəb oldu. Ölkəmizdə çox vacib beynəlxalq və respublika miqyaslı hadisələr bunu bir daha təsdiqləyir. Ötən il ərzində Azərbaycanda mədəniyyət

sahəsində 150 dövlət əhəmiyyətli tədbir keçirildi. Ümumilikdə, 2010-cu il Azərbaycan mədəniyyəti tarixinə töhfələr ili kimi daxil olmuşdur [6].

Bu baxımdan, Azərbaycan mədəniyyətinin və turizm potensialının müxtəlif ölkələrdə tanıdılması, yurdumuzun dünyanın mədəniyyət və turizm məkanına geniş inteqrasiyası, milli mədəni irsimizin, dəyər və sərvətlərimizin qorunub saxlanılması, inkişaf etdirilib gələcək nəsillərə çatdırılması istiqamətində əldə olunan nəticələr sevindiricidir [3]. İl ərzində ölkə daxilində və onun hüdudlarından kənarda həyata keçirilən tədbirlərin uğurla nəticələnməsidir. Dünyanın bir çox ölkəsində Azərbaycan mədəniyyət günlərinin keçirilməsi ənənəyə çevrildi.

Bu tədbirlər çərçivəsində, Azərbaycan mədəniyyətinin və incəsənətinin təbliği məqsədilə 2010-cu ildə şöhrətli muğam ustası xalq artisti Alim Qasımov və qızı Fərqanə Qasımova İstanbulda Yerəbatan Sarıncı salonunda keçrilən beynəlxalq konsertdə çıxış ediblər. Konsertdə xanəndələri Rauf İslamov, Rafael Əsgərov, Cavidan Nəbiyev və Zəki Vəliyev müşayiət ediblər. Konsert proqramı ərzində “Mahnur” dəsgahı və “Bayat-Şiraz” təsnifi ifa olunub. Muğam ustaları bir neçə yeni təklif də alıb [5]. Elə həmən il Ankaranın Bilkənd Universitetində Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın iştirakı ilə böyük bir konsert proqramı keçirilmişdir. Tədbirdə xalq artisti Alim Qasımovun rəhbərliyi ilə musiqiçilər qrupu gözəl konsert proqramı ilə çıxış etmişdir.

Tədqiq olunan illərdə ilk dəfə olaraq İstanbulun 2010-cu ildə Avropa Mədəniyyəti Paytaxtı elan olunması ilə əlaqədar Türkiyədə Azərbaycan mədəniyyəti günləri keçirilmişdir. Tədbirdə çıxış edən Azərbaycanın incəsənət ustaları ölkəmizi layiqincə tərənnüm etmişlər.

Bununla yanaşı 2010-cu ilin iyun ayında Beynəlxalq Diaspora Mərkəzinin təşkilatçılığı ilə Türkiyənin Kayseri şəhərində Azərbaycan Mədəniyyət Günləri keçirilmişdir. Tədbirdə Azərbaycandan geniş tərkibli nümayəndə heyəti, incəsənət xadimləri layiqincə iştirak etmişlər [7].

2012-ci il fevralın 3-də Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümü münasibəti ilə Türkiyənin Elazığ şəhərində Elazığ-Bakı mədəniyyət günlərinin açılışı olmuşdur. Tədbir çərçivəsində Azərbaycan Parkı və Azərbaycan Şəhidlərinin xatirəsinə ucaldılmış abidənin açılışı, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin rəsmiləri və deputatların iştirakı ilə müstəqilliyimizin bərpa olunmasının 20-ci ildönümünə həsr olunmuş konfranslar keçirilmişdir. Tədbirdə Azərbaycandan gəlmiş muğam ustaları və rəqs qrupu Elazığ sakinləri üçün konsert proqramı ilə çıxış etmişlər.

Göründüyü kimi Türkiyədə və Azərbaycanda qarşılıqlı olaraq yüksək səviyyədə mədəniyyəti günləri təşkil edilməsədə hər iki ölkənin mədəniyyət və incəsənət sahəsində əməkdaşlığı dinamik şəkildə inkişaf etməkdədir. Azərbaycan mədəniyyətinin dünyada tanıdılmasında Prezident İlham Əliyevin həssas münasibəti, bununla yanaşı Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın geniş fəaliyyəti xüsusilə qeyd edilməlidir.

Bu baxımdan, Azərbaycan-Türkiyə əlaqələri başqa ölkələr arasında münasibətlərlə müqayisə etmək mümkün deyil. Azərbaycan və Türkiyənin strateji mənada bir-birini tamamlayan vahidin ayrılmaz hissələridir. Azərbaycan Türkiyənin, Türkiyə də Azərbaycanın xarici siyasətində xüsusi bir yer tutur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də dediyi kimi, “dünyada Türkiyə ilə Azərbaycan qədər bir-biri ilə siyasi, iqtisadi və mədəni sahələrdə səmimi faydalı əməkdaşlıq edən ölkələr yoxdur” [4].

Bütün bunlar Azərbaycan – Türkiyə münasibətlərin gündən günə inkişafını göstrərən aktual problemlərdir. Bildiyimiz kimi Azərbaycan Respublikasının xarici siyasətində mədəni əməkdaşlıq məsələləri dövlət siyasətinin prioritet tutduğu əsas istiqamətlərdən biridir. Ölkəmizdə çox vacib beynəlxalq və respublika miqyaslı hadisələr, tədbirlər bunu bir daha təsdiqləyir. Mədəniyyət günlərinin keçirilməsi təkcə dövlətlərarası münasibətlərin möhkəmlənməsi ilə deyil həm də insanlarımız, sadə vətəndaşlar arasında inkişaf etməkdə və genişlənməkdədir.

**Ədəbiyyat**

1. Azərbaycan - Türkiyə əlaqələri və Heydər Əliyev (1-ci kitab), 1991-2001. Bakı: Qafqaz Universiteti Nəşri, 2002, 180 s.

2. Əliyev İ. Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərliyinin I forumundakı nitqi. “Ədəbiyyat qəzeti”, 16 mart 2007
3. Prezident İlham Əliyev və Azərbaycan mədəniyyəti 2003-2008. İki cilddən I cild. Bakı: “İDEAL-PRİNT”, 2008, 506 s.
4. Prezident İlham Əliyev və Azərbaycan mədəniyyəti 2003-2008. İki cilddən, II cild. Bakı: “İDEAL-PRİNT”, 2008, 568 s.
5. Курбанов В. Искуство Азербайджана зарубежом. Баку: Ишыг,1989, 120 с.
6. www.azertag.gov.az
7. www.diaspora.gov.az

UOT 3

## Azərbaycan Respublikasının multikulturalizm siyasəti

*Camalov Məhəbbət Bəsər oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Azərbaycan Şərqin və Qərbin qovşağında yerləşən, müxtəlif mədəniyyətlərin, sivilizasiyaların qarşılıqlı anlaşma şəraitində bir araya gəldiyi nadir ölkələrdəndir. Burada tarixən heç vaxt milli və dini zəmində ayrı-seçkilik, qarşıdurma baş verməyib, qarşılıqlı etimada, hörmətə əsaslanan mütərəqqi milli-mədəni, dini münasibətlər mövcud olub.

Azərbaycan Konstitusiyasına əsasən, irqindən və dilindən asılı olmayaraq, hər bir şəxsin hüquq və azadlıqlarının qorunmasına təminat verir. Respublikamızda yaşayan bütün azsaylı xalqların mədəni orijinallığı müxtəlif qanunlar və hüquqi-normativ aktlarla təmin olunur.

Azərbaycan müsəlman aləmində əsl dünyavi dövlətçiliyin nadir nümunələrindən biridir. Bakıda pravoslav kilsəsinin bərpa edilməsi, katolik kilsə tikilməsi, Vatikan Apostol nunsiyasının fəaliyyətə başlaması, vaxtilə ləğv edilmiş Rus Pravoslav kilsəsinin Bakı və xəzəryanı bölgə Reparxiyasının fəaliyyətinin bərpa edilməsi Azərbaycandakı dini tolerantlığın bariz nümunəsidir. Hələ 2002-ci ildə Roma Papası II İohann Pavelin Respublikamıza səfəri zamanı Azərbaycandakı dini dözümlülük ənənələrini xüsusi qeyd etmişdir. Azərbaycan, bir çox xalqların və dinlərin mədəni dəyərlərini özündə cəmləşdirdiyini deyən Papa bildirmişdir ki, xristianlar Azərbaycanda digər dinlərin nümayəndələri ilə sülh və əmin-amanlıq şəraitində, dinc yanaşı yaşayırlar ki, bu da yalnız tolerantlıq və qarşılıqlı dözümlülük sayəsində mümkün olub.

Azərbaycan dünyaya təkcə enerji resursları ilə zəngin bir ölkə kimi deyil, həm də humanizm prinsipinə sadiq, tolerant və multikultural ölkə kimi tanınmaqdadır. Azərbaycanda bu sahədə formalaşan münasibətlər göstərir ki, tolerantlıq və multikulturalizm hər bir dövlətin və xalqın keçdiyi inkişaf yolundan, qarşıya qoyduğu məqsədlərdən asılı olaraq yaranan mütərəqqi və bəşəri dəyərdir.

Azərbaycanın sivilizasiyalar və mədəniyyətlərarası dialoq və əməkdaşlıq sahəsində nadir təcrübəsi beynəlxalq səviyyədə də tanınır və yüksək qiymətləndirilir. Məhz bundan irəli gələrək son illərdə ölkəmizdə sivilizasiyalararası dialoq və tolerantlıq mövzusunda beynəlxalq tədbirlər keçirilib. Bütün bunlar ondan xəbər verir ki, Azərbaycan mədəniyyətlərarası və dinlərarası dialoq üçün bir mərkəzə çevrilib. Paytaxtımız isə qlobal əhəmiyyətli humanitar məsələlərin həllini tapdığı məkan kimi tanınır.

Prezident İlham Əliyevin təşəbbüsləri nəticəsində multikulturalizm dövlət siyasətinin ən önəmli istiqamətlərundən birinə çevrilib. Təsadüfi deyil ki, Prezidentin sərəncamı ilə 2014-cü il fevral ayının 28-də Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi təsdiq edildi. Eyni zamanda, multikulturalizmi dövlət siyasətinin əsas komponentlərindən biri kimi dəyərləndirilməsinin nəticəsidir ki, 2014-cü ilin may ayında Prezident İlham Əliyevin fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı. Əsas məqsədi

tolerantlığın və mədəni, dini müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşfiq etmək olan beynəlxalq mərkəzin məhz Bakı şəhərində yaradılması bütün dünyada yüksək təqdir olunur.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tolerantlığın bir həyat tərzinə çevrildiyi Azərbaycan gerçəkliyinin mədəni, sosial, siyasi mahiyyətini öyrənmək, etnik-mədəni dini müxtəlifliyin tolerant əsaslarının elmi təhlilini aparmaq və qorunub saxlanması yollarını müəyyənləşdirmək, təhsil, mədəniyyət, elm və digər sosial sahələrdə özünü göstərən çatışmazlıqların sistemli şəkildə aradan qaldırılması istiqamətində layihələr gerçəkləşdir-mişdir. Eyni zamanda, Azərbaycan və dünya multikultural nailiyyətlərinin beynəlxalq mütəxəssislər tərəfindən öyrənilməsi, multikulturalizm üzrə dünya mütəxəssislərinin, eyni zamanda, keçmiş və müasir siyası, ictimai, elm, mədəniyyət, incəsənət xadimlərinin şəxsi təcrübələrini təhlil etmək və yaymaq kimi nəcib fəaliyyətləri öz vəzifələrinə daxil etmişdir.

2015-ci ilin yaz semestrindən başlayaraq Rusiya, İtaliya, Bolqarıstan, Belorus, Litva, Çexiya və Gürcüstanın tanınmış universitetlərində və ölkəmizin 7 ali məktəbində “Azərbaycan multikulturalizmi” fənni tədris olunur.

Azərbaycan Dünyada yeganə ölkədir ki, burada sinaqoq, məscid, pravoslav, katolik, babtist kilsələri, islam dininin müxtəlif təriqətlərinə aid məbədlər fəaliyyət göstərir. Ölkəmizdə heç zaman etnik baxışlarına, dininə və dilinə görə insanlar sıxışdırılmayıb və sıxışdırılmır. Bu mənada tolerantlığın inkişafına, qorunmasına, ən başlıcası, bu sahəyə qayğı göstərilməsinə dövlət səviyyəsində böyük diqqət yetirilir. Bütün bunlar xalqa olan ehtiramın, onun milli mənəviyyatına bəslənən sevginin və yüz illər boyu formalaşan tolerantlıq ənənələrinə hörmətin təzahürüdür.

Həqiqətən də bu gün Azərbaycanda hökm sürən tolerantlıq dünyanın bir çox dövlətləri üçün nümunədir. Bu nümunə həm də ona görə diqqəti cəlb edir ki, indi əksər qərb ölkələrində islamofobiya, qatı millətçilik, irqi ayrı seçkilik kimi mənfi tendensiyalar geniş yayılmağa başlayıb. Onu da qeyd edək ki, bir ölkədə yaşanan müsbət dəyərlərin dünyaya yayılması istiqamətində həmin dövlətdə təşkil olunan müxtəlif beynəlxalq tədbirlərin də xüsusi əhəmiyyəti olur. Bu mənada ötən il ölkəmizdə yüksək səviyyədə keçirilmiş ilk Avropa Oyunlarına tamaşa etmək üçün yaxın və uzaq xarici ölkələrdən Bakıya dinindən və irqindən asılı olmayaraq minlərlə insan gəldi. Avropa Oyunlarının iştirakçı olmuş 6 min idmançı, 2 minə yaxın jurnalist də yarışların keçirildiyi müddətdə Azərbaycanın həyatı və burada mövcud olan reallıqlarl, yüksək səviyyədə inkişaf etmiş tolerant mühitə, habelə müxtəlif sivilizasiyalara, mədəniyyətlərə mənsub insanların dinc yanaşı yaşamasının şahidi oldular. Gördülər ki, Azərbaycan tolerantlıq sahəsində dünyaya örnək ola biləcək bir dövlətdir.

Prezident İlham Əliyevin sərəncamı ilə 2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsi ölkəmizin multikultural dəyərlərə, onun inkişafına və möhkəmləndirilməsinə verdiyi önəmin göstəricisidir. Sərəncamda bu barədə deyilir: “Tarixi ipək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir”.

Multikulturalizm elə bir siyasətdir ki, o, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Müasir cəmiyyətlər kulturaloji strategiyalara əsaslanan düşünülmüş multikulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Azərbaycanda həyata keçirilən multikulturalizm bütün dünyaya nümunədir və ölkəmizin inkişafında vətəndaş həmrəyliyinin daha möhkəm olmasında mühüm rol oynayır.

## Ədəbiyyat


1. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, 1997, 43 s.
2. Azərbaycan qəzeti. 5 fevral 2016-cı il.
3. Azərbaycan qəzeti. 15 yanvar 2016-cı il.
4. Azərbaycan qəzeti. 5 mart 2016-cı il.

UOT 339.9: 338.1

## Qloballaşma şəraitində milli-mənəvi dəyərlərin mühafizəsi məsələləri

*Xəlilova Xəyalə Qəmbər qızı*
*Mingəçevir Dövlət Universiteti*

Milli-mənəvi dəyərlərimiz xalqımızın simasında zaman-zaman yaşayıb və bizi başqa millətlərdən fərqləndirib. Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Mənəvi dəyər özünün fiziki və mənəvi varlığını qoruyub saxlamaq, yaşatmaq üçün hər hansı sosial qrup və ya cəmiyyətin əksər üzvlərinin doğru və lazımlı olduğuna inanıb qəbul etdikləri ortaq dünyagörüşü, məqsəd, əxlaq normaları və inanclardır. Bu gün dövlətin hər cür resurslardan səmərəli istifadə yolları ilə formalaşdırmağa çalışdığı başlıca dəyərlər bunlardır: ədalətli olmaq, ailə birliyinə önəm vermək, vətənsevərliyi aşılamaq, qanunlara hörmət, dinə hörmət, eyni zamanda tolerantlıq, çalışqanlıq, qonaqsevərlik, yardımsevərlik. Milli ideologiya, milli tarix, milli dil, dinimiz, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə, dahi şəxsiyyətlərimiz, milli musiqimiz, muğamlarımız, fərdi yaddaşı, etnos yaddaşını, millətin, xalqın yaddaşını ehtiva edən folklorumuz bizim milli-mənəvi dəyərlərimizdir. Bir sözlə, milli olan bütün nailiyyət və keyfiyyətlərimiz milli dəyərlər sisteminə aiddir.

Milli dəyərlərimizə dərindən bələd olan görkəmli dövlət xadimi Heydər Əliyev xalqımıza xas olan adət-ənənələrimizi yaşatmağı, təbliğ etməyi tövsiyə edirdi. Dinimizin milli-mənəvi dəyərlərin ən önəmli ünsürlərindən biri olduğunu önə çəkirdi və bilirdi ki, xalqlara və qəbilələrə ayrılmış cəmiyyət həm də milli-mənəvi dəyərləri ilə seçilməlidir. O, dinimizin ilahi əxlaqi dəyərlər sistemi olaraq mənimsənilməsinin, xüsusilə gənclərin formalaşmasında müsbət bir funksiya icra edəcəyini düşünürdü. Heydər Əliyev Azərbaycançılıq dilindən, millətindən, irqindən, sosial mənsubiyyətindən asılı olmayaraq bütün ölkə vətəndaşlarını ümumi vətən naminə həmrəyliyə dəvət edirdi. Milli və dini mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın bu torpaq üçün milli yiyəlik hissi yaşamasını isə tolerantlığın bariz təzahürü hesab edirdi. Əslində, dini və etnik tolerantlıq Azərbaycan xalqının qanında, canında, kökündə var. Milli ənənələrimizdə, mentalitetimizdə, habelə sosial, mənəvi və dini düşüncə laylalarımızı özündə yaşadan folklorumuzda başqa dinlərə, millətlərə dözümlü münasibət özünü yaşadır.

Mənəvi dəyərlər bu gün daha çox ictimai rəyə əsaslanan yazılmamış ünsiyyət qanunları kimi fəaliyyət göstərir. Adət-ənənə ilə əxlaq arasında qırılmaz bağlılıq var. Hər bir ənənə müəyyən əxlaqi məna daşıyır. Onlara laqeyd qalmaq insanlar arasında münasibətlərin pozulmasına, şəxsiyyətlə kollektiv və cəmiyyət arasında ziddiyyətlərin əmələ gəlməsinə səbəb olur. Çünki milli-mənəvi dəyərlər xalqın milli ruhunu, estetik ruhunu, estetik duyumunu, sənətkarlıq qüdrətini özündə yaşadır. Hazırda bu mənəvi dəyərlər zəngin mədəni irs olmaqla bərabər, eyni zamanda milli özünəməxsusluğun ifadə vasitəsinə çevrilib. Ölkədə adət və ənənələr mədəni tədbirlər üçün rəmzi məna kəsb edir və onlara milli məzmun gətirir. Xalqımızın milli, tarixi-ənənələri bayramları və mərasimləri kütləvi tədbirlər içərisində xüsusi yer tutur. Bu bayramlarda qədim mədəniyyətimiz, xalqımızın əsrlər boyu yaratdığı milli adət və ənənələr, bədii sərvətlər, tarixi hadisələr əks olunur. Deyilən bu mənəvi dəyərlər dövrün, mövcud şəraitin və ictimai quruluşun ruhuna, tələblərinə uyğun cilalanır, yeni forma və məzmun kəsb edir. Eyni zamanda şəraitə uyğun mənəvi dəyərlər adət və ənənələr yaranır.

Azərbaycan müasirləşən, Avropa və dünya birliyinə sürətlə inteqrasiya edən ölkədir. Təbii ki, müasir dünyada sürətlə davam edən qloballaşma prosesləri bizim də ölkədən yan keçməyib. Buna baxmayaraq, qloballaşma adı altında öz milli dəyərlərimizi unutmamalı və bu dəyərlərə sadiq olmalıyıq. Hər bir ölkə və xalq üçün onun milli dəyərləri hər şeydən üstün tutulmalı və digər xalqların dəyərləri ilə ziddiyət təşkil etməməlidir. Bu baxımdan qloballaşma deyəndə Azərbaycanda beynəlxalq əməkdaşlığı, xoş münasibətləri, səmimi dostluğu nəzərdə tutulur.

Müasir dövrdə ən aktual problemlərdən biri qloballaşma prosesi ilə milli adət-ənənələr arasında optimal nisbətin tapılmasıdır. Qloballaşma prosesi elm, texnika, texnologiya ilə ümumbəşəri dəyərlərlə yanaşı, milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə də düşünülmüş şəkildə, ya da qərəzsiz sirayət etməyə cəhd göstərir. Belə bir şəraitdə ilk növbədə nələri qorumaq lazım olduğunu, məhz hansı məsələlərdə məqsədyönlü surətdə ənənələri saxlamaq, hansı yöndə isə yenilikləri qəbul edib tətbiqinə nail olmaq düşünülmüş konsepsiya tələb edir. Biz hər zaman qloballaşma adı altında digər xalqların adət-ənənələrinə zidd olan, milli mentalitetə xas olmayan dəyərlərə qarşı mübarizə aparmalıyıq. Təbii ki, bu mübarizədə milli mənliyimizi qorumaq ən vacib şərtlərdəndir. Deməli, milli mənəvi dəyərlərimiz yaşadıqca milli kimliyimiz də mövcud olacaq. Bu dəyərlər dəyişdikdə isə artıq qarşımızda fərqli milli kimliyi görəcəyik. Ona görə də gənclər arasında milli-mənəvi dəyərlərin qorunması istiqamətndə işlər görülməli, onlarda vətənpərvərlik və vətəndaşlıq hissləri gücləndirilməlidir. Xüsusən bu istiqamətdə təhsil prosesinin keyfiyyətini artırmalı, elmi-nəzəri və metodiki tövsiyələr işləyib hazırlanmalı, normativ-hüquqi bazanın yaradılmasına nail olunmalıdır. Müsbət dəyərləndirilməli məqam ondan ibarətdir ki, bu gün dövlət səviyyəsində milli kimliyin əsasını təşkil edən milli və mənəvi dəyərləri qorunması və yaşadılması istiqamətində daha məqsədyönlü fəaliyyəti görə bilirik.

Qloballaşma ölkələrin sahib olduqları maddi və mənəvi dəyərlərin çərçivəsində əmələ gəlmiş münasibətlərin milli hüdudları aşaraq dünya səviyyəsində yayılması və fərqliliklərin bütünlük və uyğunlaşma adı altında birləşməsidir. Qloballaşma ölkələr arasındakı iqtisadi, sosial və siyasi əlaqələrin inkişafı, fərqli cəmiyyətlərin və mədəniyyətlərin inanc və görüşlərin tanınması, millətlərarası əlaqələrin genişlənməsi kimi fərqli görünən, lakin bir-biri ilə bağlı məsələləri birləşdirən bir anlayışdır. Həyatımızın elə bir sahəsi yoxdur ki, qloballaşmanın təsirinə məruz qalmasın. İnteqrasiya prosesinin qaçılmaz olduğu bir dövrdə milli-mənəvi dəyərlərin qorunmasına qayğı daha da artırılmalıdır. Bu dəyərlər aşınmalardan qorunmalı, milli mədəniyyətimizi millətin qloballaşmanın mənfi təzahürlərindən özünü müdafiə vasitəsinə çevirməliyik.

Milli-mənəvi dəyərlərin mühafizəsi məsələsi dailm dövlət rəhbərliyinin diqqət mərkəzində olmuşdur. Azərbaycan milli-mənəvi dəyərlərinə yiyələnməklə gənc nəslin milli ruhda tərbiyə olunması məsələsi Heydər Əliyev tərəfindən əsas vəzifələrdən biri kimi irəli sürülmüşdür. O, rəhbərlik etdiyi bütün illər ərzində milli-mənəvi dəyərlərimizə həmişə qayğı ilə yanaşmış və bununla bağlı bəyənatlarla çıxış etmiş və qanunlar imzalamışdır.

## Ədəbiyyat


1. Cəlilov M. Qloballaşma prosesi və müasir cəmiyyətin inkişaf problemləri. Bakı: ADIU, 2004
2. Şirinova T. Qloballaşma və milli dövlətlərin problemləri. Bakı, 2015
3. Şükürov A. Qloballaşmış cəmiyyətlər: dünən, bu gün və sabah. Bakı, 2006


UOT 81

# Dil milli-mənəvi dəyərlərin transformasiyası, qorunması və təbliği vasitəsi kimi

*Yusibova Gülxar Firqət qızı*
*Mingəçevir Dövlət Universiteti*

Bəşəriyyətin ən böyük və mütərəqqi nailiyyəti olan dil və nitq qabiliyyəti minilliklər ərzində toplanmış bütün dəyərlərin transformasiya olunmasında, qorunmasında və gələcək nəsillərə ötürülməsində müstəsna rol oynayıb. Dillərin və nitqin tarixini tədqiq edən alimlər belə bir elmi nəticəyə gəliblər ki, əcdadlarımız ilk səsli nitq elementlərini 300 min il bundan əvvəl ifadə etməyə başlamışlar. Dilin və nitqin mənşəyi haqqında çoxlu sayda versiyalar mövcud olsa da, bu sirli fenomenin mənşəyinin insanın sinir sistemi ilə bağlı olması, ətraf mühitdə baş verən hadisələrə səsli

reaksiyada ifadə olunması danılmaz faktdır [4]. Dil ictimai hadisədir. O, ayrıca götürülmüş insanın deyil, bütün cəmiyyətin düşünülmüş yaradıcılığının nəticəsidir və obyektiv şəkildə mövcud olub inkişaf edir. Sözlərdə, kəlmələrdə və nitqdə bütün bəşəriyyətin şüurlu fəaliyyəti öz əksini tapır. Nitq insanda abstrakt təfəkkürün inkişafına şərait yaradıb və orada həqiqətin dərk olunmasının ümumbəşəri təcrübəsi olunub. Dil təbiətin və tanrının insana bəxş etdiyi əvəzolunmaz hədiyyədir. Buna görə də onu lazımınca qiymətləndirmək, qeyri-normativ leksik müdaxilədən, vulqar sözlərdən və ifadələrdən qorumaq müqəddəs vəzifədir. Lakin onu da qeyd etmək lazımdır ki, dil canlı orqanizmdir və daim cəmiyyətdə baş verən tarixi, siyasi, sosial və s. dəyişikliklərin təsirinə məruz qalır. Zamanın təsiri altında dildəki bəzi sözlər dilin lüğət tərkibindən çıxır və onları zamanın tələbinə uyğun olan yeni sözlər əvəz edir. Dil insan cəmiyyətində kommunikativ funksiya yerinə yetirməklə, etnik-mədəni özəlliklərə malik olan dünya obrazı yaradır.

Mədəniyyətin və milli-mənəvi dəyərlərin təşəkkülündə dilin rolu haqqında ən maraqlı konsepsiyalardan biri məşhur alman mütəfəkkiri, linqvist V.Humboldta (Vilhelm fon Humboldt (1767-1835) – məşhur alman filoloqu, filosofu, dilçi, dövlət xadimi, diplomat ) məxsusdur. O, dili özündə davamlı fəaliyyəti təcəssüm etdirən, səsləri fikrin ifadəsinə çevirən dinamik sistem kimi xarakterizə edərək, dil ilə milli-mənəvi dəyərlərin qarşılıqlı təsiri ideyasını dəstəkləyirdi. Humboldt "İnsan dillərinin müxtəlif quruluşu və onun bəşəriyyətin mənəvi inkişafına təsiri" (1830-1835) əsərində dilin xalqın mənəvi və ruhani təşəkkülündə həlledici rolunu qeyd edirdi. Alim iddia edirdi ki, müxtəlif dillər eyni predmetin müxtəlif cür adlandırılması deyil, o predmetə müxtəlif cür baxılması, onun fərqli formalarda dərk olunması və qiymətləndirilməsidir. Humboldtun fikrincə dil elə bir iyeroqliflər sistemidir ki, insan öz təxəyyülünü və dünyasını orada yerləşdirir [6].

Mədəniyyət və milli mənəvi dəyərlər dedikdə təkcə ədəbiyyat və incəsənət başa düşülmür. Buraya tarix, din, siyasət, iqtisadiyyat, məişət, təsərrüfat, davranış qaydaları, dünyagörüşü, dünyaduyumu və çoxlu sayda, insan təfəkkürünün məhsulu olan faktorlar daxildir. Mədəniyyət varlığın essensiyası, hər xalqın özünü dərk etməsi mexanizmidir. Əgər insanda mədəni mənsubiyyət yoxsa, o, praktiki cəhətdən naməlum varlıq kimi ifadə olunur. Bu baxımdan doğma dil, ana dili nəinki varlıq, həm də əsl xəzinə kimi təzahür edir. Şübhəsiz, mədəniyyətlərin qarşılıqlı şəkildə biri-birilərinə nüfuz etməsi prosesi həmişə mövcud olmuş və olacaqdır. O, dünya tarixində təbii proses kimi, bir qayda olaraq qarşılıqlı kontaktda olan mədəniyyətlərin zənginləşməsinə xidmət etmişdir. Lakin müasir dövrdə mövcud olan kütləvi informasiya və kommunikasiya vasitələrinə rəğmən mədəniyyətlərin bir-birinə təsiri bayağı şəkil alır. Əvvəllər bütün bəşəri mədəniyyət Şərq və Qərb mədəniyyətləri kimi iki böyük qrupa bölünürdü və onlar tarixən bir-biri ilə son dərəcə rasional şəkildə qarşılıqlı əlaqəyə girirdi. Bu gün bu iki qüdrətli mədəniyyətə çoxlu sayda submədəniyyətlər təsir göstərərək minilliklər ərzində formalaşmış təbii nizamı pozurlar. Müasir qlobal cəmiyyətdə "Mədəni ekspansiya" KİV-lərin birbaşa dəstəyi ilə baş verir. Hər bir mədəni sferada ən zəif yer submədəniyyətlərin olmasıdır. Onlar olduqca aktiv şəkildə inkişaf edir və daha yeni sferaları zəbt edirlər. Submədəniyyətlərin aktiv daşıyıcısı kimi isə, bir qayda olaraq gənclər çıxış edir. Ən dinamik və aktiv təsir qüvvəsinə malik olan submədəniyyətlər sırasına musiqini, kinonu və interneti aid etmək olar. Məhz bu kanallar vasitəsi ilə bu gün milli dilə güclü dəyişdirici təsir göstərilir. Unutmaq lazım deyil ki, dil zaman etibarı ilə təbii şəkildə dəyişikliklərə məruz qalaraq inkişaf edən, yaxud deqradasiyaya məruz qalan fenomendir [3]. Nəticə isə təsirin xarakterindən, keyfiyyətindən, məzmunundan və məqsədindən asılıdır. Praktiki cəhətdən bütün dünya dilləri bir-biriləri ilə sıx əlaqədə olub və proses bu gün də davam edir. Lakin bununla belə onlar daim öz özəlliklərini qorumağa çalışır. Dil mədəniyyətin güzgüsüdür. Onda təkcə insanı əhatə edən real dünya, real həyat şəraiti əks olunmur, həm də xalqın ictimai özünüifadəsi, milli xüsusiyyətləri, həyat tərzi, adət-ənənələri, əxlaqı, dəyərlər sistemi, dünyaduyumu və dünyagörüşü öz əksini tapır. Dil mədəniyyətin xəzinəsidir. O, mədəni dəyərləri leksikada, qrammatikada, idiomatikada, atalar sözlərində, məsəllərdə, folklorda, bədii və elmi ədəbiyyatda, yazılı və şifahi nitqdə qoruyub saxlayır və gələcək nəsillərə ötürür. Dil mədəniyyətin və milli-mənəvi dəyərlərin universal şəkildə təzahür olunduğu stabil inkişaf edən alətdir. O, konkret dilin daşıyıcısı olan insan şəxsiyyətini nitq, nitqdə əksini tapmış dünyagörüşü, mentalitet, ətraf mühitə və insanlara münasibət və s. vasitəsi ilə formalaşdırır. Beləliklə, dil mədəniyyətdən və milli-mənəvi dəyərlərdən təcrid olunmuş şəkildə mövcud ola

bilməz. O, bizim həyat tərzimizi xarakterizə edən praktiki bacarıqların, uzunmüddətli təcrübənin, ideyaların və s. sosial baxımdan hifz olunmuş məcmusudur. Dil insan kütləsini etnos kimi formalaşdıran, mövcud nitq arealına daxil olan kollektivin mədəni ənənələrini, ictimai şüurunu qorumaq və transformasiya etməklə millətin yaranmasına xidmət edən güclü ictimai silahdır. Mədəniyyətin və milli mənəvi dəyərlərin spesifik komponentləri içərisində birinci yeri dil tutur. Dil, ilk növbədə mədəniyyətin, milli-mənəvi və ümumbəşəri dəyərlərin daşıyıcısı və bu dəyərlərə əsaslanan ünsiyyət vasitəsi kimi təzahür edir. Dil – onun daşıyıcısı olan subyektin müəyyən sosiuma mənsubiyyətini ifadə edən işarələr sistemidir. Dilin yaranmasında həlledici faktor kimi ilk növbədə şüurun inkişafı deyil, insanların böyük qruplarda birləşməsi göstərilir. Alimlər iddia edirlər ki, insanın tələffüz etdiyi ilk sözlər "doğma-yad", "dost-düşmən", "yaxşı-pis" anlayışları ilə bağlıdır. Məhz qədim ideoloji və hüquqi linqvistik baza, həmçinin "tayfalar arası diplomatik dil" belə yaranmışdır. Dillərin müasir vəziyyətinə gəldikdə olduqca maraqlı mənzərə canlanır. Hal-hazırda dünyada 4 mindən artıq dil qeydə alınmışdır. Lakin qeydə alınmamış çoxlu sayda dillər və dialektlər də mövcuddur. Yer kürəsi əhalisinin 2/3 hissəsi 40 ən geniş yayılmış dillərdə danışır. Ən çox istifadə olunan dillər sırasına isə çin, hind, ingilis, ispan, ərəb, rus, portuqal, türk və fransız dilləri daxildir. 400-dən artıq dil yox olan dillər hesab olunur. Dillər onun sonuncu daşıyıcısının fiziki, yaxud mənəvi cəhətdən məhv olması ilə ölür. Bu təhlükə, başlıca olaraq ibtidai və natural həyat tərzi sürən, həmçinin yazısı və dövlətçiliyi olmayan xalqlara və etnik qruplara aiddir. Dillərin çoxu o səbəbdən dövriyyədən çıxır ki, onun daşıyıcıları daha güclü dil arealına nüfuz edirlər.

Beləliklə, milli mədəniyyətin, əxlaqi-mənəvi və ümumbəşəri dəyərlərin, ifadə olunmasında, transformasiya olunmasında və qorunmasında əvəzolunmaz vasitə olan dil bəşəri sərvətdir. Onu qorumaq və gələcək nəsillərə ötürmək bu sərvətin daşıyıcısı olan hər bir şəxsin müqəddəs tarixi vəzifəsi olmalıdır.

## Ədəbiyyat


1. Əliyev H. Müstəqillik yollarında. I cild. B.:, 1994, 558 s.
2. Məmmədov M. Nərimanov və ana dili. B.:, 1971, 82 s.
3. Беляев, И. А. Культура, субкультура, контркультура / И. А. Беляев, Н. А. Беляева // Духовность и государственность. Сборник научных статей. Выпуск 3, под ред. И.А.Беляева - Оренбург, Филиал УрАГС в г. Оренбурге, 2002, с.5-18
4. Бурлак С. А., Старостин С.А. Сравнительно-историческое языкознание. М.: Академия, 2005, 432 с.
5. Волков А..Г. Язык как система знаков. М.:, 1966
6. Гумбольдт Вильгельм фон. Язык и философия культуры. М.:, 1985,452 с.
7. Мечковская Н.Б. Семиотика. Язык. Природа. Культура. М.:, 2004, 432 с.
8. Норман Б.Ю. Теория языка. Вводный курс. 3-е изд.М.:, 2009, 296 с.
9. Широков О.С. Введение в языкознание. М.:, 1985, 264 с.


UOT 81

## Qloballaşan dünyada nitq mədəniyyətinin inkişafı ilə bağlı problemlər


*Əhmədova Samirə Famil qızı*

*Əzizova Aynur Müsbət qızı*

*Mingəçevir Dövlət Universiteti*


Müasir dünyada total inteqrativ proses kimi qiymətləndirilən qloballaşmanın başlıca xarakteri Yer kürəsinin bütün regionlarında liberal-demokratik dəyərlərin ekstrapolyasiya olunmasından ibarətdir. Bu proses aşağıdakı əsas aspektlərlə ifadə olunur: beynəlmiləlçilik, liberallaşma, Qərb (vesternizasiya) və Şərq (orientalizasiya) mədəniyyətlərinin bir-birinə qovuşması.

Digər tərəfdən, mədəni qloballaşma dedikdə, ayrı-ayrı ölkələr arasında işçi və istehlak yönümlü mədəniyyətlərin yaxınlaşması və beynəlxalq ünsiyyətin fövqəladə şəkildə genişlənməsi başa düşülür. Bu proses, bir qayda olaraq, milli mədəniyyətlərin ayrı-ayrı növlərinin bütün dünyada populyarlaşmasına gətirib çıxarır. Mədəni qloballaşma bəşəriyyət üçün mühüm mədəni dəyişikliklər vəd edir. Tarixdə ilk dəfə olaraq, sözün əsl mənasında "qlobal mədəniyyət" təşəkkül tapır [3].

Qloballaşma şəraitində meydana gəlmiş ən aktual problemlərdən biri nitq mədəniyyətinin müasir vəziyyəti və onun inkişafı ilə bağlıdır. Danılmaz faktdır ki, müasir cəmiyyətlərdə ayrı-ayrı faktorların təsiri altında nitq mədəniyyətinin deqradasiyası, əsrlər ərzində formalaşmış linqvistik ənənələrdən uzaqlaşma, nitqin zəngin leksikondan məhrum olması, banal (fr. banal – adi, bəsit) ifadələrin yayılması və çoxlu sayda digər neqativ hallar baş verir. Jarqon (fr. jarqon), slenq (ing. slanq), arqo (fr.arqot – konspirativ, gizli jarqon, cinayətkar aləmin özünəməxsus leksikonu) və onların müxtəlif formaları (xüsusi slenq, ümumi slenq, qara slenq) kimi "sosial dialektlər" əsrlər ərzində formalaşmış nitq mədəniyyətinə destruktiv təsir göstərir.

Nitq mədəniyyəti haqqında təlim qədim Şərq və Qərb sivilizasiyalarında təşəkkül tapmışdır. Qədim Yunanıstanda isə nitq mədəniyyəti, yaxud ritorika (yun. rhetorike – natiqlik sənəti (yun. rhetor - natiq) layiqli nitq haqqında xüsusi təlimlər sistemi kimi meydana gəlmişdir. Dilçiliyə həsr olunmuş "Böyük ensiklopedik lüğətdə" "Nitq mədəniyyəti" anlayışı haqqında deyilir: "Nitq mədəniyyəti – şifahi və yazılı bədii dilin normalarından (tələffüz qaydaları, vurğu, sözlərdən istifadə, qrammatika, stilistika) xüsusi bacarıqla, həmçinin müxtəlif ünsiyyət şəraitində nitqin məzmununa və məqsədlərinə uyğun olaraq onun ifadə vasitələrindən məqsədyönlü şəkildə istifadə olunmasını, dilin mədəniyyət aləti kimi təkmilləşdirilməsi istiqamətində mövcud problemlərin tədqiq edilməsini nəzərdə tutan dilçilik sahəsidir" [5].

Dilçilik mədəniyyəti ilə məşğul olan mütəxəssislər milli nitq mədəniyyətinin xüsusi keyfiyyətlərini qeyd edirlər: yazılı, xüsusilə də şifahi tekstlərin stilistik müxtəlifliyi, ekspressiv (lat. expressio – ifadə, fikrin, əhval-ruhiyyənin və hisslərin parlaq ifadəsi) rənglərin polifonik ifadəsi, müxtəlif stilistik potensiala malik olan dil vasitələrindən istifadə olunması və s.

Qeyd etmək lazımdır ki, canlı nitq mübadiləsi, məsəllər, uğurla seçilmiş "qanadlı ifadələr" fikrin, müəllifin ideyasının daha uğurla ifadə olunmasına imkan verir, auditoriyanın diqqətini aktivləşdirir, mətnə və natiqin qabiliyyətinə marağı artırır.

Nitq mədəniyyətinə həm də "hələ ədəbi normalar sisteminə və bədii dilin qanunları çərçivəsinə daxil olmayan, dilçilik sferalarının və hadisələrinin" (məsələn, gündəlik, yaxud sadə dil, müxtəlif sosialeklər və s.) təkmilləşdirilməsi daxildir. Nitq mədəniyyətinin etalonu kimi, bədii ədəbiyyat adlanan ədəbi dil çıxış edir. Eyni zamanda, nitq mədəniyyətinə qarşı dialektlərin diffuziyası, bayağı leksikondan istifadə olunması, özgə dillərdən lazımsız ifadələrin mənimsənilməsinin mənfi təsiri qoyulur. Dilçilikdə dilin ədəbi və bədii təmizliyi uğrunda qəti mübarizə aparan çoxlu sayda cərəyanlar içərisində purizm (lat. purus – təmiz, ədəbi-bədii dilin təmizliyini və onun tərkibindən hər hansı yad elementlərin çıxarılmasını tələb edən təlim) xüsusi əhəmiyyət kəsb edir. Lakin, purizm son nəticədə dilin "xalq yaradıcılığının çoxəsrlik köklərindən və milli dilin canlı proseslərindən ayrı düşməsinə səbəb olur". "Antinormallaşdırma" konsepsiyasına görə isə dilin formalaşması, təkmilləşməsi və inkişafı prosesinə müdaxilə edilməsi zərurəti inkar olunur [5].

Nitq mədəniyyəti təkcə nəzəri təlimləri ifadə etmir, o özündə müəyyən dil siyasətini, dilçilik normalarının təbliğatını və digər vacib məqamları birləşdirir: bu təbliğatda həlledici rolu həm linqvistlər, həm pedaqoqlar, həm şair və yazıçılar, həm də "ictimaiyyətin geniş dairələri" oynayır [5].

Söz mədəni, qlobal miqyasda düşünən insanın ən başlıca silahıdır, onun sivil aləminin, intellektual potensialının ifadə edilməsi vahididir. Dilçilik sahəsində qarşıya qoyulmuş əsas vəzifə bu dəyərlərdən düzgün istifadə olunmasıdır. Qloballaşan dünyada fikrin düzgün və aydın ifadə olunması, nitqin gözəlliyinin təmin edilməsi (gözəl danışmaq bacarığı) son dərəcə mühüm əhəmiyyət kəsb edir. Sözlərdən virtuoz şəkildə istifadə edilməsi ictimai həyatın bütün sahələrində gərəklidir və müxtəlif həyati situasiyalarda insana kömək edir. Nitq insanın xarakterinin, temperamentinin, intellektinin, alicənablığının, nəcibliyinin, iradi potensialının, nəhayət, müxtəlif

formalarda təzahür edən emosional halətlərinin periferiyaya çıxarılması sayəsində sözlərdə, ifadələrdə, cümlələrdə təcəssüm olunan mədəni fenomendir. Dəqiq və sərrast deyilmiş söz ifadəsi ilə insanların diqqətini cəlb etmək, onların pozitiv münasibətini, müsbət rəyini qazanmaq, meydana gəlmiş mübahisələri və münaqişələri həll etmək, bu və ya digər məsələdə yüksək kompetensiya nümayiş etdirmək, çətin vəziyyətlərdən çıxmaq, ətrafdakıların hörmətini və etibarını qazanmaq olar. Əksinə, dil qabiliyyətinin olmaması, söz ehtiyyatının kəsadlığı, fikirdən keçəni adekvat şəkildə ifadə edə bilməmək həm şəxsi həyatda, karyerada, həm də ictimai münasibətlər sistemində, sözün əsl mənasında, ciddi maneələrə və keçilməz baryerlərə çevrilə bilər.

Qloballaşma şəraitində nitq mədəniyyətinin qorunması və inkişafı ilə əlaqədar olan məsələlərdən biri regional və beynəlxalaq miqyasda işçi ünsiyyət dilinin və onunla əlaqədar rəsmi nitqin formalaşması və ondan istifadə ilə bağlıdır. Müasir qlobal dünyada nitqin intonasiyasından, ünsiyyətin formasından və effektindən işçi məqamların müsbət məcraya yönəldilməsi, eyni zamanda razılaşmaların, sövdələşmələrin və danışıqların nəticəsi asıdır. Bu baxımdan hər hansı səviyyədə işçi ünsiyyət və mədəni nitq elə bir mexanizmdir ki, o ayrı-ayrı hüquqi şəxslər, qurumlar, kollektivlər, rəhbərlər və konkret auditoriya arasında ilk növbədə psixoloji kontaktın yaradılmasına yardım göstərir. Işçi və rəsmi ünsiyyətin üç əsas tərkib hissəsi mövcuddur: məzmunlu (dəqiqliyi və məntiqli olması ilə seçilir), ifadəli (emosianal elementlərin zənginliyi ilə seçilir), oyandırıcı (dinləyicilərin fikirlərinə və hisslərinə təsir etmək qabiliyyəti ilə seçilir). Nitq mədəniyyəti işçi və rəsmi ünsiyyətdə aşağıdakı göstəricilərlə ifadə olunur: lüğət ehtiyatı, lüğət tərkibi, ifadə, stilistika, qrammatika.

İşçi və rəsmi ünsiyyət başqa cür korporativ kommunikasiya adlanır. Danışıqlar prosesinin tərkib hissəsi olan korporativ kommunikasiyanın bir neçə növü mövcuddur: ibrətamiz (mentor), ruhlandırıcı, etiraz doğuran (konfrontasiyalı), məlumat yönümlü. Mədəni nitq və işçi ünsiyyət isə aşağıdakı formalarda ifadə olunur: işçi müşavirələr, işçi danışıqlar, işçi yazışmalar, publikalı çıxış, mübahisələr.

Nitq mədəniyyətinin ən ali forması ritorika, yaxud natiqlik sənətidir. Gözəl danışıq qabiliyyətini, zəngin leksikonu, fikrin və ideyanın yüksək emosional halətlə və xüsusi pafosla ifadə olunmasını özündə əks etdirən natiqlik sənətinin əsas formasını və mahiyyətini həzərat qarşısında yüksək ekspressiv ifadələrə əsaslanan çıxış və irəli sürülən fikrə, yaxud ideyaya publikanın inandırılması təşkil edir. Burada natiqin nitq mədəniyyəti, aktyorluq imkanlarının təcəssümü və psixoloji hazırlıq sintez təşkil edərək bütöv bir informasiya sistemində təzahür edir. Incəsənətin xüsusi növü kimi natiqlik sənəti öz mənbəyini antik ritorikadan – qədim Yunanıstan və Roma mədəniyyətindən götürür. Bu gün bu sənətin inkişafı yeni metodlarla və köməkçi texniki vasitələrlə həyata keçirilir. Müasir texnoloji yeniliklərə əsaslanan səsli və vizual vasitələrin yardımı ilə ritorun nitqinin daha effektli olmasına şərait yaradılır. Natiqin, yaxud oratorun çıxışı, bir qayda olaraq monoloq tipli nitqin xüsusi növü kimi, nitq söyləyənin çoxsaylı auditoriyaya müraciəti kimi ifadə olunur. O, özünəməxsus kompozisiyaya, üsluba, verbal və qeyri-verbal (intonasiya, jest, mimika və s.) ünsiyyət vasitələrinin xüsusi şəkildə ifadə olunan qarşılıqlı əlaqəsinə əsaslanır. Belə nitq adətən təbliğat və təşviqat xarakteri daşıyır. Bu prosesdə natiqin intellektual hazırlığı, nüfuzu və onun iradəsinin fövqəladə şəkildə gərginliyi son dərəcə vacib və həlledici əhəmiyyət kəsb edir. Bütün bu dəyərləri öyrənən təlim ritorika adlanır. Ritorika geniş mənada nitq sənətini, bədii nitqin quruluşu qaydalarını, natiqlik sənətinin incəliklərini, gözəl danışmaq bacarığını özündə birləşdirən filoloji təlimdir. Laertli Diogenin məlumatına görə ritorikanın bir təlim kimi yaradılmasını Aristotel Pifaqor məktəbinin üzvü Empedokla aid edirdi. Qloballaşan dünyada natiqlik sənətinin daha da inkişaf etdirilməsi ümumbəşəri və milli-mədəni dəyərlərin effektli şəkildə təbliğ olunmasında və bu dəyərlərin planetar miqyasda yayılmasının təmin edilməsində əvəzolunmaz vasitə kimi çıxış edir.

Beləliklə, yuxarıda irəli sürülən müddəalardan belə bir ümumi nəticəyə gəlmək olar ki, nitq mədəniyyətinin, onun ayrı-ayrı aspektlərinin və təzahür formalarının inkişafı və daha da təkmilləşdirilməsi qloballaşan dünyada iqtisadi, siyasi və mədəni münasibətlərin ümumi bir nizama və təbii qanunauyğunluğa tabe etdirilməsinə xidmət edir.

**Ədəbiyyat**

1. Азимов Э. Г., Щукин А. Н. Новый словарь методических терминов и понятий. М.: Издательство ИКАР, 2009, 448 с.
2. Гринин Л.Е. Глобализация и национальный суверенитет //История и современность, 2005, №1, с.6-31
3. Кравченко А.И. Культурология: Словарь. М.:Академический проект, 2000, 671 с.
4. Кравченко А.И. Культурология: Учебное пособие для вузов. – 3-е изд. М.: Академический проект, 2002, 496 с.
5. Скворцов Л.И. Культура речи // Советский Энциклопедический словарь. М.: Советская Энциклопедия, 1979, 1600 с.

UOT 008

## Milli-mənəvi dəyərlərimiz qürurumuzdur

*Verdiyeva Ülviyyə Məhəmmədəli qızı*
*Mingəçevir Dövlət Universiteti*

Hər bir milləti dünyada tanıdan və onu digər xalqlardan fərqləndirən ən önəmli xüsusiyyətlərindən biri onun adət-ənənələri və bu müstəvidə yüksək mənəvi dəyərlər sisteminə malik olmasıdır. Bu baxımdan qloballaşan dünyada milli adət-ənənələr və onun əsasında formalaşdırılan yüksək mənəvi dəyərlər sistemi hər bir millətin mənəvi, mədəni simasını göstərir. Bəşər mədəniyyəti tarixinin araşdırılması sahəsindəki qazanılmış təcrübələr sübut edir ki, insanların mənəviyyatı, əxlaq normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Təbiətin hər bir xalqa bəxş etdiyi ən qiymətli miras onun milli mənəvi dəyərləridir. Bu səbəbdən hər şeydən əvvəl bütün sahələrdə, o cümlədən mədəniyyət siyasəti sahəsində mədəniyyətin təsbiti mövzusuna üstünlük verilməlidir. Milli-mənəvi dəyərlər gələcək nəsillərə daha da zənginləşdirilmiş halda ötürülməlidir. Şübhəsiz, mədəniyyət dəyişmədən və zənginləşdirilmədən varlığını qoruya bilməz. Bu məqsədlə müasir mədəniyyət siyasətində yaradıcı və qurucu səciyyəli hər cür fəaliyyət təşviq edilməli, yeni qabiliyyətlərin kəşf edilməsi, istiqamətləndirilməsi, dəyərləndirilməsi fəaliyyətlərinə mühüm əhəmiyyət verilməlidir.

Azərbaycan Şərqin zəngin tarixə malik ən qədim ölkələrindən biridir. Onun bugünkü dininin, elminin, dilinin, mədəniyyətinin, sənətkarlığının kökləri uzaq qərinələrdən gəlir. Zamanın sərt sınaqlarından çıxmış xalqın bu mənəvi dəyərləri ilk insan məskənlərindən biri olan Azıx mağarası, sehirli Gəmiqaya yazıları, Qobustan qayaüstü rəsmləri və təkrarolunmaz örnəkləri ilə özünü dünyaya tanıtdırmışdır.

Xalq haqqındakı hər bir hökm keçmişə, indiyə və gələcəyə aid dərin biliyə, son dərəcə dürüst müşahidəyə və ağıllı məntiqə əsaslanmalıdır [1].

Azərbaycan xalqının xarakterində də müsbət və mənfi cəhətlər nəzərəçarpacaq dərəcədə özünü göstərir. Azərbaycan xalqının alicənablıq, əliaçıqlıq, başqasına əl tutmaq, kişi sözü, ağsaqqala hörmət, müəllimə ehtiram, qadını uca tutmaq, abır-həyalı, ismətli olmaq kimi gözəl xüsusiyyətləri var.

Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasında Leylinin anasının nəsihətini xatırlayaq: "Qızsan ucuz olma, qədrini bil. Əks kimi hər surətə baxma, hər gördüyünə su kimi axma. Mey damağa səfa versə də, axdığı üç ayağa düşür".

Güzgü kimi sırtıq üzlü olma, nərgiz kimi qıyğacı baxışlı olma... Sən şamsan, havaya uyma, çünki hava şamı səmaya verər. Gəlincik kimi özünü bəzəmə, pəncərə kimi küçələr gözləmə. Oğlan aşiq olsa gözüm, ar yaman olur, amandır, namusumuzu itirmə" [7].

Ərləri düşmənlərin caynağında ölüm ayağında olanda belə əhd-peymanlarına sadiq qalmış, hər cür çətinliyə dözərək onların yolunu gözləyən gözəl Nigarımız, qəhrəman Həcərimiz, Tuti Bikələrimizi xatırlayaq və yaxud da respublikamızda müharibənin neçə vaxt davam etməsi ilə əlaqədar neçə-neçə qız gəlin hər cür əziyyətə qatlaşaraq nişanlı ər yolu gözləyirlər. Başqa millətlərdən olan oğlanlara ərə getməmək də azərbaycanlı qızlarına məxsus xüsusiyyətdir. Əlbəttə ki, bütün bu xüsusiyyətlər Azərbaycan qadınının nə qədər məğrur, alicənab olduğunu sübut edir.

Məhəmməd Peyğəmbər insanın mənəviyyatına böyük əhəmiyyət verərək göstərirdi: "Millətim üçün üç şeydən qorxuram, alimin xətasından, münafiqin Quran haqqında cəfəng danışığından və mənəviyyatı məhv edən mühitdən" [5].

Bu fikirdə dərin məna vardır və insanlar düzlüyə, təmiz əxlaqlı olmağa səslənir. Klassik Şərq ədəbiyyatında ağıl insana xas olan ən mühüm mənəvi keyfiyyat kimi göstərilir. Ona görə də bir iş görəndə dərin düşünmək, ağılla hərəkət etmək, yalnız ağılın köməyi ilə qələbə çalmağın mümkünlüyü göstərilir. Məsələn, "Kəlilə və Dimnə"də deyilir: "Ələ gətirmək, saxlamaqdan asandır. Çünki çox qiymətli, nəfis və nadir şeylər bəzən xoşbəxt təsadüf, bəzən hadisələrin cərəyaanı nəticəsində heç bir əmək sərf etmədikdə də ələ gələ bilər, lakin agıllı hərəkət edib düzgün tədbir görməkdən onu saxlamaq çox çətindir. Ağıl meydanında piyada, təcrübə aləmində naşı olanın qazandığı çox tez əldən çıxar. Ona peşmançılıq və təəssüfdən başqa heç şey qalmaz".

Buradan çıxan nəticə odur ki, bütün mənəvi keyfiyyətlərin əsasında bilik qazanmaq və elm dayanır. Çünki elm, bilik öyrənmək vasitəsilə insan öz ağlını, idrakını inkişaf etdirir.

"Qabusnamə"də deyilir: "Ləyaqət əql və ədəbdədir, əsil-nəcabətdə deyildir. Böyüklük və mərifət bilikdədir. Haralı və kimlərdən olmaqda deyildir. Sən ata və ananın şan-şöhrəti ilə kifayətlənməməlisən, çünki o xarici bəzəkdir. Əsl ad-san ona deyərlər ki, onu öz istedad və bacarığınla əldə etmiş olasan, bu zaman səni "Zeyid", "Cəfər", "əmi", əvəzinə "müəllim", "alim" çağırarlar". Əgər əsil-nəcabəti olan adamın öz bacarıq və ləyaqəti yoxsa, o heç kəsin işinə yaramaz. Lakin bir adamda hər iki xüsusiyyət olsa, ondan bərk yapış, əldən buraxma ki, o, hamının işinə yarayar [6].

Milli-mənəvi dəyərlərin tərkib hissəsi olan əxlaq ictimai həyatın mürəkkəb çoxcəhətli bir hadisəsini əks etdirən anlayışdır. Buraya birinci növbədə, davranış normaları daxildir. Əxlaq ümumi şəkildə insanlar arasında, insanla cəmiyyət arasında mənəvi əlaqələri əks etdirir. Yaxşılıq, ədalətlilik, borc, şərəf və insan ləyaqəti, vicdan, xoşbəxtlik kimi kateqoriyalar bütün dövrlərin və bütün xalqların əxlaqına xas olmuşdur. Milli-mənəvi tərbiyə və milli-mənəvi dəyərlər insanlar arasında münasibətləri tənzimləyir, yəni müəyyən bir istiqamətə yönəldir. İnsan davranışının bilavasitə tənzimləyicisi, ya hər hansı bir hərəkətin birbaşa qadağan edilməsi, ya da müəyyən vəziyyətdə insana özünü necə aparmağı göstərən mənəvi normadır.

Milli-mənəvi dəyərlər böyüyən nəslin müəyyən cəmiyyətdə lazım olan ruhda tərbiyə edilməsi işinə xidmət göstərir. Milli-mənəvi tərbiyəni məqsədi hər şeydən əvvəl, ictimai-mənəvi tələbləri hər bir adamın şəxsi mənəvi sərvətinə çevirməkdən, yəni həyata qədəm qoyan hər bir adamın cəmiyyətdə yaranmış mənəvi sərvətləri özünə daxilən lazım olan mənəvi nemət kimi qəbul etməsinə nail olmaqdan ibarətdir.

Azərbaycanda əsrlərdən bəri mövcud olan tolerantlığın, müxtəlif etnik, dini mənsubiyyətə malik olan toplumların mehriban birgəyaşayışının şahidi oluruq. Bunun əsas səbəblərindən biri odur ki, qeyd etdiyimiz kimi, Azərbaycan tarixən dini və dünyəvi dəyərlərin uzlaşdığı, fərqli mədəniyyətlərin bir arada yaşadığı və inkişaf etdiyi, sivilizasiyaların qovuşduğu bir məkandır. Uzun əsrlər boyu Azərbaycan xalqı özünün milli, dini mənəvi dəyərlərinə bağlılığını qoruyub saxlayıb, eyni zamanda, başqa dinlərin və etnik qrupların nümayəndələri ilə tolerant, mehriban birgəyaşayış mühitində sahib olduğu yüksək mənəvi keyfiyyətlərini inkişaf etdirib. Nəticədə, dini və dünyəvi dünyagörüşünün uzlaşdığı müasir Azərbaycan cəmiyyəti formalaşıb.

Milli irsimizin mühafizəsi məsələsi Azərbaycan Respublikası Konstitusiyasının 40-cı maddəsində öz əksini tapıb. Milli-mənəvi dəyərlərə bağlılığın qorunub saxlanması dövlət başçısının daim diqqətindədir. Qeyd edək ki, Prezident İlham Əliyev dəfələrlə Azərbaycan xalqının hər zaman milli mənəvi dəyərlərinə sadiq olduğunu söyləyib. Dövlət başçısının sözlərinə əsasən, məhz bu

dəyərlər bizi bir xalq kimi qoruyub saxlayıb və bu gün, müstəqillik dövründə Azərbaycanda dövlət quruculuğu prosesi də məhz milli mənəvi dəyərlər üzərində həyata keçirilir [2].

Apardığımız araşdırmalardan belə qənaətə gəlirik ki, milli-mənəvi dəyərlər milli-mənəvi tərbiyə prosesində vasitə rolunu oynayır və milli-mənəvi tərbiyənin məqsədi, hər şeydəən əvvəl, ictimai mənəvi tələbləri hər bir adamın şəxsi mənəvi sərvətinə çevirməkdən, yəni həyata qədəm qoyan hər bir adamın cəmiyyətdə yaranmış mənəvi sərvətləri özünə daxilən lazım olan mənəvi nemət kimi qəbul etməsinə nail olmaqdan ibarətdir [4].

## Ədəbiyyat


1. Ağaoğlu E. Görümlər, deyimlər, duyumlar. Bakı: Azərnəşr, 1993, 256 s.
2. Cəfərov N. Milli mənəvi dəyərlərimiz Azərbaycan dövlətinin əsaslarını təşkil edir. “Səs qəzeti”, 24 oktyabr, 2013
3. Əzizova Z. Orta ümumtəhsil məktəblərinin IX-XI siniflərində şagirdlərə milli-mənəvi tərbiyənin aşılanmasının səmərəli yolları. Mingəçevir: Mingəçevir Poliqrafiya müəssisəsi, 2003, 160 s.
4. Həsənli S. 101 hədis. Bakı: Gənclik, Dan yeri PHK, 1990, 32 s.
5. Qabusnamə. Bakı: “Şərq-Qərb”, 2006, 216 s.
6. Məhəmməd Füzuli. «Leyli və Məcnun» poeması. Bakı: "Şərq-Qərb", 2005, 336 s.


UOT 008 (091)

## Azərbaycanın maddi mədəniyyət abidələri avropalı səyyahların gözü ilə

*Quliyeva Tahirə Əli qızı*
*Mingəçevir Dövlət Universiteti*

Zaman-zaman Azərbaycana səfər etmiş avropalı səyyahlar öz xatirələrində vətənimiz haqqında, onun maddi mədəniyyət abidələri haqqında maraqlı məlumatlar qoyub getmişlər. Belə səyyahlardan biri dövrünün tanınmış alimlərindən olan alman səyyahı Adam Olearidir (1599-1671). A.Oleari 1633-1634-cü illərdə Şlezviq-Holşteyn səfirliyinin tərkibində Rusiyada, 1635-1639-cu illərdəki səyahəti zamanı isə Səfəvilər dövlətində olmuşdur. 22 oktyabr 1635-ci ildə Hamburqdan yola çıxan alim 1636-cı ilin martın 29-da Moskvaya çatır. İyunun 30-da Nijni-Novqorod yaxınlığındakı Balaxnaya yola düşmüş, buradan da əvvəlcədən Volqa çayında hazırlanmış gəmi ilə Xəzər dənizinə, oradan cənuba hərəkət edərək Azərbaycana gələrək oradan da İsfahana – Səfəvi sarayına getmişdir. Qeyd etmək lazımdır ki, 1636-1638-ci illərdə A. Oleari Azərbaycanın Niyazabad, Ərdəbil, Qızılağac, Şamaxı, Cavad kimi yaşayış məntəqələrində olmuş, tarixi keçmişimizə aid zəngin material toplamışdır. Niyazabad (Xaçmazın indiki Niyazoba kəndi) kəndinə gəlməsinin səbəbi Volqa ilə aşağıya doğru hərkət edən səfirlik nümayəndələrinin olduğu gəminin güclü fırtınaya düşərək sahilə çıxmağa məcbur olması idi. Dərbənddə olarkən Oleari yerli əhalidən bir sıra maraqlı rəvayətlər yazıya alır. 1643-cü ildə A.Oleari səyahətləri haqqında xatirələrini yazır. Əsərdə Azrəbaycanın təbiəti, tarixi, iqtisadiyyatı, əhalisinin adət-ənənələri, Azərbaycan dilinin yayılma arealı (İraq, İrəvan, İsfahan) Səfəvilər dövlətinin inzibati quruluşu, elm, ədəbiyyat və s. haqqında qiymətli məlumatlar, çoxlu şəkil, o cümlədən Şamaxının qravürası və xəritə verilmişdir [1].

“Qorqudlar” silsiləsinin Dərbəndlə bağlı olan Dədə-Qorqud dastan eposu, rəvayət və yaddaşla yanaşı, tarix qaynaqlarında da iz qoymuşdur. Bu baxımdan 1638-ci ildə Dərbənddə olarkən A.Olearinin qeydə aldığı səfər təəssüratı Dədə Qorqud məsələsinə xeyli dərəcədə aydınlıq gətirir. Onun yol qeydləri Dədə Qorqudun, Qazan xanın və Burla xatunun tarixi kimliyi, onların qəbirlərinin coğrafi və məhəlli koordinatları barədə qiymətli ipucları verir. A.Olearidən on bir il sonra Dərbənddə olmuş məşhur türk səyyahı Övliya Çələbi də Dədə Qorqudun qəbrinin Dərbənddə

olmasını və ziyarətgah sayılmasını qeydə almışdır: "Ziyaretgahe Dədə Xorxud. Ulu Sultandır, Şirvanlılar bu Sultana mötəqiddirdilər" [4].

Bu mənbələrlə yaxından tanış olduqdan sonra akademik V.V.Bartold 1908-ci ildə Dərbəndə elmi səfərə yollanmış və Adam Olearinin təsvir etdiyi şərti (sözlü) xəritəyə əsasən Dədə Qorqudun qəbrini axtarmağa başlamışdır. Onun aşağıdakı qeydi olduqca maraqlıdır: "İyulun 21-də kənd sakinlərinin biri və tələbə İsrafillə Olearinin təsvir etdiyi yeri - şəhərdən şimal tərəfdəki ərazini gözdən keçirtdim. Xüsusi hasara alınmış qırx şəhidin məzarı yerləşən böyük qəbiristanlığın Qırxlar qapısından keçdikdən sonra yol bulağın yanından keçir və daha sonra quru çay yatağı ilə kəsişir. Deyilənə görə, yağış yağan kimi bu çayın yatağı su ilə dolur. Şəhərin alaqapısından olan məsafə Olearinin göstərdiyi rəqəmlə (milin dörddə biri, yəni təxminən iki verst) uyğunlaşır. Bulağa çatmamış, yolun sağında, üzümlüyün qarşısında düşüb iki yerə parçalanmış böyük qəbir daşı tapdıq. Daşın altında yerləşən quyuya endikdə, alt tərəfdəki yazıları görmək olurdu. Ancaq daşın ağırlığı imkan vermirdi ki, onu çevirib yazıları oxumaq mümkün olsun. Üst tərəfdə heç bir yazı yox idi. Çox güman ki, bu məzar daşı Olearinin dediyi və "Pir Muxar"a (Pir-Muxtara) aid etdiyi "çöldəki qəbir"lə bağlıdır. "Qayalı hündürlükdəki-dağdakı qəbir" buraya yaxın bir yerdəymiş. Doğrudan da, sıldırım qaya qərb tərəfdən bu qəbir daşına çox yaxındır. Ancaq yerli sakinlər oradakı mağara və ziyarətgah-məzar barədə heç nə bilmirdilər. Qorqudun adı da onlara qətiyyən bəlli deyildi" [3].

Göründüyü kimi, V.V.Bartoldun Dədə Qorqudun qəbri ilə bağlı apardığı incələmənin əsas uğuru A.Olearinin göstərdiyi koordinatların xeyli qismini yenidən müşahidə etməsi və təsdiqləməsidir.

A.Oleari Şamaxıya gedərkən karvan yolunun üstündə olan "Barmaq" dağı haqqında çox maraqlı məlumat verir. Səyyah göstərir ki, Beşbarmaq qayasının yaxınlığına çatdıq. O, buradakı orta əsr karvansarasını nəzərdə tutaraq yazır ki, biz bura çatan kimi dağın dibindəki açıq həyətə daxil olduq. Oleari karvansaraların bu cür həyətlərin və sığınacaqların bu ölkədə lap çox olduğunu göstərir. Bu fakt o zaman Azərbaycanda ticarətin, o cümlədən xarici ticarət əlaqələrinin inkişafı haqqında aydın təsəvvür yaradır. Səyyah yazır ki, "bu karvansara kvadrat şəkilli böyük daşlardan tikilən çox qədim binadır, o dördkünc formada tikilib və hər divarının uzunluğu 42 addımdır". Oleari dağın Xəzərdən iki muşket gülləsi məsafədə olduğunu qeyd edir. O yazır ki, dağdakı köhnə divar uçuqlarına, xarabalarına əsasən asanlıqla belə qənaətə gəlmək olar ki, burada güman ki, əla bir bina və yaxşı istehkam varmış, uca Barmaq qayasının ətəyində 50 kvadrat sajen böyüklüyündə düz yer var ki, buranı qalın divarlar və dörd qüllə əhatə edir. Bu yerin ortasında daşdan hörülmüş çox dərin bir quyu, onun da yanında üstü böyük dairəvi daşlarla örtülmüş iki qəbir var. Səyyah deyilənlərə əsaslanıb Beşbarmaq qalasının Böyük İsgəndər tərəfindən tikildiyini, Teymur tərəfindən isə dağıdıldığını göstərir.Yaxşı rəsm çəkmək qabiliyyəti olan Oleari Beşbarmağın təsvirini yaratmış və səyahətnaməsinə daxil etmişdir.

1636-cı ildə Şamaxıda olmuş alman alimi Adam Oleari yazırdı: "Şamaxı hər iki tərəfdən ayrıca divarlar ilə əhatə olunmuş iki hissədən ibarətdir. Burada müsəlmanlardan başqa gürcü, yəhudi, rus və hind tacirləri də yaşayır və ticarətlə məşğul olur.Ticarət və sənaye mərkəzi olan bu şəhərdə 700 ev, 26 məhəllə, 40 məktəb, 70 məscid, 7 hamam, 44 karvansara, 200-ə yaxın dükan vardır" [2].

Türk səyyahı Evliya Çələbi (1616-82) 1648 – ci ildə Şamaxıda olmuşdu". O özünün "Səyahətnamə"sində göstərirdi ki, Şamaxı şəhərində 7000 əsaslı ev, 26 məhəllə, 7 mədrəsə, 40-a qədər məktəb, 7 gözəl hamam, 44 daş karvansara var idi. A. Olearidən 31 il sonra Şamaxıda olmuş Evliya Çələbi demək olar ki, A.Olearinin məlumatlarını tamamilə təsdiq edir. Lakin Olearinin məlumatında evlərin sayı 7000 deyi, 700 göstərilmişdir [2]. Ola bilsin ki, bu çap zamanı yol verilmiş yanlışlıqdır.

Arxiv sənədlərindən və başqa mənbələrdən toplanılan məlumatlara görə bu məhəllələrin sayı 26-dan da artıq olmuşdur ki, bunlar aşağıdakılardır:

Piran-Şirvan, 2. Aşağı İmamlı, 3. Babılar, 4. Cuhudlar, 5. Cırta-Pırtı, 6. Çaparlı, 7. Dəllək Həsənli, 8. Dərə məhəllə, 9. Ərdəbilli, 10. Ərəblər, 11. Garıslar, 12. Gürcü, 13. Xaxortlu, 14.Kövsərli, 15.Qalabazar, 16. Qırmızı məhəllə, 17. Qurdlar, 18. Minaxor, 19. Moltanı, 20. Pirəgülöşlü, 21. Sarıtorpaq, 22. Salamovlar, 23. Şıxminaz, 24.Şıxsəirli, 25. Şahpirli, 26. Şəhidlər,

27. Şeydanlı, 28. Şahküçə, 29. Tahirli, 30. Topalhəsənli, 31. Talış, 32. Ucarlı, 33. Yuxarı İmamlı. Bu məhəllələrdən Babılar, Çaparlı, Ərdəbilli, Ərəblər, Garıs, Salamovlar və Şıxsəirli məhəllələri XIX əsrin 20-ci illərindən sonra meydana gəlmişdir [2].

Şamaxını tərk etdikdən sonra Qolştiniya elçiləri Kür sahilinə – Cavad kəndinə çatdılar. Burada sakit axan Kür və Araz çaylarının 140 addım enində və dərin olduğunu qeyd edən Oleari Muğan haqqında maraqlı məlumat verir. Olearinin yazdığına görə, Cavad kəndi yaxınlığında, Şirvanla Muğanın sərhəddində olan Kür çayı üzərində o zaman bərə-körpü və ya sal körpü varmış. Kürün o tayında, Araz sahili ilə hərəkət edən Oleari Ərdəbilə çatır. Olearinin Ərdəbil haqqında ən maraqlı məlumatlarından biri də budur ki, o, bu qədim Azərbaycan şəhərinin adının türk sözü olduğunu qeyd edir və bu şəhərin Azərbaycan vilayətində yerləşdiyini göstərir. Ərdəbillə yanaşı Təbriz, Marağa, Naxçıvan, Mərənd, Urmiya, Xoy və Səlmasın da bu vilayətə məxsus olduğunu yazır. Səyyah Ərdəbilin qədim və şöhrətli şəhər olmasının səbəbini Səfəvilərin burada dəfn olunması ilə izah edir.

Səyyah göstərir ki, Ərdəbil uca dağlarla əhatələnmişdir. Şəhərdə kifayət qədər geniş və yaxşı bir meydan var. Gəzinti yeri olan bu meydanın uzunu 300, eni isə 150 addım olar. Meydanın hər iki tərəfi başdan- başa gözəl, sıra ilə tikilmiş dükanlardan ibarətdir. Bu ticarət meydanının girəcəyində sağ tərəfdə uzaqda Şeyx Səfi türbəsi ucalır. Şeyx Səfi kompleksi barədə çox maraqlı məlumatın ən dəyərli hissəsi kitabxana haqqındadır. O yazır ki, biz abidəni gəzə-gəzə çox geniş və qızıl suyu ilə bəzək vurulmuş məscidə oxşar bir otağa daxil olduq. Bizim üçün burada ilk anda təəccüb doğuran məharətlə düzəldilmiş tağ-tavan oldu. Ən təəccüblüsü isə bu idi ki, bu nəhəng qübbə necə düzəlmişdisə bir dənə də sütunu olmadan dayanırdı. Bu salonda kitabxana yerləşirdi. Bu rada əsrarəngiz üz qabıqları ilə bəzədilmiş saysız kitablar var idi.

Avropa səyyahlarının xatirələri orta əsrlər Azərbaycanın maddi-mədəniyyət nümunələrinin öyrənilməsində böyük əhəmiyyətə malikdir.

### Ədəbiyyat


1. Azərbaycan Sovet Ensiklopediyası. 10 clddə: VII cild. Bakı: ASE, 1983, 754 s.
2. Niyazlı B. Şamaxı xanlığı. B.: “Nurlar”, 2014, 204 s.
3. Бартольд В.В.. Сочинение. В 8 томов: V том, М.: Наука, 1968, 709 с.
4. Челеби Э. Книга путешествий сейахатname земли Закавказья и сопредельных областей Малой Азии и Ирана. Вып. 3. М.: Наука, 1983, 241 с.



UOT 008


## Milli-mədəni irsimizin qorunmasında tarixi – dini abidələrin rolu və təbliği məsələləri


*Qocayeva Aysel Möhrəddin qızı*
*Mingəçevir Dövlət Universiteti*


Azərbaycanın milli-mədəni irsi xalqımızın uzaq keçmişinin zənginliyindən xəbər verir. Belə ki, milli-mədəni irsimiz ölkəmizin tarixini özündə yaşadan zəngin informasiya mənbəyidir. Maddi və mədəni irs nümunələrimiz nəsillərdən nəsillərə keçərək müasir dövrümüzə qədər gəlib çatmışdır. Bu nümunələr içərisində tarixi və dini abidələr mühüm əhəmiyyət daşıyır. Danılmaz faktdır ki, hələ qədimdə Azərbaycan ərazisində aparılmış arxeoloji qazıntılar zamanı bu tarixi torpaqlarda qədim insanların yaşadığı və şərəfli ömür yolu keçərək çoxsaylı abidələr yaratdığı bəllidir. Bu abidələr bizim tarixdir. Araşdırmalar göstərir ki, ölkənin bütün ərazisində abidələr mövcuddur ki, bunların da yaşı əsrləri əhatə edir.

Azərbaycan xalqının mədəni irsi daim ümummilli lider Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. O, bu abidələrin qorunmasına, bərpasına, təbliğinə və gələcək nəsillərə çatdırılmasına hər

zaman böyük önəm vermişdir. Bəşər mədəniyyətinin tərkib hissəsi olan maddi-mənəvi irsin qorunması beynəlxalq əhəmiyyət kəsb etdiyindən onların mühafizəsi bu gün də diqqət mərkəzindədir. Azərbaycan dövlətinin yürütdüyü humanitar siyasət nəticəsində respublika ərazisindəki mövcud tarixi, dini və mədəniyyət abidələrinin aşkar edilməsi və mühafizəsi istiqamətində çox böyük və məqsədyönlü layihələr həyata keçirilir. Bu istiqamətdə Heydər Əliyev Fondunun gördüyü işlər təqdirə layiqdir. Məhz bu fondun reallaşdırdığı bir sıra regional, yerli və beynəlxalq layihələr əsasında xalqımızın maddi-mənəvi sərvətlərinin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması xüsusi fəaliyyət proqramına çevrilmişdir. Bundan başqa bu yaxınlarda "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" hazırlanmış və ölkə Prezidenti tərəfindən təsdiq edilmişdir.

Təəssüf ki, tarixən Azərbaycanın mədəniyyət nümunələrinin milli, məhəlli münaqişələrin qurbanlarına çevrilməsi halları da az olmayıb. Ötən əsrin əvvəllərində və sonlarında ermənilərin məkrli, çirkin əməlləri nəticəsində yer üzündən silinən abidə və məbədlərimiz də həddindən artıq çox olmuşdur. Həmin abidələr Azərbaycan xalqının tarixi və mədəniyyətinin zənginliyini, qədimliyini özündə əks etdirdiyi üçün qəddarcasına yer üzündən silinmiş və ya erməniləşdirilmişdir. Dağıdılmış və məhv edilmiş maddi mədəniyyət nümunələrinin arasında təkcə Şuşa, Laçın və Qubadlının rəsm qalereyaları deyil, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Kəlbəcərin ərazilərində qorunub saxlanan sərvətlər, muzeylər də talan edilərək Ermənistana daşınmışdır.

Bu gün Bakı və ölkənin digər bölgələrində memarlıq, tarixi və dini abidələr dövlət tərəfindən qorunur. Lakin buna baxmayaraq, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində işğal altında qalan torpaqlarda öz tarixi irsimizi qorumaq qeyri mümkündür. Torpaqlarımız erməni işğalı altında olduğu üçün tarixi abidələrimiz, muzeylərimiz, dini məbədlərimiz, məscidlərimiz ermənilər tərəfindən dağıdılmışdır. Dağıdılmış maddi-mənəvi irs nümunələrimizi bərpa etmək üçün ilk öncə Dağlıq Qarabağ münaqişəsinə son qoyulmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı və bizim vətəndaşlarımız öz doğma torpaqlarına qayıtmalıdırlar.

Milli-mədəni irs nümunələrimizdən ən önəmlisi də tarixi dini abidələrdir. Bu abidələr hər zaman diqqət mərkəzində saxlanılmalıdır. Çünki, onlar bizim kökümüz, dini mənsubiyyətimiz, tarixi yaddaşımız və coğrafiyamız haqqında zəngin məlumat əldə etməyimizdə bizə çox gərəkli vasitələr, nadir incilərdir. Dini abidələr hər hansı bir bölgənin dini tarixi, həmin ərazidə yaşayan insanların mənəvi aləmi haqqında müəyyən məlumat əldə etməkdə önəmli rol oynayır. Həmçinin, dini memarlıq abidələri insanların mənəviyyatına, əxlaqına, mədəniyyətinə, sosial həyatına da böyük təsir göstərir. Odur ki, ölkə ərazisində olan bütün abidələr öyrənilməli, arxeoloji tədqiqatlar aparılmalı və turizm marşrutlarına daxil edilməlidir. İctimaiyyət hər zaman bu abidələr haqqında məlumatlandırılmalıdır. Tarixi-dini abidələrin turizm marşrutlarına daxil edilməsi həm coğrafi bölgənin inkişafına, həm də yerli sakinlərin yaşayış səviyyəsinə müsbət təsir göstərəcəkdir [3].

Dünya təcrübəsində tarixi mədəniyyət və dini abidələr həm də dini turizmin inkişafına təsir göstərən və ölkəni əcnəbi ziyarətçilər üçün cəlbedici edən mühüm faktorlardan biri hesab olunur. Çünki turistlər səyahət etdikləri ölkənin tarixini, yaşayış tərzini, dini mənsubiyyətini əks etdirən maddi mədəniyyət nümunələrinə maraq göstərirlər. Deməli, dini turizm həm də ölkənin mədəni irsinin, dini abidələrinin dünyaya tanıdılmasında əhəmiyyətli rol oynayır [1].

Azərbaycanda da dini turizmi daha da populyar etmək üçün kompleks işlər görülməlidir. Bunun üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi daha məqsədə uyğundur:

1. İlk növbədə bu abidələrin yaxınlığında müvafiq infrastruktur yaradılmalıdır;
2. Daha sonra bu yerlər haqqında kütləvi informasiya vasitələrində daha çox məlumatlar getməli və reklam işi aparılmalıdır;
3. Turizm agentlikləri öz turlarına dini ziyarətgahları da əlavə etməlidirlər;
4. Həmçinin ziyarətgahların xarakterinə görə müvafiq təminatlar və şəraitlər olmalıdır. Bunlara ziyarətgahlarda gigiyenik normalara uyğun qurbangahlar, ət saxlama yerləri, insanların qidalanması üçün müvafiq infrastrukturun olması, turagentliklərin qurban heyvan təminatı və s. daxildir.

5. Ziyarətgahların dini icma, hüquqi şəxs kimi fəaliyyət göstərməsi, burada nəzir və qurbanların xeyriyyə məqsədləri üçün şəffaf bölgüsünün təmin edilməsi çox vacibdir. İnsanlar öz nəzirlərinin və verdikləri qurbanların dini qaydalara uyğun olaraq ehtiyacı olanlara (uşaq evlərinə, qocalar evinə, sığınacaqlara və s.) verildiyini bildikləri təqdirdə daha böyük həvəslə bu yerlərə gələrlər.

6. Ölkəmizdə nəinki dini abidələrə, heç turizm mərkəzlərinə gedən yollarda belə lazımi nişanlara az rast gəlirik. Dini abidələr bəzən yaşayış yerlərindən uzaqda olur. Odur ki, bu nişanların qoyulması uzaqda olan dini ziyarətgah yerlərinə insanların gedib çıxmasına əlverişli şərait yaradar.

7. Ölkələrdəki inanc yerləri haqqında məlumat mübadiləsinin gücləndirilməsi.

Bütün bunlar həyata keçirildiyi təqdirdə respublikamızda dini turların təşkili sahəsində mühüm irəliləyişlər əldə etmək olar. Həmçinin tarixi-dini abidələrimiz geniş təbliğ olunar.

## Ədəbiyyat

1. Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H., Beynəlxalq turizmin coğrafiyası, Bakı: Mütərcim, 2002

2. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və təbliği: araşdirma, təklif və tövsiyələr. Miras mədəni irsin öyrənilməsinə kömək ictimai birliyinin “Azərbaycanda tarix və mədəniyyət abidələrinin mühafizəsi və təbliği: mövcud vəziyyətin monitorinqi və qarşıda duran vəzifələr” layihəsi çərçivəsində Prof. Dr. Qafar Cəbiyev, Dr. Fariz Xəlilli, Arzu Soltan, Rəşad İbrahimov, Albina Rzayeva, Bakı, 2010

UOT 008

# Azərbaycanda multikulturalizmin inkişafı – müxtəlif mədəniyyətlər, adət-ənənələr

*Quliyeva Ədalət Abid qızı*
*Uşaq Yaradıcılıq Mərkəzinin direktoru*

Mədəniyyətlərin müxtəlifliyinin, tolerantlığın, mədəni inteqrasiya, mədəniyyətlərarası dialoqun hökm sürdüyü ölkələrdə demokratiya özünün ən yüksək inkişaf səviyyəsinə çatır. Multikulturalizm siyasəti münaqişələrə qarşı çıxır, milli azlıqların yaşadıqları ölkələrin qanunlarına riayət etmələrini, eləcə də mədəni müxtəlifliyi, qarşılıqlı etimadı və həmrəyliyi təmin edir.

Asiya və Avropa arasında körpü olan Azərbaycan, tarix boyu sivilizasiyaların və mədəniyyətlərin qovuşuğunda mədəniyyət müxtəlifliyinin yaranmasında mühüm rol oynayır. Multikultural dəyərlərə malik qədim Azərbaycan özünü Şərqlə Qərbin mənəvi mədəni sərvətlərinin müxtəlif sivilizasiyaları və mədəniyyətləri ilə birləşdirir.

Ölkəmizdə tarixən birgə yaşayan xalqlar, toplumlar özlərini azad, firavan hiss edərək yaşayırlar və öz mədəniyyətlərini yaşadırlar, öz dini inanclarına uyğun ibadət edir, heç bir ögey münasibətlə üzləşmədən müxtəlif sahələrdə öz töhfələrini verirlər, çünki Azərbaycan, məhz multikulturalizmin əsas məkanlarından biridir.

Multikulturalizm ənənələri Azərbaycanda əsrlər boyu həmişə mövcud olub. Ölkəmizdə yaşayan müxtəlif xalqların mədəniyyət hüquqları həmişə tanınıb. Ümumbəşəri dəyərlərin təbliği Azərbaycan poeziyasının nümayəndələrinin əsərlərində başlıca yerlərdən birini tutur. Buna misal olaraq, bədii yaradıcılığın ən gözəl nümunələrini yaradan Nizami Gəncəvinin (1141-1209) əsərləri bu cəhətdən xüsusilə fərqlənir. Onun yaratdığı qəhrəmanların içərisində türk, fars, ərəb, hindli, çin, yunan, gürcü və digər xalqların nümayəndələrinə rast gəlinir [4]. Heydər Əliyev ilk dəfə olaraq multikulturalizmi azərbaycançılıq ideyasının tərkib hissəsi kimi təqdim etdi və Azərbaycanın çoxmədəniyyətlilik ənənəsini inkişaf etdiməyi, Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim

sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndirməliyik və qoruyub saxlamalıyıq. - deyərək tövsiyə etdi [1].

Multikulturalizm siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilib. Ölkəmizdəki tolerantlıq mühitinin əsasında duran mühüm amillərdən danışarkən ilk növbədə siyasi sabitliyi, sosial və iqtisadi inkişafı qeyd etmək vacibdir.

Multikulturalizm və tolerantlıq ənənələrimizin beynəlxalq miqyasda təbliğinə Heydər Əliyev Fondu da böyük töhfələr verib və bu töhfələr Fondun Prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətlərinin, təkcə ölkəmizdə deyil, Hollandiya, Rusiya, Pakistan, Gürcüstan, Rumıniya, Misir və digər ölkələrdə bir sıra təhsil ocaqlarının müasirləşdirilməsinə xüsusi diqqət göstərməsinin təzahürüdür. Eyni zamanda Luvr muzeyində İslam mədəniyyəti bölməsinin təşkilində, Romada katakombaların bərpasında, yəhudi uşaqlar üçün təhsil imkanlarının yaradılmasında, Strasburq və Fransanın digər regionlarındakı kilsələrin təmirində Heydər Əliyev Fondu yaxından iştirak edib [3].

Müxtəlif mədəniyyətlər, adət-ənənələr. Əlbəttə ki, digər mədəniyyətlərin mahiyyətini, xüsusiyyətini, tarixini və nailiyyətlərini öyrənmədən, onlara qarşı tolerant münasibət, onların nümayəndələrinə hörmət mümkün deyil, qarşılıqlı anlaşma, mədəniyyətlərin və sivilizasiyaların dialoqunu qurmaq mümkün deyil.

Azərbaycan bütün dünyada çoxmillətli və tolerant ölkə kimi yaxşı tanınır. Ölkəmizdə etnik qruplar, azsaylı xalqlar azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşərək qarşılıqlı anlaşma, dostluq, sülh və əmin-amanlıq şəraitində yaşayır, fəaliyyət göstərir və bir-birlərinin dini etiqadlarına böyük hörmət göstərirlər.

Azərbaycanda multikulturalizm ənənələrinin gücləndirilməsinə dövlət dəstəyi formalaşıb ki, indi bu dəstək özünün çiçəklənmə dövrünü yaşayır. Bu gün multikulturalizm ölkəmizdə gedən demokratik proseslərin ayrılmaz tərkib hissəsidir. Bu çərçivədə keçirilən tədbirlər isə Azərbaycanda multikultural təhlükəsizliyin intellektual göstəricilərinin formalaşdığını təsdiqləyir. Bu il BMT-nin Sivilizasiyalar Alyansının Bakıda keçiriləcək 7-ci Qlobal forumu da dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətlərin və multikultural təhlükəsizliyin təmin olunmasına sistemli yanaşmanın mövcudluğundan xəbər verir [2]. “Multikulturalizm ili” çərçivəsində xalqımız milli mədəni ənənələrini, milli birliyini daha da möhkəmləndirmək, inkişaf etdirmək və Azərbaycanı bütün dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq iqtidarındadır.

Azərbaycanın milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər. Buna misal olaraq mən rəhbərlik etdiyim Uşaq Yaradıcılıq Mərkəzinin iş fəaliyyətindən kiçik bir epizod qeyd etmək istəyirəm. Uşaq Yaradıcılıq Mərkəzində fəaliyyət göstərən dərnəklərin üzvlərinin içərisində şəhərimizdə yaşayan azsaylı millətlərdən olan rus, ləzgi, özbək, ukraynalı və s. uşaqlar asudə vaxtlarını səmərəli keçirirlər. Həmin uşaqlar, xalqımızın milli adət-ənənələrini, xalq yaradıcılığımızın zənginliklərini öyrənir. Azərbaycanlı uşaqlarımız isə digər xalqların mədəniyyətini, musiqilərini, rəqslərini, adət-ənənələrini öyrənirlər. Təsəvvür edin, müxtəlif xalqların milli geyimli uşaqları birlikdə Azərbaycan xalqının birliyini, dostluğunu, mübarizliyini tərənnüm edən “Yallı” xalq rəqsini ifa edirlər. Solo hissəsində hər xalqın milli rəqsi nümayiş olunur və sonda birlikdə yallı gedirlər.

Bu vəhdət müxtəlif xalqların müxtəlif mədəniyyətlərinin dialoqunu yaradır. Əsrlər, qərinələr keçəcək, xalqımız babalardan miras qalmış bu ənənələri qoruyacaq, ölkəmizdə yaşayan, dinindən, dilindən, irqindən asılı olmayaraq bütün insanlar xoşbəxtlik və sülh şəraitində yaşayacaqlar.

Gözəlliklər vətənə gözəllərindən gəlir
Dostluğun, qardaşlığın təməllərindən gəlir.
Könüllərin müqəddəs əməllərindən gəlir.
Qüdrət görmək istəyən Azərbaycana gəlsin.

Bütün millətlərin, milli azlıqların, etnik qrupların birgəyaşayışının, milli barışığın və sülhün təminatçısı olan multikulturalizm ölkəmizdə milli və ümumbəşəri dəyərləri, mədəni müxtəlifliyi, ədalət və mərhəməti, özündə əks etdirərək xalqın həyat tərzinə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ”Bu gün multikulturalizm Azərbaycanda dövlət siyasətidir və eyni zamanda, həyat tərzidir.”

Müxtəlif mədəniyyətlərə və milli-dini azlıqlara hörmət Azərbaycan xalqının milli xüsusiyyətidir. Ölkəmizdə yaşayan milli azlıq və etnik qrupların mədəniyyəti Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi qorunur və inkişaf edir. Multikulturalizmin təbliği Azərbaycanın dövlət siyasətinin ən mühüm və prioritet istiqamətlərindən biridir. Ölkəmiz bu istiqamətdə dünyaya örnəkdir.

İnanırıq ki, çoxdinli, çoxmillətli Azərbaycanda ölkə Prezidentinin məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində multikulturalizm, tolerantlıq mühiti daha da sağlam şəkildə inkişaf edəcək, daha da möhkəmlənəcəkdir. Ölkəmizdə bütün xalqların, millətlərin nümayəndələri vahid və mehriban bir ailə kimi sülh, əmin-amanlıq şəraitində yaşayacaqdır. Bütün bunlar azərbaycançılıq ideyasına, ideologiyasına xidmət edir. Ölkəmiz burada yaşayan hər kəsin vətənidir və hamının da bir məqsədi var – azərbaycançılığa xidmət.

**Ədəbiyyat**

1. Ələkbərzadə S. Multikulturalizm dəyərləri Azərbaycandan dünyaya. “525-ci qəzet”, Bakı, 2016, 02 aprel, № 57 (455)

2. Mirzə M. Müstəqil Azərbaycan multikulturalizm, tolerantlıq, çoxkonfessiyalılıq ənənələrilə dünyaya nümunədir. ”Respublika” qəz., Bakı, 2016, 06 mart, № 52 (5503)

3. Sadayoğlu P. Azərbaycan – multikulturalizm məkanı. “Yeni Azərbaycan” qəz., Bakı, 2016, 30 mart, № 054 (4697)

4. Salmanlı R. Azərbaycan dünyada multikulturalizm mərkəzi kimi tanınır. “Azərbaycan“ qəz., Bakı, 2016, 04 mart, №50 (7194)

UOT 373.1

## Multikultural dəyərlər, onların ümumtəhsil məktəblərində təbliği vasitələri

*Məmmədova Nailə Fazil qızı*
*Mingəçevir şəhər Texniki humanitar lisey*

Çağdaş dövrümüzdə dünya üçün ciddi təhdid mənbəyinə çevrilən əsas məqamlardan biri də humanist, milli – mənəvi dəyərlərin ciddi aşınmaya məruz qalmasıdır. Elə bunun nəticəsidir ki, XXI əsrdə dünya əvvəlki dörvlərlə müqayisədə daha çox münaqişələrə, ziddiyətlərə şahidlik etməkdədir. Bu gün millətçilik, etnik və dini baxımdan dözümsüzlük günbəgün artır. Zamanın belə bir təhdid və qorxusu qarşısında yalnız sülhsevər, dözümlü, tolerant cəmiyyət dayana bilər. Dini və etnik baxımdan dostluq və sülh şəraitində müxtəlif din və xalqların qorxu və ürküsüz yaşadığı müasir Azərbaycan dinlərarası və sivilizasiyalararası tolerantlıq nümunəsidir. Heç təsadüfü deyil ki, Azərbaycan xalqının multikultural ənənələrini qorumaq Azərbaycanın dövlət siyasətidir.

Tarix boyu Azərbaycanda müxtəlif millətlər arasında dostluq münasibətləri, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq, çoxəsrlik ənənələrə malik tolerantlıq mühiti, ayrı – ayrı dinlər və etiqadlar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətləri hökm sürüb və sürməkdədir. İndinin özündə də ölkəmiz dünyada müxtəlif dinlərin və millətlərin nümayəndələrinin sülh, əmin – amanlıq, mehribanlıq şəraitində yaşadığı bir ölkə kimi beynəlxalq miqyasda getdikcə daha çox diqqət cəlb edir.. Ölkəmizdə xüsusilə dini vəziyyətlə bağlı yaranmış dayanıqlı sabit vəziyyət bir tərəfdən bütövlükdə xalqımızın tolerant ruhu və islam dininin bəşəri ideallara hörməti əsasında formalaşmışsa, digər tərəfdən son iyirmi il ərzində həyata keçirilən düşünülmüş uğurlu dövlət siyasətinin nəticəsidir. Azərbaycanda multikultural dəyərlər bütün səmavi kitablarda da təsbit olunduğu kimi insanı hansısa etnik qrupa, dini inanca, mədəni göstəriciyə, yaşam tərzinə görə deyil, məhz Allahın yaratdığı ən ali varlıq olması baxımından

qiymətləndirir. Bu mənada tamamilə təbiidir ki, tolerantlıq, multikulturalizm Azərbaycanın dövlət siyasəti olmaqla yanaşı, həm də cəmiyyətin daxilinə sirayət edib, xalqımızın həyat tərzinə, gündəlik yaşayışına çevrilib. Azərbaycanda 2016 – cı ilin "Multikulturalizm ili" kimi qeyd edilməsi isə heç şübhəsiz ki, bu sahədə dəyərlər sistemini daha da zənginləşdirəcək və ölkənin nüfuzunu beynəlxalq səviyyədə daha da artıracaq.

Bəs multikultural dəyərlərin, tolerantlığın təhsil müəsisələrində təbliği lazımdırmı ? Bu iş nədən ibarətdir ?

Məktəb təhsili dünyanın hər bir yerində əksər uşaqların ümumi bir təcrübəsi və cəmiyyətlərin öz gənclərini gələcəyə hazırlamalarının ən ümumi vasitəsidir. İstənilən gün bir milyarddan artıq uşaq daimi və ya müvəqqəti binalarda, çadırlarda və ya ağacların altında öyrənmə təcrübəsini bölüşür, öz potensiallarını inkişaf etdirir və öz həyatlarını zənginləşdirirlər. Təhsillə əlaqədar Minilliyin inkişaf hədəflərinin yerinə yetirilməsi bütün uşaqların məktəbə cəlb olunması deyil, eyni zamanda onların təhlükəsizliyi, sağlamlığı və təhsilalma hüquqlarını müdafiə edə bilən məktəblərin təlim keçmiş peşəkar pedaqoji kadrlarla və tələb olunan resurslarla təmin edilməsi deməkdir. Müxtəlif uşaqların müxtəlif şəraitlə uzləşdiyini və müxtəlif ehtiyaclara sahib olduğunu nəzərə alaraq Təhsilin İnkişafı haqqında Dövlət Strategiyası və digər Təhsil sənədləri uşaqların kurrikulumda nəzərdə tutulan bilik və bacarıqlara yiyələnmələrinə, onların düşüncə və məntiqi fikir yürütmə bacarıqlarının inkişaf etdirilməsinə, özlərinə və digərlərinə hörmət və dözümlülük hissini formalaşdırmasına, şəxsiyyət kimi öz icmalarının üzvü və dünyanın vətəndaşları olaraq potensiallarını tam şəkildə reallaşdırmağa xidmət və kömək edir.

Bu baxımdan Mingəçevir şəhər Texniki humanitar liseyin də qoşulduğu və uğurla iştirak etdiyi "Məktəb uşağın dostudur" modeli çoxcəhətli keyfiyyət konsepsiyasını ehtiva edir və mən "uşağa dost məktəb nədir?", belə məktəblərin əsasını təşkil edən prinsiplər hansılardır ? və multikultural dəyərlərin təbliği MUD modelində öz əksini necə tapır ? suallarına cavab verməyə çalışacağam.

Ölkənin ictimai, mədəni və siyasi mühiti uşaqların ailədə, daha sonra yerli icmada və ən nəhayət ümumilikdə cəmiyyətdə iştirakına nə qədər çox imkan yaradarsa və uşaqların hüquqlarına hörmətlə yanaşırlarsa, gələcəyin təminatı bir o qədər qarant altına alınar. Bu nöqteyi nəzərdən uşağa dost məktəblər daha çox ədalətli, demokratik, tolerant (dözümlü ) və davamlıdırlar. MUD modeli "tolerantlıq, inkluzivlik və ədalətlilik vasitəsilə müxtəlifliyin təmin edilməsi, sosial və dini mənşəyindən asılı olmayaraq bütün uşaqların keyfiyyətli təhsil alma hüququnun olmasını təsdiq edən və dəstəkləyən əsas nöqtədir [3]. MUD modelli məktəblərdə uşaqların öz potensiallarını tam şəkildə inkişaf etdirə bilmələri üçün, özlərinə və başqalarına qarşı hörmətlə yanaşmalarına, gələcək haqqlnda düşünmələrinə və gələcəklərini planlaşdırmalarına kömək edəcək öyrənmə imkanları təmin edilir və öyrənmə 4 istiqamətdə nəzərdə tutulur: bilmək üçün öyrənmək, yaşamaq üçün öyrənmək, birgə yaşamaq üçün öyrənmək, etmək üçün öyrənmək. Öyrənmənin III növü, yəni birgə yaşamaq üçün öyrənmək prinsipi ən çox uşaqların emosional, psixoloji və fiziki rifahına, onların irqi ayrıseçkilik, etnik qərəzlilik travmasından, aqressiv müdaxilələrdən qorunmasına xidmət edir. Mingəçevir şəhər Texniki humanitar liseydə uzun illər 2 bölmə fəaliyyət göstərib : həm Azərbaycan, həm də rus bölmələri. Odur ki, burada azsaylı xalqların, müxtəlif etnik və dini qrupların nümayəndələri işləyib, təhsil alıb.

Birgə yaşamaq üçün öyrənmək prinsipinə uyğun olaraq bu qəbildən olan şagird və müəllimlərə daim xüsusi diqqət yetirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bir fikrini qeyd etmək istəyirəm : "Vətənə bağlı olmayan, vətənpərvərlik hisslərindən kənar insanlar başqa mədəniyyətlərin nümayəndələrini də lazımi səviyyədə qəbul edə bilməzlər. Biz çox istəyirik ki, gənc nəsil milli ruhda, vətənpərvərlik ruhunda, öz tarixinə, mədəniyyətinə hörmət ruhunda böyüsün, tərbiyə alsın"[1]. Yeri gəlmişkən qeyd etmək istərdim ki, liseyimiz "Rus dilinin intensiv tədrisi" layihəsinə də qoşulub və layihə çərçivəsində müxtəlif səpkili tədbirlər keçirilir ki, bunlardan da biri slavyan xalqlarının qədim bayramlarından biri olan Maslenitsanın qeyd olunmasıdır. On əsrdən çox tarixə malik bu bayram liseydə rus icmasının nümayəndələrinin iştirakı ilə qeyd edilir, eyni zamanda dilin tədrisində də müstəsna rola malikdir. Rus icmasının nümayəndələrinin də Novruz bayramını qeyd etmələri, adət - ənənələrimizə hörmətlə yanaşmaları, Novruzda və Pasxada

yumurtaların boyanması və onların mənalarının izahı şagirdlər tərəfindən maraqla qarşılanır və bu multikultural dəyərlərin təbliğinə böyük misaldır.

Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu və Beynəlxalq Multikulturalizm Mərkəzi multikultural dəyərlərin təbliğində xüsusi rol oynayır. Liseyimiz Bilik Fondu ilə sıx əməkdaşlıq edir. "Kitabi Dədə - Qorqud" əsərinin əlyazmasının almancadan tərcüməsinin 200 illiyi ilə bağlı Fondun dəstəyi və Mərkəzin iştirakı ilə "Busatın Təpəgözü öldürməsi boyu" 25 dildə nəşr edilmişdir. Həmin kitabların liseyimizdə təqdimat mərasimi keçirilmiş, şagirdlər azsaylı xalqların dilində nəşr edilmiş əsərin dünyada Azərbaycan mədəniyyətinin, irsinin, mənəvi dəyərlərinin təbliğində müstəsna rolunun şahidi olmuşlar.

2004-cü ildə Azərbaycanda "Xüsusi qayğıya ehtiyacı olan uşaqlar : mövqelər, təcrübələr və siyasət" mövzusunda ilk inkluziv təhsil layihəsi Təhsil nazirliyi, "Dünyaya baxış" təşkilatı tərəfindən həyata keçirilməyə başlanmışdır. Layihə liseyimizdə də tətbiq edilir. Layihənin əsas məqsədlərindən biri şagirdlərin diqqətinin xüsusi qayğıya ehtiyacı olan uşaqlara yönəldilməsi, onlarda həmin uşaqlara qarşı tolerantlıq hisslərinin formalaşdırılması, inkluziv təhsil üzrə maarifləndirmə işinin həyata keçirilməsidir [2].

İnklüzivlik eyni zamanda uşağa dost məktəbin də əsas prinsipidir. Uşağa dost məktəb və ya öyrənmə məkanı sadəcə uşaq üçün dost və xoş deyil, həmçinin öyrənmə üçün münasib, hamı üçün təhlükəsiz, həssas və tam inklüzivdir [3]. Bu fiziki və maddi vəziyyətdən asılı olmayaraq hər bir şagirdi eyni fürsətlərlə təmin edir və hamıya öyrənmə prosesində, bərabər şərtlərlə iştirak etmək imkanı verir.

İnklüziv təhsil layihəsində həlledici məqamlardan biri valideynlərin bu məsələyə baxışlarıdır. İlk illərdən fərqli olaraq bu gün həm müəllimlər, həm valideynlər, həm də şagirdlər tolerantlıq, dözümlülük nümayiş etdirirlər, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla ünsiyyət qurmağa və bütün hallarda kömək etməyə hazırdırlar. Təcrübə göstərir ki, inklüziv təhsil tətbiq edilən siniflərdə şagirdlər daha həssas, diqqətli, tolerantlıq, dözümlü və paylaşma ruhunda böyüyürlər. Təəsüf hissi ilə qeyd etmək istərdim ki, inklüziv təhsil məktəbəqədər və ümumi təhsilin ibtidai pilləsində tətbiq olunur, orta təhsil səviyyəsində bacarıq və vərdişlərə söykənərək davam etdirilir, lakin texniki peşə, orta ixtisas və ali təhsil pillələrində belə layihələr həyata keçirilmir. Ancaq Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasında inkluziv təhsil əsas istiqamətlərdən biri kimi götürüldüyü üçün bu sahədə işlərin daha səmərəli şəkildə aparılması planlaşdırılıb. Yeri gəlmişkən qeyd etmək istəyirəm ki, BMT-nin Sivilizasiyalar Alyansının bu il aprelin 25-27-də Bakıda keçirəcəyi 7-ci Qlobal Forumu "İnklüziv cəmiyyələrdə birgə yaşama: çağırış və məqsəd" devizi altında baş tutacaq.

Multikultural dəyərlərin təbliği ümumtəhsil məktəblərində şagirdlərin dini biliklərinin inkişafına da xidmət edir. Xüsusilə humanitar fənlərin tədrisi zamanı bu məsələlər daha aktualdır.. Belə ki, tarix, coğrafiya dərslərindən məlumdur ki, Azərbaycan çox əhəmiyyətli ticarət və köç yollarının üstündə yerləşir və yerli əhalinin son dərəcə qonaqpərvər, sülh sevər və dözümlü olması ona gətirib çıxarmısdır ki, bu diyar əsrlər boyu müxtəlif dini əqidə və cərəyanlara etiqad edən minlərlə insanın yaşayış yerinə çevrilmişdir. Ta qədimdən Azərbaycanda bütün dinlər bərabər hörmətə malik olmuş və bu gün də bütün dini qurumların və dinlərin hüquq və vəzifələrinin bərabərliyi təmin edilmişdir. Heç bir din ( dini cərəyan ) və dini qurum barəsində digərlərinə nisbətən hər hansı üstünlük və ya məhdudiyyət müəyyən edilə bilməz.

Hazırda dünyada etnik, dini zəmində böyük münaqişələr baş verir. Bu gün islamafobiya, din daxili cərəyanlar, dini qarşıdurmalar gündəmdə olan ən aktual məsələdir. Terror, din pərdəsi altında fəaliyyət göstərən mafioz qruplar insanların dini baxışlararına münasibətlərinin dəyişmələrinə səbəb olur.

Azyaşlı uşaqların müxtəlif cərəyanlara, sektalara cəlbi, onların hələ yenicə formalaşmaqda olan əqidələrinin qorxu altında təcavüzə məruz qalmaları bu gün cəmiyyətin qarşılaşdığı problemlərdəndir. Məhz belə bir zamanda biz multikulturalzm ənənələrinin, dəyərlərin təbliğinə daha çox çalışmalı, yuxarıda qeyd etdiyim bəşəri problemlə üzləşməmək üçün tolerantlıq baxımından dünyaya örnək olan Azərbaycanın bu sahədəki ənənələrinə sadiq qalmalıyıq. Multikulturalizmin alternativi yoxdur. Multikulturalizm gələcək inkişaf üçün ən məqbul variantdır. Çünki multikulturalizmin alternativi özünü təcriddir [1].

Bu baxımdan bu gün ümumtəhsil məktəblərinin cəmiyyət qarşısında məsuliyyəti daha artıb. Və bir pedaqoji kollektiv olaraq liseyimiz də bu sahədə məsuliyyətini dərk edir və bu yöndə müxtəlif səpkili işlər görür. Buna misal olaraq müxtəlif din xadimləri və alimlərlə görüşlər, bədii əsərlərin mütaliə və müzakirəsi, layihə və təqdimatların hazırlanması, videoçarxların nümayişini göstərmək olar. Bütün bu tədbirlər şagirdlərimizin daha dözümlü, tolerant və möhkəm əqidəli inkişaflarına xidmət edən amildir.

Bizim məqsədimiz uşağa dost məktəb olaraq cəmiyyətə dost vətəndaş yetişdirməkdir.

**Ədəbiyyat:**


1. Azərbaycan 2013 – 2003 Əsrə bərabər illər.Bakı: "Şərq – Qərb", 2013, s. 77
2. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı: "Çaşıoğlu", 2009, səh. 188
3. MUD Rəhbərlik üçün vəsait. UNİCEF, 2009


UOT 008: 39; 008: 351.858

## Multikulturalizm xalqların milli-mənəvi dəyərlərinə hörmət mexanizmi kimi

*İsgəndərova İlduzə Məcnun qızı*
*Mingəçevir şəhər Təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü lisey*

Multikulturalizm – eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşlü və ona uyğun siyasətdir. O ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların, dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir.

Ümummilli lider Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan, tarixən, sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa edildi. Ulu öndər Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Onun rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Multukulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir. Digər mədəniyyətlərin mahiyyətini, xüsusiyyətlərini tarixini və nailiyyətlərini öyrənmədən onlara qarşı tolerant münasibət, onların nümayəndələrinə hörmət, qarşılıqlı anlaşma, mədəniyyətlərin və sivilizasiyaların dialoqunu qurmaq mümkün deyil. Avropa və bəzi Qərb dövlətləri multikulturalizmi idarə etməyin kifayət qədər mürəkkəb kulturoloji vəzifə olması ilə əlaqədar ondan imtina etmişlər. Bəzi xalqların nümayəndələri bu və ya digər dövlətlərin milli mədəniyyətinə nə assimilyasiya, nə də inteqrasiya olmağı arzu edirlər. Bu vəzifənin həlli üçün bütün dünyada "Homo sapiens" tipli insandan "Homo culturalies" tipli insana keçid beynəlxalq proqramının işlənib hazırlanması və tətbiq edilməsi zərurəti artıq şübhə doğurmur.

Multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyi, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı. Əlbəttə, belə bir Mərkəzin yaradılması multikulturalizmin Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda, bədii, psixoloji-mənəvi müstəvidən kənara çıxmayan dəyərlər toplusu kimi mövcud olduğunu göstərirdi. Bu baxımdan Azərbaycan multikulturalizm siyasətinin çox yaxşı modelidir. Deməli, müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş

multukulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Azərbaycanın inkişafıdır ki, burada ölkənin milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər. Multikulturalizmdən imtina isə bütün dünyada getdikcə artan anlaşılmazlığa, fobiyaya, qarşıdurmaya, milli və dini münaqişələrə aparan yoldur.

Həm qədimlərdə, həm də müasir dövrdə Azərbaycan öz yüksək tolerantlığı ilə seçilən bir bölgə kimi tarixdə qeyd olunub. Bura Zərdüştlük dininin vətəni, Qafqazda xristianlığın ilk beşiyi, İslam dininin geniş yayıldığı məkan, müxtəlif etnosların sülh içində yaşadığı ərazi, rəngarəng mədəniyyətlərin biri-birindən bəhrələnərək çiçəkləndiyi diyardır. Tarixi mənbələr Azərbaycanın etnik tərkibinin daim genişləndiyini göstərir. Deyildiyi kimi multukulturalizm Azərbaycanın həyat tərzidir. Bu ta qədimdən belə olmuşdur. Hələ XII əsrdə yaşamış dahi Nizami Gəncəvi Dərbənd hökmdarı Seyfəddin Müzəffərin kəniz kimi hədiyyə göndərdiyi qıpçaq qızı Afaqla (Appaq) evlənmiş, ondan Məhəmməd adlı oğlu dünyaya gəlmişdi.

İlk molokan icmaları Azərbaycanda XVIII əsrin ortalarında meydana gəlmişdir. Onları bura Rusiyadan, pravoslav kilsəsinin əleyhinə çıxdıqlarına görə sürgün etmişdilər. Azərbaycanda məşhur olan İsmayıllı rayonunun İvanovka kəndində vaxtilə Rusiyadan bu diyara köçüb gəlmiş molokanların nəslinin davamçıları yaşayır. Yəhudilər XVI əsrdə, talışlar isə daha əvvəl XIII əsrdə, rutulların Azərbaycana gəlişi VI-VII əsrlərdir. Bəli, bu siyahını daha da uzatmaq olar.

Bu gün Azərbaycan etnoqrafik rəngarəngliyi ilə seçilir. Onun ərazisində Azərbaycan türkləri ilə bərabər dağ yəhudiləri, tatlar, talışlar, kürdlər, molokanlar, ingiloylar, saxurlar, avarlar, ləzgilər, xınalıqlılar, buduqlular, qrızlar kimi etnik qruplar yaşayırlar. Qeyd olunan etnik qrupların nümayəndələri özlərini azərbaycanlı saysalar da, hər bir qrup özünəməxsus fərqli mədəniyyətin elementlərini qoruyub saxlamışdır. Bu mədəniyyət məişət həyatında, sənətkarlıqda, mətbəxdə və müxtəlif mərasimlərdə öz əksini tapmaqdadır. Xarici ölkələrdən gələn qonaqlar bu müxtəlif mədəniyyətə malik etnik qrupların bir-birinə olan mehriban münasibətini görəndə təəccüb edirlər.Çünki bu insanlar həm öz mədəniyyətlərini, həm də dini inanclarını qoruyub saxlayırlar.

Dünya ictimaiyyəti Azərbaycan multikulturalizmindən xəbərdar olub, bu təcrübəni öyrənsəydilər, bəlkə də Avropa ölkələrinin başına son zamanlar şahidi olduğumuz bəlalar gəlməzdi. Bu fikri Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayev jurnalistlərə açıqlamasında bildirib.

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə görə, dövlət irqindən, milliyyətindən, dinindən, dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. Milli azlıqların özlərini Azərbaycan dövlətinin bərabərhüquqlu vətəndaşı kimi hiss etmələrində həm də azərbaycanlıların tolerantlığı xüsusi rol oynayıb. Azərbaycan xalqının bütün tarixi ərzində bir dəfə də olsun dini və etnik ədavət, sayından asılı olmayaraq, etnik azlıqlara münasibətdə ayrı-seçkilik faktları qeydə alınmayıb. İlk növbədə, ona görə ki, Azərbaycan dövləti onların hər birinə eyni dərəcədə qayğı göstərir. Bu ölkənin milli siyasəti müxtəlif xalq, etnik qrup və dini azlıqların birgə yanaşı yaşaması və dözümlülük prinsipləri əsasında müəyyənləşdirilib. Azsaylı xalqların təmsilçiləri həmişə Azərbaycanın ictimai-siyasi həyatında yüksək səviyyələrdə təmsil olunublar. Hələ XX əsrin əvvəlində Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində talış, ləzgi və digər azsaylı xalqların nümayəndələri təmsil olunmuşdur ki, bu tarixi ənənə, tolerantlıq bu gün də davam edir. Hazırda da bir sıra yüksək vəzifələrdə, parlamentdə etnik azlıqların nümayəndələri təmsil olunur. Azərbaycan o dərəcədə tolerant ölkədir ki, hüquq-mühafizə orqanlarında, ordusunda milli azlıqların təmsilçilərinin vəzifələr tutmasına şərait yaradır. Bu gün Azərbaycanın ordusunda ləzgi, talış, kürd millətindən olan generallar xidmət edir.

Qlobal dünyanın inkişaf meyllərinə, dinamik ritminə inteqrasiya edən Azərbaycanda sosio-mədəni reallıqlarda da dəyişmələr baş verir. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda "XXI əsr: ümidlər və çağırışlar” devizi ilə keçirilən Beynəlxalq Humanitar Forumda söylədiyi fikirlər dediklərimizə gözəl misaldır: “Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrıseçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir. Eyni zamanda, hər bir ölkənin öz qaydaları, öz ənənələri vardır”.

Burada fikrimizi ölkənin birinci xanımı Mehriban Əliyevanın sözləri ilə də əsaslandıraq: “Öz mədəniyyətinə, öz tarixinə, öz ənənələrinə, öz əməllərinə hörmətlə yanaşan xalq, gərək eyni şəkildə fərqli mədəniyyətlərə də, fərqli tarixə də hörmətlə yanaşsın”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multukulturalizmi dövlət siyasəti elan edib. Bu cür yanaşma həm multikulturalizmin ən yaxşı modeli olan ölkəmizin inkişafının tarixi reallıqları ilə, həm də müasir dünya sivilizasiyası məkanı və zamanı daxilində Azərbaycanın davamlı inkişaf tələbatları ilə elmi cəhətdən əsaslandırılıb.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri K.Abdullayev qeyd edib ki, xarici ölkələrdən gələn qonaqlar, bu barədə məlumatı olanlar Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin bir-birinə olan münasibətini gördükdə təəccüb edirlər: "Bu, məmnunluqdan doğan təəccübdür. Onlar tez-tez sual verirlər ki, necə olur Azərbaycanda müsəlman dini lideri ilə katolik, pravoslav, yəhudi dini liderləri bir-birilə mehriban münasibətdə yaşayırlar? Əslində bu sualın cavabı var. Cavab oldur ki, Prezident İlham Əliyev bütün bu dini konfessiyalara, milli-dini icmaların nümayəndələrinə eyni gözlə, bərabər siyasi münasibətlə yanaşır. Onlar da bir-birinə münasibətini bu siyasi bərabər hüquqluluğun əsasında qura bilirlər. Deməli, hər şeyin əsasını Prezident İlham Əliyevin qurduğu siyasət, eləcə də ulu öndər Heydər Əliyevin relsə qoyduğu siyasi-ictimai xətlər müəyyənləşdirir". Dövlət müşaviri əlavə edib ki, “Kitabi-Dədə Qorqud və Fridrix fon Dits – 200” beynəlxalq kollokviumunun keçirilməsi ilə faktiki olaraq öz fəaliyyətinə başlayan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Azərbaycanın multikulturalizm təcrübəsinin təşviq edilməsi ilə bağlı çox geniş planları var: “Mərkəz qarşısına xarici ölkələrdəki universitetlərdə, müxtəlif qurumlarda Azərbaycan multikultural təcrübəsini öyrənmək, təhlil və təşviq etmək kimi bir sıra məqsədlər qoyub. Güman edirəm ki, müxtəlif dünya, eyni zamanda, Azərbaycan universitetlərində, qurumlarında biz multikulturalizmin Azərbaycan təcrübəsini təqdim edə biləcəyik”.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri K.Abdullayevin çıxışları.
2. www.kitabxana.net

UOT 2: 141.45

# Azərbaycanda dövlət-din münasibətləri və dini müxtəlifliyin tənzimlənməsi siyasəti

*Qaffarova Qərənfil Məmmədiyə qızı*
*Mingəçevir şəhər Təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü lisey*

Hal-hazırda elm və texnikanın sürətlə inkişaf etdiyi, insanların həyata baxışlarının dəyişdiyi bir dövrdə yaşayırıq. Hətta kiçik yaşlı uşaqlarin da dünya görüşü fərqlidir. Belə bir dövrdə,gələcəyimiz olan gənc nəsli hərtərəfli inkişaf etmiş, milli adət-ənənələrimizi bilən və dəyərləndirən, dininə, dilinə hörmətlə yanaşan bir formada yetişdirməliyik [2].

Qloballaşan dünyada dövlətin və cəmiyyətin üzərinə çox böyük məsuliyyət düşür. Azərbaycanda əsrlərdən bəri mövcud olan və bu gün dünyanın bir çox dövlətləri üçün nümunə göstərilən tolerantlığın, birlik və bütövlüyünün zəmanəti olan “azərbaycançılıq” davam etməkdədir. Bu birliyi, qarşılıqlı hörməti daim qoruyub saxlamaq vacib şərtlərdən biridir [4].

Azərbaycanda tək müsəlmanlar yaşamır. Müxtəlif xalqların nümayəndələrinin də yaşadığı bu ölkə dünyavi bir dövlət kimi tanınır. Azərbaycanda məskunlaşan ayrı-ayrı xalqların

nümayəndələrinə həmişə hörmətlə yanaşılıb. Dinindən, dilindən, irqindən asılı olmayaraq, onların hüquqları həmişə qorunub. Bu ənənə hələ də qorunur və qorunacaqdır. Hər bir millət harada yaşamasından asılı olmayaraq, öz dininə hörmətlə yanaşır [1].

Bizim dinimiz "İslam" dinidir. Azəbbaycan Respublikasının Konstitusiyasına görə din dövlətdən ayrıdır. 21 iyun 2001-ci ildə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılıb. Bu Komitə dini qurumlara lazımi yardım göstərir,müxtəlif dini etiqadların,dini qurumların arasında qarşılıqlı anlaşmanın və bir-birinə hörmətin möhəmlənməsinə kömək edir, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının, digər mənfi təzahürlərin qarşısının alir [5].

Müstəqillik illəri boyu dini ehkamları həyata keçirən adamların sayının artmasına baxmayaraq, dünyavi dünyagörüşü Azərbaycanda üstünlük təşkil edir. İslan dini təkcə ibadət ediləcək inanclar sistemi deyil, həm də Azərbaycan xalqının mədəniyyətinin tərkib hissəsidir. Azərbaycanda dünyavilik ideyaları daim inkişaf etmişdir.Müstəqilliyimiz əldə olunandan sonra isə, bu prinsiplər daha da dərinləşmişdir. Ölkəmizdə islam haqqında bilgilər çoxalmışdır. Yeni məscidlər tikilmiş,mədrəsələr və universitetlər qurulmuşdur. Gənclər xarici ölkələrə ilahiyyat elmləri üzrə təhsil almağa gedirlər. Dövlət bu məsələlərə ciddi yanaşır.

Azərbaycanda din-dövlət münasibətlərini tənzimləmək üçün Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyətini daha da gücləndirir.Bu komitənin 2006-cı ilin noyabr ayından başlayaraq, "Dövlət və Din"- ictimai fikir toplusu nəşr olunur. 2010-cu ildən jurnalda Rus dilində də məqalələr çap olunur. Jurnal – dinşünaslıq, dinin tarixi və fəlsəfi ixtisasları üzrə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komitəsində qeydiyyatdan keçmişdir. İctimai fikir toplusunun əsas qayəsi: dini dəyərləri və dövlət-din münasibətlərini sağlam mövqedən işıqlandırmaq,müxtəlif millətlərin, dinlərin, tolerantlığın, birlik və bütövlüyün qorunub saxlanmasıdır. Bununla yanaşı topluda yer alan məqalələrdə dünyanın az qala yarısını ağuşuna almış dini radikalizm,ekstremizm və təriqətçiliyə qarşı mübarizənin vacibliyi əsas yerlərdən birini tutur. Dinin siyasi alətə çevrilməsi cəhdlərinin törətdiyi və törədə biləcəyi fəsadların diqqətə çatdırılması, müxtəlif dinə, mənsubiyyətə xas olan insanların birgəyaşayışının mümkünlüyünü elmi-dini nöqteyi nəzərdən göstərir.Bir sözlə" Dövlət və Din "dinindən, dilindən, mənsubiyyətindən, məzhəbindən, irqindən asılı olmayaraq, bütün dünya xalqlarının bu gün çox ehtiyac duyduğu maarifləndirmə missiyasının daşıyıcısıdır [4].

Azərbaycan bir çox dünya dövlətləri ilə ticarət-iqtisadi əməkdaşlıq edir. Ölkəmizdə əməkdaşlıq etdiyimiz dövlətlərin xüsusi səfirlikləri, diplomatik, dini qurum nümayəndələri fəaliyyət göstərir. Bununla yanaşı Respublikamızda müxtəlif dinə mənsub olan millətlərin öz dini etiqadlarını yerinə yetirmələri üçün kilsələr, sinaqoqlar tikilir, qədim kilsələr, ibadət və mədəniyyət ocaqları yenidən bərpa olunur, qorunub saxlanılır.

Dini Komitə başqa dini icmaların fəaliyyətini daim nəzarətdə saxlayır.Qeydiyyatdan keçməyən icmaların fəaliyyəti dayandırılır. Respublikamıza xaricdən gələn ədəbiyyatlara da nəzarət edilir.Dini ədəbiyyatlar yalnız özəl, icazəsi olan yerlərdə satıla bilir. Bütün bunlara baxmayaraq, ölkədə yayılması məsləhət görülməyən ədəbiyyatlar internet və başqa çağdaş informasiya kanalları vasitəsi ilə yenə də özünə yol tapır. İnternet saytların və başqa resursların yaradılması ilə çeşidli dini icmalar öz ədəbiyyatlarını və informasiyalarını lazımi yerlərə çatdıra bilirlər. Artıq internetdə yeni saytların və forumların yaradılması, eləcə də sosiaı şəbəkələrdə səhifələrlə bloqların açılması hər bir qurumun fəaliyyətinin tərkib hissəsidir. Son zamanlar onların Azərbaycana yayımlanan şəbəkəsi çox genişləndirilmişdir. Günümüzdə çox iritutumlu dini-siyasi və ehkamçı portallar, eləcə də elektron kitabxanalar və başqa bu kimi resurslar yaradılmışdır[5].

Azərbaycan dövləti bununla əlaqədar olaraq "Vicdan azadlığı haqqında" qərar qəbul etmişdir. Bu qanunda da din-dövlət münasibətlərinin qanuni əsasları yer almışdır. Bu qanuna əsasən bütün müsəlman icmaları Qafqaz Müsəlmanları Dini İdarəsinə tabedirlər. Bu qanuna görə,xarici vətəndaşların ölkə ərazisində dini təbliğat aparması yasaq olunmuşdur.

Müstəqil Azərbaycanda dini təhsil ocaqlarının fəliyyətinə yalnız Təhsil Nazirliyinin verdiyi lisenziya əsasında yol verilir. Yalnız dini təhsil ocaqlarının məzunlarına dini təbliğatın yayılması və dini vəzifələrin tutulmasına üstünlük verilir.

Ölkəmizdə Bakı Dövlət Universitetinin nəzdində ali təhsilli ilahiyyatçı kadrarı yetişdirən ilahiyyat fakultəsi də fəaliyyət göstərir. Bu fakultə 1992/93-cü illərdə Azərbaycan Təhsil

Nazirliyi,Bakı Dövlət Universiteti və Türkiyənin Dəyanət Vaktı arasında bağlanmış anlaşmanın əsasında açılmışdır. Orada beş il müddətində məzunlar ilahiyyatçı və ərəb dili müəllimi ixtisasını alır.

Azərbaycanda tez-tez dini mövzularda Beynəlxalq konfranslar keşirilir. “Müasirlik və dini-mənəvi dəyərlər”(29 sentyabr 1998-Bakı); “Demokratik cəmiyyətdə din və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması” (10-11oktyabr 2002-ci il – Bakı); “Dinlərarası dioloq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru;

(6-7 noyabr 2009-Bakı);”Dünya dini Liderlərinin Bakı Sammiti (26-27 aprel 2010-Bakı); “Dövlət və din: dəyişən dünyada tolerantlığın gücləndirilməsi – Birinci Beynəlxalq Bakı Forumu “(19-21 dekabr 2012-Bakı) – bu kimi mövzular Konfranslarda öz əksini tapmışdır[3].

Hal-hazırda Azərbaycanda dini qurumların siyahıya alınması ilə bağlı ən son məlumatlara görə demək olar ki, ölkə ərazisində 1834 məscid mövcuddur ki,onların da 135-i Bakı şəhərinin payına düşür. Ölkədə 12 kilsə, 6 sinaqoq fəaliyyət göstərir. Mərkəzi Aparatın din, hüquq, dinşünaslıq, təhlil və proqnozlaşdırma, maliyyə-təsərrüfat, xarici əlaqələr, ictimaiyyətlə əlaqələr, dini maarifləndirmə işinin təşkili şöbələri üzrə rəhbərlikləri fəaliyyət göstərir. Təbii ki, dövlətin bu rəhbərliklər üzərində nəzarəti var [3].

Azərbaycanda dini müxtəlifliyin tənzimlənməsi siyasəti ardıcıllıqla həyata keçirilir. Prezident İlham Əliyev 2014-cü il 15 may tarixdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) yaradılması haqqında Fərman imzalamışdır. Fərmanda qeyd olunan məsələlərdən biri də: ”Sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması Beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Bu layihələrdə əsas məqsəd “Azərbaycan multikulturalizmi” anlayışını dünya ictimaiyyətinə çatdırmaqdır. Bu xarici ölkələrdə, xüsusən də gənclər arasında geniş yayılmaqdadır [2].

Bu gün dünyanın 7 ölkəsində, Azərbaycanın 8 universitetində “Azərbaycan multikulturalizmi” fənni də tədris edilir. Tələbələr bu fənnə çox böyük maraq göstərirlər [3].

Multikulturalizmin həyat tənzimlənməsinə çevrilməsi Azərbaycanı dünyada tolerantlıq nümunəsi olaraq daha geniş tanıdır. Eləcə də ayrı-ayrı ölkələrin müxtəlif multikultural modellərə xas olan fəlsəfi,sosial,siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqi əhəmiyyətlidir.

Bu səbəbdən Prezidentimiz İlham Əliyev 2016-cı ili “Multikulturalizm” ili elan edib. Multikulturalizm nədir? Bir çox fərqli mədəniyyətlərin bir arada yaşadığı cəmiyyəti təyin edən sözdür. Onsuz humanizm,yüksək fərdi və beynəlxalq münaqişələr mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma,qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil [2].

Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dioloqunun zəruri alətidir. Digər mədəniyyətlərin mahiyyətini,xüsusiyyətini,tarixini və nailliyyətini öyrənmədən, onlara qarşı tolerant münasibət,onların nümayəndələrinə hörmət mümkün deyil.

Azərbaycan elə bir ölkədir ki, orada müxtəlif xalqlar həmişə sülh, həmrəylik, əmin-amanlıq, əməkdaşlıq şəraitində yaşayıblar.Ən qədim dini abidələrin bərpası dövlətin siyasəti ilə cəmiyyətin durumunun yanaşı dayanması sevindirici haldır.

Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir. Bəzi ölkələrdə bu fikir iflasa uğrayıb, özünü doğrultmayıb. Bu çox narahatçılıq doğuran bir məsələdir. Belə olan halda bu mövzu ciddi müzakirələrə səbəb olur. Azərbaycanda isə belə deyil, multikulturalizm yaşayır. Bunu öz siyasətimizlə, cəmiyyətin durumu ilə də sübut edirik. O yaşayır,möhkəmlənir və dərin köklərə malikdir. Multikulturalizm - bəşəriyyətin gələcək inkişafının yeganə yoludur və Azərbaycan bu sahədə başqa dövlətlərə örnək ola bilər. Bu siyasət ölkəmizi başqa millətlərə olduğu kimi tanıtmağa,göstərməyə xidmət edir.Belə olan halda xalqımızı dünyada başqa obrazlarla tanıtmağa çalışanlar səhvlərini anlaya biləcəklər.

Son illər prezidentimiz İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə görülən işlər Azərbaycanın beynəlxalq miqyasda artan nüfuzu həmkarlarımızı daha çox maraqlandırır və bizim haqqımızda dolğun məlumat əldə etməyə stimul verir. Artıq paytaxt Bakı qlobal əhəmiyyətli humanitar məsələlərin öz həllini tapdığı məkandır. Mərkəzin əsas məqsədi tolerantlığın, mədəni, dini müxtəlifliyin qorunmasını təmin etməkdir.

Dövlətin apardığı siyasətin bir qolu da, bu məsələlərlə bağlı tez-tez beynəlxalq konfraslar,region toplantıları, dəyirmi masalar, silsilə tədbirlər keçirməsidir. Belə tədbirlərdə milli azlıqların nümayəndələri, dini icma rəhbərləri, ziyalılar, dünyanın bu sahə üzrə mütəxəsisləri də iştirak edir. Belə tədbirlərdə gənc nəslin nümayəndələrinin də mükəmməl iştirakına nail olmalıyıq. Onlar bizim gələcəyimiz,qurub-yaratdıqlarımızın davamçılarıdır. Hər sahədə olduğu kimi, bu sahədə də onlara geniş yer verməк lazımdır.

Söz açdığım məsələlərdə təhsil sahəsinin də üzərinə çox böyük vəzifələr düşür. Gənc nəsil hərtərəfli inkişafetmiş, dünyada baş verən hadisələrlə maraqlanan, düzgün qiymət verməyi bacaran bir səviyyədə tərbiyə olunmalıdır. Buna nail olmaq üçün dövlətlə cəmiyyət daim birgə çalışmalıdır.

## Ədəbiyyat


1. Heydər Əliyev siyasəti: Tolerantlıq. Bakı, 2015
2. İlham Əliyev: Azərbaycan tolerantlıq örnəyidir. Bakı, Elm və təhsil, 2015, 502 s.
3. “Azərbaycan Respublikasında dövlət-din münasibətlərini tənzimləyən rəsmi sənədlər” toplusu. Bakı, 2015
4. İsmayılov G. Tolerantlıq: bildiklərimiz və bilmədiklərimiz. Bakı, “Nurlar”, 2014, 240 s.
5. Məmmədov N. İslamda Vətən və dövlət sevgisi. Bakı, 2015


UOT 069.4:001.12

## Tarix və mədəniyyət abidələrinin mühafizəsi dövlət siyasətidir

*Cəfərova Aynur Asim qızı*
*Mingəçevir səhər 9 №-li tam orta məktəb*

Azərbaycan xalqının tarixi-mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsidir. Məhz elə buna görə də çoxəsrlik tarixi keçmişimizdən yadigar qalan tarix və mədəniyyət abidələrinin mühafizəsi beynəlxalq əhəmiyyət kəsb edir. Abidələrimizin bəşəri əhəmiyyətini nəzərə alan YUNESCO-nun Dünya İrs Komitəsi tərəfindən nəşr olunan “Dünya İrs” jurnalı da İçərişəhər, Şirvanşahlar sarayı və Qız qalasının qurumun təhlükədə olan İrs siyahısından çıxarılması haqqında məqalə dərc etmişdi. Burada abidələrin mühafizəsi sahəsində Azərbaycanın əldə etdiyi uğurlar yüksək qiymətləndirilib [1]. Birləşmiş Millətlər Təşkilatına üzv olan bütün dövlətlər tərəfindən ölkəmizin rəsmən tanınan ərazisinin 20 faizini hərbi təcavüz yolu ilə işğal etmiş Ermənistan hərbi birləşmələri milli mədəniyyət abidələrimizi qəddarcasına uçurub dağıdıb. Hərbi təcavüz nəticəsində ilk insan məskənlərindən olan məşhur Azıx və Tağlar mağaraları, Qaraköpəktəpə, Üzərliktəpə kurqanları hazırda hərbi məqsədlərlə istifadə edilərək qəsdən məhv edilir. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Azərbaycan Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz isə sıradan çıxarılır. İşğal zonalarında maddi mədəniyyət yadigarlarımızın dağıdılması prosesi indi də davam edir. İşğalçılar geniş miqyaslı, qeyri peşəkar arxeoloji qazıntı işləri aparır, kurqanları dağıdır, qarət etdikləri tapıntıları Ermənistana daşıyırlar. Ümumilikdə işğal olunmuş ərazilərdə Ermənistan Silahlı Qüvvələri 1,421 mədəniyyət evini, 15 şəhər və 503 kənd mədəniyyət evi və klubunu, 8 rayon, 32 şəhər, 10 uşaq və 683 kənd kitabxanasını, 6 mədəniyyət və istirahət parkını, 47 uşaq musiqi məktəbini, 3 teatr, 3 qalereya, 464 tarixi abidəni, təqribən 40 min tarixi əl işi və 4,6 mln. kitabı məhv edib və dağıdıblar [1]. Qeyd edək ki, Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında” 1954-cü il Haaqa Konvensiyasına, “Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına,

"Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESCO-nun 1972-ci il konvensiyasına ziddir [1].

Xalqımızın milli-mədəni irsi ölkəmizin uzaq keçmişinin zənginliyini təsdiq etməklə yanaşı, onun milli pasportu da hesab edilə bilər. Milli-mədəni irsimiz Azərbaycan xalqının tarixini özündə yaşadan zəngin informasiya mənbəyidir. Maddi və mənəvi irsimiz xalqımızın bu torpaqların qədim sakini olduğunu danılmaz faktlarla sübuta yetirir Nəsillərdən-nəsillərə keçib gəlmiş milli-mədəni irsimizın qorunmasına, öyrənilməsinə, təbliğinə son illər dövlətimiz böyük qayğı və diqqət göstərir. Bu gün Azərbaycanın mədəni irsinin özünəməxsusluğunun qorunub saxlanılması, tarix-mədəniyyət abidələrinin öyrənilməsi və mühafizəsi ilə bağlı müvafiq tədbirlər davam etdirilməkdədir. Qeyd edək ki, bu yaxınlarda "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" hazırlanmış və ölkə Prezidenti tərəfindən təsdiq edilmişdir [2]. Müstəqillik dövründə Azərbaycan dövləti tərəfindən ölkəmizdə mədəni irsin qorunmasına, öyrənilməsinə və təbliğinə qayğının və dəstəyin durmadan artdığı hər kəsə yaxşı bəllidir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin bu sahəyə olan diqqət və qayğısı xüsusi qeyd olunmalıdır. Məsələn, artıq bir neçə ildir ki, ölkə prezidenti arxeoloji tədqiqatlar üçün büdcədə nəzərdə tutulduğundan əlavə olaraq milyonlarla manat vəsait ayırır. Göytəpə neolit dövr abidəsinin konservasiyası üçün də prezident fərmanı ilə vəsait ayrılıb. Heydər Əliyev Fondunun, şəxsən ölkənin birinci xanımı Mehriban Əliyevanın bir çox mədəni irs layihələrinin təşəbbüsçüsü və himayəçisi olduğunu da minnətdarlıq hissi ilə qeyd etmək lazımdır. Bu günə qədər respublika ərazisində 6300-dən artıq tarix və mədəniyyət abidələrinin qeydə alındığını nəzərə alsaq, onların müasir tələblərə uyğun şəkildə mühafizəsinin, tədqiqinin və təbliğinin nə qədər mürəkkəb bir iş olduğunu təsəvvür etmək çətin deyil. Məhz buna görə də dövlət proqramı abidələrin mühafizə, bərpa, konservasiya, tədqiqat və təbliğat işlərinin təkmilləşdirilməsini bir vəzifə olaraq qarşıya qoyur [2]. Dövlət proqramı 6 mindən yuxarı tarix və mədəniyyət abidəsinin yenidən qeydiyyatını, bərpa və konservasiya işlərini, pasportlaşdırılmasını, xəritələşdirilməsini, qoruqların fəaliyyətinin inkişafını və s. çox geniş və uzunmüddətli vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur [2]. Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanan dövlət proqramında daşınmaz tarix və mədəniyyət abidələrinin, tarixi ərazilərin, qoruqların mühafizəsinin müasir səviyyədə təşkili, habelə bərpası, öyrənilməsi, təbliği və inkişafı üzrə tədbirlər nəzərdə tutulub [2]. Təəssüf ki, tarixən Azərbaycanın mədəniyyət nümunələrinin milli, məhəlli münaqişələrin qurbanlarına çevrilməsi halları da az olmayıb. Hər dövrün özü ilə gətirdiyi "səmum yeli" onların bir çoxunun daşını daş üstə qoymayıb. Ötən əsrin əvvəllərində və sonlarında ermənilərin məkrli, çirkin əməlləri nəticəsində yer üzündən silinən abidə və məbədlərimiz də az olmayıb. Həmin abidələr Azərbaycan xalqının tarixi və mədəniyyətinin zənginliyini, qədimliyini özündə əks etdirdiyi üçün belə qəddarcasına, vəhşicəsinə yer üzündən silinmiş və ya erməniləşdirilmişdir. Məsələn, XX əsrin 20-ci illərində ermənilər şayiə yaymışdılar ki, Azərbaycan ərazisində geniş yayılmış daş-qoç abidələrinin baş hissəsində qızıl var. Yerli sakinlər də bu cür şaiyələrə uyaraq Lənkəran, Qarabağ, Borçalı, Şamaxı, Naxçıvan və digər bölgələrdə qarşılarına çıxan əksər daş-qoç abidələrinin başlarını qıraraq guya qızıl tapmaq ümidində olmuşlar [2]. Kütləvi qızıl axtarışı kurqanlar, türbələrin günbəzləri, qalalar və s. yerlərdə də intensiv hal alıb. Müşahidələr göstərir ki, bu cür hallara qarşı aidiyyatı orqanlar, o cümlədən hüquq-mühafizə orqanlarının verdiyi sərt reaksiya da hər zaman effektiv olmur. Yerli sakinlər isə, belə məlumatları əksər hallarda gizlədirlər. Bununla belə, yerlərdə mədəni irs abidələrimizin əhəmiyyəti hələ ki, yetərincə başa düşülmür, dövlət tərəfindən mühafizə olunmalarına rəğmən dağıdılır, korlanır, zibillənir və s. Əlbəttə, bu cür xoşagəlməz hallar hər şeydən öncə, əhalinin böyük bir qisminin məlumatsızlığı, ictimai məsuliyyətin olmaması və yerlərdə lazımi maarifləndirmə işlərinin aparılmaması ilə bağlıdır. Əgər hələ də bir çox yerlərdə arxeoloji qazıntı sahələri arxeoloqlar gedəndən sonra yerli əhalinin zibil tulladığı yerə çevrilirsə, əgər xatirə abidələrimiz də mal-heyvan kölgələnirsə, tarixi tikililərin divarları korlanırsa, əgər gələn turistə orada "hər hansı bir unikal abidənin olmadığını" vurğulayıb istiqamət dəyişdirilirsə, onda yerlərdə maarifləndirmə işinin aparılmasının aktuallığı və əhəmiyyəti anlaşılar. Belə olan halda, nə etməli? Təbiidir ki, mədəni irsi

qorumaq məqsədilə ictimai fəallığı və məsuliyyəti artırmaq üçün ictimai birliklərin də üzərinə böyük iş düşür. Əgər mədəni irslə məşğul olan mütəxəssislər yerli sakinlərlə müvafiq iş aparsalar, bölgələrdə abidələrin qorunmasına və onların təbliğinə insanları inandırsalar və səfərbər etsələr, bu, gələcək nəsillərə nəinki dövlətin, eləcə də hər birimizin layiqli töhfəsi olar. Abidələr təkcə dövlətə deyil, həm də xalqa məxsusdur. Deməli, onların qorunmasında sıravi vətəndaşlara qədər hər kəs təşəbbüs göstərməlidir. Bu baxımdan, necə etmək lazımdır ki, insanlar abidələrin və tarixi yerlərin qorunmasına özlərinin gündəlik prioriteti kimi yanaşsınlar? Biz bunu insanlara, cəmiyyətə təbliğat yolu ilə çatdırmalıyıq. Əhali arasında mədəni sərvətlərimizi, dəyərlərimizi tanıtmalıyıq. Məlumdur ki, abidələrin hamısını yüksək səviyyədə qorumaq dövlətin imkanları xaricindədir. Qeyd etdiyimiz kimi Azərbaycanda 6300-dən çox tarixi-mədəni abidə var, onların hər birinin yanına mühafizəçi təhkim etmək mümkün deyil. Əgər hansısa dağ kəndində bir abidə varsa, insanlar ona, sadəcə, qədim tikili kimi yox, tarixi sərvət kimi yanaşmalı, onu qorumalıdırlar [1].

Tarixi miraslarımızın qorumasında ümumtəhsil məktəbləri müəllimlərinin də üzərinə böyük məsuliyyət düsür. Şagirdlərə dövlətin malına, xalqın sərvətinə ürəkdən can yandırmağı, sevgi ilə yanasmağı, kəm baxmamaq açılanmalıdır.  Əgər biz hər mövzuda tarixə bir baxıs etsək, soyumuzun, kökümüzün haradan gəldiyini və əcdadlarımızın bizə necə qiymətli mirasların qoyduğunu lazımınca şagirdlərə aşılasaq tariximizi yaşatmış olarıq. Çünki bu günün sagirdi sabahın alimi, araşdırmaçısı, arxioloqu, mühəndisi, tarixçisinvə ən əsası, Azərbaycan vətəndasıdır.  Layiqli vətəndaş yetisdirmək isə bızım borcumuzdur.

## Ədəbiyyat


1. Cəbiyev Q., Xəlilli F., Soltan A. və b. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və təbliği: araşdırma, təklif və tövsiyyələr. Bakı, 2013, 32 s.

2. Mükərrəmoğlu M. Milli-mənəvi irsin və tarixi abidələrin qorunmasına diqqət artırılır. Xalq qəzeti, 2014. 16 aprel



UOT 17:37.01


# Azərbaycan Respublikasının multikultiralizm siyasəti və milli-mənəvi dəyərlərin inkişaf yolları


*Bədəlova Yeganə Firdovsi qızı*
*Mingəçevir səhər 10 №-li tam orta məktəb*


Təbiətin hər bir xalqa bəxş etdiyi ən qiymətli miras onun milli-mənəvi dəyərləridir.

Qədim Azərbaycan xalqı özünün zəngin milli, əxlaqi və mənəvi dəyərləri ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr verərək yüksək mədəniyyəti ilə diqqəti cəlb edib. Min illər boyu formalaşan təkraredilməz adət-ənənələr millətimizin keçmişi ilə bu günü və gələcəyi arasında sarsılmaz bir mənəvi körpü rolu oynamaqdadır. Hər hansı millətdə, ölkədə mədəni dəyərlər nə qədər çox olsa, bu yalnız həmin millətin, bu ölkədə yaşayan insanın xeyrinədir. Hər bir xalqın, millətin mövcudluğu onun milli-mədəni dəyərlərinə  bağlılığından asılıdır.

"Azərbaycanda mövcud olan millətlərarası, dinlərarası etnik vəziyyət yüksək qiymətə layiqdir. Əhalisinin əksəriyyəti baxımından müsəlman ölkəsi olan Azərbaycanda tolerantlıq prinsipi nəinki mövcuddur, həm də hakim mövqe tutur" [3]. "Heydər Əliyev Azərbaycanı azərbaycanlılara qaytardı" [2] fikrinin bir şaxəsi mədəniyyət və mənəviyyatımızla bağlıdır. Hələ müstəqillikdən əvvəl 19 il Azərbaycanda rəhbərlik zamanı H. Əliyevin cəsarətli siyasəti, xalqına bağlılığı Moskva tərəfindən sərt qarşılansa  da, 1978-ci il Azərbaycan Respublikası Konstitusiyasında onun Azərbaycan dilinin "Dövlət dili" kimi elan edilməsinə nail olması mədəni dəyərlərə nə qədər həssaslıqla diqqət yetirdiyinin göstəricisidir.

Milli soykökə qayıdış, milli özünüdərk müasir tələblər baxımından dəyişməsi, yeniləşməsi və təkmilləşdirilməsi humanitar fənlərdən milli mənəvi dəyərlərə kompleks yanaşmağı tələb edir.

Tarixən bütün etnoslar ölkəmizdə yaşadığı müddətdə heç bir milli-dini zəmində qarşıdurma baş verməyib. H. Əliyev göstərirdi ki, "milli-mədəni dəyərlər xalqın mənəvi sərvəti, mənəvi xəzinəsidir, bu sərvət və xəzinəyə biganə olmaq cinayətdir". O, demişdir: "Mən məmnunam ki, ölkəmizdə, müstəqil Azərbaycanda müxtəlif millətlərə mənsub olan insanlar Azərbaycan vətəndaşı olaraq sülh və əminamanlıq şəraitində yaşayır, bir-birinə hörmət bəsləyirlər. Ölkəmizdə məskunlaşmış xalqların adət-ənənələrinə, mənəviyyatına dözümsüzlük göstərilməsi barədə heç bir fakt yoxdur. Bu, çox böyük naliyyətdir. Azərbaycanda dünyəvi cəmiyyət artıq formalaşmışdır. Azərbaycan xalqı özlüyündə təbiətinə görə, öz xarakterinə görə tolerantlıq hissinə malikdir"[1]. Qafqazda ən qədim alban kilsəsi Şəki şəhərində kiçik bir kənddə, ən qədim məscidlərdən biri Şamaxıda, Zərdüşt dininə aid Atəşgah abidəsi Bakıda yerləşməsi və bu günə qədər qorunub mühafizə olunması qürur verəcək bir faktdır. Hətta müasir dövrümüzdə də kilsələr bərpa edilir, sinaqoqlar tikilir.

Hal-hazırda qlobal məqsəd çoxmədəniyyətli cəmiyyət, çoxmədəniyyətli məkan yarat-maqdır. Azərbaycanda yeni termin kimi ortaya atılsa da, əsrlər boyu mövcud olan multikul-turalizm milli-mədəni dəyərlərimizdən biridir. Multikulturalizm bir çox fərqli mədəniyyət-lərin bir arada yaşadığı cəmiyyəti təyin edən söz, tolerantlığın təcəssümü, demokratiya, ideologiya, mədəniyyətlərin və sivilizasiyaların dialoqudur. O, çətin məqsəd və çətin ide-yadır. Multikulturalizmin Amerika, İsveç, Kanada, Avstraliya modelləri mövcuddur. Azərbaycan bütün dünya ölkələrinə nümunə ola biləcək yeganə dövlətdir ki, burada yaşayan bütün millətlər bu günə qədər xalqımızın humanistliyindən həmişə məmnun qalmış, hətta onlarla qohum belə olmuşlar. Avropanın bir çox ölkələrində multikulturalizmin iflasa uğraması haqqında səslənən fikirlərə ən tutarlı cavab multikulturalizmin Azərbaycan modelidir. Eramızın müxtəlif əsrlərində Azərbaycana köç edən xalqların yerli xalqla qaynayıb-qarışması bir daha sübut edir ki, xalqımız təkcə öz milli-mədəni dəyərlərinə deyil, digərlərinin də mədəniyyətinə həmişə hörmətlə yanaşmış və elə buna görə də çoxmillətli mədəniyyət, çoxmillətli məkan yaradılması uğurla davam edir.

Multikulturalizm mədəniyyətlərin assimilyasiya olmadan inteqrasiyasını təklif edir. O, tarixən milli mədəniyyətin tərkib hissəsi olub və ənənə halını alıb. Azərbaycanda multikulturalizm həyat tərzinə çevrilib. Azərbaycan Respublikası Prezidenti İlham. Əliyev tərəfindən imzalanmış 11 yanvar 2016-cı il tarixli sərəncamı ilə 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi dövlətimizin bu sahəyə diqqətinin nəticəsidir. Multikulturalizmin alternativi yoxdur. O, bəşəriyyətin inkişafının yeganə yoludur. Təcridçilik, assimilyasiya, aparteid kimi təzahürlərdən fərqli olaraq, multikulturalizm milli azlıqlar və ölkəyə daxil olanlar tərəfindən qəbul edilən fərqli reaksiyaların rəngarəngliyidir.

Multikultural cəmiyyətdə hər bir vətandaş öz milli-mədəni dəyərlərini inkişaf etdirməklə həm bərabər hüquqlara malik olduğunu, həm də inteqrasiyaya yol açdıqlarını göstə-rir. Xalqları birləşdirən mədəniyyətin formalaşmasına səbəb bir mədəniyyətin digər mədəniyyətə inteqrasiya prosesi ilə sıx bağlıdır. Hazırda bir çox ölkələrdə mədəniyyətlərin və maraqların toqquşması baş verir və münaqişələr yaranaraq faciələrə çevrilir. Sosial-siyasi sabitlik iqtisadi gücün ən əsas lokomotivlərindəndir. Hümanitar məsələlərin vaxtında həll edilməməsi bu zəmində ciddi böhranın baş verməsinə səbəb olur. Xalqımızın qədimdən milli eqoizmdən uzaq bəşəri dəyərlərin daşıyıcısı olmasını sübut edən faktlardan biri Qarabağ uğrunda döyüşlərdə ölkəmizdə yaşayan müxtəlif xalqların övladlarının erməni işğalçılarına qarşı qəhrəmanlıqla döyüşərək şəhid olması və hətta milli qəhrəman adına layiq görülməsidir.

Demokratiya multikultural cəmiyyətin inkişafında həlledici rola malikdir. Azərbay-canda xalqla hakimiyyət birliyi mövcuddur. Müstəqilliyimizin bərpa olunması milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və gələcək nəsillərə çadırılması üçün zəmin yaratmış-dır. Dövlətçiliyin təməlinin, milli varlığın özülünün mədəniyyətə bağlı olduğu hər kəsə məlumdur. Azərbaycan Respublikası Konstitusiyanın 25- ci maddəsi ilə mənşəyindən, ir-qindən, dinindən və dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarına hörmət tə-min olunmuş, bütün milli azlıqların mədəni kimliyinə təminat verilmişdir. Multikultiralizm siyasəti tək ölkə daxilində

məhdudlaşmır. Belə ki, Heydər Əliyev Fondunun rəhbərliyi ilə ölkəmizdə 50, dünyanın müxtəlif ölkələrində 40-dan çox dini və mədəni abidənin, Lüvr müzeyində İslam mədəniyyəti bölməsinin təşkilində, Romada katakombaların bərpasında, Strasburq və Fransanın digər regionlarındakı kilsələrin təmirində iştirak etməsi mədəniyyət müxtəlifliyinə çox diqqətlə və hörmətlə yanaşdığımızı bir daha əyani göstərir.

Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva çıxışlarının birində -"Biz dünyaya çatdırmaq istəyirik ki, birgə yaşayış mümkündür"-deyərək Azərbaycanın bu təc-rübəsinin bütün dünyada geniş təbliğ olunmasının vacibliyini bildirmişdir. Dağlıq Qarabağ münaqişəsi nəticəsində milli və tarixi abidələrimizin dağılması dünya ictimaiyyətini narahat etməyə bilməz. Öz milli-mədəni dəyərləri ilə örnək olan xalqa ədalətsiz münasibətin əlbəttə ki, qarşısı alınmalı, torpaqlarımız geri qaytarılmalıdır.

Ümummilli lider Heydər Əliyev demokratiyanı multikulturalizmin ayrılmaz hissəsi hesab edirdi. İnsan dəyərinin mədəniyyətdən yüksək meyarı yoxdur. Azərbaycan humanitar kataklizmlərin baş vermədiyi nadir ölkələrindəndir. Bu ölkədə yaşayan müxtəlif xalqlar bu torpağa həqiqi vətən sevgisi ilə bağlanmışlar. "Biz öz milli-mənəvi dəyərlərimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu sınaqlardan keçmiş bu mənəvi əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik" [2]. İnsanın biliyi nə qədər yüksək olarsa, yaxşı tərbiyə alarsa, düzgün milli və bəşəri dəyərlər əsasında inkişaf edərsə, o, mütləq başqa insanları da sevər, tək özü üçün yaşamaz.

İnsanı yüksəldən, insanı ucaldan, əsl vətəndaş edən onun mənəviyyatıdır. Multikulturalizm Azərbaycanın kənar müdaxilə risklərinin yaranması baxımından mühafizə edəcək, etnik və dini zəmində dövlətə təzyiq imkanlarını get-gedə tamamilə tükədəcəkdir. Bu gün Avropa ittifaqı bütövlükdə Azərbaycanda diqqət mərkəzində olan tolerantlıqdan, multikulturalizmdən ehtiyat edir. Qərbin qorxduğu multikulturalizm Azərbaycanda çox müvəffəqiyyətlə inkişaf edir. Çünki yalnız siyasi və iqtisadi sabitlik, insan və vətəndaş hüquq və azadlıqlarına düzgün yanaşmaq, şovinizmdən uzaq ideologiya bizi parlaq gələcəyə aparan yeganə yoldur.

**Ədəbiyyat**


1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 23-cü cild. Bakı, 2008, 480 s.
2. Mehdiyev Ramiz. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı, 2006, 583 s.


UOT 069: 351.853

## Tarixi abidələrin mühafizəsi, restavrasiyası və təbliği məsələləri

*Atayev Ceyhun Vidadi oğlu*
*Mingəçevir şəhər 17 №-li tam orta məktəb*

Aprelin 18-i bütün dünyada Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur. Bu əlamətdar gün 1983-cü ildə UNESCO-nun yanında Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının Beynəlxalq Assambleyası tərəfindən təsis olunmuşdur. Məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir.

İbtidai icma dövrü adlandırılan çox qədim zamanlardan başlayaraq bəşər övladının bu dünyada yaşayışı nəinki izsiz ötməmiş, əksinə, o, özündən sonrakı nəsillərə çox şeylər söyləyəcək maddi və mənəvi mədəniyyət qoymuşdur. Yaşadığımız dünya elə qurulmuşdur ki, hər xalqın keçmişi, həyat tərzi onun tarixi abidələrində və yerlərində təcəssüm olunur. Nələrsə bu günümüzə tam gəlib çatmış, nələrdənsə xarabalıqlar qalmış, nələrsə öz izini yalnız nağıllarda, əfsanələrdə saxlamışdır. Bunun da təbii fəlakətlər, müharibələr, "bərpa" adı altında məqsədli dəyişmələr, dağıdılma və nəhayət, zaman kimi səbəbləri vardır.

İnsanın yaratdığı abidələr, yaşadığı yerlər zahirən dilsiz olsa da, mövcud durumu ilə bizlərə çox şey söyləyir. Zəngin müşahidə qabiliyyəti və mütəxəssisin gözü isə bu abidələrdən çox sirləri oxuya bilər. Abidələr və tarixi yerlər öz görkəmləri ilə xalqlara hər an kimliyini, nəyə qadir olduğunu xatırladır, vətən sevgisi və ona sadiqlik kimi ülvi hissləri aşılayır. Xalqın mənəvi xəzinəsinin, "mən"inin cəmləşdiyi bu maddiyyat insanlara ulu əcdadlarından danışır, milli özünüdərkin formalaşmasında mühüm rol oynayır. Abidələrin və tarixi yerlərin dağıdılması xalqın, millətin varlığının məhvi deməkdir.

Təkcə XX əsrdə baş vermiş iki dünya müharibəsi nəticəsində nə qədər dağıntılar olmuşdur. Hazırda dünyada minlərlə abidə məhv olmaq təhlükəsindədir. Bu baxımdan Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününün təsis olunması böyük əhəmiyyətə malikdir.

Ölkəmiz dünyada bəşər sivilizasiyasının ilkin meydana gəldiyi ərazilərdən biridir. Azərbaycan unikal mədəniyyət məkanı olmaqla yanaşı bəşəriyyətə yüksək yaradıcılıqünsürləri bəxş etmiş sivilizasiyalar qaynağıdır. Torpaqlarımızın hər bir qarışı şanlı tarixi yaddaşımızdan bəhrələnərək əzəmətli müasirliyin aurasına qərq olmuşdur.

Mədəniyyət abidələri kiçik yaxud da böyük olmur. Sonrakı nəsillər üçün onlar həmişə önəmlidir. Azərbaycan ərazisində ulu əcdadlarımız tərəfindən əsrlər boyu yaradılan tarixi-mədəni abidələrin hamısı bizim milli yaddaşımızın tərkib hissəsidir. Arxeoloji qazıntıların nəticələri göstərmişdir ki, Azərbaycanda yaşamış insanların tarixən keçdikləri kəşməkəşli və şərəfli yollar qədim yaşayış məskənlərində və çoxsaylı abidələrdə öz əksini tapmışdır. Yaşadığımız dövrə gəlib çatan bu abidələr hazırda çox qiymətli nümunələr kimi qorunub saxlanılır. Ölkəmizin hər yerində yaşı əsrləri və minillikləri əhatə edən tarixi abidələr mövcuddur. Bütün bunlar xalqımızı torpağa, əcdadlarına bağlayan qırılmaz bağlardır. Azıx mağarasından tapılmış və "azıxantrop" adlandırılan qədim insanın çənə sümüyü Azərbaycanın dünyada ən qədim ibtidai məskənlərindən biri olmasını sübut edir. Qobustanda aşkar edilmiş yaşayış məskənləri bu ərazidə ən qədim dövrlərdən insanların məskunlaşdığını təsdiqləyir.

Tarix və mədəniyyət abidələri mənsub olduğu ölkənin nəinki tarixinin və mədəniyyətinin təbliği, eyni zamanda ölkənin turizm potensialının inkişafına da ciddi təsir göstərir. Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsinin təşkili barədə təlimatlar toplusunun hazırlanaraq çap olunması, MDB ölkələri içərisində ilk dəfə Azərbaycanda həyat keçirilib. Belə bir kitabın çapı son 100 ildə Azərbaycan tarixində ilk dəfə baş verən hadisədir. Tarix və mədəniiyət abidələrinin qorunması hər bir ölkə vətəndaşının bir nömrəli vəzifəsidir.

Bu məsələ Azərbaycan respublikasının Konstitusiyasının 77 maddəsində də öz əksini tapıb.

"Tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur" [2].

Bu gün abidələrlə əlaqədar çox mühüm problem maarifləndirmə ilə bağlıdır.Maarifləndirməyə böyük diqqət yetirməlidir ki, hər bir Azərbaycan vətəndaşı abidələrin yerləşdiyi kəndlərdə, şəhərlərdə, rayonlarda onların qiymətini bilsin və qayğı göstərsin. Azərbaycan iş adamlarının öz imkanları, vəsaitləri ilə abidələrin bərpasına qoşulması üçün maarifləndirmə işlər aparılmalıdır: Onlar tarixi abidələrin bərpasına kömək etməklə tarixdə olan görkəmli messenatların işlərini təkrar etməyə çalışsınlar. Bundan əlavə, abidələrimizin tədqiqi, bərpası, qorunması daha yaxşı koordinasiya olunmalıdır. Tədqiqi ilə Azərbaycan Milli Elmlər Akademiyası, Memarlıq və İnşaat Universiteti, bərpası və qorunması ilə Mədəniyyət və Turizm Nazirliyinin qurumları məşğul olur. Bu işlər daha yaxşı koordinasiya olunmalıdır. Alimlər, tədqiqatçılar, eyni zamanda praktik restavratorlar, sonra bu abidələri qoruyan qurumlar bir-birinin işi ilə daha yaxından tanış olmalıdırlar. Bu da işlərin daha uğurla irəli aparılmasına imkan verəcək.

Azərbaycan Milli Elmlər Akademiyası abidələrin aşkar olunması, tədqiqi işini, aşkar olunmuş arxeoloji qazıntılar zamanı aşkar olunmuş daşınar maddi-mədəniyyət qalıqlarında müvafiq icra hakimiyyəti orqanının razılığı əsasında mühafizəsini təşkil edir, yeni tikinti

zonalarında operativ tədqiqat işləri aparır, abidələrin əhəmiyyət dərəcələri üzrə qeydə alınmasında iştirak edir, zəruri hallarda maddi-mədəniyyət konservasiya və bərpa işləri görür, abidələrin təbliğini təşkil edir, onların qorunması, tədqiqi, bərpa və konservasiyası üçün metodik vəsaitlər hazırlayır, elmi-praktiki məsləhətlər verir, abidələrin tədqiqi üçün beynəlxalq protokollar

və sazişlər imzalayır və Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir [1].

Abidələr və tarixi yerlərimizin məhv olmaq təhlükəsi ölkəmizin bəzi bölgələrindən yan ötməmişdir. Torpaqlarımızın 20 faizini işğal etmiş Ermənistanın hərbi birləşmələri milli mədəniyyət abidələrimizi qəddarcasına dağıtmışlar. Erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi qalmışdır. Həmçinin bu ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisələri də düşmən tapdağı altındadır. Ümumilikdə 800-dən artıq tarix və mədəniyyət abidələrimiz işğal altındakı Azərbaycan torpaqlarındadır [3].

İşğal altında olan abidələr barədə məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün daha çox qüvvə sərf edilməlidir. Azərbaycanın rəsmi nümayəndə heyətlərinin hər bir yerdə, imkan olduqca bu barədə danışır.Unutmayq ki,  bütün ictimaiyyət bu işə qoşulmalıdır: Bizim internetdə çox zamanını keçirən gənclər bu işlə məşğul olmalıdırlar. Biz yorulmadan Azərbaycanın haqq səsini qaldırmalı, abidələr barədə narahatlığımızı bildirməli və dünyaya bu səsimizi yaymalıyıq. Bu isdə şübhəsiz əsas güc məhz dövlətimizin üzərinə düşür.

Dövlət işğalçı tərəfindən qənimət kimi ələ keçirilmiş abidələr haqqında beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırır və onların qaytarılması və bərpası üçün tədbirlər görür [4].

Bu gün ölkənin sürətli inkişafı, yeni infrastruktur layihələrinin həyata keçirilməsi, şəhərlərin genişləndirilməsi, yenidən tikilməsi, müasirləşməsi bütün dünyada olduğu kimi Azərbaycanda da tarixi irsə təhlükə yaradır. Hamı bu təhlükənin reallaşmamasına çalışmalıdır.Unutmayaq ki bu qanunvericilikdə də təsdiqini tapmışdır:

“Abidələrin bədii-estetik görkəminin dəyişdirilməsi, uçurulması və onlar üçün təhlükə yarada biləcək təmir, inşaat, təsərrüfat və digər işlərin aparılması qadağandır” [4].

Tarixi abidələrin qorunması Azərbaycan Respublikası cinayət Məcəlləsində də öz əksini tapır:

“Xüsusi tarixi, elmi, ədəbi və ya mədəni dəyəri olan əşyaları və ya sənədləri üsulundan asılı olmayaraq talamaya görə həmin şəxs cinayətə cəlb olunur və əmlakı müsadirə olunmaqla səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır” [1].

Tarixi abidələrimizin qorunması və gələcək nəsillərə çatdırılması sahəsində dövlətimizin başçısı İlham Əliyevin, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın ölkə daxilində və xaricində həyata keçirdikləri böyük işlər hər kəs üçün ən gözəl örnəkdir.

İçərişəhər memarlıq kompleksi, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmişdir. Qobustandakı muzey isə ötən il Avropanın ən yaxşı muzeyləri sırasında olmuşdur. Hazırda digər tarixi yerlər və abidələrimizin də bu siyahıya daxil edilməsi istiqamətində böyük işlər aparılır.

Milli mədəni irsin qorunmasını təmin etmək, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasını həyata keçirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı” isə bundan sonra görüləcək işlərin istiqamətini dəqiq müəyyən edən qiymətli bir sənəddir. Bu sənədə daşınmaz tarix-mədəniyyət abidələrinin yeni siyahısının tərtibi, bərpa-konservasiya işlərinə dair normativ sənədlərin beynəlxalq standartlara uyğunlaşdırılması, qoruqların maddi-texniki bazasının gücləndirilməsi, yüksək ixtisaslı kadrların hazırlanması, beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişafı kimi vacib məsələlər daxil edilmişdir.

Azərbaycan rəhbərliyinin böyük diqqət və qayğısı sayəsində ölkəmizdə tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür. Bütün bunlar isə Azərbaycanın qlobal dünyaya öz maddi və mənəvi mədəniyyəti ilə birgə inteqrasiyasını təmin edir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası cinayət məcəlləsi. Bakı, 2000
2. Azərbaycan Respublikasının konstitusiyası. Bakı, 1995
3. Qarabağ- irsimizin əbədi yaddaşı. Bakı, 2012
4. Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 10 aprel 1998

UOT 37.02;371

## Multikulturalizm və təhsil

*Həsənov Mənsur Məcnun oğlu*
*Mingəçevir səhər 20 №-li tam orta məktəb*

Son dövrlər bəşər cəmiyyətində baş verən iqtisadi, sosial, mədəni-mənəvi hadisələr yeni terminlərin yaranmasına səbəb olduğu kimi, bəzi bəlli terminlərin işlək hala gətirilməsinə də təsir göstərir. Multikulturalizm termini bu qəbildəndir. Yeni terminlər qrammatik mahiyyətli deyil, həm də baş verən mövcud münasibətlərin, tərzlərin, baxışların, hadisələrin mahiyyətini ehtiva edir. Qloballaşma ölkələr, dövlətlər arasında əlaqələrin genişlənməsini, inteqrasiyasını, birliklərini, vəhdətini əks etdirir. Təbii ki, bu proses də elmi, texniki, texnoloji inkişafla bağlıdır. Əgər yarım əsr əvvəl ölkələrarası gediş-gəlişlərin, daşınmaların və s. sürəti və kütləviliyi zəif idisə, bu gün olduqca intensiv və sürətlidir. XIX əsrin ortalarında dünya iqtisadiyyatının inkişafı lokallıq halında idisə, əsrin sonlarından etibarən bu ölkələrin digər ölkə ərazisində müxtəlif sahələrə yatırdığı sərmayələri ilə də inkişaf etdirilir. Ötənlərdə insanların ölkələrarası gediş-gəlişləri çox məhdud idi, hətta, mümkün deyildi. Ancaq müasir dövlətlərin sərhədləri ölkələrarası körpü rolunu oynayır. Miqrasiyalar o qədər çoxalıb ki, çoxluq təşkil edən millətin adını daşıyan ölkə, digər ölkələrdən gələn millətlərin çoxluğunda demoqrafik mahiyyətini itirir [2].

Multikulturalizm sosial ədalət, imkanların bərabərliyi demokratiya kimi müzakirə olunan anlayışların sırasına daxildir. Multikulturalizm etnik-mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən dəyərlərin qorunması və inkişafını nəzərdə tutur. Multikulturalizmi təbliğ edən ölkə onu dövlət ideologiyasının tərkib hissəsi kimi dövlət siyasəti səviyyəsinə qaldırır.

Azərbaycanda kultural mədəniyyətin müasir tələblər səviyyəsində formalaşmasının, ölkədə sabitliyin və tərəqqinin əsas amil olduğunu nəzərə alan ulu öndər Heydər Əliyev multikulturalizmin siyasi və hüquqi müstəvidə yerini müəyyən etmişdir. O, Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçmiş və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırmışdır. Deməli, ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir [1].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu siyasəti uğurla davam etdirir. Dövlətimizin başçısının sərəncamları ilə 2014-cü ilin fevral ayının 28-də Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi təsis edilmiş, 2014-cü il may ayının 15-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır [3]. Hazırda Multikulturalizm Mərkəzində multikulturalizm probleminin tədqiqi, təbliği, tədrisi istiqamətində geniş iş aparılır. Bakıda keçirilən Beynəlxalq konfranslarda, “dəyirmi masa” müzakirələrində və digər mühüm beynəlxalq əhəmiyyətli tədbirlərdə dövlətimizin başçısı İlham Əliyev Azərbaycanda multikulturalizm mədəniyyətinin qorunması və inkişafına ən yüksək diqqət yetirildiyini dəfələrlə bildirmişdir.

Bakıda yüzdən artıq dövlət nümayəndəsinin qatıldığı III Mədəniyyətlərarası Dialoq-Forumda çıxışı zamanı Prezident İlham Əliyev qeyd etmişdir ki, əsrlər boyu bütün mədəniyyətlər, dinlər və

etnik qrupların nümayəndələri Azərbaycanda sülh və ləyaqət şəraitində bir ailə kimi yaşayıblar. Biz fəxr edirik ki, bu müsbət meyllər müstəqillik illərində daha da güclənib.

"Bizim ölkədə multikulturalizmin ənənələri hər zaman güclü olub", - deyən ölkə başçısı "multikulturalizmin alternativi yoxdur" qənaətini də qətiyyətlə bildirmişdir. Ölkəmizin qlobal mədəniyyətlərarası dialoq mərkəzinə çevrilməsi təsadüfi xarakter daşımır. Azərbaycan bu gün dünyaya istər tolerantlıq, istərsə də iqtisadi inkişaf baxımından yeni model bəxş edib, Azərbaycan əsl tolerantlıq və inkişaf məkanıdır. Hazırda dünyanın bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrində fərqli mədəniyyətlərin toqquşmasının nəticəsində xoşagəlməz tendensiyalar meydana çıxır. İslamofobiya, irqçilik, ksenofobiya kimi təhlükəli meyllərin bəzən süni şəkildə alovlandırılması bu cür toqquşmaları daha da dərinləşdirir, nəticədə insan haqlarının pozulması halları artır, sosial sabitlik pozulur. Azərbaycanda isə əsrlərdən gələn multikulturalizm, dözümlülük və qarşılıqlı hörmət mühitində sabitlik, təhlükəsizlik, insan haqlarının müdafiəsi təmin edilib [4].

Azərbaycan dünyanın humanitar kataklizmlər baş verməyən nadir ölkələrindəndir. Humanitar məsələ bu gün özündə mədəniyyətlərin, sivilizasiyaların, konfessiyaların qarşılıqlı münasibətlərini ehtiva etməkdədir. Ölkəmizdə tarixən bu sahəyə ən pozitiv mövqe sərgiləndiyi üçün bu gün Azərbaycan dünyanın humanitar əməkdaşlıq mərkəzinə çevrilib. İlk Forum 2010-cu ilin yanvarında Bakıda keçirildi. Bu tədbir geniş rezonansa səbəb oldu və effektiv nəticələr verən ənənəyə çevrildi. Heydər Əliyev Mərkəzində keçirilən növbəti Üçüncü Beynəlxalq Forum öz işində humanitar əməkdaşlığın aktual məsələlərini müzakirə edib. Tədbirdə 70 ölkədən 800-ə yaxın qonaq iştirak edib. Onların arasında nüfuzlu ictimai-siyasi xadimlər, sabiq dövlət başçıları, Nobel mükafatı laureatları və başqaları iştirak ediblər. Ölkəmizdə keçirilən beynəlxalq konfranslarda, festivallarda, sərgilərdə tolerantlığın, multikulturalizmin dövlət siyasəti və insanların həyat tərzi olduğu praktik reallıqlarla meydana qoyulur [2].

Haqlı olaraq digər ölkələrdə Azərbaycan multikulturalizminin öyrənilməsinə ehtiyac yaranır. Buradan da multikulturalizmin həm də pedaqoji problem olduğu meydana çıxır. Çünki multikulturalizm təcrübəsinin təbliği, öyrənilməsi və öyrədilməsi pedaqoji prosesdə həyata keçirilir.

Prezident İlham Əliyevin Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında imzaladığı fərmandan ötən dövr ərzində görülmüş işlərdən bəhs edən respublikanın millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev qeyd etmişdir ki, Multikulturalizm Mərkəzinin əsas istiqamətlərindən biri "Azərbaycan multikulturalizmi" anlayışını dünya ictimaiyyətinə çatdırmaqdır. Bunun bir çox yolları vardır. Seçdiyimiz yol Azərbaycan multikulturalizmini xarici ölkələrdə, xüsusilə, gənclər arasında yaymaqdır. Bunun üçün həmin ölkələrin ali məktəblərində "Azərbaycan multikulturalizmi" fənninin tədrisinə başlanılıb. Bu gün dünyanın 7 ölkəsində, Azərbaycanın 8 universitetində "Azərbaycan multikulturalizmi" fənni bakalavriat və magistratura pilləsində tədris edilir... bu fənni öyrənmək istəyənlərin sayı artmaqdadır... [1]

Beləliklə, multikulturalizmin təhsil vasitəsi ilə yayılması və genişləndirilməsi amili meydana çıxır. Tədrisə başlamazdan əvvəl "Multikulturalizmə giriş" və "Azərbaycan multikulturalizmi" fənlərinin məzmunu müəyyənləşdirilmiş və fənlər üzrə məzmunu əhatə edən tədris proqramı hazırlanmışdır. Mərkəz müvafiq pedaqoji kadr hazırlığı məsələsini də həll etmişdir. Belə ki, Mərkəzin kurslarında iştirak edən dinləyicilər kurs üzrə təlim hazırlığı keçib, imtahan verir və tədrisetmə səlahiyyəti verən sertifikatlar alırlar.

Qeyd etməliyəm ki, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun maarifçilik layihələrində də multikulturalizm mədəniyyətinin təbliği geniş yer tutur. Burada da pedaqoji istiqamət əsas götürülür. Bilik Fondunun bu ilin 15 sentyabrında Bilik günü münasibəti ilə ölkəmizin bütün bölgələrində keçirdiyi Azərbaycan multikulturalizminə həsr olunmuş mühazirələr böyük maraqla dinlənilmişdir. Dövlət müşaviri, akademik Kamal Abdullayev Şamaxı rayonundakı Sabir qəsəbə tam orta məktəbində, Azərbaycan Təhsil Şurasının sədri, professor Əjdər Ağayev Neftçala rayonunun Yeni Qışlaq kənd ümumi orta məktəbində, Azərbaycan Milli Elmlər Akademiyasının fəlsəfə və hüquq İnstitutuunun aparıcı elmi işçisi,siyasi Elmlər üzrə fəlsəfə doktoru,Azərbaycan Jurnalistlər Birliyinin üzvü Sərdarov Məmmədağa Əhmədkərim oğlu Mingəçevir şəhər Texniki Humanitar Liseydə və digər mühazirəçilər ölkənin müxtəlif ümumtəhsil

ocaqlarında şagirdlər qarşısında "Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir" mövzusunda çıxışları ilə məktəbli gənclərin multikulturalizm biliklərini genişləndirmişlər.

"Azərbaycan multikulturalizmi" fənninin ümumtəhsil məktəblərində fakültativ məşğələyə ayrılan vaxt hesabına keçilməsi işin asanlıqla görülməsinə imkan verə bilər. Siyasi, fəlsəfi, iqtisadi, mədəni-mənəvi məzmuna malik multikulturalizmin böyüyən nəsillərin dünyagörüşünə, həyat tərzinə çevrilməsi üçün təlim-tədris prosesindən, tərbiyəvi təsirlərdən istifadə edilməsi mühüm əhəmiyyətə malikdir. İstər ölkəmizdə, istərsə də xarici ölkələrdə Azərbaycan multikulturalizminin pedaqoji problem olaraq tədqiqi, təbliği və tədrisinin insanların multikultural mədəniyyətə yiyələnməsində mühüm rola malikdir.

## Ədəbiyyat


1. Azərbaycan multikulturalizmi. Elmi-kulturoloji məqalələr toplusu.
2. Azərbaycan Təhsil Şurasının sədri, professor Əjdər Ağayevin mühazirələri.
3. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fərmanı.
4. Milli virtual - elektron kitabxana. www.kitabxana.net

# TƏDRİS PROSESİNDƏ MİLLİ-MƏNƏVİ TƏRBİYƏ BÖLMƏSİ

UOT 81'1 – 027.21

## Milli mənəvi dəyərlər: Heydər Əliyevin dil siyasəti

*fil.f.d. İsmayılov Mayıl Yolçu oğlu,*
*Salahbanova Çinarə Ayaz qızı*
*Mingəçevir Dövlət Universiteti*

*İnkişaf etmiş zəngin dil mədəniyyətinə səbəb olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir.*

***Ümummilli lider Heydər Əliyev***

Hər bir dövlətdə olduğu kimi Azərbaycanda da dil onun milli-mənəvi dəyərlərinin tərkib hissəsi sayılır. Millətin milliliyini ən birinci təsdiq edən onun dilidir [1]. Dil mənəviyyatın açarıdır. Ona görə də Azərbaycan dilinin inkişaf etdirilməsi, onun zənginləşdirilməsi hər zaman dövlətimiz üçün prioritet olub. Bu dil ulu babalarımızdan bizə miras qalan milli sərvətimiz olan mədəniyyətimizdi. Dilə olan məhəbbət, istək azdır, onu dövlət dili səviyyəsinə yüksəltmək və qayğısında dayanmaq əsasdır. Min illər boyu ulu babalarımızın arzusu, istəyi indi həyata keçmişdir. Ş.M.Xiyabani yazırdı: "Təkcə istəmək kifayət etməz, istəyi həyata keçirmək gərək" [2].

Ulu öndər Heydər Əliyev milli-mənəvi dəyərlər sırasında ana dilinə daha böyük önəm verirdi. Heydər Əliyev iqtisadiyyat və siyasətlə yanaşı, elmə, mədəniyyətə, maarifə və sənətə də qayğı ilə yanaşı Azərbaycan dilinə, onun inkişafına xüsusi diqqət yetirərdi. Onun təşəbbüsü ilə "Müasir Azərbaycan dili" dərsliyinin Dövlət mükafatına layiq görülməsi təkcə elmə yox, həm də ana dilinin inkişafına dövlət qayğısının təzahürü idi. Sonralar – 1978-ci ildə Azərbaycan SSR-in yeni Konstitusiyası qəbul edilərkən Əsas Qanunda Azərbaycan dilinin dövlət dili olduğunu bəyan edən xüsusi maddənin salınması həmin dövr üçün çox böyük cəsarət sayılırdı. Heydər Əliyevin müstəqillik dövrünün ilk Konstitusiyasının qəbulu zamanı dilimizin adı ilə bağlı apardığı elmi və prinsipial müzakirələr təkcə alimlərimizin yox, bütün xalqın xatirində silinməz izlər buraxmışdır.

Xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan, birliyimizi təmin edən milli-mənəvi dəyərləri qoruyub saxlamaq hər birimizin müqəddəs borcumuzdur. Hər zaman milli dəyərlərə sadiqliyimizi göstərib, bu dəyərləri əsrlərlə yaşadaraq onu inkişaf etdirmişik. Tarixin hər bir dövründə ölkəmizdə milli dəyərlərimizin qorunması və onun gələcək nəsillərə çatdırılması aktual olub.

Bəşər mədəniyyəti tarixinin araşdırılması sahəsindəki qazanılmış təcrübələr sübut edir ki, insanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Təbiətin hər bir xalqa bəxş etdiyi ən qiymətli miras onun milli-mənəvi dəyərləridir. Milli-mənəvi dəyərlər gələcək nəsillərə daha da zənginləşdirilmiş halda ötürməliyik. Şübhəsiz ki, mədəniyyət dəyişmədən və zənginləşdirilmədən varlığını qoruya bilməz. Mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi müstəqil respublikanın mədəniyyət siyasətinin əsas vəzifələrindən biridir. Azərbaycan dövləti öz daxili və xarici siyasətini yeni tarixi şəraitə, müasir tələblərə uyğun olaraq, xalqımızın tarixi və mədəni ənənələrinə, dilimizə, dinimizə, milli – mənəvi dəyərlərimizə istinad edərək həyata keçirir.

Azərbaycan xalqı olaraq öz milli dəyərlərimizi unutmamalı və bu dəyərlərə sadiq olmalıyıq. Hər bir ölkə və xalq üçün onun milli dəyərləri hər şeydən üstün tutulmalı və digər xalqların dəyərləri ilə ziddiyyət təşkil etməməlidir.

Milli mənəvi dəyərlərimiz yaşadıqca milli kimliyimiz də mövcud olacaq. Bu dəyərlər dəyişdikdə isə artıq qarşımızda fərqli milli kimliyi görəcəyik. Ona görə də milli-mənəvi dəyərlərin təbliği istiqamətində işlər görülməli, vətənpərvərlik və vətəndaşlıq hissləri gücləndirməlidir.

Xüsusən bu istiqamətdə təhsil prosesinin keyfiyyətini artırmalı, elmi-nəzəri və metodiki tövsiyələr işləyib hazırlamalıyıq. Müsbət dəyərləndirilməli məqam ondan ibarətdir ki, bu gün dövlət səviyyəsində milli və mənəvi dəyərləri qorunması və yaşadılması istiqamətində daha məqsədyönlü fəaliyyəti görə bilirik.

Azərbaycan dili indiki inkişaf səviyyəsinə çatana qədər mürəkkəb, ziddiyyətli, çətin bir yol keçmişdir. Dəfələrlə yadellilər torpaqlarımıza göz dikmiş, bizi əsarət altında saxlamağa, adət-ənənələrimizi, dilimizi unutdurmağa cəhd göstərmiş, lakin istəklərinə nail ola bilməmişlər.

Azərbaycan dili ən qiymətli milli sərvət, ən möhtəşəm, əbədiyaşar tarixi abidədir. Azərbaycan dilinin saflığını, təmizliyini qorumaq, ona dərin ehtiram və qayğı ilə yanaşmaq hər bir azərbaycanlının vətəndaşlıq borcudur. Dil olmazsa, insanlar bir-birini anlamaz və bir məqsəd ətrafında birləşə, öz duyğu və düşüncələrini ifadə edə bilməz.

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir. Xalqın mənəvi varlığı kimi ana dilini sevmək, dərindən və mükəmməl öyrənmək, qayğısına qalmaq, onun saflığını qorumaq, onunla fəxr etmək Heydər Əliyevin bizə vəsiyyətidir. Bu dili qorumaq, onu inkişaf etdirmək hər bir azərbaycanlının həm də övladlıq vəzifəsidir. Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər heç vaxt vətəninə, xalqına ögey münasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalı, bizim milli mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi, kecmişimizi, dilimizi, milli dəyərlərimizi yaxşı bilməlidir. Ali təhsil ocaqları, universitetlərimiz Azərbaycan mədəniyyətinin, elminin, milli mənəviyyatının zirvəsidir [1]. Ali məktəblərdə, ümumiyyətlə, təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır.

Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır [3]. Ulu öndər 18 iyun, 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzaladı ki, sözügedən sənəd həmin dövrdə bu istiqamətdə atılan vacib addımlardan biri idi. 2001-ci il, avqust ayının 1-dən isə latın qrafikalı Azərbaycan əlifbasına keçilməsinə qərar verildi. Ümummilli liderin "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il, 9 avqust tarixli fərmanı əsasında xalqımızın əlamətdar bayramları sırasına daha biri əlavə olundu. Həmin sərəncamla 1 avqust "Azərbaycan əlifbası və Azərbaycan dili günü" kimi qeyd olunmağa başlamışdır [3]. Ölkəmizdə Azərbaycançılıq məfkurəsinin inkişaf etdirilməsi, onun qorunub saxlanması da milli-mənəvi dəyərlərə xidmət etmək baxımından mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Azərbaycançılığın əsas atributlarından biri milli dövlətçilik, digəri isə milli-mənəvi dəyərlər hesab edilir. Bu mənada Heydər Əliyevin Azərbaycançılıq ideyasının formalaşması, onun inkişaf etdirilməsi və milli-mənəvi dəyərlərin bir hissəsinə çevrilməsində müstəsna xidmətləri olub.

Biz azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir (H.Əliyev).

Hər birimiz dilin bizə olan xidməti qarşısında onu qorumalı və yaşatmalıyıq. Hər şeydən əvvəl dili yaşadan, qoruyan və nüfuzlu edən millətin özüdür. Ancaq onu statuslu edən dövlətdir. Ancaq dil elə bir sahədir ki, onu qorumaq, yaşatmaq, inkişaf etdirməklə bağlı görüləcək tədbirləri yalnız və yalnız dövlətdən gözləmək olmaz. Bunun üçün müvafiq qurumların, təşkilatların, lap elə millətin hər bir övladının rolu heç də az deyildir.

Dil mədəniyyətin sadiq dayağıdır. Sadiq dayağıdır ona görə ki, mədəniyyət dil vasitəsilə başqalarına çatdırıla bilər. Dil millətin enerjisi, millətin gücüdür. Millətin dili onun ruhudur. Ana dili vasitəsilə Azərbaycan ədəbiyyatını, mədəniyyətini, dilini öyrənməldiri.

## Ədəbiyyat


1. Əliyev H. Müdrik fikirlər (iyun 1993-1998 oktyabr). I kitab. Bakı, 2008, 399 səh.
2. Xəlilov B. Dil, ədəbiyyat, mədəniyyət. Bakı, "Bakı çap evi", 2013, 484 səh.
3. Pənahov İ. Əbədiləşən şəxsiyyət. Bakı, Qismət, 2013, 240 səh.

UOT 13.00.02

## Alman dili məşğələlərində atalar sözləri təhsil və tərbiyə prosesinin başlica funksiyasi kimi

*fil.f.d., dos. Manafov Namaz Rizvan oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Atalar sözləri şifahi xalq ədəbiyyatının ən maraqlı janrlarından biridir. Atalar sözü lakonik ifadə olunmuş, ibrətamiz məna ifadə edən xalq kəlamıdır. Onlarda ayrı-ayrı adamların deyil, xalqın sözü, xalqın qiymətləndirməsi, xalqın ağlı ifadə olunur. Hər bir xalqın adətləri, ənənələri, etik və mənəvi xüsusiyyətləri onun atalar sözlərində öz əksini tapır [1].

Alman dili məşğələlərində atalar sözlərindən geniş istifadə edirəm. Fonetika, leksika, morfologiya və sintaksisinə aid çalışmalarda nümunələri alman atalar sözlərindən seçirəm.

Məsələn, sintaksis bölməsində cümlənin tədrisi zamanı tələbələrə izah edilir ki, alman dilində cümlənin aşağıdakı xüsusiyyətləri var:

1. Cümlədə baş üzvlərin olması mütləqdir. Lügen haben keine Beine. Yalanın ayaqları gödək (qısa) olar. = Yalan ayaq tutar yerimaz. Lügen (mübtəda- das Subyekt), haben (xəbər-das Pradikat).

2. Alman dilində xəbər feillə ifadə olunur. Hətta ismi xəbərin kopula hissəsi köməkci feil olur[2]. Der gerade Weg ist der beste. Ən yaxşı yol düz yoldur.

Müqayisə et: Düz əyrini kəsər. ( Sein köməkçi feildir- das Hilfsverb).

3. Alman dilində cümlənin növündən asılı olaraq xəbərin öz yeri var. Sadə nəqli cümlədə xəbər həmişə ikinci yerdə durur. Brot kostet Schweiss. Çörək alın təri ilə qazanılır.= İşləməyən dişləməz. Könlü balıq istəyən quyruğunu suya vurar.

Əgər xəbər iki hissədən ibarət olarsa, bu zaman nəqli cümlədə xəbərin dəyişən hissəsi ikinci yerdə, xəbərin dəyişməyən hissəsi isə cümlədə axırıncı yerdə durur. Es wird keiner Meister geboren. Heç kəs anadan usta doğulmur.

4. Sual sözsüz sual cümləsində və əmr cümlələrində xəbər birinci yerdə durur. Sage mir,

mit wem du umgehst und ich sage dir, wer du bist. Gəzdiyin adamı mənə de, deyim sən kimsən = Dostunu göstər, sənin kim olduğunu deyim.

5. Azərbaycan dilindən fərqli olaraq, alman dilində cümlədə yalnız bir inkar işlənir [2]. Artiges Kind fragt nichts. Sözə baxan uşaq heç nə soruşmur, heç nə istəmir.

Dərsin müxtəlif mərhələlərində atalar sözlərinin fonetik, leksik-semantik və qrammatik xüsusiyyətlərini izah edirəm. Atalar sözlərinin köməyi ilə tələbələrin tələffüzünü daha da təkmilləşdirməyə, ən mürəkkəb qrammatik mövzulari mənimsətməyə və tələbələrin lüğət ehtiyatını zənginləşdirməyə çalışıram. Hər yeni atalar sözünü tələbələr lüğət dəftərində qeyd edirlər.

Atalar sözləri tərbiyə kompleksidir. Alman dili dərslərində atalar sözlərindən istifadə tələbələrdə xalq müdrikliyinə sevgi və marağı artırır, başqa xalqların dil və mədəniyyətinə milli-mənəvi dəyərlərinə hörmət hissi, tolerantlıq formalaşdırır.

Məşğələlərdə atalar sözlərinin tərbiyəvi əhəmiyyətini qeyd edir və onları tərbiyənin tərkib hissələrinə görə təsnif edirik. Bu zaman tələbələr fəal olur, müstəqil axtarışlar aparır, alman dilində oxuduqları bədii əsərlərdən və ev oxusundan əmək, vətən, dostluq, səadət barədə yaranmış atalar sözlərini toplayır və öyrənirlər:

Əmək haqqında yaranmış atalar sözləri

Əməyin insan üçün sağlamlıq, şərəfli iş olması barədə yaranmış atalar sözləridir:

Eigen Brot nahrt am besten. Adamın öz çörəyi hər şeydən yaxşıdır = Öz quru çörəyim özgəsinin plovundan yaxşıdır.

Das Ende krönt das Werk. İş bitəndə taclanır. Müq.et: Bitmiş işdən gül iyi gəlir.

Ende gut, alles gut. Yaxşı (iş) odur ki, yaxşı qurtarır (Yəni hər işin axırı yaxşı olsun).

Fleiss ist des Glückes Vater. Zəhmət (əmək) səadətin atasıdır = Əmək fərəh və səadətdir.

Vətən, dostluq və səadət haqqında yaranmış atalar sözləri

Vətənpərvərlik, etibarlılıq, xoşbəxtlik barədə yaranmış atalar sözləridir:

Eigener Herd ist Goldes wert. Vətən qizildan əzizdir = Hər kəsə öz vətəni əzizdir.

Eignes Dach gibt Mut. Adama öz damı cəsarət verir = Öz evində divarlar da kömək edir.

Den Freund erkannt man in der Not. Dostu dar gündə taniyarlar = Dostu dar gündə sına.

Für einen Freund geht man durch Feuer und Wasser. Dost ücün odun-suyun içindən keçəsən gərək = Dost yolunda boran olar, qar olar.

Mərdlik və igidlik haqqında yaranmış atalar sözləri

Ehrlicher Feind ist besser als falscher Freund. Mərd düşmən namərd dostdan yaxşıdır.

Es ist ein dummer Fuchs, der nur ein Loch weib. Axmaq o tülküdür ki, yalnız bir yuvası var. Müq. et: Ehtiyat igidin yaraşığıdır.

Junges Blut hat Mut. Gənclik qorxu bilmir. ( Gənclik hünərdir (cəsarətdir).

Əxlaq-tərbiyəsi və gözəllik haqqinda yaranmış atalar sözləri

Yüksək əxlaqi keyfiyyətləri tərənnüm edən atalar sözləridir:

Eigenlieb ist niemand lieb.Eqoist (xudbin) adam heç kimi sevməz. =Təkcə özünü sevən heç kimi sevməz.

Eilen macht oft heulen. = Tələsən təndirə düşər.

Geduld bringt Huld. Səbr iltifat (gözəllik ) gətirir.

Der gerade Weg ist der beste. Ən yaxşı yol düz yoldur. Müq. et: Düz əyrini kəsər.

Ein gesunder Geist in einem gesunder Körper. Sağlam bədəndə sağlam ruh. =Sağlam ruh sağlam bədəndə olar (3).

Alman dili məşğələlərində atalar sözlərindən düzgün istifadə yüksək səmərə verir, odur ki, alman atalar sözlərinin xüsusiyyətlərini yaxşı bilmək və tərbiyə işində nəzərə almaq lazımdır.

## Ədəbiyyat


1. Ağamehdi Mehdialıyev. www.freedomaqa.blogspot.ru
2. Əhmədova T. R., Həsənova R. T. Deutsch, TQDK, Bakı, 2008, 184 səh.
3. Seyidəliyev N.F., Abdullayev S Ə. Alman atalar sözləri və onların azərbaycanca, rusca qarşılıqları. Bakı, 2001, 180 səh.


UOT 37.013

# Nizami Gəncəvi yaradıcılığında hərbi vətənpərvərlik tərbiyəsi


*p.f.d., dos. Əzizova Zenfira Mirsəfər qızı*
*Mingəçevir Dövlət Universiteti*
*f.f.d. Abbasova Gülnarə Tanrıverdi qızı*
*AMEA Dilçilik İnstitutu*


XII əsr Azərbaycan Ədəbiyyatı humanizm ideyalarının öz yeni, böyük təntənəsini Nizami Gəncəvi sənətində tapdı. Nizami Gəncəvi yaradıcılığında qəhrəmanların fəaliyyətində vətənə dərin məhəbbət hissi duyulur. Gənc nəslin tərbiyəsində təsirli vasitə, qiymətli mənbə hesab olunan Nizami irsi bugünkü gəncliyin hərbi vətənpərvərlik tərbiyəsi üçün faydalıdır.

N.Gəncəvinin həyatına, yaradıcılığına dair aparılan bütün tədqiqat əsərlərində onun vətənpərvər şair olduğu xüsusilə qeyd edilərək göstərilir ki, o, doğulduğu doğma vətəni dərin məhəbbətlə sevmiş və ömrünün axırına qədər orada yaşamışdı. Əsərlərində də vətənin gözəliklərindən ilhamla danışmış, onu poetik bir dildə vəsf etmişdi. Nizaminin qəlbində vətənpərvərlik hissinin möhkəm kök salmasının nəticəsidir ki, onu oxucusuna da təlqin edib, vətəni sevməyi, qorumağı hər bir oxucuya tövsiyə edir. Şairin

"Çalış ki, kipriyin olsun almaz tək

Ayıq ol, ölkənin keşiyini çək.” [1]

misraları diqqəti cəlb edir. Vətəni qorumaq üçün gözuaçıq, ayıq olmaq lazımdır. Vətəninə, xalqına ürəkdən bağlı olan şair vətən haqqında müdrük kəlamlarını da xalq ifadələri, hikmətlərilə qüvvətləndirir:

Belə misal çəkmiş aqil bir insan:
“Qurd girməz sürüyə, yatmasa çoban”... [1]

Şair bu xalq məsəlilə demək istəyir ki, vətəndə yaşayan o vətənin keşiyində ayıq durarsa, düşmən onun ölkəsinə ayaq basa bilməz.

Nizaminin vətənpərvərlik ideyalarını yaratdığı qəhrəmanların hərəkət və davranışlarında, əməli fəaliyyətlərində də aydın görmək olur. Şairin ayrı-ayrı qəhrəmanlarının şəxsində vətənə dərin məhəbbət hisslərinin aydın ifadəsinə rast gəlirik. Bütün yaradıcılığı boyu humanizmi, sülhü, əmin-amanlığı təbliğ edən, zülmü, əziyyəti, qan tökməyi pisləyən, adamları onlardan uzaqlaşdırmağa çalışan şair lazım gəldikdə, vətən, xalq, yaranmış şərait tələb etdikdə silah işlətməyi, silaha sarılaraq vətəni müdafiə etməyi vacib sayır. Şairin ideyalarının daşıyıcısı olan qəhrəmanlar məhz belə hərəkət edirlər, vətən naminə heç bir çətinlikdən qorxmurlar.

Bu baxımdan, aşağıdakı epizodlara nəzər salmaq və diqqət obyektinə çevirmək olduqca faydalıdır.

“Yeddi gözəl”əsərinin qəhrəmanı Bəhram Yəməndə olarkən atası Yəzqurd vəfat edir və onun taxtında başqası əyləşərək ölkəyə sahib olmaq istəyir. Bəhram atasının ölümündən çox vətənin başqası tərəfindən idarə olunacağından kədərlənir və buna görə də öz ideyasını həyata keçirmək üçün heç bir çətinlikdən çəkinmir, ölümdən də qorxmur, ölməyi vətəndən uzaqda yaşamaqdan üstün tutur. Bəhramın bu mübarizəsi təkcə taxt-tac uğrunda deyil, bütövlükdə vətən uğrunda mübarizədir. Bəhram vətən üçün çox ağır bir şərtlə razılaşır: iki şir arasından tac götürdükdən sonra hakimiyyətə sahib olur. Bəhram-Gur ədalətli padşahdır, ölkəni yadlara vermir, yenilməz qəhrəmandır. Şairin “Xəmsə”sinə daxil olan poemalarda vətənpərvərlik pafosu güclüdür və Nizami yaradıcılığının bugünkü gəncliyin hərbi-vətənpərvərlik tərbiyəsində faydası böyükdür. Dahilər bu dünyaya vida deyib öz gözlərini yumarkən belə, xalqın gözlərini açırlar. Onlar öləndən sonra belə, inkişafdan, yürüşdən qalmır, yaratdıqları mənəvi sərvət sayəsində yeni-yeni ürəkləri, şüurları, ölkələri fəth edirlər. Bu mənəvi fəth heç bir vaxt dayanmır, əksinə, öz hüdüdlarını genişləndirir. Tarixi tərəqqinin hər hansı kəsimində, xoş və bəlalı günlərində onsuz keçinmək olmur. Uzun əsrlər boyu keşməkeşlərin, tufanların arasından yalqız, tənha keçməyib, yaratdığı və dünya vətəndaşına çevirdiyi qəhrəmanları ilə bir sırada addımlamışdır. Adama elə gəlir ki, başı buludlara dirənmiş əfsanəvi Bisütun dağını qəlpə-qəlpə qoparıb Şirinin eşqilə süd arxı çəkən, nəfəsilə qayaları əridən qəhrəman təkcə Fərhad deyil, həm də, Nizamidir. Nuşirəvanın qayğısızlığı və biganəliyi ucbatından ölkədə xarabalıqların artmasından sevinən bayquşların söhbətini yozan, hökmdarı ədalətli olmağa dəvət edən də əslində Nizaminin özüdür ki, şahı düşünməyə və bu sözləri deməyə vadar edir:

Nə vaxtacan tökəcəm, yoxsa ömrüm uzunu
Həm xalqımın qanını, həm üzümün suyunu?! [3]

Yanından hamının ikrahla keçib getdiyi it cəsədinin mirvari kimi dişlərini görən də İsa peyğəmbərdən daha çox Nizaminin gözləridir. Qeyri-insani cəmiyyətdən qaçıb, səhralara, heyvanlara pənah aparan Məcnunun məhəbbətə layiq bir aləm axtarışında, ərə veriləndə belə, Məcnuna eşqini qoruyub saxlayan Leylinin əbədi sədaqətinə, dirilik suyu axtaran və bunu yalnız yaradıcı insan zəkasının qüdrətində tapan İskəndərin müdrikliyində, əyninə kəfən geyib zalım şahın hüzuruna gələn və acı həqiqəti onun üzünə çırpan Zahidin cəsurluğunda, ac aslanlar arasında öz qismətini, tacını götürən Bəhram şahın mərdanəliyində, susuzluqdan yandığı və can verdiyi halda sevgilisi Şirini oyatmağa qıymayan, yalnız eşq sayəsində kamala yetən Xosrovun həqiqətə böyuk çətinliklər bahasına çatmasında Nizaminin qeyri adi şəxsiyyətini, azad, xoşbəxt insan cəmiyyəti yaratmaq naminə qanad çalan ülvi xəyallarını, bəşəriyyət üçün alovlanan məşəl ürəyini görmək heç də çətin deyil.

Nizami lirikasında insanın kainat qədər geniş, sonsuz mənəvi həyatı verilmişdir. Burada sevgi dünyanı idrak vasitəsinə çevirir, bəlli olur ki, heç bir kəşf, ixtira mümkün deyil, ən böyük qəhrəmanlığın, fədakarlığın da əsasında sevgi durur. Buna görə, Nizami üçün “gözəllik”

bəşəriyyətin timsalıdır. Kainatı və insanlığı sevmək bir fərdi sevməkdən başlanır. Fərdi sevə bilməyən milləti, bəşəriyyəti sevə bilməz. Dahi şairimiz özünədək dəbdə olan və çox vaxt yalnız bir ovuc hökmdarlara, tacidarlara sərvət, mənsəb sahiblərinə xidmət edən saray ədəbiyyatı tilsimini qırmış poeziyanı bütövlüklə xalqın istifadəsinə vermiş, estetik meyar olaraq əməkçi insanın zövqünü, məsləkini əsas götürmüşdür. Buna görə də Nizami poeziyasını inqilabi poeziya adlandırırıq.

Şair "Xosrov və Şirin" əsərində vətənpərvərlik hisslərini parlaq ifadə edir. Xosrov Şirinin arxasınca gələndən sonra hindlilər Xosrovun vətəninə hücum etmişlər. Belə bir təhlükəli zamanda vətəndən çıxmasını Xosrova irad tutan Şirin qoşun toplayıb ölkəni azad etməyi məsləhət bilir:

"Tacidar olmağa ləyaqətin var.
Ölkəni fitnədən xilas edərək,
Qüdrətini göstər bir dəfə görək..." [2]

Şirinin bu məsləhəti, daha doğrusu, tələbi nəticəsində Xosrov qoşun toplayıb vətəni xilas edir:

"Dünyanı yandıran düşmən xar oldu,
Xosrov qalib çıxdı, tale yar oldu". [2]

Bu, N.Gəncəvinin vətənə dərin məhəbbətidir ki, onu sevimli obrazı Şirinin mənəvi keyfiyyəti kimi oxucuya təqdim edir. Şairin yaradıcılığında vətənpərvərlik hisslərinin parlaq ifadəsi kimi diqqəti cəlb edən epizodların sayını istənilən qədər artırmaq olar.

Elmi ədəbiyyatdakı vahid qənaət də təsdiq edir ki, Nizami ədəbi irsi, Nizami məktəbi təlim-tərbiyə mənbəyidir. M.Ə.Rəsulzadə yazırdı: "Nizami, azərbaycanlıların sadə vətənpərvəri deyil, milli duyğularını daha çox qabardan bir şəxsiyyətdir. Bu şəxsiyyətlə sadə azərbaycanlılar deyil, bütün türklər öyünməlidirlər. Dilinin farsca olmasına baxmayaraq, heç bir şairdə türklük, Nizamidə olduğu qədər ideallaşdırılmamışdır." [4] Vətəndaş və mütəfəkkir şəxsiyyət kimi yüksək sənət zirvəsində dayanan şairin yaradıcılığının əsasını xalqımızın ulu keçmişi, onun tarixi, bacarıq və qəhrəmanlığı təşkil edir. N.Gəncəvi yaradıcılığının bəşəriliyi, xəlqiliyi, beynəlmiləlçiliyi onun xalqdan qüvvət alaraq yaradıcılığını yeni bir istiqamətdə inkişaf etdirməsi olmuşdur. Dahi Nizamini bizdən əsrlər ayırır, lakin dərin xəlqiliyi, yüksək bəşəriliyi, vətənpərvərlik və beynəlmiləlçiliyi ilə dolu poemaları bizim üçün müasirdir.

## Ədəbiyyat


1. Nizami Gəncəvi. İsgəndərnamə. Şərəfnamə. Bakı: Lider nəşiriyatı, 2004, 208 səh.
2. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı: Lider nəşriyyatı, 2004, 387 səh.
3. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı: Lider nəşriyyatı, 2004, 164 səh.
4. Məhəmməd Əmin Rəsulzadə. Azərbaycan şairi Nizami. Bakı: Azərnəşr, 1991, 232 səh.


UOT 1

## Влияние мультикультурного образования на нравственное развитие студентов в Азербайджане

*д.ф.ф., доц. Джабарова Шукюфа Барат кызы*
*Азербайджанский Университет Языков*

В своей речи на состоявшемся 10 января 2016 года заседании Кабинета министров, посвященном итогам социально-экономического развития в 2015 году и предстоящим задачам, Президент Азербайджана Ильхам Алиев сказал: «Азербайджан проделал огромную работу, связанную с мультикультурализмом. Пример Азербайджана показывает, что мультикультурализм живет. Несмотря на то, что некоторые политики утверждают, что мультикультурализм потерпел крах. Может быть, где-то и потерпел крах. Но в

Азербайджане он живет, эти тенденции, идеи усиливаются, получая все большую поддержку общественности. Мы будем идти по этому пути. Таким образом, нынешний год в Азербайджане объявляется «Годом мультикультурализма» [1]. На открытии IV Глобального Бакинского Форума 10 марта 2016 года Президент Азербайджана Ильхам Алиев еще раз подчеркнул - «Нынешний год в Азербайджане является «Годом мультикультурализма». Люди, принадлежащие к различным этническим корням, религиям, веками жили в Азербайджане в условиях мира, спокойствия, и мы гордимся этим. Мы рады тому, что в годы независимости эта позитивная тенденция еще больше усилилась. Мультикультурализм и религиозная терпимость в Азербайджане – государственная политика. Одновременно это является олицетворением господствующих в обществе настроений. А это очень важно, что государственная политика и общая атмосфера в этой сфере не разнятся» [2].

Этот посыл Президента ставит новые задачи перед обществом и перед образованием. Необходимо отметить, что концептуальным идеологическим течением в образовательной политике современного общества является мультикультурное образование. По представлению американского теоретика мультикультурного образования Д. Бэнкса мультикультурное образование эволюционировало следующим образом:

I фаза: Моноэтническое направление в обучении

II фаза: Мультиэтническое направление в обучении

III фаза: Мультиэтническое образование

IV фаза: Мультикультурное образование [6].

Мультикультурное образование предполагает построение образования на принципе культурного плюрализма, признании равноценности и равноправия всех этнических и социальных групп, составляющих данное общество, на недопустимости дискриминации людей по признакам национальной или религиозной принадлежности, пола или возраста. Мультикультурное образование способствует формированию уважения, принятия и правильного понимания богатого многообразия существующих культур, наших форм самовыражения и способов проявлений человеческой индивидуальности [4].

Именно в мультикультурном образовании реализуется в полной мере принцип диалога и взаимодействия культур, личностей, отдельных групп и общностей.Целью поликультурного образования и воспитания является формирование поликультурной личности. Мультикультурная личность – это интегративная характеристика личности, которая включает в себя совокупность таких качеств, как толерантность, эмпатия, бесконфликтность, гражданственность, гуманность, многокультурная идентичность. Поликультурная личность нацелена на положительную мотивацию к позитивному сотрудничеству с представителями различных культур (национальностей, рас, верований, социальных групп), эмоционально-ценностному отношению к особенностям различных культур и их представителям.

Необходимо отметить, что мультикультурная образовательная средадолжна обладать такими характеристиками, ценностями и особенностями как: наличие условий для культурной самоидентификации, позитивное ценностное отношение к разным культурам, диалогичность, толерантность, открытость для проникновения других культур, равные условия существования для представителей всех культур, готовность к межкультурному взаимодействию, направленность на формирование коммуникативных навыков с представителями разных культур, многоязычие, учет поликультурного состава общества при составлении учебных программ, материалов и заданий. Хочу подчеркнуть, что эти факторы были учтены при составлении программ по курсам «Азербайджанский мультикультурализм» и «Введение в мультикультурализм», которые преподаются в 28 вузах Азербайджана, а предмет «Азербайджанский мультикультурализм» преподается еще и в 13 зарубежных университетах. Кроме этого, филиалы Бакинского Международного Центра Мультикультурализма открыты в Германии, России, Португалии, Казахстане, Италии. И это не удивительно. Традиции мультикультурализма, мультикультурного образования имеютв Азербайджане глубокие исторические корни. В своем интервью известный художник -

керамист, автор более 1500 научных, публицистических статей по истории, искусствоведению, этнографии, краеведению Мир-Теймур Мамедов подчеркивает, что мультикультурное образование берет начало с Тебризского университета средних веков. Центром образования в 16-м веке был Тебриз – столица Азербайджана. Впервые в мире Тебризский университет применил систему знаний для 7 тысяч иностранных студентов. Со всего мира люди разных возрастов, национальностей, сословий стекались в Тебриз для просвещения. "Извините, может, я невольно могу оскорбить вас своими словами, но это может произойти только ввиду того, что я не знаю обычаев вашей страны". Именно с этих слов в 16-м веке в Тебризском университете начинались лекции для всех иностранных студентов [3]. Эти традиции бережно сохранены и приумножены. Сегодня мультикультурализм – это образ жизни азербайджанского общества.

Важной целью мультикультурного образования является формирование у студентов навыков межкультурной компетенции. К ним относятся: уважение к уникальности культуры каждого народа, терпимость с необычному поведению, желание позитивно относится ко всему неожиданному, готовность реагировать на изменения, гибкость в принятии альтернативных решений, отсутствие завышенных ожиданий от общения с представителями других культур и др. Эти навыки являются мостиками к пониманию представителей других культур и народов, урегулированию конфликтных ситуаций.Исходя из этого, можно сформулировать следующие задачи поликультурного образования: а) глубокое и всестороннее овладение культурой своего народа, являющееся условием интеграции личности в мировую культуру; б) формирование представлений о многообразии культур, воспитание позитивного отношения к культурным различиям, обеспечивающим прогресс человечества и условия для самореализации личности; в) создание предпосылок для интеграции личности в культуру других народов, развитие умений и навыков освоения различных культур, воспитание в духе согласия, терпимости, гуманности и взаимопонимания в вопросах межнационального общения [5].

Таким образом, мультикультурная подготовка специалиста - это целенаправленный учебно-воспитательный процесс, процесс создания условий формирования мультикультурности специалиста, это компонент процесса социализации личности студента, при котором осуществляется его саморазвитие, самосовершенствование и самовоспитание.

## Литература


1. Президент Ильхам Алиев: Мультикультурализм – образ жизни в Азербайджане // http://azertag.az/ru/xeber/Prezident_Ilham_Aliev_Multikulturalizm_obraz_zhizni_v_Azerbaidzhane-918990
2. Ильхам Алиев принял участие в открытии IV Глобального Бакинского Форума // http://ru.president.az/articles/18049
3. Азербайджанские ковры и мугам - все это часть мультикультурализма //http://news.day.az/culture/753885.html
4. Литвинова Г.Г. Поликультурное образование как часть культуры будущих специалистов, // Вестник БГУ, № 1, 2013, с. 41-44
5. Павлова И.Ю. Поликультурное образование в высшей школе в современных условиях. // Мир науки, культуры и образования, № 3, 2009, с. 143-145
6. Banks, J.A. Multiethnic education: Theory and practice / James A. Banks. - 2nd ed. - Boston: Allyn and Bacon, 1988. - 312 pp

UOT 517

# Orta məktəbdə "Xətlərlə hüdudlanmış fiqurların sahələrinin və fırlanmadan alınan cisimlərin həcmlərinin hesablanması"na müəyyən inteqralın tətbiqləri

*f.r.f.d., dos. Kələşov Qəhrəman Tapdıq oğlu*
*Məmmədova Məhparə Səməd qızı*
*Mingəçevir Dövlət Universiteti*
*Kələşova Səadət Qəhrəman qızı*
*Mingəçevir şəhər 3 №-li tam orta məktəb*

Orta məktəbdə tədris olunan "Cəbr və riyazi analizin başlanğıcı" fənninin tədris proqramına müəyyən inteqralın tədrisi mövzusu salındıqdan sonra, xətlərlə hüdudlaşmış fiqurların sahələrinin hesablanması, eləcə də xətlərlə əhatə olunmuş fiqurların $OX$ və $OY$ oxları ətrafında fırlanmasından alınan cisimlərin həcmlərinin hesablanmasına aid məsələlərin həlləri xeyli sadələşdirildi. Belə ki, yuxarıda qeyd etdiyimiz məsələlərin həllinə hal-hazırda orta məktəblərdə müəllimlər tərəfindən müəyyən inteqral geniş tətbiq olunur. Bu məqalədə orta məktəbdə həndəsə məsələlərinin həllinə müəyyən inteqralın birsıra tətbiq sahələri şərh olunmuşdur. $y$ $x$

1. Tutaq ki, $aABb$ əyrixətli trapesiyası yuxarıdan $y = f(x)$ əyrisi, soldan $x = a$, sağdan $x = b$ düzxətləri, aşağıdan $OX$ oxu ilə hüdudlanmışdır (şəkil 1). Qeyd etdiyimiz xətlərlə əhatə olunmuş əyrixətli trapesiyanın sahəsi

$$S = \int_a^b f(x)dx \quad (1)$$

düsturu ilə hesablanır.




Şəkil 1.

Məsələ 1. Verilmiş xətlərlə hüdudlanmış sahəni hesablayın: $y = x^2 - 2x + 2$; $y = 0$; $x = 1$; $x = 3$.

Həlli: $S = \int_a^b f(x)dx = \int_1^3 (x^2 - 2x + 2)dx = (\frac{x^3}{3} - x^2 + 2x)\Big|_1^3 =$

$= (9 - 9 + 6 - \frac{1}{3} + 1 - 2) = 4\frac{2}{3}\, kv.vahid$ (şəkil 2).




Şəkil 2.

2. Tutaq ki, $cCDd$ əyrixətli trapesiyası sağdan $x = \varphi(y)$ əyrisi, yuxarıdan $y = d$, aşağıdan $y = c$ düzxətləri, soldan isə $OY$ oxu ilə hüdudlanmışdır (şəkil 3). Alınmış əyri xətli trapesin sahəsi

$$S = \int_c^d \varphi(y)dy \quad (2)$$

düsturu ilə hesablanır.




Şəkil 3.

Məsələ 2. Verilmiş xətlərlə hüdudlanmış sahəni hesablayın:

$x = y^2 - 2y + 3$, $x = 0$, $y = 2$, $y = 3$

Həlli: $S = \int_c^d \varphi(y)dy = \int_2^3 (y^2 - 2y + 3)dy = (\frac{y^3}{3} - y^2 + 3y)\Big|_2^3 =$

$y \ = (9 - 9 + 9 - \frac{8}{3} + 4 - 6) = 4\frac{1}{3} kv.vahid$ (şəkil 4).




Şəkil 4.

3. Tutaq ki, $A_1A_2B_2B_1$ əyrixətli trapesiyası, yuxarıdan $y_2 = f_2(x)$, aşağıdan $y_1 = f_1(x)$ əyriləri ilə, soldan $x = a$ və sağdan $x = b$ düzxətləri ilə hüdudlanmışdır (şəkil 5). Alınmış əyrixətli trapesin sahəsi

$$S = \int_a^b (f_2(x) - f_1(x))dx \qquad (3)$$

düsturu ilə hesablanır.




Şəkil 5.

Məsələ 3. Verilmiş xətlərlə hüdudlanmış sahəni hesablayın:

$y = 2x - x^2$; $x + y = 0$

Həlli: $y = 2x - x^2$ və $x + y = 0$ xətlərini düzbucaqlı koordinat sistemininndə qurub, axtarılan sahəni müəyyən edək (şəkil 6). Əyrilərin kəsişmə nöqtələrinin koordinatlarını tapaq.

$$-x^2 + 2x = -x \Rightarrow x(x - 3) = 0 \Rightarrow \begin{cases} x_1 = 0 \\ x_2 = 3 \end{cases}$$

Axtarılan sahə

$$S = \int_a^b (f_2(x) - f_1(x))dx = \int_0^3 (-x^2 + 2x + x)dx =$$

$$= (-\frac{x^3}{3} + \frac{3x^2}{2})\Big|_0^3 = -9 + \frac{27}{2} = \frac{9}{2} kv.vahid$$ olar. (şəkil 6)




Şəkil 6.

4. Tutaq ki, $C_1D_1D_2C_2$ əyrixətli trapesiyası soldan $x_1 = \varphi_1(y)$, sağdan $x_2 = \varphi_2(y)$ əyriləri ilə, aşağıdan $y = c$, yuxarıdan $y = d$ düzxətləri ilə hüdudlanmışdır (şəkil 7). Alınmış əyrixətli trapesin sahəsi

$$S = \int_c^d (\varphi_2(y) - \varphi_1(y))dy \qquad (4)$$

düsturu ilə hesablanır.




Şəkil 7.

Məsələ 4. Verilmiş xətlərlə hüdudlanmış sahəni hesablayın: $x = y^2 - 6y + 11$ ; $x = -y^2 + 6y - 3$; $y = 2$; $y = 4$

Həlli: Verilmiş funksiyaların qrafikini qurub, axtarılan sahənin formasını müəyyən edək.

Bunun üçün ifadələr üzərində çevirmələr aparsaq $x = y^2 - 6y + 11 = (y-3)^2 + 2$

$x = -y^2 + 6y - 3 = -(y-3)^2 + 6$ alarıq. Onda axtarılan sahə




Şəkil 8.

$$S = \int_c^d (\varphi_2(y) - \varphi_1(y))dy = \int_2^4 (-y^2 + 6y - 3 - y^2 + 6y - 11)dy = \int_2^4 (-2y^2 + 12y - 14)dy =$$

$$= -2\int_2^4 (y^2 - 6y + 7)dy = -2\left(\frac{y^3}{3} - 3y^2 + 7y\right)\Bigg|_2^4 = -2\left[\left(\frac{64}{3} - 48 + 28\right) - \left(\frac{8}{3} - 12 + 14\right)\right] =$$

$$= -2\left(\frac{4}{3} - \frac{14}{3}\right) = \frac{20}{3} kv.vahid \text{ (şəkil 8).}$$

5. Əgər əyri xətli trapesin yuxarıdan əhatə olunduğu əyrinin tənliyi $x = \varphi_1(t)$, $y = \varphi_2(t)$, $(\alpha \le t \le \beta)$ parametrik şəklində verilərsə və $\varphi_1(\alpha) = a$, $\varphi_2(\beta) = b$ şərtləri ödənilərsə, onda əyrixətli trapesin sahəsi

$$S = \int_\alpha^\beta \varphi_2(t)\varphi_1'(t)dt \qquad (5)$$

düsturu ilə hesablanır.

6. Əgər $OAB$ (şəkil 9) sektorunu əhatə edən əyrinin tənliyi polyar koordinat sistemində $\rho = \rho(\varphi)$ şəklində verilərsə, $OA$ və $OB$ polyar radiusları, polyar oxla uyğun olaraq

$\alpha$ və $\beta$ bucaqları əmələ gətirərsə, onda bu sektorun sahəsi




Səkil 9.

$$S = \frac{1}{2}\int_\alpha^\beta \rho^2 d\varphi \qquad (6)$$

düsturu ilə hesablanır.

Məsələ 6. $\rho = 3\sqrt{\cos 2\varphi}$ lemniskatı ilə əhatə olunmuş fiqurun sahəsini tapın.

Həlli: Polyar koordinatlarda $\rho = 3\sqrt{\cos 2\varphi}$ əyrisini quraq (şəkil 10). Əgər $\varphi$ polyar bucağı $0$ ilə $\frac{\pi}{4}$ arasında dəyişərsə, onda radius vektor axtarılan sahənin $\frac{1}{4}$-ni cızar. Onda




Şəkil 10

$$\frac{1}{4}S=\frac{1}{2}\int_{\alpha}^{\beta}\rho^2 d\varphi=\frac{1}{2}\int_{0}^{\frac{\pi}{4}}9\cos 2\varphi d\varphi=\frac{9}{4}\sin 2\varphi\Big|_{0}^{\frac{\pi}{4}}=\frac{9}{4}(\sin 90^\circ-\sin 0^\circ)=\frac{9}{4}kv.vahid$$

Onda axtarılan sahə $S=9kv.vahid$ olar.

7. Xətlərlə hüdudlaşdırılmış fiqurların $OX$ və $OY$ oxları ətrafında fırlanmasından alınan cisimlərin həcmi

$$V_x=\pi\int_a^b y^2dx \qquad (7)$$ və

$$V_y=\pi\int_c^d x^2dy \qquad (8)$$

düsturları ilə hesablanır.




Şəkil 11.




Şəkil 12.

Məsələ 7. Radiusu $r$-ə bərabər olan kürənin həcmini hesablayın.

Həlli: Xətlərlə hüdudlaşmış fiqurun $OX$ oxu ətrafında fırlanmasından alınan cismin həcmi

$$V=\pi\int_a^b f^2(x)dx$$

düsturu ilə hesablanır. Digər tərəfdən bizə məlumdur ki, yarım dairənin diametr ətrafında fırlanmasından alınan cism kürə adlanır. (şəkil 13) Fırlanmadan alınan kürənin həcmi




Şəkil 13.

$$V=\pi\int_a^b y^2dx$$

düsturu ilə hesablanar. Mərkəzi koordinat başlanğıcında, radiusu $r$ olan çevrə tənliyinin $x^2+y^2=r^2$ olduğunu (7) düsturunda nəzərə alsaq

$$V=\pi\int_{-r}^{r}(r^2-x^2)dx=\pi(r^2x-\frac{x^3}{3})\Big|_{-r}^{r}=\pi(r^3-\frac{r^3}{3}+r^3-\frac{r^3}{3})=\frac{4}{3}\pi r^3$$

Deməli radiusu $r$-ə bərabər olan kürənin həcmi $V=\frac{4}{3}\pi r^3$ düsturu ilə hesablanır.

**Ədəbiyyat**


1. Mərdanov M.C., Yaqubov M.H., Mirzəyev S.S., İbrahimov A.B., Hüseynov İ.H., Kərimov M.A., Quliyev Ə.F. Cəbr və analizin başlanğıcı-11. Bakı, 2009
2. Mərdanov M.C., Mirzəyev S.S., Həsənov R.H., Hacıyev C.C. Həndəsə-11. Bakı, 2007
3. Məmmədov R.H. Ali riyaziyyat kursu-II. Bakı, 1981
4. Гусак А.А., Гусак Г.М., Бришкова Е.А. Справочник по высшей математике. Минск, 2007.

UOT 519.6; 517.1

# Rezultantdan istifadə etməklə çoxhədlinin köklərinin tapılması

*f.r.f.d., dos. Mustafayev Sahib Mustafa oğlu*
*Məmmədov Məhəmməd Nazim oğlu*
*Əhmədov Vilayət Uğurlu oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Fərz edək ki, iki çoxhədli verilmişdir:

$$f(x) = a_0x^n + a_1x^{n-1} + ... + a_{n-1}x + a_n, \quad (1)$$

$$g(x) = b_0x^s + b_1x^{s-1} + ... + b_{s-1}x + b_s, \quad (2)$$

burada $a_0 \neq 0$, $b_0 \neq 0$. Bu iki çoxhədlinin rezultantı aşağıdakı $(n+s)$ tərtibli determinanta bərabərdir [5]:

$$\operatorname{Res}(f,g) = \begin{vmatrix} a_0 & a_1 & \dots & a_n & & & \\ & a_0 & a_1 & \dots & a_n & & \\ \dots & \dots & \dots & \dots & \dots & & \\ & & a_0 & a_1 & \dots & a_n & \\ b_0 & b_1 & \dots & b_s & & & \\ & b_0 & b_1 & \dots & b_s & & \\ \dots & \dots & \dots & \dots & \dots & & \\ & & & b_0 & b_1 & \dots & b_s \end{vmatrix} \begin{matrix} \left.\right\} s-sayda \\ \\ \left.\right\} n-sayda \end{matrix} \quad (3)$$

(yazılmayan elementlər sıfra bərabərdir).

$f(x)$ və $g(x)$ çoxhədlilərinin ortaq köklərinin olması üçün zəruri və kafi şərt belədir:

$$\operatorname{Res}(f,g) = 0. \quad (4)$$

Qeyd 1. Çoxhədlilərin özləri və kökləri eyni $P$ meydanında və onun $\overline{P}$ genişlənməsində nəzərdə tutulur.

Əgər $x = c$ ədədi üçün

$$f(x) = (x-c)^k \varphi(x), \quad \varphi(c) \neq 0 \quad (5)$$

şərti doğrudursa, onda $x = c$ ədədi $f(x)$ çoxhədlisinin $k$ dəfə təkrarlanan kökdür [5]. (5)münasibətini başqa cür də ifadə etmək olur [5]:

$$f(c) = f'(c) = f''(c) = ... = f^{(k-1)}(c) = 0, \quad f^{(k)}(c) \neq 0 \quad (6)$$

$f(x)$ çoxhədlisinin köklərini tapmadan, onların təkrarlandığını müəyyən etmək olur. Əgər $x = c$ ədədi $f(x)$ çoxhədlsinin 2 dəfə təkrarlanan kökküdürsə, onda

$$\operatorname{Res}(f, f') = 0 \quad (7)$$

şərti doğru olur. Analoji qaydada (6) şərtini rezultant ilə ifadə edə bilərik:

$$\operatorname{Res}(f, f') = \operatorname{Res}(f, f'') = ... = \operatorname{Res}(f, f^{(k-1)}) = 0, \operatorname{Res}(f, f^{(k)}) \neq 0. \quad (8)$$

Əgər (7) şərti doğrudursa, deməli,

$$f'(x) = 0 \quad (9)$$

tənliyini həll etməklə $f(x)$ çoxhədlisinin köklərindən ən azı birini tapmaq olur, lakin

$$f'(x) = a_0nx^{n-1} + a_1(n-1)x^{n-2} + ... + a_{n-1} \quad (10)$$

çoxhədlisinin dərəcəsi $(n-1)$ olduğundan (9) tənliyini həll etmək $f(x) = 0$ tənliyini həll etməkdən asandır.

Analoji qaydada deyə bilərik ki, $f(x) = 0$ tənliyinin $k$ dəfə təkrarlanan kökünü tapmaq üçün

$$f^{(k-1)}(x)=0 \qquad (11)$$

tənliyini həll etmək daha əlverişlidir. Deməli, əvvəlcə (8) şərtlərini yoxlayıb $k$ ədədini tapmaq, sonra isə (11) tənliyni həll etmək lazımdır.

Əgər (8) şərti doğrudursa, onda Evklid alqoritmindən istifadə edərək

$$h_k(x)=\text{ƏBOB}(f, f^{(k-1)}) \qquad (12)$$

çoxhədlisini tapmaq olar.

$$h_k(x)=0 \qquad (13)$$

tənliyini həll edərək (1) çoxhədlisinin $k$ dəfə təkrarlanan kökünü tapmaq olar. Əgər həmin kök tapılıbsa və $x=c$-ə bərabərdirsə, onda

$$f_1(x)=\frac{f(x)}{(x-c)^k} \qquad (14)$$

çoxhədlisinin əmsallarını hesablayıb, (1) çoxhədlisinin digər sıfırlarını tapmaq üçün

$$f_1(x)=0 \qquad (15)$$

tənliyini həll etmək lazımdır (başqa sözlə, tərtibi azaltma üsulundan istifadə etməliyik).

Qeyd 2. Əgər (1) çoxhədlisi tam əmsallıdırsa, onda onun bütün rasional (kəsr və tam) köklərini tapmaq üçün əvvəlcə

$$z(y)=y^n+a_1y^{n-1}+a_0a_2y^{n-2}+...+a_0^{n-2}a_{n-1}y+a_0^{n-1}a_n \qquad (16)$$

çoxhədlisinin bütün tam köklərini tapmaq, sonra isə həmin kökləri $a_0$ -a bölmək lazımdır[5]. Beləliklə, rasional kökləri tapmaq üçün daha sadə üsuldan istifadə etmək mümkündür.

Qeyd 3. Əgər $x=c$ ədədi (16) çoxhədlisinin $k$ dəfə təkrar köküdürsə, onda $c, c^2,..., c^{k-1}$ ədədləri $\gamma_n=a_0^{n-1}a_n$ sərbəst həddinin bölənləridir. Bundan istifadə edərək $z(y)$ çoxhədlisinin $k$ dəfə təkrar kökünü $\gamma_n$ -in bölənləri içərisindən asanlıqla seçə bilərik.

Qeyd 4. (13) tənliyi ilə paralel

$$f(x):h_k(x)=0 \qquad (17)$$

tənliyini həll etməklə $f(x)$ -in digər köklərini də tapa bilərik.

Qeyd 5. $h_1(x)=\text{ƏBOB}(f, f')$ tapılıbsa, onda

$$\omega(x)=\frac{f(x)}{h_1(x)} \qquad (18)$$

çoxhədlisini müəyyən edə bilərik, $\omega(x)$ çoxhədlisinin bütün kökləri sadədir. Sadə kökləri tapmaq üçün təqribi hesablama üsullarından istifadə etmək olar [1].

Qeyd 6. $f(x)=0$ tənliyini həll etmək üçün çoxhədlinin vuruqlara ayrılması üsullarını da tətbiq etmək olar [2,3,4].

## Ədəbiyyat


1. Məmmədov Y.C. Təqribi hesablama üsulları. Bakı, Maarif, 1986, 264 səh.
2. Rəsulov M.B, Mustafayev S.M, Əhmədov V.U. Həqiqi əmsallı çoxhədlinin vuruqlara ayrılması. Azərbaycan Texnologiya Universitetinin Elmi xəbərləri, 2010, № 17-18, səh. 5-6
3. Rəsulov M.B, Əhmədov V.U. Həqiqi əmsallı çoxhədlinin sadə və təkrar köklərinin tapılması üçün alqoritm. Mingəçevir Politexnik İnstitunun yaradılmasının 20-ci il ildönümünə həsr olunmuş Respublika Elmi Konfransının Materialları. Bakı, 2011, səh. 41-42
4. Rəsulov M.B, İbrahimov C.Y, Rəsulov Z.Y. Qeyri-xətti tənliyin təkrarlanan köklərinin Nyuton üsulu ilə tapılması. Mingəçevir Politexnik İnstitunun 10 illiyinə həsr olunmuş elmi praktik konfransının materialları. Mingəçevir, 2002, səh. 66-73
5. Курош А.Г. Курс высщей алгебры. М.: Наука, 1971, 432 с.

UOT 316.77-027.21

# Интертекстуальность и массовая коммуникация

*д.ф.ф. Исмайлов Маил Ёлчу оглы*
*Мингечевирский Государственный Университет*
*Исаева Шабнам Чингиз кызы*
*Саратовский Государственный Университет*

Те факторы распространения интертекстуальности, о которых было сказано в начале статьи, по-своему преломились в семиотическом пространстве России 1990-х годов, приведя к взрыву интертекстуальности в сфере массовой коммуникации и, прежде всего, в текстах СМИ. Интертекстуальные ссылки, зачастую весьма фривольного характера, стали распространенным приемом построения заголовков газетных и журнальных статей в довольно широком круге изданий, прежде всего тех, которые – при немалых идеологических различиях – подчеркивают свой разрыв с традициями советской журналистики.

Оглавление такого, например, журнала, как «Итоги», зачастую чуть не на две трети состоит из заголовков, содержащих интертекстуальные отсылки. Так, в № 3 (241) от 23 января 2001 подряд следуют статьи, носящие названия Все едино (ср. Все едино, что жить, что помирать и ряд других известных высказываний, построенных в соответствии с той же формулой);Кому инвестор, а кому олигарх (Кому война, а кому мать родна и др.);Новые игры доброй воли (о предложении Т.Тёрнера приобрести акции НТВ – реминисценция его давешней инициативы с Играми доброй воли в период взаимного бойкота Олимпиад со стороны США и СССР с их союзниками в годы «второй холодной войны»); Глобальная деревня (об обсуждении проблем глобализации в Давосе; использован и иронически переосмыслен – «деревня» здесь не весь мир, а Давос – термин М.Маклюэна); Конец курортного романа (о России в Давосе, выражениекурортный роман – широко распространенное определение как определенного жизненного сценария, так и литературно-кинематографического поджанра); Русские в Альпах (ссылка на распространенную формулу, ср. итальянец в Нью-Иорке и др., а также русские в Париже); Кабила убит, да здравствует Кабила! (Король умер, да здравствует король!); Бертосса жалит последним (Хорошо смеется тот, кто смеется последним, плюс обыгрывание сходства слова оса с фамилией прокурора кантона Женева); Ойл, да не вечер (Ой, да не вечер, да не вечер...; естественно, о нефтяных проблемах). После двух материалов, заголовки которых как будто не содержат откровенных интертекстуальных ссылок, следуют, снова подряд, статьи Осторожно, животные! (хорошо известная формула, ср. Осторожно, мины! и др.); Французский связной (о культурной акции французской ассоциации, направленной на продвижение в Европе французского кино в противовес американскому, в заголовке при этом не без ехидства использовано название известного именно американского фильма); Концерт для монитора с оркестром (источник очевиден); Жертвоприношение (об издании переписки С.Довлатова с И.Ефимовым, заголовок неизбежно воспринимается как ссылка на название фильма А.Тарковского, а также и реминисценция темы эмиграции в русской культуре). Этим исчерпываются все крупные материалы номера, а кроме них имеются еще мелкие заметки, среди названия которых – две прямые закавыченные цитаты «Что за фамилия чертова?» и «Грешный мой язык...», а также «Мусульманам подложили свинью», «Чисть-до-дыр», «Бонд есть Бонд», «Была картошечка простая, а стала дорогая», «Получил по заслугам», «От нас уехал ревизор» и «Почувствуйте разницу»; причем данный номер журнала ни в коей мере не представляет собой какого-то исключения.

Представляется очевидным, что такой взрыв интертекстуальности в публицистике связан с реализацией всех тех функций, о которых было сказано в начале статьи: это и форма заявления своей позиции (культурной, социальной, политической, эстетической), и средство нацелить издание на определенную аудиторию, способную все эти ссылки распознать, и

легкое развлечение для этой аудитории, и вполне серьезные – особенно в условиях той уникальной роли, которую играли СМИ до конца 1900-х годов, – усилия по дискредитации традиционных ценностей (интертекстуальные ссылки в публицистике часто носят снижающий характер, отсылая к ироническим поговоркам, плутовским романам и т.п.) и утверждению ценностей альтернативных, к числу которых относятся умение играть с формой текста и почти тотальная (хотя и с некоторыми исключениями) ирония.

Не остались в стороне от этого «интертекстуального взрыва» и другие жанры словесного творчества и виды искусств. Например, своего рода аналогом Тарантино в кино в российской бардовской песне стал Тимур Шаов, число вербальных и невербальных интертекстуальных ссылок в песнях которого порой исчисляются десятками, ср., например, отрывок из его Ночного свистуна:

Трубу прорвало, из подвала пахнет гнилью.
Свистит влюбленный третий час подряд.
В такую ночь, чтоб сказку сделать былью,
Был Зимний на гоп-стопбратвою взят.

[Цитата из знаменитой песни 1930-х годов, плюс ироническая реминисценция исторического события, плюс ссылка на хит А.Розенбаума 1980-х годов и весь «одесский текст» советской литературы, а также на современное увлечение терминологией криминалитета]

Жужжит в стакане пьяненькая муха,

[возможно, отсылка к Преступлению и наказанию и монологу Мармеладова]

Я соль рассыпал – значит, быть беде.

[ссылка на примету]

В такую ночь Ван Гог отрезал ухо
И Грозный треснул сына по балде.

[реминисценция «популярных историй», представленных в кино и на картине И.Е.Репина]

Пошла муха на базар
И купила самовар.
Заходите, черти,
Я вас пивом угощу.

[сперва прямая, а потом видоизмененная цитата из Мухи-цокотухи К.Чуковского, исполняемая на музыку Э.Грига – В пещере горного короля]

Черт заглянет на часок,
Он ни низок, ни высок.

[вслед за Чуковским – цитата из Теремка С.Маршака]

Здравствуй, паранойя,
Я – твой тонкий колосок...

[Иронически травестированная цитата из песни Русское поле, сопровождаемая соответствующей трансформацией мелодии].

Еще одной семиотической сферой, в которой достаточно часто используются интертекстуальные ссылки, является реклама. В силу мультимедиального характера большинства ее видов (текст, звук, включая узнаваемые голоса, изображение, музыка, в случае телевизионной рекламы – жанровые характеристики), в ней бывают представлены самые разнообразные виды интертекстуальных ссылок – от прямых цитат до порою довольно тонких аллюзий. Здесь мы тоже видим тот же набор основных функций интертекста, трансформированных с учетом специальных функций, выполняемых в обществе рекламой вообще и прежде всего центральным ее типом – рекламой коммерческой. Опознавательная функция интертекстуальности преобразуется в рекламе в инструмент точного нацеливания рекламных сообщений на конкретную целевую аудиторию, поэтическая – в способ смягчить априори негативное отношение к рекламе, референтивная – в средство формирования имиджа товара, услуги или (в случае корпоративной рекламы)

фирмы. Так, например, цитаты из текстов российских рок-музыкантов в серийной рекламе «Нашего радио», с одной стороны, сообщают о том, что данные рекламные сообщения рассчитаны на тех, кто в состянии опознать эти цитаты, и в то же время информируют о специфике содержания программ данной FM-станции, тогда как оригинальный (порой фривольный) изобразительный ряд, который иллюстрирует эти тексты и в этом плане также являетсяинтертекстуальным, призван развлечь аудиторию. В одной из реклам «Нашего радио» изобразительный ряд представляет собой к тому же интертекстуальную ссылку к формальным особенностям древнеегипетской живописи (смешного вида милиционер поставлен в характерную позу, в которой было принято изображать фараонов в Древнем Египте, а его жезл удлинен до фараонского и только что не загнут; текст же «Правда всегда одна» – это сказал фараон взят из композиции Тутанхамон группы «Наутилус Помпилиус»; очевидно, что его интерпретация предполагает осознание специфических связей понятия правды с образом сотрудника ГИБДД/ ДПС).

В современную компьютерную эпоху актуальной оказывается также проблема соотношения понятий «интертекст» и «гипертекст». По мнению Дж.П.Ландоу, постструктуралистские определения идеального текста – «Всякий текст есть между-текст по отношению к другому тексту» (Р.Барт) и «Для познающего субъекта интертекстуальность – это понятие, которое будет признаком того способа, каким текст прочитывает историю и вписывается в нее» (Ю.Кристева) – как бы предрекли появление самого понятия «гипертекст». Неудивительно поэтому, что термин «гипертекст» появился почти одновременно с термином «интертекстуальность», введенным Ю.Кристевой. Как понятие он был терминологизирован Т.Нельсоном и Д.Энгельгардтом в 1967. Под «гипертекстом» стали понимать текст, фрагменты которого снабжены определенной системой выявленных связей с другими текстами и предлагают читателю различные «пути» прочтения. Таким образом, каждый текст оказывается включенным во всю систему созданных до него или параллельно с ним текстов, приобретает визуальное многомерное представление и становится «мультисеквенциальным», т. е. читается в любой последовательности. Более того, новый текст и исходные, к которым даны отсылки, могут одновременно сосуществовать на экране компьютера. Понятно, что такое представление текста уже самой своей структурой обеспечивает его «децентрацию», и поэтому совершенно естественно, что ориентация на «гипертекстуальное сознание» порождает тексты, созданные по типу словарей, энциклопедий или строение которых можно обозначить как «На Ваше усмотрение» (ср. заглавие романа Р.Федермана) или Сад расходящихся тропок (ср. название рассказа Х. - Л.Борхеса). Такая композиция текста в какой-то мере приравнивает на уровне интерпретации писателя и читателя, поскольку выбор и смена фокуса и пути чтения текста зависят по преимуществу от «потребителя» информации.

В этом смысле интертекстуальность и гипертекстуальность имеют разную направленность, на что, в частности, обращал внимание М.Риффатерр. Заданная в тексте авторская интертекстуальность – т.е. структурированная сеть ограничений, наложенных текстом на восприятие читателя, – находится в противоречии с аморфной сетью свободных ассоциаций, которую позволяет гипертекстуализация.

## Литература

1. Арнольд И.В. Читательское восприятие интертекстуальности и герменевтика. В кн.: Интертекстуальные связи в художественном тексте. Межвузовский сборник научных трудов. СПб, 1993

2. Жолковский А.К. Блуждающие сны и другие работы. - М.: 1994

3. Золян С.Т. О семантике поэтической цитаты. Проблемы структурной лингвистики. 1985-1987. - М.: 1989

4. Ильин И.П. Стилистика интертекстуальности: теоретические аспекты. В кн.: Проблемы современной стилистики. Сборник научно-аналитических трудов. - М.: 1989

5. Тамми П. Заметки о полигенетичности в прозе Набокова. - В кн. : Проблемы русской литературы и культуры. Хельсинки, 1992

6. Тименчик Р.Д. Текст в тексте у акмеистов. Труды по знаковым системам. XIV. Ученые записки Тартуского госуниверситета, вып. 567. Тарту, 1981

7. Тороп П.Х. Проблема интекста. Труды по знаковым системам XIV. Текст в тексте. Ученые записки Тартуского госуниверситета, вып. 567. Тарту, 1981 Гаспаров М.Л. Ритмико-синтаксическаяформульность в русском 4-стопном ямбе. Проблемы структурной лингвистики. 1983. - М.: 1986

UOT 373.1.02

## Məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik ruhunun ilkin elementlərinin aşılanması

*p.f.d. Əliyev Sahib Hümmət oğlu*
*İsmayılova Aygün İslam qızı*
*Mingəçevir Dövlət Universiteti*

Əxlaqi və mənəvi tərbiyənin mühüm tərkib hisslərindən biri də vətənpərvərlikdir. Xalqımızın Vətənə, doğma yurda məhəbbəti və bağlılığı böyük söz ustadlarının əsərlərindən, dövlət xadimləri və sərkərdələrinin,qəhrəmanlarının nümunələrindən alır. Söz dünyasının korifeyləri – Xaqani, Nizami, Tusi, M. Əhvədi, A. Bakıxanov və b. Vətəni, onun gözəlliyini vəsf etmiş gəncləri Vətən torpağının qədrini bilməyə, göz bəbəyi kimi qorumağa çağırmışlar. Ona görə ki, “insan hissləri içərisində ən müqəddəsi, bəlkə də irsi, fitri mahiyyət daşıyanı, insanı tərəqqiyə, inkişafa, yaradıcılığa təhrik edəni Vətən sevgisidir, vətənpərvərlikdir.

Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir. Vətənpərvərlik – öz ailəsini evini el-obasını, kəndini, şəhərini, Vətənini sevməkdə onun inkişafına kömək etməkdə, Vətəninin tarixini qorumaqda, lazım gələrsə canını Vətənə qurban verməkdə dövlətin müəyyənləşdirdiyi qaydalara şüurlu əməl etməkdə, düşmənə qarşı barışmaz olmaqda ifadə olunur [2].

Nağıllarımızda da, bayatılarımızda da, atalar sözlərimizdə də Vətənə bağlılıq, Vətənpərvərlik hissi çox güclüdür. Vətənpərvərlik hissi uşaqlara məktəbəqədər dövrdən aşılanır və məktəb illərində özünəməxsus yer tutur. Görkəmli pedaqoqlar və qabaqcıl maarifpərvərlər yaşı nəslin hələ kiçik yaşlarından aşılamağı məsləhət görmüşlər [5].

B. Vahabzadənin "Bayraq" şeirində vətəndaşlıq qüruru aşılamaq üçün çox ibrətamiz fikir yer alıb [4]:

Bayraq mənliyimdir, bayraq kimliyim!
Bayraq öz yurduma öz hakimliyim!

Bu fikri uşaqlara belə izah etmək olar: Bəli, müstəqil yurdu, dövləti olan xalqın bayrağı olur! Xalqımızın üçrəngli, ay-ulduzlu bayrağı onun müstəqilliyinin rəmzi kimi tərənnüm olunur! Uşaqların vətəndaşlıq tərbiyəsi dedikdə, yüksək əxlaqi-mənəvi keyfiyyətlərə yiyələnmə və şəxsiyyət kimi yetişmə nəzərdə tutulur. Onlar davranış qaydalarını, nizam-intizamı, savadlı olmağı, vətəninin tarixini, coğrafiyasını, mədəniyyətini, milli adət-ənənələrini bilməli, vətəni sevməlidirlər. Uşaqlar ideyaca savadlı olmalı, işə şüurlu yanaşmalı, məsuliyyətli, vicdanlı, mübariz olmalı, pis niyyətlə, əliəyriliklərlə barışmamalıdır. Mənəviyyat tərbiyəsini qiymətləndirmək üçün uşaqlarda yaxşını pisdən ayırmaq, həqiqətə, ədalətə, insanlara-böyüklərə, ailə üzvlərinə hörmət etmək kimi insani keyfiyyətlər aşılanmalıdır. Onların davranış xüsusiyyətlərini uyğun qiymətləndirməli, yaxşı davranış və qarşılıqlı əlaqə təmin olunmalıdır. Azərbaycan Respublikasında hüquqi, demokratik dövlət quruculuğu inkişaf etdikcə, vətənpərvərlik tərbiyəsinə, o cümlədən böyüməkdə olan nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilməlidir

Vətənpərvərlik tərbiyəsinin mənbəyi ailədir. Uşaqlar ailə səadəti, xeyir, şər mütərəqqi və mürtəce qüvvələr haqqında, ədalət, ədalətsizlik, sülh, əmin-amanlıq, müharibə, dağıntı, ekoloji çətinliklər, hüquq qanunları, iqtisadi biliklər, qənaət, sadəlik, təvazökarlıq, düzlük və doğruçuluq və s. haqqında təsəvvür və anlayışlara məhz həmin dövrdə yiyələnirlər. Uşaqların mənəvi əqidəsi, dünyagörüşü, etiqadları, ailə həyatına baxışları, əxlaq tərbiyəsi, ailə həyatı ilə bağlı olan məsələlər ilk uşaq çağında təşəkkül tapır.

Vətənpərvərlik duyğusu uşaqda ilk dəfə ailədə başlasa da, o yaşdan – yaşa keçdikcə bu hissin hüdud dairəsi daha da genişlənib zənginləşir. İctimai həyatın formalaşan anlayışlar onda vətənpərvərlik hissinin güclənməsinə müsbət təsir göstərir. Uşaqların gəzinti və ekskursiya zamanı aldığı təəssürat onlarda vətənpərvərlik hissini gücləndirir. Bu nəcib hissinin yaşdan yaşa inkişafı inkişafı və formalaşmasında valideynlərin şəxsi nümunəsi müstəsna əhəmiyyətə malikdir. Valideynin öz peşəsi və yoldaşları haqqında söhbətləri uşaq psixologiyasına güclü təsir göstərir.

Hər bir insan əqli, fiziki əxlaqi cəhətdən kamil, əməksevər və estetik zövqə malik olmalıdır. İstər ailədə, istərsə də bağçada və psixi proseslərin inkişafın nəzərə almadan onların tərbiyəsini lazımı səviyyədə qurmaq olmaz.

Məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik hissi aşılamaq üçün aşağıdakı vəzifələri yerinə yetirmək lazımdır.

1. Uşaqlarda kiçik yaşlarda gözəl yurdumuza, qəhrəman xalqımıza məhəbbət tərbiyə etmək.

2. Məktəbəqədər yaşdan Vətən üçün zəhmət çəkməyə ailədə, uşaq bağçasında uşaqların yaşlarına müvafiq özünəxidmət və faydalı əməkdə iştirak etmək vərdişi yaratmaq.

3. Vətənimizdə yaşayan xalqlara məhəbbət və rəğbət hissi aşılamaq

4. Kiçik yaşdan öz Vətəninin sərvəti əzəməti və gözəlliyi ilə fəxr etmək, daha doğrusu milli iftixar hissi tərbiyə etmək.

5. Məktəbəqədər yaşdan uşaqlarda Vətənimizin düşmənlərinə qarşı nifrət hissi oyatmaq [3].

Müasir dövrdə bu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi kiçik yaşlı uşaqları müstəqil həyata hazırlamaq, uşaqların tərbiyəsindən, xüsusilə də vətəndaşlıq, insanpərvərlik və Vətənə məhəbbət ruhunda tərbiyəsindən həlledici dərəcədə asılıdır. Uşaqların tərbiyəsinin qarşısında duran başlıca məqsəd – dərin və hərtərəfli biliyə, mütərrəqi dünyagörüşə, milli və ümumbəşəri əxlaqa, mənəviyyata və mədəni dəyərlərə yiyələnən şəxsiyyət formalaşdırmaq və cəmiyyətimiz üçün layiqli vətəndaşlar yetişdirməkdir. Məktəbəqədər yaşlı uşaqların vətənə məhəbbət ruhunda tərbiyəsi olduqca mühüm və zəruridir. Bu, vətənə və təbiətə məhəbbət tərbiyəsidir, doğma vətəninə bağlılıq tərbiyəsidir. Ana dilində, mənsub olduğu xalqa vurğunluq tərbiyəsidir. Dilini, xalqını, soydaşlarını, həmvətənlərini sevmək tərbiyəsidir. Respublika konstitusiyasına, onun bayrağına, gerbinə, himninə hüsn – rəğbət tərbiyəsidir. Eyni zamanda mənsub olduğu xalqla, onun nailiyyətləri ilə, tarixi ilə, mədəniyyəti və milli-mənəvi dəyərləri ilə fəxr etmək tərbiyəsidir. Vətən torpaqlarının azadlığı, qorunması naminə mübarizlik tərbiyəsidir. Vətənin çiçəklənməsi naminə fədakarlıq göstərmək – yaxşı oxumaq, elmlərin əsaslarına dərindən yiyələnmək, üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirmək tərbiyəsidir.

Respublikamızda mənəvi əsasların təsir dairəsi genişlənərək yeni məzmun kəsb etmiş, adamların, xüsusilə kiçik yaşlı uşaqların fəaliyyətinə, gündəlik davranışlarına təsiri güclənmiş, onların sosial və əxlaqi məsuliyyətinin artmasına şərait yaratmışdır. Əxlaqi və hüquq normalarına əməl edilməsi, Vətənin xeyrinə işləmək hər bir uşağın təbii tələbat və sarsılmaz daxili qanununa çevrilmişdir.

Buna görə də kiçik yaşlı uşaqlarda insanpərvərlik və təbiətə məhəbbət keyfiyyətlərinin formalaşdırılması müasir dövrdə həmişəkindən daha çox aktuallıq kəsb edir və onun hərtərəfli tətbiqinə ehtiyac hiss olunur. Məlumdur ki, təlim-tərbiyə işinin bütün sahələrində, istiqamətlərində olduğu kimi vətənpərvərlik tərbiyəsinin də əsası bağçalarda, körpələr evində və ibtidai siniflərdə qoyulur və o, sonrakı təlim pillələrində daha da inkişaf etdirilir. Tərbiyə işinin məqsədi bir halda, məsələn, vətənpərvərlik hissini formalaşdırmaqdan, digər halda düzlük və doğruçuluq hissini inkişaf etdirməkdən, üçüncü halda halallıq şüurunu kamilləşdirməkdən və s. ibarət olur. Məsələn, vətənpərvərlik tərbiyəsi zamanı adamlara aşılanan mənəvi keyfiyyətlər bunlardır: Azərbaycan Respublikasının ərazisi, uca dağları, müxtəlif ağaclı meşələri, gen dərələri, çayları, gölləri, çölləri,

düzənləri, mədəniyyət və incəsənət inciləri, alimləri, sərkərdələri, böyük keçmişi, Vətən eşqi, vətən sevgisi, Vətənə qayğı. Vətənin daha da çiçəklənməsi üçün var qüvvəsi ilə çalışmaq, vətən naminə vuruşa hazır olmaq, tarixdə vətənpərvərlik nümunələri göstərmiş şəxsləri unutmamaq və s. vətənpərvərlik tərbiyəsinin məzmununu təşkil edir. Bu mənada böyüməkdə olan nəslin vətənpərvərlik tərbiyəsində ibtidai sinif müəllimlərinin üzərinə böyük məsuliyyət düşür. Onlar məktəbə qədəm qoyan körpələrimizin qəlbində elə ilk günlərdən Vətənə məhəbbət aşılamağa, onu güclü vətənpərvərlik hissinə çevirməyə çalışmalıdırlar [1].

### Ədəbiyyat


1. Qədimbəyova Ə.B. Uşaq bağçasında əxlaq tərbiyəsi. Bakı, 1989, 190 səh.
2. Kazımov N. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2005, 475 səh.
3. Rüstəmova N.R., Vəliyeva Z.Ə., Abdullayeva K. N. Folklor nümunələrində məktəbəqədər yaşlı uşaqların tərbiyəsi problemi (dərs vəsaiti). Bakı, 2011, 133 səh.
4. Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı, Öndər nəşriyyat, 2004, 328 səh.
5. Vəliyeva Z. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi. Bakı, 2012, 136 səh.


UOT 008:316.722

## Milli adət və ənənələr mənəvi dəyərlər sistemində

*fil.f.d. Məmmədova Rahilə Mirzalı qızı*
*Mingəçevir Dövlət Universiteti*

Hər bir milləti dünyada tanıdan və onu digər xalqlardan fərqləndirən ən önəmli xüsusiyyətlərdən biri onun adət və ənənələri və bu müstəvidə yüksək mənəvi dəyərlər sisteminə malik olmasıdır. Bu baxımdan qloballaşan dunyada milli adət və ənənələr və onun əsasında formalaşan yüksək mənəvi dəyərlər sistemi hər bir millətin mənəvi, mədəni simasını göstərir.

Dünyanın ən qədim xalqlarından olan Azərbaycanımızda zəngin milli, əxlaqi və mənəvi dəyərlər sistemi bəşər sivilizasiyasına əvəzsiz töhfələr verərək özünəbənzər adət və ənənələri, yüksək mənəviyyatı ilə diqqəti cəlb edir. Min illər boyu formalaşan və Azərbaycan xalqının yüksək mənəvi dəyərlərə malik olduğunu göstərən təkraredilməz adət və ənənələr millətimizin keçmişi ilə bu günü və gələcəyi arasında sarsılmaz bir mənəvi körpü rolunu oynamaqdadır. Təsadüfi deyil ki, adət və ənənələrin hər bir millətin həyatında oynadığı əvəzsiz rolunu yüksək qiymətləndirən Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev: “Milli adət və ənənələr hər bir xalqın milli mədəniyyətinin zənginliyindən, qədim tarixi kökə malik olmasından xəbər verir,”- deyib. Azərbaycan xalqının milli-mənəvi dəyərləri tarixi inkişaf nəticəsində təşəkkül tapmış, formalaşmış, milli və ümumbəşəri xüsusiyyətləri özündə əks etdirərək bu günə gəlib çatmışdır. Milli-mənəvi dəyərlər xalqın həyat tərzindən, insanların birgəyaşayışından doğan ümummilli və ayrılıqda hər bir fərdin baxışlar sistemidir.

Azərbaycan tədqiqatçısı M.Yusifov milli-mənəvi dəyərlər sistemi və bu sistemi təşkil edən komponentlərin xalqın sosial-mədəni, dini və mənəvi həyatı və həyat tərzində yaranmasını və onun azərbaycançılıq ideyası ilə qarşılıqlı əlaqəsini göstərmişdir: “Azərbaycan xalqına məxsus milli-mənəvi keyfiyyətlər onun sosial həyatında, milli məişətində, inam və əxlaqi məziyyətlərində etiketləşərək ta qədim dövrlərindən indiyə kimi yaşaya-yaşaya gəlib çıxmışdır... Azərbaycan cəmiyyətində xalqın özünəməxsus olan və milli-mənəvi keyfiyyətləri canlandıran dostluq və yoldaşlıq, mərdlik və ədalətlilik, böyüyə hörmət və kiçiyə qayğı, ata-anaya ehtiram, qonaqpərvərlik və səxavətlilik, namusluluq və qeyrətlilik, vətən və el, doğma torpaq və yurd təəssübkeşliyi, birlik və vəhdət haqqında etiketlər yaranmışdır” [1].

Təbii ki, bütün dövrlərdə mütərəqqi adət və ənənələrin yaradıcısı, eyni zamanda onu qoruyub zənginləşdirən və gələcək nəsillərə çatdıran xalqımızdır. Bayram adət-ənənələri, toy, yas mərasimləri, islam dininin bəşəri hisslərini təbliğ edən dəyərli xalqımızın milli-mənəvi simasının aynası hesab edilir. Bu müstəvidə də zəngin adət ənənələrimizi özündə cəmləşdirən milli mənəvi dəyərlər sistemində Novruz bayramı özünə məxsus yer tutur. Novruz süfrəsi adət və ənənələrimizin zənginliyini göstərir. Belə ki çərşənbələrdə, istərsə də Novruz axşamında süfrədə milli xörəklərimiz, ən başlıcası isə plov olmalıdır. Şəkərbura, paxlava, şəkər çörəyi və digər şirniyyatlar, kişmiş, püstə badam, boyanmış yumurtalar süfrələrimizi bəzəyir. Çərşənbələrdə olduğu kimi, Novruz axşamında da tonqal qalanır, evlərdə ailə üzvlərinin hər birinin adına şam yandırılır. Bu bayramda kimsəsizlərə, ehtiyacı olanlara, ahıl insanlara baş çəkmək, onlara bayram sovqatı vermək savab hesab edilir. Azərbaycanda toy şənlikləri də qədim və zəngin xalq adət- ənənələrinə söykənir. Elçi getmə, nişan taxma və toy adətlərinin də dərin kökləri vardır, əgər qız və oğlan bir-birini bəyənib, talelərini nikah vasitəsilə birləşdirmək arzusundadırlarsa, onlar, ilk növbədə, valideynlərinin razılığını almalıdırlar.

Yas mərasimləri ilə bağlı da biz azərbaycanlıların özünəməxsus adət və ənənələri var. Qadınlar zinət əşyaları taxmır, qara paltar geyinir, qara yaylıq bağlayırlar. Kişilər üzlərini qırxmırlar. Bu günlər ərzində qohumlar bayram keçirmir, toy etmir, musiqi alətlərində çalmırlar. Yas günlərində mərhumun yaxınları özgə toylarına, şənliklərə və hətta təqdimat mərasimlərinə belə getmirlər. Nəhayət, adət və ənənələrin milli mənəvi dəyərlər sistemində oynadığı əvəzsiz rollardan biri də hər bir ənənənin müəyyən əxlaqi məna daşıması ilə bağlıdır. Belə ki, adət və ənənələrimiz hər bir insan nəslinin yaratdığı əxlaqi dəyərləri qoruyub, yeni nəslə çatdırmaq vasitəsi kimi çıxış edir.

Hər bir insan dünyaya gələndə hansısa millətə, xalqa, etnosa mənsubluq hissini daşıyır. Bu özünəməxsusluq, hissi ilə səciyyələnən, milli kimliyi ifadə edən mənəvi dəyərlər hər bir xalqın müqəddəs sərvəti, eyni zamanda toxunulmaz xəzinəsidir. Həmin xəzinənin daim inkişafı milli varlığın, milli dövlətin əbədi mövcudluğu deməkdir. Milli ruhun mənəvi dəyərlərin tam dolğunluğu ilə inkişaf etdirilə bildiyi yeganə məkan isə, şübhəsiz ki, müstəqil dövlətdir. Müstəqil milli dövlət olmayan yerdə mənəvi dəyərlərin mövcudluğu xalqın canı və qanı bahasına mümkün olur, onun məşəqqətli tarixi ilə müşayiət olunur. Xalqımızın ümummilli Lideri Heydər Əliyev müstəqil Azərbaycan dövlətində milliliklə dövlətçiliyi bir-birinə qovuşdurdu, onların sarsılmaz vəhdətini təmin etdi. Dünyadakı hər bir xalqın arzusunda olduğu bu əlçatmaz ideal Azərbaycan adlı məkanda da reallaşdı. Milli maraqlar üzərində həyata keçirilən siyasət və mənəvi mühitin təşəkkül tapması XX əsrdə Heydər Əliyevin xalqımıza bəxş etdiyi ən böyük sərvətlərdən biridir. Ulu öndərin nəzəri irsi milli dövlətçilik konsepsiyası, liderlik fəlsəfəsi ziyalılarımız, alimlərimiz tərəfindən təhlil edilir, bu böyük nəzəri və praktiki irsin mahiyyətinin dərk edilməsi sahəsində tədqiqatlar aparılır və gələcək inkişaf perspektivləri müəyyənləşdirilir [2].

Hər bir xalqın, millətin, dövlətin varlığının ifadəsi olan ideyaların, dünyagörüşünün, həyat və düşüncə tərzinin deformasiyaya uğraması ilə həmin birliyin tənəzzülü başlayır. Tarix sübüt edir ki, ən güclü sistemlərin məhvi sosiomədəni və siyasi mədəni məkanda yaşayan insanlar üçün ümumi olan mənəvi dəyərlərin, ideyaların radikal transformasiyasının mənəvi davamı kimi meydana çıxır. Müstəqillik əldə etmiş Azərbaycanda dini və milli köklərə qayıdış, milli tariximizə həqiqi və obyektiv baxış, dilimizin saflığı uğurunda mübarizə əldə olunmuş nailiyyətlərin ən başlıcasıdır. Müasir Azərbaycanda demokratik prinsiplərin bərqərar olması, hüquqi dövlətin formalaşması dövlətimizin qlobal beynəlxalq aləmə inteqrasiyası şəraitində dinin, xüsusilə islamın mədəniyyətə təsirinin öyrənilməsi, müasir insanın mənəviyyat prinsiplərinin formalaşmasına, onun daxilən zənginləşməsinə təsirinin öyrənilməsi mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir. Ancaq belə qloballaşma şəraitində öz dini-mədəni dəyərlərini qoruyub saxlamaq, milli özünəməxsusluğu, milli çalarları gözləmək, min illər boyunca formalaşa-formalaşa bu günə qədər gəlib çatmış dəyərlərə sadiq qalaraq inkişaf prosesinin bütün istiqamətlərində onlara bir daha sahib çıxmaq əsas məsələlərdən biridir. Buna hər bir millətini sevən vətəndaş çalışmalı, milli mədəniyyəti aşınma və tənəzzüldən hifz olunması yönündə öz bacarığını ortaya qoymalıdır.

İnsanın mənəviyyatı, əsasən sosial-mənəvi mühitin təsiri ilə formalaşır. Burada cəmiyyətin mədəni-mənəvi həyatı, insanın yetişdiyi mühitin mədəni aspektləri mühüm rol oynayır. Mahiyyət etbarı ilə bəşər mədəniyyəti tarixinin araşdırılması sahəsindəki qazanılmış təcrübələr sübut edir ki, insanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Təbiətin hər bir xalqa bəxş etdiyi ən qiymətli miras onun milli-mənəvi dəyərləridir. Bu səbəbdən də hər şeydən əvvəl və hər sahədə, o cümlədən mədəni tərəqqi sahəsində mədəniyyətin təsbiti mövzusuna üstünlük velilməlidir. Şübhəsiz ki, milli-mənəvi dəyərlər gələcək nəsillərə daha da zənginləşdirilmiş halda ötürülməlidir. Eyni zamanda, aydındır ki, mədəniyyət dəyişmədən və zənginləşdirilmədən varlığını qoruya bilməz. Bu məqsədlə müasir mədəni tərəqqidə yaradıcı və qurucu səciyyəli hər cür fəaliyyət təşviq edilməli, yeni qabiliyyətlərin kəşf edilməsi, istiqamətləndirilməsi, dəyərləndirilməsi fəaliyyətlərinə mühüm əhəmiyyət verilməlidir. Müasir dünya siyasətində qlobal, regional və lokal problemlərin, qloballaşma və mədəni inteqrasiya məsələlərinin həllinə yeni münasibət müşahidə edilməkdədir. Demokratiyanın siyasi sistem kimi formalaşmasını tələb edən bu prosesdə Azərbaycan Respublikası da fəal iştirak etməkdədir [3]. Azərbaycan cəmiyyətində formalaşan və yüksək mənəvi kamillik təcəssüm etdirən etik normalar öz humanist xarakterinə görə ümumbəşəri ideyalara inteqrasiya oluna bilər. Azərbaycan xalqının yaratdığı milli-mənəvi dəyərlər tarixən dəyişmiş, onun etnik varlığının, tarixi mövcudluğunun ilkin dövründə mənəvi həyatı inkişaf etdirən amilə çevrilmişdir. Milli-mənəvi dəyərlərin, mahiyyətində obyektivliklə subyektivliyin, xalq, toplum, etnik birliklə fərdin, şəxsiyyətin vəhdətinə toxunarkən Negelin belə bir fikrini qəbul etmək olar ki, mənəvi substansiyanın gücü subyekt üçün yad bir şey deyildir, onunla ruh vasitəsilə şəxsi mahiyyət kəsb edir. Abstrakt xeyirin əvəzinə insan həyatına daxil olan obyektiv mənəvilik sonsuz formalar kimi subyektivlikdən keçən konkret substansiyadır. Alman filosofu mənəvilikdə obyektiv və subyektiv tərəflərin mövcudluğunu və onların hər ikisinin mənəviliyin formaları olduğunu göstərir.

Azərbaycanlıların milli-mənəvi dəyərlərindən söhbət gedərkən burada ümumtürk ruhunun və Şərq ənənələrinin və milliliyin üstün amil olmasını xüsusi qeyd etmək lazımdır [1].

## Ədəbiyyat


1. Həsənov A. Milli ideologiya və milli-mənəvi dəyərlər. Bakı: Təknur, 2013, 175 səh.
2. Aslanova R. XX1 əsr: Yeni mədəniyyət məkanına inteqrasiya. Bakı: Nurlan, 2007, 439 səh.
3. Həsənli A. Müasir şəraitdə Azərbaycanda dini-mədəni dəyərlərin inkişaf xüsusiyyətləri. Bakı: Nur Art, 2014, 143 səh.



UOT 519.6


## Çoxhədlinin köklərinin məxsusi qiymət kimi tapılması


*f.r.f.d. Rəsulov Mehman Bulud oğlu*
*tex.f.d. Əliyeva Almaz Əli qızı*
*Mingəçevir Dövlət Universiteti*


$$f(x) = a_0x^n + a_1x^{n-1} + a_2x^{n-2} + ... + a_{n-1}x + a_n, a_0 \neq 0 \quad (1)$$

çoxhədlisinin köklərini tapmaq üçün bu çoxhədlini

$$D(x) = (-1)^n (x^n - p_1x^{n-1} - p_2x^{n-2} - p_3x^{n-3} - ... - p_{n-1}x - p_n) \quad (2)$$

şəklində ifadə etmək lazımdır,yəni (1)-in sag tərəfini $(-1)^n a_0$–a bölmək lazımdır, sonra isə

$$p_1 = -\frac{a_1}{a_0},\ p_2 = -\frac{a_2}{a_0},\ p_3 = -\frac{a_3}{a_0}, \ldots,\ p_n = -\frac{a_n}{a_0}$$

əvəzləmələrini qəbul etmək lazımdır. (2) çoxhədlisinin əmsallarından istifadə edərək

$$P=\begin{bmatrix} p_1 & p_2 & p_3 & \cdots & p_{n-1} & p_n \\ 1 & 0 & 0 & \dots & 0 & 0 \\ 0 & 1 & 0 & \dots & 0 & 0 \\ \dots & \dots & \dots & \dots & \dots & \dots \\ 0 & 0 & 0 & \dots & 1 & 0 \end{bmatrix}$$

Frobenins matrisi tərtib etmək lazımdır [4]. Göstərmək olar ki, $P$ matrisinin xarakteristik çoxhədlisi (2) funksiyasıdır [1,4].

$P$ matrisinin məxsusi ədədlərindən birini aşağıdakı düsturla hesablaya bilərik [4]:

$$\lambda_1=\lim_{m\to\infty}\frac{y_i^{(m+1)}}{y_i^{(m)}}, \tag{3}$$

burada $y_i^{(m)}$ ilə $\overline{y_i}=P^m\overline{y_0}$ vektorunun $i$-ci koordinatı işarə edilib, $\overline{y_0}$ isə ixtiyari $n$-ölçülü vektordur.

$\lambda_1$ ədədinin, (2) çoxhədlisi üçün neçə tərtibdən təkrar kök olduğunu bilmək üçün

$$D(\lambda_1)=0,\ D'(\lambda_1)=0,\ D''(\lambda_1)=0,...,\ D^{(k_1-1)}(\lambda_1)=0,\ D^{(k_1)}(\lambda_1)\neq 0 \tag{4}$$

şərtlərini ödəyən $k_1$-natural ədədini tapmaq lazımdır. $k_1$ tərtibi tapıldıqdan sonra

$$D_1(x)=\frac{D(x)}{(x-\lambda_1)^{k_1}} \tag{5}$$

çoxhədlini müəyyən edib, onun üçün ikinci məxsusi ədədi $\lambda_2$-ni hesablamaq lazımdır. Bu qaydada (2) çoxhədlisinin bütün həqiqi kökləri tapıla bilər. Nəticədə

$$D(x)=(x-\lambda_1)^{k_1}\cdot(x-\lambda_2)^{k_2}\cdot\ldots\cdot(x-\lambda_p)^{k_p}\cdot\omega_1(x) \tag{6}$$

münasibətini alırıq. Fərz edək ki,

$$\omega_1(x)=(-1)^l\cdot(x^l-\alpha_1x^{l-1}-\alpha_2x^{l-2}-\ldots-\alpha_{l-1}x-\alpha_l) \tag{7}$$

münasibəti doğrudur, $l=n-(k_1+k_2+...+k_p)$ ədədi cüt ədəddir. $\omega_1(x)$ çoxhədlisinin kökləri kompleks ədədlərdir. Kompleks kökləri tapmaq üçün $\omega_1(x)$ üçün $A$ Frobenius matrisi yazaq:

$$A=\begin{bmatrix} \alpha_1 & \alpha_2 & \dots & \alpha_{l-1} & \alpha_l \\ 1 & 0 & \dots & 0 & 0 \\ \dots & \dots & \dots & \dots & \dots \\ 0 & 0 & \dots & 1 & 0 \end{bmatrix}$$

$A$ matrisinin kompleks məxsusi ədədlərini tapmaq üçün bu matrisin $k$ dərəcədən qüvvətlərini hesablamaqla

$$\begin{vmatrix} 1 & v_{k,r} & v_{k,s} \\ x & v_{k+1,r} & v_{k+1,s} \\ x^2 & v_{k+2,r} & v_{k+2,s} \end{vmatrix}=0 \qquad (r,s=1,2,\ldots,l;r\neq s) \tag{8}$$

kvadrat tənliyini tərtib edib, kökləri hesablaya bilərik, burada $v_{k,r}$ ilə $\overline{V_k}=A^k\overline{t_0}$ vektorunun $r$-ci koordinatı işarə olunub, $\overline{t_0}$ isə ixtiyari $l$ ölçülü vektordur [3], $k$ ədədi kafi qədər böyük natural ədəddir.

(7) çoxhədlisini (8) çoxhədlisinə bölməklə $(l-2)$ dərəcəli $\omega_2(x)$ çoxhədlisi tapmaq olar. Hesablamanı davam etməklə ən axırda 2 dərəcəli çoxhədli alırıq.

Qeyd 1. (8) münasibətini əvvəlcədən $P$ matrisi üçün yaza bilərdik, onda tapılan (8) kvadrat tənliyinin kökləri həqiqi və ya kompleks ədəd ola bilərdi.
Qeyd 2. (1) çoxhədlisinin köklərinin heç birini tapmadan onların təkrarlanan olub olmadığını müəyyən etmək mümkündür, bu məqsədlə rezultantdan istifadə etmək olur, belə ki, $f(x)$ və

$$g(x) = b_0 x^j + b_1 x^{j-1} + ... + b_{j-1} x + b_j, b_0 \neq 0 \tag{9}$$

çoxhədlilərinin rezultantı belə müəyyən olunur:

$$R(f,g) = \begin{vmatrix} a_0 & a_1 & a_2 & \cdots & a_{n-2} & a_{n-1} & a_n & & \\ & a_0 & a_1 & \cdots & a_{n-3} & a_{n-2} & a_{n-1} & a_n & \\ \cdots & \cdots & \cdots & \cdots & \cdots & \cdots & \cdots & \cdots & \\ & & a_0 & \cdots & a_{n-4} & a_{n-3} & a_{n-2} & a_{n-1} & a_n \\ \cdots & \cdots & \cdots & \cdots & \cdots & \cdots & \cdots & \cdots & \cdots \\ b_0 & b_1 & b_2 & \cdots & b_j & & & & \\ & b_0 & b_1 & \cdots & b_{j-1} & b_j & & & \\ \cdots & \cdots & \cdots & \cdots & \cdots & \cdots & \cdots & \cdots & \cdots \\ & & b_0 & \cdots & b_{j-4} & b_{j-3} & b_{j-2} & b_{j-1} & b_j \end{vmatrix} \begin{matrix} \left.\vphantom{\begin{matrix}a\\a\\a\\a\end{matrix}}\right\} j - sayda \\ \\ \left.\vphantom{\begin{matrix}a\\a\\a\\a\end{matrix}}\right\} n - sayda \end{matrix}$$

Bu determinantın tərtibi $(n + j)$ –yə bərabərdir, yazılmayan elementlər sıfra bərabərdir. Əgər $f(x)$ və $g(x)$ çoxhədlilərinin ortaq kökü vardırsa, onda $R(f,g) = 0$ [5]. Deməli, ən çox təkrarlanan kökün təkrarlanma tərtibini bilmək üçün

$$R(f, f') = 0,\ R(f, f'') = 0, ..., R(f, f^{(h-1)}) = 0,\ R(f, f^{(h)}) \neq 0 \tag{10}$$

şərtlərini yoxlamaq lazımdır. Bu şərti ödəyən $(h-1)$-natural ədədi $f(x)$-in ən çox təkrarlanan kökünün tərtibini ifadə edir.
Qeyd 3. (3) və (8) münasibətlərində $m$ və $k$ natural ədədləri kafi qədər böyük olmalıdır. Ona görə də həmişə məxsusi ədədlər təqribi alına bilər. Dəqiqiliyi artırmaq üçün həm də başqa imkandan istifadə etmək olar, belə ki, tam əmsallı (1) çoxhədlisinin bütün rasional (kəsr və tam) köklərini tapmaq üçün əvvəlcə

$$\varphi(x) = z^n + a_1 z^{n-1} + a_0 a_2 z^{n-2} + ... + a_0^{n-2} a_{n-1} z + a_0^{n-1} a_n \tag{11}$$

çoxhədlisinin bütün tam köklərini tapmaq, sonra isə onları $a_0$ -a bölmək lazımdır [5]. Deməli, (11) çoxhədlisinin köklərini (3) və (8) münasibətləri ilə hesabladıqda, alınan nəticəni təhlil etmək daha asandır, çünki, (1) çoxhədlisinin rasional kökləri əvəzinə (11)-in tam köklərini dəqiqləşdirmək (yuvarlaqlaşdırma ilə) daha asandır.
Qeyd 4. $x = \lambda_1$ kökünün təkrarlanma dərəcəsini (4) düsturu ilə həmişə müəyyən etmək asan olduğundan aşağı dərəcəli çoxhədlilərlə işləmək üçün (1) və (2) əvəzində

$$Q(x) = \frac{f(x)}{ÝBOB\,(f(x), f'(x))}$$

çoxhədlisini götürmək lazımdır.

Bu çoxhədlinin köklərini tapmaq daha əlverişlidir, çünki $Q(x)$-in bütün kökləri sadədir[5]. (İki çoxhədlinin ən böyük ortaq böləni isə Evklid alqoritmi isə tapıla bilər [5].) Əks halda təkrarlanan kompleks köklər üçün (8) tənliyinin təkrar müəyyən edilməsinə ehtiyac qalır. Nəzərə almaq lazımdır ki, $\gamma(x) = ÝBOB(f(x), f'(x))$ funksiyasının özü $f(x)$-in bölənidir, yəni $\gamma(x)$-in dərəcəsi $f(x)$-in dərəcəsindən kiçikdir, $\gamma(x) = 0$ tənliyini həll etmək daha asandır.
Qeyd 5. Məxsusi ədədlərin qismən tapılması üçün başqa üsullar da vardır [2,3,4].

## Ədəbiyyat


1. Məmmədov Y.C. Təqribi hesablama üsulları, Bakı: Maarif, 1986, 264 səh.

2. Rəsulov M.B., Nəsirova Ş.S. Məxsusi ədədlərin qismən tapılması. Azərbaycan Texnologiya Universitetinin "ELMİ XƏBƏRLƏR"i, №21, səh. 16-17, Gəncə, 2015.
3. Березин И.С. и Жидков Н.П. Методы вычислений, II т Москва, Физматгиз, 1962, 640 с.
4. Демидович Б.П. и Марон И.А. Основы вычислительной математики. Москва. Наука, 1966 г, 664 с.
5. Курош А.Г. Курс высшей алгебры. Москва: Физматгиз,1963 г, 432 с.

UOT 373.1.02:372.8

## Riyaziyyat dərslərində şagirdlərin təbiət elmləri üzrə inteqrativ-riyazi komptensiyalarının inkişaf etdirilməsi

*f.r.f.d. Səlimov İlham Nəsir oğlu*
*Mingəçevir Dövlət Universiteti*
*Orucov Tofiq Sərvəz oğlu*
*Mingəçevir şəhər 16 №-li tam orta məktəb*

Ümumtəhsil məktəblərində riyaziyyat təliminin qarşısında duran əsas vəzifələrdən biri də şagirdlərin intellektual inkişafını, uğurlu praktik fəaliyətinə zəmin yaradan təfəkkür tərzi formalaşdırmaq, müəyyən olunmuş riyazi fəaliyyətlərini genişləndirmək və inkişaf etdirmək yolu ilə yeni anlayış və mahiyyətlərin,daha sistemli və tətbiq yönümlü praktik bacarıq və vərdişlərin aşılanmasını təmin etməkdir [1].

Məktəb riyaziyyat kursunda şagirdlərə inteqrativ-praktik məzmunlu məsələlərin həllinin öyrədilməsi mühüm əhəmiyyət kəsb edir. Şagirdlərin bilik keyfiyyətlərinin yüksəlməsinə və elmi dünyagörüşünün genişlənməsinə, onlarda digər fənlərə dair riyazi-kommunikativ bacarıqların inkişaf etməsinə səbəb olur. Şagirdlərin İnteqrativ-praktik bilik keyfiyyətlərinin yüksək olması onların inteqrativ-praktik məzmunlu məsələləri sərbəst həll etmələri ilə və inteqrativ-riyazi kommunikativ bacarıqları nümayiş etdirmələri ilə şərtlənir.

Şagirdlərin inteqrativ-kommunikativ bacarıqları dedikdə aşağıdakılar nəzərdə tutulur:

1. Məsələnin məzmununun oxunub dərk edilməsi
2. Məsələnin məzmununda hansı fənlələ əlaqənin olmasının müəyyənləşdirilməsi.
3. Riyazi modelin qurulması üçün zəruri olan bilik və bacarıqların müəyyənləşdirilməsi.
4. Riyazi modelin qurulması üçün nəzərə alınan və nəzərə alınmayan parametrlərin müəyyənləşdirilməsi.
5. Riyazi modelin qurulması üçün mühakiməyürütmə və isbatetmə.
6. Riyazi modelin qurulması üçün zəruri çevirmələrin və hesablamaların yerinə yetirilməsi.
7. Ümumiləşdirmə, konkretləşdirmə və nəticə çıxarma.
8. Müqayisə, analogiya və təsnifetmə.
9. Modelləşdirmə və alqoritmləşdirmə.
10. Qurulmuş riyazi modelin riyazi həll üsulunun seçilməsi.
11. Həllin məntiqi ardıcıllıqla yazılması və təqdimatı.
12. Çertyoj çəkmə, olçmə.
13. Terminlərin düzgün ifadəsi və təqdimatı(yazılı və şifahi).
14. Dəyərləndirilməsi (tənqidi təfəkkür) [2,5].

Fikrimizi riyazi analiz metodlarından istifadə etmələ funksiyanın ən böyük və ən kiçik qiymətinin tapılması mövzusunun öyrədilməsi prosesində şagirdlərin inteqrativ- riyazi kommunikativ bacarıqlarının təşkili və idarə olunması dərsinin planlaşdırilmsı texnologiyası ilə əsaslandıraq.

İstinad biliklər.

Əgər $y = f(x)$ funksiyası $[a, b]$ parçasında kəsilməzdirsə, onda bu parçada həmişə elə nöqtələr tapmaq olar ki, funksiya bu nöqtələrdə ən böyük və ənkiçik qiymətini alır. Bu qiymətləri funksiya parçanın uc nöqtələrində və yaxud böhran nöqtələrində alır. Deməli, funksiya ən böyük qiymətini ya parçanın üç nöqtələrində ya da həmin parçanın daxili maksimum nöqtəsində alır; funksiya ən kiçik qiymətini ya parçanın üç nöqtələrində ya da həmin parçanın daxili minimum nöqtəsində alır.

$y = f(x)$ funksiyasının $[a, b]$ parçasında ən böyük və ən kiçik qiymətinin tapılması qaydası:

1) Funksiyanın düsturunun müəyyənləşdirilməsi;
2) Funksiyanın kəsilməzlik aralığının təyini;
3) Funksiyanın birinci tərtib törəməsinin tapılması;
4) Funksiyanın böhran nöqtələrinin tapılması;
5) daxili böhran nöqtələrinin seçilməsi;
6) daxili böhran nöqtələrində və parçanın uc nöqtələrində funksiyanın qiymətlərini hesablanması;
7) funksiyanın ekstermal qiymətləri içərisindən ən böyüyünün və ən kiçiyinin seçilməsi [3].

Funksiyanın ekstremumlarının riyazi analiz metodu ilə tapılması çoxlu sayda həndəsə, fizika, kimya, mexanika və s. aid tətbiq məsələlərinin həllində geniş istifadə olunur. Lakin tətbiq məsələləriində funksiya aşkar şəkildə verilmir.

Məsələ 1. Dəmir təbəqə lövhədən silindir förmasında, tutumu 2000 kubsm olan, üstdən və altdan bağlı olan çən düzəltmək lazımdır. Çənin hazırlanmasına ən az material işlənməsi üçün onun ölçüləri necə olmalıdır.[3]



Şəkil 1

Bu məsələnin həlli üçün yuxarıda qeyd etdiyimiz riyazi analizdən olan istinad biliklərindən əlavə həndəsədən də aşağıdakı zəruri istinad bilikləri tələb olunur.

Silindir, silindirin həcmi düsturu, və düsturdan kəmiyyətlərin birinin digəri ilə ifadə olunması bacarıqları. Bu məsələnin şərtində dəmir təbəqə lövhə, yəni çənin hazırlanacağı materilın növü nəzərə alınmır, çənin forması və ölçüləri nəzərə alınır.

Məsələni həll etmə bacarığının nümayiş etdirilməsi.

1) Zəruri işarələmələr: Məsələnin tələbinə görə çən silindir formasındadır. Silindrin radiusunu R(sm), hündürlüyünü H(sm) işarə edək. Onda silindirin həcmi $V = \pi R^2 H$, tam səthinin sahəsi $S = 2\pi RH + 2\pi R^2$ düsturu ilə hesablanır. $V = 2000\ sm^3$.

2) Funksiyanın qurulması. Məsələnin şərtinə görə:

$$\pi R^2 H = 2000.$$

$H = \frac{2000}{\pi R^2}$, $S = \frac{4000}{R} + 2\pi R^2$. $R = x$ qəbul edək. Onda $S(x) = \frac{4000}{x} + 2\pi x^2$ funksiyasını alırıq.

3) $S'(x) = \left(\frac{4000}{x} + 2\pi x^2\right)' = -\frac{4000}{x^2} + 2\pi x$

4) $-\frac{4000}{x^2} + 2\pi x = 0, x^3 = \frac{1000}{\pi}, x = \sqrt[3]{\frac{1000}{\pi}} = \frac{10}{\sqrt[3]{\pi}}$

5) $R = \frac{10}{\sqrt[3]{\pi}}, H = \frac{2000}{\pi\sqrt[3]{\left(\frac{1000}{\pi}\right)^2}} = \frac{20}{\sqrt[3]{\pi}}$

Məsələ2. Elektrik lampasını döşəmə sahəsindən hansı hündürlükdə asmaq lazımdır ki, döşəmə sahəsinin işıqlanması maksimum olsun. Hesab edin ki, işıq şüsaı döşəmə sahəsinə perpendikulyar düşmür [4].

Fizikadan məlumdur ki, sahənin işıqlanması işıq mənbəyindən çıxan şüanın düşmə bucağının kosinusu ilə düz, mənbə ilə səth arasındakı məsafənin kvadratı ilə tərs mütənasibdir. Yəni $I=\frac{k}{r^2}\cos i$



Şəkil 2

Həlli. Şəkildən $r^2=a^2+x^2$, $\cos i=\frac{x}{\sqrt{a^2+x^2}}$ .

Onda səthin işıqlanmsı

$$I=\frac{k}{a^2+x^2}\cdot\frac{x}{\sqrt{a^2+x^2}}=kx(a^2+x^2)^{-\frac{3}{2}}.$$

$$I(x)=kx(a^2+x^2)^{-\frac{3}{2}}$$

$$I'(x)=\left(kx(a^2+x^2)^{-\frac{3}{2}}\right)'=k(a^2+x^2)^{-\frac{3}{2}}-3kx^2(a^2+x^2)^{-\frac{5}{2}}=$$

$$=k(a^2+x^2)^{-\frac{3}{2}}[1-3x^2(a^2+x^2)^{-1}];k(a^2+x^2)^{-\frac{3}{2}}[1-3x^2(a^2+x^2)^{-1}]=0$$

$$1-3x^2(a^2+x^2)^{-1}=0;x=\sqrt{\frac{a^2}{2}}=0.707a$$

Məsələ 3. Tərkibi azot oksid olan qaz hava ilə qarışdırılır. Alınmış qarışıqda azotun oksidləşmə sürətinin maksimum olması üçün hansı həcmdə və hansı tərkibdə hava əlavə etmək lazım olduğunu təyin edin [4].

Həlli. *x*-ilə verilmiş qazın vahid həcminə əlavə olunan havanın həcmini işarə edək;

*a*-ilə verilmiş qazda azot oksidin dozasının həcmini işarə edək;

*b*-ilə verilmiş qazda digər (inert qazlar) qazların dozası həcmini işarə edək;

*c*-iləverilmiş qazın vahid həcminə hava ilə daxil olan oksigenin həcmini işarə edək;

*n*-ilə hava qarışığında daxil edilən azotun həcmini işarə edək.

Onda $a+b+c+n=1+x, a+b=1, c+n=x$. Havanın tərkibində 20,8% oksigen və 79,2% azot olduğundan $n=\frac{79{,}2c}{20{,}8}=3{,}81c$ . Buradan alırıq: $x=4{,}81c$ və$c=\frac{x}{4{,}81}$.

Azot oksid və oksigenin qarışıqda konsentrasiyasının həcm dozası belədir:

$\frac{1+x}{a}$ azot oksidin konsentrasiyası;$\frac{c}{1+x}=\frac{x}{4{,}81(1+x)}$oksigenin konsentrasiyası. Praktik olaraq $2NO+O_2=2NO_2$ reaksiyasının sürəti dönər olmadığına görə $v=kx^2y$ düsturu ilə ifadə olunur. Burada $x$ - istənilən zaman anında NO –nun konsentrasiyasıdır; *y* isə $O_2$ -nin konsentrasiyasıdır; $k$- reaksiyanın sürəti sabiti olub yalnız tempereturdan asılıdır. Bu kəmiyyətləri azot oksidin oksidləşmə sürəti tənliyində $v=k[NO]^2[O_2]$ yerinə yazsaq

$v=k\frac{a^2}{(1+x)^2}\cdot\frac{x}{4{,}81(1+x)}$yaxud$\vartheta=k\cdot\frac{a^2}{4{,}81}\cdot\frac{x}{(1+x)^3}$alarıq.$\vartheta$ oksidləşmə sürətinin maksimum olmasını müəyyənləşdirmək üçün, yəni $a-$nın verilmiş qiymətində $x-$in qiymətini tapmaq üçün $\vartheta$ $-$dən $x$ $-$ə görə birinci tərtib törəməsini tapaq və sıfıra bərabər edək:

$$\frac{d\vartheta}{dx}=\frac{ka^2}{4{,}81}\cdot\frac{1-2x}{(1+x)^4}=0$$

$x=0{,}5$ olduqda törəmənin qiyməti sıfıra bərabər olur. Beləliklə $x=0{,}5$ olduqda vahid həcmdə verilmiş qaza $0{,}5$ həcmdə hava əlavə etdikdə qaz qarışığının tərkibiində azot oksidin oksidləşmə surəti maksimum şərtini ödəyir. Qarışıqda oksigenin konsentrasiyası

$$\frac{x}{4{,}81(1+x)}=\frac{0{,}5}{4{,}81(1+0{,}5)}\approx 0{,}0693=0.93\%$$

olar.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni kurikilumu (V-XI siniflər). “Kurikulum” jurnalı, 2011, № 2
2. Orucov T.. Riyaziyyat dərslərində şagirdlərin riyazi-kommunikativ bacarıqlarının inkişaf etdirilməsi. Kurikulum jurnalı, 2015, № 2
3. Mərdanov M.C. və b. Cəbr və analizin başlanğıcı. Bakı: Çağoğlu, 2003
4. Пономарев К.К.. Курс высшей математики . 2 часть . Москва: “Высшая школа” 1974, с. 22-27
5. Səlimov İ.N., Yunusova P.M. Fizikanın tədrisi prosesində şagirdlərin kommunikativ bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi. “Fizika, riyaziyyat və informatika tədrisi” jurnalı, Bakı, №2, 2015, səh. 56-58

UOT 81:001.12/.18.

## Azərbaycan dili milli-mənəvi dəyərlərimizin tərkib hissəsi kimi

*f.f.d. Məhərrəmova Vəfa Eldar qızı*
*Mingəçevir Dövlət Universiteti*

Mədəniyyət tarixi sahəsində qazanılmış təcrübə sübut edir ki, insanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Hər bir xalqın tarixində onun yaratdığı milli-mənəvi dəyərlər mühüm yer tutur. Mənəvi dəyərlər sisteminə hər bir xalqı etnik müəyyənlik kimi tanıtdıran və onu digər xalqlardan fərqləndirən ən önəmli xüsusiyyətlər daxildir. Bu dəyərlər xalqı soykökə bağlamaqla yanaşı, gənc nəslin mənəvi tərbiyəsində də önəmli rol oynayır.

Dünya xalqları arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutur. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin tarixi kökləri qədim və zəngindir. Dünyaya böyük şəxsiyyətlər, şairlər, yazıçılar, mütəfəkkirlər, dövlət xadimləri bəxş edən xalqımız öz milli-mənəvi dəyərlərini zaman-zaman qorumuş və inkişaf etdirmişdir. Xalqımızın özünəməxsus zəngin mədəni, mənəvi irsi onun abidələri, maddi-mədəniyyət nümunələri, böyük şəxsiyyətləri, adət-ənənələri, inancı, mentaliteti, yazılı və şifahi ədəbiyyatı, musiqisi, tarixi, dili ilə səciyyələnir. Torpaqlarımız əlverişli coğrafi məkanda yerləşdiyindən milli dəyərlərimiz ümumbəşəri dəyərlərlə də sıx əlaqədə yaranmış və inkişaf etmişdir. İpək yolu ticarət və iqtisadi əlaqələrlə yanaşı, mənəvi və ideoloji münasibətlərin inkişafına güclü təkan vermiş, böyük xalqların böyük mədəniyyətlərinin təsiri Azərbaycan xalqının mənəvi irəliləyişində, inkişafında əhəmiyyətli rol oynamışdır [1].

Zəngin mənəvi mədəniyyət tarixi və böyük mənəvi sərvəti olan xalqımızın yaratdığı maddi-mənəvi mədəniyyət nümunələri tarix boyu ayrı-ayrı xalqlar tərəfindən mənimsənilmiş, hətta təhrif edilmişdir [2]. Sovet dövründə isə bunlar qəddarcasına təqiblərə məruz qalmışdır. Buna baxmayaraq böyük şəxsiyyətlərimizin yaradıcı fəaliyyəti nəticəsində milli-mənəvi dəyərlərə əsaslanan yeni və mütərəqqi ideyalar meydana gəlmiş və indi də yaranmaqdadır. Azərbaycan xalqının ən qiymətli mili mənəvi sərvəti olan Azərbaycan dili məhz həmin dövrlərdə tədricən sıxışdırılaraq aradan çıxarılmış, bütün sahələrdə rus dili ünsiyyət vasitəsi olmuş, aparıcı funksiya daşımışdır. Əxlaqi dəyərlərə sadiq olan xalqımız bütün təqiblərə və təsirlərə baxmayaraq dilini, dinini və adət-ənənələrini qoruyub saxlaya bilmişdir.

Milli-mənəvi dəyərlərin təbliğində və qorunmasında ana dilinin rolu həqiqətən böyükdür. Xalqımızın milli-mənəvi dəyərlərinin tərkib hissəsi olan Azərbaycan dilinin inkişafı və zənginləşdirilməsi hər zaman dövlətimiz və xalqımız üçün prioritet məsələlərdən olmuşdur. Ümummilli lider Heydər Əliyev respublikanın iqtisadi, ictimai-siyasi və mədəni ideoloji həyatında dirçəliş yaratmaqla yanaşı, dil məsələsinə də xüsusi diqqət və qayğı göstərmişdir. Heydər Əliyev

Azərbaycan dilini xalqımızın ən böyuk sərvəti hesab edirdi. Heydər Əliyev: “Biz azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Milli dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz. Biz heç vaxt öz milli dəyərlərimizi unutmamalıyıq. Onu yaşatmaq, ondan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir” [5].

Unudulmaz rəhbərin ilk gündən yeritdiyi dil siyasəti bir məqsədə xidmət etmişdir: ana dilini inkişaf etdirmək, onun dövlət statusunu reallaşdırmaq, dünya dilləri içərisində nüfuzunu artırmaq [4]. Bu qayğı və diqqətin nəticəsidir ki, Heydər Əliyev 18 iyun 2001-ci ildə “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” fərman imzalamışdır. Bu tarixi sənəd dilimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərin həllində mühüm rol oynamışdır. 2001-ci il avqust ayının 1-dən isə latın qrafikalı Azərbaycan əlifbasına keçilməsinə qərar verilmişdir. Ümummilli liderin “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” 2001-ci il 9 avqust tarixli fərmanı ilə xalqımızın bayramları sırasına daha bir əlamətdar bayram əlavə olunmuşdur.

Qeyd edək ki, hələ Sovet imperiyası dönəmində – 1978-ci ildə Heydər Əliyev Azərbaycan SSR-in yeni Konstitusiyası qəbul edilərkən bu vacib dövlət sənədinə Azərbaycan dilinin dövlət dili olduğunu bəyan edən maddənin salınmasına nail oldu. O vaxt bu olduqca böyük cəsarət tələb edirdi. M.Yusifov yazır ki, Azərbaycan dilinin dövlət dili adlandırılması o zaman üçün böyük hadisə idi. Dövlət dili odur ki, elmi, texniki, ssosial, iqtisadi nailiyyətlər bu dildə ifadə olunsun. Bu dil rəsmi, diplomatik və hüquqi sənədlərin dili kimi işlədilsin [3].

Bu gün rəsmi yığıncaqlarda, məclislərdə ana dilimiz qüdrətlə, təntənə ilə səslənir. Azərbaycan dilinin hərtərəfli inkişafı, onun təkcə sözdə deyil, gündəlik təcrübədə ümumişlək dilə, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, zənginləşərək nüfuz qazanması, dünyanın mötəbər kürsülərindən eşidilməsi ümummilli lider Heydər Əliyevin fəaliyyəti və yürütdüyü dil siyasəti ilə bağlı olmuşdur. Həmin siyasət indi uğurla davam etdirilir. Dövlət dili milli dövlətin ayrılmaz hissəsidir.

Bu gün milli adət və ənənələrimiz və onların əsasında formalaşmış milli mənəvi dəyərlər sistemi ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynayaraq güclü, qüdrətli dövlət quruculuğu prosesinə öz töhfəsini verməkdədir.

**Ədəbiyyat**

1. Əliyev H.Ə. Azərbaycan XX əsrin və üçüncü minilliyin ayrıcında. Bakı: Yeni nəşrlər evi, 2001, 55 səh.
2. Yusifov M. Heydər Əliyev və azərbaycançılıq ideologiyası. Bakı: Nurlan, 2005, 203 səh.
3. Yusifov M. Dövlətçilik və dil. Bakı: Nurlan, 2004, 174 səh.
4. Sadıqlı A. Ümummilli lider H. Əliyev və Azərbaycan dili. 2011.
5. https://menazerbaycanlıyam.wordpress.com/afo.

UOT 81

## “Tibbnamə”nin dilində sərbəst söz birləşməsi və tabeli mürəkkəb cümlələr

*Manafova Maarifə Nuh qızı*
*Mingəçevir Dövlət Universiteti*
*AMEA Dilçilik İnstitutunun dissertantı*

Dilimizin sintaktik quruluşunun tarixi inkişafını müəllifi məlum olmayan, əski türk dilində yazılmış orta yüzilliyə aid tibb əsəri – “Tibbnamə” əsasında öyrənməklə zəngin və dərin elmi bilgilər əldə etmək olar. XVII yüzilliyin sonu, XVIII yüzilliyin əvvəllərində yaşamış, həkim, alim,

dərmanşünaslıq elminin mükəmməl bilicisi Məhəmməd Yusif Şirvani sözügedən əsərin üzünü köçürmüş, ona müqəddimə, şərh və izahatlar vermişdir. Onun bu xidməti sayəsində həmin kitab günümüzə qədər gəlib çatmışdır.

"Tibbnamə"nin sintaktik quruluşunda sərbəst söz birləşmələri nəzəri daha çox cəlb edir. Quruluş və məzmun etibarı ilə bu cür birləşmələr geniş dairəni əhatə edir. Bunların əksəriyyəti terminoloji birləşmələrdir. Həmin birləşmələr tibbin, əczaçılığın, dərmanşünaslığın müxtəlif sahələrinə aiddir. Məs.: ağ bəhmən (Bəhmən güləvərinin kökləri), ağ süsən (ağ zanbaq), ağu ağacı (adi oleandr), ağac qavunu (sitron), Büxur Məryəm (Avropa (yaz) meşənovruzu) və s.

Maraqlı xüsusiyyətlərdən biri əsərdə işlənmiş söz birləşmələrinin bir çoxunun mürəkkəb sözə doğru inkişaf prosesi keçirməsi hadisəsidir. Bunları M.Adilov ikinci növ təyini söz birləşməsi şəklində formalaşan mürəkkəb sözlər adlandırır və yazır ki, "...bu növ birləşmələrin çoxu bir məna verir. Həmin birləşmələrin mürəkkəb sözə çevrilməsi prosesi də canlı, həyati prosesidir. Odur ki, bu birləşmələr ilə həmin birləşmələrdən düzələn mürəkkəb sözlər arasında kəskin fərq qoymaq çox çətindir" [1].

Bu baxımdan aşağıdakı nümunələr xarakterik sayıla bilər: dəmir tikanı (təmirtikanı), qızıl boya (dərman qızılboyası (boyaqotu), qara ağaç (qarağaç), dəmir otu (dəmirotu) və s. [2]

"Tibbnamə"dəki bəzi söz birləşmələri müasir dilimizdəki faktlarla müqayisədə fonetik cəhətdən fərqlənir. Məsələn, müqayisə et: duraq otu\turaq otu, durac otu\turac otu və s.

Söz birləşmələrinin birinci və ikinci tərəfləri dil mənsubiyyətinə görə də diqqəti cəlb edir.

Hər iki tərəfi türk mənşəli olanlar: yabanı soğan, yağ mumu, yaş üzüm, yılan yastığı, gəlinçək çiçəyi, göy süsən, gün çiçəyi, mərsəmə yarpağı, palıd (bəllut) dögülü, Papadiya çiçəyi, Saq yağı, siçan otu, sığır dili, tülkü xayası, qara ağaç, qara boya, qara daş, qara çörəkotu, qabıqlı bağa, ilan yastıdı\yılan yastığı, çöl kirpisi, çörək otu, ürək borusu, ürək oynaması, üzün titrəməsi və s.

Birinci tərəfi türk, ikinci tərəfi fars mənşəli olanlar: yaş pənir, qara cülnar, böyük xırs qızıl bəhmən və s.

Birinci tərəfi ərəb, ikinci tərəfi türk mənşəli olanlar: Kabil həliləci, Səqqa quşu, Səlmən daşı, səfərcəl meyvəsi, əlfəqr yemişi (ə.-t), əql zailliyi, əza süstlüyü, istifraq etmək, heyz axını və s.

Birinci tərəfi fars, ikinci tərəfi ərəb mənşəli olanlar: zəravənd təvil, mərcimək məni (toxumu) və s.

Birinci tərəfi türk, ikinci tərəfi hind sözündən ibarət olanlar: qara həlilə.

Birinci tərəfi yunan, ikinci tərəfi türk mənşəli olanlar: qəli daşı, qəli suyu və s.

Birinci tərəfi fars, ikinci tərəfi türk mənşəli olanlar: Hindistan qozu.

Hər iki tərəfi fars mənşəli olanlar: xiyar çənbər, xiyar şənbər və s.

Birinci tərəfi ərəb, ikinci tərəfi fars mənşəli olanlar: Firəng zəhməti və s.

"Tibbnamə"nin sintaktik quruluşu yarandığı dövrün canlı danışıq dilini qoruyub saxlayan bir əsər təsirini bağışlayır.

Tabeli mürəkkəb cümlələr daha çox "əgər", "hərgah" bağlayıcıları ilə başlanır. Analitik tipli tabeli mürəkkəb cümlələrdə budaq cümlə baş cümləyə, əsasən, tabelilik bağlayıcıları ilə bağlanır [3]. "Əgər gül suyunu hərarətdən (ağrısı) olan başa sürtsələr, dəf edər. Əgər buxardan olan baş ağrısı üçün dərya suyunu və ya gül suyunu başa sürtsələr, dəf edər. Əgər baş ağrısı səfradan olmuş isə bir parça sirkə ilə isladıb (başa) sürtsələr, dəf edər" [2].

Bu tip cümlələrin qurulmasında -sa,-sə morfoloji göstəricisi aktiv görünür və bu yalnız şərt deyil, digər budaq cümlələrin də (mübtəda, tamamlıq, zaman, kəmiyyət, tərzi-hərəkət, yer, müqayisə, qarşılaşdırma, qoşulma) formalaşmasında iştirak edir. Məs.: Əgər baş ağrısı qafadan olursa, o dəxi bəlğəmdəndir və onun dəxi əlacı budur ki, bir miqdar iskəncəbin yaxud turpun suyunu içirələr, qaytarar.

Bu cümlə-sa,-sə şəkilçili mübtəda budaq cümləsidir və xəbər budaq cümləsini də özünə qoşmuşdur. Belə bir qarışıq tipli tabeli mürəkkəb cümlələrə sözügedən əsərin dilində çox rast gəlmək olur.

Bəzi budaq cümlələrdə – sa və ki əlamətləri birgə işlədilir: Hər kim bir şübhəli yerə gedib qorxsa ki, zəhər yedirələr, zinhar ilə o yerə ac və susuz getməyələr və əgər qafil olub deyilən yerə gedər.

Budaq cümlənin təkcə “xeyirlidir”, “xeyirdir” predikativindən ibarət olması halları sözügedən əsərdə geniş yayılıb. Məs.: Bu xəstəlik üçün darçın yesələr, xeyirlidir (84), Yumurta ağını dəxi sürtsələr, xeyirdir.

«Ki» bağlayıcılı tabeli mürəkkəb cümlələr də “Tibbnamə”nin dilində xeyli işlənmişdir. Məsələn: Mübtəda budaq cümləsində: Həkimlərdən rəvayət olunub ki, qırx ədəd sərçənin başını cəm edib və qurudub döyüb, əzib və bu ədviyyələri yenə alıb əzib və ələkdən keçirib və kifayət qədəri qənd ilə qarışdırıb hər gün bir misqal yeyələr...[2]

Tamamlıq budaq cümləsində: Xəbərin mənasını tamamlamaq üçün tibbi mətnlərin tərkibində tamamlıq budaq cümlələrinin işlənməsi zəruriliyi ortaya çıxır. Məs.: Hükəmalar deyiblər ki, haçan bir kimsənənin başı ağrısa, beynində bir süstlük vaqe olsa, gərəkdir ki, hamama gedib iki ayaqlarını isticək suya salıb bir miqdar dursa, su içində ikən başından ayağına varınca nə qədər dərdlər və xəstəliklər var isə, ayağına endirib təhlil eləyə, xeyirdir. Bəzi həkimlərdən danışırlar ki, bir dirhəm üstü-xudusu bir az bal ilə birlikdə qarışdırıb insanın burnuna damızsalar, damağı tamam təmizləyər.

Tarixi dil faktları göstərir ki, bir çox əsrlər bu əsəri bizdən ayırsa da, onun sintaktik quruluşu indiki dilimizin sintaksisi ilə uyğunluq təşkil edir, amma bəzi norma sabitliyinin pozulduğu hallar da özünü göstərir.

## Ədəbiyyat


1. Adilov Musa. Əsərləri I, Bakı: «Elm və təhsil», 2010
2. Məhəmməd Yusif Şirvani. Tibbnamə. (Xalq təbabəti. Məlumat kitabı). Mətni hazırlayanlar və ön sözün müəllifləri: M.Sultanov, A.Fərzəliyev. Bakı: «İşıq», 1990, 192 səh.
3. Müasir Azərbaycan dili. III cild, Sintaksis, Bakı: «Elm» nəşriyyatı, 1981, 443 səh.


UOT 821 (091)

# Toni Morrisonun yaradıcılığında milli-mənəvi dəyərlərin təbliği

*Əhmədova Aliyə Xəlil qızı*
*Azərbaycan Dillər Universitetinin dissertantı*

Dünyanın mədəni irsinin gələcək nəsillərə ötürülməsi etnik mədəniyyətin insan yaddaşında kök salmış izlərinin qorunub saxlanması məqsədi güdür. Bəşər övladı öz soy-kökünün və milli mədəni dəyərlərinin daşıyıcısıdır. Müasir dünyamızda fərqli dinlərdən, fərqli mənsəblərdən, fərqli irqlərdən olan insanların eyni cəmiyyətdə bərabərhühuqlu şəkildə yaşaması multikulturalizmin başlıca tələblərindən biridir.

Demokratik prinsiplərin irəli sürüldüyü ABŞ-da müxtəlif xalqların, millətlərin qaynayıb-qarışması nəticəsində çoxmədəniyyətli cəmiyyət nümünəsi meydana gəlmişdir. Qaradərililərlə ağdərililərin üzun illər boyunca ABŞ da demokratik prinsiplər altında birgə yaşaması hər iki tərəfin milli-mədəni irsinin dünya mədəniyyətinə iteqrasiya olunması ilə xarakterizə olunur.

Dünyada baş verən sosial-iqtisadi və tarixi hadisələr ədəbiyyat sahəsində yeni istiqamətlərin meydana gəlməsində öz təzahürünü tapmışdır. Belə ki, Afro-Amerika mənşəli yazıçı Toni Morrison bəşəri və qlobal mövzulari ehtiva edən, lakin milli kolaritin prioritet təşkil etdiyi əsərləri ilə Amerikan mədəniyyətinin formalaşmasında böyük rol oynamış qaradərililərin milli-mədəni irsinin təbliğinə can atır.

Afro-amerikan bədii fikrinin formalaşmasında bir sıra amillər - vaxtilə zor gücünə qopardılıb kölə qismində Amerikaya gətirilən zəncinin “itirilmiş cənnət” üçün – Afrika üçün nostalgiya hissi, genetik yaddaşında həkk olunmuş yüksək bədii-mədəni dəyərlər, məsələn, caz dünyaduyumu, yeni “vətəndə” təhqiramiz münasibət kimi amillər rol oynamışdır. Bunlar ağlar Amerikasında zənci mütəfəkkirlərə, o cümlədən yazıçılara Afrika mənşəli amerikan anlayışının yaradılması kimi çətin bir vəzifənin öhdəsindən gəlmələrinə, XX əsr zənci bədii ədəbiyyatının formalaşmasına çox mühüm təsir göstərdi. Həmin təsir bu gün də davam etməkdədir. Etnik-milli mənsubluğunu dərk etmək,

müəyyənləşdirmək axtarışı irqi ayrı-seçkiliyə, ədalətsizliyə qarşı qəzəb, çoxluq təşkil edən ağlar tərəfindən II dərəcəli insan hesab olunmaları, təhqir və təqib edilən zəncilərin hisləri, ağır həyatları XX əsrin görkəmli zənci yazıçı və şairləri Lənqston Hyuz, Riçard Rayt, Ceyms Bolduin, Ralf Ellison, Toni Morrison və bir sıra Afrika mənşəli Amerika müəlliflərinin əsərlərində realist boyalarla təsvir olunmağa başladı.

Multikulturalizm tendensiyasının daşıyıcısı afrika kökənli Amerika yazıçısı Toni Morrison Azərbaycan oxucusuna Nobel mükafatı laureatı kimi tanışdır. Zəngin ədəbi irsi, qəliz fəlsəfi anlamlarla yüklənmiş nəsri, oxucunu keçmiş və gələcək arasında var-gəl etdirən dramaturgiyası, uşaq təxəyyülünə çoxçalarlı rənglər qatan nağılları və elmi mülahizələri ilə Toni Morrison tanınmış alim, bacarıqlı nasir, bənzərsiz dramaturq və millətinə dərin məhəbbətlə sevən əsl vətənpərvərdir. Morrison əsərlərində köləlik dövrünün dəhşətlərindən bəhs edir. Yazıçının yaradıcılığında Amerika qitəsinə kölə qismində gətirilmiş kütlənin əsrlər boyu azad və demokratik cəmiyyət arzusu qaradərililərin məşəqqətləri fonunda təcəssüm olunmuşdur. Bütöv yaradıcılığını qaradərililərə həsr edərək öz söy-kökünü, əcdadlarını, ata-babalarını və onların kimliyini bütün dünyaya tanıdan Morrison Amerikalı hər bir kölə zəncinin mayasında zəngin  və qədim Afrika mədəniyyətinin mövcudluğunu vurğulayır. Həyat faktlarını məharətlə sənətə çevirən Morrison romanlarının lakonik, poetik amma bir o qədər də mücərrəd dili ilə irqi ayrıseçkilik problemleminin ağırlığını kifayyət qədər inandırıcılıqla təsvir etmişdir. Morrisonun poetik dili Afrika mədəniyyətinin tarixi qatlarını təsvir edir. O, ictimai münasibətlərin fonunda tarixi təsvir edir. Romanlarına xas irqi və sosial bərabərsizliyin fəsadlarının təsviri  Morrisonun yaradıcılğında aktuallıq kəsb edir. Eyni zamanda Toni Morrison öz yaradıcılığında etnik ənənələrin, xalq adətlərinin, folklor nümünələrinin, mif və əsatirlərin təsvir və təcəssümünə geniş yer verərərək milli-mədəni dəyərlərin təbliğinə nail olmuşdur. Sənətkar 1992-ci ildə qələmə aldığı "Caz" romanı  vasitəsilə Afrika mədəniyyətinin məhəng dağı sayılan caz musiqisini dünyaya tanıtmaq məqsədi güdür [4]. Burada milli-mədəni dəyərlərin ümumbəşəri dəyərlərlə çuğlaşması problemi ortaya qoyulur.

T.Morrison afrika ənənələrinin mənəvi varisi kimi fəaliyyət göstərmiş və yaradıcılıq axtarışları aparmışdır. Ən fərqli ənənələrdən, ədəbi sərvətlərdən yaradıcı şəkildə yararlanan yazıçı etnik kimliyini unutmağa imkan verməyən ənənələrə daha çox üstünlük verirdi. Buna görə də, onun bədii irsi etnik-milli ədəbi-mədəni ənənələrə nə qədər bağlı idisə, müasir Amerika ədəbiyyatında prioritet problemləri də, bir o qədər dolğunluqla əks etdirməklə onun ayrılmaz tərkib hissəsi olduğunu təsdiqləyir. Onun əsərlərində işıqlandırılan problemlər ümumAmerika ədəbiyyatında mənalandırılan problemlərlə eyniyyət təşkil edir.

Toni Morrison minimum iki məsələni həll etməyə cəhd göstərir. O belə bir vəzifədən çıxış edir ki, əvvəla, afro-amerikanların ABŞ-ın mədəniyyətində və müasir həyat sistemində rolunu və yerini müəyyənləşdirsin, ikincisi isə qaradərililərin xalq mədəniyyətini üzə çıxartmaq, onu ağdərililərin dominant mədəniyyətinə alternativ kimi təqdim etsin. Morrisonun bütün yaradıcılığı Amerika zəncilərinin tarixi yaddaşını bərpa etməyə yönəlmiş və milli intibaha çağırışıdır. Hazırda o, 85 yaşındadır və hələ də qələminin köməyiylə qaradərililərin mili-mədəni irsinin təbliğinə can atır. Bütün bu xidmətlərinə görə 2012-ci ildə prezident Barak Obama T. Morrisonu ABŞ-da ən ali ictimai mükafat sayılan "Prezident Azadlıq medalı" ilə təltif etmişdir [6].

## Ədəbiyyat


1. Тихонович Н.Ю. К проблеме традиции в творчестве Т.Моррисон // Традиции и взаимодействия в мировой литературе. Пермь: Перм. Унв-т, 2004, с. 161-169
2. Critical Essays on Toni Morrison / Ed. by McKay Nellie Y. Boston: GK hall, 1988, 232 p.
3. Joyner Louisa. Toni Morrison: The Essential Guide to Contemporary Literature. London: Vintage Books, 2003, 211 p.
4. Morrison T. Jazz. New York: A. Knopf, 1992, 229 p.
5. Nobel prize.org>literature>laurates-Toni Morrison
6. http://academic.brooklyn.cuny.edu/english/melani/cs6/morrison.html
7. https://en.wikipedia.org/wiki / Toni_Morrison

UOT 81"367

## Müxtəlifsistemli dillərdə tarixi, milli-mənəvi dəyərlərin ötürülməsində ad qruplu frazeoloji paradiqmlərinin rolu

*İbrahimova Lamiyə Mahir qızı*
*Mingəçevir Dövlət Universiteti*
*AMEA Dilçilik İnstitutunun dissertantı*

Sürətlə qloballaşan dünyada hər bir xalqın milli-mənəvi kimliyinin, irsinin və dəyərlərinin qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi günümüzün prioritet məsələllərindən hesab olunur. Bu baxından müasir linqvistikanın əsas istiqamətlərindən olan kontekstologiya və koqnitiv dilçiliyin qarşısında duran mühüm məsələrdən biri müxtəlifsistemli dillərdə frazeoloji birləşmələrin kompleks tədqiqidir.

Müxtəlifsistemli dillərdə gedən prosesləri və qanunauyğunluqları sistemləşdirmək nöqteyi nəzərindən bu dillərdə frazeoloji paradiqmlərin müqayisəli araşdırılması məqsədəuyğun hesab olunur. Müxtəlifsistemli dillərdə frazeoloji birləşmələrin tədqiqi frazeologiyanın artıq müstəqil dilçilik sahəsi olduğunu sübut edir.

Frazeoloji birləşmələrin semantik xüsusiyyətlərinin fərqliliyi, frazeoloji birləşmələrin fərqliliyi, frazeoloji birləşmələrin əsas struktur tiplərinin təyini, frazeoloji birləşmələrin müəyyənləşdirilməsində funksional-üslubi əhəmiyyətlərin rolu bu dil vahidlərinin seçilməsinin və araşdırılmasının əsas səciyyəvi cəhətidir [4].

Bir qrup alimlər frzeologiyanın tərkibinə yalnız tam dəyişmiş mənalı komponentləri olan vahidləri aid edirlər. Bu zaman müstəqil sözlərin əvəzinə tamamilə yenilənmiş ümumi mənanın komponentləri müşahidə olunur. Digər qrup tədqiqatçıların fikrincə, frazeologiya yalnız tamamilə mənasını dəyişmiş komponentlərdən ibarət olan frazeologizmlər deyil, komponentlərinin biri öz müstəqil mənasını saxlayan birləşmələrdən ibarətdir.

Frazeologiya bir dil sistemi kimi daim inkişafdadır. Sinxronik araşdırmalar frazeologizmlərin müasir vəziyyətinin tədqiqində vacib amildir, lakin frazeoloji paradiqmlərin etimologiyasının öyrənilməsi bu sahənin müasir vəziyyətinin tədqiqində olduqca vacib amildir. Tarixi-etimoloji məlumatlar frazeoloji paradiqmlərin mənasını başa düşməyə kömək edir. Hər bir dilin leksik sisteminin əsas hissəsini adlar təşkil edir. Adlar özünəməxsus mədəni-tarixi və dil komponentləri kimi funksionallaşır [2].

Adlar hər bir xalqın tarixinin, məişətinin, ruhunun inkişaf tarixidir, eyni zamanda tarixi və mədəni irsi olduğu kimi gələcək nəsillərə ötürən vasitədir. Bildiyimiz kimi, onomastik frazeoloji paradiqmlər dil sistemində müəyyən rəmzlərdir. Adlarla düzəlmiş frazeoloji paradiqmlərdə insan taleləri, tarixi hadisələr, xalqın həyat və məişəti əks olunur [1].

Ad qruplu frazeoloji paradiqmlər aşağıdakı xüsusiyyətləri ilə seçilir:

1. Onlar öz fəlsəfi məzmunu və tərbiyəvi əhəmiyyəti ilə fərqlənir.
2. Bu frazeoloji paradiqmlər əsasən lakonik formaya və dərin məzmuna malik olur.
3. Öz funksinal xüsusiyyətlərinə görə bu frazeoloji birləşmələr geniş tətbiq dairəsinə malik olur, obrazlılığı ilə seçilir.

Müxtəlifsistemli dillərdə işlənən ad komponentli frazeoloji paradiqmlərin ekvivalenti olsa da, onlar digər dillərdəki paradiqmlərdən, əsasən, konnotativ əlamətlərlə fərqlənir. Məsələn, eyni bir ad müxtəlif dillərin frazeoloji vahidlərində fərqli mənalarda işlənə bilər. Məs. peyğəmbər adları Adəm, Nuh, İbrahim, Musa, İsa, Lüt, Əyyub, Harun, Davud, Süleyman, İlyas, Yaqub, Yunus, Zəkəriyyə və b. leksemləri ilə müxtlif dillərdə frazeoloji paradiqmlər mövcuddur - Adəm alması, Adəm oğlu və s.

Rus dilində özünü təvəzökar və yüksək əxlaqlı şəxs kimi təqdim etməyə çalışan insanlar haqqında deyilir: «Целомудренный, как Иосиф прекрасный» Bu frazeoloji paradiqmdə çox gözəl, ağıllı və təvəzökar insan olan Yusif peyğəmbərə işarə olunur [3].

Rus dilində çox işlənən ad qruplu digər bir frazeoloji paradiqm – «Иов многострадальный» ifadəsi həyatı boyu min bir əzab-əziyyətə dözən, taleyin ağır sınaqlarına məruz qalan insanlar

haqqında işlənir. «Соломоново решение»- bu ifadə müdrik, ağıllı, və tədbirli qərar kimi işlədilir. Burada öz ağlı, ədaləti və müdrikliyi ilə seçilən Süleyman peyğəmbərə işarə olunur. «Ноев ковчег» ifadəsi dar, tünlük, narahat bir ev və ya yer haqqında işlənir, Nuh peyğəmbərin adı ilə əlaqələndirilir. Azərbaycan dilində Nuh peyğəmbərin adı ilə bir neçə paradiqm vardır: "Nuh əyyamından qalmış", " Nuhu taxtda, Süleymanı qundaqda görüb" və s.

İsa peyğəmbərin adı ilə bağlı rus dilində bir neçə frazeoloji paradiqm vardır: 1) Monastırda ibadət edən qadınlar haqqında – «Христово невесты» deyirlər; 2) Çox ağır cinayət törədən, əzab verən bir şəxs haqqında deyilir – « Распять как Иисуса Христа»; 3) Heç bir əziyyət, zəhmət çəkmədən, var-dövlət, cah-cəlal içində zəngin həyat sürən insanlar haqqında deyilir – «Как у христа за пазухой»; 4) Gözlənilməz bir hadisəni ifadə etmək üçün işlədilən frazeoloji paradiqm – «Явление Христа народу»

Azərbaycan dilində Allah sözü ilə düzələn frazeoloji paradiqmlər çoxdur: Allah qorxusu, Allah kəlamı, Allah vergisi, Allaha şükür, Allaha pənah, Allah bəndəsi, Allahın bəlası, Allah haqqı, sən Allah, Allah evi və s. Rus dilində də «Бог» komponenti ilə çoxlu frazeoloji paradiqm işlənir: «страх господний», «слово Божие», «дар Божие», «суд Божий», «храм Божий», «Бог мне свидетель», «Каждый за себя, один Бог за всех» və s.

Frazeoloji paradiqmlərin sistemliliyindən bəhs edərkən, dilin struktur-semantik vahidləri, məna fərqliliyi, çoxmənalılıq, omonimlik, variantlılıq və qrammatik siniflər və onların sintaktik funksiyalarını xüsusi qeyd etmək lazımdır. Ad qruplu frazeoloji paradiqmləri araşdırılması müxtəlifsistemli dillərdə leksik – frazeoloji sinonimliyin, antonimliyin, məna qruplarının, frazeologizmlərin funksional-üslubi diferensiallaşmasının dioxronik tədqiqi məsələsini ortaya qoyur.

Qeyd etdiyimiz kimi, ad qruplu frazeoloji paradiqmlərin öyrənilməsi dilçilikdə xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bu frazeoloji vahidlər tarixi-mədəni hadisələri özündə əks etdirərək, xalqın milli-mədəni irsini dil daşıyıcılarının nitqində kodaşdırılaraq gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır.

### Ədəbiyyat


1. Bayramov H. A. Azərbaycan dilinin frazeologiyasının əsasları. Bakı: "Maarif" nəşriyyatı, 1978. 174 səh.
2. Виноградов В. В. Об основных типах фразеологических единиц в русском языке // Лексикология и лексикография. Избранные труды. М., 1977, с. 119
3. Горбачевич К. С. Об историко-этимологических справках в фразеологическом словаре// Проблемы фразеологии. Исследования и материалы. Под ряд. А.М.Бабкина, М., 1964
4. Кунин А.В. Английская фразеология. М.: Дубна «Феникс», 2005, с. 29-31
5. Шанский Н. М. Фразеология современного русского языка. М., 1987, с. 32


UOT 17:37.01

## Qeyri-normativ davranışlı gənclərin mənəvi şüurunun və mənəvi tərbiyəsinin formalaşdırılması


*Cabbarova Könül Hidayət qızı*
*Mingəçevir Dövlət Universiteti*
*Azərbaycan Respublikası*
*Təhsil Problemləri İnstitutunun dissertantı*


Azərbaycan Respublikası müstəqillik yolu ilə inamla irəlilədiyi, demokratik, hüquqi, sivil və açıq cəmiyyət qurduğu bir vaxtda milli-mənəvi dəyərlərin qorunması və gənc nəslə aşılanması xüsusilə aktuallıq kəsb edir. Ulu öndərimiz Heydər Əliyev gənclərin mənəvi tərbiyəsi haqqında,

mənəviyyat haqqında Azərbaycan Gənclərinin Birinci Ümumrespublika Forumundakı nitqində belə demişdir: "Xalqımızın tarixinin əsasını təşkil edən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır. Gənclərimizin qarşısında duran əsas vəzifələrdən biri mənəvi tərbiyə məsələsidir... mənəvi tərbiyəni daim aparmaq lazımdır və gənclərimizi yüksək mənəviyyat ruhunda tərbiyələndirmək lazımdır. Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz... Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz" [1].

Mənəviyyat insanın olduğu kimi görünməsi, göründüyü kimi olmasıdır. Mənəviyyat insanın daxili aləminin zənginliyinin göstəricisidir. Mənəvi cəhətdən zəngin insanın sağlamlığı da mükəmməl olur. Mənəvi cəhətdən zəngin insan həyatdan zövq alır və rahat yaşayır. Mənəvi cəhətdən zəngin insan hər cür çətinliyə dözə bilir, ən çətin anlarda belə düzgün qərarlar çıxara bilir [2].

Müasir dövrümüzdə risk qrupuna daxil olan gənclərin sayının artması deviant davranışın müxtəlif təzahür formalarının artmasına və sosial cəhətdən cəmiyyətə uyğunlaşmayan əhali təbəqəsinin genişlənməsinə səbəb olur.

Gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir. Dünyanın hər bir ölkəsində gənclər sosial-iqtisadi inkişafın aparıcı qüvvələrindən biri, cəmiyyətdə islahatları hərəkətə gətirən zümrə və yaşlı nəslin davamçısı hesab olunur. Gənclər cəmiyyətin ən fəal təbəqəsi olmaqla ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir, ölkədə baş verən bütün proseslərin mərkəzində dayanırlar. Nəsillər dəyişir, ölkələr inkişaf edir, ənənələrin, milli dəyərlərin qorunub saxlanılması gənc nəslin milli ruhda tərbiyə olunması isə qloballaşma şəraitində böyük aktuallıq kəsb edir.

Ümumiyyətlə, 2015-ci ilin statistik göstəricilərinə nəzər salsaq görərik ki, Azərbaycanda ölkə əhalisinin 2,7 milyon nəfərini və ya 28,1 faizini gənclər təşkil etmişdir. Gənclərin 52 faizi şəhər yerlərində, 48 faizi isə kənd yerlərində yaşayır. Gənclərin 49 faizini qadınlar təşkil edir.15-19 yaşlı gənclərin sayı isə 7,6 faiz olmuşdur.2014-2015-ci tədris ilində dövlət və qeyri-dövlət ümumtəhsil məktəblərinin 10-11-ci siniflərində təhsil alan şagirdlərin sayı 183,008 nəfər təşkil etmişdir [5].

Son zamanlar gənclər, xüsusəndə yuxarı sinif şagirdləri arasında böyüklərə qarşı olan nihilizm(hər şeyin səbəbsiz və dəlilsiz inkar edilməsi) halları böyük vüsət almışdır.Bunun nəticəsi olaraq, müasir cəmiyyətimizdə ümumtəhsil müəssisələrinə, sosial institutlar və şagird şəxsiyyətinin sosiallaşmasına imkan yaradan qurum kimi yüksək tələblər irəli sürülür.

Yuxarı sinif şagirdlərinin qeyri normativ davranış xüsusiyyətlərinə təsir edən bir sıra amillər mövcuddur, bunlar: yaş, dəyişkənlik, sosial-mədəni mühit, şagird kollektivinin özünəməxsusluğudur [2]. Qeyd olunan amillər gənclərin mənəvi şüuruna və tərbiyəsinə silinməz izlər buraxır. Mənəvi şüurda cəmiyyətdə baş verən hadisələr və insanların fəaliyyəti öz əksini tapır. Mənəvi şüurun əsas formaları eyib, vicdan, məsuliyyət, borc və s. Bu formalar arasında ən sadəsi eyib, ən universalı isə vicdandır, lakin borc və məsulliyyət mənəvi şüurun yüksək diferensiallaşmış formalarıdır. Bizim fikrimizcə, qeyd olunan keyfiyyətlərin müasir şagird şəxsiyyətində formalaşması gənclər arasında deviant davranışın özünəməxsus profilaktikasıdır. Xüsusi olaraq vurğulamaq lazımdır ki, gənclərin mənəvi tərbiyəsinin əsas vəzifələri mənəvi şüur vahidliyinin və davranışın, mənəvi əqidənin formalaşdırılmasıdır.

Yuxarı sinif şagirdlərinin mənəvi şüurunun inkişafında əsas aspektlər şəklində biliklərin səviyyəsi, əxlaq normalarının həyata keçirilməsi ehtiyacının zəruriliyi, şəxsiyyətin əxlaqi keyfiyyətlərinin formalaşması, öz davranışında mənəvi prinsipləri və normaları rəhbər tutmaq ehtiyacı və bacarığı çıxış edir. Qeyd olunan aspektlərin reallaşması fasiləsiz xarakter daşımalı və ümumtəhsil məktəblərində dərs və dərsdənkənar vaxtlarda həyata keçirilməlidir.

Milli-mənəvi şüurun, dəyərlərin, tərbiyənin formalaşdırılması üzrə işlər bir sıra humanitar və sosial fənlərin (tarix, coğrafiya, ARKonstitusiyasının əsasları və s.) tədrisi prosesində mümkün ola

bilər. Bu fənlərin tədrisi zamanı şagirdlərdə dünyagörüşünün, vətənpərvərlik şüurunun və tərbiyəsinin, mənəvi ehtiyacların, ədalətlilik ideallarının və davranış mədəniyyətinin formalaşmasına xüsusi yer ayrılır.

Mənəvi tərbiyəliliyin qiymətləndirmə və özünüqiymətləndirmə səviyyəsinin meyarlarıaşağıdakılar ola bilər:

- gənclərdə elmi dünyagörüşünün mövcudluğu;
- şagirdlərdə daxili azadlıq hissinin olması;
- özünütəsdiqləmə arzusu;
- təhsildə uğurun qazanılması;
- özünüqiymətləndirmənin adekvatlığı;
- ali mənəviyyat prinsiplərinin davranış motivləri ilə vəhdətdə formalaşdırılması [3].

Beləliklə, deviant davranış problemi bütöv cəmiyyətin problemidir və onun həlli cəmiyyətin və dövlətin mənəvi inkişfına uğurlu təsir göstərir. Bununla əlaqədar olaraq, müasir gənclərin mənəvi inkişafı müasir cəmiyyətin ehtiyacını əks etdirən xüsusi məna daşıyır.

## Ədəbiyyat


1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Beşinci kitab**:** noyabr, 1995, mart, 1996 / bur. məsul R. Mehdiyev. Bakı: Azərnəşr, 1998, 500 səh.
2. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika. 2 cilddə: 2-ci cild. Bakı: Mütərcim, 2013, 548 səh.
3. Быкова Е.А. Развитие нравственного сознания студентов как фактор профилактики девиантного поведения / Отклоняющееся поведение человека в современном мире: проблемы и решения:Материалы Международной заочной научно-практической конференции. Владимир: Владимирский государственный университет, 2010, с. 351-356.
4. Крапивко Е.Н. Особенности возникновения социокультурных девиаций в студенческой среде / Перспектива - 2006: Материалы Всероссийской научной конференции студентов, аспирантов и молодых ученых. Нальчик: Изд-во КБУ, 2006, с.163-165.
5. Azərbaycan gəncləri 2015. [Elektron resurs]. http://www.stat.gov.az/source/demoqraphy/ay


UOT 37.013

## Müəllim hazırlığında tərbiyənin rolu


*Mingəçevir Dövlət Universiteti*
*Yusubova Xatın Milan qızı*


Respublikamızda aparılan təhsil islahatları, Bolonya təhsil prosesinə və kredit sisteminə keçid, təhsilimizdə baş verən yeniliklər və təhsilimizin dünya standartlarına uyğunlaşması, xüsusilə ali pedaqoji təhsilin ardıcıl olaraq təkmilləşdirilməsi yüksək ixtisaslı müəllim kadrlarının hazırlığına, məktəbdə təlim və tərbiyə işlərinin təşkilinə yeni qaydalarla yanaşmağı tələb edir. Bu gün Azərbaycan Respublikasının ümumtəhsil və ali məktəbləri qarşısında son dərəcə böyük, şərəfli vəzifələr durur. Müasir gənclərimizə Azərbaycan mənəviyyatı, Azərbaycan mentaliteti, dili və ədəbiyyatı, Azərbaycan tarixi, Azərbaycan coğrafiyası, incəsənəti, habelə zəngin maddi və mənəvi sərvətlərimiz barəsində dərin və hərtərəfli biliklər verilməli, yetişən gənc nəsildə yüksək mədəniyyət, mənəviyyat, vətənpərvərlik hissləri formalaşdırılmalıdır. Ulu öndərimiz, xalqımızın ümummilli lideri Heydər Əliyev məhz bu məsələlər barəsində dəfələrlə çox dəyərli fikirlər söyləmiş və təhsilimizin qarşısında böyük vəzifələr qoymuşdur: "Biz keçmişlərdən fərqli olaraq indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırıq və məktəbdə, universitetdə formalaşan gənc Azərbaycanın gələcək fəal vətəndaşı gərək birincisi,

mənəviyyatca saf olsun. Ona görə də, gərəк mənəvi saflıq ali məкtəblərdə, orta məкtəblərdə höкm sürsün. Gərəк o, vətənpərvərliк hissi ilə yaşasın, vətənpərvərliк hissi ilə tərbiyə olunsun. Ona görə də, gərəк onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər". Göründüyü kimi, dahi rəhbərimiz ali və ümumtəhsil məktəblərimizdə tərbiyə işinə, mənəvi, əxlaq tərbiyəsi məsələlərinə nə qədər böyük önəm vermiş və bu sahədə nəinki tələbə və məktəblilərin, həmçinin müəllimlərin qarşısında mühüm vəzifələr qoyulmuşdur. Müstəqil Azərbaycan Respublikası Gənclərinin birinci Forumunda Heydər Əliyev gənclərin qarşısında çox əhəmiyyətli, proqram mahiyyətli tələbli vəzifələr qoymuşdur. O vəzifə və tələblər hər bir tələbə - gənc üçün və gənc nəslin təlim və tərbiyəsi ilə məşğul olanlar üçün rəhbər tutulmalı və daim öz fəaliyyətində ona əsaslanmalıdır. Heydər Əliyev Azərbaycan Gənclərinin Birinci Ümumrespubliкa Forumundaкı tarixi nitqində belə demişdir: "Xalqımızın tarixinin əsasını təşкil eləyən bütün mərhələlərdə, кeçmiş əsrlərdə yüкsəк mənəviyyat olmuşdur. Кeçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüкsəк mənəviyyatıdır, yüкsəк amallarıdır. Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, кeçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz". Bu müdriк fiкirlərdən irəli gələrəк, yetişməкdə olan gənc nəslin milli-mənəvi ruhda tərbiyəsi, təlim və tərbiyə işlərinin milli zəmin üzərində qurulması, tariximizin, mədəniyyətimizin, pedaqoji fiкrimizin, zəngin mənəvi irsimizin öyrənilməsi əsas amillərdəndir. Təhsilin bakalavr pilləsində ali pedaqoji təhsil sahəsində dərin ixtisaslaşma tələb edən bir sıra ixtisas fənlərinin tədrisinə yeni baxımdan yanaşılmasına zərurət yaranmışdır. Bakalavr təhsilini başa vurmuş gənc mütəxəssis, gənc müəllim-pedaqoq məktəbdə təlim işi ilə məşğul olmaqla yanaşı, öz ixtisası dairəsində şagirdlərə dərin bilik verməklə bərabər, həm də uşaqlar arasında geniş, tərbiyəvi işlər aparmalıdır. O həm bir müəllim, həm də bir bir sinif rəhbəri, tərbiyəçi kimi fəaliyyət göstərir. O, məktəbin tərbiyə işləri üzrə təşkilatçısı vəzifəsinə təyin oluna bilər. Bu baxımdan «Tərbiyə işinin metodiкası» fənni bakalavr pilləsində təhsil alan tələbələrə ümumtəhsil məкtəblərində, məktəbəqədər tərbiyə müəssisələrində şagirdlərlə, uşaqlarla aparılacaq tərbiyə işlərinin sistemi, planlaşdırılması, tərbiyə işlərinin təşкili, hazırlanması və həyata кeçirilməsi metodiкası haqqında nəzəri biliкlərin və praкtiк bacarıqların verilməsini nəzərdə tutur. Bu кursun başlıca vəzifəsi ali pedaqoji təhsilin bakalavr pilləsində təhsil alan tələbələrin tərbiyə işlərinin metodiкası üzrə biliк, bacarıq və vərdişləri pedaqogika fənnindən aldıqları biliklər əsasında daha da dərinləşdirməк, genişləndirməк və ümumtəhsil məкtəblərində, habelə digər təlim-tərbiyə müəssisələrində həyata кeçirilən tərbiyəvi məsələlərin кonкret və yaradıcı şəкildə həll etməк texniкasına və texnologiyasına yiyələnməsi məqsədini güdür. Tələbələr tərbiyə işlərinin nəzəri məsələlərinin praкtiк həlli yollarını öyrənməli, təlim və tərbiyə müəssisəsində tərbiyəçiliк fəaliyyətinin bütün istiqamətlərini mənimsəməlidirlər. Onlar bir sıra nəzəri məsələlərlə yanaşı, məкtəbdə həyata кeçirilən tərbiyə işlərinin təşкilinin formaları, metodları, səciyyəvi xüsusiyyətləri ilə tanış olmalı və nəzəriyyə ilə təcrübənin qarşılıqlı əlaqə imкanlarını, yeni texnologiyaları öyrənməlidirlər. Nəzərə almaq lazımdır кi, müəllim məktəbdə həm təlim işini, həm geniş tərbiyə işi aparır. O, təкcə sadəcə olaraq dərs deyən, şagirdlərə elmlərin əsaslarını mənimsətməklə öz işini məhdudlaşdıran didaкt deyildir. Müəllim gələcəк cəmiyyətin memarı və qurucusu кimi gənc nəsli həyata və gələcəк cəmiyyətə hazırlamaq кimi, vətənpərvər gənclər yetişdirmək kimi müqəddəs bir vəzifəni yerinə yetirir. Bu vəzifənin müvəffəqiyyətlə həyata кeçirilməsi isə müəllimin pedaqoji ustalığından və təcrübəçiliк fəaliyyətindən əsaslı surətdə asılıdır. Buna görə də müasir dövrdə müəllimlərin ixtisas hazırlığı ilə yanaşı, tərbiyəvi işlərin təşkili və aparılmasının forma və metodları haqqında onların praкtiк həlli yolları haqqında dərin biliк və bacarıqlara maliк olmaları mühüm əhəmiyyət kəsb edir. Proqramda müasir dövrdə təlim tərbiyə müəssisəsində, xüsusilə ümumtəhsil məкtəbində aparılacaq tərbiyəvi işlərin nəzəri-metodiк məsələləri nəzərdə tutulmuş və planlaşdırılmışdır. Bu кurs gələcəк yüкsəк ixtisaslı mütəxəssislərin tərbiyəvi işlərin nəzəri məsələləri ilə tanışlıqlarını daha da dərinləşdirməklə yanaşı, məкtəbdə həyata кeçirilməsi zəruri olan praкtiк tərbiyəvi işlərin həlli yollarının onlar tərəfindən hərtərəfli mənimsənilməsində mühüm əhəmiyyət кəsb edəcəкdir. Nəzərə almaq lazımdır

кi, həm baкalavr, həm də magistratura pillələrində tələbələr “Pedaqogiкa” кursu vasitəsilə tərbiyəçiliк fəaliyyətinin bir sıra sahələri ilə müəyyən qədər tanış olurlar. Tərbiyə prosesi, onun prinsipi və üsulları, əsas tərкib hissələri və s. haqqında ətraflı biliкlər alırlar. Laкin bu кurs ayrı-ayrı tərbiyəvi tədbirlərin hazırlanması və кeçirilməsi metodiкası haqqında geniş imкana maliк olmadığından belə bir vəzifənin həlli “Tərbiyə işlərinin metodiкası”nın üzərinə düşür.

## Ədəbiyyat


1. Ağayev Ə.Ə. Heydər Əliyev irsində vətəndaş tərbiyəsi məsələləri. “Azərbaycan məktəbi” jurn. 2005, № 3
2. Ağayev M.H. Təlim-tərbiyə prosesində Heydər Əliyev irsindən istifadə (Metodik vəsait). Bakı: ADPU, 2009
3. Əliyev P.B., Əhmədov H.H. Təhsil müəssisələrində tərbiyə işinin təşkili. Bakı: ABU, Təhsil, 2006
4. Əlizadə H.Ə., Qasımova L.N, Əliyev B.H. Məktəbdə tərbiyə işinin metodikası. Bakı: BDU nəşriyyatı, 1990


UOT 008:14

# Qloballaşma: milli dövlətçilik, milli-mənəvi dəyərlər

*Qarayev Telman Abbas oğlu*
*Mingəçevir Dövlət Universiteti*

“Bizim hamımızın bir vətəni var – bu, Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır. Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır” [4].

Azərbaycançılıq ruhunda olan bu qiymətli ifadənin müəllifi müasir Azərbaycan dövlətinin qurucusu, respublikamızın sabiq prezidenti mərhum Heydər Əliyevdir. Öz əməli, fəaliyyəti, gördüyü saysız faydalı işlərlə azərbaycançılığa xidmət edən Heydər Əliyev milli-mənəvi dəyərlərin qorunmasında, onların xalq, xüsusən də gənc nəslə tanıdılmasında xüsusi xidmətlər göstərib.

Tədqiqatçılar bildirir ki, Heydər Əliyev bu sahədə olduqca böyük işlər görüb və bu işlər azərbaycançılıq ideyasının təbliğinə güclü təkan verib.

“Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz” mövzusuna həsr edilən metodiki vəsaitin müəllifi qeyd edir ki, milli-mənəvi dəyərlər və azərbaycançılıq hər bir Azərbaycan vətəndaşı üçün doğma və müqəddəsdir. Bu həm də milli şüurun simvolu olaraq tarixi yaddaşın fundamental prinsiplər əsasında formalaşması deməkdir: "Xalqımız, millətimiz keçmişin bütün buxovlarından azad olduqdan sonra əlindən zorla alınmış milli-mənəvi dəyərlərin formalaşmasına yeni zəmin yarandı. Müasir tariximizin səhifələrində yer almış milli oyanış dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olması xalqımızın milli dəyərlərə sadiqliyinin nümunəsidir. 1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi baryerlərə sinə gərərək Azərbaycan xalqının milli özünüdərki üçün bütün zəruri tədbirləri həyata keçirməyə başlamış, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağı bacarıb. Ulu öndər xalqda milli heysiyyəti gücləndirmək, onu öz şanlı keçmişinə, soykökünə qaytarmaq, habelə zəngin bədii irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün bir sıra aşkar-gizli tədbirlər həyata keçirib. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan

xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın-azərbaycançılığın təşəkkül və inkişafına müstəsna diqqət verib" [2].

Milli-mənəvi dəyərlərimiz xalqımızın simasında zaman-zaman yaşamışdır. Bizi başqa xalqlardan, millətlərdən fərqləndirən də elə bir çox məqamda milli-mənəvi dəyərlərimiz, mədəniyyətimizdir. Bu mənada Azərbaycan ailəsi də başqa ailələrdən fərqlənir. Ailələrimizdə böyüyə hörmət, ata-anaya sevgi, kiçiklərə qayğı əsas göstəricilərdəndir. Bizim gələcək nəsillərə örnək olan əxlaq, tərbiyə simvolu, məhəbbət etalonu kimi daim hörmətlə anılan nümunəvi ailələrimiz çoxdur. Bu ailələr Azərbaycan xalqına sözün həqiqi mənasında böyük şəxsiyyətlər, dahilər bəxş etmişdir.

Ümummilli lider xalqın qədim mili-mənəvi dəyərlərini müasirliklə bağlayaraq deyirdi: Həyatda uğurla yaşamaq üçün xalqımızın, millətimizin milli-mənəvi dəyərlərinə sadiq olmaq lazımdır, bu milli-mənəvi dəyərləri ümümbəşəri dəyərlərlə birləşdirib müasir həyat tərzi keçirmək lazımdır.

Milli-mənəvi dəyərlərimizin qorunmasında Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın həyata keçirdiyi çoxşaxəli layihələr də diqqətçəkəndir. Fond Azərbaycanın muğam sənətinin, eləcə də çoxəsrlik abidələrinin qorunması, mədəniyyətimizin ölkə hüdudlarından kənarda təbliğinə böyük qayğı göstərir.

Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə,öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik (H.Əliyev) [1].

Ulu öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı müdrik dövlət başçısı kimi milli mədəniyyətə, mənəvi irsə qayğısı, verdiyi dəyər onun əməli fəaliyyətinin hər bir sahəsində özünü göstərir. Ümummilli liderimiz vaxtilə çıxışlarının birində deyirdi: "Dünyada yaşayan azərbaycanlılar öz ana dilini, dinini, milli ənənələrini heç zaman unutmamalıdır. Hər bir azərbaycanlı fəxr etməlidir ki, onun böyük tarixə, qədim, zəngin mədəniyyətə malik olan Azərbaycan kimi vətəni vardır" [5].

Milli dəyərlərimizə, soykökümüzə qayıdışın, milli hisslərimizin oyanışının xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu sahəni diqqət mərkəzində saxlayan ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə xalqımızın milli intibahının əsası qoyulmuşdur.

Siyasi hakimiyyətə gəlişinin ilk günlərindən hər cür ideoloji-siyasi əngəllərə sinə gərərək Azərbaycan xalqının milli özünüdərki üçün bütün zəruri tədbirləri həyata keçirməyə başlayan ulu öndər, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağı bacarmışdır. Ümummilli liderimiz xalqda milli heysiyyəti gücləndirmək, onu öz şanlı keçmişinə, soykökünə qaytarmaq, habelə zəngin bədii irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün bir sıra tədbirlər həyata keçirmişdir.

Heydər Əliyev müstəqillik illərində gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, xalqımızın milli-mənəvi irsini özündə yaşadan ideyanın- azərbaycançılıq ideyasının da təşəkkül və inkişafına xüsusi diqqət yetirirdi. Onun vaxtilə söylədiyi və bütün dünya azərbaycanlıları üçün həmişə bir fəaliyyət devizi olacaq bu fikri nə qədər dərin və mənalıdır: "Hər bir azərbaycanlı mənsubiyyətinə görə qürur keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini yaşatmalıyıq".

Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan ulu öndər deyirdi: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir". Milli dəyərlərimizə dərindən bələd olan ümummilli liderimiz xarici ölkələrə səfərləri zamanı soydaşlarımızla görüşlərində onlara harada yaşamalarından asılı olmayaraq azərbaycançılıq ideologiyasına sadiqliyi, xalqımıza xas olan adət-ənənələrimizi yaşatmağı, təbliğ etməyi tövsiyə edirdi: "Bizim hamımızın bir Vətəni var - bu, Azərbaycandır. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır".

Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də öz aktuallığını qoruyub saxlayır. Ali məktəblərdə, ümumiyyətlə təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır. Mən bütün müəllimlərimizdn rica edirəm ki, bu prinsipi özlərinin fəaliyyətində, öz həyatında da əsas tutsunlar, gənlərimizi də yüksək mənəvi ruhda tərbiyələndirməyə, hazırlamağa çalışsınlar" (H.Əliyev) [3].

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına və inkişafına çox mühüm diqqət və qayğı göstərir.

Bu gün dövlət milli dəyərlərimizin qarantına çevrilmişdir. Ölkə başçısı xalqımızın milli dəyərlərinin təbliğinə, gənclərimizin bu ruhda tərbiyə olunmasına ciddi diqqət yetirir. "Gələcək nəsillərə maddi sərvətlər və iqtisadi mirasla yanaşı, həm də daha çox milli irs, milli mentalitet ərməğan edilməlidir" prinsipi əsas götürülür. Prezident İlham Əliyevin konsepsiyasına görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz milli dövlətçilikdir.

Müasir dövrdə ən aktual problemlərdən biri qloballaşma prosesi ilə milli adət-ənənələr arasında optimal nisbətin tapılmasıdır. Qloballaşma prosesi elm, texnika, texnologiya ilə ümumbəşəri dəyərlərlə yanaşı, milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə də düşünülmüş şəkildə, ya da qərəzsiz – sirayət etməyə cəhd göstərir. Belə bir şəraitdə ilk növbədə nələri qorumaq lazım olduğunu,məhz hansı məsələlərdə məqsədyönlü surətdə ənənələri saxlamaq, hansı yöndə isə yenilikləri qəbul edib tətbiqinə nail olmaq düşünülmüş konsepsiya tələb edir. Bunu qəlizləşdirən məqamlardan biri də Qarabağ probleminin sülh yolu ilə həllinə çalışan Azərbaycan dövlətinin qarşısına atıla süni əngəllər, ikili standartlar, ölkənin hər sahədə sürətli inkişafına qısqanclıqdır.

Onu da nəzərə almaq lazımdır ki, ölkəmiz iki əsrə yaxın çar Rusiyasının və Sovet İttifaqının tərkibində qalmaqla bir çox milli və dini adət-ənənələrimiz təzyiqlər altında saxlanılıb və bu, şüurlara təsirsiz ötüşməyib. Müstəqillik əldə etdikdən sonra da dövlətimiz müxtəlif təzyiq vasitələri ilə, ikili standartlarla üzləşməli olur. Mövcud vəziyyət hər cür milli-mənəvi dəyərə sahib Azərbaycan xalqının səbrli, xarici və daxili hiylələrə uymamağı, vahid qüvvə kimi dövlətçiliyin tələbləri kontekstində birləşməyi tələb edir. Bu istiqamətdə hər bir Azərbaycan vətəndaşının üzərinə vəzifə düşür.

## Ədəbiyyat


1. "Azərbaycan" qəzeti, 14 avqust, 2011-ci il
2. Əfəndiyev T. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. Bakı, 2011, 270 səh.
3. Əliyev Heydər: Mənəviyyat, mənəvi dəyərlər, mənəvi tərbiyə. Bakı: "Müəlim", 2008, 637 səh.
4. http://www.baki-xeber.com
5. http://www.fhn.gov.az
6. http://www.tehsilproblemleri.com


UOT 82.02

## Sənətkarlıq anlayışı və ədəbi əsərin öyrədilməsində mövqeyi

*Hüseynova Pərvin Ağabala qızı*
*Mingəçevir Dövlət Universiteti*

Ədəbi əsərin tədrisində ən mühüm məsələ nə və necə suallarına cavab verən cəhətlərin aydınlaşdırılıb şagirdlərə öyrədilməsidir. Ədəbiyyatşünaslıqda nə sualına cavab verən cəhətə

məzmunu, yaxud əsərin daxili formasını daxil edirlər [3]. Necə sualına cavab verən məsələlərə isə məzmunu ifadə edən forma cəhətlərini, yaxud formanı və ya əsərin xarici formasını aid edirlər [3]. Həm birinci, həm də ikinci cəhətin izahına elmi, metodik əsərlərdə geniş yer verilir. Lap qədimdən bu iki cəhətin bir-biri ilə üzvi şəkildə bağlı olduğu göstərilmiş və onlar birlikdə tədqiq olunmuşlar. Lakin sonralar, xüsusilə, XVIII əsrdən başlayaraq onların hər biri ayrılıqda öyrənilməyə başlanmışdır. İstər məzmun, istərsə də forma anlayışları barədə hamının qəbul etdiyi ümumi mövqelər olsa da, onların hər birinin spesifik xüsusiyyətləri barədə bir – birindən fərqlənən fikirlər də olmuşdur.

Bununla əlaqədar elmi-metodik ədəbiyyatda bir-birinə yaxın, müəyyən mənada sinonim olan üç termin işlədilir: Forma, bədiilik və sənətkarlıq. Bunların hər üçünü şərh etmək vacibdir. Çünki bu anlayışların məzmunu haqqında konkret, aydın təsəvvürə malik olmadan araşdırdığımız sənətkarlığın öyrədilməsi məsələsini dərinliyi ilə nəzərdən keçirmək mümkün deyildir.

Ədəbi əsərlərdə forma nədir? Onun hansı komponentləri vardır? Elmi əsərlərdə bu suallara bir – birindən fərqli cavablar verilir. Bəzən forma anlayışı ədəbi əsərin bəzi komponentləri ilə məhdudlaşdırılır. Hegel göstərirdi ki, “forma məzmunun özündə ifadə olunur və müəyyən mənada onun zahiridir” [4]. Bununla belə, onların bəzisi formanın yalnız müəyyən elementlərini ifadə edir, bəzisi isə çox ümumi xarakter daşıyır. Məsələn, Hegelin fikri təkcə ədəbi əsərlərə deyil, bütünlüklə incəsənətə aiddir.

Forma haqqında nisbətən sadə izah professor Abbas Hacıyevin “Ədəbiyyatşünaslığın əsasları” kitabında verilir. A.Hacıyev yazır: “Forma məzmunun ifadə vasitəsidir. Formasız əsərin varlığı, bədii-fikrin bütövlüyü, gerçəkliyin duyulması və hiss olunması mümkün deyildir. Forma- formanın ünsürlərinin, bədii təsvir və ifadə vasitələrinin köməyi ilə yaranır. Bizim fikrimizcə, burada formanın təkcə “bədii təsvir və ifadə vasitələrinin” köməyi ilə yaranması fikri birtərəflidir. Ona görə də A.Hacıyev kitabın başqa bir yerində bu fikri tamamlayaraq yazır: “Əsərin dili və janrı, təsvir və ifadə vasitələri, şeirin vəzni, süjet və kompozisiya formaya aiddir” [1].

Forma bədiilik və sənətkarlıq terminlərinə nisbətən daha geniş anlayışdır. Təsadüfi deyil ki, formadan bəhs edənlərin, demək olar, hamısı onu ədəbi cövhərini təşkil edən məzmunla əlaqədar nəzərdən keçirirlər və göstərirlər ki, “məzmun yazıçının həyati hadisələri təsvir etməsini, iştirak edən surətlərin xarakterini, süjet hadisələrini, əsərin kompozisiyasını və dilin, yəni ədəbiyyatın formasını müəyyənləşdirir və əsaslandırır. Forma vasitəsilə həyati hadisələr, kompozisiya, süjet, dil, ümumiyyətlə məzmun dolğunluğu ilə və hərtərəfli əks olunur” [3].

Məktəbdə ədəbi əsərin formasının öyrənilməsi məsələsinə gəldikdə qeyd etmək lazımdır ki, bütün hallarda o, məzmunla əlaqələndirilməlidir. Yəni, əsərin formasını, nə ilə ifadə olunduğunu göstərməklə yanaşı nəyi ifadə etdiyinə də diqqət yetirmək lazımdır.

Əgər forma dedikdə ədəbi əsərin maddiləşdirən məsələlər – kompozisiya, dil, janr forması və s. nəzərdə tutulursa, bədiilik dedikdə formanı təşkil edənlərin keyfiyyəti nəzərə alınır. Bədiiliyin dərəcəsi bu ünsürlərin keyfiyyət dərəcəsi ilə, başqa sözlə, yazıçının seçdiyi mövzunu, əhvalat və hadisəni, hiss və düşüncələri nə dərəcədə təsirli ifadə etməsi ilə ölçülür.

Bədiilik anlayışının məzmunu haqqında müxtəlif fikirlər var. L.İ.Timofeyev belə hesab edir ki, bədiiliyi aşağıdakı məsələlər şərtləndirir: 1) ümumiləşdirmənin həqiqiliyi, 2) təsvirin həyatiliyi, 3) xəlqilik. Əlbəttə, bunlar da bədiilik üçün vacib şərtlərdir. Lakin bu fikirlər çox ümumidir, çox ümumi cəhətləri əhatə edir.Bu məsələlərin hər biri konkret ifadə formalarında – janrda, bədii dildə, kompozisiyada və s. öz əksini tapır. Başqa sözlə desək, “bədii konkretlik, fərdiləşdirmə, emosionallıq və s. deməkdir” [3]. Məktəbdə ədəbi əsərin bədiiliyi öyrənilərkən məhz belə konkret elementlər üzərində dayanmaq lazımdır.

Şəmistan Mikayılov və Şəhla Şəmiyeva yazırlar: “Əsərdə bədiilik müxtəlif yollarla yaranır: sözlər məcazi məna daşıyır; sözün qrammatik sırası qəsdən pozulur, poetik sintaksis əsas götürülür; bir əşya müəyyən əlamətinə, yaxud xüsusiyyətinə görə başqa bir əşya ilə müqayisə edilir; portret yaradılır, rəmzlərdən istifadə olunur, müxtəlif haşiyələr çıxılır, qeyri – insani varlıqlar şəxsləndirilir, nitqləndirilir və s.” [8]. Camal Əhmədov isə yazır: “Bədii xüsusiyyətlərə yalnız əsərin bədii dil xüsusiyyətləri, əsərdə sənətkarın bədii təsvir vasitələrindən istifadə etməsi deyil, yazıçının süjet və

kompozisiya qurmaq, tipik hadisə, bir – birindən fərqlənən qüvvətli insan xarakterləri yaratmaq bacarığı, bədii ümumiləşdirmələri və s. xüsusiyyətləri də daxildir" [2].

Beləliklə, bədiilik o zaman olur ki, forma məzmunu parlaq ifadə edir, yəni əsəri oxuyanda fikir, düşüncə, emosiya yaranır. Bu isə o zaman mümkündür ki, yazıçının hər şeydən əvvəl istedadı olsun, oxucu qarşısında məsuliyyətini hiss etsin, əsəri dönə - dönə düşünüb, "yaşayıb" yaratsın, ən aktual məsələləri qələmə alsın, parlaq obrazlar yaratsın.M.Füzulinin dediyi kimi, gündüz axşama qədər düşüncə dəryasına dalıb, söz almazı ilə mənalar gövhəri deşsin, yazılan əsər anlaşılmırsa, xoşa gəlməzdirsə onu oxucuların ixtiyarına verməyəsən" [5].

Göründüyü kimi, bədiiliyə ədəbi yaradıcılıq vasitələri ilə, başqa sözlə, sənətkarlıqla nail olmaq mümkündür. Sənətkarlıq bədiilik yaradan vasiətələrdir. Təsadüfi deyil ki, bir çox hallarda "sənətkarlıq" sözü "bədii" sözü ilə birlikdə, yanaşı işlədilir.

Sənətkarlıq anlayışının məzmununu Soltan Əliyev daha dolğun ifadə etmişdir. O yazır: "Bədii sənətkarlıq məsələləri bütövlükdə yaradıcılıq prosesini əhatə edir və ona müəyyən qəlib kimi baxmaq, yazıçının ixtiyarında olan hazır texniki forma, üsul və priyomların cəmi kimi qiymət vermək olmaz. Mövzu seçimindən başlamış obrazlar sisteminin yaradılmasına, əsərin ideya istiqamətinin müəyyənləşməsinə qədər bütün məsələlər yazıçı sənətkarlığının, hünərinin göstəricisidir və onların ciddi təhlili bütövlükdə sənətkarlıq haqqında aydın təsəvvür oyadır" [7].

Sənətkarlıq anlayışına mövzunun necə seçilməsi, onun hansı mövqedən təsviri, obrazın necə yaradılması, kompozisiya, bədii dil, janr formasının necə işlənməsi kimi məsələlər daxildir.

Sənətkarlıq xüsusiyyətlərinin ədəbi əsərin tədrisi prosesində öyrədilməsi son dərəcə vacib məsələlərdən biridir. Qeyd edildiyi kimi, sənətkarlıq bir sıra məsələləri əhatə edir. Əsərin tədrisində onların hamısını öyrətmək mümkün deyil. Buna ehtiyac da yoxdur. Əsərdə hansı cəhət əsasdırsa, əsərin mənimsənilməsi üçün mühümdürsə onun üzərində dayanmaq lazımdır. Təcrübə göstərir ki, yuxarıda göstərilən məsələlərdən dil və kompozisiya məsələləri daha vacibdir və daha çox onların öyrənilməsinə diqqət yetirilməlidir.

Sənətkarlıq məsələlərinin öyrədilməsində aşağıdakı məsələlər aydın olmalıdır. Sənətkarlıq məsələlərinin öyrədilməsi dedikdə nələr nəzərdə tutulmalıdır? Sənətkarlıq məsələləri əsərin tədrisinin hansı mərhələsində öyrədilməlidir? Sənətkarlıq məsələləri hansı yollarla, üsullarla şagirdlərə mənimsədilməlidir?

Yazıçı sənətkarlığı ilə əlaqədar nələr öyrədilməlidir? Sualına görkəmli rus metodistlerinin fikrincə aşağıdakı cəhətlər daxildir:

1. Yazıçının həyatı hadisələrə çevik reaksiya verməsi
2. Həyatdakı yeniliklərin necə əks etdirilməsi
3. Əsərin kompozisiyasının necə tərtib edilməsi
4. Obrazın xarakterinin necə yaradılması, psixoloji təsvir
5. Təbiət, əşya, mühitin təsviri
6. Bədiilik

Sənətkarlıq məsələlərinin əsərin tədrisinin hansı mərhələsində öyrədilməsiməsələsinə gəldikdə, metodik ədəbiyyatda iki fikir söylənilir. Bəziləri belə hesab edir ki, məzmun sənətkarlıq elementlərində ifadə olunduğuna görə əsərin təhlilinə sənətkarlıq məsələlərinin izahı, öyrənilməsi ilə başlamaq lazımdır. Başqa sözlə, sənətkarlıq məsələləri əsərin təhlili prosesində həyata keçirilməlidir.

Fikrimizcə, sənətkarlıq məsələləri əsərin öyrədilməsinin bütün mərhələlərində öyrədilə bilər. Bu əsərin xüsusiyyətindən və qarşıya qoyulan məqsəddən asılıdır.

Sənətkarlıq məsələlərinin öyrədilməsində mühüm məsələlərdən biri də hansı üsul və proyomlardan istifadə olunması məsələsidir. Həm elmi – metodik ədəbiyyatdan, həm də məktəb təcrübəsindən məlum olur ki, sənətkarlığın öyrədilməsində bütün üsul və priyomlar faydalıdır. Onların bəzisi sənətkarlığı duymağa, onun ifadə etdiyi məzmunu dərindən qavramağa, oradakı fikir və düşüncələri, hiss və duyğuları özününkiləşdirməyə kömək edir. Bəziləri isə məntiqi, əqli əməliyyatlarla sənətkarlıq məsələlərini dərk etməyə yardım göstərir. Məsələn, ifadəli oxu, məzmunu söyləmə, mətn üzərində iş və s. birinci qrupa, müəllimin sözü, əsərin təhlili, sual – cavab və s. isə ikinci qrup üsullarla, iş formalarına aiddir.

Bir sözlə, ədəbi əsərlərdəki sənətkarlıq xüsusiyyətlərinin öyrədilməsində təlim metodlarının hamısından istifadə etmək mümkündür. Bu şərtlə ki, onlar yerli–yerində və lazım gəldikdə qarşılıqlı əlaqədə tətbiq edilsin. Bu, bədii əsərlə bağlı bütün məsələlərin, o cümlədən, bədii sənətkarlığın öyrədilməsi üçün mühüm şərtdir.

Bunun necə olduğunu təsəvvür etmək üçün əsərin məzmununun öyrədilməsi mərhələsində tətbiq olunan aşağıdakı sistemi nəzərdən keçirmək olar. Bir qayda olaraq, əsərin tədrisi müəllimin giriş sözü ilə başlanır. Müəllim əsər haqqında ümumi məlumatla yanaşı bədii xüsusiyyətləri, yazıçı sənətkarlığının ən xarakterik cəhətləri barədə də danışır. Bu, müəllimin sözü metodu ilə həyata keçirilir.

Sonra əsər oxunur. Bu həm müəllimin, həm də istedadlı şagirdlərin oxusu ola bilər. Bu iş çox zaman ifadəli oxu üsulu ilə həyata keçirilir. Bu zaman şagirdlər əsərdəki ifadə vasitələrinin ifası yolu ilə sənətkarlıq xüsusiyyətlərini duyur və əksər hallarda onu duyğularla qavrayırlar.

Bundan sonra mətnin qavranılması üzrə sual – cavab aparılır. Bu zaman müsahibə üsulu tətbiq edilir və sənətkarlığın bəzi cəhətləri aşkarlanıb mənimsənilir.

Məzmun söylənərkən də əsərdəki sənətkarlıq məsələləri nəzərə çatdırılır və şagirdlər əsərin müəyyən kompozisiya və dil xüsusiyyətlərini mənimsəyirlər.

Məzmunun mənimsənilməsi prosesində sənətkarlıq məsələlərini öyrənərkən digər təlim üsullarından – şagirdlərin müstəqil işi, kitabdakı mətn üzərində iş və s. də istifadə olunur.

Əsərin təhlili prosesində də bir sıra sənətkarlıq məsələləri üzərində iş aparılır və müəllimin sözü, sual-cavab, şagirdlərin müstəqil işi və s. üsullardan istifadə olunur. Bu mərhələdə sənətkarlıq məsələləri əsasən məntiqi əqli qavrama yolu ilə mənimsənilir.

Əsərin öyrədilməsinin son mərhələsində, buna elmi-metodik ədəbiyyatda “yekun məşğələsi” də deyirlər, həm də şagirdlərin ifadəli oxusu həyata keçirilir ki, bu zaman şagirdlər əsərdəki sənətkarlıq əlamətlərini daha aydın görür və qavrayırlar.

Üsul və vasitələrin seçilməsində bir sıra şərtlərə əməl olunmalıdır. İlk növbədə təlim materialının məzmunu və şagirdlərin idrak fəaliyyətinin xarakteri nəzərə alınmalıdır.

Məlum olduğu kimi, məktəbdə müxtəlif janrlara məxsus, müxtəlif həcmdə olan əsərlər öyrənilir. Onların bir çoxunun ümumi cəhətləri vardır və onlardakı sənətkarlıq məsələləri də bir – birinə uyğundur. Məsələn, vəzn, qafiyə kimi xüsusiyyətlər şeirlərin hamısına aiddir. Deməli, onların öyrədilməsində də oxşar üsullardan, priyomlardan istifadə etmək mümkündür. Bununla belə, hər janrın özünəməxsus spesifik cəhətləri də vardır. Bu spesifiklik sənətkarlıq məsələlərinə də aiddir.

“Əsərin janrına əsasən onun tədris xüsusiyyətlərini nəzərə almaq. Ayrı-ayrı janrda yazılan əsərlər əsasında yazıçıların sənətkarlıq bacarığını şagirdlərə başa salmaq ədəbiyyat tədrisində diqqət mərkəzində olmalıdır” [6]. Bunlardan əlavə, əsərlər həm aşağı, həm də yuxarı siniflərdə tədris olunur.

Buna görə həm aşağı, həm də yuxarı siniflərdə sənətkarlıq xüsusiyyətlərinin öyrənilməsində, habelə üsul və priyomların tətbiqində fərqlər vardır. Nəinki ayrı-ayrı siniflərdə spesifiklik nəzərə alınmalıdır. Həm də eyni sinifdə olan müxtəlif səviyyəli şagirdlərə sənətkarlıq məsələləri öyrədilərkən onların fərdi xüsusiyyətləri, qabiliyyətləri də nəzərə alınmalıdır.

Üsul və vasitələrin seçilib tətbiq olunmasında müəllimin bilik səviyyəsi, bacarığı, səriştəsi də müəyyən rol oynayır. Hər şeydən əvvəl müəllimin bədii sənətkarlıqla əlaqədar hərtərəfli biliyi olmalıdır. Bədii dil, kompozisiya, ayrı – ayrı janrlarda, habelə ayrı-ayrı əsərlərdə onların mövqeyi, rolu barədə müəllimin dərin biliyi olmasa o, sənətkarlıq məsələlərinin öyrədilməsinə dair məşğələləri lazımi səviyyədə təşkil edə bilməz. Bundan başqa, müəllimin əsərdəki sənətkarlığın hansı cəhətinin mühüm olduğunu da seçməyi və onu şagirdlərə öyrətmək üçün səriştəli iş təşkil etməyi də bacarmalıdır.

## Ədəbiyyat

1. Hacıyev A. Ədəbiyyatşünaslığın əsasları. Bakı, 1999
2. Əhmədov C. Ədəbiyyat dərslərində bədii təhlil. Bakı, 1967
3. Тимофеев Л.И. Основы теории литературы. Москва, 1976

4. Hegel. Məntiq. Moskva, 1930
5. Füzuli M. Seçilmiş əsərləri. Bakı, 1983
6. Orta məktəbdə ədəbiyyat tədrisi. Bakı, 1966
7. Əliyev S. Ədəbi əsərin təhlilində sənətkarlıq məsələlərinin öyrədilməsi", "Yenidənqurma və ədəbiyyat tədrisinin təkmilləşdirilməsi" (tematik məqalələr məcmuəsi toplusu). Bakı, 1989.
8. Mikayılov Ş., Şəmiyeva Ş. Bədii əsər üzərində işin əsas istiqamətləri. Orta ümumtəhsil məktəblərində Azərbaycan dili və ədəbiyyatın tədrisi problemləri. Bakı, 1998

UOT 82

## Hüseyn Cavid yaradıcılığında milli-mənəvi dəyərlər konsepsiyası

*Abbasova Gülnar Adil qızı*
*Mingəçevir Dövlət Universiteti*

Milli ədəbiyyat min illərdən bəri xalqımızın istedadlı şəxsiyyətlərinin daş qoyduğu möhtəşəm söz sarayıdır, mənəvi məbədgahıdır.Bu mənəvi varlıqda hər sənətkarın öz yeri, öz dəsti-xətti var. Hüseyn Cavidin dəsti-xətti, əlbəttə ki, bənzərsizdir. Hüseyn Cavid bir şair kimi təkraredilməzdir,yalnız öz sənətinə xas olan poetik ifadə və vasitələrin müəllifi kimi çox uğurlu bir dəsti-xətti vardır.

Cavid həyatı dərk edəndən sonra qələmə sarılan, zamanın, dünyanın get-gəlləri, insanın ağrı-acıları, həyat eşqi ilə çırpınan çağları haqqında ağılla, qətiyyətlə yazıb-yaradan sənətkarlardandır. Cavid içində yaşadığı günə və o günlərin ədəbiyyat qarşısında qoyduğu tələblərə biganə deyildi. Ancaq qəti inancı beləydi ki, o günlə bağlı aktual dramaturgiya ilə deyil, həyatı və insanları fəlsəfi ucalıqlardan seyr və təqib edən dramaturgiya ilə məşğul olmalıdır.

Azərbaycan ədəbiyyatında orijinallığı ilə seçilən, nəzm, dramaturgiya, poema janrlarında muxtəlif əsərlərin müəllifi dahi dramaturq Hüseyn Cavidin bütün əsərlərində bəşəri ideyalar, insanlığın xilası olan sevginin təcəssümünü görmək mümkündür. H.Cavid dünyanı sarsıdan müharibələrə qarşı da yabançı qalmadı. O, eyni zamanda "gözəllik şairi", "gözəllik" məftunu oldu.

Hər qulun cihanda bir pənahı var,
Hər əhli-halın bir qibləgahı var.
Hər kəsin bir eşqi, bir ilahı var,
Bənim Tanrım gözəllikdir, sevgidir.

Bu baxımdan Hüseyn Cavidin poeziyasında realizm ilə romantikanın heyrətamiz bir vəhdətini görürük. Hüseyn Cavid romantizmində insanın daxili aləmini daha çox qabartmaq, ehtiraslar, arzular və fikirlərə canlı surətlər şəkli vermək ənənəsi öz əksini tapmışdır.

1937-ci il iyunun 3-də keçirilən Azərbaycan Kommunist Partiyasının XIII qurultayında dövlət tərəfindən rəsmən xalq düşməni elan edilən H.Cavid elə həmin gecə dərhal həbsə alınmışdır. Cavid bilirdi ki, əsən külək bir gün də ona tərəf əsəcək. Çünki düşünən beyinlərin "yarpaq tökümü" (Nazim Hikmət) başlamışdır. Özü də Stalin baltası ilə budanırdı bu ağaclar. Yarpaqlar hələ yaşıl idi. Mikayıl Müşfiq, Əhməd Cavad, Hüseyn Cavid, onlarla ədəbiyyat, mədəniyyət, elm xadimləri bir dərdin əqrabası idilər. Öyrədilmiş zatı qırıqlar doğma türk dilində ana laylası eşidənlərə amansız divan tuturdular. Həyat öz məzmununu itirmişdi. Hamı bir-birinə şübhəylə baxır və şahid qiyafəsində qabaq-qənşər dayanmağa məqam axtarırdılar. Cavidə ən ağır gələn o idi ki, dostları onun haqqında qəddarcasına ifadələr verirdi. Dünyanın bu nataraz işlərinə mat-məəttəl qalan şairin gücü isə susmağa çatırdı. Paxıllıq hissi və İblis xisləti baş qaldırdı. Cavid özünün yazdığı İblisi bir daha öz gözləri ilə gördü. Zaman və insanlar onu beləcə susdurmuşdu.

Hüseyn Cavid istedadlı olduğuna, parlaq bir ilhamla yazıb yaratdığına görə vətəndən sürgün edilmiş,qarlı-boranlı Sibir çöllərində dəhşətli həyatın qurbanı olmuşdur. Bu azmış kimi, üzərinə "pantürkist" damğası vurulan Hüseyn Cavidin adı və əsərləri dərsliklərdən, qəzetlərdən,

kitabxanalardan yığışdırılır, adının tarixdən silinməsi üçün bütün qəddar tədbirlərə əl atılmışdır. 1956-cı ilə qədər sırf yasaq adların qara siyahısında qalan, hətta bəraətdən sonra da "pantürkist" damğası üzərindən götürülməyən H.Cavidin tam bəraəti, yəni bütün yaradıcılığı ilə ədəbiyyatımıza və tariximizə qayıdışı məhz H.Əliyevin sayəsində mümkün oldu.

Heydər Əliyev Hüseyn Cavidin ideyalarını, zəngin bədii irsini yüksək qiymətləndirərək demişdir:"İndi Hüseyn Cavidin əsərləri xalqa hava-su kimi lazımdır.Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır. Lakin bu əsərlər lazımı səviyyədə nəşr olunmuşdurmu? Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırlar. Ancaq onu bəlkə də Hote ilə müqayisə etmək daha düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə, ola bilsin ki, Cavid Şekspirdən də yüksək səviyyəyə qalxmış bir adamdır. Hüseyn Cavidin "İblis" əsəri heç də Hotenin "Faust"undan geri qalmır. Ancaq biz inciləri lazımı qədər qiymətləndirə bilmirik". H.Cavid H.Əliyevin dahi insan zəkasına heyran olduğu, şəxsiyyətinə dərin məhəbbət hissi bəslədiyi sənətkarlardan biri idi. Ən əsası isə odur ki, Cavid öz dövrünün tarixi sınaqları, o zamanın fırtınaları və qasırğası qarşısında heç bir zaman məğrurluğunu itirmədiyi bir çox şəxslər kimi H.Əliyevin də diqqət mərkəzindən kənarda qalmamışdır.

Cavid yaradıcılığı həyatı və insanları tanımaq məktəbidir. Məlum fikirdir ki, yazıçının ən böyük işi həyat həqiqətlərini obrazlı şəkildə dərk və ifadə etməkdir.Onun romantikası insana sevgidən doğur. Butun insanlar Cavidə doğmadır, bütün insanların xoşbəxtliyi Cavidin özününküdür. Cavidin bütün qəhrəmanları düşüncəsiylə fərdidir, Cavid yaratdığı heç bir surəti insanlıqdan çıxartmır. Cavid insanın insani istismarına, zülmə, haqsızlığa, köləliyə qarşı üsyankar olub, ən gözəl, ən bakirə idealları təbliğ edib, azadlığın, iradə sərbəstliyinin, sülhün, dostluğun, qarşılıqlı anlaşmanın tərənnümçüsü olub.

Cavid müdrik adam idi, inqilab epoxasında yaşadığını da çox gözəl başa düşürdü və boş sözdür deyiblər ki, təza həyatın surət və tələblərinə biganə idi. Qətiyyən belə deyil. Əslində Cavid bütün yaradıcılığı ilə bir inqilab şairidir. Onun bütün əsərlərində ətalətə, rəzalətə, əsarətə, ibadətə qarşı çılğın etirazlar var.Cavidin yazdığı bir çox əsərlər o dövrdə sovet ideologiyası baxımından öz zərərli mahiyyətini saxlayırdı.

Əvət, arslan yavrularım! Türk eli həp şanlıdır,
Elmas kibi ləkəsizdir, saqın, qafil olmayın.
Əsr, iyirminci əsrdir! Vəzifəsi pək ağır...
Arş iləri! Qomşular yol aldı, geri qalmayın!

Hüseyn Cavid əlyazmalarının sonunda "imlasına toxunmamalı" sözləri ilə tövsiyəsi və vəsiyyətini bildirmişdir. 1958-ci il Cavidin bəraətdən sonrakı ilk kitabı nəşrə hazırlananda mətni sadələşdirməyi Cavidin dilini "islah" etməyi o zaman ehtiyac içərisində yaşayan Əliağa Vahidə təklif etmişdilər. Ə.Vahid isə - Mən nə karəyəm ki, ustadın yazdığına əl gəzdirim? – deyə təklifdən imtina etmişdir.

O, gəncləri ardınca çağırmırdı, mənim kimi yazın demirdi, əksinə, xatirələrdən bəlli olur ki, cavanlardan qəliz ərəb-fars ifadələrini, ibarələrini mümküncə az işlətməyi diləyər, onların şeirlərində belə məqamlar olanda islah etməyi məsləhət görərdi.Son qərarı da bu idi ki, siz varsınız,gələcək sizindir, mən sizi, sizin yazı tərzinizi etiraf edirəm, ancaq mən də varam, ədəbiyyatın bu qanadı da var, belə yazı tərzi də mümkündür. Həmin əqidəsini "Azər" də açıqca söyləyir.

Söz yox ki, bu gün gəncliyə baxsan,
Bir sel kimi hər an,
Sağlam, yeni məfkurələr izlər.
Bizlər!?
Bizlərdəki adət də təbii
Bunlarca sönük, yıpramış, əski...
Bilməm ki,bu yoğun yürüş ilə
Gənclik neçin üsyan bizə, söylə.
Bizlər yeniləşsək belə, daim
Bir əskilik az-çox bizə hakim...

Ən doğru yol iştə
Heç olmayalım onlara əngəl bu gedişdə
Onlar qoşacaq,çarpışacaqlar,
Bir çox uçurumlar aşacaqlar.

Ümumbəşəri fəlsəfi fikirlərinin bəyanı üçün Şərq kontekstindən mövzular alan şair, koloritcə o mövzulara müvafiq bir dildə yazırdı. Bu elə bir şeir diliydi ki, Azərbaycanda da, Türkiyədə də, Cənubi Azərbaycanda da gözəlcə anlaşılırdı. Onun mövzuları daha artıq tarixdən, Azərbaycanın ən dərin genetik tellərlə bağlı olduğu ümumşərq həyatından gəlirdi. Və kimlərinsə görməməsindən, danmasından asılı olmayaraq bu əsərlərin hər birində güclü müasirlik vardı.Oğlu Ərtoğrul Cavid atası haqqında bu sözləri yazmışdı : "Babam Hüseyn Cavid bir günəş idi. Yüksəldi, parladı, yarasaların gözünü kor etdi. Lakin dumanlar onun qarşısını aldılar." İnsan bədənində ən çox azadlığı sevən ürək bir də görürsən ki, dustaq olur. Bütün hallarda son döyüntüsünə kimi "Azadlıq üçün hey çırpınır" Cavid ürəyi hər əzaba tab eləsə də, Cavid şəxsiyyəti bir ürəyin istədiyi azadlığın simvolu idi.

H.Cavid əslində öz dövrünün öksüzü olaraq o zamanın məşəqqətlərinə, zərbələrinə, acılarına mübtəla olmuşdur. Hüseyn Cavid yazdığı əsərlər müqabilində həm ayaqlar altında sürünür, həm də göylərdə qanad çalır,həm ölür, həm də qələbə çalır.

Görmədim əsla dikənsiz gül, qaranlıqsız işıq,
Hər visalı daima təqib edən bir ayrılıq.
Söylüyorlar: "Daimi sevgi-səadət var," yazıq!
Seyr edib boş iddiadan başqa bir şey görmədim.

H.Cavid əsərlərini təkcə öz xalqı, milləti üçün deyil,bütün bəşəriyyət üçün yazmışdır.

"İblis" əsəri Hüseyn Cavidin müharibə əleyhinə yazılmış çox qüvvətli fəlsəfi faciələrindən biri hesab olunur. Birinci dünya muharibəsi ilə əlaqədar olaraq "İblis" kimi bir əsəri yazmaqla Hüseyn Cavid o dövrün dünya ədəbiyyatına bir töhfə vermişdir.Cavid yaradıcılığında milli-mənəvi dəyərlər konsepsiyasına əsaslanaraq qeyd etmək olar ki, bu əsərin ideyası müharibəyə nifrət və etirazın ifadəsi, ictimai ədalətsizliyin tənqidi, insanın daxilindəki alçaq və çirkin ehtirasların ifşasıdır. Hüseyn Cavid bu əsərdə iblislik edən və geniş miqyaslı cinayətlərin səbəbkarı olan insanları İblisin dili ilə aşıb göstərmişdir

İblis nədir?
- Cümlə xəyanətlərə bais...
Ya hər kəsə xain olan insan nədir?
- İblis!..

Hüseyn Cavid əsərlərini dərin mənalı, yüksək fəlsəfəyə uyğun olaraq qələmə almışdır. Cavidi onda qınayırdılar ki, o günün nəbzini tuta bilmir. Bu gün həmin ittihamlardan 100 il sonra Cavid əsələri Azərbaycan səhnələrində, televiziya ekranında görünür və məlum olur ki, bu əsərlər günün ən aktual, ən vacib tələblərinə cavab verir.

Hüseyn Cavidin bütün yaradıcılığı Azərbaycan xalqının milli-mənəvi mədəniyyətini yüksəklərə qaldırmaqdan və xalqımızı azadlığa, müstəqilliyə səsləməkdən ibarət olubdur. Onun bütün yaradıcılığının konsepsiyası Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırışdır. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur.

Həqiqətçilik, riyadanqaçma, aşkarlıq yolunun köhnə yolçularından biri vaxtilə Cavid olub. Bu xəttin yalın əlli mübarizi və fədalarından olan bir insanı – Cavidi bu gün ən mehriban duyğularımız, ən minnətdar sayğılarımızla anmaya bilmirik. Və andıqca da yaddaşımızda onun bir misrası şölələnir.

Həqiqət istərəm, yalız həqiqət.

Bir çox pyes və poemalar müəllifi navator şair Hüseyn Cavid öz yaradıcılığı ilə Azərbaycan dramaturgiyasında yeni səhifə açmışdır. O, öz dövrünü, yeni həyatı tərənnüm edərkən, baş verən bütün hadisələri dərk edib qavramaqda bir çox müasirlərini, qələm yoldaşlarını qabaqlaya bilmişdir.Onun yaradıcılığı Azərbaycan ədəbiyyatının tarixində parlaq səhifələrdən biridir. Şairin

əsərlərinin qəhrəmanları bu gün də bizimlə yaşayır, xeyirxahlıq, humanizm, ədalət ideallarının bərqərar olmasına kömək edir.

**Ədəbiyyat**


1. Hüseyn Cavid əsərləri. I cild. Bakı, 2005
2. Hüseyn Cavid əsərləri. III cild. Bakı, 2005
3. Əmir Pəhləvan. Qalxın Cavid gəlir. Bakı, 1997
4. Səmədov A. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Gəncə, 2008


UOT 373.1.02

## Şagirdlərin vətəndaş cəmiyyətinə hazırlanma prosesi milli-mənəvi dəyərlər kontekstində


*Səmədova Sevinc Raqub qızı*
*Mingəçevir Dövlət Universiteti*


Qloballaşan dünyada hər bir xalqın maddi-mədəni irsinin, milli-mənəvi dəyərlərinin nəsildən-nəslə ötürən ən mühüm faktor insan amili hesab olunur. Geniş mənada insan amili faktorunu birbaşa şəxsiyyətin formalaşdırılması ilə əlaqələndirsək, o zaman qeyd etməliyik ki, müasir vətəndaş cəmiyyətində şəxsiyyətin formalaşdırılması mühüm prosesdir. Müasir cəmiyyətdə şəxsiyyəti yüksəldən onun fəal mövqe tutmasıdır və təbii ki, mənəvi tərbiyənin əsas vəzifəsi insanlara bu mövqeyi aşılamaqdır. Vətəndaş cəmiyyətinin irəli sürdüyü tələblər şəxsiyyətin marağının, tələbatının fəal, məqsədyönlü şəkildə formalaşdırılmasını təhsil siyasətinin mühüm vəzifələrindən biri kimi şərtləndirir. Sözügedən yönümlü tərbiyə işi yaradıcı, gərgin və fədakar xarakterlidir. Bu, böyüməkdə olan gənc nəsil barəsində daha aktualdır. Çünki bunu, təkcə müasir həyatımız deyil, həm də yaxın və uzaq gələciyimiz tələb edir. Azərbaycanda vətəndaş cəmiyyətinin daha sürətlə inkişaf etməsi yetişməkdə olan gənclərimizin fəal şəxsiyyət kimi formalaşmasından asılıdır.

Fəal həyat mövqeyi insanın ideya-mənəvi tərbiyəsinin səmərəliliyinin ümumiləşdirici göstərircisidir, şəxsiyyətin mənəvi keyfiyyətlərini yoxlamaq üçün təsirli bir vasitədir. Belə bir mövqe vətəndaş cəmiyyəti üzvünün ən yaxşı keyfiyyətlərinin təzahürü deməkdir, həm də gələcək nəsillərə tarixi, milli-mənəvi dəyərləri ötürəcək genetik kod-açardır.

Şəxsiyyətin fəal həyat mövqeyi anlayışından danışarkən, onu, əhalinin ayrı-ayrı yaş qruplarına – yetkin yaşlı insanlara, kiçik və ya yuxarı yaşlı məktəblilərə eyni dərəcədə şamil etmək olmaz. Burada onu da unutmaq olmaz ki, fəal həyat mövqeyinin əsası kiçik və orta məktəb yaşında formalaşır, onun da bazasında yuxarı yaşlı məktəblilərdə, yetkin yaşda daha da inkişaf edir, təkmilləşir. Bu mövqeyin formalaşmasında ailənin, məktəbin, uşaq təşkilatlarının, oxuyan cəmiyyətin böyük rolu vardır.

Fəal həyat mövqeyi baxış və hərəkətlərin məcmuyu anlayışı ideya əqidəliyi anlayışına nisbətən daha geniş anlayışdır. Bu anlayış şəxsiyyəti xalqın mənafeyi üçün fədakar fəaliyyətdə özünü göstərməyə qabil ən yaxşı insani keyfiyyətlərə, o cümlədən əxlaqi-siyasi, iradi, fiziki keyfiyyətlərə malik olan individium kimi xarakterizə edir.

İdeologiya, mənafe haqqında elm isə obyektiv qanunlar haqqında nəzəriyyə kimi interpretasiya oluna bilər. Elmin vəzifəsi hadisəni olduğu kimi şərh etmək, əsl həqiqəti meydana cixarmaqdır, ideologiya isə hər şeyə mənafe gözü ilə baxır, mənafeyə uyğun gəlməyən fikirləri qəbul etmir, özündən uzaqlaşdırmağa çalışır. Dünyagörüşü baxış, əqidə və davranış elementlərini özündə birləşdirir.

Dünyagörüşü anlayışı ideologiya anlayışı ilə bağlı olduğundan sinfi mahiyyətə malikdir və hər bir sinfin öz dünyagörüşü vardır. Dünyagörüşü ilə biliyi eyniləşdirmək olmaz. Bilik təbiət, cəmiyyət

və təfəkkürün inkişaf qanunlarının dərk edilməsi ilə bağlıdır. Əqidə isə münasibətlə bağlı olan normaların dərk olunması ilə əlaqədardır.

Məktəblilərin fəal həyat mövqeyinin mahiyyətini açmaq üçün onunla sıx bağlı olan anlayışları, xüsusən şəxsiyyət,şəxsiyyətin sosial fəallığı, sosial fəallıq, formalaşma, məktəblinin fəal həyat mövqeyinin formalaşdırılması anlayışına diqqət yetirmək gərəkdir.

S.A.Rubinşteynin fikrincə: "Şəxsiyyət, sözün qeyd edilən və spesifik mənasında elə bir adamdır ki, özünəməxsus mövqeyi, özünün həyata açıq ifadə olunan şüurlu münasibəti və geniş fəaliyyəti nəticəsində əldə etdiyi dünyagörüşü vardır. Şəxsiyyətin özünəməxsus siması vardır. O, şüurlu surətdə özünü düşdüyü mühitdə fərqləndirir." Z.Göyüşov haqlı olaraq yazir ki, əgər adam öz insani ləyaqətini və şərəfini dərk edib qiymətləndirmirsə o, əslində şəxsiyyət olmur.

Şəxsiyyətlə fərdin münasibəti məsələsində N.M.Kazımov yazir: "Şəxsiyyəti fərdlə eyniləşdirmək olmaz. Fərd fiziki varlıq kimi mövcuddur. Şəxsiyyət isə fiziki varlıq olan fərdin malik olduğu sosioloji keyfiyyətlərin sistemidir. Hər bir konkret fərdin özünəməxsus şəxsiyyəti vardır. Elə bu məntiqə dayanaraq deməliyik ki, uşağın özü də, şagird də şəxsiyyətdir. Lakin yetkin şəxsiyyətə nisbətən fərq ondan ibarətdir ki, uşaq formalaşmaqda olan şəxsiyyətdir."

Buradan belə qənaətə gəlməyə əsas vardır ki, fəal həyat mövqeyinin formalaşdırılması problemi təkcə yetkin nəslə deyil, şəxsiyyət olan uşağa, məktəbliyə də aiddir.

Fəal həyat mövqeyinin formalaşdırılması probleminə "şəxsiyyətin sosial fəallığı" anlayışı çox yaxındır. Lakin bunları eyniləşdirmək olmaz. Bunların hər ikisi eyni istiqamətdə olan anlayışlar olsalar da, birinciyə nisbətən ikinci məhduddur. Fəal həyat mövqeyinin formalaşdırılması yalnız tərbiyə ilə əlaqədar deyil, həm də inkişafla, onların birlikdə təsiri ilə əlaqədardır. İndivid nə qədər yüksək əxlaqi keyfiyyətlərə malik olsa belə, onda möhkəm iradi keyfiyyətlər olmasa, o, fəal həyat mövqeyinə yiyələnə bilməz.Yeri gəlmişkən vurğulayaq ki, ictimai fəallıqda müsbət emosiyalara əsaslanan motivlərin mühüm əhəmiyyəti vardır.Ona görə də elə etmək lazımdır ki, şagird öz fəaliyyətinin cəmiyyət üçün faydalı olduğunu başa düşsün və bu zəmin üzərində hərəkət etməyə çalışsın. Burada qeyd etmək yerinə düşər ki, bu keyfiyyətləri məktəblilərdə aşılamaq üçün onların öz fəaliyyətlərinə şərait yaradılmalı, yoldaşları ilə münasibəti düzgün tənzim edilməlidir. Həmçinin ictimai işlərə cəlb olunması təmin olunmalı, təşkilatçılıq qabiliyyətini tələb edən vəzifələrə təhkim olunmaları diqqətdə saxlanılmalıdır,əqli hissi və iradi fəaliyyət sahəsinə kompleks şəkildə təsir göstərilməlidir.

Məktəblilərin fəal həyat mövqeyinin formalaşdırılmasının əsas istiqamət və vasitələri müxtəlifdir. Bu da onunla əlaqədardır ki, şəxsiyyətin əsas xassəsi olan fəallıq müxtəlif səviyyələrdə təzahür edir, bunların da hər birini formalaşdırılmaq üçün öz spesifikasına uyğun olan istiqamətlərdə müxtəlif vasitələr tələb edir. Bu vasitələr içərisində məktəb təhsili, təlim-tərbiyə prosesinin mükəmməl təşkil edilməsi əsas vasitə hesab edilir.

Ədəbiyyatda sosial fəallıq üçün üç istiqamət məsləhət görülür:

1. İdrak fəallığı mövqeyi;
2. İctimai-siyasi fəallıq mövqeyi;
3. Əmək fəallığı mövqeyi.

İctimai əhəmiyyət kəsb edən keyfiyyətləri aşılamaq məqsədi daşıyan tərbiyəvi işlər şərti olaraq sosial yönümlü işlər adlanır. Ona görə şərti adlanır ki, hər hansı bir tərbiyəvi işin məqsədi məktəblilərdə sosial münasibətlər sistemini, yəni cəmiyyətə, dövlət hakimiyyət orqanlarına, ictimai asayişə və s. münasibətləri formalaşdırır.

Şagirdlərə bilik, bacarıq və vərdişlər sistemini öyrədən təlim prosesi əqli tərbiyədə əsas rol oynayır. Ağılın intellektual və fəal idraki fəaliyyət üçün lazım olan hər hansı bir qiymətli keyfiyyəti sistemləşmiş biliklər ehtiyatı olmadan inkişaf edə bilməz. Bu biliklərin həcmi nisbidir, cəmiyyətin mədəni inkişafının səviyyəsi ilə xarakterizə olunur. Ağılın inkişafı insanla cəmiyyətin qarşılıqlı təsiri nəticəsində baş verir.

Bu əsas fəallıq mövqelərindən, əsas istiqamətlərdən başqa fəal həyat mövqeyinə xas olan başqa mövqelər, istiqamətlər də vardır: şagirdlərin bədii özfəaliyyət fəallığı, idman fəallığı və s. Bu fəallıq mövqelərindən hər birini formalaşdırmaq üçün müvafiq iş formaları və vasitələri tələb olunur.

Məktəblilərin fəal həyat mövqeyini formalaşdırmaqda məktəb təhsilinin həlledici rol oynadığı onda görünür ki, məhz burada uşaq və gənclər üçün problemin həllindən ötrü bütün əlverişli şərait yaradılır.

**Ədəbiyat**


1. Əhmədov B.A., Rzayev A.Q. Pedaqogikadan mühazirə konspektləri. Bakı: Maarif, 1983
2. İbrahimov F.N. Ümumi pedaqogikadan mühazirələr. Bakı: Müntərcim, 2010
3. Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: Maarif, 1982
4. Kazımov N.M. Təlimin keyfiyyətiniyuksəltməyin bəzi yolları. Bakı: Maarif, 1966
5. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Bakı: Nurlan 2007
6. Ümumi psixologiya (Prof. A.V.Petrovskinin redaktorluğu ilə) Azərbaycan dilinə tərcümə. Bakı: Maarif, 1982


UOT 82:7

## Cavid yaradıcılığında milli-mədəni irsimizin əksi

*Ağakişiyeva Səadət Arif qızı*
*Mingəçevir Dövlət Universiteti*

Müasir dövrün ən aktual problemlərindən biri qloballaşma prosesi ilə milli-mədəni irs arasında optimal nisbətin tapılmasıdır. Qloballaşma prosesi elm, texnika, texnologiya və ümumbəşəri dəyərlərlə yanaşı, milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə düşünülmüş şəkildə, ya da qərəzsiz sirayət etməyə cəhd göstərir. Belə bir şəraitdə ənənələri qoruyub saxlamaq, yenilikləri qəbul edib tətbiqinə nail olmaq düşünülmüş konsepsiya tələb edir.

Hal-hazırda Azərbaycanda mədəniyət siyasəti uğurla həyata keçirilir xalqımızın zəngin mədəni irsi və milli-mənəvi dəyərlərinin qorunub saxlanılması istiqamətində ardıcıl tədbirlər görülür. Milli-mədəni irsin tədqiqi sahəsində araşdırmalar aparılır,incəsənətimiz geniş təbliğ olunur, milli varlığımızın qorunması və inkişafında ədəbiyyatın rolu daha da artır. Bu baxımdan Hüseyn Cavid yaradıclığı bizim üçün çox zəngin qaynaqdır.

H.Cavidin istər lirik, istər epik, istərsə də, dramatik əsərləri dərin fəlsəfi məzmununa, milli xüsusiyyətlərinə görə ölməz sənət inciləri kimi öz dəyərini və əhəmiyyətini hər zaman qoruyub saxlamış və saxlayacaqdır. Cavid Azərbaycanın tarixi, mədəniyyəti, məişəti, oyunları haqqında çoxlu materiallar toplamış və dramlarında bunlardan məharətlə istifadə etmişdir.Azərbaycanın mədəniyyəti, adət-ənənələri onun yaradıcılığında xüsusi çalarlarla öz ifadəsini tapmışdır.

Ölkəmizdə adət-ənənələr mədəni tədbirlər üçün rəmzi məna kəsb edir və onlara milli məzmun gətirir. Məsələn, Novruz bayramı ərəfəsində keçirilən bir çox tədbirlərdə səmənidən, xalqımızın qədim milli geyimlərindən və s. milli-rəmzi atributlardan geniş istifadə olunur.

Xalqımızın milli tarixi-ənənələri, bayramları və mərasimləri kütləvi tədbirlər içərisində xüsusi yer tutur. Bu bayramlarda qədim mədəniyyətimiz, xalqımızın əsrlər boyu yaratdığı milli adət-ənənələr, bədii sərvətlər, tarixi hadisələr əks olunur. Cavid də “ Novruz bayramı” adlı kişik şeirində xalqımızın milli bayramına yüksək qiymət vermişdir.

İştə novruz! Yetişdi fəsli-bahar.
Gəldi işrət zamanı, qardaşlar!
Nə gözəl bayram... Ah, nə xoş fürsət! [1]

Cavid Novruz bayramında küsülülərin barışdığını, hamının şadlanıb bayram etdiyini, insanların toplanıb birlikdə tonqal qaladığını qeyd edir.

Həmin şeirdə xalqımıza məxsus bir adəti də qələmə alınmışdır. Əgər bir evdə kiminsə əzizi rəhmətə gedibsə, Novruz bayramını "Qara bayram" kimi qeyd edirlər. Həmin gün məzarlıq ziyarət olunur və yaxın adamlara ehsan paylanır.

Birinin ölsə qardaşı naçar,
Qara bayram tutar... Bir adət var [1].

Novruz bayramı ərəfəsində oynanılan və qeyri-maddi mədəni irs nümunələri siyahısına daxil olan Çövkan oyunu haqqında Cavid "Topal Teymur" dramında bəhs etmişdir.

Əmir Teymur hər səfərdən qayıtdıqdan sonra şənliklər düzəldilir, zəfərlər bayram kimi böyük təntənə ilə qeyd edilirdi. Əldə olunan qənimətlər əhaliyə paylanırdı. Şənliklərdə pəhləvanlar güləşir, cirit oyunları oynayır, xanəndələr oxuyurdular.

Cirit oyunu at üstündə oynanan idman növlərindən biridir. At üzərindəki oyunçunun süngü və ya mizrağını rəqibə qarşı dəqiq bir şəkildə atmasını, müharibə anında özünə və atına hakimiyyətini və bu yolla rəqibinə üstün gəlməsini qarşısına məqsəd qoyan, qaydaları olan bir oyundur.

Cirit türklərin orta Asiyadan Anadoluya gəldikləri dövrdən bəri oynadıqları döyüş oyunu olaraq bilinməkdədir. Cirit oyunu Azərbaycan, Türkiyə, Türkmənistan, İraq və b. ölkələrdə məhşur olan bir oyun növü olmuşdur. Cirit oyununun bir başqa adı da çövkandır. Anadoluda XI-XVI əsrlərdə oynanılan cirit oyunları, sonrakı dövrlərdə, xüsusilə XIX əsrdə daha çox oynanılmağa başlamışdı. Avropa dövlətləri cirit oyununa maraq göstərmiş, hal-hazırda bu oyun "polo" adı ilə avropada da oynanılır və çox sevilir.

Əmir Teymurun dövründə də cirit oyunu çox məhşur olmuşdur. Gənclər döyüş hazırlığı ərəfəsində cirit oyunu oynayarmışlar. Teymurun da çox sevdiyi oyun olub.

Hal-hazırda Azərbaycanın şimal-şərq bölgələrində çövkan oyunu Novruz bayramı ərəfəsində oynanılır. Heydər Əliyev Fondunun dəstəyi ilə hər il Cövkan oyunu üzrə yarışlar keçirilir.

Deməli,hər bir tarixi mərhələdə olduğu kimi, müasir dövrdə də bayramlar, tarixi hadisə və günlər böyük təntənə ilə qeyd edilir. Xalqımız qədim adət-ənənələrlə yanaşı, həyatımızda yeni formalarda təcəssüm olunan mədəni sərvətimizi bu gün də yaşadır və inkişaf etdirir.

"Xəyyam" pyesi, H.Cavidin musiqili remarkalarla süslənmiş ən böyük əsəridir. Bu rəngarəng musiqi çələngini coşğun, həzin, lirik və əsgəri musiqilər, rəqslər, bir sıra muğam guşələri bəzəyir. Göründüyü kimi, Cavid yaradıcılığında musiqi müstəsna əhəmiyyət kəsb etməklə, xüsusi yer tutur. Həm də musiqi, səhnədəki hadisələrin ayrılmaz hissəsi, görünməz qatı kimi müstəsna təsir bağışlayır.

Pyesin ilk səhnəsinə verilən remarkada muğamın bir növü olan "Hicaz"-ın adı çəkilir.

Xəyyam dostları Xərabati və Rəmzi birlikdə şərab içirlər. Musiqiçilər "Hicaz" çalır [3].

Hicaz muğamın bir növüdür. Hicaz muğamı insanlara ülvi bir rahatlıq təlqin etməkdədir. Musiqi ilə müalicədə ən çox Hicaz muğamından istifadə olunur. Muğam haqqında ilk nəzəri fikirlərin yaradıcılarından biri Fərabi Hicaz muğamının insan ruhuna təvazu verdiyini bildirmişdir. Osmanlı mənbələrində Hicaz muğamının dərviş məclislərində daha çox çalındığını, daha çox günorta və ikindi əzanları arasında təsirli olduğunu bildirmişdir.

"Xəyyam"da Xəyyamın ölüm səhnəsini müəllif remarkasına görə, «Əbu-əta» muğamı müşayiət edir.

Xanəndə oxuyur:

… Beş gün ömrün neçə əfsanəsi var
Eşqi var, badəsi, peymanəsi var
Sonu həsrətlə bitərkən, əfsus
Yenə dünya dolu pərvanəsi var… [3]

Xəyyamın böyük həyatına yekun vuran bu dörd misra, bir də peşəkar musiqiçilərin belə az tanıyıb bildiyi müdrik, hüznlü, tərki-dünya ovqatlı «Əbu-əta» muğamı… Bunları bir-birinə yaraşdırmaq, cilalamaq, nəticədə ürəkləri yandıran, beyni düşündürən bir sonluq da Cavid sənətinin əlçatmaz sirlərindəndir [4].

Ədibin «Şeyx Sənan» faciəsinə yazılmış musiqini də xüsusilə qeyd etmək yerinə düşər. Böyük bəstəkarımız Fikrət Əmirovun bu tamaşaya yazdığı musiqidəki həzin lirika, dərin fəlsəfə, yüksək humanizm Cavid məfkurəsini eynilə əks etdirir. Ancaq burda da sanki şair özü bəstəkarın

yardımçısı olur. Əsərin musiqiylə bağlı remarkasında şair həm də musiqini necə dərindən duymasını, xalq musiqisini, muğam sənətini mükəmməl bilməsini bir daha sübut edir. Nümunə olaraq əsərdən bir remarkaya nəzər salaq:

«… Bu sırada iki kor ərəb görünərək, birinci suzişli və tutqun ahənglə ud çalır, ikinci də yaralı səslə «Hicaz» məqamında olaraq, aşağıdakı əbyatı oxu…».

Nə eşq olaydı, nə aşiq, nə nazlı afət olaydı,
Nə xəlq olaydı, nə xaliq, nə əşki-həsrət olaydı.
Nə dərd olaydı, nə dərman, nə sur olaydı, nə matəm,
Nə aşiyaneyi-vüslət, nə bari-firqət olaydı [2].

Göründüyü kimi istər ud alətinin səslənmə xarakterini, istərsə də kor ərəbin «Şur» muğamının ən təsirli şöbəsi olan «Hicaz» üstündə (məşhur «Nə eşq olaydı, nə aşiq, nə nazlı afət olaydı…» misralı qəzəli) oxunmasını Cavid bir bəstəkar kimi duyur və duyduğunu incəliklə ifadə edə bilir.

Milli-mədəni irsimizin öyrənilməsi, təbliği istiqamətində ədəbiyyatın rolunun danılmaz olduğu bir daha sübuta yetirilir. Bütövlükdə Hüseyn Cavid yaradıcılığı milli-mədəni irsimizin bir parçasıdır.

## Ədəbiyyat


1. Hüseyn C. Seçilmiş əsərləri, 5 cilddə, c. 1. Bakı: “Lider”, 2005,352 səh.
2. Hüseyn C. Seçilmiş əsərləri, 5 cilddə, c. 2. Bakı: “Lider”, 2005, 304 səh.
3. Hüseyn C. Seçilmiş əsərləri, 5 cilddə, c. 5, Bakı: “Lider”, 2005, 288 səh.
4. http://chalgi.com/huseyin-cavidin-musiqi-dunyasi /,S.Fərəcov “Hüseyn Cavidin musiqi dünyası // çalğı dərgisi 2011, 31 may



UOT 08:316.42


## Gənc nəslin tərbiyəsində milli-mənəvi dəyərlərin rolu


*Qurbanova Gülnarə Qorxmaz qızı*
*Mingəçevir Dövlət Universiteti*


Qloballaşma ölkələr arasındakı iqtisadi, sosial və siyasi əlaqələrin inkişafı, fərqli cəmiyyətlərin və mədəniyyətlərin inanc və görüşlərin tanınması, millətlərarası əlaqələrin genişlənməsi kimi fərqli görünən, lakin bir-biri ilə bağlı məsələləri birləşdirən bir anlayışdır. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada qloballaşmanın təsirinin izləri hiss olunmasın. Son dövrlərdə dünyada qloballaşma prosesi daha sürətlə gedir.Qloballaşmanın yaratmış olduğu problemlər bizi narahat etməyə bilməz. Qloballaşmanın üzdə olmayan məqsədləri son nəticədə mədəni tərəqqiyə dağıdıcı zərbə vurur. Qloballaşma dövründə milli-mənəvi, əxlaqi və tərbiyəvi dəyərlərimizin qorunmasına qayğı daha da çoxalmışdır. Milli özünəməxsusluğu, milli-mədəni dəyərləri və mədəniyyətiqoruyub mühafizə etmək birgə fəaliyyət nəticəsində mümkündür. Respublikamızda milli və bəşəri dəyərlərin sintezini təmin etmək istiqamətindəbir sıra islahatlar həyata keçirilir. Bu islahatlar ölkəmizin mədəni və iqtisadi cəhətdən inkişaf etmiş dünya dövlətləri səviyyəsinə çatmasına şərait yaradır. Qloballaşma dövründə milli-mənəvi və əxlaqi-tərbiyəvi dəyərlərimizin qorunmasına diqqət daha da artırılmalıdır.

Qloballaşma deyəndə ilk növbədə Azərbaycanda beynəlxalq əməkdaşlığı, xoş münasibətləri, səmimi dostluğu nəzərdə tutulur. Azərbaycan Respublikası dünya birliyinin üzvü kimi qloballaşma proseslərindən kənarda qala bilməz. Lakin, son dövrlər qloballaşmanın milli kimliyə təsiri cəmiyyətə daha çox yad dəyərləri qəbul etdirmək cəhdi kimi qiymətləndirilir. Millət, xalq olaraq qloballaşma adı altında öz milli dəyərlərimizi unutmamalıyıq və bu dəyərlərə sadiq olmalıyıq və milli mentalitetə xas olmayan dəyərlərə qarşı həmişə mübarizə aparmalıyıq. Bu mübarizədə ən vacib şərtlərdənbirimilli mənliyimizi qorumaqdı. Müstəqilliyimizin əldə olunmasından sonra həyata

keçirilən mədəniyyət siyasəti milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasına yönəlir. Müasir dövrdə milli-mənəvi dəyərlərimizin mühafizəsi probleminə diqqət daha da gücləndirilməlidir. Ona görə də bu dəyərlər aşınmalardan qorunmalıdır. Gənclər arasında milli-mənəvi dəyərlərin qorunması istiqamətndə işlər görülməli, onlarda vətənpərvərlik və vətəndaşlıq hissləri gücləndirilməlidir. Son illərin çətinliklərinə baxmayaraq, Azərbaycanın dünyaya mədəni inteqrasiyası şəraitində mədəniyyətin maliyyələşməsi probleminin həlli istiqamətində ümidverici proseslər müşahidə edilməkdədir. Milli-mənəvi dəyərlərin mühafizəsi məsələsi daima dövlət rəhbərliyinin diqqət mərkəzində olmuş və olacaqdır. Müstəqilliyinin bərpasından sonra respublikamızda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi daha da sürətlə inkişaf etməkdədir. Xalqımızın ümummilli lideri Heydər Əliyevdövlətçiliyin özülünün mədəniyyətə bağlı olduğunu daima öz çıxışlarında qeyd edirdi. Görkəmli siyasət və mədəniyyət xadimi, ümummilli lideri Heydər Əliyev rəhbərlik etdiyi bütün illərdə milli-mənəvi dəyərlərimizə həmişə qayğı ilə yanaşmış, bununla bağlı bəyanatlarla çıxış etmiş və qanunlar imzalamışdır. O, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi ruhda tərbiyələndirirməyin xalqımız qarşısında ən zəruri vəzifələr olduğunu dəfələrlə qeyd edirdi. O, 13 avqust 2001-ci il tarixli bəyanatındasöyləmişdir: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adətənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir" [2]. Heydər Əliyev tərəfindən irəli sürülən əsas vəzifələrdən biri Azərbaycanın milli-mənəvi dəyərlərinə yiyələnməklə gənc nəslin milli ruhda tərbiyə olunması məsələsi olmuşdur. Dövlət başçımız bu məsələyə toxunaraq qeyd edirdi : "Gənclərimiz milli ruhlda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz" [1].

Ailədə uşaqların tərbiyəsindən başlanan milli soykökə qayıdış, milli özünüdərk məktəbəqədər müəssisələrdə və orta məktəblərdə davam etdirilməlidir. Şəxsiyyətin yetişməsində mühitdən də əvvəl ailənin rolu böyükdür. Azərbaycanlı milli düşüncəsindəkiçik dövlət modeli kimi qəbul edilən ailə müqəddəs və ülvi hesab olunur. Böyüklərə ehtiram və hörmət, uşaqlara sevgi, diqqət və qayğı zəngin milli-mənəvi dəyərlərimizin əsasını təşkil edir. məktəblə ailənin əlaqəli iş sistemi şagirdlərin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunmasında mühüm rol oynayır. Müsəlman ölkəsində yaşadığımıza görə təlim-tərbiyə işinin təşkilində islam əxlaqının da rolu xüsusi önə çəkilməlidir. Həmçinin qeyd olunmalıdır ki, məktəblilərin dünyagörüşündə islam dəyərlərinin xüsusi rol oynayır. Bütün bu əxlaqi kateqoriyaların şərhi yolu ilə, düzgün yaşam fəlsəfəsi təbliğ olunmalı, gənclərə sağlam həyat tərzi, milli-mənəvi və bəşəri dəyərlərə sadiqlik prinsipi önə çəkilməlidir. Qeyd olunmalıdır ki, gənc nəslin tərbiyəsində bədii ədəbiyyatın, mədəniyyətin, incəsənətin, folklor nümunələrinin, o cümlədən tanınmış yazıçı və şairlərin əsərlərinin mühüm rol oynayır. Dövlət atributlarına – Azərbaycanın himninə, gerbinə, bayrağına ehtiram və hörmətin vacibliyi təhsil müəssələrində vətəndaşlarda dövlətçilik təfəkkürünün, millətə, Vətənə bağlılıq hisslərinin gücləndirilməsi baxımından mühüm yer tutur. Ləyaqətli vətəndaş kimi yetişməsi üçün gənclər hərtərəfli biliyə, milli keyfiyyətlərə malik olmalıdırlar. Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər vətəninə, xalqına sadiq gənclərdi. Gənclərimiz bizim milli mənəvi dəyərlərimizin əsasında tərbiyələnməli, milli ruhda tərbiyə olunmalıdırlar. Gənc nəsil tariximizi, dilimizi, milli dəyərlərimizi yaxşı bilməlidir. Məruzə və çıxışlarında milli dəyərlərin, milli adət-ənənələrin zəruriliyini vurğulayan mərhum Heydər Əliyev göstərirdi ki, milli mənəvi dəyərlər xalqın mənəvi sərvəti, mənəvi xəzinəsidir, bu sərvətə, xəzinəyə biganə qalmaq cinayətdir. Xalqımızın milli adət-ənənələrinə biganəlik halları son illərdə ziyalıların etirazına səbəb olmuşdur. Bu etiraz və narazılıqlar milli-mənəvi dəyərləri qorumaq çağırışına çevrildiyi bir vaxtda ümummilli liderimiz Heydər Əliyev bir sıra məqamlara aydınlıq gətirərək görüləcək işlərin perspektivini müəyyənləşdirmişdi: "Fürsətdən istifadə edərək, bir-iki məsələyə toxunmaq istəyirəm. O da ondan ibarətdir ki, biz öz dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu sınaqlardan kecmiş bu mənəvi, əxlaqi dəyərlər

ruhunda tərbiyələndirməliyik. Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli, mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə tərbiyələndirməliyik" [3].

Yüksək mənəviyyvata malik olan hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk edib, onu qoruyub və möhkəmləndirməsi üçün hər cür qurban verməyə hazır ola bilər.

Ümummilli liderimiz Heydər Əliyevin yürütdüyü siyasi-mədəni xətti onun layiqli davamçısı prezident İlham Əliyevinamla və sədaqətlə həyata keçirir. Prezidentimiz İlhm Əliyevin həyata keçirdiyi mədəniyyət siyasətinin uğurlu nəticələri və perspektivləri artıq göz qabağındadır.İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirərək Heydər Əliyevin gənclər siyasətinin həyata keçirilməsində misilsiz fədakarlıq göstərmişdir və bu sahədə fəaliyyətini indi də uğurla davam etdirir.

**Ədəbiyyat**


1. Adil Abdulla Əl-Fəlah. Heydər Əliyev və milli-mənəvi dəyərlər. Bakı: Qismət, 2007, 108 səh.
2. Azərbaycan Prezidenti Heydər Əliyevin 13 avqust 2001-ci il bəyanatı. "Ədəbiyyat"qəz., Bakı, 2001, 13 avqust
3. Heydər Əliyev. Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda çıxışı. "Azərbaycan" qəz., 1996, 3 fevral
4. Kəngərli Sübhi. Müstəqilik, mədəniyyət müəssisələri və şəxsiyyətin inkişafı. Mədəni-maarif. 2006, № 5, səh. 5


UOT 46.01.11

## Qloballaşma şəraitində milli-mənəvi dəyərlər: milli dilin qorunub saxlanılması məsələləri

*Süleymanova Sevinc Nəriman qızı*
*Mingəçevir Dövlət Universiteti*

*Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini,*
*mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir.*

***Ümummilli lider Heydər Əliyev***

Milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi müstəqil respublikanın mədəniyyət siyasətinin ən ümdə vəzifələrindən biridir. Dövlətimiz, öz daxili və xarici siyasətini müasir tələblərə uyğun olaraq, xalqımızın tarixi və mədəni ənənələrinə, dilimizə, dinimizə, milli-mənəvi dəyərlərimizə əsaslanaraq həyata keçirir.

Müasir şəraitdə Azərbaycan dilinə qayğı, mühüm dövlət qərarlarının qəbul edilməsi və qloballaşma şəraitində Azərbaycan dilinin inkişafı problemləri günün vacib məsələlərindən sayılır. Belə ki, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu, dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında fərmanlar, milli mənəvi dəyərlərin qorunub saxlanılması istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasət ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyasının formalaşması yolunda göstərdiyi misilsiz xidmətlərdəndir [2].

Belə ki, dövlətimizin başçısının Azərbaycan və dünya klassiklərinin ən məşhur əsərlərinin Azərbaycan dilində latın qrafikalı əlifba ilə kütləvi nəşrinin həyata keçirilməsi haqqındakı sərəncamı, 2012-ci il 23 may və "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" 2012-ci il 29 may sərəncamları, eləcə də Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncamları dilimizə, mədəniyyətimizə, zəngin mənəvi dəyərlərimizə böyük hörmət və ehtiramın bariz nümunəsidir. Proqramın məqsədi Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi, ölkədə dilçilik araşdırmalarının əsaslı surətdə yaxşılaşdırılmasıdır.

Bəllidir ki, bir millətin milli mədəniyyəti, onun milli tarixindən qopub gələn bir ata mirası, maddi varlığının, inanc və əxlaq ucalığının, dil və sənət zənginliyinin, ənənələrinin əmələ gətirdiyi ortaq bir dəyərlər məcmusudur. Bir millətin var ola bilməsi, dünya millətlərinə varlığını qəbul etdirə bilməsi üçün, elm işığı altında öz doğma dilini, milli-mənəvi dəyərlərini şüurlu olaraq yaşadıb inkişaf etdirməsi zəruridir. Dil millətin varlığının əsas şərtlərindən, göstəricilərindən biridir və hər bir xalqın varlığının ən əsas, bəlkə də yeganə təminatçısıdır. Dil xalqı yaşadan ən mühüm amildir. Xalqın taleyi, mənəviyyatı və mədəniyyəti olan dil cəmiyyətin təşəkkülü və inkişafında mühüm rol oynayır. Xalqın məişəti, yaradıcılığı, təsərrüfat fəaliyyəti, bir sözlə, bütün həyatı dil vasitəsilə əks olunur, tarixdə yaşama hüququ qazanır. Dil hər bir xalqın yaşam, təfəkkür xüsusiyyətlərini bütünlükdə əks etdirir. Dilin inkişafı xalqın elminin, mədəniyyətinin inkişafı ilə bağlıdır. İnkişafda olan dil müəyyən baxımdan inkişafda olan xalq deməkdir [4]. Azərbaycan xalqının varlığını yaşadan Azərbaycan dili, neçə yüz illərdir ki, onun milli, mənəv i varlığını, mövcudluğunu qoruyub saxlayır. Azərbaycan dili xalqımızın milli varlığını müəyyən edən, azərbaycançılıq məfkurəsinin əsasında duran mühüm amillərdəndir.

Dil ulu babalarımızın, aqillərimizin bizə yadigar qoyduğu bir tarixdir, mənəviyyatdır, xalqımızın varlığı və Azərbaycan adlı müstəqil dövlətin əsas simvoludur. Dilə dövlət dili statusunun verilməsi isə həmin xalqın milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsinə geniş imkan yaradır.

Əsrlər boyu təqib və təzyiqlərlə qarşılaşan dilimiz laylalarımızın, bayatılarımızın, nağıllarımızın, "Kitabi-Dədə Qorqud"umuzun dilidir. Nizami müdrikliyi, Nəsimi üsyankarlığı, Şah İsmayıl qüdrəti, Füzuli məhəbbəti, Üzeyir dühası bu dildə ifadə olunaraq xalqımızın yaddaşına əbədi həkk olunub. Azərbaycan dilinin dünya dilləri arasında ən kamil dillərdən biri olduğunu bir çox xalqların görkəmli nümayəndələri də etiraf ediblər [3].

Dünyada baş verən qloballaşma və inteqrasiya prosesləri milli kimlik məsələsini gündəmə gətirir. Belə ki, millətlərin bu prosesler əsnasında sıradan çıxmaması üçün milli kimlik şüurunun inkişafını labüd edir. Azərbaycanda bu funksiyanı məhz Azərbaycançılıq ideyası tamamlayır. Adi həyat tərzi belə milli kimlik məsələsində dil amilinin əsas olduğunu üzə çıxarır. Azərbaycan dilinin qloballaşan dünyada qlobal mahiyyət daşıması üçün məqsədyönlü işlər görmək vacibdir. Məhz bu kimi düşünülmüş, tarixən özünü təsdiq etmiş, eləcə də müasir proseslərə uyğunlaşdırılmış milli kimlik siyasətinin həyata keçirilməsində hər bir vətəndaşın üzərinə böyük məsuliyyət düşür.

Planetin bütün irili-xırdalı dövlət və millətləri könüllü və ya könülsüz, ixtiyari və ya qeyri-ixtiyari son nəticədə böyük qloballaşmaya aparıb çıxaran nəhəng inteqrasiya magistralına qoşulmaqdadır. Qloballaşma kontekstində etnik-milli mövcudluğun siyasi, iqtisadi, kultural, mənəvi suverenliyi ilə bağlı milli konsepsiya və konseptual ideyalar yekcins deyil. Bu prosesi sosial-siyasi, mədəni-mənəvi, iqtisadi-güzəran, elmi-intellektual müstəvilərdə vahid qlobal harmoniya hesab və kainatın daha çox vahid bir mərkəzdən idarə olunan bürokratik-texnoloji ərazi vahidinə çevrilmə prosesi olduğunu iddia edənlər var.

Qloballaşma həyatın bütün sferalarına olduğu kimi milli dillərə, adət-ənənələrə, dünyagörüşə, xalqın ruhunun və vərdişlərinin təzahürü olan mentalitetə də güclü təsir göstərir. Bu təsirin əlamətləri, hətta nəticələri artıq özünü qabarıq şəkildə büruzə verməkdədir. Dil məsələsi milli, ictimai təfəkkürün və düşüncənin inkişafı fonunda diqqətdən kənarda qala bilməz. Qloballaşma prosesi nəticəsində dilin istifadə edilməsi ilə bağlı bir sıra problemlər yaranır:

“Bəzi dünya dilləri yox olur, bəziləri isə güclü xarici təsirə məruz qalır. Qloballaşma dövründə xalqların öz ana dilini qoruyub inkişaf etdirməsi də ciddi məsələyə çevrilib.

Cəmiyyətin virtuallaşması, qloballaşmanın sürəti dilin inkişafına öz təsirini göstərdiyi kimi, dilin inkişafını və dəyişməsini də sürətləndirir. Bütün bunlar dillərin və dillərarası əlaqələrin inkişafında ümumi qanunauyğunluqların meydana çıxmasına səbəb olur. Dildəki dəyişmələr və inkişaf təkcə linqvistik yönümdən deyil, eyni zamanda cəmiyyətdə və dünyada baş verən sosial, siyasi və iqtisadi meyillər yönümündən müzakirə edilməlidir. Ən mühüm məsələlərdən biri budur ki, dövlət və cəmiyyət arasında dilin qorunması ilə bağlı əlaqə gücləndirilir. Dünyada müşahidə edilməkdə olan qloballaşma prosesi şəraitində dilin qorunması və inkişaf etdirilməsi probleminə iki cür yanaşma mövcuddur. Bu yanaşmalardan biri milli xüsusiyyətlərin, o cümlədən dilin qorunub saxlanmasından ibarətdir, ikinci yanaşma isə ölkənin və onun dilinin dünyaya açıq olması məsələsidir.

Qloballaşma obyektiv olaraq baş verən qarşısıalınmaz prosesdir. Biz onun qarşısını alıb saxlaya bilmərik. Ən yaxşı halda biz qloballaşma şəraitində milli mənliyimizi, mentalitetimizi, dilimizi qoruyub saxlamağın yollarını axtara bilərik. Dilimizin qorunması, ancaq gələcək nəsillərə ötürülməsilə mümkün olur. Gələcək nəsillərə ötürülməyən dil, ölü dillər arasına girər. Buna görə də, Azərbaycan dilinin qloballaşma dövründə qorunub saxlanması və inkişaf etdirilməsi vacibdir. Mənə elə gəlir ki, bəlkə də qloballaşma olmasaydı, ana dilinin qorunması məsələsi bu qədər qabardılmazdı və aktuallaşmazdı. Burdan paradoksal bir vəziyyət yaranır; ana dilinin qorunması uğrunda mübarizəyə görə, biz haradasa həm də qloballaşmaya borcluyuq.

Ana dilinə məhəbbət, bu dili qorumaq hissi kiçik yaşlarından uşaqlarda tərbiyə olunmalıdır. Dili ötürmənin başlıca yolu, milli təlim-tərbiyə və təhsildir. Bunun üçün evdə ata-ana, məktəbdə isə hər bir müəllim, xüsusilə Azərbaycan dili müəllimi bu məsuliyyətli işi müqəddəs, şərəfli bir borc kimi yerinə yetirilməlidir. Ana dili elə bir məhvərdir ki, uşağın öyrədilməsi və tərbiyələnməsi bu məhvər ətrafında toplanmalıdır.

Azərbaycan dili qloballaşma şəraitində zamanın tələblərinə uyğun şəkildə inkişaf etdirilir, öyrənilir və tətbiq olunur. Belə ki, Azərbaycan dili dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın şəkildə ifadə etmək qüdrətinə malikdir. Dilimizin özünəməxsus inkişaf qanunları ilə cilalanmış kamil qrammatik quruluşu, zəngin söz fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı formaları vardır.

Dilin qorunması, onun inkişaf etdirilməsi və ədəbi dil normaları səviyyəsində istifadəsi ilə əlaqədar, həm dövlət qərarlarında, həm də alim tədqiqatçıların elmi-nəzəri fikirlərindən alınan qənaət budur ki, daim inkişafda olan dilə xüsusi qayğı ilə yanaşılmalı və bir sıra məsələləri diqqət mərkəzində saxlamaq lazımdır. Bunlara misal olaraq bu mənada bir dilin səciyyəvi cəhətləri gündəlik iş fəaliyyətinə çevrilməlidir. Belə ki, dərsliklərdə təhsil zamanı dilin qrammatik qaydalarına riayət edilməsi, mətbuat, radio və televiziya, dil lüğətləri, ədəbi dil normalarına aid ensiklopediyaların hazırlanması kimi vacib amilləri nəzərdə saxlamaq lazımdır.

Dil, mədəniyyətin ilk və təməl ünsürü olduğu kimi, digər mədəniyyət ünsürlərinin də başlıca daşıyıcısı və xəzinəsi durumundadır. Bu etibarla millət hər şeydən öncə və daha çox dil birliyi deməkdir [1]. Dil bu gün hər kəs üçün, hamımızdan ötrü milli müstəqilliyimizin başlıca şərtidir; o, malik olduğumuz mədəni keçmişimizin mühafizəçisi, gələcək mədəni yüksəlişinsə müdafiəçisidir. Dil olmadan mühakimə və təfəkkür üçün lazım gələn ünsürlər heç bir zaman əldə edilə bilməz. Ona görə də ana dili hər bir xalqın qürur mənbəyidir. Ana dilimiz dövlət rəmzlərimiz olan himn, gerb, bayraq kimi müqəddəsdir.

Gəlin, dilimizi qoruyaq, ona hörmət edək, hər birimiz üçün müqəddəs olan, babalarımızdan bizə miras qalan bu neməti tam dolğunluğu və gözəlliyi ilə gələcək nəsillərə ötürək.

## Ədəbiyyat


1. Cəfərov N. Azərbaycan mədəniyyəti məsələləri. Bakı: BDU, 2000, səh. 50
2. Əfəndiyev T.İ. Milli mədəniyyət naminə. “Mədəniyyət və sənət” jurnalı, 2003, № 1, səh. 2
3. Əlizadə A. Milli mədəniyyətdə tarixilik (dərs vəsaiti). Bakı: Mars-Print, 2000, səh.130
4. Философия М. Хайдеггера и современность. М.: Наука,1991, стр. 242

UOT 398:801.6: 398:82.0; 801.8

# Folklor xalqın mənəvi ehtiyaclarını ödəyən milli sərvəti kimi

*İsayeva Sevil Mirhəsən qızı*
*Mingəçevir Dövlət Universiteti*

Müstəqillik qazanmış respublikamıza layiq, hərtərəfli inkişaf etmiş gənc nəsil yetişdirib tərbiyə etmək günün zəruri məsələlərindən biridir. Təlim-tərbiyənin bir sıra yolları vardır ki, bunlardan ən ümdəsi milli-mənəvi irs və onun qloballaşma şəraitində təbligi məsələləri, milli dəyərlərlə bəşəri dəyərlərin vəhdəti məsələsidir.

Azərbaycan Respublikasının müstəqil, demokratik, hüquqi dövlət kimi inkişaf etdiyi indiki dövrdə uşaqlara, gənc nəslə milli-mənəvi dəyərlərin, milli-məvəvi irs və onun qloballaşma şəraitində təbliği məsələlərinin aşılanması xüsusi aktuallıq kəsb edir. Təbiidir ki, Azərbaycan folklor nümunələrində gənc nəslin mənəvi tərbiyəsi baxımından əhəmiyyətli olan məsələlər – milli-mənəvi dəyərlərimiz, milli-mənəvi irsimiz, mütərəqqi adət-ənənələrimiz, ata-babalarımızın qəhrəmanlığı, toyu, yası, bayramı, sevinc və kədəri, böyüyə hörmət və s. öz bədii həllini tapmışdır. Respublikamızda elə bir region yoxdur ki, orada yerli şəraitlə bağlı el ədəbiyyatı nümunələri olmasın. Ağsaqqalların, ağbirçəklərin, valideynlərin söylədiyi laylalar, oxşamalar, nağıllar, atalar sözləri, bayatılar, tapmacalar və s. Azərbaycan folklor nümunələri gənc nəslin dünyagörüşünün, həyata baxışlarının formalaşmasında, milli-mənəvi dəyərlər ruhunda tərbiyəsində əvəzsiz rol oynayır.

Ulu öndər Heydər Əliyev Azərbaycanda rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, Azərbaycan folklor nümunələrinin, milli-mənəvi irsinin və onun qloballaşma şəraitində təbliğinə, milli dəyərlərlə bəşəri dəyərlərin vəhdətinə, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Eyni zamanda, ulu öndər gənclərimizi xalqımızın milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edərdi. Ümummilli lider Heydər Əliyev 1996-cı ildə Gənclərin Birinci Respublika Forumunda yeniyetmə gənclərə, tərbiyəçi və müəllimlərə müraciət edərək demişdir: "Cəmiyyətimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimiz əsasında tərbiyələnməlidirlər. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr edirik". Yetişməkdə olan gənc nəslin təhsili, tərbiyəsi, inkişafı bütün dövrlərdə aktual olmuş və insan cəmiyyəti mövcud olduqca aktual olaraq qalacaqdır, çünki onun, xalqın, millətin tərəqqisinə yönəldilmiş strateji əhəmiyyəti vardır. Ulu öndər Heydər Əliyevin "Təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir" prinsipinin yerinə yetirilməsinin təmin olunması üçün milli dəyərləri saxlamaqla, təkamül yolu ilə dünya təhsil sisteminə doğru hərəkət edib, Azərbaycan təhsil sistemini yeni zirvələrə qaldırmalıyıq. Məhz bu mənada gənc nəslin tərbiyəsinin milli zəmində təşkili mühüm əhəmiyyət kəsb edir. Bu gün dövlətin mədəni imicinin formalaşmasında mədəniyyət faktorunun prioritetini vurğulayan tədqiqatçılar onu hər bir millətin unikallığını, suverenliyini, mentallığını ehtiva edən, habelə ərazi bütövlüyünün qorunmasında və zaman çərçivəsində translyasiya kodu kimi müəyyən edirlər. Bundan başqa onlar qlobal və informasiya cəmiyyətinə keçid mərhələsində mədəniyyət amilini cəmiyyət həyatının hər addımının layihələşdirilməsində, şəxsiyyətin formalaşmasında böyük və tükənməz resurs kimi tərif edirlər.

Beynəlxalq əlaqələrin sürətlə inkişaf etdiyi bir vaxtda milli mədəniyyətlərdən hər hansı biri təkcə öz çeşmələrindən deyil, həm də başqa xalqların mənəvi sərvətindən faydalanır və öz növbəsində onlara müsbət təsir göstərir, onları zənginləşdirir [1].

Hazırda milli vətənpərvərlik təbliğatının genişləndirilməsi, xalqımızın milli vətənpərvərlik ruhunun qaldırılması, gənclərin milli tərbiyəsinin inkişaf etdirilməsi bir vəzifə kimi qarşıya qoyulmuşdur. Bu vəzifələrin öhdəsindən ləyaqətlə gəlmək cəmiyyətimizin hər bir üzvünün vətəndaşlıq borcudur. Ölkəmizdə gənc nəslin tərbiyəsinin milli zəmində və demokratik prinsiplər əsasında qurulması Milli Ordumuzun və gənc dövlətimizin daha da güclənməsinə və inkişaf etməsinə səbəb olar. Bununla da, xalqımızın layiq olduğu qüdrətli, müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsi daha da sürətlənər. Milli maraqlar üzərində həyata keçirilən siyasət və mənəvi

mühitin təkamül tapması XX əsrdə Heydər Əliyevin xalqımıza bəxş etdiyi böyük sərvətlərdən biridir və Prezident İlham Əliyevin rəhbərliyi altında milli dəyərlərlə bəşəri dəyərlərin vəhdəti məsələsi lazımi həllini tapmışdır və bu istiqamətdə işlər davam edir. Bu irs hər zaman Azərbaycan mühitinə, Azərbaycan dövlətçiliyinə, Azərbaycan elminə, təhsilinə və mədəniyyətinə nur saçacaq, milli-mənəvi dəyər kimi əbədilik qazanacaqdır. Ulu Öndərin fikrincə, mənəvi mədəniyyətin milli modellərinin tələb olunan imkanlara malik olmaslı üçün onları ümumbəşəri dəyərlərlə yüksək əxlaqi və mənəvi paklığın tarixi nümunələri əsasında zənginləşdirmək və təkmilləşdirmək lazımdır [2].

Bu gün təlimin yeganə güvənli forması olan dərsin keçirilmə texnologiyalarını təkmilləşdirmək, onun funksiyalarımı dəqiqləşdirmək, didaktik imkanlarını genişləndirməklə yaranmış problemləri həll etmək olar. Hazırda hər bir təlimin vəzifəsi öyrənənləri elmlərin əsaslarının mükəmməl mənimsənilməsini təmin etməklə yanaşı, Azərbaycan milli dəyərlərinin məğzini dərindən duymaq, onlara yüksək əxlaqi keyfiyyətlər aşılamaq və həyata hazırlamaqdan ibarət olmalıdır. Deməli, təhsil şagirdin bilik, bacarıq və vərdişlərlə silahlanması kimi yox, məktəblinin əqli və fiziki cəhətdən tam formalaşdırılması kimi başa düşülməlidir. Təlim də, tərbiyə də təhsilin tərkib hissələridir. Elə bu səbəbə görə də “təhsil qanunu” deyirik, amma “tərbiyə qanunu”, “təlim qanunu” demirik. Əxlaqi söhbətlərin müasir tələblərə cavab verən tərzdə aparılması şagirdlərdə effektiv nəticə verir və cəmiyyətimizin inkişafına xidmət edən şəxsiyyətlərin formalaşmasına zəmin yaradır. Sağlam düşüncəli insan yetişdirmək ailə və məktəbin birgə fəaliyyəti nəticəsində mümkündür. Müəllim və tərbiyə olunanlar arasında münasibətlərin tənzimlənməsi, məktəbin, ailənin və ictimaiyyətin vahid pedaqoji mövqedən çıxış etmələri vacibdir. Tərbiyə işi mənəvi və ümumbəşəri dəyərlərə əsaslanan təhsil əsasında qurulmalıdır. Şagirdlərin milli-mənəvi, əxlaqi dəyərlər zəminində formalaşmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi tərbiyə işinin özəyini təşkil edir.

Müşahidələr göstərir ki, milli adət-ənənələri dərindən bilən, tərbiyədə ona istinad edən ailələrdə oğlan və qızlar öz xalqının milli xüsusiyyətlərini daha yaxşı mənimsəyirlər. Böyüdükdə isə bu mənəvi dəyərləri, bu ənənələri həm bəyənir, həm də fəaliyyət və davranışlarında ona əməl edirlər. Bir çox tədqiqatçılar göstərirlər ki, xalq yaradıcılığı, folklor nümunələrindən uşaqların tərbiyəsində istifadə etdikdə milli xüsusiyyətlər daha yaxşı mənimsənilir. Tədqiqatçıların fikrincə, körpəlikdə uşağa doğma dilində layla çalınması həm onların fiziki sağlamlığına, həm də mənəvi tərbiyəsinə müsbət təsir göstərir. Eyni zamanda uşaqların tərbiyəsinin daha düzgün təşkili üçün valideynlərin özləri ilə pedaqoji təbliğat işini gücləndirmək lazımdır.

Azərbaycan xalqı çoxəsrlik zəngin tarıxə və zəngin mədəniyyətə malik bir xalqdır. Mədəniyyət hər bir xalqın beynəlxalq miqyasda tanınması, özünütəsdiqinin ən mühüm və effektiv vasitələrindən bir hesab olunur. Azərbaycan ədəbiyyatının qaynağında zəngin və dərin məzmunlu Azərbaycan folkloru durmaqdadır. Folklor xalqın mənəvi ehtiyaclarını ödəyən miili sərvətdir. Xalq yaradıcılığı – folklor tərbiyə sahəsində əsrlər boyu əldə edilmiş təcrübəni, fikir və ideyaları özündə cəmləşdirən mənəvi sərvətdir. Folklor yalnız tərbiyə ideyaları deyil, xalq həyatının digər cəhətləri – tarixi, adət-ənənəsi, etnoqrafiyası, pedaqogikası və s. əks olunduğundan xalq yaradıcılığı nümunələrinin araşdırılması və dərindən öyrənilməsi elm üçün qiymətli faktlar verir. Azərbaycan folklor nümunələrinin böyük bir qrupu xüsusi olaraq uşaqlar üçün yaradılmışdır. Bunlar həm lirik, həm epik, həm də dramatik növə məxsus örnəklərdir. Lirik növə aid janrlar – layla, nazlama, uşaq mahnıları, epik növə aid tapmaca, yanıltmac, qaravəlli, uşaq nağılları, dramatik növə aid isə uşaq oyunları və tamaşalar daxildir.

Hər bir təcrübəli tərbiyəçi, müəllim folklor nümunələrini uşaq şəxsiyyətinin hərtərəfli tərbiyə olunma vasitəsi və forması kimi görürlər. Uşaqları, gəncləri, soy-kökümüz, tarixi keçmişimiz, xalqımızın milli azadlıq uğrında mübarizəsi, zəngin milli adət-ənənələrimiz, milli-mənəvi dəyərlərimizlə tanış etmədən onlarda Vətənə məhəbbət hissi oyatmaq mümkün deyil. Bəli, Azərbaycan folkloru bizim tariximizi, keçmişimizi, coğrafiyamızı, milli-mənəvi dəyərlərimizi özündə əks etdirir və gənc nəslin mənəvi tərbiyəsində böyük əhəmiyyətə malikdir. Qabaqcıl tərbiyəçi və müəllimlər bu məqsədlə vətənə, xalqa, təbiətə məhəbbət hissləri aşılayan folklor nümunələrindən məharətlə istifadə edirlər. Xüsusilə də “Dost-dosta tən gərək, tən olmasa gen

gərək", "Ehtiyat igidin yaraşığıdır", "İgidin igiddən ehtiyatı artıqdır", "Yaxşılığa yaxşılıq hər kişinin işidir, Yamanlığa yaxşılıq nər kişinin işidir" və s. bu kimi atalar sözləri xalqın dillər əzbəridir. "Yaralı durnam", "Bizə niyə gəlmirsən?", " O xal nə xaldı", "Saramı", "Neylərsən", "Evlərinin altı qaya" və s. lirik xalq mahnıları, uşaq nəğmələri, əmək nəğmələri, mövsüm və mərasim nəğmələri, qəhrəmanlıq nəğmələri", tərbiyəvi məzmunlu xalq bayatıları, yaxud "Bir il əkərlər, Yeddi il biçərlər" (yonca), "Üstü zəmi biçərlər, Altı bulaq biçərlər" (qoyun), "Dili yoxdur dilləndirir, İnsanı elmləndirir" (kitab) və s. kimi tapmacalar, "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş", "Kosa-kosa"kimi xalq teatrı - tamaşaları, "Moz-mozu", "Bənövşə", "Siçan-pişik", "Gözbağlayıcı", "Dirədöymə", "Gizlənqaç", "Dəsmalaldı, qaç" və s. xalq oyunları tərbiyəvi əhəmiyyətli əvəzsiz folklor nünunələridir. Xalq içərisində "Kosa-kosa" adı ilə məşhur olan mövsüm mərasimi, eyni zamanda həm də xalq dramımızın ən yaxşı nümunələrindən olan bu əsər əsasən Kosa ilə Keçi arasında gedən mübarizədən danışır. Buradakı Kosa öz keçə paltarı və tüksüz siması ilə otsuz-çiçəksiz qışın antropomorfizmi, Keçi isə bir sıra qədim xalqlarda olduğu kimi, bizdə də yazın baharın zoomorfizmindən ibarətdir. Deməli, bu xalq draması əsərində fəsillər özləri antropomorfik və zoomorfik surətlər şəklində canlandırılmışar. Lakin bir fəslin bitib, digər bir fəslin başlanması ilə əlaqədar olan mərasimlər – folklor mümunələri müxtəlif şəkillərdə olmuşdur ki, bunlardan biri də fəslin gəlməsini, onun başlanğıcını müjdə verən müəyyən bir əlamətin – çiçəyin, quşun müqəddəsləşdirilməsindən ibarətdir. Xalqımızın dövlət səviyyəsində qeyd etdiyi "Novruz bayramı" bu mənada səciyyəvi əhəmiyyətə malikdir.

Milli dövlət ənənələrinin yaranmasında və inkişafında əvəzsiz xidmətləri olan ulu öndər Heydər Əlirza oğlu Əliyev vətən, torpaq, millət, azadlıq, bərabərlik, müstəqillik barədə təsirli ifadələr söyləmişdir. İllərin sınağından çıxmış həmin ifadələr aforizmlər kimi həmişə öz aktuallığı və müasirliyini saxlayacaqdır. Məsələn, "Xalqın müqəddaratı hər şeydən üstün olmalıdır", "Tarix həmişə hər şeyi öz yerinə qoyur", " Öz mədəni irsini qoruya bilməyən xalq nəyə qadir olduğunu heç vaxt sübut edə bilməz", "Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir" və s.

Mənəvi dəyərlər hər bir cəmiyyətin əsasıdır. Unutmaq olmaz ki, hər bir millilikdə umumbəşərilik, ümumbəşərilikdə isə millilik vardır.

## Ədəbiyyat


1. BDU Fililogiya fakültəsi. Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 7-8 may 2015-ci il. 485 səh.
2. Əliyev H.Ə. Mənəviyyat. Mənəvi dəyərlər. Mənəvi tərbiyə. "Müəllim" Bakı, 2011, 635 səh.


UOT 316.752/754

## Bədii ədəbiyyatda Avropa və milli dəyərlərə münasibət

*İsmayılova İlhamə Şubay qızı*
*Mingəçevir Dövlət Universiteti*

Ədəbiyyatın əsas vəzifələri haqqında hər yaradıcı şəxsin öz fikirləri var. Ancaq mütləqdir ki, ən dəyərli və önəm verilən fikirlər dahilərə məxsusdur. Dahilərinsə bu məsələ barədə fikirlərində elə də fərqli cəhətlər yoxdur. Ədəbiyyat bəşəriyyətə xidmət etməli, həqiqəti əks etdirməli, xilas yolunu müəyyənləşdirməlidir və s. Sözsüz ki, ən kamil insanın formalaşması onun mənəvi keyfiyyətlərə xas xüsusiyyətlərə yiyələnməsi bədii ədəbiyyatdan kənarda mümkün deyil. Əslində ən kamil əsərlər bəşəri hissləri formalaşdırır. Əsil yazıçı ədəbiyyata, daha geniş ifadə etsək bəşəriyyətə xidmət edir. Yazıçı əsəri yazarkən təkcə oxucunu maraqlandırmaq barədə düşünmür, onu narahat edən məsələlər barədə fikir yürüdür. Deməli yazıçının həm də öz yükündən azad olmaq tələbatı var. Oxucunun məkanı, zamanı, irqi, milliyyəti yazıçı üçün əhəmiyyət kəsb etmir. İstər

Şərq, istərsə də Avropada əsl ədəbiyyat deyərkən özündə bəşəri hissləri aşılayan əsərlər nəzərdə tutulur. Ən bəşəri hissləri özündə ehtiva edən yazıçının da içində bir "mən"i var. Bu "mən" onun kimliyidir. Bəzən bu "mən" dən çıxış edən yazıçı özü də hiss etmədən böyük çevrədən-dünyadan, kiçik çevrəyə-ölkəsinə yönəlir. İnsanın hissləri nə qədər zəngin olarsa, yaratdığı əsərin əhatə dairəsi də o dərəcədə böyük olur. Hər bir oxucu üçün əsas oxuduğu əsərin mövzusudur. Əsəri oxuyarkən o hadisələrin içinə düşür, obrazlarla baş-başa qalır, hadisələrin iştirakçısına çevrilir. Oxucu üçün yazıçının şəxsiyyəti və kimliyi də arxa plana keçir. Hər sənət sahəsində olduğu kimi Azərbaycan ədəbiyyatında da qərbə münasibət birmənalı deyil. N.Şəmsizadənin fikrinə görə görkəmli Azərbaycan alimi, tənqidçi Y.Qarayevin meyarı sosioloji ekvivalent olan sovet tənqidinə Şərq və Avropa dəyərlərinə əsaslanan yeni estetik meyar gətirməsidir. Şərq miqyasi, Şərq konteksi Y.Qarayevin tənqidində coğrafi əlamətlər deyil, estetik miqyasın ölçüləri kimi çıxış edir. Məsələn: "Sənətkar və tarix" əsərində oxuyuruq: "H.Cavid ən qədim və yeni Şərqi, müasir Avropanı milli folkloru sintezdə və qaynaqda birləşdirməyi bacarır" [3]. İndi Qərbin Şərqə, xüsusən turk islam aləminə təlim etdiyi kurələşməni-qloballaşmanı 1917-ci ildə 35 yaşlı turk milliyətçisi H.Cavid təlim etmişdir, amma onun təlim etdiyi qloballaşmanın öz məntiqi əsası, milli zəmini vardır, tarixinə, yaddaşına sədaqətlə XX yüzilliyin səfərinə uğurladığı turk millətinə yaxına-uzağa həmdərd olmağa, bəşər sevgisini və qardaşlığını tövsiyə edirdi". Qonşu-qonşu, yaxın-uzaq hər kəslə həmdərd olun" [1].

Türk ədəbi millətçiliyinin mahiyyəti budur, "digər insanlar heyvancasına təsərrüf edən və yapdiklarına məsud olmayan" fövqəlbəşər millətçilik deyil, ayırmağa yox birləşdirməyə gələn və bunu etiraf etməyi bacaran ümumbəşəri millətçiliyi idi.

İlk istəyim: hiç bir zaman sevgidən əl çəkməyin,
İnsan oğlu sevgi icin yaradilmış,doğulmuşdur.
Yer üzünü qardaş bilin, insan qanı tökməyin,
Bu dünyada bir qarış su cok zalimler boğmuşdur.
Kimsəyə kin bağlamayın,yigit olun,mərd olun,
Vicdanınız elmas gibi nur sacaraq parlasın,
Qonu-qonşu,yaxın-uzaq hər kəslə həmdərd olun,
Qırıq könülləri yakin, birakmayın sizlasın.

Bununla belə ki, H.Cavid oğul və qızlara turk millətinə sevgini, ümumbəşəri hissləri-qardaşlığı, igidliyi, mərdliyi zülmə qarşı barışmamazlığı, yaxınla uzaqla həmdərd olmağı, milli kökə, milli yaddaşa sədaqətini, elmə həvəsi təlim edirdi.

Bir millət öz kökü üstə bitər, böyür yüksəlir,
Köksüz ağac çabuk çürür,çiçək açmaz, bar verməz,
Bakın görün tarixiniz sizə nələr göstərir.
Həp şərəf, həp böyüklukdur, ancaq şaşılar görməz və Marş irəli!

Qonşular yol aldı geri qalmayın-əmrini verirdi. H.Cavidin ən dərin tədqiqatçısı, ədəbiyyatşunas alim Azər Turanın fikrincə, bu bir bütöv halda turk ədəbiyyati üçün yeni düsturdur, vizual millətçilik deyil, milli ideoloji təməldə, xoşbəxt əsasda ifadə olunan prinsiplərə sistemli münasibətdir. Millət yaratmaq düşüncəsinin elmi və ictimai səhifəsidir [1]. Beləliklə, tədqiqatçının gəldiyi qənaətə görə H.Cavid Qərbin fövqəlinsanı ilə Şərqin kamil insanını ən mükəmməl bir şəkildə birləşdirə bildi. Avropanın və Asiyanın miqyasları H.Cavid düşüncəsinin arasında daraldıqca daraldı.

Təkcə Azərbaycanın istiqlal tarixində deyil, bütün türk dünayasında "Türkləşmək, İslamlaşmaq və Müasirləşmək" formulu ilə böyük xidmətlər göstərmiş Əli bəy Hüseyinzadə Avropadakı məfkurə dostlarına Bakıdan səsləyərək yazırdı :"Ey Türkiyənin, İranın vətəndən olan və cüda düşən hüriyyət yetimləri! İsveçrənin sizə biganə olan soyuq alplarından, Misirin lal və samit ehramlarından, hətta bütün Avropanın mərkəzi qeylü-qalından imdad gozləməyərək, oralardan səsmizi, fəryad və fədanızı vətənə eşitdirməlisiniz. Oralarda sizi kimsə himayə edəməz! Deyərək onları vətənə səsləyir, istiqlaliniz ancaq Nuhi-Qal ola bilər deyirdi [2].

Ə.Hüseyinzadə cəhaləti zöhrəvi xəstəlikdən daha dəhşətli bəla hesab edirdi. Bütün Avropa zöhrəvi xəstəliyindən əziyyət çəkdiyi dönəmlərdə İngiltərədəki təcrübədən bəhrələnməyi lazım

bilsə də əxlaq, maddi və mənəvi baxımdan yüksəlməyi qarşıya məqsəd olaraq qoyurdu. Çünki, təəssüf ki, xalqın xilası İngiltərə təcrübəsinə istinad etməyi zəruri edirdi. Ancaq bu da əxlaqımıza zidd bir məsələ idi.

Əslində Azərbaycanın mütərəqqi fikirli söz adamlarının XX əsrin əvvəllərində Avropaya üz tutması təbii idi. Çünki bu dövrdə Azərbaycanda cəhalət, savadsızlıq hökm sürürdü. İndi bütünlüklə Avropa dəyərlərini xalqa "sırıyanları" isə başa düşmək olmur. Avropa düzgün yolda olsa idi, hazırda mənəvi böhran və krizislə baş-başa qalmazdı. Bizi bu mənəvi krizisdən sığortalayan isə milli şüur və islam dinidir desək məncə yanılmarıq. Qərb modelini təklifdə bulunanlar bizim adət-ənənələrimizi, ailə dəyərlərimizi, qadin-kişi munasibətlərini bəyənməyənlər görəsən Qərb modelindəki hansı üstünlükləri görürlər?! Təəssüf ki müasir qələm sahiblərinin əksəriyyəti Qərb modelinin,qərb təfəkkür tərzinin təbliği ilə məşğuldurlar,əsərlərində bunları təbliğ edirlər. Onların fikrinə görə dəyərlərimiz çürüyüb,onları rədd etmək lazımdır.Yalnız bu yolla taleyüklü məsələlərimizi, psixoloji problemlərimizi aradan qaldıra bilərik.

Bütün dövrlərin ən böyük şairi hesab edilən Y.V.Höte isə hələ 1815-ci ildə Avropanı irtica bürüyərkən "Bütün varlığı, gücü ilə Şərqə haqq dinin gəldiyi yerə, qeybdən xəbər verən, iman gətirənləri müjdələyən Peyğəmbərin diyarına varır" [4]. Hötenin Şərq poetik dunyası ilə tanışlığı onun dünyagörüşündə əsaslı dəyişiklik yaradır və bu da yaradıcılığında öz əksini tapır. Hafizin, Caminin və Nizaminin yaradıcılığı ilə tanışlığı onda Şərq müdrikliyinə heyranlıq yaradır. Qərb mədəniyyəti ilə Şərq mədəniyyəti arasında bir bağlılıq görür və şeirlərində hər iki mədəniyyəti, dəyərləri, düşüncə tərzini qovuşdurmaq istəyir. Qərbdə də Şərqdə də yazıçıların müharibə mövzsuna münasibəti birmənalıdır. Müharibədə qalib yoxdur. Müharibə dağılmış şəhərlər, öldürülmüş insanlar, yetim, ümidsiz uşaqlar deməkdir. Adətən Azərbaycan ədəbiyyatında müharibəyə həsr edilmiş əsərdə mütləq oxucuda düşmənə nifrət aşılanması yazçı və şairin ən mühüm vəzifələri hesab edilirdi. Yazıçı və şair qələmini süngüyə çevrilməli idi.

Çağdaş ədəbiyyatda dəyərləri dəyişmə meyli var. Əslində bəzən bu özünü mütləq mənada doğruldur. Tənqidçi Mətanət Vahid yazir: "Müharibə insanın ən böyük sınaqlarından biridir. Yazı masası səngərə çevriləndə qələm süngüyə dönüb düşmənin ürəyinə batmamlıdır. Yazarın bir hərbiçidən fərqi süngüləri çiçəklərlə əvəzləmək olmalıdır. Yoxsa ədəbiyyat kimə və nəyə xidmət etmiş olar?" [5].

Türk ədəbi simalarından olan Əbdulhəq Hamidin "Teyflər keçidi" əsərində qərb və şərq qarşıdurması dahilərin dialoq və mübahisələrində öz əskini tapır. Əsər çox maraqlı süjet xəttinə malikdir. Qərb və Şərqin görkəmli mütəffəkirlərinin ruhları qarşılaşdırılır. Hafiz, Sədi, Ömər Xəyyam, Firdovsi, Namiq Kamal Şərqi, Dante, Hüqo, Şekspir isə Qərbi təmsil edir. Bütün ədiblər bir-birini dinləyir. Şərq və Qərb ədəbiyyatları arasında mübahisələr yaranır. Nəticə də isə qərbli və şərqli olmalarından aslı olımayaraq böyüklüklərini dərk edirlər və düşünürlər ki, əsər insanlığa xidmət etməli, bəşərilik əsas götürülməli, mənəviyyat təbliğ olunmalıdır. Çünki, insan yalnız yüksək əməlləri hesabına əbədilik qazana bilər.

## Ədəbiyyat


1. Azər Turan. Cavidnamə. Bakı: "Elm və təhsil" 2010, 565 səh.
2. Azər Turan, Paşayeva Q. Ə.Hüseyinzadə Turan. Bakı: "Elm və təhsil" 2009, 150 səh.
3. Hacıyev V. Dünyanın ən böyük şairi. Ədəbiyyat qəzeti, 19 mart 2016, №11
4. Şəmsizadə N. İdrakın üfüqləri. Ədəbiyyat qəzeti, 5 mart 2016, № 9
5. Vahid M. Süngüləri çiçəklərlə bəzəyək. Ədəbiyyat qəzeti, 12 mart 2016, № 10

UOT 373.1.02; 373.1.02: 372.8

# Şagirdlərdə texnoloji təfəkkürün formalaşdırılmasında milli-mənəvi dəyərlərin rolu

*Yunusova Pəhruzə Məmməd qızı*
*Nəbiyeva Sevil Kamil qızı*
*Mingəçevir Dövlət Universiteti*

Ümummili liderimiz Heydər Əliyev Dünya Azərbaycanlılarının həmrəylik günündə demişdir:"Bizim hamımızın bir vətəni var – bu Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır. Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək,mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır"[1].

Qədim dövrlərdə "Dədə Qorqud", "Manas", "Alpamış", "Koroğlu" dastanları, xalqımıza mənsub olan dahi şairlərimiz, yazıçılarımız – Nizami, Füzuli, Nəsimi və digərləri tariximizi, mənəvi dəyərlərimizi əks etdirən, bizi dünyada tanıdan ölməz əsərlər yaratmışlar və bunlar nəsillərdən-nəsillərə xalqlarımızı özünə-məxsus milli-mənəvi dəyərlər o cümlədən, ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, hazırlamış, vətənpərvərlik, vətənə sədaqət hisslərini daim gücləndirmişdir. Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq əsrimizə, yeni yüzilliyə qədər gəlib çatmışdır. Xalqın toy-büsat mərasimi, bayram adət-ənənələri, Novruz mərasimləri, yas mərasimləri, İslam dininin təmizlik, düzlük, insanilik, kimi bəşəri, ali hissləri tərbiyə edən dəyərləri onun milli-mənəvi dəyərlərini özündə yaşadır. Uzun illərin yolu və əsrlərin, qərinələrin sorağı bu ənənələrə bizi bağlamış, dövrümüzə körpü salmışdır. Müasir insanın formalaşması və özünü təsdiqi, məhz milli-mənəvi dəyərlərin aşılanması prosesi ilə bağlıdı [1].

Qloballaşma prosesi elm, texnika, texnologiya ilə ümumbəşəri dəyərlərlə yanaşı milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə də sirayət edir. Belə bir şəraitdə nələri qorumaq lazım olduğunu təyin etmək üçün, ilk növbədə meyarlar müəyyənləşməlidir. Bu gün bizim vətəndaş borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə, mədəniyyətimizə, böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan və onu təbliğ etməkdən ibarətdir. Şifahi xalq ədəbiyyatı, el sənəti, milli musiqi, millətin mədəni-mənəvi mövcudluğunun bütün təzahürləri bu gün vahid bir ideya ətrafında sıx surətdə birləşməlidir. İndi bizim qarşımızda bir tərəfdən milli köklərə, milli-mənəvi dəyərlərə qayıdış, digər tərəfdən də elmi-texniki inkişaf və informasiya cəmiyyətinin qoyduğu çağdaş tələblərə uyğunlaşmaq vəzifəsi durur.

Müasir dövrdə şagirdlərə texnoloji mədəniyyətin aşılanması böyük əhəmiyyət kəsb edir. Resursların və informasiyaların insanların maraq və mənafelərinə xidmət etməyə yönəldilməsinin zəruri tələb kimi irəli sürüldüyü bir vaxtda şagirdlərin texnoloji bilik və bacarıqlara yiyələnmələri, öz fəaliyyətlərində onlardan məqsədyönlü istifadə edə bilmələri mühüm vəzifə qarşıya qoyulmuşdur. Texnologiya fənni vasitəsilə şagirdlər ayrı-ayrı xidmət sahələri üzrə məhsuldar əməyə hazırlanır, müasir texnologiyalarla ətraflı tanış olur, istehsalatdakı emal texnologiyalarına aid bilik və bacarıqlara yiyələnirlər [2].

Texnologiya fənninin təlimi prosesində şagirdlərin təfəkkürünün formalaşması və inkişaf etməsində milli-mənəvi dəyərlərimizdən olan şifahi xalq ədəbiyyatı nümunələrinin mühüm rolu var. Beləki, nağıllar, bayatılar, laylalar, tapmacalar və digər şifahi xalq ədəbiyyatı nümunələri vasitəsi ilə uşaqların nitqi və obrazlı təfəkkürü, sadə riyazi təfəkkürü (say, miqdar, forma, kəmiyyət və kəmiyyətin olçülməsi, fəza təsəvvürləri) formalaşmaqla yanaşı həmdə texnoloji təsəvvürlər formalaşdırılır, inkişaf etdirilir və uşaqlar praktik həyat üçün zəruri olan bilik, bacarıq və vərdişlərə yiyələnirlər. Məsələn, Əsas təhsil pilləsi (V-IX siniflər) üzrə Texnologiya təliminin məzmununa daxil edilmiş ümumi təlim nəticələrinin və xüsusi halda "şəraitə və təbii imkanlara uyğun olaraq bitkiləri becərməyi, ev heyvanlarına qulluq etməyi, kənd təsərrüfatı məhsullarını tədarük və emal etməyi bacarır" [2] ümumi təlim nəticəsinə yuyğun təlim standartlarının reallaşdırılması dərslərində

şifahi xalq ədəbiyyatı nümunələrindən tədris materialı kimi istifadə etmək olar. Uşaqlarda texnoloji təfəkkürün formalaşmasını əks etdirən bəzi şifahi xalq ədəbiyyatı nümunələrini nəzərdən keçirək.

Nənəm a narış qoyun
Yunu bir qarış qoyun
Bulamanı bol eylə
Gözləyir uşaq qoyun[3]

Bu nümunə uşaqların nitqini, obrazlı təfəkkürünü formalaşdırmaq və inkişaf etdirməklə yanaşı, eyni zamanda texnoloji xammal olan yun haqında, yeyinti sənaye məhsulu olan süd və süddən hazırlanan məhsullar haqqında, rəng (narınc), kəmiyyət, kəmiyyətin ölçü vahidi (qarış), tutum (bol) haqqında təsəvvürlərin formalaşmasında didaktik vasitə rolunu oynayır.

Uşaqların texnoloji təfəkkürünün formalaşması və inkişaf etməsində tapmacalarda mühüm rol oynayır.

Bir quşum var alaca,
Uçar qonar ağaca,
Ağacda bir ev tikər
Nə qapı qoyqr, nə baca (Baramaqurdu) [3].

Bu tapmaca vasitəsi ilə uşaqlar Azərbaycanda qədim zamanlardan ipəkçiliyin inkişaf etdiyini və ipəkdən hazırlanan məmulatlarla tanış olur. İpəkçiliyin Azərbaycan Respublikasının iqtisadiyyatında mühüm rol oynadığını şagirdlər öyrənirlər. İpəyin alınması texnologiyası ilə tanış olurlar.

Nəstdədir ay nəstədir
Taxt, rəvənd üstədir
Yay donar, qış açılar
Bu nə əcəb ustadır.

Bu tapmacanın açması soyuducu mövcud olmadığı zamanlarda süddən hazırlanan uzun müddət saxlamaq mümkün olan və ondan yeyinti məhsulu kimi istifadə olunan quruddur. Quruddan hal-hazırdada xəngəl xörəyində istifadə olunur. Qurudun hazırlaması texnologiyası belədir: Süd sağıldıqdan sonra ocaqda bişirilir. Müəyyən temperatura qədər soyudulur. Qatıqdan bir-iki qaşıq nəlbəkidə qarışdırılaraq südə qatılır və qaşıqla bir neçə dəfə qarışdırılır. Qazanın ağzı qapaqla örtülür və yun parça ilə qazanın hər tərəfi kip örtülür. Süd uyuşub qatıq olduqdan sonra ütü açılır və soyuyana qədər gözlənilir. Sonra qaymaqlı qatıq tuluqlarda saxlanır. Bu zaman qatığın suyu süzülür və qatılaşır. Qatılaşmış qatıq nehrəyə tökülür və təmiz su əlavə olunur. Nehrədə çalxanır. Yağ dənələri əmələ gəldikdə bu yağ dənələrinin bir-birinə birləşməsi üçün bir qədər isti su əlavə olunur və təkrar çalxalanır. Yağ ayrandan ayrılır. Bundan sonra yağ götürülüb ayrı qaba qoyulur. Ayran nehrədəki ayranı tutacaq qazana tökülür. Ayran təmiz ağ pambıq parçadan hazırlanmış torbaya tökülür və qatılaşana qədər (xəmir kimi olana qədər) süzülür. Bundan sonra qatılaşmış süzmə alınır. Süzmə təknənin içərisinə tökülür, duz əlavə olunur və xəmir kimi yaxşı-yaxşı yoğrulur. Bundan sonra ovucda dairəvi yumrulanır. Bu yumrulanmış süzmə qurud adlanır. Bundan sonra qurud əvvəlcədən hazırlanmış masanın üzərinə sıra ilə düzülür və üstü hava keçən ikiqat cunadan hazırlanmış süfrə ilə örtülür. Qurud kölgədə qrudulur. Tam quruduqdan sonra dağarcıqda və yaxud lifləri sıx toxunmuş pambıq parçadan hazırlanmış torbaya yığılır, nəm olmayan yerdə saxlanılır. Qatıq olmadığı zaman qurud maye halına gətirilərək istifadə olunur.

Mən aşiqəm düz bağlar,
Əyri çəkər, düz bağlar,
Aşıq bir hikmət görüb,
Od içində buz bağlar (Qaymaq) [3].

Bu tapmacanı açmaq üçün uşaqlar südün bişirilməsi texnoloji prosesinivə süddən alınan məhsulları təfəkküründə canlandırır və tapmacanın cavabını söyləyirlər.

Dağdan gəlir dağ kimi
Qolları budaq kimi
Əyilir su içməyə
Bəyırır oğlaq kimi

Bu tapmacanın açması maşınvə mexanizmlər kəşf olunmamışdan əvvəlki dövrlərdə istifadə olunan və yuk daşımalarda istifadə olunan at, öküz, kəl qoşularaq hərəkət etdirilən arabadır. Qeyd etdiyimiz sayaçı sözlər və tapmaca nümunələri texnologiya təlimində şagirdlərin texnoloji mədəniyyətinin formalaşması və inkişaf etməsində didaktik vasitə rolunu oynayır. Təlimdə bu cür yanaşma uşaqların marağına və bilik keyfiyyətinin yüksəlməsinə səbəb olur.

## Ədəbiyyat


1. Milli mənəvi dəyərlərimiz və Heydər Əliyev. anl.az/down/mmdtkr.pdf
2. Azərbaycan Respublikası Təhsil Nazirliyi.” Ümumtəhsil məktəblərininI-IV sinifləri üçün fənn kurikulumları”. Bakı. “Təhsil”, 2008, 480 səh.
3. Azərbaycan Folkloru (Məktəblilər üçün seçmələr). Bakı: “Şərq-Qərb”, 2005, 320 səh.


UOT 3

## Milli-mənəvi dəyərlərimiz Azərbaycan xalqının tarixində və ədəbiyyatında

*Gülüstani Zəminə Xosrov qızı*
*Mingəçevir Dövlər Universiteti*

Bəşər mədəniyyəti tarixində insanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Hər bir xalqın ən qiymətli mirası onun milli-mənəvi dəyəridir. Milli-mənəvi dəyərlər gələcək nəsillərə daha da zənginləşdirilmiş halda ötürülməlidir.

Müasir dünya siyasətində qlobal, qloballaşma və mədəni inteqrasiya məsələlərinin həllinə yeni münasibət müşahidə edilməkdədir.

Azərbaycan xalqı da bu günədək məhz milli-mənəvi dəyərlərinə bağlılığı sayəsində özünün mövcudluğunu, milli identikliyini, özünəməxsusluğunu qoruyub saxlaya bilib. Azərbaycan xalqının ən böyük sərvətlərindən biri onun zəngin milli mədəni, maddi, ədəbi, dövlətçilik irsinə sahib olmasıdır. Bu zəngin mənəvi irs xalqımız tərəfindən əsrlər boyunca yaradılıb və bunun böyük bir hissəsi bugünədək qorunub saxlanıb.

Mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi müstəqil, respublikanın mədəniyyət siyasətinin əsas vəzifələrindən biridir. Azərbaycan dövləti öz daxili və xarici siyasətini müasir tələblərə uyğun olaraq xalqımızın tarixi və mədəni ənənələrinə : dilimizə, dinimizə, milli-mənəvi dəyərlərimizə istimad edərək həyata keçirir.

Xalqımız əldə etdiyi bu böyük nailiyyət, milli sərvətimiz olan mənəvi dəyərlərimiz istifadəsini, bəşəri dəyərlərin tərkib hissəsi kimi inkişafını və inteqrasiyasını təmin edir.

Milli-mənəvi dəyərlər sırasında ulu öndər ana dilinə daha böyük önəm verirdi. O iqtisadiyyat və siyasətlə yanaşı, elmə, mədəniyyətə, təhsilə və sənətə də qayğı göstərirdi. Onun təşəbbüsü sayəsində “Müasir Azərbaycan dili” dərsliyinin Dövlət mükafatına layiq görülməsi təkcə elmə yox, həm də ana dilinin inkişafına, dövlət qayğısının təzahürü idi.

Dünaynın qədim xalqlarından sayılan azərbaycanlılar da tarixən formalaşmış zəngin milli-mənəvi və əxlaqi dəyərlər sistemi ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr vermiş, daim özünəməxsusluğlarını qorumuşlar.

Qədim tarixə və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqının əski çağlardan daşıyıb gətirdiyi mənəvi dəyərlər sistemində Novruz bayramının da özünəməxsus yeri vardır. İbtidai çağlara məxsus ilkin dünyaduyumu və arxaik mifoloji inanışlardan qaynaqlanan yazı-yeni günü qarşılama mərasimi yüzillikləri çevrələyən tarixi təkamül prosesi nəticəsində zəngin mədəni-mənəvi keyfiyyətlər qazanaraq geniş miqyasa malik xalq bayramına-Novruza çevrilmişdir. Bu baxımdan

Novruz təkcə bir neçə günü əhatə edən bayram deyil, həm də uzun bir təqvim müddətini öz ətrafında cəmləşdirən irimiqyaslı mərasim kompleksidir [2].

Təbiətin oyanması, canlanması, bununla da yaz fəslinin başlaması münasibəti ilə Azərbaycan xalqı tərəfindən qeyd olunan Novruz bayramının mahiyyəti, tarixi kökləri, əski qaynaqlarda yeri, bayramla bağlı adət-ənənələr, ayin-mərasimlər, oyun-tamaşalar, xalqımızın minilliklər boyu təcrübə əsasında formalaşmış iqtisadi həyatı, el sənətinin inkişaf yolları, mütəxəssislərin söylədikləri fikirlər, şifahi xalq ədəbiyyatından, eləcə də bədii yaradıcılıq müəlliflərinin əsərlərindən örnəklər daxil edilmişdir [2].

Azərbaycan ədəbiyyatında milli xarakter anlayışını bədii şəkildə reallaşdıran yazıçılardan biri də İsmayıl Şıxlıdır. Onun "Dəli Kür" romanında daha bir milli adət ənənələrimiz təsvir olunur. Qədim tarixə və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqının əski çağlardan daşıyıb gətirdiyi mənəvi dəyərlər sistemində Novruz bayramının da özünəməxsus yeri vardır.

Azərbaycan xalqının bir çox adət-ənənələri, milli bayramları vardır toy, nişan, elçi getmək, Novruz bayramını qeyd etmək və s.

Çərşənbələrdə və Novruz axşamında tonqal qalanması, göyə yanar fişənglər, tarixən üskü-lopa atılması, bayram süfrəsi düzəldilməsi, evlərə bayram torbası atılması Azərbaycanda qədim el adəti, milli bayramdır. Bu adətlər "Dəli Kür" romanında geniş şəkildə öz əkini tapmışdır. Bu milli adət ənənə hələ də bu gün milli irsimiz kimi qorunub saxlanılmaqdadır.

İsmayıl Şıxlının " Dəli Kür" romanı təkcə onun yaradıcılığında deyil, müasir Azərbaycan ədəbiyyatında bir hadisəyə çevrildi. Romanın epik siqləti və möhtəşəmliyi, dolğun xarakterlərlə diqqəti cəlb etməsi ədəbi ictimaiyyətdə böyük sevinclə qarşılandı.

Romandakı canlı və dolğun obrazlar, təsvir olunan həyat səhnələri, milli adət və ənənələr XIX əsr Azərbaycan gerçəkliyinin tam ifadəsi idi [1].

Romanda Cahandar ağa obrazı həyatda Şərq kişisinə məxsus bir simadır. O, həyatda zəif addımları ilə yox, geniş Azərbaycanlı kişisi kimi addımlayır.

Romanda Cahandar ağa səviyyəsində ikinci bir monumental obrazla qarşılaşmırıq. Müəllif onu bütöv, insan kimi mürəkkəb və ziddiyyətli, həmçinin əsl Azərbaycan kişisinə xas olan mərdanə keyfiyyətləri ilə birgə təqdim edir.

Cahandar ağa şəxsiyyətdir və o, hisslərini: qəzəb və kinini, hiddətini kimsədən qizlətmir. Onun mühitində həyat idealı min illərin sınağından keçib və bu ideala uyğun gəlməyən nə varsa, inkar olunur [1].

Tənqidçi Vaqif Yusifli yazır: "Cahandar ağa tarix sahəsindən getdi, lakin bədii obraz kimi "Dəli Kür" romanında ikinci dəfə dünyaya gəldi və bu dəfə onun mənəvi-ədəbi ömrü fiziki ömründən uzun oldu. Belə bir milli xarakterin İsmayıl Şıxlı qələmində epik bir vüsətlə canlandırılması, şübhəsiz, Azərbaycan nəsrinin qələbəsi idi"

"Dəli Kür" romanı tarixi mövzuya yeni bir baxışın ifadəsi idi. Müəllif "sifarişli" tarixi yox, əsl tarixi həqiqətləri qələmə almışdı. Cahandar ağa həm fərdi planda-bir obraz kmi bütün mürəkkəbliyi ilə, həm də ictimai planda təsvir olunmuşdu və romanda bunlar bir-birini tamamlayırdı. Evdə, ailədə o, necə sərt və sözünün üstünə söz qoyulmayan bir Azərbaycan kişisi kimi diqqəti cəlb edirdisə, kənddə-mülkədar, torpaq sahibi və ağa kmi də elə hökmlü idi. Hər iki planda o, əsl milli xarakter kimi canlandırılmışdır.

Tənqidçi Akif Hüseynov obrazın milliliyini belə səciyyələndirir: "Dəli Kür" romanında Cahandar ağa, ümumiyyətlə, feodal əqidəli bir mülkədar deyil, məhz azərbaycanlı mülkədar kimi təsvir olunur. Yaşadığı mühitin əsrlərdən bəri gələn təsəvvürlərini, adət-ənənələrini, davranış qaydalarını, mühakimlərini dərindən əxz edən, xüsusi bir səylə bunları hifz edən, bütün mənəviyyatı, xarakteri bunlarla, milli həyat tərzi ilə şərtlənən mülkədar Cahandar ağanın hər yerdə, həmişə öz milli psixologiyasına uyğun düşündüyünü, hərəkət etdiyini, müəyyən qərara gəldiyini görürük. Olduqca mürəkkəb, geniş və ziddiyyətli bir məna ifadə edən "kişilik2 anlayışı əsərdə təsvir olunan dövrdə mühitin təsəvvürünə görə kişinin ev-eşikdən tutmuş ictimai həyatacan hər yerdə ad-sanı, davranması, qüruru, qeyrəti ilə bağlı mülahizələri, qənaətləri əhatə edir" [1].

Böyük Heydər Əliyev çoxşaxəli, xalqı və milləti üçün son dərəcə səmərəli siyasi fəaliyyətinin gözəçarpan bir hissəsini mənəviyyat, mənəvi tərbiyyə, mənəvi tərəqqi problemlərinə həsr etmişdir.

Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, Azərbaycan xalqının keçmişini, tarixini, mədəniyyətini, o cümlədən də, adət-ənənələrini, milli-mənəvi dəyərlərini öyrənərək dünyavi prosesləri mütləq nəzərə almaq vacibdir. İndiki dövrdə də qloballaşma kimi prosesləri unutmaq olmaz, öz adət-ənənələrimizə, tariximizə, milli-mənəvi dəyərlərimizə arxalanaraq, eyni zamanda mənəvi həyatımızı,mədəniyyətimizi dünya sivilizasiyasını nailiyyətləri ilə zənginləşdirməyə çalışmalıyıq [3].

**Ədəbiyyat**


1. Axundova N. Müasir Azərbaycan əsəbiyyatı. Bakı, 2013. 595s.
2. Abdulla B. Babayev T. Ensiklopediya. Bakı, 2008. 206s.
3. Əliyev H. İrsi və müasirAzərbaycanın inkişaf siyasəti. Bakı, 2012. 222s
4. Xəlilov B. Dil, ədəbiyyat, mədəniyyət. Bakı, 2013. 482s.


UOT 398; 801.8

## “Kitabi-Dədə Qorqud” dastanında milli-mənəvi dəyərlər sistemi

*Novruzova Səbinə Bəlohər qızı*
*Mingəçevir Dövlət Universiteti*

Azərbaycan folklorunun və dilinin qədim yazılı ədəbi nümunəsi olan “Kitabi-Dədə Qorqud” dastanı xalqın mənəvi tarixini, adət-ənənələrini, məişətini özündə əks etdirən qoruyub saxlayan möhtəşəm abidədir. Dastanda milli-mənəvi dəyərlərimizlə bağlı təsvirlər, adət-ənənələr ardıcıl, sistemli şəkildə verilmişdır. Burada, qadın surətinin təsvirinə geniş yer verilir. Dastanda qadınlarla bağlı maraqlı fikirlərə, eləcə də rəngarəng qadın obrazlarına rast gəlirik. Dastanın müqəddiməsində Dədə Qorqud qadınları dörd yerə bölür:

Qarılar dörd dürlüdür:
Birisi solduran soydur,
Birisi dolduran toydur,
Birisi evin dayağıdır,
Birisi necə söyləsəm, bayağıdır [1].

Ozan evin dayağı olan qadınların evdar, qonaqpərvər, işgüzar, xoşrəftar olduğunu göstərir və hər bir ailəyə belə qadın nəsib olmasını arzulayır. “ Kitabi- Dədə Qorqud “ boylarında təsvir edilən qadınlar qoçaqlıqda heç də kişilərdən geri qalmırlar.

“Baybura oğlu Bamsı Beyrək” boyunda Beyrəyin adaxlısı Banuçiçək çox igid bir qız kimi təsvir edilir. O, oğuz qəhrəmanlarının ən görkəmlilərindən biri olan Bamsı Beyrəklə ox atacaq, at çapacaq dərəcədə igid bir qızdır.

“Dirsə xan oğlu Buğac” boyunda Dirsə xanın xatını oğlunun ovdan qayıtmadığını gördükdə atını minir, qırx incə belli qızla yaralı oğlunu dağlarda axtarır, tapıb gətirir.

“Qazan xanın oğlu Uruzun” əsir olduğu boyda Burla xatun Uruzu qurtarmağa gedən ərinin dalınca düşmənlə vuruşmağa gedir, özünü yaralanmış ərinə yetirib vuruşmada adlı-sanlı qəhrəmanlarla bir yerdə iştirak edir.

“Qanlı Qoca oğlu Qanturalı” boyunda Selcan xatun böyük bir qoşunla üz-üzə gəlir və qalib çıxır.

Dastandakı qadınlar igidlikləri ilə yanaşı, vəfalı olmaqları ilə də seçilirlər.Oğuz qadınları ismətli, namusludurlar. Onlar yad kişilər qarşısında üzü açıq gəzməz, yaşmanardılar.”Çağırdılar Beyrək gəldi.Banuçiçək yaşmaqlandı,xəbər sordu” [1].

Qadınlar hər şeydən əvvəl müqəddəs anadırlar və anayada dastanda yüksək qiymət verilir, “Ana haqqı tanrı haqqı” hesab edilir. “Salur Qazanın evinin yağmalandığı” boyda elini xilas etmək

üçün düşmən üzərinə gedən Qazan ilk olaraq qarıcıq anasını istəyir, onu bütün var-dövlətindən əziz sayır:

"Mərə, Şöklü Məlik! Ağır xəzinəm, bol axçamı gətirmisən – sənə xərclik olsun, qırx incə belli qızla Burla xatunu gətirmisən – sənə yesir olsun, qırx igidlə oğlum Uruzu gətirmisən – qulun olsun, tovla-tovla şahbaz atlarımı gətirmisən – sənə minət olsun, qarıcıq anamı gətirmisən, mərə kafir! Anamı vergil mana, savaşmadan, vuruşmadan qayıdayın, geri dönəyin, gedəyin, bəlli bilgil"[1].

Digər bir məqam anası Buğacı Dirsə xanla barışdırır, ata ilə oğul arasında ədavət yaranmasına imkan vermir, əks halda Dirsə xanın bəyliyinin sonu pis olardı, düşmənçilik yaranardı. " Dirsə xan dişi əhlinin sözüylə ulu toy elədi" [2]. "Dişi əhli" ifadəsi göstərir ki, Oğuz əhlində qadın sözünə böyük hörmət var. Bu türkün qadina münasibətinin göstəricisidir.

Uruz düşmən əlinə düşmüş anasının tanınmaması üçün, dardan asılıb ətinin qiymə-qiymə kəsilməsinə razı olur. Dəli Domrulun qadını ərinin əvəzinə ölümə hazır olduğunu bildirir, Selcan xatun sağına-soluna ox ataraq sevgilisini ölümdən qurtarır. Qazan ölümə razı olur, lakin xəyanət etmir, düşmənə boyun əymir. Boyda daha bir sıra detallar var ki, bunlar oğuzun – türkün qədim həyat tərzi, mədəni səviyyəsi, adət-ənənələri haqqında məlumat verir. Ağsaqqala, böyüyə hörmət göstərmək, sözünə, məsləhətlərinə qulaq asmaq, xalqımızın dəyərliadət-ənənələrindəndir. Bu cəhət dastanda Oğuz tayfalarının Dədə Qorquda münasibətində daha aydın görünür. Dastanda qızlar ailə qurarkən, seçəcəkləri oğlanın igid, cəsur, qorxmaz olduqlarına fikir verərdilər. Buna, "Duxa Qoca oğlu Dəli Domrul" boyunda rast gəlmək olar. Qantural ailə qurmaq istədiyi Selcan xatunun şərtlərini yerinə yetirməli, bunun üçün aslanı, buğanı məğlub etməli olur. Qızların seçəcəkləri oğlan igid olduğu kimi, oğlanlarında seçdikləri xanımları da igid, cəsur olmalı idi. Çünki, Oğuz igidləri döyüşə gedərkən, bilirdilər ki, arxalarında eli-obanı qoruya biləcək belə igid qadınlar var. Bu, Azərbaycan qadınının ağıl və bacarığını təcəssüm etdirən, ona verilən yüksək qiymətdir.

Adət-ənənələr xalqın gündəlik həyatında, məişətində oldugu tək, onun şifahi və yazılı irsində də yaşayır. Bu baxımdan Oğuz türklərinin, həmçinin, Azərbaycan xalqının maddi və mənəvi irsinin mənbəyi olan "Dədə Qorqud"eposu buna ən parlaq nümunədir.Neçə-neçə yüzilliklərin keçməsinə baxmayaraq dastanda əks olunanadət-ənənələr, bu gün də yaşamaqdadır. Çünki, ulu babalarımız, milli dəyərləri göz bəbəkləri kimi qoruyaraqnəsillərdən-nəsillərə ötürmüşlər. Dastanda ad qoyma mərasimi təşkil olunur və elin ağsaqqalı Dədə Qorqud ad verir.Bu ənənə müasir dövrümüzdə də özünü göstərməkdədir. Çox zaman nənə-babaların uşaqlara ad verməsi, dastandan günümüzə gələn böyüyə hörmətin göstəricisidir. Müasir dövrdə qızlara Selcan xatun, Banuçiçək, Burla xatun kimi adlar verilir. Ağsaqqalın, böyüyün sözünə, məsləhətlərinə hörmət etmək, qulaq asmaqxalqımızın mənəviyyatının tərkib hissəsi kimi zaman-zaman yaşayan dəyərli adət-ənənələrindəndir.

Müasir dövr qloballaşma dövrü kimi xarakterizə edilir. Cəmiyyətdə, dünyada inteqrasiya proseslərinin gücləndiyi indiki zaman son dərəcə mürəkkəbliyi ilə diqqəti cəlb edir.Bu zaman axarında milli özünüdərk və milli kökə, qayıdışa daha çox ehtiyac hiss olunur. Bu gün kimliyimizi təsdiq edən "Kitab"da yaşadığımız zaman və gələcəyimiz üçündəyərli məlumatlar var. Bizim borcumuz bu məlumatları gələcək nəsillərə çatdirmaq, onları bu ruhda tərbiyələndirməkdir. Oğuzlar üçün yurd, Vətən sevgisi, torpaq hər şeydən yüksək və əzizdir. Onlar hər an doğma el-oba uğrunda canlarından keçməyə hazırdılar. Oğuzlar öz qonşularına qarşı da mərddirlər. Onlar başqasının torpağına hücum etmir, sərhədlərini pozmurlar. Lakin düşmən xəyanət edib qəfil hücum etdikdə oğuz igidləri hamılıqla Vətənin müdafiəsinə qalxır, düşməni məhv edirlər. Dar gündə Vətən sevgisi oğuzlara öz aralarındakı incikliyi də unutdurur, onları birləşdirir.

Bu gün hər bir Azərbaycan övladını itirilmiş torpaqlarımızın düşməndən azad edilməsi, Azərbaycanınqüdrətli dövlət kimi möhkəmləndirilməsi və inkişafı məsələləri düşündürür. "Kitabi-Dədə Qorqud" bu baxımdan nəsillərdə milli kökə bağlılıq hissinin formalaşdırılmasında zəngin mənbə rolun oynayır.

"Salur Qazanın evinin yağmalanması" boyu dastanın ən maraqlı, böyük tərbiyəvi əhəmiyyətə malik boylarındandır. Gənclərimiz bu boydan Vətən sevgisini, anaya məhəbbəti, qadına hörməti öyrənirlər. Beləliklə, gələcək nəsillərimizə mərdlik, cəsarət, qorxmazlıq, düşmənə nifrət, düşmən

qarşısında əyilməzlik kimi xüsusiyyətlər aşılanır. Mübaliğəsiz demək olar ki, bu dastan xalqın varlığını əks etdirən, şah əsərimiz, ana kitabımızdır.

Dastanda Qazan xanın yurdunu talanmış, evləri, obaları yanmış görəndə düşdüyü ağır halı bu günümüzlə necə də səsləşir! Talan olunmuş Xocalımız, od tutmuş Şuşamız, viran qoyulmuş Kəlbəcərimiz, Ağdamımız... yada düşür. Amansızlıqla qətlə yetirilmiş qocalar,qadınlar, uşaqlar və cavanların taleyi igid Beyrəyin taleyinə nə qədər bənzəyir. Əsir düşmüş Burla xatunun ağrılarını neçə-neçə qız-gəlinimiz, analarımız yaşadı!

Beləliklə, bir daha əmin oluruq ki, " Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının həyatı, adət-ənənələri ilə bağlı əvəzolunmaz bir abidədir. Müasir dövrümüzdə də "Kitabi-Dədə Qorqud" dastanındakı qadın obrazları ilə bağlı bir çox adət- ənənələr özünü göstərməkdədir. Dövrümüzdə də düşmənlə üz-üzə dayanan Salatın, Gültəkin kimi igid qadınlarımız, həyat yoldaşı İlhamın ölümüylə özünə qəsd edən, şəhidlik zirvəsinə ucalan, vəfalı Fərizələrimiz var. Qadınlarımızın igid, namuslu, qayğıkeş, qonaqpərvər olmaları "Dədə Qorqud" dastanından bu günümüzə kimi gələn milli dəyərlərimizdəndir. Bu dəyərləri qorumaq və gələcək nəslə ötürmək isə bizim həm qadın, həm ana, həm də müəllim kimi borcumuzdu.

**Ədəbiyyat**


1. Dədə Qorqud dastanları. Bakı: "Nurlan", 2005, 215 səh.
2. Dədə Qorqud kitabı.Ensiklopedik lüğət. Bakı: "Öndər", 2004, 365 səh.
3. Qorqud ədəbiyyatı. Bədii əsərlər. Bakı: "Öndər", 2004, 366 səh.


UOT 82.7

## Əbdürrəhim bəy Haqverdiyevin satirik bədii nəsrində müstəqillik ideyaları

*Hüseynova Pərvin Ağabala qızı*
*Mingəçevir Dövlət Universiteti*

Böyük dramaturq, ədəbiyyatşünas, pedaqoq və istedadlı nasir Əbdürrəhim bəy Haqverdiyevin satirik bədii nəsri əsasən XX əsrin əvvəlləri ilə bağlıdır. Onun qələmə aldığı hekayələrdə, felyeton və digər satirik nəsr nümunələrində bu dövrün mürəkkəb, fərqli əhval-ruhiyyəsi öz əksini tapır, xalqın gündəlik həyatındakı müxtəlif problemlər qabardılmaqla yanaşı, çox vaxt yazıçının qələminə məxsus incəliklə, sətiraltı şəkildə, eyhamlı bir dillə müstəqillik idealına çağırış, milli birlik, azad Azərbaycan insanı məsələlərinə də toxunulur.

Sədaqətli "Molla Nəsrəddin"çi olan Əbdürrəhim bəy əksər satirik hekayələrini 1907-1917-ci illər ərzində məhz həmin məcmuədə dərc etdirmiş, fərqli üslubu ilə böyük oxucu auditoriyası toplaya bilmişdi. Onun bu hekayələrində cəhalətə qarşı mübarizə, qadın azadlığı, hüquq bərabərliyi, insan haqları kimi məsələlər öz ifadəsini tapmışdır.Yazıçının sərt satira güzgüsündə XX əsrin əvvəllərindəki Azərbaycan cəmiyyətində özünü göstərən hər cür mənfilik qınaq obyektinə çevrilir, ifşa olunurdu. "Xortdan", "Ceyranəli", "Həkim Nuni-səğir" kimi gizli imzalarla çap olunan satirik hekayə və məqalələri içərisində birbaşa milli azadlığa çağırış və ya müstəmləkəçiliyə qarşı mübarizə olmasa da, mətn və süjet daxilində bu məsələlərə münasibət bildirilir, təlmihlər edilir, ezop dili vasitəsilə yazıçının həqiqi amalı pərdələnirdi.

Əbdürrəhim bəy Haqverdiyevin Şərq və Qərb ədəbiyyatının ən gözəl ənənələrindən bəhrələnərək qələmə aldığı unikal sənət abidəsi olan "Xortdanın cəhənnəm məktubları" adlı satirik povestində cəmiyyəti narahat edən bir çox problemlər qabardılmış, bəzi neqativ hallar vətənpərvər ziyalı tərəfindən oxucunun diqqətinə çatdırılmış və yeri gəldikcə xalqımızın başına gətirilən müsibətlər, məhrumiyyətlər gizli şəkildə tənqid olunmuşdur. Sanki burada tariximizin qara, qanlı səhifələri qorxulu, eyni zamanda gülməli bir nağıl, bir əfsanə şəklində nəql olunmuş, müasir tarixi

mazi kimi təqdim edilmişdir. Məsələn, əsərin “Cicim otağı” bölümündə elə bir hadisə nağıl edilir: “Yəqin eşidibsən ki, neçə müddət bundan əqdəm iki dövlət arasında sərhəd qoymaq lazım gəldi. Bu dövlətlərdən birisi şərqli və o birisi qərbli idi. Hər bir tərəf sərhədə öz vəkillərini göndərmişdilər. Qərb vəkilləri şərqlilərin təbiətinə bələd olduqlarından özləri ilə bir neçə nəfər Avropa paytaxtlarının küçələrində özlərini satan xanımlardan gətirmişdilər. Bu xanımları öz arvadları adından şərq vəkilləri ilə tanış etmişdilər. Gündüz vəkillərlə danışırlar və gecələr də mühüm məsələlərin həlli üçün xanımları göndərirdilər. Bu tövrlə sərhəd məsələsi qərb vəkillərinin xahişincə həll olundu. Bu quyuya təpəsi üstə salınan belə vəkillərdir” [1].

Göründüyü kimi, ilk baxışda bu hadisənin dəqiq nə vaxt və harada baş verdiyini və ya sərhədləri müəyyənləşdirilən dövlətlərin hansı olduğunu burada müəyyən edə bilmirik. Sadəcə mətndə Qərb və Şərq qarşıdurmasını görür, nəticədə uduzan tərəfin də məhz şərqlilər olduğunu anlayırıq. Burada yazıçı özü oxucunun köməyinə gəlir, mətnin üzərindəki ulduzu izah edən yazısında əsl mətləbin nədən bəhs etdiyini göstərir. Sətraltından oxuyuruq: “İran-Rus hökumətləri arasında 1828-ci ildə bağlanmış “Türkmənçay” müqavilənaməsinə işarədir. Bu xüsusda tarixdə bir şey yoxdur və ola da bilməz. Lakin İran dostlarının dillərində bu keyfiyyət indi də danışılmaqdadır”[1]. Ədib Azərbaycanın adını çəkməsə də, bölünən ərazinin Azərbaycan xalqının tarixi dədə-baba torpaqları olduğunu anlamaq çətin deyil.

Əsərdəki digər səhnə ilə tanış olaq: “Və yenə iki padşahlığın arasında sərhəd məsələsi vaqe olmuşdu. Dövlətlərdən biri bir özgə vilayətdə olan səfirini belə işlərdə mahir bilib göndərmişdi. Bu səfir bir dənə parıldayan döş ulduzuna və bir həmayilə aldanıb bir çox böyük və gülüstana bənzər mülkü iki quru dağa dəyişibdir ki, üstündə dərman üçün bir göyərti tapılmaz. Belə adamları da Veyl quyusuna salırlar” [1].

Bu nağılvari hadisənin də hansı padşahlıqlar arasında baş verdiyini anlaya bilmirik. Bu məqamda da yazıçının xüsusi qeydi köməyimizə çatır. Sətiraltı yazıdan oxuyuruq: “Türküstan-İran hüdudunu müəyyən etmək üçün İran tərəfindən Mirzə Rza xan Daniş göndərilmişdi. Bu şəxs Rusiya imperatoru tərəfindən ətaolunmuş nişanlara susayıb Eşqabadın yaxınlığında vaqe “Firuzə” adlanan yaylağı iki quru dağa dəyişmişdi. Hərçənd Rus hökuməti “Firuzə”nin əhalisini öz yerlərində qoymağı vəd etmişdisə də, müahidə hökumətlər tərəfindən imzalanandan sonra haman əhalinin yerlərini əllərindən alıb özlərini İrana sürgün elədi” [1]. Qeyddən bəlli olur ki, istər məmurlar, istərsə də ayrı-ayrı dövlətlər sərhəd məsələsini həll edən zaman milli məsələni nəzərə almır, yerli əhalinin fikri ilə hesablaşmır, ən sadə insan haqlarını qorumur, yalnız öz şəxsi mənafelərini güdürdülər. Ə.Haqverdiyev də sətiraltı yazısı ilə bu məsələlərə qəti etirazını bildirir. Xalqı ayıq olmağa səsləyir, sapı özümüzdən olan baltalara da əsl müsəlmansayağı dərs verərək, cəhənnəm əzabı ilə qorxuzur, onları satira dili ilə qamçılayıb.

Bu cürə digər örtülü mətnlər və sətiraltı yazılarla Vətənimizin tarixini oxucularının yadına salaraq, bir daha səhvlərin təkrarlanmamasına çalışır. Məsələn, xanlıqlar dövründə itirdiyimiz müstəqilliyimizin milli birlik olmadığından baş verdiyini səbəb olaraq gətirir. Amma yenə də mətləbi açıq yox, eyhamla açır. Oxuyuruq: “...qədim hakimlərdən birisi xəbər tutubdur ki, qonşu hakim, çox müharibədən sonra bir böyük padşaha təbəiyyət edibdir. Hakim o saat atını minib bir baş çapıb, güclü padşahın sərkərdəsinin qulluğuna gələrək ərz edibdir ki, əgər sənin padşahın mənə yaranallıq versə, mən öz məmləkətimi ona bağışlaram. Əlbəttə, yaranallıq o saat verilib və zəif hakimin mülkü müftə alınıbdır” [1].

Bu mətnin alt yazısında məhz Gəncə xanı Cavad xanın başına gətirilən müsibətlər və Qarabağ xanı İbrahim xanın Kürəkçay sülh müqaviləsi ilə general-mayor rütbəsi alaraq xanlığın ərazisini Rusiya çarlığına qatılmasına razılıq verməsi məsələsi qoyulur.

Burada bir tragikomik situasiya da verilir ki, indiki vəziyyətdə ona gülüb, ağlamamaq olmur: “... (Sitsanov) padşah tərəfindən xanı general-mayor ləqəbi ilə təbrik edəndən sonra imperatorun şərəfinə içmək üçün xana bir bakal şampanskitəklif etmiş, xan şampanskini içmiş və şərab damağına çox dadlı gəlmiş. Bir qədər söhbətdən sonra xanın könlündən yenə şampanski içmək keçmiş, üzünü knyaza tutub xəbər almış: - Padşahın şərəfinə bir dəfə də içmək olarmı?” [1]

Əsərdə yaradılan səhnələrdən biri də oxucunu vətənpərvərliyə səsləməyə yönəlib. Cəhənnəmdə İblisin öz taxtında oturub şallaqla döydüyü adamlardan birinin replikası bu baxımdan

çox maraqlıdır. Bütün kafirlər kimi o da öz günahlarında İblisi məsul sayır: “- Sən olmasaydın,...mən yüz il yüz ilə qalaydı, rüşvət alıb, vətəni pula satmaz idim. Hamısını eləyən sənsən” [1].

“Xortdanın cəhənnəm məktubları”nda Rusiyanın Azərbaycanı işğal etdiyinin açıq mətnlə yazılan və sapı özümüzdən olan baltaların rus hökumətinə işə girib məmur olandan sonra az da olsa, xalqına xidmət etmək əvəzinə, yalnız rüşvətlə ciblərini doldurduğunu göstərən yerləri də var. Belə hissələrdən birində işğaldan sonra xalqı azadlıq mücadiləsinə səsləmək əvəzinə, xanların, bəylərin çar hökumətindən yalnız öz rütbələrini istəmələri göstərilir: “Rus hökuməti Qafqaza malik olandan sonra sabit xanlıqların əhalisindən rus imperatorunun adına minlərlə ərizə göndərildi. Bu ərizələri göndərənlər xanlar tərəfindən verilmiş bəyliyin və xanlığın təsdiq olunmasınırus hökumətindən rica edirdilər” [1].

Əsərdə ata-babalarının illər boyu qazandığı, yaxud xalqdan talayaraq yığdığı varidatı hərbi rütbələr, ordenlər, medallar, atlas lentlər almağa sərf edən adamlar – “vətən oğulları” məsxərəyə qoyulur. Belə ki, cəhənnəmdə övladının onun varidatına necə sahib çıxdığını soruşan hacıya verilən cavabda oxuyuruq: “Əvvələn, oğlun həştad min manat pul verib, bir yaranallıq çini aldı... Hacı dik atıldı” [1].

Verilən cavabda çar hakimiyyət orqanlarının müsəlmanların avamlığından, Azərbaycan əhalisinin zahiri dəbdəbəyə aşiqliyindən necə məharətlə istifadə edərək dövlətləndiyini, xalqın alın təri ilə qazandıqlarını talayanlardan mal-dövlətini necə rahat mənimsədiyini bir cümlə ilə xüsusi məharətlə ifşa edildiyini görürük.

Əbdürrəhim bəy Haqverdiyevin də satirik bədii nəsrində böyük müasirləri C.əlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Üzeyir Hacıbəyli və b. “Molla Nəsrəddin”çilərin irsində olduğu kimi Azərbaycan vəhdət halında götürülür. Vətən anlayışı sərhədlər çərçivəsində deyil, millətin yaşadığı ərazi kimi müəyyənləşririlir. Ədibin “Marallarım” hekayələr silsiləsindən olan “Dəcallabad” adlı hekayəsində də “İran” məsələsi “vətən” məsələsindən kənarda düşünülmür.Burada da vətən təəssübü və vətəndaş tərbiyəsi kimi mühüm anlayışların məhz məktəb mühitində öyrədilməli olduğu problemi qaldırılır. Əcnəbilərin milli şüurun formalaşdırılması işinə müdaxiləsi pislənilir. Bu bir cümlə ilə öz ifadəsini belə tapır: “İranlılar bir qəribə tayfadırlar; hər yerdə olsalar, hökmən gərək aftafaları ilə konsulları yanında olsun” [1]. Yəqin ki, bu cümlənin şərhə ehtiyacı yoxdur. Məktəblərdə də bu işin əcnəbilərin nəzarətində olması satirik üslubda belə təsvir olunur: “Məktəb müəllimləri İran təbələriolduqlarından Dəccal konsul sifətində gəlib məktəbə malik olur” [1].

Məlumdur ki, dini görüşünə görə, “Dəccal” – axirüz-zəmanda zühur edəcək haqq düşmənidir. Ərəb dilində “dəcələ” kökündən olan bu sözün mənası “çox yalan danışan və hiyləgər”dir. Konsulun bu adla məcaz edilməsi onun millətin haqq yolunun düşməni olması, hiyləgərliklə hələ haqqı nahaqdan seçə bilməyən uşaqları tərbiyə edən müəllimləri sapdırmaq məqsədi daşımasıdır.

İrandakı milli inqilaba Rus hökumətinin də qarşı durmasını hekayədəki xırda dialoqlardan asanlıqla anlamaq olur. Dialoq belədir:

“- Rəhmətlik oğlu, rusun qoşunu Ərdəbildə əyləşib sən vətən sözünü dilinə gətirirsən? Bəlkə, sabah gəlib məktəbi bağladılar.

- Eybi yoxdur, bu dursun. İkinci: “Ayıl ey milləti-İran, oyan bu xabi-qəflətdən!

- Ay xanəxərab, dayan!... Rus Təbrizdə əyləşib, sən milləti-İran sözü danışırsan. Bundan sonra, əlbəttə, “millət” sözü ortalığa çıxmasın!” [1]

Hekayənin 1910-cu ildə dərc olunduğunu nəzərə alsaq, bu dialoqlamüəllifin İranda Məhəmmədəli Şah hakimiyəti diktaturasına qarşı məşrutə inqilabının rəhbərləri, xalq qəhrəmlarıSəttar xan və Bağır xanın mühüm qələbələrindən sonra rus diplomatlarının siyasi fəaliyyətinə, rəsmi Tehrana silahlı dəstək göstərməsinə işarə edildiyiniaçıq görürük.

Bu əsərdə Əbdürrəhim bəyin gizli mətləblərindən biri isəÇar Rusiyasının İranda məşrutə hərəkatına qarşı açıq siyasi çıxışlarla kifayətlənməyib, məktəblərdə də müəllimləri əks-təbliğat işinə cəlb etməsini göstərməkdir.

Çar Rusiyasının millətçi siyasət apardığını, xalqlar arasında fərq qoyduğunu ədibin sonrakı dövr əsərlərində də, məsələn, 1927-ci ildə dərc edilən “İt oyunu” hekayəsində də görürük. Bu

hekayədə N qəzasının pristavı təsvir olunur. Onun monoloqu maraq doğurur. Burada müəllif təkcə tipin öz dili ilə özünü tənqid etmir, eyni zamanda rəmzlərdən də yararlanır. Monoloqda oxuyuruq: "mən N qəzasında pristav idim. Qılıncımın dalı dakəsirdi, qabağı da. Bir gün adam döydürməsə idim, gecə yata bilmirdim. Əvvələn, bu yerin camaatına qılınc müsəlmanları deyərlər. Bunların ki, bellərindən bir gün dəyənək əskik oldu, qudurub yollarından çıxırlar. İkincisi, adam döyməyən pristavın camaat arasında qədri-qiyməti olmaz" [1].

Göründüyü kimi, bu mətndə N qəzası Azərbaycana, Qafqaza, bəlkə də, Rusiyanın bütün müsəlmanlar yaşayan ərazisinə, pristav isə rus çarına, Çar Rusiyasına, geniş anlamda qəbul etsək, müsəlmanları özünə tabe etməyi qarşısına məqsəd qoyan Rusiyaya, onun dəyənək gücünə özünə tabe etdirdiyi və "qılınc müsəlmanı" adlandırdığıəhali isə azərbaycanlılara, Rusiya türklərinə, Rusiyada yaşayan müsəlmanlara işarədir.

Əbdürrəhim bəyin XX əsrin əvvəllərində, aprel çevrilişindən sonra dərc etdirdiyi satirik hekayələrində ilk baxışda Sovet ideologiyası təbliğ olunur, bu quruluş tərif olunmasa da, ciddi tənqid də olunmur. Lakin onun qeydləri, işlətdiyi bəzi cümlələrindəki mətnaltı mənalar onun milli azadlıq idealına zidd hər bir cəhətə ciddi reaksiya verdiyini, kəndlilərin həqiqi qeydinə qaldığını göstərir. Nasirin 1927-ci ildə "Aprel alovları" toplusunda dərc olunan "Qəndil" adlı satirik hekayəsində eyni zamanda sentimental məqamlar da var. Burada zahirən əsas tənqid hədəfi kəndin mütləq hakimi olmuş İsgəndər bəydir. Lakin əsərdə İsgəndər bəyin Şura hökuməti ilə mübarizə aparması da öz əksini tapır. Müəllif inqilab ərəfəsini bir cümlə ilə təsvir edir: "İsgəndər bəyin də başındakı tacı həmişəlik durmayacaqdı" [1].

Bu cümlə çar Rusiyasının devrilməsinə işarədir. Əbdürrəhim bəyin sonradan əsərin mətninə– "Yaşasın təzə hökumət" replikasına əlyazısı ilə etdiyi əlavə isə daha maraqlıdır. Əlavə belədir: "Kimsə yerindən: "Bəs Şura hökumətindən xeyirimiz nə oldu?" – deyə qışqırdı. – "Sizə ki, torpaq və mal veriləcəkdir!" [1] Bu Sovet hakimiyyətinin kəndliyə söz verdiyi torpaq islahatını sonradan yerinə yetirməməsinə, torpağı kəndliyə vermək əvəzinə, ondan almasına, mal-qaranı bir yerə yığıb kolxoz qurmasına bir işarədir. Deməli, Ə.Haqverdiyev "Qəndil" hekayəsində ilk baxışdan quruluşu tərif edirsə də, onun nöqsanlarını da, quruluşu öz qanları bahasına quranların aldanmasını da göstərir. Tarixdən də bəllidir ki, 1927-ci ildə Sovet hakimiyyətinin qəbul etdiyi qərarlar nəticəsində kollektiv təsərrüfatların yaradılması daha da sürətləndi. Bu da əhalidə müəyyən narazılığa səbəb oldu. Belə ki, ortababların da mülkiyyəti əlindən alınıb "milliləşdirmə" devizi altında hökumət mülkiyyətinə çevrildi.

Nuru Məmmədov "Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin kollektivləşmə siyasətinə müasir baxış" adlı məqaləsində bu dövrdə kollektiv təsərrüfatların yaranmasındakı sıçrayışı rəqəmlərlə belə təsvir edir: "Həyata keçirilən tədbirlər nəticəsində kolxozların təşkili istiqamətindəcanlanma yarandı, kənd təsərrüfatında sosialist bölməsinin çəkisi artdı. Əgər1927-ci ildə kolxozların sayı 150 idisə, 1928-ci ildə kolxozların sayı 287-yə(3, i.203, 6), 1929-cu ildə kolxozların sayı 535-ə çatmışdı. 1928-ci ildə kolxozlarda 4500 təsərrüfat, 1929-cu ildə isə 11.600 təsərrüfat birləşmişdi (21, 7aprel, 1929; 12 fevral, 1931)" [2].

Əbdürrəhim bəy Haqverdiyev "Kapitalizmlə mübarizə" adlı satirik hekayəsində yaratdığı QriqoriMaksimoviçin simasında müasiri və silahdaşı Mirzə Cəlil kimi "bəlkə də qaytardılar" xülyasında olan ortabab və mülkədarların həyatını təsvir edir. Özünü kapitalizmlə mübarizə aparan kimi təqdim edən baş qəhrəman inqilabdan sonra əlindən alınan dükan və iki evini geri qaytarmaq niyyətində çox qapılar döyür. Amma əsərin sonunda o da Mirzə Cəlilin qəhrəmanları kimi "görək işlərin axırı necə olur", – deyir.

Əbdürrəhim bəyin "Qisas" adlı hekayəsində bütün şəhəri qorxuda saxlayan Nəsir bəy adlı despot obrazı yaradılır. Hekayənin məzmunundan məlum olur ki, bu şəhərdə olan özbaşınalığa son qoyulmasına ilk cəhd, Nəsir bəyin illərlə sürən səltənətinin sütunlarının laxlaması baş verir. Hadisələr bir namuslu, savadlı qızın halal nişanlısından ayırmağa cəhd edənlərin cəzalandırılması fonunda olur.Hadisələrin cərəyan etmə dövrü əsərin əvvəlində belə göstərilir: "Müsavatın dövrü idi" [1]. Hekayənin müəllifin sağlığında yox, yalnız ölümündən sonra yalnız 1940-cı ildə Mikayıl Rzaquluzadənin müqəddiməsi ilə nəşr olunan "Hekayələr" kitabında işıq üzü görməsi bu əsərdə də

mətnaltı mənaların gizlədildiyini deməyə imkan verir. Çox güman ki, müəllif burada da rəmzlərdən istifadə edir.

Ə.Haqverdiyevin XX əsrin əvvəllərində qələmə alınan satirik bədii nəsr əsərlərini tədqiqata cəlb etdikdə onlarda birbaşa ifşa üsulundan istifadə edildiyini görürük. Lakin milli müstəqillik ideyalarına çağırışın açıq şəkildən daha çox örtülü, pərdəli şəkildə, belə demək olarsa, ezop dili ilə təqdim olunduğunun, yalnız diqqətli oxunuş sayəsində müşahidə edildiyinin şahidi oluruq. Belə ki, istər Çar Rusiyasına, istərsə də Sovet rejiminə qarşı üsyankar münasibət, İranda məşrutə hərəkatına dəstək süjet daxilində öz əksini tapır. Milli mücadilə, cəmiyyətin müsəlman təbəqəsinin hüquqlarının pozulmasına qarşı mübarizə, tarixin verdiyi dərslərdən ibrət almağa çağırış bu üslubda yazılmış əsərlərin içindən keçən maraqlı xətdir.

## Ədəbiyyat


1. Haqverdiyev Ə. Seçilmiş əsərləri, İki cilddə, 2-ci cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1957, 414 səh.
2. Məmmədov N/.Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin kollektivləşmə siyasətinə müasir baxış, Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, 2012-ci il, № 1, səh. 99-105
3. Məmmədova M. Əbdürrəhim bəy Haqverdiyev arxivinin izahlı təsviri, Bakı, Elm və təhsil, 2012, 120 səh.


UOT 37.02; 371

## Məktəblilərin hərtərəfli inkişafında mənəvi tərbiyənin mahiyyəti

*Quliyeva Səbinə Mürsəl qızı*
*Mingəçevir şəhər Təhsil şöbəsi*

*Biz öz milli dəyərlərimizlə fəxr etməliyik. Bizim milli dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz... Biz heç vaxt öz milli dəyərlərimizi unutmamalıyıq. Onu yaşatmaq, ondan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir.*

***Ümummilli lider Heydər Əliyev***

Mənəvi tərbiyə bütün dövrlərdə, bütün xalqların diqqət mərkəzində olmuşdur. Hər xalq öz milli xüsusiyyətlərinə uyğun şəkildə bu problemi həll etməyə çalışmışdır.

Müasir qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı real həyatda yüksək nailiyyətlərə, mütərəqqi dəyişikliklərə yol açsa da, bu prosesin tarixi-mədəni irsə, əxlaqi-mənəvi dəyərlərə müəyyən təhlükə meylləri də özünü qabarıq göstərir. Şərq-Qərb sivilizasiyasının bir-birinə yaxınlaşdığı, bəzən də gizli və açıq mübarizələrin getdiyi bir zamanda soykökə qayıdışın, milli özünüdərkin böyük əhəmiyyəti vardır. Xalqın tarixən formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiyanın həyata keçirilməsi zərurəti orta məktəb müəllimlərin üzərinə daha böyük məsuliyyət qoyur. Müstəqillik yolları ilə addımlayan Azərbaycan Respublikasında milli-mənəvi tərbiyə ön plana çəkildiyi bir şəraitdə mənəvi tərbiyənin rolu xüsusilə artır. Mahiyyətinə görə mənəvi tərbiyə tərbiyənin tərkib hissələri arasında daha əhatəlidir və məktəblilərin hərtərəfli inkişafına təsiri böyükdür. Mənəvi tərbiyə üzrə iş şagirdlərin mənəvi

keyfiyyətlərinin inkişaf etdirilməsini nəzərdə tutur. mənəvi dəyərlərə müəyyən təhlükə meylləri də özünü qabarıq göstərir.

Azərbaycan milli-mənəvi dəyərlərinə yiyələnməklə gənc nəslin milli ruhda tərbiyə olunması məsələsi Heydər Əliyev tərəfindən əsas vəzifələrdən biri kimi irəli sürülmüşdür. Dövlət başçısı bu məsələdən bəhs edərkən belə deyirdi: “Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz”[3].

Məlumdur ki, insan dünyaya bir fərd kimi gəlir və ictimai münasibətlər sistemində onun mənəviyyatı formalaşır. Mənəviyyat ətraf aləmlə fəal qarşılıqlı təsir prosesində yaranır və fərdin dünyagörüşünü inkişaf etdirir.

Şəxsiyyətin mənəvi inkişafı, əxlaqının saflaşdırılması prosesi bütün həyatı ərzində davam etsə də, əsas mənəvi keyfiyyətlər kiçik yaşlarından təşəkkül tapmağa başlayır. Sonrakı dövrlərdə isə bu keyfiyyətlər təkmilləşir və möhkəmlənir.

Kiçik yaş dövründə məktəblilərin bütün əxlaqi, sosial və mənəvi keyfiyyətləri intensiv şəkildə inkişaf edir və əksər keyfiyyətlər onların bütün həyatları  boyu dəyişilməz qalır. Mənəvi hisslər və düşüncə mənəvi iradəni müəyyən edir, onu qidalandırır. Mənəvi inam əxlaqi-tərbiyəvi iradəyə çevrilir, ona yüksək ideya istiqaməti verir.

İnsanda yeni əxlaqi keyfiyyətlər yarandıqca o, mənəvi cəhətdən daha da təkmilləşir və əxlaqi mənəvi təkamülün yüksək mərhələsi kimi meydana çıxır. Hərtərəfli inkişaf etmiş şəxsdə həm əxlaqın, həm də mənəvi tərbiyənin vəhdətdə olması vacibdir. Vətənpərvərlik, xeyirxahlıq, əməksevərlik, kollektivçilik, təvazökarlıq, dostluq, düzlük, milli qürur və iftixar hissi, nikbinlik və s. bu kimi mənəvi keyfiyyətlər həm də mənəvi keyfiyyətlərdir. Bu keyfiyyətləri özündə təcəssüm etdirən adam mənəvi cəhətdən zəngin sayıla bilər və mənəvi şəxsiyyətinin hərtərəfli inkişafında mühüm rol oynayır [1].

Hal-hazırda elə bir dövrdə yaşayırıq ki, hamı o cümlədən məktəblilər daha yaradıcı və təşəbbüskar olmalı, daha yaxşı oxumalı və işləməli, birgə yaşayış qaydalarına daha dərindən yiyələnməli, rəzil sifətlərə qarşı daha əzmlə mübarizə aparmalı, öz fəaliyyətlərində humanizm, vətənpərvərlik, prinsipiallıq kimi yüksək insani keyfiyyətləri daha bariz şəkildə nümayiş etdirməlidirlər.

Gənc nəsil məhz məktəbdə elmlərin əsasında yiyələnir, təbiət və cəmiyyətin inkişaf qanunları haqqında biliklər və bacarıqlar əldə edir, elmi dünyagörüşünə sahib olur, mənəvi keyfiyyətlər kəsb edir, əməyə hazırlanır, estetik və fiziki cəhətdən təkmilləşirlər.

Məktəbdə bu mühüm vəzifənin həyata keçirilməsi üçün imkanlar çoxdur. Şagirdlərin milli ruhda tərbiyə edilməsi üzrə işi təkcə təlim prosesi ilə məhdudlaşdırmaq olmaz.

Pedaqoji ədəbiyyatlarda qeyd edilir ki, gənclərdə mənəvi tərbiyəni formalaşdırmaq işinin hüdudlarını müəyyənləşdirmək çətindir. Şəxsiyyətin formalaşmasının özülü daha planlı və mütəşəkkil şəkildə məhz məktəbdə qoyulduğuna görə onun mənəvi zənginliyinin bünövrəsi də burada qoyulur. Odur ki, məktəb istər şagirdlərə elmlərin əsasını mənimsədərkən, istərsə də dərsdənkənar vaxtlarda həyata keçirmək üçün müvafiq tədbirlər müəyyənləşdirərkən ilk növbədə mənəviyyatlı insanlar yetişdirməyi əsas tutmalıdır.

Aydındır ki, tədris zamanı müəllim əxlaqa, mənəviyyata çox yer ayrıla bilmir. Çünki, uşaqlara lazımi biliyi çatdırmaq müəllimin başlıca vəzifəsidir. Ona görə də sinifdənxaric işlərin təşkili zamanı bir növ müəllimin əlinə yaxşı imkan düşür. Bu işlərdə də diqqətli olmaq lazımdır. Boş, quru sözlərə yer vermək lazım deyil. Yerli yerində, faktlara əsaslanaraq uşaqlara məlumat verilməsi daha məqsədə uyğundur. Uşaqların mənəvi tərbiyəsi zamanı nə onları həddən artıq sıxmaq, nə də boş buraxmaq olmaz. Bu məsələdə düzgün mövqe tutmaq üçün tərbiyəçidən pedaqoji incəlik və məharət tələb edir. Müəllim şagirdin müstəqilliyini, daxili qüvvəsini ifadə etməsinə geniş imkan yaratmaqla yanaşı onun mənəvi həyatının axınına məqsədyönlü istiqamət verməli, məktəbliyə hiss etdirmədən onun fəaliyyə həllini ciddi surətdə müəyyənləşdirməli özünü arxa planda aparan şəxs kimi göstərsə də şagirdin heç bir hərəkətini nəzərdən qaçırmamalıdır.

Məktəb partaları arxasından azad dünyaya qədəm qoyan bu balaca şəxsiyyətlərin ənənəvi dünyagörüşləri ətraf mühitin yeni və çox zaman heç də ürəkaçan olmayan münasibətlərilə toqquşması labüddür. Bu şəraitdə onları həyati əhəmiyyətli problemlərdən agah etmək (məsələn, müharibələr, AİDS və s.), mənəvi sarsıntılardan qorumaq, hüquqlarını, cəmiyyətə yararlı insan olduğunu anlatmaq, azad təfəkkür tərzi, daxili mədəniyyətini, mənəviyyatını qorumaq və zənginləşdirmək uşaq kitabxanalarının da üzərinə böyük vəzifələr qoyur. BMT-nin Uşaq hüquqları bəyənnaməsinə əsasən uşaq və yeniyetmələrin azad informasiya axtarmaq, almaq və ötürmək, mədəni həyatda müstəqil iştirak etmək, dincəlmək, hüquqi biliklərini artırmaq, peşə seçimi etmək və s. kimi hüquqlarının müdafiəsində pedaqoqlar:

1. Uşaq və yeniyetmələrin informasiya mədəniyyətinin yüksəlməsinə yardım göstərməli.
2. Kompüter əsrinin nəslinə çevrilən azərbaycanlı uşaq və yeniyetmələr üçün onların mənəvi-əxlaqi-hüquqi tərbiyəsini təmin edən kibermühitin yaradılmasına çalışmalı.
3. Böyüməkdə olan nəslin sosial-iqtisadi və ictimai həyata adaptasiyasına yardım göstərməli.

Xalq arasında belə bir məsəl var: "Qarşıdakı ili düşünürsənsə çovdar ək, qabaqdan gələn 10 illikləri düşünürsənsə ağac ək, əsrləri düşnürsənsə uşaq tərbiyə et". Çox hikmətli sözlərin əsas məqsədi budur ki, hər bir işi görməzdən əvvəl düşünmək lazımdır. Məqsədli, düşünülmüş təşkil olunan hər bir iş şagirdlərin mənəvi tərbiyəsinə müsbət təsir göstərir.

Zəngin mənəviyyatlı vətəndaşların yetişdirilməsi gənc nəslin tərbiyəsinin əsasını təşkil edir. Odur ki, təlim-tərbiyə işinin bütün mərhələsində bu cəhət diqqət mərkəzində saxlanılmalıdır [2].

Dövlətimiz məktəbin qarşısında yüksək mənəvi keyfiyyətlərə malik olan yeni insan tərbiyə etmək kimi böyük və şərəfli vəzifə qoymuşdur.

Məktəblilərin formalaşması və hərtərəfli inkişafı o vaxt baş verir ki, pedaqoji proses –təlim və tərbiyə işi vəhdətdə həyata keçirilsin. Bu prosesdə məktəblilərin təhsillilik səviyyəsilə yanaşı, yüksək əxlaqi-mənəvi keyfiyyətləri də inkişaf edir. Çünki hər bir şagirdin Vətənimizin layiqli vətəndaşı, xalqının gələcəyini düşünən, sabahın qurucusu olan, yüksək əxlaqa və mənəvi keyfiyyətlərə malik şəxsiyyət kimi inkişaf etməsi zəruridir.

**Ədəbiyyat**

1. Heydər Əliyev yolu Azərbaycan inkişafın yeni mərhələsində. Bakı: "Azərbaycan" nəşriyyatı, 2007, səh. 862
2. Hüseynov İ. Azərbaycan milli adət ənənələrinin bədii-estetik mahiyyəti. Bakı, 2002, səh.305
3. Kazımov N. Məktəb pedaqogikası. Bakı, 2009, səh. 436

UOT 371.1.02

## Специфика патриотического воспитания учащихся в условиях глобализации

*Вахидов Курбан Исрафил оглы*
*Мингечевирский городской отдел образования*
*Докторант Института Проблем Образования*

Одним из основополагающих явлений, определяющих сегодня облик и структуру жизни человеческого сообщества буквально во всех его аспектах – социальном, экономическом, культурном и политическом, является глобализация.

На сегодняшний день совершенно очевидным является факт весьма существенного взаимодействия глобализации и национальных и этнических культур. В ходе этого не только перекраиваются традиционные ареалы распространения главных мировых религий и

конфессий, зачастую оказывающихся в новых условиях существования и взаимодействия, но и происходит их сопряжение со сравнительно новыми ценностями, такими, например, как принципы гражданского общества. Все это требует тщательного изучения и глубокого анализа – как со стороны экспертов, так и со стороны множества заинтересованных лиц, которым небезразлична судьба культуры, особенно в сегодняшнем, стремительно меняющемся мире.

Исследование специфики патриотического воспитания учащихся в условиях глобализации проводилось на основе аксиологического подхода, позволившего рассмотреть патриотизм в качестве ценностного отношения субъекта (прежде всего отдельного школьника) к родине; конструктивистского подхода, позволившего проанализировать патриотизм не только как естественно формирующееся чувство привязанности к «малой» родине, но и как результатсоциального конструирования, целенаправленной деятельности по его формированию, возможности которого значительно возрастают в условиях глобализации. Конструктивистский подход к патриотическому воспитанию способствовал выявлению тех механизмов, с помощью которых в современных условиях формируется образ родины как объект патриотизма и происходят процессы идентификации человека с нацией как социокультурной общностью, базирующиеся на патриотизме.

Основными уровнями патриотизма являются чувственный, включающий широкий спектр эмоций по отношению к родине, и рациональный - убежденность и осознание значимости родины в жизни отдельного человека. Чувственный уровень всегда первичен, отношение человека к родине всегда носит эмоциональный характер, именно на эмоции опираются родители и воспитатели, формируя патриотизм у ребенка, и политтехнологи, занимающиеся конструированием патриотизма. На рациональном уровне важным условием формирования патриотизма является осознание национальных интересов и соотнесение личных интересов с интересами государства.

Объектом патриотизма является многоуровневый образ родины, то есть ее знаково-символическая модель, складывающаяся в сознании человека. Понятие «родина» многопланово. Оно включает в себя как непосредственное место рождения или проживания, личное место, в котором все является знакомым и привычным («малая родина»), так и родную страну, место проживания социокультурной общности, нации («большая родина»). Можно говорить также о «метафизической родине», представляющей образ идеального отечества, не достижимый в реальности [4]. Образ родины имеет несколько существенных пластов. С одной стороны, он восходит к коллективному бессознательному, к архетипическим образам, с другой стороны, – является результатом социального конструирования.

У каждого конкретного человека образ родины начинает формироваться с рождения под влиянием национальных традиций, обычаев, культуры, родного языка. Изначально родина познается через семью, родной дом, родных и близких людей, затем формируются представления о «малой родине» - родной деревне или городе, постепенно складывается образ «большой родины», родной страны; родина отождествляется с народом и верой, с культурой, бытом и природой [8]. Существенным в образе родины является не столько соотнесенность с определенным местом и временем, с определенной частью страны или с государством как политическим субъектом, сколько оценочно-эмоциональная составляющая. Образ родины одухотворен, наполнен ассоциативными связями и эмоциональными переживаниями.

Глобализациярезко обострила проблему сохранения национальной идентичности, поставив под сомнение саму ценность патриотизма как ее основания. С одной стороны, культурная глобализация предполагает интенсификацию межкультурного взаимодействия, следствием которой становятся повышение интереса к представителям других культур и распространение прогрессивных культурных инноваций. С другой стороны, в процессы естественного межкультурного взаимодействия активно вмешиваются глобальные игроки, в качестве которых выступают отдельные страны, влиятельные международные организации,

рассматривающие управление идентификациями как средство распространения собственного влияния [5]. Призывы отказаться от национальной идентичности и патриотизма как пережитков прошлого, формирование космополитической идентичности и вестернизация, основным содержанием которой является изменение существующей системы ценностей, являются компонентами так называемой «мягкой силы» («soft power») [6], позволяющей эффективно управлять значительными массами населения.

Одним из способов управления идентификациями в глобальном мире является конструирование космополитической идентичности, предполагающей отказ от патриотических чувств в отношении страны и предлагающей в качестве замены аналогичные чувства по отношению к миру, планете Земля, всему человечеству. В настоящее время ни один из видов космополитической идентичности: номадическая, имперско-глобалистская и глобально-демократическая – в чистом виде не сложился [2]. Представители транснациональной деловой элиты и интеллектуалы, свободно перемещающиеся по миру, обладают скорее определенными функциональными навыками, позволяющими им комфортно чувствовать себя в разных странах, сохраняя приверженность национальным культурным ценностям. Страны, стремящиеся доминировать в мире, характеризуются устойчивой национальной идентичностью и высоким уровнем развития патриотизма. Даже «общеевропейская идентичность», не говоря уже о космополитической, - скорее проект, нежели реалии. Объективные процессы экономической глобализации вовсе не требуют отказа от патриотизма как такового, ведь для устойчивой идентификации человеку необходимо ощущать себя частью культурной общности, идентифицировать себя с местами своего проживания. Патриотизм в современном обществе не изолирует человека от глобального мира, а, напротив, позволяет увидеть мир во всем его многообразии, оценить культурное разнообразие, убедиться в том, что другие люди, другие народы и другие страны интересны нам только потому, что они от нас отличаются. Попытки же искусственного навязывания космополитических убеждений, насаждения вестернизированных ценностей массовой культуры чреваты ростом ксенофобии, ненависти к другим социальным общностям.

Важно подчеркнуть, что глобализация меняет само содержание патриотизма. Образ родины как объект патриотизма активно конструируется с применением информационно-коммуникационных технологий, технологий поддержания местных культурных традиций и маркетинговых стратегий, он включает не только представление о себе и своей общности, но и дополняется проекцией внутреннего восприятия за пределы национально-государственной общности. Родина начинает рассматриваться как бренд, обладающий определенным экономическим потенциалом, политическим имиджем и культурным наследием. Патриотизм в условиях глобализации должен включать пропаганду культурных ценностей в мире, а не ориентироваться на национальную замкнутость и на стремление отгородиться от глобального социума. На первый план должна выйти именно презентация с использованием современных информационно-коммуникационных технологий культурного наследия, национальных традиций, языка, культурных ценностей, которые должны позиционироваться как лучшие и незаменимые. В полиэтнических государствах одной из возможных культурных стратегий, призванных способствовать развитию национального патриотизма и снижению росту межэтнической напряженности, может стать этнофутуризм как движение, способное деполитизировать этничность, перевести этнонациональный дискурс в плоскость демонстрации культурных традиций и обычаев этносов, позволяющее малочисленным народам сохранять и развивать свою этническую самобытность, быть патриотами как «малой», так и «большой» родины. Культурные стратегии позиционирования родины как бренда, формирования креативных пространств как нового образа «малой» или «большой» родины и деполитизации этничности в форме этнофутуризма позволяют противостоять вестернизации и гомогенизации культуры и становятся выражением патриотизма в условиях глобализации.

## Литература

1. Баоюань И. Шэмэ ши сяньдайхуа гайнянь юй фаныни ды таньтао (Что такое модернизация - исследование концепций и категорий) /Баоюань И. -Бэйцзин: Жэньминь чубанынэ, 2001. - 212 с. - Кит. яз.
2. Капицын В.М. Космополитизм - компонент «мягкой силы» и глобального управления // Обозреватель - Observer. - 2009. - №10. - с.70-79
3. Кессиди Ф.К. Глобализация и культурная идентичность. Вопросы философии. 2003. - № 1. - с. 76-79
4. Лихачевские VIII Международные научные чтения. Европейская ментальность, дух и границы: круглый стол - СПб., 2008. - URL
5. Лысак И.В. Проблема сохранения культурной идентичности в условиях глобализации. Гуманитарные и социально-экономические науки. - 2010. - №4. - с. 91-95
6. Най Дж. «Мягкая» сила и американо-европейские отношения. Свободная мысль-XXI. - 2004. - №10. - с.33-41
7. Салицкий А. И. Вызовы глобализации и проблемы крупных полупериферийных стран. Мировая экономика и международные отношения. 2002. - № 2. - с. 15 - 19
8. Сандомирская И. Книга о Родине: Опыт анализа дискурсивных практик // Wiener Slawistischer Almanach. Sonderband50 (Венский альманах славистики. Спецвыпуск 50). - Wien: Gesellschaft zur Foerderung slawistischer Studien, 2001. – 286 с.
9. Сапова В.В. Многоликая глобализация / Под ред. П. Бергера и С. Хантингтона: пер. с англ. М.: Аспект Пресс, 2004. - 379 с.

UOT 373.1.02

## Milli-mənəvi dəyərlərin aşılanmasında riyaziyyatın rolu

*İsmayılova Sevda Camal qızı*
*Mingəçevir şəhər Texniki humanitar lisey*
*Azərbaycan Respublikası*
*Təhsil Problemləri İnstitutunun doktorantı*

Cəmiyyət o zaman geniş miqyaslı milli məsələlər qaldırmağa və onları həll etməyə qadir olur ki, onun milli-mənəvi meyarlar sistemi olsun. Bu meyarlar isə doğma ana dilinə, özünəməxsus mədəni dəyərlərə, əcdadların xatirəsinə, vətənin tarixinin hər bir səhifəsinə hörmət olan yerdə bərqərardır. Dahi rəhbər Heydər Əliyev 13 avqust 2001-ci il tarixli bəyanatında bu haqda söyləmişdir: “Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir... Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıb. Belə dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz” [2]. Mənəvi dəyərlərimizin qorunmasında və onun təbliğində ulu öndərin zəngin xidmətləri olmuşdur. Onun təşəbbüsü və qətiyyəti ilə hələ sovet dönəmində Azərbaycan SSR-in Konstitusiyası qəbul olunarkən, orada ana dilimizin dövlət dili statusu təsbit olunmuşdur. Ulu öndər Heydər Əliyevin müstəqillik dövrünün ilk Konstitusiyasının qəbulu zamanı dilimizin adı ilə bağlı apardığı elmi və prinsipial müzakirələr təkcə alimlərimizin yox, bütün xalqın xatirində silinməz izlər buraxmışdır. Ümummilli liderimiz Heydər Əliyev həmişə xalqın milli dəyərlərinə, o cümlədən dininə böyük hörmət və ehtiramla yanaşmışdır. Novruz bayramının, digər dini bayramların qeyd edilməsi onun təşəbbüsü ilə həyata keçirilmişdir. Azərbaycan milli-mənəvi dəyərlərinə yiyələnməklə gənc nəslin milli ruhda tərbiyə olunması məsələsi Heydər Əliyev tərəfindən əsas vəzifələrdən biri kimi irəli sürülmüşdür. Dövlət başçısı bu

məsələdən bəhs edərkən belə deyirdi: “Gənclərimiz milli ruhlda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz”.

Cəmiyyətin mənəvi və əxlaqı dəyərlərinin möhkəmlənməsində əsas rol təhsilin üzərinə düşür. Məktəb hər bir Azərbaycan vətəndaşının keçdiyi yeganə ictimai təşkilatdır. Əlbəttə ki, şəxsiyyət ilk olaraq ailədə formalaşır. Lakin şəxsiyyətin milli mənəvi dəyərlərinin daha sistemli, ardıcıl və dərin inkişafı təhsilin hesabına baş verir. Buna görə də şagirdin yalnız intelektual səviyyəsinin deyil, mədəni və mənəvi səviyyəsinin də inkişafı məhz məktəbdə diqqət mərkəzində saxlanılmalıdır.

Şagirdlər xüsusilə ibtidai siniflərdə mənəvi və əxlaqi inkişafa və tərbiyəyə daha həssas olurlar. Milli dəyərlərin bu yaşdakı şagirdlərə aşılanmasında yol verilən çatışmazlıqları sonrakı yaş dövrlərində aradan qaldırmaq çətin olur. Kiçik yaşlarda yaşanan və mənimsədilən dəyərlər dərin psixoloji dayanıqlığı ilə fərqlənir. Bu gün tərbiyə cəmiyyətin inkişafı üçün nəzərdə tutulmuş müəyyən ideal insanın yetişdirilməsinə istiqamətləndirilməlidir. Rus psixoloqu M.B. Zaxarçenkonun fikrincə: “Müasir milli tərbiyəli ideal insan – vətənin taleyini şəxsi taleyi kimi qəbul edən, onun bu günü və gələcəyi üçün cavabdehliyini dərk edən, dövlətin milli və mənəvi adət-ənənələrinə sadiq qalan yüksək yaradıcı komponentli vətəndaşıdır” [3]. Bütün dövrlərdə milli mənəvi dəyərlərin tərbiyədə rolu insanlar tərəfindən yüksək qiymətləndirilmiş və əsas meyar kimi qəbul edilmişdir. Müəllim şagirdlərinə müəyyən bilik və bacarıqları mənimsətməyə cavabdehdir. O, şagird və öyrədilən konkret fənn arasında əsas əlaqələndirici simadır. Məhz müəllim şagirddə elmə, ətraf aləmin öyrənilməsinə maraq və həvəs oyadır. Tərbiyəni məktəbdə tədris edilən istənilən fənn vasitəsilə vermək mümkündür və digər elmlər kimi, riyaziyyat elmi də insana onun mənəvi xarakterinin formalaşmasında mühüm rol oynayan bir sıra əxlaqi xüsusiyyətlər aşılamağa qadirdir. Riyaziyyat sadəcə elm sahəsi deyil, hər şeydən əvvəl ümumi mədəniyyətin mühüm elementi, dünyanı qavramanın elmi dilidir. Riyaziyyat qərar qəbul etməyi, əməlləri yoxlamağı, səhvləri düzəltməyi öyrədir. Bu elmi öyrənmək sadəcə vacib deyil, həm də maraqlı və cəlbedicidir. Riyaziyyat dərslərində əxlaq, mənəviyyat məsələlərinə hər zaman toxunulur. Onun tarixini öyrənməklə şagirdlər elmi kəşflərin aşkar edilməsində fədakar alimlərin əməyinin yüksək olduğunu müəyyən edir. Bü gün riyaziyyat müəllimi digər millətlərin dahi riyaziyatçılarını şagirdlərinə tanıtmaqla yanaşı böyük Azərbaycan riyaziyyatçılarından da söhbət açmalı, onların elmi kəşfləri, riyaziyyatın inkişafı sahəsində gördükləri işləri haqqında şagirdlərinə məlumat verməyi özlərinə borc bilməlidirlər. Kurikulumun tətbiqi bü gün məktəblərdə şagirdin yaradıcı fəaliyyətini əsas tutur. Müasir şagird müəllimin müəyyən istiqamətverməsi ilə özü də elmi araşdırmalar aparmağa, azərbaycanlı riyaziyyatçılar haqqında məlumat toplamağa qadirdir. Dahi alimlərin riyazi fəaliyyətləri haqqında tarixi məlumatlar şagirdlərin diqqətini ümumibəşəri dəyərlərə və mədəniyyətlərə yönəldir. Qədim azərbaycanlı riyaziyyatçı alimi Nəsrəddin Tusi ilə yanaşı, müasir riyaziyyatçılardan olan Zahid Xəlilovun, İbrahim İbrahimovun, Əşrəf Hüseynovun, Mirabbas Qasımovun və digərlərinin həyat və yaradıcılığının şagirdlərə tanıdılması riyaziyatın tarixinə maraq və həvəsin oyadılmasına şərait yaradar, şagirdlərdə riyaziyyat elminin öyrənilməsinə marağın artmasına səbəb olar.

Riyaziyyat elminin mənimsənilməsi milli dəyərlərin formalaşdırılması nəticəsində şəxsiyyətin tərbiyəsinin və mənəvi əxlaqının inkişafına əhəmiyyətli töhvələrini verir. Bu elmin öyrədilməsi dünyanın dərk edilməsində zəhmətin vacibliyinə, ailənin qiymətinin, ətraf mühitin qorunmasına qayğıkeş münasibətin, sağlam və təhlükəsiz yaşam tərzinin vacibliyinin dərk edilməsinə aparır. Bu məqsədə nail olmaq üçün riyaziyyatda mətnli materialla yanaşı illüstrasiyalı materiallardan da istifadə olunması məqsədəuyğundur. Məsələn, Bakı-Şuşa, Bakı-Xankəndi, Bakı-Xocalı və s. məsafələrin işarəsinin Azərbaycan yollarında əks olunduğu kimi, riyaziyyat kitablarında da məsələ kimi verilməsi, həmin rayonların təsvirlərinin kitablarda əks olunması vacib amildir [1]. Bu şagirdə torpaqlarımızın işğal altında olmasına baxmayaraq dövlət tərəfindən unudulmadığını xatırladır və onlarda vətənpərvərlik hislərinin inkişafını formalaşdırır. Məktəb, sinif, ölkə və ya

şəhər və kəndlərdə baş verən hadisələrə, milli bayramlara aid tapşırıqlar, şagirdlərdə milli-mənəvi dəyərlərin formalaşmasına, öz vətəni ilə qürur hissi keçirməsinə səbəb olur.

Azərbaycanla fəxr etmək, dünyanın inkişafında onun rolunu anlamaq, vətənpərvərlik hislərinin artması riyazi məsələlərin mətnində əksəriyyət təşkil etməlidir. Azərbaycanın yaranma tarıxından, həmçinin, onun dahi şəxsiyyətlərinin həyatından məlumatlar məsələ şəklində şagirdlərin diqqətinə çatdırılırsa, bu onların mənəvi-əxlaqi dəyərlərin inkişafında əsaslı rol oynayır. Hər hansı regionun əhalisi və onun tərkibi haqqında tərtib edilən məsələlər şagirdlərin diqqətini ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunmasına, inkişafı və harmonizasiyasına, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldir. Bu gün ölkəmizdə geniş miqyasda vüsət tapan multikulturalizm tolerantlığın təcəssümüdür, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil.

Riyazi məsələlərin tərtibində Azərbaycan xalqının etnik-mədəni çərçivəsində olan elementlərin, milli geyimlərin, milli oyunların əks olunması məqsədəuyğundur. Bu elementlər əsasən ibtidai siniflərin riyaziyyat kitablarında illüstrasiyalar şəklində təqdim olunmaqla daha çox təsir gücünə malik olur. Həmçinin, əməyin vacibliyinin dərk edilməsi məqsədilə dərsliklərdə müxtəlif peşə sahiblərinin (dərzi, aşbaz, fermer, sürücü, bağban, suvaqçı, arıçı, müəllim, mühəndis, həkim və s.) işini əks etdirən illüstrasiyalı məsələlərin verilməsi şagirdlərdə bu peşələrə maraq hissinin oyanmasına gətirib çıxarır. Ailə dəyərlərinin dərk edilməsi də milli-mənəvi dəyərlərin inkişafında əsas rol oynayır. Riyaziyyat kitablarında ailə həyatının müxəlif tərəflərinin göstərilməsi, ailə üzvləri arasında isti, doğma münasibətlərin ifadəsi (məsələn, ev işlərində bir-birinə yardımın göstərilməsi, ailə gəzintiləri, birlikdə müəyyən yardım işləri ilə məşğulolma, ailəvi yarışlarda iştiraketmə, tarixi müzeylərin və qalereyaların ziyarət edilməsi və s.) üzərində qurulan məsələlər xüsusi əhəmiyyətə malikdir. Dövlətin möhkəmliliyi ailədən başlayır. Bu tip tapşırıqlar ailə həyatının müqəddəsliyini anlamağı, böyük-kiçik münasibətlərinin formalaşmasını ehtiva edir, şagirdlərə kiçik yaşlardan möhkəm ailə münasibətlərinin necə qurulduğunu aşılayır. Həmçinin, ətraf mühitə qayğıkeş münasibətin formalaşması da məktəb riyaziyyat kursunda öz əksini tapır. Şagirdlər bu məsələlərdə ağac əkmək, çiçək yetişdirmək, müxtəlif canlılara qulluq etmək kimi problemləri araşdırdıqca, onlarda təbiəti sevmə və qoruma hisləri inkişaf edir.

Bu gün bizim qarşımızda bir tərəfdən milli-mənəvi dəyərlərə, köklərə qayıdış, digər tərəfdən də elmin, texnikanın inkişafının müasir tələblərinə uyğunlaşmaq vəzifəsi durur. İsveçrə psixoloqu Karl Qustav Yunq yazırdı: “O işi ki, millət görür, o işi hər bir insan da görür və bir insan bu işi görürsə, deməli bu işi bütövlükdə millət də görür” [5]. Bu bir növ fərdlə millət arasında tarazlıq vəziyyətidir. Bu tarazlığın pozulmaması üçün hər bir şəxs öz növbəsində milli-mənəvi meyarlar sisteminə uyğun gəlməyən hərəkətlər etməkdən çəkinməlidir.

Məktəbdə təhsil aldığı müddətdə şagird müxtəlif bilik və bacarıqlar əldə edir. Bununla yanaşı başlıca vəzifə olaraq onun şəxsiyyət kimi formalaşması əsas olaraq qalır. Bunun üçün riyaziyyat elmi və onu tədris edən müəllim şagirdin mənəvi aləminin formalaşdırılmasında yaxından köməkçi olmağa qadirdir. K.D. Uşinski deyirdi: “Tərbiyə öz gücünü tərbiyəçinin şəxsiyyətindən almalıdır... Pedaqoq əsrlərdən gələn dəyərləri yeni nəslə ötürən, onları qüsurlardan və mənəvi xəstəliklərdən qoruyan canlı qüvvədir” [4]. Müəllimin şəxsiyyəti şagirdlərin tərbiyəsində əsas amildir. Onun davranışı, milli-mənəvi dəyərlərə qiymət verməsi hər bir şagirdin gündəlik həyatında ətrafdakı aləmlə münasibətinə birbaşa təsir göstərir. Və əlbəttə ki, bu münasibətlər özünü milli-mənəvi dəyərlərin qorunmasında və formalaşmasında taparsa, o zaman biz hər bir şagirdin timsalında əsil komponentli insan yaratmış olarıq.

## Ədəbiyyat


1. I-VIII sinif orta məktəb riyaziyyat dərslikləri
2. Əhmədov H., Əhmədov P. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı, 2015
3. Захарченко М.Б. Типологическая интерпретация понятия традиции. Москва, 2002

4. Ушинский К.Д. Педагогические сочинение. Москва, 1988
5. Юнг Карл Густав. Психологические типы. Москва, 1914

UOT 37:002

## İnformasiya kommunikasiya texnologiyalarının mənəvi irsin təbliğində rolu

*Əliyeva Afət Viladim qızı*
*Mingəçevir şəhər Təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü lisey*

*Bizim hamımızın bir vətəni var – bu Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır. Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır.*

***Ümummilli lider Heydər Əliyev***

Qədim dövlətçilik tarixinə malik olan Azərbaycan xalqı hər zaman milli dəyərlərə sadiqliyini göstərib, bu dəyərləri əsrlərlə yaşadaraq onu inkişaf etdirib. Tarixin hər bir dövründə ölkəmizdə milli dəyərlərimizin qorunması və onun gələcək nəsillərə çatdırılması aktual olub. Mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi müstəqil respublikanın mədəniyyət siyasətinin əsas vəzifələrindən biridir. Bu mənada Azərbaycan dövləti öz daxili və xarici siyasətini yeni tarixi şəraitə, müasir tələblərə uyğun olaraq, xalqımızın tarixi və mədəni ənənələrinə, dilimizə, dinimizə, millimənəvi dəyərlərimizə istinad edərək həyata kecirir.

Elə günümüzdə də bu müsbət tendensiya özünü qoruyub saxlayır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu var.

Ümumiyyətlə, hər bir xalqın, millətin mövcudluğu onun ana dilinə, adət-ənənələrinə, öz mədəniyyətinə, ədəbiyyatına, tarixinə bağlılığından asılıdır. Azərbaycan xalqı da bugünədək məhz milli mənəvi dəyərlərinə bağlılığı sayəsində özünün mövcudluğunu, milli identikliyini, özünəməxsusluğunu qoruyub saxlaya bilib. Azərbaycan xalqının ən böyük sərvətlərindən biri onun zəngin milli mədəni, maddi, ədəbi, dövlətçilik irsinə sahib olmasıdır. Bu zəngin mənəvi irs xalqımız tərəfindən əsrlər boyunca yaradılıb və onun böyük bir hissəsi bugünədək qorunub saxlanıb. Bu baxımdan, milli dövlətin formalaşması və əbədiyaşar olması onun mənəvi əsaslarının milli dəyərlərlə nə dərəcədə səsləşməsindən asılıdır.

Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.Milli dəyərlərimizin qorunması və inkişafı ulu öndərimiz Heydər Əliyevinadı ilə bağlıdır. Milli dəyərlərimizə, soykökümüzə qayıdışın, milli hisslərimizinoyanışının xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu sahəni diqqətmərkəzində saxlayan ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanarəhbərliyinin birinci dövründə xalqımızın milli oyanışının əsası qoyulmuşdur.

"Müstəqil Azərbaycanın əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyəti ilə fəxr etməlidir, biz azərbaycanlığı – Azərbaycanın dilini, mədəniyyətini, milli mənəvi dəyərlərini, adət və ənənələrini inkişaf etdirməliyik" [1].

"Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz" (Heydər Əliyev).

Bəs milli dəyərlər deyəndə nə başa düşülməlidir? Milli ideologiya, milli tarix, milli dil, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə, dahişəxsiyyətlərimiz, milli

musiqimiz, muğamlarımız, folklorumuz: hansı ki bura bizimyaddaşımız – fərd yaddaşı, etnos yaddaşı, millət, xalq yaddaşı daxildir. Bir sözlə,milli olan bütün nailiyyət və keyfiyyətlərimiz milli dəyərlər sisteminə aiddir.

Bu gün dövlətin hər cür resurslardan səmərəli istifadə yolları ilə formalaşdırmağa çalışdığı başlıca dəyərlər bunlardır: ədalətli olmaq, ailə birliyinə önəm vermək, vətənsevərliyi aşılamaq, qanunlara hörmət, dinə hörmət, eyni zamanda tolerantlıq, çalışqanlıq, qonaq-sevərlik, yardımsevərlik.

Bu gün Azərbaycan Respublikasının beynəlxalq miqyasda tanınmasına, müstəqilliyinin möhkəmlənməsinə dair bir sıra tədbirlər həyata kecirilir. Eləcə də təhsil və mədəniyyətin inkişafı ucun zərüri qərarlar qəbul edilir. Dövlət aparatının, təhsil və mədəniyyət institutlarının Avropa standartlarına uyğun şəkildə qurulması istiqamətində səylər gostərilir. Milli-mədəni, intellektual qüvvələr öz fəaliyyətləri ilə dövlətin mədəniyyət sahəsindəki siyasətinin müasir durumunu təhlil edir və bu siyasətin perspektivlərinə aydınlıq gətirməyə calışırlar.

Azərbaycanı təhsil və elmi səviyyəsinə görə qabaqçıl və inkişaf etmiş ölkələrdən birinə çevirməkdədir. "Təhsil millətin gələcəyi, müstəqil dövlətin təməlidir.

Birləşmiş Millətlər Təşkilatının "Təhsil əsri" elan etdiyi XXI əsrin inkişaf strategiyasının tələbləri Azərbaycan təhsilinin qarşısına da mühüm vəzifələr qoyur." [1]

Bu vəzifələrdən biri də məhs milli-mənəvi dəyərlərimizin təbliği ilə bağlıdır. Hər bir müəllim tədris etdiyi fənni milli-mənəvi dəyərlərimizlə əlaqələndirərək şagirdlərdə milli-mənəvi dəyərərimizə sevgini artırır.

Vətənpərvərlik, milli ideologiya, milli tarix, milli dil, dinimiz, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə, dahi şəxsiyyətlərimiz, milli musiqimiz, muğamlarımız, fərdi yaddaşı, etnos yaddaşını, millətin, xalqın yaddaşını ehtiva edən folklorumuz, şagirdləri bu ruhda tərbiyyə olunması hər bir müəllimin borcudur.

Mən informatika müəllimiyəm. Bildiyiniz kimi, informatika fənni İnformasiya Kommunikasiya Texnologiyaları ilə bağlı olan bir fənndir. Sual verə bilərsiniz ki, bu fənnin milli-mənəvi dəyərlərimizlə nə əlaqəsi var. Hər bir müəllim yaradıcı olmalıdır və dərsləri milli-mənəvi dəyərlərimizin qorunması, onların nəsildən-nəsilə ötürülməsi sahəsinə yönəlt-məyi bacarmalıdır. Məsələn: Novruz bayramı ərəfəsində keçirilən bir çox mədəni tədbir-lərdə səmənidən, xalqımızın qədim milli geyimlərindən və s. milli-rəmzi atributlardan geniş istifadə olunur.Bu ərəfələrdə V sinifdə keçirilən "Kompüterdə şəkil çəkirəm" mövzusu ilə Novruz bayramının atributları olan səməni, şəkərbura, paxlava və s. əlaqələndirib, Paint proqramında həmin atributlarının təsvirini yaratmaq tapşırığını verirəm [2]. "Elektron təqdimatlar"[3], "Slaydlarla iş" [3] mövzularını keçən zaman Power Point proqramından istifadə edərək adət-ənənələrimiz, dinimiz, xalqımızın qədim milli qeyimləri haqqında təqdimat yaratmaq tapşırığı verirəm.

Vətənpərvərlik ruhunda gənc nəslin tərbiyə olunmasında indi həmişəkindən daha çox ehiyac var. Altıncı sinifdə keçirilən "İnformasiya resursları ilə iş" mövzusunu bu istiqamət- də yönəldib, şagirdlərə "İşqal altında olan torpaqlarımız" haqqında informasiya resursunun hazırlanması tapşırığını tövsiyə etdim [3]. "Şəkilli mətnlər" [2], "Mətn redaktorunda şəkli necə çəkmək olar" [2], "Bağa sadə fiqurlar çəkir" [2] mövzularıda vətənpərvərlik baxımından böyük əhəmiyyət kəsb edirlər. Bu mövzuları keçən zaman şagirdlərə Dövlət rəmzləri ilə bağlı tağşırıqlar verilir. Dövlət bayrağının şəklinin çəkilməsi (Paint proqramı), Bayraq haqqında yazılan mətnə Paint proqramında çəkilmiş bayraq şəklinin əlavə edilməsi, mətn redaktorunda həndəsi fiqurların köməyi ilə bayrağın çəkilməsi, rənglənməsi (Word mətn redaktorunda), Alplogo proqramında bayraq şəkilinin proqramlaşdırılıb çəkilməsi.

2015-2016-cı tədris ilində mən 7-ci sinif şagirdləri ilə birlikdə layihə üzərində iş apardıq. "Vətənpərvərlik tərbiyyəsini inkişaf etdirilməsində İKT-dan necə istifadə etmək olar" şüarı altında "İnformasiya – mənim silahım!" adlı layihənın şagirdlərdə milli-mənəvi dəyərlərimizin aşılanmasında da mühüm rolu var. Layihənin həyata keçirtmək üçün sinifdə olan şagirdləri 3 qrupa böldüm. Hər bir qrupa tapşırıqlar verdim.

1 "Qarabağ" qrupu

Qrupun adına uyğun olaraq, Qarabağ torpaqları haqqında məlumatlar toplamaq. İşqal olunmuş torpaqları düşmən tapdağı altından necə azad etmək olar.

2. "Azərbaycanın tarixi"

Bu qrupun tapşırığı: Azərbaycanın tarixi abidələri haqqında informasiya resursu hazırlamaq.

3. "Mədəniyyət"

Bu qrupun tapşırığı: Azərbaycanın dahi bəstəkarları, yazıçıları və incəsənət işçiləri haqqında məlumat toplayıb, informasiya resurslarını hazırlamaq.

Layihə müddətində şagirdlər tarixi faktlardan istifadə edərək araşdırma aparır, tarixi faciələrimiz haqqında məlumatlar toplayır və onlardan ibrət dərsi götürürlər.

Qeyd etdiyim kimi layihədə verilən tapşırıqlar çox şahəli tapşırıqlar olduğundan, şagirdlərdə XXI əsrin bacarıqları inkişaf etdirilir, Əməkdaşlıq, ünsiyyət qurma, qrup üzvlərinin bir-birinə görə məsuliyyət daşıma. Bu bacarıqlar da bizim gənc nəsildə milli-mənəvi dəyərlərimizin təbliğində vacib amillərdən biridir.

Layihənin icrası zamanı, valideynlərin uşaqlara köməyi, dəstəyi şagirdlərdə ata-anaya, valideynlərə böyük hörmət və qayğı, ailə bağlarının daha da möhkəmləndirilməsinə gətirib çıxardır. Ata-anaya olan sevgi, sonra yoldaşlara və ətrafda olan insanlara, daha sonra isə cəmiyyətə, ən əsası Vətənə sevgi, hər bir vətəndaşın vətəndaşlıq borcudur.

"Milli mədəniyyətimiz haqqında informasiya resurslarının hazırlanması" tapşırığın şagirdlərdə milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyyə edilməsində, əxlaq münasi-bətlərini zənginləşdirilməsi və möhkəmləndirilməsində böyük əhəmiyyəti vardır.

Bilirik ki, hər bir millətin öz milli dəyərləri var, milli-mənəvi dəyərlərimiz haqqında məlumat vermək, digər ölkələrin milli dəyərləri barədə informasiya almaq məqsədi ilə şagirdlər digər ölkələrdə olan uşaqlarla internet vasitəsi ilə əlaqə yaradır, onlarla bizim milli dəyərlərimiz haqqında məlumatlarla bölüşür, "Elektron poçtla məktublaşma"[3], "Daxil olan məktublarla iş" [4].

"İKT həyatımızda". Debat dərs. [4]. Mən bu dərsi milli-mənəvi dəyərlərimz və müassirliklə əlaqələndirdim.Belə ki debat zamanı 1. Kompüter ünsiyyət və bilik əldə etmək üçün vasitədir. 2. İKT-nin insanlara milli-mənəvi dəyərlərimizin təbliğində rolu. təqdim olunan suallar çox böyük müzakirəyə səbəb oldu.

Beləliklə qeyd etmək istəyirəm ki, hər bir müəllim dərslərini milli-mənəvi dəyər-lərimizin qorunması, nəsildən nəsilə ötürülməsi istiqamətində qurmalıdır. Bu formatda təşkil olunmuş dərslər təlimin keyfiyyətinə müsbət təsir göstərir, şagirdlərdə dərsə marağı daha da artırır.

## Ədəbiyyat

1. Heydər Əliyev, "Müstəqilliyiiz əbədidir" may 2003- okytabr 2003-cü ilin çıxışları. Bakı nəşriyyat 45-ci kitab, 312 səh.

2. R. Mahmudzadə, İ. Sadıqov, N. İsayeva 5 sinif.dərslik, Bakı nəşriyyatı. 2012, 96 səh.

3. R. Mahmudzadə, İ. Sadıqov, N. İsayeva 6 sinif.dərslik, Bakı nəşriyyatı. 2013, 96 səh.

4. R. Mahmudzadə, İ. Sadıqov, N. İsayeva 7 sinif.dərslik, Bakı nəşriyyatı. 2014,.96 səh.

UOT 373.1.02

## Ümumtəhsil məktəblərinin ibtidai siniflərində milli-mənəvi dəyərlərin aşılanması

*Nəbiyeva Şahnaz Cəbrayıl qızı*
*Mingəçevir şəhər Təbiət-riyaziyyat və*
*Humanitar elmlər təmayüllü lisey*

Bu gün getdikcə qloballaşan, qloballaşdıqca kiçilən və tədricən etnik sərhədləri itən dünyamızda xalqımızın öz milli özünəməxsusluğunu qoruyub saxlaması üçün milli-mənəvi

dəyərlərimizin aşılanması və təbliği müstəsna əhəmiyyət daşıyır. Qloballaşma şəraitində yetişməkdə olan gənc nəslin qarşısında ümumbəşəri dəyərləri mənimsəməklə yanaşı, milli-mənəvi dəyərlərimizə dərindən yiyələnmək, onu qoruyub saxlamaq, inkişaf etdirmək və gələcək nəsillərə ötürmək bir vəzifə kimi dayanır. Bu, həm də, gənc nəsildə milli özünüdərk prosesinin güclənməsində, habelə, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəslin yetirşdirilməsində müstəsna rol oynayır. Bu mənada, ümumtəhsil məktəblərinin ibtidai siniflərində milli-mənəvi dəyərlərin aşılanması böyük aktuallıq kəsb edir.

Məlumdur ki, insan və cəmiyyət uzun müddətli tarixi inkişafın məhsuludur. Cəmiyyət inkişaf etdikcə əxlaq, davranış normaları zənginləşir, mürəkkəbləşir. Başqasının dərdinə şərik olmaq, mehribanlıq, nəzakətlik və s. əxlaqi keyfiyyətlər lap qədimdən yüksək qiymətləndirilmişdir. Əxlaq insan üçün davranışın əvəzedilməz kompası rolunu oynayır [1]. Bu kompas ictimai həyatda insana müəyyən istiqamət götürməyə imkan verir. Əxlaq məktəbli şəxsiyyətin formalaşmasında da mühüm əhəmiyyət kəsb edir. Məktəblilərdə fəaliyyət və ünsiyyət prosesində dünyaya, insanlara müəyyən münasibət yaranır. Xüsusən şagirdlər oyunda, təlimdə, idmanda, əməkdə bir-biri ilə ünsiyyətə girir və müəyyən davranış normalarının yerinə yetirilməsinə və həmin normaların gözlənilməsinə nail olurlar.

Vətənsevərlik, yurdsevərlik əxlaq tərbiyəsinin mühüm komponentlərindən biridir. Bu hiss hazırkı gənc nəslin təlim və tərbiyəsinin əsas ruhu, döyünən ürəyi, düşünən beyni olmalıdır. Şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasına indi həmişəkindən daha artıq ehtiyac vardır. Birinci siniflərdə keçilən "Himnimiz", "Qarabağ", II siniflərdə keçilən "Şəhidlər Xiyabanı", "Xocalı faciəsi", "Əbədi məşəl", III siniflərdə keçilən "18 oktyabr – Dövlət müstəqilliyi günü", IV siniflərdə keçilən "Bayrağım" və s. mövzular bu baxımdan böyük əhəmiyyət kəsb edir [3; 4; 5; 6]. Bu dərslərin tədrisi zamanı ibtidai sinif müəllimi vətənə məhəbbət, dövlət atributlarına hörmət, xalqımızın öz azadlığı uğrunda keçdiyi şanlı mübarizə tarixini, tarixi faciələrimizi unutmamağı və onlardan ibrət dərsi götürməyi şagirdlərə aşılamağı bacarmalıdır.

Şagirdlərdə milli-mənəvi dəyərlərin aşılanmasında humanizm dəyərlərinin də mühüm rolu vardır. Humanist keyfiyyətlərin inkişaf etdirilməsində təbiət amili mühüm rol oynayır. İbtidai siniflərdə elə ilk dərslərdən şagirdlərə aşılanmalıdır ki, təbiətin gözəlliklərinə əl qaldırmaq, onun müqəddəs sayılan ağaclarını kəsmək, heyvanları məhv etmək olmaz. Şagirdləri ətraf aləmi öz qəlbləri ilə görməyi, duymağı öyrətmək vacib məqamlardandır. İkinci siniflərdə tədris olunan "Kim islandı yağışdan", "Ana təbiətin uşaqlara məktubu", IV siniflərdə "Təbiətin dostları" və s. mövzular şagirdlərdə ətraf aləmə münasibətdə humanist mövqeyin aşılanmasında müstəsna əhəmiyyətə malikdir [4; 6]. İbtidai sinif müəllimi təbiətə və onun gözəlliklərinə məhəbbət üzərindən şagirdlərdə həm də insanlara məhəbbət və qayğı hisslərini formalaşdırmağı bacarmalıdır. Humanizm məktəblilərin qəlbində əsl insani məhəbbət, təlaş, həyəcan, başqasının taleyi üçün narahatlıq tərbiyəsidir. Bu zaman məktəblilərdə səmimilik, həssaslıq, qayğıkeşlik kimi keyfiyyətlər formalaşır və dostluq, yoldaşlıq yaranır.

Ata-anaya, valideynlərə, böyüklərə hörmət və qayğı ilə yanaşmaq, bunun əsasında isə vətəndaşlıq tərbiyəsi şagirdlərə aşılanan milli mənəvi dəyərlər sırasında mühüm yerlərdən birini tutur. Nəzərə almaq lazımdır ki, ata-anaya məhəbbət hissi uşaqlarda təbii olaraq meydana gələn və hər bir insanın həyatında böyük əhəmiyyət kəsb edən ali hisslərdir. Ata-ananın gündəlik hərəkətləri, böyüklərə, yaşlı nəslin nümayəndələrinə münasibəti kiçik yaşlı uşaqların qəlbində dərin və silinməz izlər buraxır. Hələ ibtidai siniflərdən şagirdlərə aşılanmalıdır ki, vətəndaşlıq tərbiyəsinin əsas məqsədi əvvəlcə ata-ana, sonra yoldaşlar və kollektiv, daha sonra bütün həmvətənliləri və cəmiyyət qarşısında öz borcunu dərindən dərk edən və yerinə yetirən vətəndaş adına nail olmaqdır. Bu isə o deməkdir ki, vətənin, xalqın əmin-amanlığı uğrunda, yaşlı nəslin yaratdığı maddi və mənəvi sərvətləri qorumaq, onlara qayğı ilə yanaşmaq hər bir məktəblinin borcudur. Vətəndaşlıq tərbiyəsi həm də şagirdlərdə möhkəm iradi keyfiyyətlərin formalaşmasına şərait yaradır. Birinci siniflərdə keçilən "Finalda", II siniflərdə keçilən "İsti ana qucağında", "Sehirli torba", III siniflərdə keçilən "Üç oğlan", "Yaşasın hüquqlarımız" və s. kimi mövzular vətəndaşlıq tərbiyəsinin aşılanmasında mühüm rol oynayır [3; 4; 5].

Şagidlərin milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə edilməsində şərəf və ləyaqət hisslərinin aşılanmasının böyük əhəmiyyəti vardır. Əxlaq münasibətlərinin zənginləşməsi və formalaşması hər bir məktəblinin mənən zənginliyini və sosial keyfiyyətlərini artırır. Özünün şərəf və ləyaqətini dərk edən şagird öz azadlığını və hüquqlarını dərk edir, hər hansı əyintiyə qarşı barışmaz olur. Məktəblilərin şərəf və ləyaqətinin başlıca meyarı əməkdir. Onun əməyə, əmək prosesində yaradılan əşyalara, avadanlıqlara qayğıkeş münasibətidir. Məktəblinin əməyi isə təlimdir, öyrənməkdir, tərbiyə olunmaqdır. Müasir təhsil islahatı şəraitində hər bir şagird təlim əməyinə şərəf və şöhrət mənbəyi kimi baxır, öz əməyi ilə xalqına xidmət etməyə hazırlaşır. Şərəf və ləyaqət tədricən təlim prosesində, dərsdənkənar tədbirlərdə, insanlarla ünsiyyət və münasibətlər prosesində formalaşır. Məhz bu cür təlim-tərbiyə prosesində şərəf və ləyaqət hissləri zərrə-zərrə toplanır. Şərəfli və ləyaqətli şagird şəxsiyyətini heç vaxt təhqir etmək, alçaltmaq olmaz. Bu hissləri özündə cəmləyən şagird ona tapşırılan hər bir işi səy və təmkinlə yerinə yetirir. Onlar sadəliyi, mədəniliyi, təvazökarlığı yüksək qiymətləndirirlər. Şərəf və ləyaqətli şagird heç vaxt yüksək danışmır, qarşı tərəfi susdurmağa yox, inandırmağa çalışır. İnam və etibar şərəf və ləyaqətin bünövrəsidir. Şagirdlərə müəllimin inam və etibarı onun işgüzarlıq qüvvələrini səfərbəyliyə alır, şagirdin öz şərəf və ləyaqətini daha düzgün qiymətləndirməsinə imkan verir. Birinci siniflərdə keçilən "Kimin əlləri daha gözəldir", III sinfilərdə keçilən "Kərpickəsən qocanın hekayəsi", "Güc birlikdədir", IV siniflərdə keçilən "İtə ataram, yada satmaram", "Halal pul" və s. kimi mövzular məhz ibtidai sinif şagirdlərində şərəf və ləyaqət hislərinin, əməksevərlik və halal zəhmətə meylliliyin inkişaf etdirilməsi üçün nəzərdə tutulmuşdur [3; 5; 6].

Təlim zamanı ibtidai siniflərdə həmçinin folklor nümunələrindən də geniş istifadə olunur ki, bu da şagirdlərdə milli-mənəvi dəyərlərimizin formalaşmasına xidmət etməklə yanaşı həm də qloballaşma şəraitində milli münfəridliyimizin qorunub saxlanılması üçün başlıca vasitədir. Folklor materiallarının köməyilə şagirdlərdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi baxımından təlim prosesi zəngin imkanlara malikdir. Digər tərəfdən, yuxarı siniflərdə folklor materialları ilə işin səmərəli təşkili üçün, bu materialların bir hissəsinin məhz ibtidai siniflərdə şagirdlərə dərindən mənimsədilməsi mühüm rol oynayır [2]. Şifahi xalq yaradıcılığı nümunələrinin tədrisinə əsas etibarı ilə II sinifdən başlanılır və təsadüfi deyildir ki, II siniflərdə bütöv bir bölmə şifahi xalq yaradıcılığının tədrisinə ayrılmışdır [4]. Təbii ki, müəllim bu imkandan səmərəli və yaradıcı şəkildə istifadə etməyi bacarmalıdır. "Söz sənətimiz" adlanan bu bölmədə xalqımızın əsrlər boyu yaratdığı, zamanın sınağından süzülərək bu günümüzə gəlib çatmış atalar sözləri, tapmacalar, bayatılar, laylalar təsirli vasitələrlə şagirdlərə çatdırılmalıdır. Şifahi xalq yaradıcılığı nümunələri şagirdlərdə digər xalqlara, onların milli-mənəvi dəyərlərinə hörmət və ehtiram hisslərini də formalaşdırır.

Ümumiyyətlə hər bir müəllim öz dərslərini milli-mənəvi dəyərlərimizin qorunması, onların nəsildən-nəslə ötürülməsi sahəsinə yönəltməlidir. Bu cür təşkil olunmuş dərslər təlimin keyfiyyətinin yüksəlməsinə, şəxsiyyətyönümlü dərsin daha canlı və təbii formada təşkilinə səbəb olur.

## Ədəbiyyat


1. Həsənov A., Ağayev Ə. Pedaqogika (Dərslik). Bakı: "Nasir" nəşriyyatı, 2007, 496 səh.
2. İsmayılova M. İnteraktiv təlim zamanı folklor nümunələrindən istifadə imkanları // Azərbaycan məktəbi, 2012, № 6, s. 60-64
3. İsmayılov R., Abdullayeva S., Cəfərova D. Azərbaycan dili (1-ci sinif üçün dərslik). Bakı: "Altun kitab", 2012, 180 səh.
4. İsmayılov R., Orucova G., Xəlilov Z., Cəfərova D. Azərbaycan dili (2-ci sinif üçün dərslik). Bakı: "Altun kitab", 2014, 208 səh.
5. İsmayılov R., Orucova G., Xəlilov Z., Cəfərova D. Azərbaycan dili (3-cü sinif üçün iş dəftəri). Bakı: "Altun kitab", 2014, 144 səh.
6. İsmayılov R., Abdullayeva S., Cəfərova D. Azərbaycan dili (4-cü sinif üçün dərslik). Bakı: "Altun kitab", 2015, 224 səh.

UOT 373.1.02; 373.1.02.372.8

## **İngilis dili dərslərində milli-mənəvi dəyərlərin təbliği**

*İbrahimli İradə Yusif qızı*
*Mingəçevir şəhər Təbiət-riyaziyyat və*
*Humanitar elmlər təmayüllü lisey*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çoxşaxəli və düşünülmüş siyasi kursu bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də müasirləşdirmə əsasında yaradılan innovasiyaların uğurlu təbliğinə çox geniş şərait yaradır. Bəli, hər bir millətin dirçəlişi və onun digər millətlər arasında özünütəsdiqi şübhəsiz ki, təhsilin inkişafından asılıdır. Azərbaycan təhsil sahəsində keçirilən islahatlar nəticə etibarı ilə dövlətimizin beynəlxalq arenada nüfuzunun əhəmiyyətli dərəcədə yüksəlməsinə, milli və mənəvi dəyərlərin, eyni zamanda, dövlətçilik ideologiyasının tam təmin olunmasına xidmət edir.

Ümummilli liderimiz Heydər Əliyev hələ ötən əsrin sonlarında təhsilimizdə islahatlarla bağlı demişdir: "Biz təhsil sahəsindəki bütün yeniliklərin tərəfdarıyıq. Dünya təcrübəsindən səmərəli istifadə etməyi tələb edirik. Ancaq bu işlər gərək sistemli olsun. Siz bu işləri qurarkən, bu işlərin yaxın və uzaq zamanda nəticələrini mütləq nəzərə almalısınız. İndiyə qədər yaranmış təhsil, bilik, elm nominasiyalarından, həm də bütün ölkələrdə hazırkı əlaqələrdən istifadə edərək inkişaf etmiş ölkələrin təcrübəsini təhsil sahəsində təbliğ etmək mümkündür...... Azərbaycanın milli ənənələrinin üstündən keçməyəsiniz"[1]. Həmin tövsiyyələr bu gün respublikamızda uğurla həyata keçirilir. Qloballaşma prosesinin cəmiyyətin bütün sahələrinə nüfuz etməsi, bəşəri dəyərlərin təsir gücünün artması, müəyyən milli dəyərlərin aşınması, yekcinsli meyl cəmiyyətdə yeni problemlərə rəvac verir. Belə olan halda milli-mənəvi dəyərlərmizin təbliği ön plana keçir. Təbii ki, əsas güc təhsilin, başqa sözlə, müəllimlərin üzərinə düşür. Doğma Azərbaycanımızın zəngin, keçməkeşli tarixini, onun Dədə Qorqud dünyasından süzülüb gələn nəğməkar dilindən tutmuş mütərrəqi adət-ənənələrinə daha geniş güzgü tutulmalı, milli və mənəvi dəyərlərimizi gənc nəslin mənəviyyatına çevirməyə çalışmalıyıq.

Ümumtəhsil məktəblərində tədris olunan fənlər sırasında xarici dil, o cümlədən ingilis dili dərslərində milli-mənəvi dəyərlərimizin təbliği imkanları daha genişdir.

Əcnəbi dil öyrənmələrinə baxmayaraq şagirdlərimə Azərbaycan dilini həm dövlət dili, həm də ictimai ünsiyyət dili kimi aşılamağa, həmçinin hər bir söz, cümlə və mətnin tərcüməsində onun incəliklərini açmağa çalışıram. Şagirdlər xalqın milliliyini özündə ehtiva edən milli dəyərləri mənimsəməklə qalmır, eyni zamanda onun daşıyıcıları olduqlarından qürur duyurlar.

Dərslər o zaman maraqlı olur ki, milli-mənəvi dəyərlər, onlardan formalaşan adət - ənənələr, mədəniyyət münasibətləri kompleks şəkildə götürülmüş olsun. Əxlaqi cəhətdən formalaşmaqda olan məktəblilərin milli özünüdərki, milli şüuru kimi təsdiqlənən bu amillərin nə dərəcədə tərbiyəvi əhəmiyyətə malik olmasının şərhə ehtiyacı yoxdur.

Bu mənada xalqımızın qəhrəmanlıq tarixi, vətənin azadlığı uğrunda canlarından keçən şəhidlərimizin şücaəti haqqında mətnlərə xüsusi əhəmiyyət yetirir, tədbirlər zamanı yeri gəldikcə canlı söhbət və şərhə müraciət etməklə qəhrəmanların şəxsi keyfiyyətlərinin açılması istiqamətində işlər aparıram.

Təkcə VI, VII, VII dərsliyində "Ölkələr və insanlar. Müxtəlif ölkələr – müxtəlif adətlər", "Qəhrəmanlar heç zaman ölmür ", "Bayramlar ", " Azərbaycan rayonları ", "Azərbaycan çayı ", "Həyat tərzi ", "İncəsənət və yaradıcılıq ", "Musiqi qəlbin qidasıdır", "Tanınmış musiqiçilər", "Rəqs, rəqs, rəqs ", "Dünyanın möcüzələri", "Dünyanın 7 möcüzəsi", "XXI əsrdə yeniliklər", "Məşhurluq", "Mənim sevimli kino ulduzum", "Qəhrəmanlar heç zaman unudulmur", "Kinofilmlər həyatımızda", "Rənglər üzərində naxışlar həyatımızın bəzəyidir", mövzularını tədris edərkən milli kimliyimiz, milli dəyərlərimiz bəşəri dəyərlər kontekstində götürülür və şagirdlərin milli şüurunun formalaşmasını şərtləndirən amilə çevrilir.

Milli-mənəvi dəyərlərin təbliğində sinifdənxaric tədbirlərin rolu olduqca böyükdür. Şagirdlərin iştirakı ilə hazırlanan "31 dekabr Dünya Azərbaycanlıların Həmrəylik günü", "Dövlət

bayrağı günü", "Novruz gəlir, yaz gəlir", "Respublika günü", Dövlətimizə, bayrağımıza, müstəqilliyimizə, milli-mənəvi dəyərlərimizə sonsuz sevgi təzahürünə çevrilir. Müstəqilliymiz, doğma vətənimiz, onun tərəqqisi milli dəyərlərimizin təbliği ilə bağlı geniş imkanlar açır. Vətənimizlə bağlı mövzunu keçərkən dərsi Müslüm Maqamayevin "Azərbaycan" mahnısı ilə başlayıram. Sinifdə istilik yaratmağa çalışıram. Azərbaycanın tarixi abidələrinin şəkillərini, ölkəmizin xəritəsini göstərir, onlara paytaxtımız, iri şəhərlərimiz, dəniz, göl və dağlarımız eləcə də digər yerlər haqqında suallar verir və cavablar alıram. Bununla da, şagirdlər yaradıcı düşünür, mədəni irs və dəyərlərimizi öyrənməklə qalmır, internet vasitəsi ilə müxtəlif ölkələrin məktəbliləri ilə öz bilgilərini bölüşür, beləliklə, ölkəmizin, onun milli- mənəvi dəyərlərinin təbliğatçısına çevrilirlər. Eləcə də, tarixi abidələrimiz mövzusunu keçərkən tarixi abidələrimiz haqqında suallar verir və şagirdlərin yaradıcı fikirlərini öyrənirəm.

Milli adət-ənənələrlə bağlı mövzular şagirdlərə əyani şəkildə İKT-dən istifadə yolu ilə mənimsədilir. Bölgələrimizdə xalçaçılıq, ipəkçilik, dulusçuluq, buta və s. haqqında danışırıq. Şagirdlər qruplarla işləyir və mövzu ilə bağlı öz fikirlərini yürüdürlər. Bu işləri əsasən "Ölkəmizi tanıyaq və tanıdaq" layihəsi şəklində həyata keçirməyə çalışıram. Beləliklə, şagirdlər öz yaradıcı işlərini nümayiş etdirir, milli dəyərlərimiz haqqında məlumat verirlər.

Prezident İlham Əliyevin təşəbbüsü ilə tətil günlərində məktəblilərin müxtəlif regionlara səyahətləri, həmin ərazilərin tarixi yerləri, adət - ənənələri haqqında məlumatların öyrənilməsi, onun geniş təbliği, mövcud faktik material əsasında şagirdlərin dünyagörüşünün formalaşmasına böyük təsir göstərir. Layihə iştirakçılarının topladıqları materiallar, eləcə də qiyabi səyahətlər vasitəsi ilə əldə edilən məlumatlarla bağlı söhbətlər, müzakirələr, dəyirmi masalar milli- mənəvi, dəyərlərimizin geniş arealda təbliği üçün gözəl imkan yaradır.

Həmçinin Milli qəhrəmanlarımız mövzusunu keçərkən Ş.İ.Xətai, Babək, haqqında məlumat verir, milli qəhrəmanlarımız haqqında onların fərdi keyfiyyətləri onlar haqqında daha geniş məlumat toplamaqla inşa yazmağı tapşırıram.

## Ədəbiyyat


1. Əliyev H. Mənəviyyat, mənəvi dəyərlər, mənəvi tərbiyə. Bakı: "Müəllim" nəşriyyatı, 2008, 637 səh.
2. Əfəndiyev T. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. Bakı, 2011, 270 səh.
3. Əhmədov A, Əhmədov P. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı, 2015, 114 səh.
4. Hüseynova F. Bağırova N. Ümumtəhsil məktəblərinin VI sinif üçün dərslik. Bakı: "Təhsil", 2013
5. Quliyeva Q., Rüstəmova X. Ümumtəhsil məktəblərinin VII sinif üçün dərslik. Bakı: "Kövsər", 2014, 160 səh.
6. Quliyeva Q., Rüstəmova X. Ümumtəhsil məktəblərinin VIII sinif üçün dərslik. Bakı: "Kövsər", 2015, 160 səh.


UOT 82

## Milli-mənəvi dəyərlər və onların ədəbi əsərlərdə tərənnümü

*Abdulxalıqova Leyla İsmayıl qızı*
*Mingəçevir şəhər Təbiət-riyaziyyat və*
*Humanitar elmlər təmayüllü lisey*

Milli mənəvi dəyərlərimiz bizim qürur mənbəyimizdir. Bu dəyərlər xalqımızın simasında daim yaşamış, nəsillərdən nəsillərə ötürülərək bu günümüzə qədər gəlmişdir. Bizi "biz" edən də,

başqa xalqlardan, millətlərdən fərqləndirən də məhz milli dəyərlərimizdir. Bu dəyərlər xalqımızın süzgəcindən süzülərək, müasir dünyagörüşə uyğunlaşmışdır.

Azərbaycanda dövlət müstəqilliyinin möhkəmlənməsi, Respublikamızda demokratik dövlətin qurulması bu sahədə görülən işləri daha da sürətləndirir. Dövlətçiliyin əsasının mədəniyyətdə olduğunu dərk edən Ümumilli Lider Heydər Əliyev ana dilinə xüsusi önəm verirdi. Onun təşəbbüsü ilə "Müasir Azərbaycan dili" dəsrliyinin dövlət mükafatına layiq görülməsi təkcə elmə yox, ana dilinin inkişafına dövlət qayğısının təzahürü idi.

Ulu Öndər Heydər Əliyev tərəfindən "Kitabi-Dədə Qorqud" dastanına verilən layiqli qiymət deyilənləri bir daha sübut etməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də Ulu Öndərimizin ölməz ideyalarını davam etdirərək bütün sahələrdə olduğu kimi, "Kitabi-Dədə Qorqud" dastanına yüksək dəyər vermişdir. Bakının mərkəzi küçələrinin birində möhtəşəm "Kitabi-Dədə Qorqud" abidəsi ucaldılmış və Dədə Qorqud parkı salınmışdır. Əsas ideyası qəhrəmanlığın tərənnümü, vətənin bütövlüyünün qorunması olan "Kitabi-Dədə Qorqud" dastanı başdan-başa mənəvi dəyərlərimizin ibrətamiz nümunələri ilə zəngindir. Dastan qəhrəmanın dilindən dəfələrlə söylənilən "Ana haqqı_Tanrı haqqı" na bərabər tutulur. Ana müqəddəs, uğrunda ölməyə layiq bir varlıq kimi nəzərdə tutulur. Dastanda ana-bala, kişi-qadın, vətən-yurd sevgisi yüksək bədii emosionallıqla verilmişdir. Oğuz qadınlarının mərdliklə, igidlikdə kişilərdən geri qalmamaları, ərlərinə sədaqətli, lazım gələndə ərləri üçün canından belə keçə bilmələri çox diqqətə layiqdir. Dəli Domrulun xanımının ərindən ötrü bir an belə tərəddüd etmədən canını qurban verməyə hazır olduğunu, Burla Xatun əri Qazan xanın namusunu qoruması bahasına oğlu Uruzdan keçməsi, Qaraca çobanın vətəni, yurdu üçün son nəfəsinədək döyüşməsi və s. nümunələr mənəvi dəyərlərimizin təbliği sonunda əsas göstərililərdəndir. Təbii ki, bu nümunələri saymaqla bitməz. Çünki epos başdan-başa ibrətamiz fikirlərlə zəngindir. Bu monumental əsər xalqımızın mənəvi xəzinəsi olmaqla bərabər, həm də dünya bədii təfəkkürünün incilərindən biridir. Əsərin dəyəri, kamilliyi bəşəri amallara sahibliyində, milliyətindən, dinindən asılı olmayaraq hər bir insana əxlaqi-mənəvi keyfiyyətlər aşılamasındadır [4].

Ümummilli lider H.Əliyev milli mənəviyyata əsaslanan milli dövlətin əsasını qoydu. Və bu dövlətin mövcudluğunu təmin edəcək zəruri mənəvi dayaqları formalaşdırdı. Bununla da, Azərbaycan xalqının milli-mənəvi dəyərləri başlıca dəyərə çevirdi [5]. Qloballaşan dünyada Azərbaycan xalqının milli-mənəvi keyfiyyətlərinin mühafizə edilərək gələcək nəslə ötürülməsi maddi-mənəvi irsimizin öyrənilmə və qorunub saxlanma səviyyəsindən asılıdır. Prezident İlham Əliyev dəfələrlə Azərbaycan xalqının hər zaman milli-mənəvi dəyərə sadiq olduğunu söyləyib, və bildirib ki, məhz bu dəyərlər bizi bir xalq kimi, qoruyub saxlaya bilər və bu gün müstəqillik dövründə Azərbaycan dövlət quruculuğu mənəvi dəyərlər üzərində həyata keçirilir

Cənab İlham Əliyev Novruz bayramına da yüksək dəyər vermiş, onu milli-mənəvi dəyərlərimizin ayrılmaz qolu adlandırmışdır"....Novruz xalqımız tərəfindən həmişə barışıq, dostluq, səmimiyyət, təmizlik və yeniləşmə əhvali-ruhiyyəsi yaradan Bahar bayramı kimi qeyd olunub... Bu milli-mənlik şüurunu, azərbaycançılıq hislərini və duyğularını gücləndirir..." [7]

Bədii ədəbiyyat mənəvi dəyərlər haqqında yazıların əsas və sanballı mənbəyidir. O, xalqın milli dəyərlərinin daşıyıcısı kimi çıxış edir. İstər şifahi xalq ədəbiyyatı, istərsə də yazılı ədəbiyyat nümunələrini araşdırarkən bunu açıq şəkildə görmək olar. N.Gəncəvi yaradıcılığı ədəbiyyatımızda bir intibah yaratmışdır. Başdan-başa milli-mənəvi dəyərlərin təbliği, onların gələcək nəsillərə layiqincə ötürülməsi məqsədi ilə yazılan əsərlər həm Azərbaycan, həm də dünya ədəbiyyatı incilərindəndir:

Gözəl bir həyat qur, sən yaşa hər an,
Kimsəyə dəyməsin səndən bir ziyan.
Həyatdan yaxşı şey dünyada nədir?
Gənclikdən gözəl şey bir əfsanədir,
Yaxşı ad qazanmış gözəl dostlara
Onda yetişərsən ağ günə, bara.… [8]

Fəlsəfi qəzəlləri ilə ədəbiyyatımızdan ən uca zirvələrdə birini fəth edən kamil insanı Allah, Tanrı səviyyəsinə qaldıran Nəsimi yaradıcılığı milli dəyərlərə nümunə deyilmi? İnsanın kamilləşməsini, çirkin ehtiraslardan, əməllərdən təmizlənməsini vacib sayan sənətkar:

Yoxdur vəfası dünyanın, aldanma anın alına,
Rəngindən oldu münşərl, hər kim boyandı alına... [8]

Vətənini, millətini canından çox sevən, millətini bir bayraq və bir ideya altında birləşdirən hökmdar-şair Ş.İ.Xətai yaradıcılığı xalqımızın qürur mənbəyidir. Ş.İ.Xətai yaradıcılığının qayəsi insanın nəcib duyğularının təcəssümü olmuşdur: "Ey türk oğlulları, Vətənin bir qarış torpağını dünyanın naz-nemətinə, dilinizin bir sözünü isə ləl-cəvahirata dəyişməyin!"

Yaradıcılığı başdan-başa Vətənimizin azadlığı, müstəqilliyi, ana dilimizin inkişafı, onun gələcək nəsillərə layiqincə çatdırılmasından ibarət olan C.Məmmədquluzadə hələ o vaxt mənəvi dəyərlərimizlə bağlı haqq səsini ucaldaraq "Mənim vətənim-Azərbaycan, anam isə Zəhrabəyimdir" demişdir [2]. Ədib eyni dil, din, qan və gen, tarixi-mənəvi yaddaş daşıyıcıları olan, lakin bir-birindən xəbərsiz, pərakəndə qalan insanların əsarətdən nicat yolunu vətən, dil və millətin vəhdətində görür. Daxili yanğı yolu ilə vahid məkanda birləşib müstəqil yaşamağa çağırır: "Dünya və aləm dəyişildi, mənalar özgə təbir əxz elədi, yəni bizim dilcə söyləsək, o şeylər ki, əsl mənalarını itirmişdi, qayıdıb əslini tapdı, amma buna hamı nail oldu ki, vətən, vətən vətən, vətən, dil, dil, dil, millət, millət, millət!.... Dəxi bu dairələrdən kənar bəni-nai bəşər üçün nicat yolu yoxdur" [2]. "Anamın kitabı" tragikomediyasında isə qardaşların simasında öz dilinə, vətəninə laqeyd insanlara işarə edərək, onları bir dil, vətən ətrafında birləşməyə, mənəvi əxlaqi dəyərlərimizə sahib çıxmağa səsləyirdi.

Milli romantik şeirin, dramaturgiyamızın dühası sayılan H.Cavid də milli-mənəvi dəyərlərin təbliğində, onların gənc nəsillərə aşılamasında və ötürülməsində əlindən gələni əsirgəməmişdir. Ölməz sənət nümunələri yaradan sənətkar insan psixologiyasının incəliklərinə qədər enərək bir-birindən dəyərli nümunələr yaratmışdır. Bu dəyərli nümunələr bu gün də sevilə-sevilə oxunur və bəyənilir :

- Quzum, yavrum! Adın nədir?
- Gülbahar.
- Pəki, sənin anan, baban varmı?
- Var.
- Nasıl, zənginmidir baban ?
- Əvət, zəngin, bəyzadə…
- Öylə isə geydiyin geyim neçin böylə sadə! [6]

Şeirdəki poetik mükalimə Gülbaharın və onun timsalında Azərbaycan qızlarının nəciblik və ülviliyini mənalandırmağa xidmət edir. Öksüz Ənvərlərin, kiçik sərsərilərin faciəsini görən şair təmizliyi, biliyi əsl zinət sayan, sadəliyi, zəngin mənəviyyatı ilə seçilən Gülbahar obrazını romantik arzularının davamı, gələcək nəsillərə nümunə, mənəvi-əxlaqı dəyərlərin idealı kimi yaradır.

Azərbaycançılıq məfkurəsində A.Bakıxanovun, M.F.Axundzadənin, N.Nərimanovun, M.Ə.Rəsulzadənin, C.Cabbarlının əsl xələfi kimi çıxış edən S.Vurğun 1935-ci ildə "Azərbaycan" şeirini – azərbaycançılığın poetik manifestini yazdı.

Azərbaycanlı olması ilə fəxr edən, doğma vətənini, elini sevə-sevə vəsf edən A.Vurğun "Azərbaycan" şeiri ilə əsl milli şair səviyyəsinə yüksəlmişdir. Şeirdə "böyük bir keçmişi olan", "yaşı bilinməyən" Azərbaycanın təbii gözəllikləri ilə yanaşı, onun ictimai inkişafı əldə etdiyi nailiyyətlər, xoşbəxt günləri də təriflənir:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən,
Anam, Doğma vətənimsən,
Ayrılarmı, könül candan?
Azərbaycan! Azərbaycan!

Milli ruhda yazıb-yaradan Məhəmmədhüseyn Şəhriyar əsərlərinin koloriti bu gün də öz incəliyi ilə seçilir. "Heydərbabaya salam" poeması buna bariz nümunə ola bilər. Əsərdə şair həyatı dərindən duyaraq ümumiləşdirmə aparır. Elə bir ictimai-siyasi hadisə, adət-ənənə, təbiət mənzərəsi

tapılmaz ki, şair ona biganə qalsın. Ana yurdun bütün gözəlliklərini canlı, əlvan boyalarla əks etdirən Şəhriyar Novruz bayramı adət-ənənələrini, bu bayrama hazırlığı, bu bayramın gəlişi, bizə bəxş etdiyi əvəzsiz anları, sevinclə, sehrli bir dillə canlandırılmış, oxucusunu öz sənətinə heyran etmişdir:

Bayram olub, qızlar palçıq əzərlər,
Naxış vurub otaqları bəzərlər,
Taxçalarda düzmələri düzərlər.
Qız – gəlinin findıqçası, hənası,
Həvəslənər anası, qaynanası [2].

Bədii ədəbiyyatımızda milli-mənəvi dəyərlərimizin hər birinə aid saysız-hesabsız nümunələr vardır və inanıram ki, nə qədər ki Azərbaycan var, Azərbaycan xalqı var, bu dəyərlər nəsillərdən-nəsillərə layiqincə ötürüləcəkdir.

Gənc nəslin yetişdirilməsində, onların cəmiyyətə xeyirli, səmərəli vətəndaşlar olmasında milli-mənəvi dəyərlərimizin əvəzsiz rola malikdir. Bu dəyərləri yaşatmaq bu gün biz gənclərin öhdəsinə düşür. Xalqımızın əsrlər boyu qoruyub saxladığı, nəsillərdən-nəsillərə ötürdüyü bu dəyərlər həm bizə, həm də gələcək nəsillərə bir mayak olacaqdır. Milli ruhumuzu və mənəvi dəyərlərimizi bütün çalarları ilə özündə birləşdirən ədəbiyyatımızı-dastanlarımızı, nağıllarımızı, bayatılarımızı, laylalarımızı və s. sevmək və onları təbliğ etmək bizim borcumuzdur.

**Ədəbiyyat**


1. Azərbaycan ensiklopediyası. Novruz bayramı. Bakı, 2008
2. Azərbaycan ədəbiyyatı müntəxəbatı – 11 sinif. Bakı, 2008
3. Cavid H. Seçilmiş əsərləri. Bakı, 2005
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 13-cü cild. Bakı, 2004
5. Əliyev İ. İnkişaf məqsədimizdir. IV cild. Bakı, 2009
6. Gəncəvi N. Yeddi gözəl poeması. Bakı, 2004
7. Kitabi-Dədə Qorqud dastanı. Bakı, 2004
8. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı, 1982
9. http://www.butovaz/medeniyyet/1827
10. http//az/azgun/az/680/360


UOT 373.1.02

## Xarici dil dərslərində milli-mənəvi dəyərlərin təbliği

*Tahirova Kəmalə Kəlam qızı*
*Mingəçevir şəhər 3 №-li tam orta məktəb*

Biz Azərbaycanda öz milli-mənəvi dəyərlərimizə söykənərək, eyni zamanda xalqımızın elminin, mədəniyyətinin inkişafında milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə zənginləşməsinə və vəhdətinə xüsusi əhəmiyyət veririk (Heydər Əliyev).

Bəşər cəmiyyətinin bütün dövrlərində öz xalqına xeyir verə bilən insanların yetişdirilməsinə ehtiyac duyulur. İctimai həyata istənilən uğuru və yeniliyi onun ən dinamik, çevik, novator təbəqəsi sayılan gənclər gətirir. Bu səbəbdən də gənc nəslin mənəvi tərbiyəsi məsələsi ilə məşğul olmaq hər bir tədris müəsisəsinin başlıca vəzifəsi olmalıdır. Milli-mənəvi dəyərlərin uşaqlara aşılanması, şüurlu dərk etdirilməsi müəllimlərdən ciddi səy tələb edir.

Rəhbərlik etdiyim M.Hüseynzadə adına 3 nömrəli tam orta məktəb beynəlmiləl məktəbdir. Burada rus və Azərbaycan bölməsi fəaliyyət göstərir. Məktəb respublikamızda günün tələblərinə cavab verən, təhsildə fərqlənən, öz uğurları ilə ölkəmizdən çox-çox uzaqlarda adı çəkilən bir təhsil

ocağıdır. Bu tədris müəssisəsi 2015-ci ildə "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olmuşdur.

Məktəb yeni təlim metodlarının tətbiqi əsasında fəaliyyət göstərir. Əsas məqsədimiz dərin düşüncəli, zəkalı uşaqları üzrə çıxarmaq, onlara hər cəhətdən dəstək olmaq, dövlətinə, millətinə, adət-ənənələrinə, xalqına sadiq vətəndaş yetişdirməkdir.

Ulu öndərimiz Heydər Əliyev demişdir: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir" [3]. Məktəbimizdə müxtəlif fənləri tədris edən müəllimlər də ixtisaslarından asılı olmayaraq dərslərində milliliyi qoruyur və yaşadırlar. Onlar Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elektron Portalında qeydiyatdan keçərək elektron dərsliklərdən və lövhələrdən istifadə etməyə və bunu digər müəllimlər və şagirdlər arasında tətbiq etməyə çalışırlar . Müasir müəllim öz üzərində işləyən, təlim uğurlarını günbəgün artıran, şagirdləri ilə birlikdə öyrənən və daim inkişaf edən şəxsdir.

Ümumilli liderimiz demişdir: "Bir halda ki, biz müstəqil dövlət kimi dünya birliyində bərabər hüquqlu yer tutmuşuq, müasir dünya tələb edir ki, hər bir azərbaycanlı öz Azərbaycan dilini yaxşı bilərək, onu işlək dil hesab edərək, eyni zamanda başqa dilləri – ingilis dilini, rus dilini də, fransız dilini də, digər dilləri də bilsin." [3].

Məktəbdə xarici dil dərslərinin – rus və ingilis dili dərslərinin oyrənilməsi üçün hər cür şərait yaradılmışdır. İngilis dilinin mükəmməl öyrədilməsi üçün Təhsil Nazirliyi və "Biritish Counsil"-in birgə xətti ilə "İngilis dilinin intensiv tədrisi" üzrə pilot layihəsi iki il ərzində tədbiq edilmişdir.

Müəllimlərimizdən bir nəfəri həmin lahiyənin keçirildiyi müsabiqədə qalib gələrək Böyük Biritaniyaya təlim səfərinə seçilmişdir. Digər müəllimimiz Beynəlxalq Puşkin müsabiqəsində qələbə qazanaraq böyük rus şairi A.S.Puşkinin xatirələrinə həsr edilmiş tədbirlərdə iştirak etmək üçün Moskvaya işgüzar səfər etmiş və səfər zamanı Azərbaycanın milli-mənəvi dəyərlərinin təbliği ilə məşğul olmuşdur. Xarici dili tədris edən müəllimlərimiz tədrisin keyfiyyətini artırmaq üçün yeni yanaşmalar və metodlar tədbiq edirlər.

Onlar tədris etdikləri dilin qrammatikasını, dil xüsusiyyətlərini izah ederkən onu Azərbaycan dili ilə əlaqələndirir, bu dillə oxşar və fərqli cəhətləri şagirdlərin nəzərinə çatdırırlar. Tədris materiallarının seçilməsində adət ənənələrimiz, milli xüsusiyyətlərimiz ön plana çəkilir.

Bildiyimiz kimi, şəxsiyyətin mənəvi dünyasının formalaşmasında milli-mənəvi dəyərlərin rolu böyükdür. Müstəqillik dövründə təhsilin başlıca məqsədi oz vətənini, dilini, millətini sevən, milli şüur, ləyaqət hissinə malik olan, oz soykökünə hörmət edən iti təffərkürlü, bilikli təşəbüslü nəsil yetişdirməkdir [1].

Zəmanəmizdə milli-mənəvi dəyərlərin yeniləşməsi də özünü göstərir. Buraya milli ləyaqət, milli iftixar, islam dini dəyərlərinə yiyələnmə, doğma torpağa məhəbbət, Ermənistan siyasi hakimiyyəti kimi təcavüskar düşmənə qarşı amansız olmaq və s. kimi keyfiyyətlər daxil edilir. Bu mənəvi keyfiyyətlərin xarici dil dərslərində səylə aşılayan müəllimlərimizin zəhməti hədər getməyib. Belə ki, şagirdlərimizin xoş sədası təkcə Azərbaycandan deyil, qonşu dövlətlərdən, inkişaf etmiş xarici olkələrdən gəlir.

Neçə illərdi ki, YUNESKO-nun nəzdində Gürcüstanın Tibilisi şəhərində nəşr edilən "Belıy Juravlik" (Ağ durnacıq) jurnalında şagirdlərimizin şeir, hekayə və məqalələri çap olunur. Bu yazılarında onlar milli adət-ənənələrimizdən Novruz bayramının gözəlliklərindən, Qarabağ dərdimizdən bəhs edərək Azərbaycanı dünyaya tanıtdırmağa cəhd göstərirlər.

"Juneor Achievement" təşkilatının xətti ilə keçirilən layihələrdə şagirdlərimiz müntəzəm olaraq iştirak edirlər. Yerli, Beynəlxalq və vətəndaş və Ekoloji Tədris proqramında "Qreen-Ren" ekosaytının açılış mərasimində iştirak etdikləri üçün şagirdlərimiz "Təşəkkürnamə" almışlar.

ABŞ Təhsil Şurasının həyata keçirdiyi FLEX proqramında iştirak edən şagirdlərimizdən müxtəlif illərdə 8 nəfəri ABŞ – da təhsil almaq hüququ qazanmışdır. Son illərdə "Rusiya Azərbaycan şagirdlərinin gözü ilə" Azər Rus təşkilatının keçirdiyi müsabiqələrdə iki nəfər şagirdimiz qalib olmuş və Rusiyaya Səyahət hüququ qazanmışlar. Bir məzunumuz Qafqaz Universitetində təhsilini ingilis dilində davam etdirir. Digər məzunumuz Təhsil Nazirliyinin xətti ilə keçirilən müsabiqənin qalibi olaraq Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda təhsil almaq hüququ qazanmışdır. Ən son nailiyyətimiz isə Azərbaycan Dövlət Neft və Sənayesi

Universitetində 600-dən çox bal toplayaraq təhsil alan məzunumuzun müsabiqə yolu ilə Fransa REN – ali Kimya məktəbinə qəbul olunmuşdur. Xarici dildə təhsil alan tələbələrimiz Azərbaycanın zəngin ədəbiyyatını , incəsənətini , musiqi mədəniyyətini əcnəbilərə tanıdırlar. onlar yüksək əxlaqi keyfiyyətlərimizi nümayiş etdirməklə millətimizin necə vətənpərvər, əyilməz, mədəni, qonaqpərvər bir xalq olduğunu göstərirlər.

Qədim tarixə və zəngin mədəniyyətə malik olan xalqımız dünyada həm də multikulturalizim, humanizim və qarşılıqlı hörmət ənənələri ilə tanınır. Möhtərəm prezidentimiz İlham Əliyevin ölkəmizin tolerantlıq ənənələrinə, mədəniyyətlər və sivilzasiyalararası dəyərlərə mühüm töhfələr verdiyini nəzərə alaraq 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etməsi buna aydın nümunədir. [4]

Müxtəlif dini təriqətlərə mənsub olan Azərbaycan vətəndaşları yüzilliklər ərzində sülh və əmin-amanlıq şəraitində yaşayıblar. Bu ənənə bu gün də davam etməkdədir. Rəhbərlik etdiyim təhsil ocağı dediklərimə sübutdur. Məmnunluq hissi ilə qeyd edirəm ki, çoxmillətli şagird və millətim kollektivində hec vaxt dinlərarası zəmində münaqişə yaranmayıb və təhsil ocağındakı münasibətlər daim qarşılıqlı ehtirama, anlaşmaya əsaslanıb. Biz şagirdlərimizə təkcə multikulturalizm ideyalarının əhəmiyyətindən danışmaqla kifayətlənməli deyil, həm də onları öz əməllərimizlə nümayiş etdirməyi bacarmalıyıq.

Bir neçə il bundan əvvəl Moskva şəhərində yerləşən 157 nömrəli məktəbin nümayəndə heyəti məktəbimizdə olmuşdur. Məktəbin ilk direktoru 3 nömrəli məktəbin fəxri məzunu Aidə Quliyeva olmuşdur. Tərkibi müxtəlif millətlərdən olan nümayəndə heyəti müxtəlif dillərdə səslənən mahnıları dinlədikcə, rəqslərə tamaşa etdikcə heyranlıqlarını ifadə etməkdə çətinlik çəkirdilər, söz tapa bilmirdilər. Onlar Azərbaycan xalqının qonaqpərvərliyindən, sülhsevər bir millət olduğundan, Qarabağda baş verən haqqsızlıqlardan öz məktəblərində geniş söhbət acacaqlarını bildirdilər.

Məktəbdə keçirilən kütləvi tədbirlərdə Azərbaycanın milli-mənəvi dəyərlərinin xarici dildə təbliğinə xüsusi diqqət yetirilərək ölkəmizin sülh sevər, tolerant bir dövlət olması daim vurğulanır.

İndi Azərbaycan Respublikası dünyada tolerantlığın yeganə ünvanı kimi tanınır. Bunu da müəyyən mənada milli-mənəvi dəyərimiz hesab etmək olar.

## Ədəbiyyat


1. Əhmədli Ə. Milli-mənəvi dəyərlərimiz. Bakı, 1993
2. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: "Təhsil" nəşriyyatı, 2002
3. Əliyev H. Dinimiz xalqımızın milli-mənəvi sərvətidir. Bakı: "İrşad", 1999
4. "Azərbaycan müəllimi" qəzeti 12 mart 2016-cı il


UOT 37:002

## Şagirdlərin milli-mənəvi tərbiyyəsində informatika fənninin rolu


*Mustafayeva Natəvan Əmrah qızı*
*Mingəçevir şəhər 3 №-li tam orta məktəb*
*Gəncə Dövlət Universitetinin dissertantı*


Müasir dünyada sürətlə gedən sosial, mədəni və texnoloji dəyişikliklər qlobal düşünmə tərzinin əhəmiyyətini xeyli artırıb. Belə ki, illər öncə insanlar mexaniki alətlərin, informasiya texnologiyalarının ixtira olunmaması səbəbindən çox əziyyətlər çəkiblər. Necə ki, 1672-ci ildə Qotfrid Leybnis Parisdə olarkən holland riyaziyyatçısı və astronomu Xristian Hüygens ilə tanışlığı zamanı astronomun bir mexaniki qurğunun olmaması səbəbindən hesablamalara ixtirasına sərf etdiyi zamandan çox vaxt sərf etdiyini müşahidə edərək yazıb: "Belə görkəmli insanların hesablama

işlərinə qul kimi vaxt itirmələri yolverilməzdir, çünki maşından istifadə edildikdə bu işləri istənilən şəxsə etibar etmək olar” [2]. Əyani vasitələrin olmaması səbəbində tədqiqatı üzərində işləyərkən çətinlik çəkən alimlərdən biridə XIX əsrdə yaşamış “Bilmək-uzağı görmək üçündür. Uzağı görmək fəaliyyət göstərmək üçündür” şüarı ilə hər zaman çağırış edən fransız alimi Oqyust Kontdur. O, gələcəkdə insanların səma cisimlərini dərk edəcəklərini nəzərə alaraq yazıbdır: “Ulduzlar yalnız səmt göstəriciləri üçün elmimizə xidmət etmir. Biz heç vaxt onların kimyəvi və mineraloji quruluşu barədə heçnə öyrənə bilməyəciyik”. Doğrudan da Kontun yaşadığı dövrdə spektral analiz vasitəsi ilə uzaq ulduzların işığına görə onların kimyəvi quruluşunun öyrənilməsi ideyası sözün həqiqi mənasında havadan asılı vəziyyətdə olduğu üçün, Kont zaman konteksində haqlı idi. Çünki o, zaman yerdən çox-çox uzaqlarda olan göy cisimlərinin daxilinə baxmaq, onları analiz etmək təsəvvürə gəlməz dərəcədə çətin olmasının başlıca səbəbi insanların əlində bir dənə də olsun texniki qurğunun olmaması idi [4]. Ancaq dövrümüzdəki texnoloji imkanların sürətli inkişafı əsrlər öncəki qeyd edilən və ya edilməyən problemlərin həlli üçün əvəzedilməz imkanlar yaradaraq istər sosial həyatımızın, istərsə də təhsil sahəsinin inkişafını müşahidə etmək imkanını verir. Bu gün təkcə texnologiyanın inkişafı deyil, həmçinin internet şəbəkəsinin hal-hazırdakı təhsil sistemində tətbiq edilərək yaratdığı unikal imkanlar və bu imkanlardan istifadə edilərək Elektron Təhsil Resurslarının (ETR) geniş tətbiq olunması elmi intensivliyi artırır, şagirdin inkişaf taksonomlarını (“öyrənmə və inkişaf”) sürətlə inkişaf etdirir [1]. Belə olan halda təlim prosesində şagirdlər ayrı-ayrı fənlər üzrə verilən bilik və bacarıqların passiv iştirakçısı deyil, əksinə, ətraf aləmin dərk edilməsinə yaradıcı təfəkkürlə münasibət bəsləyən subyektlər kimi fəaliyyət göstərir. Bu fəaliyyətin interaktivliyi o zaman mümkündür ki, təhsil pillələrində öyrənilən fənlər və onların əhatə etdiyi mövzular ayrı-ayrı deyil, əlaqəli-interaktiv şəkildə tədris olunsun [1]. Hər birimiz bilirik ki, bugünkü təhsil sistemində ki, bütün fənlərin tədrisi zamanı multimedia xarakterli elektron tədris resurslarında interaktiv üsul kimi istifadə edilməsi səbəbindən fənlərarası inteqrasiya ən çox informatika fənninə yönəlmişdir. Ancaq bunun səbəbi yalnız multimedia xarakterli ETR-in təhsildə geniş istifadə edilməsi deyil, həmçinin informasiya cəmiyyətinə keçidlə əlaqədar olaraq insanın ümumi mədəniyyətinə daha bir kateqoriya-informasiya mədəniyyəti kateqoriyasının əlavə olunmasıdır ki, bu mədəniyyətin əsas göstəriciləri isə telefondan tutmuş fərdi kompüterlərə və kompüter şəbəkələrinədək müxtəlif texniki qurğulardan istifadə etmək vərdişləri, informasiya texnologiyalarını mənimsəmək bacarığı və s. kimi göstəricilər üstünlük təşkil etməsidir [3]. Qeyd edilən bu göstəricilərlə praktik təcrübə bacarığı şagirdlərdə məhz informatika fənninin tədrisi zamanı praktik tədqiqat zamanı formalaşır və inkişaf edir. Bu gün informatika fənninin tədrisi hər bir şagirdə imkan verir ki, texnologiyaların iş prinsipini, müxtəlif proqramların interfeysini, elektron-öyrənmə vasitələrini öyrənməklə dünya təhsil sisteminə inteqrasiyanın fəal subyekti olsun və hər zaman zamanla ayaqlaşaraq cəmiyyətdə özünə layiqli yer tutsun.

Son 10 ildə təhsil sistemində İnformasiya Kommunikasiya Texnologiyası (İKT) infrastrukturunun inkişaf etdirilməsi və təhsildə İKT-nin tətbiqinin dünya standartları səviyyəsinə çatdırılması və “Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı (2005-2007-ci illər)” və “2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı”nın qəbul olunması, 2013-cü ilin “İKT ili” elan edilərək ümumtəhsil məktəblərinin kompüter avadanlığı ilə təmin olunması informatika fənninin tədrisinin keyfiyyətini daha da artırmışdır. Respublikamızda atılan bu prioritet addımlardan sonra təlim proseslərində interaktiv avadanlıqların, elektron lövhələrin tətbiq olunması, şagirdlərin gündəlik nəzərdə tutulan məzmunların ətraflı mənimsəməsində informatika fənninin tədrisinin əhəmiyyəti inkar olunmazdır.

Bu gün əksər ölkələrdə təhsil ocaqlarında şagirdlərə tədrisdə kompüter texnologiyasından, internet resurslarından necə istifadə etmək lazım olduğu öyrədilmir. Şagirdlər öz təşəbbüsləri ilə İKT-dən və internet şəbəkə sistemlərindən istifadə edirlər. İnternet çox demokratik bir mühitdir və orada hər bir istifadəçi öz məlumatlarını yerləşdirə bilər. Bunun nəticəsində isə şagirdlər müxtəlif növ informasiya axını ilə rastlaşırlar ki, hətta bu informasiyaların müəyyən hissəsi şagirdlərin əxlaqi dəyərlərini poza biləcək şəkildə olur. Buna görə tədris prosesi ikitərəfli, interaktiv fəaliyyət olaraq istiqamətlənməlidir. Hansı ki, bu gün Azərbaycan Respublikasının təhsil sistemində cəmiyyətimizin

tam hüquqlu üzvlərini yetişdirmək üçün hər bir şagirdin ümumi inkişafı, maraq və meylləri nəzərə alınmaqla onların təhsili, tərbiyəsi və inkişafı üçün optimal şərait yaradılaraq tədris prosesi istiqamətləndirilir. Tədris prosesinin istiqamətlənməsi nəzərə alınaraq fənlər tədrisi olunur. İnformatika fənninin tədrisi də bu optimal istiqamətlərə əsasən tədris olunan fəndir ki, bu fənnin tədrisi şagirdlərin milli-mənəvi tərbiyəsinə, təhsilinə və inkişafına müsbət təsir göstərərək onları İKT-dən, açıq internet şəbəkəsindən, proqramlardan, alqoritmlərdən, multimedia qurğulardan, ETR-dən və s. interaktiv olaraq düzgün istifadə etməkdə istiqamətləndirir. Bəlkə də, əsrlər öncə texnologiyaların dinamik inkişafı müasir dövrdəki şəkildə olsaydı, Pifaqor 20 yaşında elm və zəka ardınca kahinlər ocağı olan Misirə yola düşməz, ordan isə İran şahı Kambizin əmri ilə əsir kimi Babilə keçirilməzdi. 32 il anasından uzaqda onu görmədən zaman itirməzdi. Düz 32 il bir ana hər gün adaya gələn gəmilərin qarşısına çıxıb oğlunu gözləməzdi. Düzdür bir gün Adriatikin mavi sularını yara-yara gələn gəmilərin birində ananın 52 yaşlı ancaq cismən və ruhən cavan oğlu miladdan əvvəlki VI əsrin ən qüdrətli zəka sahibi Pifaqor gəmidən düşüb doğma torpağına qədəm basıb. Uzun illərin ayrılıq həsrətindən sonra [4]. Bəlkə də, zamanında informasiya texnologiyası bu qədər inkişaf etmiş olsaydı, VI əsrin ən qüdrətli zəka sahibi Pifaqor, XIX əsrdə yaşamış fransız alimi Oqyust Kont, Amerika alimi Tomas Alve Edison, nisbilik nəzəriyyəsinin yaradıcısı Albert Enşteyn kimi dahilər əldə etdikləri elmi nailiyyətlərdən daha çox mürəkkəb, qeyri-müəyyən məsələləridə həll edərək pradoksal nailiyyətlər əldə etmiş olardılar. Ancaq bir tarixi faktı qeyd edək ki, Lütfi Rəhim oğlu Ələsgərzadə bu dünyaya gəlməsəydi, onda qeyri-səlis çoxluqlar nəzəriyyəsi ehtimal ki, 1965-ci ildə deyil, 2065-ci ildə yaranardı. Aristotelin binar məntiqi, Lukaseviç və digər alimlərin çox qiymətli məntiqləri nə vaxt təklif edilmiş olsaydı da, qeyri-səlis məntiq nəzəriyyəsinin yaradılmasının öhdəsindən yenə də təkcə həmyerlimiz olan dünyanın ədəbi professoru adına layiq görülmüş Lütfi Ələsgərzadə gələrdi [4].

**Ədəbiyyat**


1. Abuşov A., Hüseynova İ., Süleymanov R., Babayeva Ü. Elektron təhsil resursları-tədris vəsaiti. Bakı, 2012, 100 səh.
2. İsayeva N., Mahmudzadə R., Sadıqov İ. VIII sinif informatika dərsliyi. Bakı, 2008, 126 səh.
3. İsayeva N., Mahmudzadə R., Sadıqov İ. XI sinif informatika dərsliyi. Bakı, 2014, 128 səh.
4. Möhbəddin Səməd. Dünya dahilərsiz yaşaya bilməz. Bakı, 2000, 264 səh.


UOT 373.1.02

## İbtidai təhsil pilləsində milli-mənəvi tərbiyənin aşılanması yolları

*Hacıyeva Ruhiyyə Nazir qızı*
*Mingəçevir şəhər 4 №-li tam orta məktəb*

Dünyada çox az xalq mövcuddur ki, zəngin milli-mənəvi dəyərlərə sahib olsun. Azərbaycan xalqı o xalqlardandır ki, geniş, dərin, milli mənəvi irsə malikdir. Bu zəngin dəyərləri qorumaq hər birimizin borcumuzdur.

Milli dəyərlər dedikdə milli ideologiya, milli tarix, milli dil, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə, dahi şəxsiyyətlərimiz, milli musiqimiz, muğamlarımız, folklorumuz: hansı ki bura bizim yaddaşımız – fərd yaddaşı, etnos yaddaşı, millət, xalq yaddaşı nəzərdə tutulur. Bir sözlə, milli olan bütün nailiyyət və keyfiyyətlərimiz milli dəyərlər sisteminə aiddir [1].

Çiçəklənməkdə olan vətənimizin hazırkı durumu, gənc nəslin təlim və tərbiyəsi, milli özünüdərk, özünə qayıdış, islam əxlaqının, türk dünyasının mənəvi dəyərlərindən bugünkü tərbiyə

prosesində istifadənin zəruriliyi gənc nəslin mənəvi tərbiyəsini yeni, müasir tələblər əsasında tədqiqini və bu prosesin daha optimal üsul və vasitələrlə aparılmasını tələb edir [1].

Bu gün tarixçilər, pedaqoqlar, bütövlükdə maarif işçiləri qarşısında mühüm bir vəzifə qoyulmuşdur: Azərbaycanı sevərək, onun keşiyində duraraq, ona xidmət edərək, intellektual mənəviyyatlı vətəndaş tərbiyə etmək. Həm də bu zaman tərbiyənin kökünü vahid Azərbaycan xalq tərbiyəsinin məzmununda, bu günədək bizə məlum olan şifahi xalq ədəbiyyatı nümunələrində, Qurani-Kərimin səhifələrində, zəngin və dünya şöhrətli klassik irsimizdə, Azərbaycan xalqı üçün yaxın və məqsədyönlü olan Şərq ənənələrində və həm də ümumbəşəri dəyərlərdə axtarmalıyıq. Gənc nəslin tərbiyəsinin qarşısında duran başlıca məqsədlərə və hərtərəfli biliyə, mütərəqqi dünyagörüşə, milli və ümumbəşəri əxlaqa, mənəviyyata və mədəni dəyərlərə yiyələnən şəxsiyyət formalaşdırmaq və cəmiyyətimiz üçün layiqli vətəndaşlar yetişdirmək olduğundan hazırda tədris müəssisələrində yetişən gənc nəslin tərbiyəsini müasir tələblər səviyyəsinə qaldırmaq vacibdir[2].

Hal-hazırda ümumtəhsil məktəblərində tədris olunan fənlərin əsas qayəsi məhz həmin amala xidmət edir. Bu gün ümumtəhsil məktəblərində tədris olunan bütün fənlərin məzmunu milli mənəvi tərbiyənin aşılanmasını təmin edir..İbtidai təhsil pilləsindən tədris olunmağa başlayan “Ana dili”, “Həyat bilgisi”, “Təsviri incəsənət”, “Musiqi” fənləri bu vəzifənin yerinə yetirilməsində mühüm rol oynayır.

Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün müstəqil bir dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır.

Məktəblərdə ana dilinin tədrisi milli maraqlar və dövlətçilik baxımından vacib məsələlərdən biri hesab edilir. Ana dilinin tədrisi vasitəsilə ibtidai təhsil pilləsində əlifbanın öyrənilməsi, oxu və yazı texnikası üzrə ilkin bacarıqların mənimsənilməsi, lüğət ehtiyatının tədricən zənginləşdirilməsi, Azərbaycan xalqının dili, tarixi, əxlaqi mənəvi keyfiyyətləri, mədəniyyəti, adət-ənənələri haqqında ilkin anlayışların yaradılması təmin olunur [3].

Mənəvi sərvətlərimiz olan, gənc nəslin mənəvi aləminə güclü təsir göstərən xalqın milli mənəvi dəyərlərinin ifadə olunduğu folklor nümunələri ilə tanışlıq da məhz ana dilinin tədrisi vasitəsilə ibtidai təhsil pilləsindən başlayaraq həyata keçirilir. Folklor cəmiyyətin, xalqın tarixini özünəməxsus şəkildə müşayiət edən mürəkkəb ictimai hadisə, mənəvi sərvətin, mədəniyyətin tərkib hissəsidir. Folklorun ayrı-ayrı nümunələrində (atalar sözləri, bayatılar, nağıllar, dastanlar.) yüksək insani hisslər, tarixi müdriklik əks olunmuşdur. Bu nümunələr ata-babalarımızın keçmiş həyatını, təfəkkürünü, zəkasını, istəklərini, arzularını, doğma torpağa olan saf məhəbbətini və bu məhəbbətdən doğan qüruru, tərbiyə haqqında təsəvvürlərini, nəcib ənənələrini özündə yaşadır.

Xalq yaradıcılığı nümunələri vasitəsilə yetişən gənc nəsil xalqımızın tarixini, arzu və düşüncələrini, adət və ənənələrini, keçirdiyi günləri, canlı danışıq dilini öyrənir, sədaqətli və mərd olmaq, düşmənlə mübarizədə qorxmaz olmaq, kamil insan olmaq, vətəni sevmək, vəfalı, etibarlı, sadə və qanacaqlı olmaq kimi yüksək mənəvi keyfiyyətlərə yiyələnirlər [1].

Həyat bilgisi fənninin təlimində şagirdlərin təhsili, tərbiyəsi və inkişaf məsələləri üzvi surətdə əlaqələndirilir. Şagirdlər bu fənnin köməyilə milli -mənəvi dəyərlərə yiyələnirlər.

Bütün fənlərdə olduğu kimi “Həyat bilgisi” fənninin də məzmunu məktəb qarşısında duran ən mühüm vəzifələrdən birinin – ümumbəşəri dəyərlərlə yanaşı milli mənəvi dəyərlərə əsaslanan tərbiyənin daha dolğun, daha sistemli və nəticəyönümlü aşılanmasının həyata keçirilməsini təmin edir, ailəsini, xalqını və vətənini sevən, onların inkişafı və rifahı üçün nə edəcəyini müəyyənləşdirən milli mənəvi dəyərlərə sahib demokratik düşüncəli şəxsiyyət formalaşdırılmasına yardım edir [3].

Musiqinin şagirdlərə mənəvi təsiri bir an belə nəzərdən qaçırılmamalıdır. Çünki musiqi eyni zamanda qüdrətli ideoloji təsir vasitəsinə malikdir. Musiqi başqa elm və sənət nümunələrindən fərqli olaraq dilinin dünyəviliyinə, geniş əhatə dairəsinə, təbliğ olunma səviyyəsinə, auditoriyasının genişliyinə, hissləri bir anda oyatma, üzə çıxartma, təlatümə gətirmə imkanına malikdir.

Kompleks mərhələlər əsasında aparılan musiqi dərslərində ifa olunan mahnılar, dinlənilən musiqi əsərləri, verilən nəzəri məlumatlar, əməli cəhətdən icra edilən ritmik təmrinlər şagirdlər tərəfindən çox böyük maraqla qarşılanır.

Musiqi fənni vasitəsilə şagirdlər Azərbaycanın görkəmli musiqi xadimlərini, onların məşhur əsərlərini tanıyır, Azərbaycan ladlarını major və minor qammaları ilə müqayisə edir, dinlədiyi Azərbaycan musiqi folklor nümunələrinə, muğamlara, aşıq havalarına münasibət bildirir, onların xarakterik xüsusiyyətlərini şərh edir, Azərbaycan milli musiqi alətlərini tanıyır, onları tembirinə görə fərqləndirir [4].

Milli-mənəvi tərbiyənin aşılanması yolları, üsul və vasitələrinin müəyyənləşdirilməsi müəllim və tərbiyəçilərdən böyük ustalıq tələb edir. Müstəqil Azərbaycan Respublikasının islahat proqramında maarif işçiləri qarşısında bir sıra məsələlər qoyulmuşdur ki, bura yüksək keyfiyyətli, dərin və hərtərəfli biliyə, mədəniyyətə, mütərəqqi dünyagörüşə malik, Azərbaycan xalqının azadlıq və demokratik ənənələrinə bağlı olan, Vətənini, millətini və dilini sevən, insan hüquqları və azadlığına hörmət edən, müstəqil və yaradıcı düşünən, yüksək əxlaq və mənəvi keyfiyyətləri özündə cəmləşdirən, sivilizasiyalı cəmiyyət qurmağa qadir olan, idrak səviyyəsi yüksək, sağlam və humanist keyfiyyətli, dostuna dost, düşməninə düşmən kimi yanaşan, hərtərəfli vətəndaş yetişdirməkdir. Çünki, hər hansı bir dövlətin, xalqın gələcəyi həmin dövlətin maarifindən çox asılıdır. Odur ki, gənc, azad və müstəqil respublikamızın müvəffəqiyyətli və uzunömürlü olması indiki nəslin daha savadlı, intellektual səviyyəsinin daha yüksək olmasından çox asılıdır. Müasir dövrdə dövlət quruculuğuna dair müvafiq sənədlərdə uşaqların əxlaq və mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsinə ciddi diqqət vermək tərbiyə və təhsil müəssisələrinin başlıca vəzifələrindən biri kimi qeyd edilir [1].

Bu gün bizim vətəndaş borcumuz milli-mənəvi dəyərlərimizə doğma torpağımıza, doğma ana dilimizə, mədəniyyətimizə, böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan və onu təbliğ etməkdən ibarətdir. İndi hər bir müəllim Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və bir sıra rayonlarının erməni təcavüzünə məruz qaldığı bir zamanda gənc nəsildə torpağa, xalqa məhəbbət, milli dəyərlərimizə qayğı, vətənin ərazi bütövlüyünə və müstəqilliyinə sədaqət, yüksək ideyalar aşılamalıdır.

### Ədəbiyyat


1. Ağayev M. Pedaqoji fikir tarixində tərbiyə və təhsil. Bakı, 2011
2. Hüseynzadə R. Tərbiyə işinin metodikası. Bakı, 2010
3. Ümimtəhsil müəssisələrinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: “Təhsil”, 2008
4. Xəlilov V. Ümumtəhsil məktəblərində estetik tərbiyənin inkişaf yolları. Bakı: “Maarif”, 1991


UOT 373.1.02

## Qloballaşma şəraitində hərbi vətənpərvərlik tərbiyəsi

*İsayeva Şəlalə Knyaz qızı*
*Mingəçevir şəhər 4 №-li tam orta məktəb*

Vətənpərvərlik öz ailəsini, evini, el obasını, kəndini, şəhərini, Vətənini sevməkdə, onun inkişafına kömək etməkdə, mədəniyyət və incəsənətini sevməkdə, Vətəninin tarixini öyrənməkdə, sərhədlərini qorumaqda, lazım gələrsə canını Vətənə qurban verməkdə, Vətəndən kənarda olan zaman ona başucalığı gətirməkdə, düşmənə qarşı barışmaz olmaqda ifadə olunur [1].

“Torpaq, əgər uğrunda ölən varsa vətəndir”. Altı sözdən ibarət olan cümlənin mənası çox böyükdür. Vətənpərvərlik, öz vətəninə məhəbbət - çox dərin və güclü insani hissdir. Vətənpərvərlik anlayışı tarixi anlayışdır. Vətənpərvərlik əsrlərlə və yüzillərlə möhkəmlənmiş ən dərin hisslərdən biridir. Vətən dedikdə, mövcud siyasi, mədəni və ictimai mühit başa düşülür [2].

Vətənpərvərlik emosiya və hisslərlə bağlı olduğundan bu hisslərin tərbiyəsi hər bir dövlət və cəmiyyət üçün vacib məsələyə çevrilir. Başqa sözlə, vətənpərvərlik dəyişkən fenomen olduğundan

bu hisslər cilovlanmadan nə dövlət, nə də cəmiyyət inkişaf edə bilməz. Təbii ki, modernləşmə və qloballaşma şəraitində vətənpərvərlik hissinin fərqli xüsusiyyətləri meydana çıxır. Məsələn, Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində vətənpərvərlik bir qədər başqa mahiyyət daşıyırdı. O zaman ümummilli liderin zəkası və iradəsi, həmçinin şəxsi vətənpərvərlk nümunəsi sayəsində vətəndaşları Vətəni və dövləti qorumaq ideyası ətrafında birləşdirmək lazım idi. Bu, o dövr üçün vətəndaşların fikir müxtəlifliyindən daha vacib idi. Üstündən qısa bir zaman ötməmiş vətənpərvərlik hissinin yeni ideya ətrafında tərbiyə olnması məsələsi zərurətə çevrildi. Bu isə Azərbaycanın ərazi bütövlüyünün qorunması və dövlətimiz haqqında əsil həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasından ibarət idi. Etiraf edilməlidir ki, bu sahədə də qurulan təbliğat və maarifləndirmə işləri öz müsbət nəticələrini verməkdədir. Sosioloji sorğular sübut edir ki, bizim üçün ən qiymətli dəyər - müstəqil dövlətimizdir. Lakin çətinlik törədən məsələ vətənpərvərliyin müxtəlifliyindədir. Vətənpərvərlik birləşdirə də bilər, ayıra da. O, cəmiyyəti, xalqın mədəniyyətini inkişaf da etdirə bilər, eyni zamanda, mədəniyyəti qapalı, anklav vəziyyətə sala da bilər. Artıq fəxarətlə demək olar ki, Azərbaycan vətəndaşları vətənpərvərdirlər. Bunu Azərbaycan oğulları dəfələrlə öz əməli ilə sübut edib. Maraqlıdır, belə bir məqamda gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi istiqamətində atılan addımlar, görülən işləri yetərli saymaq olarmı? Ekspertlərin qənaətincə, hazırda gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin artırılmasında ölkədə fəaliyyət göstərən gənclər təşkilatlarının rolu danılmazdır. Əksəriyyət təşkilatların bu sahədə həyata keçirdiyi layihələr, tədbirlər müsbət nəticələrini verir. Buna baxmayaraq məsələyə bir az geniş aspektdən yanaşmaq tələb olunur. Bu aspekt gənclər siyasətinin strateji bölməsidir ki, onun da əsası Ulu Öndər Heydər Əliyev tərəfindən 1994-cü ildə qoyulub. Məhz bundan sonra gənclərlə bağlı həyata keçirilən bütün islahatların hər birində milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi məsələsi hər zaman prioritet olub. Hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilən siyasət gənclərin milli şüuru və vətənpərvərlik hissinin formalaşmasında əvəzsiz rol oynayır. Belə ki, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu, Elm Fondu, Bilik Fondunun təsis edilməsi gənclərin vətənpərvərlik hissinin yüksəlməsi sahəsində geniş imkanlar yaradıb. Bütün yaradılan bu imkanların qayəsində milli mənlik şüurunun inkişaf etdirilməsi dayanır.

Müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələri isə yalnız öz vətənini sevən, onun tərəqqisinə çalışan və azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilər. Respublikanın əksər gəncləri vətən qarşısında öz vətəndaşlıq borclarını layiqincə başa düşür, onun qorunmasında və milli dövlətçilik quruculuğunda fəal iştirak edirlər. Vətənin taleyinin təhlükə altında olduğu, onun bütövlüyü uğrunda ölüm-dirim mübarizəsinin getdiyi bir zamanda xalqın vətəni qorumağa qadir, mərd, sadiq gənclərə böyük ehtiyacı var. Buna görə də gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin daha da gücləndirilməsi sahəsində məqsədəuyğun və sistemli iş aparılmalıdır. Vətənə məhəbbət hissi gənclərin dövlət dilinə, milli musiqiyə, folklora, mənsub olduğu dini dəyərlərə, tarixi ənənələrə bağlılığında, ölkə ərazisinin bütövlüyünün qorunmasına hazır olduğunu əməli işlə sübut etməyində öz təzahürünü tapmalıdır. Vətənin tərəqqisi naminə çalışmaq üçün gənclərin müəyyən sənətə, peşəyə sahib olması, dövlət quruculuğunda fəal iştirak etməsi, yüksək peşəkarlığa, təhsilə və elmə yiyələnməsi, geniş dünyagörüşünə malik olması, əməyi sevməsi və onunla məşğul olması və təşəbbüskarlığı vacibdir. Vətənin maddi və mənəvi sərvətlərini qorumaq, iqtisadi qüdrətinin yüksəlməsinə nail olmaq, baş verə biləcək iğtişaşlara, təxribatlara və təbii fəlakətlərə qarşı həmişə mübarizə iqtidarında olmaq lazımdı. Müstəqilliyini bərpa etmiş dövlətimizin ideologiyasının, həmçinin azərbaycançılıq və yurdsevərlik ideyalarının gənclər arasında təbliğ olunmasına böyük ehtiyac var. Azərbaycanımız üçün əsl vətəndaş yetişdirmək, böyük gələcəyimiz naminə ən mühüm vəzifə kimi təhsilimizin və mədəniyyətimizin qarşısında durur. Dövlətçilik, vətəndaşlıq təkcə orta məktəb dərsliklərində və ya hansısa əyani vasitələrdə əks olunmalı deyil, bütün sahələrdə təbliğ edilməli, sevgi və ehtiram hədəfinə çevrilməlidir. Bu baxımdan təbliğatın uğurlu və təsirli olmasında televiziyanın yeri və xidməti əvəzolunmazdır. Televiziya ilk növbədə mənəvi tərbiyə

ocağı kimi, bədii vasitələrlə, sənətkarlıqla, xüsusi incəliklə bu müqəddəs amalları aşılamalı və sevdirməlidir.

Hərbi vətənpərvərlik ruhu, ilk növbədə, ailədən başlamalıdır. Orta məktəblər də müasir gənclərin vətənpərvər ruhda yetişməsində əsas rol oynayır. İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Lakin vətənpərvərlik təkcə vətəni sevmək deyil. Vətənpərvərlik həm də vətənin naminə çalışmaq, vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, vətənin, xalqın hər bir uğuruna sevinməkdir. Bu hiss insanda anadangəlmə olsa da, bütün digər hisslər kimi tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir, artır. Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğundan onun böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən, məktəbin ən vacib vəzifələrindən olub. Müasir dövrdə təhsilin qarşısında qoyulmuş fəal vətəndaşlar yetişdirmək vəzifəsi də məhz sistemli, ardıcıl aparılan vətənpərvərlik tərbiyəsinin nəticəsində reallaşdırılır. Məlumdur ki, təlim-tərbiyə işinin bütün sahələrində, istiqamətlərində olduğu kimi vətənpərvərlik tərbiyəsinin də əsası ibtidai siniflərdə qoyulur və o, sonrakı təlim pillələrində daha da inkişaf etdirilir. Bu mənada böyüməkdə olan nəslin vətənpərvərlik tərbiyəsində ibtidai sinif müəllimlərinin üzərinə böyük məsuliyyət düşür. Onlar məktəbə qədəm qoyan körpə fidanların qəlbində elə ilk günlərdən vətənə məhəbbət aşılamağa, onu güclü vətənpərvərlik hissinə çevirməyə çalışmalıdırlar.

Son vaxtlar orduya göstərilən qayğı, Ali baş komandan, cənab prezident İlham Əliyevin Silahlı Qüvvələrlə bağlı verdiyi sərəncam və fərmanlar, əsgər və zabitlərimizə göstərdiyi diqqət gənclərdə vətənpərvərlik hisslərinin artmasına son dərəcə müsbət təsir göstərir və milli mənlik şüurunun inkişaf etdirilməsi, vətənpərvərlik hisslərinin tərbiyəsinə öz töhfəsini verir. Bu gün Azərbaycan ordusunun bir problemi var ki, o da Qarabağın işğal altında olmasıdır. Əminliklə qeyd etmək yerinə düşər ki, sülh danışıqları nəticə verməyəcəyi təqdirdə Azərbaycan Silahlı Qüvvələri işğal altında olan torpaqlarımızı azad edəcək və o gün uzaqda deyil. Artıq ordunun bu istiqamətdə hazırlığı istiqamətində ciddi işlər aparılır. Təsadüfi deyil ki, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi, onların hərbi xidmətə hazırlanması; gənclər arasında hüquq pozuntularının, narkomaniyanın və digər zərərli vərdişlərin profilaktikası sahəsində tədbirlərin həyata keçirilməsi, istedadlı gənclərin aşkar edilməsi, onların öz qabiliyyətlərini inkişaf etdirə bilmələri üçün şəraitin yaradılması kimi məsələlər gənclərlə bağlı qəbul edilmiş dövlət proqramlarında əksini tapıb. Ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakı, uşaq və gənclər üzrə təşkilatların formalaşması və inkişafı üçün şəraitin yaradılması, gənclərin beynəlxalq əməkdaşlığı sahəsində layihələrin həyata keçirilməsinə, gənclər təşkilatlarının beynəlxalq əlaqələrinin qurulmasına, onların nümayəndələrinin beynəlxalq tədbirlərdə iştirakına köməklik göstərilməsi əsas prioritetlərdən hesab edilir [3].

## Ədəbiyyat

1. Kazimov N. Məktəb pedaqogikası. Bakı: "Nurlan", 2007, 464 səh.
2. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı: "OKA Ofset", 2007, 430 səh.
3. http://www.olaylar.az/news/social/119922

UOT 008:14

# Mənəviyyat varlığımızdır

*Mustafayeva Könül Nadir qızı*
*Mingəçevir şəhər 19 №-li tam orta məktəb*

*Biz öz milli dəyərlərimizlə fəxr etməliyik. Bizim milli dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz. Biz heç vaxt öz milli dəyərlərimizi unutmamalıyıq. Onu yaşatmaq, ondan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir.*

***Ümummilli lider Heydər Əliyev***

İnsanın varlığını, mənəvi dünyasını xarakteri, mədəniyyəti, aldığı tərbiyə, təhsili müəyyən edir. İnsanı insan edən mənəvi aləminin zənginliyi, əxlaqi saflığıdır. Mənəviyyatsız sosial mühitdə özbaşınalıq hökm sürər, maddi aləmə olan hərislik fəziləti məhv edər. Ən sivil dövlətlərdə belə hakimiyyəti insafdan uzaq, mənəviyyatı qüsurlu insanlar idarə edərsə, heç bir ədalətdən, humanizmdən söhbət gedə bilməz. Bu aspektən insan şəxsiyyətinin təhlili göstərir ki, sivil dünyanın intellektli və mədəni insanlardan öncə ədalətli, mərhəmətli, mənəviyyatı təmiz topluma ehtiyacı var. Xalqın mənəviyyatını isə onun milli-mənəvi dəyərləri təşkil edir. Xalq ruhunun, milli mənəviyyatın bütün ifadə çalarlarını və özəlliklərini qoruyub saxlayan milli-mənəvi dəyərlər hər bir millətin tarix boyu əldə etdyi nailiyyətlərdir. Milli -mənəvi dəyərlərimiz əsrlərdən bəri formalaşmış, xalqımızın yaşayışına, məişətinə daxil olmuş və onun xarakterik cəhətlərini müəyyənləşdirmişdir. Məhz bu cəhətdən biz mənəvi dəyərlərə varislik prizmasından yanaşırıq.

Dilimizə, dinimizə sevgi, böyüyə hörmət, qonaqpərvərlik, mərdlik, humanistlik, əliaçıqlılıq, ailəyə sədaqət, vətənə, torpağa bağlılıq, inam və etiqadın müqəddəsliyi, abır, həya, ismət Azərbaycan xalqına məxsus ən başlıca milli-mənəvi keyfiyyətlərdir. Xalqımızın özünün mövcudluğunu məhz bu dəyərlərə bağlılığı sayəsində qoruyub saxlaya bilib. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə Azərbaycan xalqının hər zaman milli mənəvi dəyərlərinə sadiq olduğunu söyləyib.

Azərbaycan Respublikası Konstitusiyasının 40-cı maddəsində öz əksini tapan milli irsimizin mühafizəsi məsələsi [3], "Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu [4], Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu [8] bu gün Azərbaycanda dövlət quruculuğu prosesinin məhz milli-mənəvi dəyərlər üzərində həyata keçirildiyinə sübutdur.

Mədəniyyətlərin bir-birinə nüfuz etdiyi dünyada Azərbaycan xalqının milli mənəvi keyfiyyətlərini mühafizə edərək gələcək nəslə ötürməsi mənəvi irsimizin öyrənilmə səviyyəsindən asılı olacaqdır. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda [5] gənc nəslin mənəvi-əxlaqi tərbiyəsində milli-mənəvi dəyərlərə yiyələnmənin vacibliyi qeyd olunur. Xalqın genetik yaddaşını, tarixi kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə aşılamaq kimi tarixi missiyanın həyata keçirilməsi təhsil müəssisələrində çalışan pedaqoqlardan daha böyük məsuliyyət tələb edir. Öncə ailədə xalqına xas dəyərləri mənimsəyən fərdin xarakterində təhsil aldığı illərin danılmaz rolu olur. Bu baxımdan Azərbaycan dili və ədəbiyyat fənninin yetişməkdə olan gələcək nəslin mənəvi inkişafında mühüm yer tutması təsadüfi deyil. Layla ilə vücuda yerləşən, hafizəyə yazılan, milli varlığımızın tərənnümü olan ana dilimiz əcdadlarımızın bizlərə əmanət etdiyi qiymətli mirasdır. Ana dilinin tədrisi isə bədii ədəbiyyatın öyrədilməsi ilə sıx bağlıdır. Ölməz şairimiz N.Gəncəvinin kərpickəsən kişinin dili ilə dediyi:

Mən bir kəsə deyiləm xəznədən ötrü möhtac,
Əlimin zəhmətilə toxdur gözüm, deyil ac.

sözləri dünya nemətləri üçün başqalarının qarşısında əyilməməyin, öz ləyaqətini saxlamağın vacibliyini göstərir. Bu, ulularımızın gələcək nəsillərimizə bədii ədəbiyyat vasitəsi ilə etdiyi nəsihətdir. Bu baxımdan şərəf, ləyaqət, namus kimi mentallaşmış dəyərlərin qorunmasında folklor

nümunələrinin, klassiklərin əsərlərinin poetik çalarları, sənətkarlıq xüsusiyyətləri deyil, əxlaqi-mənəvi mahiyyəti önə çəkilməli, gənclərin xeyirxahlıq, halallıq, mərdlik ruhunda tərbiyə edilməsinin metodologiyası açıqlanmalıdır. Belə dəyərləri olan nəsildə isə dövlətçilik təfəkkürünə, dövlət rəmzlərinə ehtiram və hörmət hissləri də olar. Ulu öndərimizin təbirincə desək "Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər heç vaxt vətəninə,xalqına ögey münasibət bəsləməz. Gənclərimiz bizim tariximizi, dilimizi, keçmişimizi, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz" [2]. Ümummilli liderimiz mənəvi dəyərlərimizi, mədəniyyətimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın- dövlət quruculuğu prosesinin mühüm xüsusiyyəti kimi dəyərləndirirdi [1].

Milli dəyərlərimizdən biri olan qonaqpərvərlik də xalqımızın baş ucalığıdır. Hər bir azərbaycanlı ilk növbədə qonaq evini fikirləşir, onun zənginliyini, yaraşığını, bəzək-düzəyini, səliqə-sahmanını gözləyir. Azərbaycanlılar barlı-bəhərli torpaqları kimi əzəldən səxavətli, çörəkli olublar. Ulularımız qonaq-qaralı evin ruzili olduğunu  söyləyiblər. Qonağın gəlişi bayram olar.. Gedənə uğur dilənər, arxasınca su atar, yoluna azuqə qoyular, hədiyyələr bağışlanar. Məsələn, 1819-cu ildə A.S.Qriboyedov İrana səfər edəndə Qazaxın İncə kəndində bir evdə qonaq olur. Evdə nəfis şəkildə toxunan xalça onun xoşuna gəlir. Həmin xalça, o cümlədən xurcun və heybə ona hədiyyə verilir. Xalça indi də Moskvada kilsələrin birində saxlanılır [7].

Vaxtilə I Pyotr Dərbənd azərbaycanlılarının, knyaz Dolqoruki Bakı və Salyan əhalisinin, A.Bestucev-Marlinski, Kazan Universitetinin professoru İ.Beryozin Quba camaatının qonaqpərvərlik adətinə baş əyiblər. Mənbələrin verdiyi məlumata görə, XVI yüzilliyin əvvəllərində Şamaxı hakimi Abdulla xan Ustaclının yanına ticarət əlaqələri üçün gəlmiş ingilis tacirlərindən Antoni Cenkinsonun şərəfinə verilmiş qonaqlıqda süfrəyə 290 cür yemək və çərəz düzülmüşdü [6]. Bu tacir-diplomat gördüklərini öz səyahətnamələrində yazmış və bütün Avropanı xalqımızın qonaqpərvərlik mədəniyyətilə tanış  etmişdir. XVII əsr türk səyyahı Evliya Çələbinin verdiyi məlumata görə, Bakıda qonaqları qarşılamaq üçün mehmandar vəzifəsi olmuşdur [9]. Göründüyü kimi hələ qədim zamanlardan xalqımız qonağı dərin hörmət və ehtiramla qarşılamış, layiqincə yola salmağı özünə borc bilmiş, şərəf saymışdır. Sevinc bəxş edən, nəciblik aşılayan bu adət bütün zümrələr arasında özünə möhkəm yer tutmuş və əbədi milli miras kimi müqəddəs sayılmışdır.

Mənəvi dəyərlərimizin əsasında müqəddəs dinimiz durur. İnsanları düzlük, mənəvi paklıq ruhunda tərbiyə edən islam dini  xalqımızın mənəviyyatından, həyat tərzindən ayrılmazdır. Sülh və sevgi dini olan islam dini bütün bəşəriyyətin xilasını istəyir və insanlığı buna səsləyir. İslam dininin mahiyyətini dərk edən xalqımız  onun insan ruhunu paklığa səsləyən müqəddəs çağırışlarına tarixin bütün məqamlarında əməl etməyə çalışmışdır. Barışı, sülhü, əmin-amanlığı hər şeydən çox istəmişdir.  Çox sevdiyim şair Hüseyn Cavid demişkən:

Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü.

**Ədəbiyyat**


1. Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab.  Bakı, 2001, 440 səh.
2. Heydər Əliyev mədəniyyət və incəsənət haqqında. "Mədəniyyət və sənət" jurnalı, 2003, № 1
3. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2003, 48 səh.
4. Dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2002, № 365-IIQ
5. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013
6. Abbasov N. Mədəniyyət siyasəti və mənəvi dəyərlər. Bakı, 2009, 444 səh.
7. Qasımzadə F. Mədəniyyət siyasəti və Azərbaycan xalqının mədəni irsi. Bakı, 2001, 68 səh.
8. Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2012
9. Məmmədova N. Dəyər anlayışının kulturoloji təhlili. Bakı: "Mədəni-maarif", 2006, № 10, səh. 49-50

UOT 373.1.02

## Формирование этнокультурной грамотности и установок толерантности в гуманитарной среде школы

*Алиева Тарлан Икрам кызы*
*Средняя школа № 19 г. Мингечевир*

В современной педагогической литературе нравственное воспитание рассматривается, как процесс, направленный на развитие у обучающихся системы нравственных знаний, чувств и стремлений. Актуальность темы вытекает из гуманистической парадигмы современной педагогики, нацеленной на формирование личности, способной выжить в сложных социальных условиях и найти свое место в жизни, не потеряв человеческого достоинства, не нарушая прав и свобод человека [2]. Нравственные нормы общественной жизни должны найти свое воплощение в опыте растущего человека уже с ранних лет. Еще К. Д.Ушинский отмечал:«..воспитание, если оно не хочет быть бессильным, должно быть народным», подразумевая под народностью воспитания учет культурно-исторического пути развития этноса, специфики этно-культурных традиций – языковых, коммуникативных, обрядовых, ритуальных, т. е. всего того, что отличает представления этого этноса от других [4].

Формирование этнокультурной грамотности и установок толерантности в гуманитарной среде школы осуществляется в следующих направлениях: урочная деятельность; внеурочная деятельность (культурные практики); внешкольная деятельность (социальные и культурные практики).

В урочной деятельности целевые программы и содержащиеся в них воспитательные задачи должны быть интегрированы в содержание учебных предметов. На учебное содержание необходимо смотреть не только со стороны традиционных дидактических принципов, не менее важными являются принципы культурогенеза, ценностной ориентации образования, нравственного развития личности. Традиционно велико воспитательное значение азербайджанского языка, литературы, истории, музыки, отечественной и мировой художественной культуры. Система базовых национальных ценностей не только отражается в содержании обучения, но и сама оказывает существенное влияние на его организацию. Например: на уроках азербайджанского языка и литературы духовно-нравственное воспитание осуществляется посредством слова. Учителя азербайджанского языка и литературы ставят перед учениками следующие задачи: -учащиеся должны увидеть, что азербайджанский язык – это не только средство общения между людьми; он впитал в себя богатейший духовный, исторический и нравственный опыт народа; -воспитать у детей любовь к родному языку, научить воспринимать его как дар свыше, быть в ответе за этот дар, уважительно относиться к языкам других народов; -выработать у учащихся элементарные навыки общения, обогатить их лексический запас, научить грамотно, излагать свои мысли. На уроках истории происходит знакомство с деятельностью интересных и великих людей, культурными и историческими памятниками. Традиции отечественной истории неразрывно связаны с религиям. Цель мусульманской нравственности - воспитать добропорядочного человека**.** В основе добропорядочности лежит понятие добра, делание добра людям. Добро является одним из главных и наиболее объёмных понятий в исламской этике. В Коране сказано «Обещал Аллах тем, которые уверовали и творили доброе – им прощение и великая награда». Следует помнить, что в исламе добрые дела делаются не столько для других, сколько для себя. Добро делают всякому, даже тем, кто его не заслуживает, даже своему врагу [1].

Основной педагогической единицей внеурочной деятельности является культурная практика – организуемое педагогами и воспитанниками культурное событие, участие в

котором расширяет их опыт конструктивного, творческого, нравственно-ориентированного поведения в культуре.

Внешкольные мероприятия: экскурсии, разнообразные десанты, сборы помощи, благотворительные, экологические, военно-патриотические мероприятия, полезные дела и т.д. – организуются в пределах целостного, социально-открытого образовательного пространства, под влиянием которых формируется нравственные черты, составляющие главный стержень личности [3].

Объективная оценка воспитательной работы возможна при использовании социологических и психолого-педагогических исследований. Основные результаты духовно-нравственного развития и воспитания учащихся оцениваются в рамках мониторинговых процедур, в которых ведущими методами будут: экспертные суждения; анонимные анкеты, позволяющие анализировать (не оценивать) ценностную сферу личности; различные тестовые инструменты, созданные с учетом возраста; самооценочные суждения детей.

Для диагностики процесса и результата духовно – нравственного развития личности используется методики:

1. Методика «Образ мира»

   Цель: изучить индивидуальные особенности образа мира школьников.

2. «Круг воли»

   Цель: определения силы воли младших школьников.

3. Методика «Выбор»

   Цель: выявление нравственной направленности потребностей у школьников.

4. Методика «Пословицы» (С.М. Петрова)

   Цель: определить уровень нравственной воспитанности учащихся и выяснить особенности ценностных отношений к жизни, к людям, к самим себе.

5. Ориентировочная минимальная диагностическая программа изучения проявления формирующегося нравственного деятельно-волевого характера подростков.

   Цель: выявить проявления нравственного деятельно-волевого характера школьников.

6. Методика «Что такое хорошо и что такое плохо»

   Цель:выявить нравственные представления учеников.

Процедура мониторинга:

Мониторинг проводится педагогом-психологом и классным руководителем (после специального обучения) дважды в год сентябре, апреле.

Педагог-психолог проводит диагностику всех трех сфер по трем, представленным ниже методикам.

Классный руководитель выполняет диагностику нравственного уровня развития и воспитания младших школьников (субъективный тест).

Далее все измерения заносятся в сводную таблицу. Анализ результатов, представленных в сводной таблице, позволяет провести экспертизу и выявить эффективность деятельности по формированию духовно-нравственной сферы школьников.

Мониторинг духовно-нравственного развития и воспитания младших школьников направлен на выявление следующих параметров:

- уровень сформированности личностной культуры с использованием методики «Я разный», диагностику проводит педагог-психолог;
- уровень сформированности социальной культуры через диагностику нравственных представлений младших школьников (Адаптированный вариант теста «Размышляем о жизненном опыте» для школьников, диагностику проводит педагог-психолог;
- уровень сформированности семейной культуры через диагностику семейных ценностей и представлений учеников, диагностику проводит педагог-психолог (анкета «Я и моя семья»);
- уровень нравственного развития и воспитания школьников, диагностику проводит классный руководитель (субъективный тест классного руководителя).

Методика «Проявление личностных качеств в поведении ребенка», разработанная Н.Александровой и Н. Курносовой. Она позволяет судить об уровне сформированности нравственных качеств личности.

Из имеющихся диагностических методик наиболее эффективными являются методики «Магазин» «Психологическая атмосфера в коллективе», «Диагностика развития духовно-нравственных качеств обучающихся», диагностика этики поведения, диагностика отношения к жизненным ценностям. диагностика нравственной мотивации, диагностика нравственной самооценки разработанные О.В.Соловьевым. .

Эти методики позволяют видеть динамику духовно-нравственного развития личности каждого ребенка и коллектива в целом, анализировать состояние воспитательного процесса, осуществлять анализ динамики изменений в развитии отдельных качеств личности.

Необходим такой тип образования и школа, которые должны опираться, учитывать и использовать этнокультурные особенности учащихся: этнически различные структуры восприятия, этническое начало эмоций, памяти, внимания, пространственной ориентировки мышления.

## Литература


1. http://islam.ru/content/history/45206 дата обращения 07.03.2016
2. Джуринского А.Н. "Поликультурное образование в многонациональном социуме". М.: 2016, с.100
3. Любимов, Л.Л. О концепции духовно-нравственного воспитания в школе / Л.Л.Любимов // Психологическая наука и образование. - 2010. - № 2
4. Ушинский К. Д. О народности в общественном воспитании: собр. соч. в 11 т. М.: Изд-во АПН РСФСР, 1948–1951. Т. 1. 4. 4.


UOT 82

## Ədəbi əsərlərdə milli-mənəvi dəyərlərin tərənnümü

*Yusifova Elnurə Veyis qızı*
*Mingəçevir şəhər 19 №-li tam orta məktəb*

Milli mənəvi dəyərlər hər bir xalqın qiymətli sərvətidir. Ümummilli lider H.Əliyev hər zaman xalqımızın milli mənəvi dəyərlərinin qorunmasına, inkişafına, zənginləşməsinə çalışıb, çünki yüksək tolerantlıq yüksək mədəniyyətin təzahürüdür. Eyni zamanda ulu öndər gənclərimizi xalqımızın milli mənəvi dəyərlər, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi. Milli dəyərlərə, gənclərin milli ruhda tərbiyə olunmasına önəm verən və bunu əsas vəzifə kimi irəli sürən ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir. Milli dəyərlərimizi,milli adət-ənənələrimizi,tariximizi bilməyən gənc vətənpərvər ola bilməz"[1].

Bunun nəticəsidir ki,bu gün respublikamızda milli mənəvi dəyərlərə əsaslanan təhsilə üstünlük verilir. Bu işdə əsas məsuliyyət təhsil işçilərinin üzərinə düşür. Təhsil işçilərinin əsas məqsədi və məramı gənclərimizin mənəvi dəyərlər əsasında tərbiyələndirmək, mənəvi cəhətdən saf və sağlam insanlar kimi yetişdirməkdir.

Hər bir dərsin mütləq tərbiyəvi məqsədi olur. Buna ciddi yanaşmaq lazımdır. Çünki həmin məqsəd respublikamızın gələcəyinə cavabdeh olacaq gənclərin sözün əsl mənasında vətəndaş kimi formalaşmasına zəmin yaradır. Bir dil və ədəbiyyat müəllimi kimi dərslərimdə məqsədlərimdən biri tərbiyə,vətənpərvərlik yönümdə olur. Ədəbiyyat elə mədəniyyət, mənəviyyat, tərbiyə deməkdir və milli özünüdərk, milli oyanış birinci növbədə ədəbiyyatdan keçir. Bədii ədəbiyyat vasitəsilə şagirdlərdə milli hissiyatları oyatmağa çalışıram.

Tədris prosesində bədii əsərləri oxuyarkən, təhlil edərkən, mövzusunu, ideyasını müəyyənləşdirərkən şagirdlərdə artıq yaxşını pisdən, doğrunu yalandan, xeyiri şərdən fərqləndirmək qabiliyyətləri, bacarıqları formalaşır inkişaf edir. Tolerantlıq, humanistlik kimi mənəvi dəyərlərin əhəmiyyətini anlayırlar.

Hər bir janrda milli mentalitet, milli mənəvi dəyərlər ideyası daha güclüdür. Atalar sözü və məsəlləri öyrənəndə şagirdlərə paxıllıq,kin saxlamaq, ədalətsiz iş tutmaq, yaramaz əməllərə qoşulmaq, yalan söz danışmaq kimi mənfi xüsusiyyətlərdən uzaq olmağı tövsiyə edir, onlara həmişə həmrəy olmağı, bir-birinə arxa-dayaq, kömək olmağı öyrədirəm. Atalar sözləri həm də şagirdlərdə dərin düşünmək,nəticə çıxarmaq kimi müsbət keyfiyyətlər də formalaşdırır. Bayatılar vətənə, el-obaya, ata-anaya sevgi, məhəbbət hissləri aşılamağa xidmət edir. Çünki cəmiyyətdə insani borc, vətəndaş vəzifəsi, əxlaq, millilik problemləri bu gün də aktualdır [2].

Hər millətin tarixi əfsanələrdən, rəvayətlərdən, dastanlardan başlayır. "Kitabi Dədə Qorqud" dastanı Azərbaycan xalqının ən dəyərli milli irsidir. Çünki xalqımıza xas dəyərlərin tərənnümü bu dastanda öz əksini mükəmməl tapmışdır. Dastanın tədrisi şagirdlərdə məsuliyyət, vicdan, mübarizlik, əməksevərlik, dostluq, yoldaşlıq, mərdlik, ədalətlilik, böyüyə hörmət, kiçiyə qayğı, ata-anaya ehtiram, qonaqpərvərlik və səxavətlilik, namus və qeyrətlilik, vətən, el-oba təəssübkeşliyi, birlik və dəyanət formalaşdırır [4].

VIII sinifdə görkəmli şair və dövlət xadimi Vaqifin həyat və yaradıcılığını tədris edəndə onun vətənpərvər obrazı ön plana çəkilir, şagirdlərə nümunə göstərirəm. Yurdunun, vətəninin müdafiəçisi kimi çıxış edir, öz dilinə sadiqliyini qoruyub saxlayır. Vaqif yaradıcılığı şagirdlərdə vətənə, doğma dilinə hörmət və sevgi hissləri aşılayır [5].

Şagirdlərdə vətənpərvərlik hissinin formalaşmasında vətənpərvərliyin alovlu tərənnümçüsü Ə.Cavad yaradıcılığının müstəsna rolu var. Mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğumuzun mühüm atributu kimi dəyərləndirmək lazımdır. Milli kimliyimiz olan bayrağımıza həsr etdiyi"Azərbaycan bayrağına" şeirinin müəllifi, o cümlədən, himnimizin sözlərinin müəllifi Ə.Cavad yaradıcılığını tədris edərkən şagirdlərdə dövlət rəmzlərimizə məhəbbət, hörmət, qürur hissi aşılayıram.

Mir Cəlalın yaradıcılıq dünyası ilə tanışlıqdan sonra şagirdlər anlayırlar ki, onun yaradıcılığında milli folklorun, milli mənəvi dəyərlərin tərənnümü qabarıq şəkildə verilmiş, hekayələri böyük tərbiyəvi-əxlaqiəhəmiyyətə malikdir. Bu baxımdan "Bir gəncin manifesti" əsəri hər zaman öz aktuallığını qoruya bilmişdir. Burada mənliyi, mərdliyi ilə seçilən Azərbaycan qadınının mübariz, yenilməz obrazı şagirdlərdə qürur hissi yaradır. Sona ananın zərb-məsələ çevrilmiş "İtə ataram, yada satmaram"kəlamı ilə maddi səfalət içində əriyən insanın ləyaqətini nəfsinə qurban verməməsi milli varlığın tərənnümü kimi qeyd edirəm. Şagirdlər milli dəyərimiz olan "Yusif və Züleyxa"xalçasının yad əllərə keçməməsini xalqımızın mənəvi qələbəsi kimi dəyərəndirirlər və bu nümunə yalnız bizə məxsus olan hər şeyin dəyərini anlamağa kömək olur. Uşaqlarını aç qoyaraq xalçamızın başqalarının əlinə keçməsinə razı olmayan Azərbaycan qadını şagirdlərə ən gözəl örnəkdir. Bu, şagirdlərdə xeyirxahlıq, nəciblik kimi ali dəyərlərin yaranmasına kömək olur. Sinifdənxaric oxu dərslərində Mir Cəlalın "Çin qızı", "Sülh istəyənlərə", "Ərəb qızı" və b. beynəlxalq mövzuda yazılmış hekayələri vasitəsilə sülh, əmin-amanlıq kimi dəyərləri təbliğ edirəm [3].

Milli keyfiyyətlərin , milli ruhun, adət-ənənələrin yaranmasında, təlqin və təbliğində İ.Şıxlının əsərləri mühüm əhəmiyyət kəsb edir. Millilik, milli dəyərlərimizin qorunub saxlanılması, milli mədəniyyətin, milli əxlaqın gənc nəslə çatdırılması baxımdan onun əsərlərinin dəyəri və ibrət dərsləri çox güclüdür. Onun əsərlərinin tədrisi ilə Cahandar ağa, Qaçaq Kərəm, Qaçaq Süleyman, Kabı Kəsəmənli və bu qəbildən olan digər surətlərin xarakterində özünü göstərən mərdlik, dədə-baba yoluna dayaqlanmaq, qürur, namus ön plana çəkilir, qərinələrin sınağından çıxmış bu keyfiyyətləri şagirdlərdə formalaşdırmağa çalışıram.

Milli dəyərimiz olan dil mövzusu B.Vahabzadə yaradıcılığından qırmızı xətlə keçir. Dil xalqın bütün yaddaşını və tarixi təcrübəsini özündə birləşdirən bir xəzinədir. Dil insanı vətənə bağlayan amil, milli varlığın daşıyıcısı, xalqın varlığının sübutudur. Şagirdlərə dilimizə məhəbbət, hörmət hisslərini B.Vahabzadənin "Latın dili"şeirini təhlil edəndə çatdırıram, "dil yoxdursa xalq da

yoxdur" fikrini şagirdlərdə formalaşdırıram. Dilinə xor baxanların faciəsini isə şagirdlər C.Məmmədquluzadənin "Anamın kitabı"əsərində daha aydın görürlər. Şagirdlərin əsl vətəndaş kimi formalaşmasında, vətən qarşısında borcunun vacib olduğunu dərk etməsində B.Vahabzadənin "Vətəndaş"şeirinin əhəmiyyəti böyükdür [6].

Beləliklə milli varlığımızın, milli kimliyimizin ifadəsi olan çoxəsrlik mədəni mənəvi irsimizin öyənilməsi, sevdirilməsi şagirdlərimizi əsl vətəndaş kimi formalaşdırır. Onlar əxlaqi-tərbiyəvi keyfiyyətlər, əmək vərdişləri, davranış qaydaları, bədii estetik duyum, hörmət və ehtiram, xeyirxahlıq kimi dəyərlər qazanırlar. Bu bizim prioritet məqsədimizdir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyevin 15 sentyabr 2015-ci ildə Bakıdakı 148 №-li tam orta məktəbin açılışında söylədiyi nitqi. Azərbaycan müəllimi" qəzeti, № 35 19 sentyabr 2015-ci il
2. Abdulla B. Azərbaycan folkloru. Bakı: "Qərb-Şərq" nəşriyyatı, 2005, 538 səh.
3. Abdullayev C.M. Ali məktəblər üçün dərslik. Bakı: "Maarif" nəşriyyatı, 1988, 358 səh.
4. Hacıyev T. Dədə Qorqud dünyası. Bakı: "Maarif" nəşriyyatı, 2004 , 238 səh.
5. Səfərli Ə, Yusifov X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: "Maarif"nəşriyyatı, 1987, 384 səh.
6. Vahabzadə B. Seçilmiş əsərlər II cilddə. Bakı: "Öndər" nəşriyyatı, 2004, 321səh.

# SOSİAL-İQTİSADİ PROSESLƏRİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRƏ TƏSİRİ BÖLMƏSİ

UOT 330.34; 330.35

## Qloballaşma şəraitində Azərbaycanın sosial-iqtisadi inkişafının Heydər Əliyev modeli

*i.e.d., prof. Əyyubov Veysəl Seyfəl oğlu*
*Mingəçevir Dövlət Universiteti*
*i.e.n. Əyyubov Zaur Veysəl oğlu*
*Q.V.Plexanov adına Rusiya İqtisad Universiteti, Moskva ş.*

Postsovet və müstəqillik dövrünün ilk illərində Azərbaycan iqtisadiyyatı çox mürəkkəb və çətin bir yol keçmişdir. Bu dövr iqtisadi siyasət prinsiplərinin və sosial-iqtisadi inkişafın mütənasibliyinin pozulması respublikada və onun hüdudlarından kənarda baş verən məlum hadisələr nəticəsində, tarixi proseslərin gözlənilmədən dəyişməsi, iqtisadi islahatların düzgün istiqamətləndirilməməsi və nəticədə iqtisadi sistemin dəyşməsi ilə səciyyəvidir.

Xalqımızın Ümummilli lider Heydər Əliyev irsinin araşdırılması bir daha göstərir ki, Azərbaycanın 1969-2003-cü illərinin sosial-iqtisadi inkişafına üç tarixi dövr kimi yanaşmaq daha düzgün olardı – 1969-1982-ci illər Heydər Əliyevin Azərbaycanda ilk hakimiyyətdə olduğu dövr, 1982-1993-cü illər Azərbaycan hakimiyyətinin Heydər Əliyevsiz dövrü və qloballaşma şəraitində, yəni 1993-2003-cü illərdə müstəqil Azərbaycanın Heydər Əliyev hakimiyyəti dövrü.

Qloballaşma şəraitində respublikanın bütün sahələrində uzunmüddətli inkişaf strategiyasını müəyyənləşdirmiş Ümummilli lider Heydər Əliyev müasir dövrün tələblərinə uyğun olaraq yeni Azərbaycan dövlətçiliyi ideyasını yaratmış, həm də xalqımızın ən geniş, bu ideyanı həyata keçirən siyasi və intellektual qüvvələrini – səriştəli idarəçiləri və ölkəni mütərəqqi iqtisadi inkişaf orbitinə çıxarmağa qabil olan milli kadrları formalaşdırmağa nail olmuşdur.

Ümummilli lider Heydər Əliyevin birinci hakimiyyəti dövründə Azərbaycan iqtisadiyyatının inkişafı və onun səmərəliliyinin yüksəlməsi təmin olunmuşdur. Belə ki, 1970-1980-ci illərdə məcmu ictimai məhsulun və milli gəlirin həcmi ayrılıqda 2,1 dəfə, o cümlədən sənaye istehsalının həcmi 2,2 dəfə, əmək məhsuldarlığı 67,0 faiz, fond verimi isə 26,4 faiz artmışdır. 1970-ci ilə nisbətən 1982-ci ildə elektrik enerjisi istehsalı 1,4 dəfə artaraq 16,9 milyard kvt.saat təşkil etmişdir. Uyğun olaraq mineral gübrələr 2 dəfə, dərinlik nasosları 1,2 dəfə, pambıq lifi 2,3 dəfə, soyuducular 3,8 dəfə təşkil etmişdir. Bu illər ərzində Bakı Məişət Kondisionerləri, Salyan Plastmas Emalı zavodları, Sumqayıtda Kompressor zavodu, Üst trikotaj fabriki, Bakıda tikiş, ayaqqabı hissələri fabrikləri, Bulka-maya kombinatı, Gəncədə ət kombinatı, Lənkəranda, Xudatda konserv zavodları, Mingəçevirdə istilik elektrik stansiyasının ilk blokları və s. tikilib istifadəyə verilmişdir. Neft emalı və neft kimyası sənayesi, əlvan və qara metallurgiya sürətlə inkişaf etmişdir. Ümummilli lider Heydər Əliyevin birinci hakimiyyətdə olduğu dövr iqitisadiyyatımızın qızıl dövrü kimi qiymətləndirilir.

1982-ci ildə Heydər Əliyevin kecmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olunandan sonra respublikanın iqtisadi göstəricilərində və təsərrüfat fəaliyyətində tənəzzül və iqtisadi böhran sürətlə inkişaf etdi. 1982-ci ildən 1991-ci ilə kimi olan dövrdə ölkənin iqtisadi sistemində əvvəlki yüksək artım tempi və sıçrayışlı iqtisadi uğurları ətalət, durğunluqla əvəz olundu və iqtisadi potensialdan səmərəli surətdə istifadə edilmədi. Respublikanın əsas makroiqtisadi göstəricisi olan ümumi milli gəlir üzrə artım tempi 1982-ci ildən başlayaraq tədricən aşağı enməyə başladı. 1986-cı ildə ümumi milli gəlirin səviyyəsi 1985-ci ilə nisbətən 102,6 faiz olmuşdu ki, bu göstərici Azərbaycan üçün son 10 ildə ən aşağı artım tempi idi. 1989-cu ildə ümumi milli gəlirin artım tempi 1988-ci ilə nisbətən 99,8 faiz, 1990-cı ildə isə 91,9 faiz təşkil etmişdir. Qeyd etmək

lazımdır ki, Azərbaycanın bütün sosial-iqtisadi göstəriciləri aşağı düşmüşdür. Beləliklə, Azərbaycan iqtisadiyyatının Heydər Əliyevsiz dövrü tam tənəzzülə uğramışdır.

1993-cü ildə Ümummilli liderimiz Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışı dərinləşən siyasi-iqtisadi böhrana və hakimiyyət çəkişmələrinə son qoydu, quruculuq işlərinin davam etdirilməsi və qlobal işlərin görülməsinə şərait yarandı. Bunlardan ilkini və ən ümdəsi neft sahəsində təşəbbüslər, tədbirlər oldu.

Bütün çətinliklərə və bəzi super dövlətlərin təzyiqinə baxmayaraq 1994-cü ilin sentyabr ayında "Əsrin müqaviləsi" bağlanıldı. Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından müştərək istifadə edilməsi və neft hasilatının artırılmasının təmin olunması üçün beynəlxalq razılaşmalara nail olundu. Bu müqavilənin iştirakçıları beynəlxalq konsorsium təşkil etdilər və həmin konsorsium Azərbaycan Dövlət Neft Şirkəti ilə 30 il müddətinə müqavilə, yəni qeyd edildiyi kimi "Əsrin müqaviləsi"ni imzaladılar. Beləliklə, bağlanılan müqavilədən sonra Azərbaycana, onun neftinə, xüsusən Xəzər neftinə dünya miqyasında maraq artmışdır.

Qloballaşma şəraitində Ümummilli liderimizin apardığı geniş miqyaslı siyasətin prioritet istiqamətlərindən biri milli bazarın dünya bazarı ilə, milli iqtisadiyyatın dünya iqtisadiyyatı ilə intensiv inteqrasiyasının düzgün və ona uyğun təşkil edilməsi olmuşdur. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan "Qədim İpək Yolu"nun bərpasına nail oldu. Bununla da "Qədim İpək Yolu" Avropa-Qafqaz-Asiya beynəlxalq dəhlizi statusu adı aldı və AB-nin TRACECA proqramı çırçivəsində maliyyələşdirilməyə başlandı və qərargah (Daimi Katibliyi) Azərbaycanda yerləşdirildi.

Azərbaycan Respublikasının MDB dövlətləri ilə əməkdaşlıq münasibətləri gücləndi, Azərbaycanın dəstəyi və yaxından iştirakıyla GUAM təşkilatı yaradıldı. Eyni zamanda, Beynəlxalq Maliyyə qurumları ilə də (Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və sair) sıx əməkdaşlıq münasibətləri qurulmuş və bu təşkilatlar ölkə iqtisadiyyatının təşəkkül tapmasında və dünya iqtisadiyyatına inteqrasiya olunmasında yaxından iştirak etdilər.

Azərbaycanın sosial-iqtisadi göstəricilərinin təhlili bir daha göstərir ki, ölkə iqtisadiyyatının dinamik inkişafı bütün sahələrdə, istər neft, istərsə də qeyri-neft sahələrində özünü biruzə vermişdir. Ölkə iqtisadiyyatının stabil və davamlı inkişafı özünü vergi daxilolmalarında, büdcənin artması və kəsirsiz yerinə yetirilməsində, inflyasiyanın sabitləşməsi və birrəqəmliyə çevrilməsi, yoxsulluğun və işsizliyin azalmasında daha qabarıq göstərmişdir.

Müstəqillik bərpa edildikdən bir müddət sonra, yəni Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsindən sonra Respublikamızda makroiqtisadi sabitləşmə və iqtisadiyyatın davamlı və dayanaqlı inkişafı sahəsində böyük uğurlar əldə edilmişdir. Sosial-iqtisadi sferada əldə olunmuş uğurlar ölkə vətəndaşlarının yaşayış səviyyəsinin yüksəldilməsinə, məşğulluğun təmin edilməsinə və ən əsası yoxsulluğun azaldılmasına xidmət etmişdir. Beləliklə, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan iqtisadiyyatının 1970-1980-ci illər ərzində və 1993-2003-cü illərdə davamlı və dinamik inkişaf dövrünün öyrənilməsi və qloballaşma şəraitində onun təbliği məsələləri xüsusi əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev siyasətinin davamçısı ölkə prezidenti İlham Əliyevin həyata keçirdiyi davamlı, dayanıqlı və şaxələndirilmiş iqtisadi siyasəti də məhz Azərbaycan iqtisadiyyatının və onun vətəndaşlarının sosial-iqtisadi vəziyyətinin daimi yaxşılaşmasına yönəlmişdir. Bütün bunların nəticəsidir ki, 2008-2009-cu və 2014-2015-ci illərdə ölkə iqtisadiyyatının inkişafı dünya iqtisadi-maliyyə böhranı "küləyindən" məharətlə qorunmuş və enerji sektorunun inkişafı ilə əlaqədar olaraq bir çox istər inkişaf etməkdə olan, istərsədə inkişaf etmiş neft ixrac edən ölkələrə məxsus olan "Holland sindromu" kimi tanınan xəstəliyə uğramamışdır. Ümumiyyətlə, son 12 ildə Ümumi Daxili Məhsul 10 dəfə, investisiya yatırımı 7 dəfə, xarici ticarət dövriyyəsi 7,1 dəfə, büdcə gəlirləri 16 dəfə, orta aylıq əmək haqqı 6,4 dəfə artmış, yoxsulluq səviyyəsi 5,1 faizə düşmüş, ölkədə 1 milyondan çox yeni iş yeri yaradılmış, 2015-ci ildə Azərbaycan "Qlobal rəqabətqabiliyyətlik indeksi" üzrə dünyanın 150 ölkəsi arasında 38-ci yerə layiq görülmüşdür.

Azərbaycan Respublikasının müstəqillik tarixinə, iqtisadi inkişaf dinamikasına, ölkədə cərəyan edən sosial-iqtisadi və siyasi proseslərin xronologiyasına nəzər saldıqda müasir inkişaf

modelini tərəddüdsüz olaraq “HEYDƏR ƏLİYEV MODELİ” adlandırmaq olar. Ona görə ki, əldə edilən bütün uğurlarımızın başlanğıcı xalqımızın dahi oğlu, Ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi bir dövrə təsadüf edir və bütün uğurlar məhz bu unudulmaz insanın əvəzsiz zəhməti və təşəbbüsü ilə reallaşdırılan beynəlxalq müqavilələrin, sosial-iqtisadi və siyasi arenada yüksək iradə və qətiyyətlə həyata keçirilən islahatların nəticələridir. Bu gün isə inamla həyata keçirilən strategiyanın nəticəsi olaraq Azərbaycan Respublikası özünün tarazlı inkişafı, analoqu olmayan iqtisadi uğurları ilə beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilmişdir. Müasir Azərbaycan Respublikası qloballaşma şəraitində beynəlxalq aləmə sürətlə inteqrasiya edən, dinamik iqtisadi inkişafını və siyasi stabilliyini təmin etmiş müstəqil bir dövlətdir. Artıq ana vətənimiz Azərbaycan, mötəbər kürsülərdən öz sözünü deməyə, öz haqlı mövqeyini bildirməyə və qorumağa qadir olan, zəngin iqtisadi potensiala malik bir dövlət kimi tanınır. Müstəqilliyin ilk illərində məlum səbəblərdən bərbad hala düşmüş ölkə iqtisadiyyatında tərəqqiyə nail olunmasına, çox kövrək, zəif və xaotik dövlət siyasətinin güclü və aparıcı mövqeyə yüksəlməsinə, eləcə də vahid məqsədə xidmət etməsinə, qədim tarixi və çoxəsrlik zəngin mədəniyyəti olan uca millətimizin bütün dünyada tanıdılması istiqamətində yorulmaz fəaliyyətinin nəticələrinə, eləcə də ana vətənə, heç kəsə nəsib olmayan, uzunmüddətli məharətlə başçılıq etdiyinə görə hələ uzun illər öncədən qədirbilən xalqımızın qəlbində əvəzsiz dövlət xadimi qiymətini almış Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi müxtəlif dövrlərdə müəyyənləşdirdiyi və həyata keçirdiyi strategiya bütün sahələrdə əldə edilən uğurlarımızın əsasını təşkil edir.

## Ədəbiyyat


1. Əyyubov.V.S., Tağıyev A.M. Milli iqtisadiyyatın tənzimlənməsi. Mingəcevir, 2014, 350 səh.
2. Əyyubov V., Əliyev A. Azərbaycan 2009-cu ili də iqtisadi uğurlarla başa vurmuşdur. Xalq qəzeti, №24 (26374), 31 yanvar 2010
3. Əyyubov V.S. Azərbaycanın sosial-iqtisadi inkişafı və dövlətin regional siyasəti. AMEA İqtisadiyyat İnstitutu, İqtisadiyyat və Sənaye Nazirliyinin Aran Regional Bölməsi, Mingəçevir Politexnik İnstitutu “Dövlətin regional siyasətinin formalaşmasında Aran iqtisadi rayonunun rolu: reallıqlar və perspektiv inkişaf” respublika elmi-praktik konfransın materialları. Mingəçevir, 6-7.12.2013-cü il, səh. 6-9


UOT 338:37

## Respublikamızın təhsil sistemində kadr hazırlığı xərclərinin səmərəli istifadəsi

*i.e.d., prof. Məmmədov Fizuli Əziz oğlu*
*Məmmədova Xədicə Fizuli qızı*
*Azərbaycan Texnologiya Universiteti*

Azərbaycan Respublikasının ümummilli lideri cənab Heydər Əliyevin təşəbbüsü ilə ölkədə təhsil islahatlarının başlanması, 15 iyun 1999-cu il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının təhsil sistemində islahat proqramının təsdiq edilməsi təhsil tarixinə əlamətdar bir hadisə kimi daxil olmuş, “Təhsil hamı üçün-2000” proqramı hazırlanmış, həyata keçirilmiş və irəli sürülmüş ideya və prinsiplər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hər il dövlət büdcəsindən təhsilə çəkilən xərclər artır. Belə olan halda dövlət büdcəsindən təhsilə çəkilən vəsaitlərin səmərəli istifadə olunması ümumxalq əhəmiyyətə malikdir. Odur ki, kadr hazırlığı xərclərinin səmərəli istifadəsinin əsas istiqamətlərinin müəyyən edilməsi xüsusi aktuallıq kəsb edir.

Ölkədə təhsil sisteminin təkmilləşdirilməsi və təhsil müəssisələri üçün kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi və təhsilə ayrılan vəsaitlərin səmərəli istifadə olunmasının təmin olunması, bu sahədə aparılan elmi tədqiqat işlərinin nəticələrinə əsaslanmalıdır. Hesab edirik ki, təhsil sisteminin ayrı-ayrı səviyyələrinin əlahiddə deyil, vahid bir sistem halında və qarşılıqlı əlaqədə tədqiq edilməsi, öyrənilməsi və araşdırılması əsasında yeni elmi əsaslandırılmış tövsiyyələr işlənib hazırlanmalıdır.

Respublikanın təhsil sisteminin, eyni zamanda ölkənin toxuculuq sənayesi müəssisələrinin kadr təminatının öyrənilməsi, ona çəkilən xərclərin tərkibi, qururluşu, dinamikası, maliyyələşdirilməsi mənbələrinin, təhsil xərclərinin uçotu, onun səmərəlilik səviyyəsinin, təhlili və qiymətləndirilməsi əsasında kadr hazırlığı xərclərinin səmərəli istifadəsinin əsas istiqamətlərinin müəyyən edilməsindən ibarətdir.

Təhsil sisteminin səmərəliliyi texniki-texnoloji, təşkilati, ideya-tərbiyəvi, psixoloji, fizioloji, iqtisadi və sosial amillərin reallaşdırılması ilə təminn edilə bilər. Belə ki, kadr hazırlığı sisteminin bütün mərhələrində müvafiq maddi-texniki baza, informasiya-kompüter texnologiyaları, kadrların hazırlanması, seçilməsi və yerləşdirilməsi, təhsilin stimullaşdırılması habelə, şagird, tələbə, pedaqoji və elmi-pedaqoji kadrların mədəni-məişət, mənzil şəraitinin yaxşılaşdırılmasına xüsusi qiddət verilməlidir.

Qeyd edilir ki, təhsil sistemində kadr hazırlığının sistemli təhlili şəkil 1-də olan sxemə əsasən aparılır.




Şəkil 1. Təhsil sisteminin səviyyələri

Sxemdən göründüyü kimi təhsilin bir səviyyəsi özündən əvvəlki səviyyə əsasında formalaşır və sonrakı təhsil pilləsinin əsasını təşkil edir. Bütöv tam təhsil sisteminə baxılarkən onun tərkib elementlərinin qarşılıqlı təsiri nəzərə alınmaqla kadr hazırlığı konsepsiyası, istiqamətləri müəyyənləşdirilməlidir. İşdə vurğulanır ki, kadr hazırlığı konsepsiyası hazırlanarkən təhsil sisteminin bütün tərkib elementlərinin daxil edilməsilə, Təhsil Qanununda kadrlara olan tələbat təhsil planları, fənn proqramları, habelə təhsilin hər bir səviyyəsi ilin müvafiq təhsil ocaqlarında kadrların hazırlanması və yerləşdirilməsi ümumxalq – ümumdövlət əhəmiyyətli streteji məsələ kimi baxılmalı və həll edilməlidir.

Qeyd etmək lazımdır ki, təhsil müəssisələrinin idarə edilməsində yerli dövlət orqanları, müvafiq elmi-pedaqoji kollektivlər, peşə-yaradıcılıq ittifaqları, cəmiyyətlər, ictimai-siyasi qurumlar və ictimaiyyət də iştirak edir. Təhsil üzrə kadr hazırlayarkən onların peşəkarlığı, dəyişkənliyi, yarışmaq bacarığı təhsilin təkmilləşdirilməsinə yönəldilməlidir. Eyni zamanda texniki ixtisaslarla, o cümlədən toxuculuq sənayesi müəssisələri üçün kadr hazırlığı üçün şirkətlərin, firmaların və müştəri müəssisələrin maliyyə dəstəyindən yararlanmaq məqsədəuyğun olardı. Hal-hazırda texniki ixtisasların müsair vəziyyəti o qədər də ürəkaçan səviyyədə deyildir.

Aparılan tədqiqatlardan çıxan əsas nəticə və təkliflər aşağıdakılardan ibarətdir:

Ölkədə təhsil sistemi dünya birliyi ölkələrinin təhsil sisteminin ən yeni mailiyyətləri əsasında formalaşdırılmalıdır. Bununla yanaşı, təlim-tərbiyə işlərinin təşkilində milli-mənəvi dəyərlərin nəzərə alınması zəruridir.

.

**Ədəbiyyat**


1. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanunu. Azərbaycan Respublikası Prezidentinin 05 sentyabr 2009-cu il tarixli Fərmanı
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı


UOT 316.4.16

## Milli-mənəvi dəyərlər və müasirlik

*tex.f.d., dos. Əliyev Rövşən Rizvan oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Milli-mənəvi dəyərlərimiz xalqımızın simasında zaman-zaman yaşayıb və bizi başqa millətlərdən fərqləndirib. Bu gün çox diqqət yetirdiyimiz çoxmillətli Azərbaycan xalqının mənəvi dəyəri dedikdə nə başa düşülür?

Mənəvi dəyər özünün fiziki və mənəvi varlığını qoruyub saxlamaq, yaşatmaq üçün hər hansı sosial qrup və ya cəmiyyətin əksər üzvlərinin doğru və lazımlı olduğuna inanıb qəbul etdikləri ortaq dünyagörüş, məqsəd, əxlaq normaları və inanclardır.

Bu gün dövlətin hər cür resurslardan səmərəli istifadə yolları ilə formalaşdırmağa çalışdığı başlıca dəyərlər bunlardır: ədalətli olmaq, ailə birliyinə önəm vermək, vətənsevərliyi aşılamaq, qanunlara hörmət, dinə hörmət, eyni zamanda tolerantlıq, çalışqanlıq, qonaqsevərlik, yardımsevərlik.

Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Milli dəyərlər dedikdə milli ideologiya, milli tarix, milli dil, dinimiz, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə, dahi şəxsiyyətlərimiz, milli musiqimiz, muğamlarımız, fərdi yaddaşı, etnos

yaddaşını, millətin, xalqın yaddaşını ehtiva edən folklorumuz bizim milli-mənəvi dəyərlərimizdir. Bir sözlə, milli olan bütün nailiyyət və keyfiyyətlərimiz milli dəyərlər sistemi nəzərdə tutulur.

Təsadüfi deyil ki, ümummilli lideri Heydər Əliyev dinimizin milli-mənəvi dəyərlərin ən önəmli ünsürlərindən biri olduğunu önə çəkirdi və bilirdi ki, xalqlara və qəbilələrə ayrılmış cəmiyyət həm də milli-mənəvi dəyərləri ilə seçilməlidir.

"Dinimiz xalqımızın milli-mənəvi sərvətidir" sözləri onun dinə baxışını çox gözəl bir şəkildə xülasə edir. O, dinimizin ilahi əxlaqi dəyərlər sistemi olaraq mənimsənilməsinin, xüsusilə gənclərin formalaşmasında müsbət bir funksiya icra edəcəyini düşünürdü. Heydər Əliyev Azərbaycançılıq dilindən, millətindən, irqindən, sosial mənsubiyyətindən asılı olmayaraq bütün ölkə vətəndaşlarını ümumi vətən naminə həmrəyliyə dəvət edirdi. Milli-dini mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın bu torpaq üçün milli yiyəlik hissi yaşamasını isə tolerantlığın bariz təzahürü hesab edirdi. Əslində, dini və etnik tolerantlıq Azərbaycan xalqının qanında, canında, kökündə var. Milli ənənələrimizdə, mentalitetimizdə, habelə sosial, mənəvi və dini düşüncə laylalarımızı özündə yaşadan folklorumuzda başqa dinlərə, millətlərə dözümlü münasibət özünü yaşadır.

Milli dəyərlərimizə dərindən bələd olan görkəmli dövlət xadimi Heydər Əliyev xalqımıza xas olan adət-ənənələrimizi yaşatmağı, təbliğ etməyi tövsiyə edirdi. Heydər Əliyevin bu istiqamətdə müəyyənləşdirdiyi siyasət bu gün Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam və inkişaf etdirilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQIDK) ölkəmizdə yaşayan müxtəlif dini inanclara sahib olan vətəndaşlarımız arasında mövcud olan tolerantlığın gücləndirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi, vətəndaşlarımızda, xüsusən də dindarlarda dövlətə inamın və dövlətçiliyimizə dəstəyin formalaşdırılması üçün son dövrlərdəki yenilikçi fəaliyyəti ilə əhalinin razılığını qazanıb. Komitənin mərasimlərin təşkili üzrə islahatlar, yerlədə, idarə və təhsil ocaqlarında milli-mənəvi dəyərlərlə bağlı tədbirlər öz konkretliyi ilə yadda qalıb.

Mənəvi dəyərlər bu gün daha çox ictimai rəyə əsaslanan yazılmamış ünsiyyət qanunları kimi fəaliyyət göstərir. Adət-ənənə ilə əxlaq arasında qırılmaz bağlılıq var. Hər bir ənənə müəyyən əxlaqi məna daşıyır. Onlara laqeyd qalmaq insanlar arasında münasibətlərin pozulmasına, şəxsiyyətlə kollektiv və cəmiyyət arasında ziddiyyətlərin əmələ gəlməsinə səbəb olur. Çünki milli-mənəvi dəyərlər xalqın milli ruhunu, estetik ruhunu və duyumunu, sənətkarlıq qüdrətini özündə yaşadır. Hazırda bu mədəni dəyərlər zəngin mədəni irs olmaqla bərabər, eyni zamanda milli özünəməxsusluğun ifadə vasitəsinə çevrilib.

Ölkədə bərqərar olmuş adət və ənənələr mədəni tədbirlər üçün rəmzi məna kəsb edir və onlara milli məzmun gətirir. Məsələn, Novruz bayramı ərəfəsində keçirilən bir çox mədəni tədbirlərdə səmənidən, xalqımızın qədim milli geyimlərindən və s. milli-rəmzi atributlardan geniş istifadə olunur.

Xalqımızın milli-tarixi ənənələri, bayramları və mərasimləri kütləvi tədbirlər içərisində xüsusi yer tutur. Bu bayramlarda qədim mədəniyyətimiz, xalqımızın əsrlər boyu yaratdığı milli adət və ənənələr, bədii sərvətlər, tarixi hadisələr əks olunur. Amma sirr deyil ki, dövlətin incə daxili siyasətinə nüfuz edə bilməyən insanlar arasında "Qarabağ probleminin mövcudluğu şəraitində ölkədə bayramların çoxluğu"nu mövzuya çevirmək istəyənlər də var. Amma bayramların mədəni dəyərini yüksək qiymətləndirən fransız filosofu J.J.Russo deyib: "Əgər xalqı zəhmətkeş və yaradıcı etmək istəyirsinizsə, ona bayram etmək imkanı verin".

Platon bayramları dövlətin sabitliyi hesab edərək göstərirdi ki, tərbiyə işində buraxılan qüsurları bayramlar vasitəsilə düzəltmək mümkündür.

Aristotelə görə isə, insan təbiəti elədir ki, o təkcə zəhmət çəkmək deyil, həm də öyrənmək və bayram etmək istəyir. Buna onun hərtərəfli haqqı var.

Göründüyü kimi, bayram və mərasimlər insan həyatını mənalandıran başlıca amillərdəndir. Burada onlar görünür, ünsiyyət qurur, sevinc və problemlərini bölüşdürürlər. Azərbaycan şəraitində bu gün heç bir bayram milli-mədəni atributsuz keçmir.

Novruz bayramı, Ramazan bayramı, Qurban bayramı, Respublika günü, Qurtuluş günü, Konstitusiya günü və digər bayramlarımız və tarixi günlərimizlə yanaşı, cəmiyyətin hər bir inkişaf mərhələsində digər mədəniyyətlərə inteqrasiyamız genişləndikcə, həyatımıza və məişətimizə yeni

beynəlxalq bayram və tarixi günlər də daxil olur. Onların bəzilərinin kökləri qədim dövrlərə təsadüf etsə də, ölkəmizdə son zamanlardan bəri müasir bayramlar kimi qeyd olunmağa başlayıb. Hər bir tarixi mərhələdə olduğu kimi müasir dövrdə də bayramlar, tarixi hadisə və günlər böyük təntənə ilə qeyd edilir. Xalqımız qədim adət-ənənələrlə yanaşı, həyatımızda yeni formalarda təcəssüm olunan mədəni sərvətimizi bu gün də yaşadır və inkişaf etdirir. Deməli, milli-mədəni dəyərlərimizin müasirliklə vəhdəti artıq layihə, proqram yox, həyat tərzidir. Beləliklə, xalqlar arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı ustadlığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə dünya sivilizasiyasında özünəməxsus yer tutur.

Yuxarıda sözü gedən bu mənəvi dəyərlər dövrün, mövcud şəraitin və ictimai quruluşun ruhuna, tələblərinə uyğun cilalanır, yeni forma və məzmun kəsb edir. Eyni zamanda şəraitə uyğun mənəvi dəyərlər – adət və ənənələr yaranır.

Azərbaycan müasirləşən, Avropa və dünya birliyinə sürətlə inteqrasiya edən ölkədir. Təbii ki, müasir dünyada sürətlə davam edən qloballaşma prosesləri bizim də ölkədən yan keçməyib. Buna baxmayaraq, qloballaşma adı altında öz milli dəyərlərimizi unutmamalı və bu dəyərlərə sadiq olmalıyıq. Hər bir ölkə və xalq üçün onun milli dəyərləri hər şeydən üstün tutulmalı və digər xalqların dəyərləri ilə ziddiyyət təşkil etməməlidir. Bu baxımdan biz qloballaşma deyəndə Azərbaycanda beynəlxalq əməkdaşlığı, xoş münasibətləri, səmimi dostluğu nəzərdə tuturuq.

Respublikada dövlət dəstəyi və hökumətin səyi ilə şəhər və rayon mədəniyyət evləri, sarayları, klubları, muzey və kitabxanalarının, istirahət və mədəniyyət parklarının, olimpiya komplekslərinin, turizm mərkəzlərinin fəaliyyətinin məğzini təşkil edən bədii-kütləvi iş cəmiyyətin mədəni həyatını zənginləşdirir, istirahətinin mənalı və səmərəli keçməsinə yardımçı olur.

“Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanununda “Mədəniyyət sərvətləri” haqqında deyilir:

“Mənəvi və estetik ideallar, normalar və davranış qaydaları, dillər, dialektlər, ləhcələr, milli və etnik ənənələr və adətlər tarixi toponimlər, folklor, tətbiqi xalq sənətləri, mədəniyyət və incəsənət əsərləri, mədəniyyət fəaliyyətinin elmi tədqiqatının nəticələri və metodları, tarixi və mədəni əhəmiyyəti olan binalar, tikililər, əşyalar, tarix və mədəniyyət baxımından unikal ərazilər və obyektlər mədəniyyət sərvətləridir”.

2015-ci il may ayının 1-də Bakıda Dövlət Neft Fondunun yeni inzibati binasının dizaynında Təbriz, Şirvan, Gəncə, Qarabağ, Qazax, Quba, İrəvan, Bakı və Naxçıvan xalçaçılıq məktəblərinin motivləri geniş istifadə olunub. Foyedə divar boyu Ərdəbil xalçasının mərmərdən hazırlanmış nümunəsi insanı valeh edir. Bu unikal əsəri ərsəyə gətirmək üçün 10 istedadlı sənətkar 4 ay işləyib. 150 kv m. sahəni əhatə edən bu sənət əsərini yaratmaq üçün ölçüsü 1x1sm-dən böyük olmayan 250 mindən çox mozaik daşdan istifadə olunub və divardan "asılmış" bu xalçanın üzərindən aşağı nazik su təbəqəsi axır. Bu təsvir emosional qeyd kimi deyil, bizə yadigar qoyulmuş irsə dövlətin diqqət nümunəsi, eyni zamanda milli-mənəvi dəyərlərin müasir tələblər baxımından orijinal həlli kimi dəyərləndirilməsinin əks etdirilməsi kimi qəbul olunmalıdır. Eyni sözləri Gəncə şəhərində əsaslı bərpa edilmiş “İmamzadə” dini abidəsi, Şamaxıda əsaslı bərpa edilmiş "Cümə" və paytaxtın Binəqədi rayonunda inşa edilmiş "Heydər məscidi", Çövkan milli oyununu yaşatmaq məqsədi ilə hər il keçirilən respublika yarışları, Qala qəsəbəsində istifadəyə verilmiş Qala Arxeoloji Etnoqrafik Muzey Kompleksi və Əntiq Əşyalar Muzeyi, Beynəlxalq və respublika səviyyəsində təşkil olunan Muğam festivalları, Bakıda yeni istifadəyə verilmiş Xalça Muzeyi və onlarla digər sanballı obyektlər barədə də demək olar.

Ölkənin milli-mənəvi dəyərlərinin dünyada tanıdılması istiqamətində də uğurlu işlər görülür. 2015-ci il mayın 6-da YUNESKO-nun mənzil iqamətgahında YUNESKO-nun Təcili Qorunmaya Ehtiyacı Olan Qeyri-Maddi Mədəni İrs Siyahısına salınmış Azərbaycanın çövkən oyununa həsr edilən sərgi keçirildi. Sərgi ilə yanaşı fransız yazıçısı Jan-Lui Quronun “Qarabağ atları” kitabı da təqdim edildi.

Belə bir faktı isə xüsusi vurğulamaq lazımdır ki, milli-mənəvi irsimizin qorunması və inkişafında H.Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın müstəsna rolu vardır.

Müasir dövrdə ən aktual problemlərdən biri qloballaşma prosesi ilə milli adət-ənənələr arasında optimal nisbətin tapılmasıdır. Qloballaşma prosesi elm, texnika, texnologiya ilə ümumbəşəri dəyərlərlə yanaşı, milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə də düşünülmüş şəkildə, ya da qərəzsiz sirayət etməyə cəhd göstərir. Belə bir şəraitdə ilk növbədə nələri qorumaq lazım olduğunu, məhz hansı məsələlərdə məqsədyönlü surətdə ənənələri saxlamaq, hansı yöndə isə yenilikləri qəbul edib tətbiqinə nail olmaq düşünülmüş konsepsiya tələb edir. Bunu mürəkkəbləşdirən məqamlardan biri də Qarabağ probleminin sülh yolu ilə həllinə çalışan Azərbaycan dövlətinin qarşısına atılan süni əngəllər, ikili standartlar, ölkənin hər sahədə sürətli inkişafına qısqanclıqdır.

Onu da nəzərə almaq lazımdır ki, ölkəmiz iki əsrə yaxın çar Rusiyasının və Sovet İttifaqının tərkibində olduğu üçün bir çox milli və dini adət-ənənələrimizin təzyiqlər altında saxlanılıb və bu, şüurlara təsirsiz ötüşməyib. Müstəqillik əldə etdikdən sonra da dövlətimiz müxtəlif təzyiq vasitələri ilə, ikili standartlarla üzləşməli olur. Mövcud vəziyyət hər cür milli-mənəvi dəyərə sahib Azərbaycan xalqının səbirli, xarici və daxili hiylələrə uymamağı, vahid qüvvə kimi dövlətçiliyin tələbləri kontekstində birləşməyi tələb edir. Bu istiqamətdə hər bir Azərbaycan vətəndaşının üzərinə vəzifə düşür. Milli-mənəvi dəyərləri, o cümlədən ata-babalardan miras qalmış torpaqları qoruyub saxlayaq.

## Ədəbiyyat


1. "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanunu. Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2012-ci il tarixli fərmanı
2. "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası". Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2014-cü il tarixli sərəncamı
3. Abbasov N. Mədəniyyət siyasəti və milli-mənəvi dəyərlər. Bakı, 2008
4. Cəlilov M. Qloballaşma prosesi və müasir cəmiyyətin inkişaf problemləri. Bakı., ADİU, 2004


UOT 339.924

## Dünya iqtisadiyyatına inteqrasiyanın iqtisadi inkişafa təsiri

*i.f.d., dos. Hüseynova Emiliya Yəhya qızı*
*Mingəçevir Dövlət Universiteti*

1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası müstəqil xarici siyasət həyata keçirir. Bu siyasət Azərbaycan dövlətçiliyini müntəzəm şəkildə möhkəmləndirib inkişaf etdirməyə və milli mənafeləri qorumağa yönəldilmişdir. Azərbaycan öz xarici siyasətini beynəlxalq hüquq norma və prinsipləri, o cümlədən, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında qurmuşdur. Regional səviyyədə bölgədə əmin-amanlıq və sabitliyin bərqərar edilməsi, nəhəng nəqliyyat və əməkdaşlıq layihələrinin gerçəkləşdirilməsi kimi strateji məqsədlərə nail olmaq Azərbaycan xarici siyasətinin əsas prioritetlərindən biridir. Demokratik tərəqqi yolunu seçmiş Azərbaycan özünün qonşusu olan və olmayan digər dövlətlərlə müxtəlif sahələrdə həm ikitərəfli, həm də çoxtərəfli əsasda bərabər və qarşılıqlı faydalı münasibətlərin qurulub inkişaf etdirilməsi məqsədini mümkün qədər tam şəkildə həyata keçirmək əzmindədir. Bütün bu proseslər öz növbəsində ölkənin milli-mədəni irsi və mənəvi dəyərlərinin təbliği və inkişafı istiqamətində mühüm rol oynayır. Bundan irəli gələrək Azərbaycan dövləti qloballaşma şəraitində iqtisadi inteqrasiyanın genişləndirilməsi sahəsində mühüm addımlar atmaqdadır və bu pöroses davamlı, yüksək templə inkişaf etməkdədir.

Beynəlxalq mənzərəyə diqqət etdikdə aydın görünür ki, bir sıra hallarda dövlətlərin iqtisadi mənafeləri qarşılıqlı maraqları təmin etmədikdə, müxtəlif xarakterli siyasi, sosial gərginliklərlə və hətta hərbi toqquşmalarla nəticələnir. Dünya siyasətində baş verən proseslərlə yaxından tanış olduqda aydın olur ki, ən doğru yol balanslaşdırılmış siyasət və milli mənafeyi nəzərə almaqla, beynəlxalq iqtisadiyyata inteqrasiya yoludur. Bu yol ən pozitiv və perspektivli nəticələrə istiqamətlənib. Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu siyasətin həyata keçirilməsi nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, bu dövrdə makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuş, milli valyutanın sabitliyi, bank sisteminin etibarlılığı artırılmış, konservativ xarici borclanma strategiyası həyata keçirilmiş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır.

İqtisadi inteqrasiya prosesi bir-biri ilə sıx əlaqədar olan bir sıra amillərlə: təsərrüfat həyatının qloballaşdırılması; beynəlxalq əmək bölgüsünün dərinləşməsi; ümumdünya elmi-texniki inqilab və milli iqtisadiyyatın sərbəstliyinin artması ilə bağlıdır.

İnteqrasiya prosesinin stimullaşdırılmasında əsas amillərdən biri milli iqtisadiyyatın sərbəstliyinin artması və onun bazar prinsipləri ilə inkişaf etməsidir. Mahiyyət etibarı ilə iqtisadi inteqrasiya təsərrüfat fəaliyyətlərinin beynəlmiləlləşməsi prosesi olmaqla ölkələr arasında əmək bölgüsünü dərinləşdirir, istehsalın inkişafına və səmərəliyinin artmasına şərait yaradır. Əmək bölgüsünün çox yüksək səviyyədə olması Qərbi Avropada və Amerikada regional iqtisadi inteqrasiyanın geniş vüsət almasma səbəb olmuşdur. İqtisadi inteqrasiya Afrika və Latın Amerikası ölkələrində, nisbətən güclü formada islam təşkilatına daxil olan ölkələr arasında da getməkdədir.

Beynəlxalq iqtisadi inteqrasiyanın ən mükəmməl forması ümumi bazardır. Gömrük birliyinin təbii nəticəsi olaraq birliyə daxil olan ölkələr arasında istehsal amillərinin (iş qüvvəsi, kapital, sahibkarlıq) sərbəst hərəkəti təmin olunduqda, bu ölkələr arasında «ümumi bazar» yaradılmış olur. II Dünya müharibəsindən sonra yaranmış beynəlxalq inhisarlardan biri Avropa İqtisadi Birliyi və ya «Ümumi bazar»dır. «Ümumi bazar»ın yaradılması ilə ölkələr arasında qarşılıqlı ticarət, iş qüvvəsinin hərəkəti və kapitalın yerləşdirilməsi sahəsində mövcud olan maneələr aradan qaldırılır. İqtisadi inteqrasiya prosesi ilk növbədə təsərrüfat subyektlərinə (firmalara, idarələrə, təşkilatlara, müəssisələrə və s.) imkan verir ki, bütün region miqyasında iqtisadi resurslardan (maliyyə, maddi, əmək), yeni texnologiya və texnikadan istifadə etməklə, iqtisadi inteqrasiyaya daxil olan dövlətlərin bazarlarının tələbatını ödəmək üçün məhsul istehsalını həyata keçirsinlər. İkincisi isə region miqyasında ölkələrin iqtisadi inkişaf səviyyələrinin bir-birinə yaxınlaşması, yaranmış sosial problemlərin birgə həlli, əhalinin məşğuliyyəti, sosial təminatı və səhiyyənin gələcək inkişafı təmin edilsin.

Dünya iqtisadi inteqrasiya prosesində iki meyl özünü göstərir: beynəlxalq yaxınlaşma və regional yaxınlaşma.

Beynəlxalq miqyasda yaxınlaşma dünya ticarətində tətbiq edilən tarif və qeyri-tarif məhdudlaşdırmalarının vasitəsilə aradan qaldırılması yolu ilə həyata keçirilir. Regional yaxınlaşma zamanı isə regional iqtisadi birliklər yaradılmaqla, üzv ölkələrin xarici iqtisadi əlaqələri və ümumiyyətlə, iqtisadi siyasəti uyğunlaşdırılır.

Beynəlxalq inteqrasiyanın formalarından azad ticarət zonası, gömrük ittifaqı, ödəmə ittifaqı, ümumi bazar, iqtisadi və valyuta ittifaqını göstərmək olar. İqtisadi inteqrasiyanın ən sadə forması azad ticarət zonasıdır. Azad ticarət zonasında qarşılıqlı ticarətdə gömrük rüsumları və kəmiyyət məhdudiyyətləri ləğv edilir. Burada hər bir dövlət üçüncü bir ölkəyə münasibətdə müstəqil ticarət siyasəti yeridir, bu zonaya daxil olan ölkələrdən əmtəə və xidmətlər yerlərini sərbəst dəyişə bilməz.

Azərbaycan üçün inteqrasiyanın əsas faktoru siyasi deyil, iqtisadi məsələlərin həllidir. Bununla yanaşı, neft idxalından davam edən gəlirlərin azalması və iqtisadi inkişafın alternativ modellərinin axtarışı zərurəti ilə çoxtərəfli əməkdaşlığın hər hansı formasına cəhd artacaq. Azərbaycanın milli iqtisadiyyatının beynəlmiləlləşməsinin və inteqrasiyasının əsas ölçüsü Beynəlxalq Əmək Bölgüsünə əsasən müəyyən olunur. Belə ki, bu bölgü sayəsində dünya ölkələrinin dünya bazarında istehsal həcminin ümumi göstəricisi müəyyən olunur. Beynəlxalq

iqtisadi inteqrasiya dövlətlər arasında istehsal amillərinin və malların sərbəst hərəkətini nəzərdə tutur. İqtisadi inteqrasiyaya uğrayan Azərbaycan Respublikası siyasi cəhətdən müstəqil olmaqla iqtisadi cəhətdən qarşılıqlı asılı vəziyyətdə olur.

Azərbaycan Respublikası müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən, Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı (İKT), Müstəqil Dövlətlər Birliyi və çoxlu sayda digər təşkilatlara üzv olmuşdur. Azərbaycan həmçinin NATO və Avropa Birliyi kimi qurumlarla əməkdaşlığı, eləcə də anti-terror koalisiyası tərkibində fəaliyyəti durmadan inkişaf etdirir. Azərbaycan BMT-nin xüsusi qurumları qismində BMT-nin İnkişaf Proqramı (BMTİP) və BMT-nin Sənaye İnkişaf Təşkilatı (SİN) ilə xüsusi əlaqələrə malikdir. Müxtəlif layihə və proqramlar yaşayış standartlarının yüksəldilməsinə, iqtisadiyyatın struktur tənzimlənməsinin həyata keçirilməsinə xidmət edir.

Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasında İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) da xüsusi rolu vardır. Təşkilata Azərbaycan Respublikası, Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkmənistan, Qırğızıstan, İran İslam Respublikası, Türkiyə Cümhuriyyəti, Pakistan və Əfqanıstan daxildir. Respublikanın dünya iqtisadiyyatına inteqrasiyasının bir istiqaməti də 1994-cü ildən başlayaraq Xəzər hövzəsinin dünyaya açılması olmuşdur. "Əsrin müqaviləsi"nin bağlanmasından (1994) keçən dövrdə Azərbaycanın karbohidrogen yataqlarının işlənilməsi üzrə sazışlər imzalanmış və onların gerçəkləşdirilməsi istiqamətində nəhəng işlər görülmüşdür. ABŞ, Böyük Britaniya, İtaliya, Fransa, Norvec, Rusiya, Səudiyyə Ərəbistanı, Türkiyə, Yaponiya və digər ölkələrin şirkətləri ilə bağlanmış bu sazişlər respublikaya böyük həcmdə sərmayə və gəlir gətirmişdir.

Azərbaycan Respublikası 1992-ci ildən Beynəlxalq Valyuta Fondunun, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının üzvüdür. BVF-nin Bakı şəhərində nümayəndəliyi fəaliyyət göstərməkdədir. 2001-ci ilin yanvar ayının 27-sində Avropa Şurasının Parlament Assambleyasına 43-cü dövlət kimi üzv qəbul olunmuşdu. Bunu Azərbaycan iqtisadiyyatının regional iqtisadi inteqrasiyada gercəkləşmiş uğuru kimi göstərmək olar. Azərbaycanın üzv olduğu inteqrasiya birliklərindən biri də Avropa Birliyidir. Azərbaycan ilə Avropa İttifaqı arasında hərtərəfli münasibətlərin hüquqi əsasını 22 aprel 1996-cı ildə Lüksemburq şəhərində imzalanmış “Bir tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər, digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi” (TƏS) təşkil edir. Azərbaycan dövləti Qara dəniz İqtisadi Əməkdaşlığının (QİƏ) təsisçilərindən biridir[1].

Azərbaycan 1992-ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatına, 1993-cü ildə Müstəqil Dövlətlər Birliyinə, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına və GUAMa (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) üzv olmuşdur. Azərbaycanla oxşar maraqları olan Gürcüstan və Ukrayna ilə əməkdaşlıq və tərəfdaşlığın hərtərəfli intensivləşməsi ölkə üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın bu dövlətlərlə ümumi maraqlarının mövcudluğu, Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çatdırılması və Avropanı Asiya ilə birləşdirmək və eləcə də ümumi təhlükəsizliyə təminat verən birgə transregional layihələrdə iştirakı bu münasibətlərin mühümlüyünün göstəricisidir.

Azərbaycan Respublikasının müstəqilliyini tanımış ilk dövlət olan və bu günədək Azərbaycanın mövqeyini dəstəkləməkdə davam edən Türkiyə Cümhuriyyəti ilə də münasibətlər son dərəcə mühümdür. Etnik, mədəniyyət və dil baxımından bir-birilə sıx bağlı olan bu iki ölkə arasında qarşılıqlı münasibətlər strateji əməkdaşlıq səviyyəsində daha da genişlənməkdə və dərinləşməkdədir. Azərbaycan və Türkiyənin bölgədə geosiyasi və iqtisadi vəziyyətin inkişafına, transregional iqtisadi layihələrin gerçəkləşdirilməsinə münasibəti, eləcə də rəsmi Ankaranın Ermənistan-Azərbaycan münaqişəsinin həllinə yönəldilmiş səyləri, müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində atdığı addımlar da daxil olmaqla, onların mövqelərinin tam uyğunluğunu və bu iki ölkə arasında əməkdaşlığın keyfiyyət səviyyəsini nümayiş etdirir.

Mərkəzi Asiya ölkələri ilə münasibətlər də Azərbaycanın xarici əlaqələr sistemində əhəmiyyətli yer tutur. Azərbaycanın əsas iştirakçılarından biri olduğu layihələrə Mərkəzi Asiya dövlətlərinin qoşulması onların Avropa məkanına və bazarlarına çıxması üçün imkan yaradır və Azərbaycan bu işdə etibarlı körpü rolunu oynayır. Uzaq Şərqin qabaqcıl dövlətləri olan Çin və Yaponiya ilə qarşılıqlı faydalı əməkdaşlıq Azərbaycanı "İpək Yolu" layihəsinin

gerçəkləşdirilməsində daha fəal çıxış etməyə sövq edir. Çinin artan beynəlxalq nüfuzu və Avrasiyada onun mövqelərinin möhkəmlənməsi Azərbaycan-Çin münasibətlərinin intensivləşməsinə təkan vermişdir. Yaponiyanın Azərbaycandakı iqtisadi layihələrə fəal qoşulması və ikitərəfli əməkdaşlığın daha da dərinləşməsinə olan qarşılıqlı marağı Azərbaycan-Yaponiya münasibətlərinin genişlənməsi üçün əlverişli zəmin yaratmışdır.

Cənub-Şərqi və Cənubi Asiyada yeni iqtisadi və siyasi güc mərkəzlərinin təşəkkülü Azərbaycanın xarici siyasətinin bu istiqamətə marağının artmasına səbəb olmuşdur. Azərbaycanın Yaxın və Orta Şərq dövlətləri ilə münasibətləri də böyük perspektivə malikdir. Bu münasibətlər Yaxın və Orta Şərqin geosiyasi əhəmiyyəti, zəngin enerji ehtiyatları və bu bölgədə böyük sərmayə potensialının mövcudluğu əsasında qurulur. Azərbaycan bu bölgə ölkələrinin ticarət, texnoloji və maliyyə imkanlarından istifadə etməklə, Yaxın və Orta Şərq dövlətləri ilə qarşılıqlı faydalı münasibətləri genişləndirir.

Azərbaycan Respublikası Avropa Birliyi ilə münasibətləri İNOQEYT, TACİS və TRASEKA və s. proqramlar çərçivəsində inkişaf etdirir. İNOQEYT – Avropa Komissiyası tərəfindən neft və qaz tədarükünün idarə edilməsinə yardım göstərən Aİ-nin texniki yardım proqramıdır. Proqramın məqsədi regional neft və qaz boru kəmərləri sistemlərinin, infrastrukturunun bərpa edilməsi, müasirləşdirilməsi üzrə səylərə dəstək göstərilməsindən ibarətdir. TRASEKA – "Yeni İpək Yolu" adlandırılan Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi Mərkəzi Asiya, Qafqaz və Avropa arasında nəqliyyat əlaqələrini inkişaf etdirən proqramdır. TRASEKA-nın məqsədi hazırda mövcud olan yollara əlavə olaraq Avropadan Qara dəniz və Qafqaz vasitəsi ilə Mərkəzi Asiyaya ən tez və ən ucuz ikitərəfli yolun yaradılmasından ibarətdir. 1998-ci ildə TRASEKA üzrə "Əsas Çoxtərəfli Saziş" imzalanmışdır. Azərbaycan bu layihədə Aİ-nin əsas tərəfdaşıdır. 2004-cü ildə Avropa Birliyinin Şərqə doğru genişləndirilməsi ilə Azərbaycan Cənubi Qafqaz ölkəsi kimi "Genişləndirilmiş Avropa" təşəbbüsü çərçivəsində AB-nin "Yeni qonşuluq siyasəti"nə daxil edilmişdir.

Tarix və mədəniyyət sahələrində zəngin müştərək irsə malik Azərbaycanla İran arasında münasibətlər Azərbaycan xarici siyasətinin əsas istiqamətlərindən biridir. Müstəqilliyinin ilk günlərindən Azərbaycan qonşu İranla siyasi-iqtisadi və mədəni sahələrdə qarşılıqlı faydalı əlaqələrin gücləndirilməsinə çalışır. 1991-ci ildə İKT-yə üzv olduqdan sonra Azərbaycan bu təşkilatın fəal iştirakçısına çevrilmişdir. İslam Konfransı Təşkilatı Ermənistanı təcavüzkar qismində tanıyan və pisləyən ilk beynəlxalq təşkilat olmuşdur. İKT-nin bu həyati əhəmiyyətli məsələyə dair aydın və ədalətli mövqeyi həmin təşkilatla münasibətlərin yüksələn xətlə inkişafına əlverişli zəmin yaratmışdır [2].

Rusiyanın Cənubi Qafqazda güclü nüfuzunu nəzərə alan Azərbaycan özünün xarici siyasətində şimal istiqamətinə xüsusi diqqət verir. Bölgədə gərginliyin azaldılması və mehriban qonşuluq şəraitinin yaradılması naminə səylər göstərən Azərbaycan Rusiya ilə iqtisadi, siyasi-ictimai və mədəni sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsinin tərəfdarıdır.

Azərbaycanın zəngin mədəni irsinin qorunub saxlanılması və təbliği sahəsində Azərbaycan ilə BMT-nin elm, təhsil və mədəniyyət təşkilatı olan YUNESKO arasında əlaqələr ötən dövrdə çox səmərəli olmuşdur.

Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində yuxarıda sadalanan ölkələrlə, beynəlxalq qurumlarla qarşılıqlı əməkdaşlığı son nəticədə ölkədə iqtisadi inkişafın artımına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Bu proses bu gün də davam etdirilməkdədir. Çünki Azərbaycan rəhbərliyi öz düşünülmüş siyasəti ilə milli mənafeyə müvafiq strategiyaya uyğun səmərəli beynəlxalq əməkdaşlıq xəttini bərqərar edib, günü-gündən də bu mövqeyi möhkəmləndirir. Beləliklə, ölkəmiz dünya iqtisadiyyatında uğurla təmsil olunur və beynəlxalq əlaqələrdə ümummilli məqsəd və mənafeləri də hər bir addımda ön mövqedədir. Həmin əlaqələr həm də qarşı tərəfin də mənafeyinə uyğun olduğu və maraqları ödəndiyi üçün dövlətlərarası əməkdaşlığın sərhədləri daim genişlənməkdədir.

**Ədəbiyyat**

1. Azərbaycan BMT ailəsində. Bakı, 2000
2. Azərbaycan İslam Konfransı Təşkilatı sıralarında. Bakı, 2008
3. Abbasov Ç.M. Azərbaycanın dünya iqtisadiyyatının inteqrasiya yolları. Bakı: Elm, 2005
4. Ələkbərov Ə., Vəliyev M., Məmmədov S., Ramazanov M. Beynəlxalq iqtisadi təşkilatlar. Bakı: Çaşıoğlu, 2010
5. Vəliyev D. Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı, 2008

UOT 33.1

## Qloballaşma prosesində milli maraqların əhəmiyyətliliyi

*i.f.d., dos. Hüseynova Emiliya Yəhya qızı*
*Nəsibova Arifə Carı qızı*
*Mingəçevir Dövlət Universiteti*

Müasir dövrdə ən aktual problemlərdən biri milli özünütəcrid və qloballaşma kimi iki kənar hal arasında optimal nisbətin tapılmasıdır. Qloballaşma prosesi elm, texnika, texnologiya ilə ümumbəşəri dəyərlərlə yanaşı, milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə də sirayət etməyə cəhd göstərir. İstər düşünülmüş şəkildə, istərsə də qərəzsiz olaraq - fərqi yoxdur. Belə bir şəraitdə ilk növbədə nələri qorumaq lazım olduğu, məhz hansı məsələlərdə məqsədyönlü surətdə ənənəçi, konservator olmağın labüdlüyü müəyyən olunmalıdır.

Mürəkkəb və ziddiyyətli qloballaşma prosesləri onun istər ümumdünya miqyasında, istərsə də milli səviyyədə idarə olunmasını tələb edir. Bu proseslər milli dövlətlər qarşısında keyfiyyətcə yeni tələblər qoyur. Milli maraqların qorunması və milli təhlükəsizliyin təmin edilməsi problemləri milli dövlətlər, xüsusən müstəqillik yoluna yenicə qədəm qoymuş ölkələr üçün həyati əhəmiyyət kəsb edir.

Qloballaşma inkişaf səviyyəsindən asılı olmayaraq milli iqtisadi sistemləri qlobal səviyyədə fəaliyyət göstərən «oyunçuların» sərt rəqabət mübarizəsinə cəlb edir. Ona görə də milli iqtisadiyyatın qlobal mühitə itkisiz və səmərəli uyğunlaşdırılması bu gün milli dövlətlər qarşısında duran və həyati əhəmiyyət kəsb edən məsələdir. Milli iqtisadiyyatın getdikcə daha çox meqacəmiyyətin tərkib hissəsinə çevrilməsi bu funksiyanın əhəmiyyətini daha da artırır.

Zaman tələb edir ki, onlar adət etdiyimiz makro və mikroiqtisadi tənzimləmələrlə yanaşı - beynəlxalq əmtəə, xidmət, kapital və işçi qüvvəsi axınlarına müdaxilə etmək, proqnozlaşdırmaq və istiqamətləndirmək kimi çox mühüm funksiyaları da yerinə yetirsinlər. Ənənəvi dövlətlər qloballaşma şəraitində iki cəbhəyə qarşı mübarizə aparmağa məcburdurlar:

1) ölkənin daxili problemlərinə qarşı;
2) nəzarətdən çıxma təhlükəsi doğuran transmilli qüvvələrə qarşı.

Milli dövlətlər transmilli qüvvələri vergiqoyma, iqtisadiyyatın tənzimlənməsi, iqtisadi təhlükəsizliyin təmin edilməsi məsələlərini öz nəzarətinə tabe etməyə çalışırlar. Ümumiyyətlə qəbul edilir ki, qloballaşma prosesində beynəlxalq əmək bölgüsünün üstünlükləri inkişaf etmiş sənaye ölkələri üçün daha faydalıdır. Buna baxmayaraq, transformasiya prosesini keçirən ölkələr bu proseslərdə iştirak etməyə həm məcburdurlar, həm də belə iştirakda çox maraqlıdırlar. Çünki artıq bir aksioma kimi qəbul edilir ki, müasir şəraitdə hər hansı bir dövlətin dünya bazarından təcrid olunması, onun iqtisadi inkişafının son nəticədə geriləməsi ilə nəticələnə bilər. Lakin bəşər tarixinin yeni mərhələsində bir çox iqtisadi proseslərin qlobal mahiyyəti ilə onların milli dövlətlər çərçivəsində tənzimlənməsi arasında kəskin ziddiyyət özünü göstərir. Bu isə səmərəli dövlətlərüstü tənzimlənmə mexanizminin yaradılmasını tələb edir. Çünki dövlətlər hələ qloballaşma prosesinə müxtəlif dərəcələrdə qoşulmuşlar, onların özlərinin «çəkiləri» müxtəlifdir, qlobal bazarlardan əldə etdikləri faydaları isə fərqlidir. Qloballaşma prosesində maraqlar ziddiyyətlidir. Çünki xarici satış

bazarlarına, maliyyə mənbələrinə, texnoloji və idarəetmədə mövcud olan yeniliklərə çıxış imkanları bütün dövlətlərdə eyni deyildir. Ən güclü dövlətlər bunlardan daha çox, zəiflər isə az faydalanırlar.

Dünya dövlətlərinin təcrübəsi göstərir ki, milli bazarların müasir şəraitdə xarici təsirlərə həssaslığı (xüsusən böhran dövründə) sürətlə artmışdı. Qloballaşmanın dərinləşməsi inkişaf etməkdə olan və keçid iqtisadiyyatı ölkələrində iqtisadiyyatın idarə olunmasında milli dövlətlərin vəziyyətlərinin pisləşməsinə səbəb olur. Bu prosesdə zəngin və kasıb ölkələr arasında mövcud olan dərin uçurum daha da dərinləşir, inkişaf etməmiş Cənub ölkələrində yüz milyonlarla insanlar informasiya inqilabının bəhrələrindən istifadə etmək və qüdrətli Şimalın firavan həyatını kənardan seyr etmək imkanı əldə etmişlər.

İşçi qüvvəsi bazarının liberallaşdırılması sahəsində məhdudiyyətlərin saxlanılması da bu ölkələr üçün ciddi nəticələr doğurur. Əslində yalnız nadir yüksək ixtisaslı mütəxəssislər üçün bu məhdudiyyətlər aradan qaldırılmışdır ki, bu da «beyin axını» ilə nəticələnir. Nəticədə kasıb Cənubda texnoloji gerilik, ümidsizlik və məyusluq hissləri sürətlə artmış, ekstremizm və terrorizm dalğaları özünü göstərmişdir. Bir çox alimlər haqlı olaraq ABŞ-da 11 sentyabr hadisələrini bir növ bu dərin kontrastın məhsulu kimi dəyərləndirirlər. Ona görə də qloballaşmanın bəhrələrinin ölkələr arasında qeyri-bərabər bölgüsünün azaldılması və qlobal qütbləşmənin qarşısının alınması yalnız Cənubun deyil, eyni zamanda bütün dünya birliyinin həll etməli olduğu mühüm qlobal problemdir.

Milli dövlətlərin qlobal ierarxiyada mövqeyi onun dünya bazarındakı rəqabət gücü ilə müəyyən edilir. Lakin bu rəqabət mübarizəsi milli dövlətlər, xüsusən gənc ölkələr üçün qeyri-bərabərdir. Onlar qlobal iqtisadi-maliyyə mühitində inkişaf etmiş dövlətlərin nəzarəti altında olan böyük inhisarlar ilə qarşı-qarşıya qalırlar. Bu nəhəng inhisarlara transmilli şirkətlərin texnologiya sahəsində olan inhisarçılığı, dünya maliyyə bazarlarında maliyyə nəzarətini, nəqliyyat sahəsində inhisarçılığını aid etmək olar. Qlobal prosesləri tənzimləyən beynəlxalq iqtisadi və maliyyə təşkilatlarının da onların nəzarəti altında olması mühüm amil kimi nəzərdən qaçırılmamalıdır.

Tədqiqatlar göstərir ki, milli dövlətlərin qloballaşma şəraitində də milli çərçivədə proseslərə təsir etmə imkanları yüksəkdir. Dövlətin iqtisadi funksiyası əslində yalnız bir sıra məsələlərdə, məsələn, sosial və xarici iqtisadi sahələrdə zəifləyir. Müasir milli dövlətlər ən vacib olan təhsil, infrastruktur kimi məsələlərin həll edilməsində əsas rol oynamaqda davam edirlər. Onların təmin olunmasında bazar, vətəndaş cəmiyyəti və dövlət orqanlarının proporsional rolu mütənasib olmalıdır.

**Ədəbiyyat**


1. Cəlilov M. Qloballaşma prosesi və müasir cəmiyyətin inkişaf problemləri. Bakı: ADİU, 2004
2. Kərimli İ.A. Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri. Bakı: Çaşıoğlu, 2006
3. Şirinova T.Ə. Qloballaşma və milli dövlətlərin problemləri. Bakı, 2015
4. Rayner Fraytaq-Virminqhaus. Azərbaycanın xarici və təhlükəsizlik siyasəti// Azerbaijan Focus jurnalı, №1, 2009


UOT 316.32

**Multikultural cəmiyyətin formalaşması və inkişafı**

*i.f.d., dos. Qədimli Nüşabə Astan qızı*
*Mingəçevir Dövlət Universiteti*

Azərbaycanda müasir dövlət quruculuğu, multikulturalizm siyasətinin müəllifi olmuş görkəmli dövlət xadimi Heydər Əliyev tarixən ölkədə yaşamış və hazırda yaşamaqda olan xalqların sosial-mədəni potensialını yüksək qiymətləndirmişdir. Məhz ilk dəfə Ümummilli lider Heydər

Əliyev tərəfindən Azərbaycanda mövcud olan çoxmədəniyyətli cəmiyyətə siyasi və hüquqi qiymət verilmişdir. Bununla bağlı Heydər Əliyev çıxışlarının birində demişdir: “Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətəndiririk və qoruyub saxlayacağıq”.

Respublikanın çoxmilli tərkibi ölkənin müasir beynəlxalq münasibətlərə inteqrasiyasına müsbət təsir göstərir və onun dünyada tanınması baxımından əhəmiyyət kəsb edir. Bu səbəbdən qeyd etmək lazımdır ki, çoxkonfessiyalı milli sərvəti qoruyub saxlamaq hər bir Azərbaycan vətəndaşının borcudur və bu məqam dövlətin həm siyasi, həm də mədəni baxımdan mühüm üstünlüyüdür.

Dövlətin mövcudluğu müəyyən sərhədlər, iqtisadi-coğrafi amillərlə bağlı olmaqla yanaşı, eyni zamanda ənənələrə də söykənir. Azərbaycan xalqının məskunlaşdığı və yayıldığı bu ərazidə tarixən yaratdığı çoxlu dövlətləri olmuşdur. Xalqımızın tarixdə özünəməxsus imzası var, yaratdığı dövlətlər Yaxın və Orta Şərqdə çox ciddi tarixi izlər qoymuşdur. Dövlətçilik yaşadığımız tarixi dövrün reallıqları ilə tarixi keçmişimiz arasındakı əlaqələrin bərpa olunması və bunun hər bir formada insanlara çatdırılmasıdır. Dövlətçilik dedikdə, ilk növbədə, tarixdən bizə ötürülən, nəsillərə əxz etdiyimiz, qazandığımız həmin dövlət prinsiplərinin saxlanılması, qorunması yada düşür. Xalq üçün birinci onun dövlətidir. Əgər dövlət yoxdursa, bu halda hansı ideologiya və prinsipdən danışmaq olar?

Buradan aydın olur ki, tarixi dövlətçilik və mədəni ənənələrin qovuşduğu məkanlardan olan Azərbaycanda sivilizasiyalararası münasibətlərə ehtiramla yanaşılmış və eyni mövqe və siyasət müasir dövrdə daha sivil qaydalarda davamlı inkişafa nail olunması və insan hüquqlarına münasibətdə öz əksini tapmışdır.

Hazırda Azərbaycanda tolerant şəraitdə öz dillərini və mədəniyyətlərini yaşadan xalqlar sosial-iqtisadi, mədəni inkişafa töhfə verir, həmçinin ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında onların səyləri müşahidə olunan vacib məqamlardandır.

Qeyd etmək lazımdır ki, Heydər Əliyevin Azərbaycanda təməlini qoyduğu davamlı inkişaf bugünkü gündə daha da yüksəlmiş və ayrı-seçkilik edilmədən əhalinin bütün təbəqələrinin hüquqlarının qorunmasında dövlətin birmənalı dəstəyi səmərə verməkdədir. Bu müdrik siyasətin Azərbaycanda layiqli davamçısı olan Prezident İlham Əliyevin 2016-cı ili ölkədə multikulturalizm ili elan etməsi beynəlxalq aləmin diqqətini çəkir, respublikaya göstərilən maraq artır və müxtəlif mədəniyyətlərə mənsub xalqların birgə yaşayışının mümkün olduğunu açıq şəkildə bəyan edir. Burada Prezident İlham Əliyevin ölkədə insan hüquq və azadlıqlarının qorunmasına göstərdiyi yüksək münasibət, dövlətin təməl siyasi prioritetlərinin uğurla davam etdirildiyini və multikulturalzmin alternativinin olmadığını göstərmiş olur.

Multikultural dəyərlərə yüksək münasibət göstərən Azərbaycan Respublikası qısa vaxt ərzində bunun mümkün olduğunu və insan hüquqlarının müdafiəsində çoxmədəniyyətli cəmiyyət amilinin əhəmiyyətinə diqqət çəkərək dünya liderlərinin məsələyə münasibətinin vacibliyini bəyan etmişdir. Yəni, Azərbaycan hökuməti multikulturalizm siyasətinin iflasa uğramadığını, əksinə ərazisində yaşayan xalqların sülh və mehriban şəraitdə yaşamasını önə çəkərək, bunun təməlində yürüdülən stabil siyasətin əhəmiyyətini də vurğulamış olur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi “multikulturalizmin alternativi yoxdur”. Bu məsələdə alternativ axtarışında olan Avropanın yaşamaqda olduğu miqrant böhranı bir daha onu göstərdi ki, mədəni və siyasi dialoqun gücləndirilməsi zəruridir və bundan qaçmaq qlobal problemin həllinə kömək yox, əksinə daha çox mane olar.

Qeyd etmək lazımdır ki, Azərbaycan son illər sivilizasiyalararası dialoqun gücləndirilməsi, dünyada sülh və əmin-amanlığın bərqərar olunmasına təşviq edən beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilmişdir. Belə tədbirlərdən biri Prezident İlham Əliyevin böyük dəstəyi ilə hər il baş tutan Bakı Beynəlxalq Humanitar Forumudur. Forumda diqqəti çəkən bölmələrdən biri multikulturalizm siyasəti və çoxkonfessiyalı cəmiyyətlərdə davamlı inkişafa nail olunmasına həsr olunan müzakirələrlə bağlıdır. Burada Azərbaycan Respublikasının təcrübəsi ilə bağlı səslənən fikirlər ölkənin beynəlxalq aləmdə multikultural dəyərlərin yaşandığı stabil inkişaf məkanı kimi tanınmasının siyasi və mədəni əhəmiyyətini açıq şəkildə göstərməkdədir.

Azərbaycanın multikulturalizm sahəsində əldə etdiyi mühüm nailiyyətlərdən biri də Bakıda Beynəlxalq Multikulturalizm Mərkəzinin açılmasıdır. Bu Mərkəzin fəaliyyətə başlaması bir daha təsdiq etdi ki, Azərbaycan dünyada sülhsevər siyasət yürüdür, insan hüquq və azadlıqlarına yüksək səviyyədə hörmət edir. Bu səbəbdən Prezident İlham Əliyevin çıxış və müsahibələrində qeyd etdiyi kimi: "Azərbaycan çoxmillətli ölkədir. Burada müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar".

Buradan çoxmədəniyyətli cəmiyyətin inkişafına dövlətin birmənalı dəstəyi, multikulturalizm siyasətinə göstərdiyi həssas münasibətin heç də təsadüfən baş vermədiyini anlamaq çətin deyil. Yəni Azərbaycan Respublikası, tarixinin dərinliklərindən süzülüb gələn multikultural dəyərlərini mənəvi miras olaraq müasir dövrə qədər gətirib çıxara bilmiş və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti bu sülhsevər missiyanı davam etdirərək hüquqi-demokratik inkişafını daha da möhkəmlədə bilmişdir.

Müasir Azərbaycanda multikulturalizm siyasətinin uğurlu başlanğıcı görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən əsası qoyulmuş azərbaycançılıq məfkurəsinə əsaslanır və nəticə olaraq azərbaycanda müxtəlif xalqların nümayəndələri sülh və mehriban şəraitdə yaşamaqda davam edir. Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələri ölkə həqiqətləri və mədəniyyətinin inkişafında yaxından iştirak edir və bu mühüm amil respublikanın beynəlxalq münasibətlərə inteqrasiyasına dəstək verir.

Demokratik inkişaf yolunda irəliləyən Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiə olunması multikultural dəyərlərə ali münasibətdə öz əksini tapmaqdadir.

Multikulturalizm və inteqrasiya insan hüquqlarının vacib elementi kimi təkcə mədəni və ya fəlsəfi deyil, həmçinin hüquqi və siyasi baxımdan milli və beynəlxalq səviyyədə nəzəri konseptual yanaşma tələb edir. Multikulturalizm Azərbaycanda yaşam tərzi olaraq tarixi köklərə malik olsa da multikultural dəyərlərə münsibətin Azərbaycan tərəfindən təqdim edilən siyasi modeli əlbəttə ki, ölkədə həyata keçirilən stabil siyasətin mühüm amil olduğuna diqqəti çəkir. Bu isə öz növbəsində Azərbaycanın müasir beynəlxalq münasibətlərdə tutduğu mövqeyinin möhkəmlənməsinə və mövcud sahədə problemlərin birgə həlli yollarının araşdırılmasında səsinin eşidilməsinə ciddi şərait yaradır. Belə balanslaşdırılmış siyasətin yüksək səviyyədə təqdim olunması ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dərin və şəffaf siyasətin nəticəsidir.

Aparılan siyasi təhlillər onu göstərir ki, Azərbaycan Respublikası müstəqilliyinin bərpasından ötən dövr ərzində, həm də çox qısa vaxt ərzində daxili və xarici siyasətində dinamik inkişafa nail oldu. Bu inkişafın əldə olunmasında Azərbaycanın vətəndaş və insan hüquqlarının qorunmasına, həmçinin çoxmədəniyyətli cəmiyyətində sülh və təhlükəsizliyi təmin etməsi kimi amillər hazırda aktual olaraq qalır.

Beynəlxalq hüququn norma və prinsiplərindən çıxış edərək insan hüquqları sahəsində beynəlxalq sənədlərə qoşulan Azərbaycanda bu siyasətin vacib tərəflərindən biri kimi milli və dini zəmində mədəniyyətlərarası gərginliyin olmaması məhz Heydər Əliyevin müdrik siyasətinin uğurla davam etdirildiyini göstərməkdədir. Burada həmçinin BMT, ATƏT, AİB kimi nüfuzlu beynəlxalq təşkilat rəsmilərinin Azərbaycanda həyata keçirilən multikulturalizm dövlət siyasətinin inkişafını təqdir etdiklərini qeyd etmək lazımdır. Beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycan bununla dünyada sülh və əmin-amanlığın davamlı olması üçün bütün dövlətlərin mövcud sahədə aktiv siyasət yürütməsinin vacibliyini önə çəkmişdir. Burada Ermənistanın region üçün təhdidə çevrilən işğalçılıq siyasətinin insan hüquqlarına ciddi zərbə vurduğu göstərilməklə yanaşı xalqların Qafqaz adlı ümumi evində multikultural dəyərlərin inkişafına da mənfi təsiri vurğulanmışdır. Hazırda Ermənistanın monoetnik ölkə kimi mədəni inkişaf səviyyəsinin tənəzzülə uğraması fikri heç bir Avropa liderində şübhə döğurmur. Bu səbəbdən multikultural dəyərlər və insan hüquqları bir-birini tamamlayır və hər ikisinin fəaliyyətində insan amili, dialoq və hörmət prinsipi əsas məqamlardandır.

**Ədəbiyyat**

1. Qurbanlı M. Ulu öndər Heydər Əliyevin irsi milli sərvətimizdir "Səs" qəzeti № 233, 12 dekabr 2009
2. Hüseynova İ. Heydər Əliyev və Azərbaycanda demokratik dövlət quruculuğu "Dirçəliş XXI əsr" jurnalı № 133-134, 2009, s. 86-99
3. Zabelin M. Tarix yaradan şəxsiyyət "Azərbaycan" qəzeti № 129, 17 iyun 2009
4. İsmayılqızı X. http: www.ikisahil.com.index.php.analitika.item

UOT 330.341:316.4:330.35:316.4

**Ölkənin milli maraqlarının qorunmasında**
**təbii sərvətlərin səmərəli istifadə edilməsi istiqamətləri**

*i.f.d. Musayeva Cəmilə Qəzənfər qızı*
*Mingəçevir Dövlət Universiteti*

Qloballaşma zəminində milli maraqların qorunması, insanların mənəvi həyatının yaxşılaşdırılması baxımından sosial iqtisadi inkişafın davamlı təmin olunması olduqca əhəmiyyətlidir. Qlobal və milli səviyyədə milli maraqların qorunub saxlanılması dövlətin inkişafını təmin edən siyasi, sosial-iqtisadi münasibətlərin qarşılıqlı əlaqələrinin mürəkkəb sistemini təşkil edir. Ölkənin milli maraqlarının xarici təhdidlərdən qorunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 19 may tarixli 2198 nömrəli sərəncamı ilə Azərbaycan Respublikasının Təhlükəsizlik Konsepsiyası təsdiq edilmişdir. Konsepsiyaya əsasən bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin olunması məqsədilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması, həmçinin ölkənin iqtisadi potensialının genişləndirilməsi ölkənin iqtisadi sahədə milli maraqlarının qorunub saxlanılmasının əsas istiqamətlərindəndir. Eyni zamanda davamlı iqtisadi inkişafın təmin olunması məqsədilə təbii və maddi sərvətlərin qorunması, təbii sərvətlərdən əldə olunan gəlirlərin səmərəli istifadə olunması ölkənin milli maraqlarının qorunub saxlanılmasında mühüm rol oynayır.

Təbii sərvətlərdən səmərəli istifadə və onlardan əldə olunan gəlirlərin iqtisadiyyata təsirindən danışarkən, ilk növbədə bu sərvətlərin mülkiyyət hüququna aydınlıq gətirmək tələb olunur. Təbii sərvətlər üzərində mülkiyyət hüququ ayrı-ayrı dövlətlərdə müxtəlif şəkildə təsbit olunur. Azərbaycan Respublikasının Konstitusiyasında göstərilir ki, təbii ehtiyatlar, xüsusilə də ölkənin zəngin olduğu karbohidrogen ehtiyatları üzərində mülkiyyət hüququ dövlətə məxsusdur. Bu, əsasən, təbii ehtiyatlardan əldə olunan gəlirlərin fərdlərin deyil, ümumilikdə xalqın mənafeyinin yüksəldilməsinə, başqa sözlə, bütün vətəndaşlara bu sərvətdən pay çatmasını reallaşdırmaq məqsədi daşıyır. Azərbaycan Respublikası Konstitusiyasının 14-cü maddəsində əsasən, təbii ehtiyatlar hər hansı, fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən, Azərbaycan Respublikasına məxsusdur. Yəni təbii ehtiyatlar üzərində mülkiyyət hüququ dövlətə məxsusdur [1]. "Yerin təki haqqında" Azərbaycan Respublikasının 1998-ci ilin 13 fevral tarixli qanununa əsasən karbohidrogen ehtiyatlarının yerləşdiyi yerin təkinin istifadəçiləri həm yerli, həm də xarici dövlətlərin fiziki və hüquqi şəxsləri ola bilərlər. Qanunun tələbinə görə yerin təki geoloji öyrənilmə üçün 5 il, faydalı qazıntıların çıxarılması üçün 25 ilədək müddətə, ümumilikdə isə 30 il müddətə xüsusi icazə və lisenziya əsasında mülkiyyət hüququ saxlanılmaqla istifadəyə verilə bilər.

Təbii sərvətlər tükənən olduğundan, onların gətirdiyi yüksək gəlirlər də daimi deyil, buna görə də həm bu ehtiyatlardan, həm də onların gətirdiyi gəlirlərdən istifadəni zaman baxımından düzgün planlaşdırmaq və ölkənin həm cari, həm də perspektiv sosial-iqtisadi inkişafına yönəltmək

lazım gəlir. Təbii resurslardan əldə olunan gəlirlərin iqtisadi dövriyyəyə daxil olmasından yarana biləcək mənfi tendensiyaların qarşısını almaqla milli maraqların qorunmasına nail olmaq olar.

Bu baxımdan təbii sərvətlərlə zəngin ölkələrdə müxtəlif fondların yaradılması təcrübəsi geniş tətbiq olunur. Belə fondlardan biri də neft fondlarıdır. Neft fondları məqsədindən asılı olaraq iki başlıca funksiyanı - stabilləşdirmə və yığım funksiyasını yerinə yetirir. Adətən bu fondlar təbii sərvətlərin mülkiyyət hüququ dövlətə məxsus olan ölkələrdə yaradılır. Sözsüz ki yığılan vəsaitlərin istifadəsində şəffaflıq, sosial ədalət prinsiplərinin qorunması demokratik ənənələrə sahib olan ölkələrdə daha uğurlu olur. Bu cür fondların vəsaitlərinin bir hissəsi gələcək nəsillər üçün yığıma yönəldilir, digər hissəsi isə dövlətin cari proqramlarının maliyyələşdirilməsinə sərf olunur. Demokratik ölkələrdə fondun fəaliyyətinin şəffaflığı təmin edildiyi halda, qeyri-demokratik və monarxiyalı ölkələrdə (məsələn, ərəb ölkələrində) fondun fəaliyyəti haqqında informasiya verilmir.

Təyinatından asılı olaraq fondları 3 şərti qrupa ayırmaq olar:

- büdcə ehtiyat fondları;
- stabilləşdirmə fondları;
- gələcək nəsillər fondu.

Belə fondların yaradılması bazar münasibətlərinin üstünlük təşkil etdiyi ölkələrdə daha effektli olur. Çünki, iqtisadi inteqrasiya zəminində ölkələrin vəsaitlərin səmərəli istifadəsinə və idarə olunmasına imkan verir [3]. Təcrübə göstərir ki, neft resusrslarından əldə olunan gəlirlərin fonda yığılması və istifadəsi mexanizminin (prinsiplərinin) qanunvericilikdə dəqiq müəyyən edilməsi onun fəaliyyətinin səmərəliliyinin təmin edilməsinin başlıca şərtidir. Fondların yaradılması məqsədləri və istifadə istiqamətləri xeyli dərəcədə fərqlidir. Məsələn, büdcə ehtiyat fondları iqtisadi tənəzzül və durğunluq dövrlərində dövlət büdcə gəlirlərinin kəskin azaldığı halda dövlət xərclərinin maliyyələşdirilməsi məqsədi ilə yaradılır. Stabilləşdirmə fondları isə dövlət büdcəsinin gəlir və xərclərindəki artım-azalmanın tənzimlənməsi və təbii resursların hasil olunduğu ərazilərdə əlavə dövlət xərclərinin (məsələn, ekoloji tarazlığın bərpa edilməsi xərclərinin və s.) maliyyələşdirilməsi məqsədlərinə xidmət edir. Gələcək nəsillər fondu isə adından bəlli olduğu kimi təbii resurs ehtiyatları (faydalı qazıntı yataqları) tükəndikdən sonra istifadə edilməsi, təbiətin bəxş etdiyi resursların gəlirlərindən yalnız indiki deyil, həm də gələcək nəsillərin faydalanması üçün nəzərdə tutulur.

Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini təmin edən milli maraqların qorunması və neft gəlirlərinin səmərəli istifadə edilməsi məqsədilə 1999-cu il dekabrın 29-da fərman imzalandı. Həmin fərmanda ARDNF-in «neft yataqlarının xarici şirkətlər ilə birgə işlənməsindən əldə edilən gəlirlərin (mənfəət neftinin satışından və digər əməliyyatlardan) bir mənbədə toplanması və səmərəli idarə edilməsi, həmin vəsaitlərin öncül sahələrin inkişafına yönəldilməsini təmin etmək məqsədilə yaradıldığı qeyd olunur». Bu fərmandan bir il sonra 29 dekabr 2000-ci il tarixdə Fondun Əsasnaməsi təsdiq edildi. 19 iyun 2001-ci il tarixdə isə «ARDNF-in valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar» təsdiq edildi və bundan sonra ARDNF fəaliyyətə başladı.

Təbii sərvətlərdən əldə olunan gəlirlərin səmərəli istifadə edilməsi baxımından modellərin qurulması, onların tədqiqi və ekonometrik təhlillərin aparılması təcrübəsindən də geniş istifadə olunur. İqtisadi proseslərin iqtisadi-riyazi metodlarla öyrənilməsi, ekonometrik modellərin qurulması mürəkkəb iqtisadi sistemi tədqiq etməyə imkan verir. Çünki müasir dövrdə iqtisadi sistem və proseslərin mürəkkəbləşməsi və çoxsaylı iqtisadi problemlərin həlli ilə bağlı elmi əsaslandırılmış nəticələr əldə etmədən düzgün qərarın qəbul edilməsi mümkün deyil. Bu baxımdan təbii sərvətlərdən əldə olunan gəlirlərin səmərəli istifadə edilməsi məsələlərinin həllində riyazi metodlardan istifadə edilməsi daha güzgün nəticənin əldə alınmasına imkan verir. İqtisadi-riyazi və ekonometrik modelləşdirmə təbii gəlirlərin optimallaşdırılmasını və ahəngdarlığını təmin edir. Müasir dövrdə təbii resursların optimal istifadəsi məhdud resurslarla qeyri-məhdud tələbatların ödənilməsi məhz modelləşdirmənin tətbiqi yolu ilə inkişaf edə bilər. Qeyd edək ki, iqtisadi proseslərin iştirakçıları, optimal qərarların mövcud şərtləri və əlamətləri, həmçinin onların hesablanması metodları, iqtisadiyyatın siyahıya alma modelinin öyrənilməsi iqtisadi yüksəliş və statistik göstəricilərin təhlili iqtisadi-riyazi modellərinin qurulmasında mühüm yer tutur. İqtisadi

hadisə və proseslər kütləvi xarakter daşıdığından onlar arasındakı qanunauyğunluğu az sayda müşahidələrə əsaslanaraq açmaq mümkün olmur. Bu baxımdan modelləşdirmənin aparılmasında kütləvi müşahidələrdən istifadə olunması tələb olunur.

Bununla belə ekonometrik modellərin qurulmasında bir sıra problemlər də mövcuddur:

- iqtisadiyyatın neft gəlirlərindən və dünya bazarındakı qiymətlərdən asılılığı;
- bu sahədə kadr çatışmazlığı;
- statistikanın məhdudluğu, qeyri-şəffaflığı və qeyri-adekvatlığı.

Bununla belə, ölkə iqtisadiyyatının sosial-iqtisadi inkişafının nəticələrinin təhlili göstərir ki, Azərbaycan Respublikası milli maraqlarını qorumaq qüvvəsinə malikdir və bu istiqamətlərdə yüksək nailiyyətlər əldə edilmişdir. Bu baxımdan indiki şəraitdə neft gəlirlərindən səmərəli istifadənin modelləşdirilməsinin nəzəri-metodoloji əsaslarının öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Ölkənin milli maraqlarının qorunması baxımından təbii resurslardan səmərəli istifadə olunması bu istiqamətdə tədqiqatların aparılmasını aktuallaşdırır.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun 2002, 98 səh.
2. Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu, 29 iyun 2004, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu» (31 avqust 2004-cü il, № 8, maddə 602)
3. Ахмедов И. Нефтяной блеск экономики. Баку, 2006, 208 с.


UOT [002:004]:316.774

# İnformasiya texnologiyaları mədəni irsin xidmətində


*tex.f.d., dos. İsrafilova Elmira Nəriman qızı*
*Mingəçevir Dövlət Universiteti*


Müasir dünyada informasiya kommunikasiya texnologiyalarının dayanmadan təkmilləşməsi və insan fəaliyyətinin müxtəlif sahələrinə o cümlədən, qədim zamanlardan insan fəaliyyətinin mühüm tərkib hissəsi olan mədəniyyətə sürətlə nüfuz etməsi müşahidə olunur.

Mədəniyyət – insan üçün vacib olan, həyatına məna verən mədəni sərvətlər və inamlardan ibarət bir həyat tərzidir. Mədəniyyət mahnı və rəqsdə, arxitektura və ədəbiyyatda, xəyallarda və dini inamlarda, sənətkarlıq və incəsənətdə ifadə olunur.

Mədəni irsini itirən millət mənəvi dəyərlərini, keçmiş ilə əlaqələrini itirir.

Xalqın mədəni irsi mədəniyyətin mövcud olmasının əsas üsullarından biridir. Mədəni irs – cəmiyyətin mədəniyyətinin bütün maddi və mənəvi nailiyyətlərinin məcmusu, ictimai yaddaşda saxlanılan tarixi təcrübəsi, bir sözlə, tarixi məna daşıyan və qorunub saxlanması tələb olunan insanların maddi və mənəvi yaradıcılığınnın məhsuludur.

Mədəni irsə daxil olmayanlar artıq mədəniyyət hesab olunmur və son nəticədə varlığını itirir. Yaşadığı dövr ərzində insan mədəni irsə aid olanların ancaq kiçik bir hissəsini mənimsəyərək daxili aləminə köçürə bilir və bu ondan sonra gələcək nəsillərə qalaraq, bütün insanların, bütün bəşəriyyətin var-dövlətinə çevrilir. Yalnız mədəni irs qorunduğu halda bu proses davam edəcəkdir. Məhz buna görə mədəni irsin qorunması məlum dərəcədə mədəniyyətin qorunması ilə üst-üstə düşür.

Mədəni irsin qorunub saxlanması problemi daim diqqət tələb edir və zaman keçdikcə daha da mürəkkəbləşir və kəskinləşir. Mübaliğəsiz demək olar ki, istənilən xalqın mədəniyyətinin inkişaf səviyyəsi onun mədəni irsinə yanaşmasına görə qiymətləndirilə bilər. Keçmişimizi qorumaqla, gələcəyimizi təmin edə bilərik.

Artıq daha çox tədqiqatçılar mövcud mədəni irsin vacibliyini dərk edir və bunu qlobal miqyasda nəzərdən keçirirlər. Qeyd etmək lazımdır ki, toplanmış irsin qorunması məsələləri bir ölkə mövqeyindən deyil, bütün beynalxalq mədəni cəmiyyət tərəfindən həll olunmalıdır. Bir tərəfdən, hər bir fərd bərabər dərəcədə bu irsə yiyələnə bilər. Digər tərəfdən, mədəni irsin real obyektlərinə geniş auditoriyanın müraciət etməsinə imkan verən ümumi mexanizmlər hələlik mövcud deyil. Eyni zamanda mədəni dəyərlərə müraciətin təmin edilməsi problemi onilliklər ərzində cəmiyyətdə müzakirə olunur və mütəxəssislərin əksəriyyəti ümumilikdə virtual mədəni irsi təşkil edən bu cür obyektlərin elektron versiyalarının yaranması vacibliyini qəbul edirlər. Bu problem ümumdünya YUNESKO təşkilatının da nəzərindən qaçmamışdır. Belə ki, 1995-ci ildə təşkilatın 28-ci Baş konfransında "YUNESKO və hamı üçün informasiya cəmiyyəti" sənədində qeyd olunmuşdur ki, mədəniyyət sahəsində maddi və qeyri-maddi irsin tanıdılması və mədə-niyyətlərarası mübadilələr üçün multimedia texnologiyaları artıq böyük imkanlar açır.

Hazırda mədəniyyətin elektron dövrü başlanıb. Burada mədəniyyətə informasiya və telekommunikasiya texnologiyalarının səmərəli tətbiqi və inkişafını təmin edən optimal şəraitin təşkili və onun əsasında mədəni irsin qorunması, mədəniyyətin müxtəlif sahələrinin informasiyalaşdırılmasının vahid konsepsiyasının işlənməsi baş verir. Müasir informasiya cəmiyyəti mədəni irsi ərazi sisteminin bir elementi kimi götürərək, mədəniyyət sahəsində informasiya resurslarının təşkili ilə əlaqəli yeni tələblər irəli sürür.

Mədəni irs obyektlərinin qorunub saxlanması texnologiyaları yeni metodikaların, materialların və onlarla işləmək üçün yeni qaydaların hesabına daim təkmilləşirlər. Burada adi, yəni əsirlərlə mövcud olan klassik texnologiyalarla yanaşı, mədəniyyət sahəsinə kompüterlərin tətbiqi ilə inkişaf etmiş müasir texnologiyalar istifadə olunur.

Yeni texnologiyalar müxtəlif cəmiyyətlər arasında mövcud əlaqələrin başa düşülməsinə kömək edirlər. Onlar hər zaman bu məqsədlə istifadə olunacaqlar, belə ki, keçmişi haqqında daha çox bilmək insanın təbiətindədir.

Mədəni irsin qorunması və texnologiyalar arasında hər zaman maraqlı əlaqə izlənir. Hələ XIX əsrin 70-ci illərinin sonunda Tomas Edisonun ilk səsyazma maşını ixtira edildikdən dərhal sonra tətbiqini tapdı. Smitson universitetinin (ABŞ) antropoloqları ABŞ və Kanadada yaşayan müxtəlif hindu tayfalarının mahnı və rəvayətlərini yazmağa başladılar. Belə ki, yeni texnologiyada insanlar keçmişin qorunması vasitəsini və bilmələri vacib olan irsi gördülər.

Analoji olaraq, video, kino və digər texnologiyalar işləndikdə onlar, demək olar ki, əksər hallarda mədəni irsin öyrənilməsi və qorunması ilə bağlı işlərə yönəlir. Buna misal olaraq Yaxın Şərqdə aparılan vacib tədqiqatları göstərmək olar. Burada aerofotoçəkiliş və məsafədən zondlama vasitəsi ilə qədim arxeoloji abidələrin, yolların və ticarət yollarının qazılıb çıxarılması mümkün olmuşdur.

İnformasiya kommunikasiya texnologiyaları insanları və ümumdünya mədəni irsi birləşdirir. Bu hər kəsi maraqlandıran və hər kəsə aid olanlardır: tarixi hadisələrə, müxtəlif ölkələrin və dövrlərin mədəniyyətinə aid maraq – bütün bunlar əbədi dəyərlərdir. Buna görə də ümumdünya mədəni irsin qorunması və Yer kürəsinin istənilən nöqtəsindən istənilən insanın ona asanlıqla müraciət etməsi üçün rəqəmləşmiş informasiyaya sürətlə çevrilməsi tələb olunur.

Mədəni irs obyektlərinin öyrənilməsi, qorunması, təqdimatı və istifadəsi üçün informasiya kommunikasiya texnologiyalarının aşağıdakı standart üsul və vasitələri tətbiq olunur:

- verilənlər bazaları massivlərinin yaradılması;
- mədəni irs sahəsində standartlaşdırılmış informasiya-axtarış sistemlərinin yaradılması;
- standart elektron lüğət və məlumat kitabçalarının istifadəsi;
- kommunikasiya şəbəkəsinin, xüsusilə, ümumdünya İnternet şəbəkəsinin istifadəsi;
- muzey saytlarının, virtual muzeylərin və s. yaradılması;
- müxtəlif muzey, təsviri, mətni, arxiv, foto, audio, video və digər eksponatların skanerləşdirilməsi və rəqəmləşdirilməsi;
- mədəni irs obyektləri ilə bağlı metodoloji bazanın inkişaf etdirilməsi, kompüter texnologiyalarının, proqram təminatının və rəqəmləşmiş avadanlığın təkmilləşdirilməsi.

İnformasiya texnologiyalarının açdığı inkanların mədəni irsin qorunmasında səmərəli istifadə edilməsi üçün bir sıra problemlər həll olunmalıdır. Onlardan əsas üçünü qeyd etmək lazımdır: texnoloji problem (hesablama texnikası vasitələri, texnologiyalar, kommunikasiyalar); mütəxəssislərin hazırlığı problemi (tələb olunan peşəkarlığa malik mütəxəssislərin hazırlanması); təşkilati və menecment problemləri (mədəni irsin qorunmasına yönəlmiş fəaliyyəti əlaqələndirən qarşılıqlı tərəfdaşlıq sisteminin təşkili).

Hazırda bütün dünyada mədəni irsin qorunması sahəsində bəşəriyyətin informasiya fəzasına, xüsusən də İnternet şəbəkəsinə çıxış ilə informasiya texnologiyaları tətbiq olunur. Bununla əlaqədar olaraq muzeylər və digər mədəni obyektlər yeni informasiya, rəqəmləşmiş və kommunikasiya texnologiyalarını öz fəaliyyətində tətbiq edirlər ki, bu da mədəni irs obyektlərinin qorunması, axtarışı və təbliği ilə bağlı aparılan işləri asanlaşdırır.

Elektron resursların universallığı barədə YUNESKO-nun Baş konfransının 32-ci sessiyasında qəbul olunmuş "Rəqəmləşmiş irsin qorunması haqqında" Xartiyada da aşağıdakı kimi qeyd olunmuşdur: "... daim artan rəqəmləşmiş irs istənilən dildə, dünyanın istənilən yerində mövcud ola bilər və insan biliklərinin və ifadəetmə vasitələrinin istənilən sahəsinə aid ola bilər."

İnformasiya texnologiyaları vasitəsi ilə mədəni irsin qorunması layihəsinə muzeylər, kitabxanalar, arxivlər, rəsm qalereyaları daxildir. Orijinal obyektlərə ziyan vurmadan onların rəqəmləşdirilməsini mümkün edən xüsusi avadanlıq mövcuddur. Arxiv və kitabxana vahidlərinin rəqəmləşmiş surətlərinin yaradılması – mədəni irs obyektlərinin qorunması və əks etdirilməsi üsuludur, həmçinin arxivlərin, kitabların və digər eksponatların informasiya təhlükəsizliyinin təmin edilməsinin yeni dövrüdür.

Muzeylərin fəaliyyətində İnternetin rolunu xüsusi vurğulamaq lazımdır. İnternet-texnologiyalar, şübhəsiz, muzey menecmenti və marketingi baxımından üstünlükləri təmin edirlər: geniş auditoriyanın əhatə edilməsi və nəzərdə tutulmuş sərgilər haqda informasiyanın dərhal yayılması; kolleksiyalara yeni eksponatların daxil edilməsi haqda elanlar; muzeyin fəaliyyəti ilə bağlı son xəbərlər; ani əks əlaqə olmaqla muzeysevərlər arasında dialoqun aparılması və s. Bütün bunlar muzeylərin tanıdılması və gələnlərin sayının artmasını təmin edir. Bundan başqa, geniş auditoriyanın cəlb edilməsi üçün muzeylərin əksəriyyəti saytlarını yaradırlar. Burada onlar muzeyin tarixi, kolleksiyaları, virtual sərgi fəzalarını və multimedia tətbiqlərini yaradırlar.

Bir neçə il bundan əvvəl Asiya, Avropa, Şimali Afrika və Qərb yarımkürəsində yerləşən bir qrup ölkələrin birqə fəaliyyətinin nəticəsi olmuş "İpək yolu" çoxmilli layihə başlanmışdır. Böyük İpək yolu musiqi, mədəniyyət, ədəbiyyat, yeni ideyalar və milli mətbəxlərin mübadiləsini aparmağa imkan verən və həqiqətən bütün dünya üzrə insanları birləşdirən bir ticarət yolu idi. Məlumdur ki, hər zaman məhz ticarət yolları bütün dünyanı birləşdirmişlər. Bu nöqteyi-nəzərdən İnternet İpək yolunun müasir versiyasıdır.

İnternet mədəniyyətin iki istiqamətdə inkişafına imkan verir. Birinci istiqamət mədəniyyətin milli sərhədlərinin silinməsi, dil sərhədlərinin aradan qaldırılması, mədəniyyətin elm, incəsənət, təhsil və s. formaları arasında maneələrin götürülməsinə yönəlir. İkinci istiqamət isə bu prosesdə hər bir insan üçün mədəniyyətin tərkibinin passiv izlənməsi ilə deyil, mədəniyyət aləminə aktiv təsir edə bilməsi ilə şərtlənir.

İnternet kommunikasiyalar bir tərəfdən maddiləşdirilmiş mədəni dəyərlərin qorunması və ötürülməsi, digər tərəfdən isə, sosial institutların və mədəniyyət müəssisələrinin inkişafına imkan verir.

Müasir cəmiyyətə informasiya texnologiyaları vasitəsi ilə təqdim olunan imkanların qiymətləndirilməməsi mümkün deyil. Lakin, qeyd etmək lazımdır ki, bu sahənin təqdim etdiyi imkanların ehtiyatla, bəşəriyyətin mədəni irsinə ziyan vermədən istifadəsi tələb olunur.

Beləliklə, mədəni irsin qorunması və təbliğində informasiya texnologiyalarının rolu inkaredilməzdir. İnformasiya texnologiyaları üzrə mütəxəssislərin və mədəniyyət sahəsində fəaliyyət göstərən peşəkarların birgə əməyinin böyük uğurlara imza atacağı da şübhə doğurmur.

## Ədəbiyyat


1. ЮНЕСКО об информационном обществе: основные документы и материалы / Российская национальная библиотека. СПб.:, 2004, 120 с.

2. Ноль Л.Я. О роли информационных технологий в сохранении и использовании культурного наследия // Музей и современные технологии. Томск: Изд-во Том. ун-та, 2006, с. 74-81

3. Лоскутникова В.М. Информатизация музейного пространства как проявление коммуникативного характера современного общества // Музей и современные технологии. Томск: Изд-во Том. ун-та, 2006, с. 46-54


UOT 339.9:338.1; 339.9: 330.34

## Qloballaşma prosesinin milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına təsiri

*i.f.d., dos. Səmədova Ofeliya Müzəffər qızı*
*Mingəçevir Dövlət Universiteti*

Qloballaşma müasir dövrün mühüm proseslərindəndir. Bütün dövlətlərdə bu prosesə təbii və mühüm faktor kimi baxılır. Ona görə ki, bəşəriyyət dəyişən iqtisadi, sosial-mədəni və siyasi dəyişikliklərin əhatəsindədir. Dünyada yaşayan bütün xalqların, millətlərin və ölkələrin inteqrasiyası qloballaşmanın zəruri amillərimdən birinə çevrilmişdir.

Hazırki şəraitdə qloballaşma və inteqrasiyanın artdığı zamanda bu prosesdən təcrid olunmuş şəkildə inkişaf etmək mümkün deyildir.

Qloballaşma dünya üzrə bütün ictimai fəaliyyətin beynəlmilləşməsi, milli iqtisadiyyatın vahid ümumdünya sisteminə qovuşmasıdır. Qloballaşma dövlət qüvvələri tərəfindən deyil, bazarla müəyyən edilən prosesdir. Qloballaşma qiymətləri, məhsulları, səhiyyənin səviyyəsi və keyfiyyətini, gəlir səviyyəsini, bank qoyuluşlarını dünya səviyyəsində bərabərləşdirmə tendensiyasıdır.

Qloballaşma müasir dünyanın sosial həyatı, siyasət, iqtisadiyyat, mədəniyyət, elm, texnologiya və s. sahəsində yeni keyfiyyət dəyişiklikləri ilə şərtlənən mürəkkəb proseslərin differensasiya və inteqrasiyalaşmasında öz əksini tapır. Qloballaşma dünya inkişafının məntiqi nəticəsidir, müasir dövrümüzü əhatə edən bir inteqrasiya epoxasıdır. Əmtəələrin və xidmətlərin ölkə və iqtisadiyyatın bölmələri arasındakı hərəkəti: maliyyə, kapitalın ölkələr arasındakı hərəkəti, intellektual məhsulun və ideyaların tədqiqat və tədris mərkəzləri hərəkəti qloballaşdırma prosesinin inkişafına təsir etməkdədir. Qloballaşma prosesi planetar meqa cəmiyyatin, meqa mədəniyyətin formalaşmasını reallaşdırmaqdadır.

Mahiyyət etibarilə qloballaşma ölkənin mədəni sahələrin beynəlmiləşməsi prosesi olmaqla milli-mənəvi obyektlərin qorunub saxlanılmasını dərinləşdirir və mədəni irsin ötürülməsinə şərait yaradır. Dövlət sosial-iqtisadi siyasəti həyata keçirməklə mənəvi dəyərlərin istifadəsini, onların inkişafını və dünya ölkələrinə inteqrasiyasını təmin edir.

Azərbaycanın qloballaşma prosesində beynəlxalq mədəniyyət sahələrinin intiqrasiyasının gedişi prosesinin sürətlənməsində ölkənin sosial-iqtisadi inkişafının həlledici rola malik olduğu nəzərə çarpır. Qloballaşma prosesi güclü milli dövlət modelinin formalaşdırılmasını və inkişaf etdirilməsini tələb edir.

İqtisadi qloballaşma milli iqtisadi sistemlərin vahid bir iqtisadi sistem halında birləşməsi, onların qarşılıqlı asılı vəziyyətə gəlməsi və bununla da ölkələr arasındakı bütün iqtisadi münasibətlərin liberallaşmasıdır. Qloballaşmamın həqiqi mahiyyəti də elə bundan ibarətdir. Qloballaşma iqtisadi inteqrasiya ideyalarının həyata keçirilməsinin yeni və daha da

təkmilləşdirilmiş formasını müəyyənləşdirir. Qloballaşmanın əsas üstünlüklərindən biri də ondan ibarətdir ki, o, dünyəvi inteqrasiyanı hər bir xalqın milli maraqları kontekstində təşəkkül etməyə imkan verir.

Akademik Ramiz Mehdiyev qeyd edir ki, qloballaşma suveren dövlətlər arasındakı maneələri dağıdaraq cəmiyyətin daxilində sosial münasibətləri milli özünəməxsusluqla xüsusi dünyagörüşü çərçivələrinə salaraq sərt şəkildə məhdudlaşdırır. O, əvvəla, milli mədəniyyət və ənənələrin öncüllüyünü dağıdır, özünəməxsusluqdan uzaqlaşmanı gücləndirir, habelə milli mentalitetindən asılı olmayaraq cəmiyyəti qərbləşdirir [3].

Son dövrlər dünya iqtisadiyyatında qloballaşma prosesi daha da sürətlənmişdir. Bu əsasda dünya ölkələrinin sərbəst şəkildə dünya bazarına inteqrasiya olunması və bunun üçün lazım olan şərtlərin daha da əlverişli edilməsidir. Cəmiyyət özünün salamat qalması, planetin qorunub saxlanılması məqsədilə iqtisadi, siyasi, milli-etnik problemlərin birlikdə həll edilməsinin zəruriliyini artıq dərindən dərk edir.

Azərbaycan Respublikası da dünya birliyinin üzvü kimi bu inteqrasiya proseslərindən ayrı ola bilməz. Kənar təsirlər qarşısında milli-mədəni dəyərlərimizin qorunması probleminə ciddi fikir verilməlidir. Ona görə də bu dəyərləri aşınmalardan qorumalı, milli mədəniyyətimizi millətin qloballaşmanın mənfi təzahürlərindən müdafiə vasitəsinə çevirmək lazımdır.

## Ədəbiyyat


1. Mahmudovun M., Şabanov Z., Ələkbərov F. İdarəetmə nəzəriyyəsi. Bakı, 2013, 317 səh.
2. Rüstəmov Y.İ. Fəlsəfənin əsasları. Bakı, 2007, 230 səh.
3. Şükürov A.M. Qloballaşmış cəmiyyətlər: dünən, bu gün və sabah. Bakı, 2006, 499 səh.
4. Папарин А.С. Искушение глобализмом. Москва, 2000, 254 səh.
5. Уткин А.Н. Глобализация: процесс и осмысление. Москва, 2001, 272 səh.
6. Sivil İnkişaf Mərkəzi. Qloballaşmaya doğru (məqalələr toplusu). Bakı, 2006, 299 səh.


UOT 339.924

## Qloballaşma şəraitində inteqrasiya meylləri


*i.f.d., dos. Səmədova Ofeliya Müzəffər qızı*
*Xəlilov Xəlil Ramiz oğlu*
*Mingəçevir Dövlət Universiteti*


Müasir dünya siyasətində bir çox inkişaf prosesləri və meylləri müşahidə olunur. Buna baxmayaraq, onlar arasında bir üçlüyü – qloballaşma, inteqrasiya, demokratikləşməni xüsusi olaraq ayırırlar. Bu proseslər qeyri-bərabər və müxtəlif xətlərlə inkişaf edir, onların bir-birinə qarışmaları yeni halların yaranmasına səbəb olur. Belə ki, qloballaşma müxtəlif ərazilərə və regionlara müxtəlif cür sirayət edir.

Müasir dövrdə ən aktual problemlərdən biri milli özünütəcrid və qloballaşma kimi iki kənar hal arasında optimal nisbətin tapılmasıdır. Qloballaşma prosesi elm, texnika, texnologiya ilə ümumbəşəri dəyərlərlə yanaşı, milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə də sirayət etməyə cəhd göstərir. İstər düşünülmüş şəkildə, istərsə də qərəzsiz olaraq - fərqi yoxdur. Belə bir şəraitdə ilk növbədə nələri qorumaq lazım olduğu, məhz hansı məsələlərdə məqsədyönlü surətdə ənənəçi, konservator olmağın labüdlüyü müəyyən olunmalıdır.

Qloballaşma şəraitində inteqrasiya meylləri bütün xalqları və dövlətləri yaxınlaşdırır. Bununla yanaşı, ictimai həyatda baş verən proseslərin intensivliyinin artması, hər bir xalqın özünüdərk və özünütəsdiq istiqamətində atdığı addımların sürətlənməsi ənənəvi dəyərlərin yenidən nəzərdən keçirilməsini tələb edir.

Qloballaşma dünyanın müasir inkişafında son illər bəlkə də ən çox müzakirə olunan və eyni

zamanda dəqiq, konkret müəyyən edilməyən proseslərdən biridir. Qloballaşma prosesi çoxölçülü və çoxaspektlidir. Bu gün qloballaşmanın daha çox maliyyə-iqtisadi, sosial-siyasi, hərbi və informasiya aspektlərindən bəhs edirlər. Lakin qloballaşma həm fərdin, həm də bütövlükdə cəmiyyətin həyat fəaliyyətinə həm müsbət, həm də mənfi təsir göstərir, yəni qloballaşma ikili və ziddiyyətli prosesdir. Qloballaşma obyektiv-subyektiv prosesdir. Bu prosesdə həm ehtiyatlar axını, həm də subyektlər – bu prosesi şüurlu surətdə lazımi istiqamətə yönəldən fəal qüvvələr iştirak edir. Qloballaşma milli özünüdərkin artmasına da böyük təsir göstərir. Bu, əsasən yeni müstəqil dövlətlərin meydana çıxmasında özünü büruzə verir.

Dünya təsərrüfatı sisteminin liberallaşması, investisiyaların qarşılıqlı qorunması, vergi sistemlərinin universallaşdırılması, iqtisadi və siyasi modellərin oxşarlığı elə həddə çatıb ki, milli və etnik sərhədlər az qala tamamilə aradan qalxmaq üzrədir. Biz hazırda mövcud olan Avropa Birliyi modeli fonunda bunun əyani şahidi oluruq. Yaxud Avropa Şurasına üzv dövlətlərin həyata keçirdiyi siyasi və hüquqi islahatların oxşarlığı onları qlobal məkanın subyektlərinə çevirir. Eləcə də Boloniya prosesinə qoşulan dövlətlər vahid təhsil sisteminə keçməklə oxşar standartları tətbiq edirlər və beləliklə, diplomların qarşılıqlı tanınması problemi də həllini tapır. Yəni qloballaşma prosesi iqtisadi-ticari planda, genişmiqyaslı əməkdaşlıq anlamında daha çox mütərəqqi cəhətləri ilə diqqəti çəkir.

Ümumiyyətlə, bu gün iqtisadi qloballaşmaya bütün dünyada pozitiv yanaşma mövcuddur. Lakin bu proseslərdə ölkələrin inkişaf potensialının da nəzərə alınması vacibdir. Məsələn, son vaxtlar Yunanıstan iqtisadiyyatında yaranmış ciddi tənəzzül və büdcə kəsiri Avropa Birliyinin vahid maliyyə sisteminə ciddi zərbə vurub. Bu geosiyasi arealda vahid valyuta olan avronun məzənnəsi dollara nisbətən kəskin şəkildə aşağı düşüb. Proses onu göstərir ki, dünya iqtisadiyyatının təmərküzləşməsi prosesində ayrı-ayrı dövlətlərin daxili imkanları da nəzərə alınmalıdır.

Bu gün müstəqil Azərbaycanın qlobal və siyasi-iqtisadi proseslərdə oynadığı həlledici rol dünyanın aparıcı siyasi və iqtisadi mərkəzlərində heyrətlə qarşılanır. Respublikamız liberal iqtisadi siyasət yeritməsinə, beynəlxalq təsərrüfat sisteminə sıx inteqrasiya olunmasına, investisiyalar üçün açıq ölkə kimi tanınmasına baxmayaraq, qlobal böhrandan ən az itki ilə çıxan dövlətlərdəndir. Bunu müxtəlif beynəlxalq maliyyə institutları, o cümlədən Beynəlxalq Valyuta Fondu da açıq etiraf edir. Bu mənada respublikamızın özünəməxsus iqtisadi inkişaf modeli də ciddiliklə öyrənilir.

İqtisadi modernləşmə və demokratikləşmə hər bir ölkənin milli inkişaf səviyyəsi ilə bağlı məsələ olduğundan bu iki təmayülü zorla hansısa dövlətdə sınaqdan çıxarmaq mümkün deyil. Daha dəqiqi, kənardan ixrac edilən demokratiya modelləri transformasiyalı cəmiyyətlərdə şəraitə uyğunlaşmağa heç də həmişə hazır olmur. Müasir dünyada demokratikləşmə prosesinin müəyyən universal tələbləri və meyarları olsa da, hər bir ölkənin özünəməxsus milli mentaliteti, tarixi, sosial-iqtisadi, siyasi və mədəni inkişaf xüsusiyyətləri, qeyri-bərabər başlanğıc imkanları nəzərə alınmalıdır. Bu gün Avropa dövlətlərində də eyni demokratiya modelinin mövcudluğundan danışmaq mümkün deyildir.

Qlobal inteqrasiya, dünyada mövcud olan problemlər ənənəvi birgə yaşayış prinsiplərini və qaydalarını formalaşdıran universal fəlsəfi kateqoriyaların bir daha nəzərdən keçirilməsini tələb edir. Bu isə bəşəriyyətin artıq yeni bir eraya qədəm qoyduğunu, bu eranın qarşıdakı bir neçə onillikdə bizim inkişaf strategiyamızı müəyyən edəcəyini göstərir.

İqtisadi inkişafa nail olmaq yolu ilə mədəni dəyərlərin uzlaşmasına və harmoniyasına nail olmaq vacib şərtdir. Faktlar onu göstərir ki, iqtisadi qloballaşma prosesi mədəni və yaxud siyasi qloballaşmadan daha sürətlə gedir. Real görünən odur ki, qloballaşma dünyanı vahid bir iqtisadi məkan kimi nəzərdə tutur, amma onun mahiyyəti yalnız iqtisadi bütövləşmə ilə məhdudlaşmır. Qloballaşma həm də hərbi-siyasi, sosial-mədəni, elmi-texniki bütövləşməni şərtləndirən tarixi bir amilə çevrilmişdir. Ona görə də belə hesab etmək olar ki, qloballaşmanın növbəti mərhələsində siyasi qloballaşma ön plana çıxacaqdır. Həm iqtisadi, həm də siyasi qloballaşma isə mənəvi-mədəni dəyərlərin də ciddi təsirə məruz qalmasına səbəb olacaq.

Qloballaşma həm də genişlənən beynəlxalq ticarət, sərhədləri aşan maddi qaynaq transferləri, artan xarici investisiyalar, böyüyən transmilli şirkətlər və ortaq təşəbbüslər mənasına gəlməkdədir. Qloballaşma prosesi həm də şirkətlərə hansı ölkəyə mənsub olmasından asılı olmayaraq böyük

bazar və investisiya imkanları verir. Bütün bunlar da qlobal bazarda fəaliyyət göstərən şirkətlərin aid olduqları ölkəyə müsbət təsir göstərir. Bu mənada Azərbaycanın qlobal iqtisadiyyata qoşulması olduqca vacibdir. Qloballaşmanın zamanın diqtəsi olması ilə bərabər, onun bir seçim olub-olmaması isə dövlətlərin və ya millətlərin bu proses içində hansı yeri tutmaq istəyi və gücündən çox asılıdır. Güclülərin yaratdığı müxtəlif yönlü (mədəni, iqtisadi, siyasi və s.) hərəkatların əsiri olmaq, ya da dövlətlərin və millətlərin özlərinin uzun müddətli inkişaf (hərtərəfli) xəttini seçərək bunu həyata keçirmək kimi iki seçim var. Əslində qloballaşmanın yaratdığı imkan və fürsətlərdən millətin və dövlətin uzun müddətli inkişaf strategiyalarına uyğun olaraq istifadə etmək lazımdır. Burada da nümunə götürmək mümkündür. İnkişaf etmiş güclü dövlətlərin yaratdıqları siyasətlərdən çox onların inkişaf etmələrinə kömək edən siyasətin nədən ibarət olduğunu, ölkələrin inkişaf xətlərini, zamanı, məkanı, ölkənin vəziyyətini nəzərə alaraq təhlil etmək və inkişaf prosesində həyata keçirmək daha məqsədəuyğun olar.

Qloballaşma sadəcə xarici, obyektiv fenomen, təslim olunması, ya da laqeyd qalınması mümkün olan bir durum deyil. Qloballaşma tərəf və ya müxalif olunması lazım olan bir məhfum olaraq başa düşülməməlidir. Qloballaşmanın dəyərlər sistemi dedikdə, ilk öncə liberal iqtisadiyyat, liberal insan haqları, bilik, yeni texnologiyalar vurğulanır. Bu dəyərlər sistemi həm də hər bir ölkəyə yeni dünya nizamında öz yerini tapmaq üçün gərəkli olan yeni oyun qaydalarını diqtə edir. Bu oyun qaydalarını hər millət, hər ölkə özü tətbiq etməlidir.

Qloballaşma Azərbaycan kimi kiçik ölkələr üçün böyük şanslar tanıyan unikal bir imkandır. Bu gün Azərbaycan dünyaya açılmaq, özünü və mədəniyyətini dünyaya tanıtmaq baxımından böyük sanslar yaşamaqdadır.

Daxili problemlərin uğurla həlli Azərbaycanın qloballaşma proseslərinə qatılmasının şərtidir. Öz potensialını funksional etmək üçün Azərbaycan innovasiya inkişafına üstünlük verməlidir. Sosial yönümlü iqtisadiyyatın qurulması, mədəniyyətin simvol və kodlarında humanist prioritetlərin təsdiqlənməsi və institutionallaşdırılması Azərbaycanın daxili inkişaf problemlərinin həllində xalqın fəallığının təmin edilməsi şərtidir.

### Ədəbiyyat

1. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı, 2004, 264 səh.
2. Cəlilov M. Qloballaşma prosesi və müasir cəmiyyətin inkişaf problemləri. Bakı, ADİU, 2004, 438 səh.
3. Stiqliz J. Qloballaşma və onun doğurduğu narazılıqlar(tərcümə). Bakı, 2004, 289 səh.
4. Şükürov A. Fəlsəfə və qloballaşma. Bakı, 2002, 317 səh.
5. Şükürov A. Qloballaşmış cəmiyyətlər: dünən, bu gün və sabah. Bakı, 2006, 192 səh.

UOT 378

## Qloballaşma şəraitində ali təhsil müəssisələrinin missiyası

*i.f.d., dos. İsgəndərov Fərman Alisgəndər oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Qloballaşan beynəlxalq inkişafın tərkibində öz mövqeyini qoruyub saxlamaq istəyi olan dövlətdə iqtisadi və sosial inkişafın müasirləşdirilməsi zəruriyyəti yaranır. Azərbaycan Respublikasının iqtisadiyyatı özünün spesifik xüsusiyyətlərinə uyğun olaraq müəyyən tarixi nailiyyətlər qazanmış olsa da, SSRİ adlanan dövlətin tərkibindən ayrıldıqda və müstəqilliyinə nail olduğu dövrlərdə dövlət büdcəsi demək olar ki, tamamilə boş olmuşdur.

1994-cü ilin ortalarından ulu öndər H.Əliyevin yeritdiyi uğurlu iqtisadi və sosial siyasət, Azərbaycanın coğrafi mövqeyi, malik olduğu təbii sərvətlər nəticəsində dövlətimiz yüksək səviyyəli iqtisadi, siyasi, hərbi, sosial nailiyyətlər qazanmışdır və bu proses bu gün də davam edir.

İqtisadiyyatın inkişafı respublikamızda təhsil sahəsinin inkişafı ilə bağlı müəyyən islahatların aparılmasına şərait yaratmışdır. Bu qəbildən özəl ali təhsil müəssisələrinin yaradılması, mövcud olan dövlət ali təhsil müəsisələrinin müasir dövr üçün yararlı olan istiqamətdə yenidən qurulması və s. kimi işləri misal olaraq göstərə bilərik. Eyni zamanda dövlətin ümumiyyətlə təhsil sisteminə göstərdiyi qayğı, yeni müasir dövrün tələblərinə cavab verən orta məktəblərin tikintisi, təmir edilməsi, məktəbəqədər uşaq müəssisələrinin inkişafı və s. diqqəti cəlb edən sahələrdir və yüksək qiymətləndirilir.

Nəzərə alsaq ki, qloballaşma beynəlxalq siyasətdir, onda respublikamızda, ümumiyyətlə təhsil sistemində, xüsusilə ali təhsil sistemində həyata keçiriləsi işlərimiz mövcuddur.

Ali təhsil müəssisələrimizdə təhsilin keyfiyyəti beynəlxalq tələblərdən geri qaldığına görə universitetləri bitirən müəyyən qədər mütəxəssislərimizin beynəlxalq arenada işləmək bacarığı aşağı olur.

Qloballaşan beynəlxalq inkişaf şəraitində elmi-texniki tərəqqinin yüksək sürəti işçi qüvvəsi, işçilərin ümumi mədəniyyəti və ixtisas hazırlığı səviyyəsi qarşısında getdikcə daha yüksək tələblər qoyur, onların hazırlığını daha tez-tez artırmaq, bəzən isə ixtisasını dəyişmək tələbatı doğurur. Buradan Ali təhsil müəssisələrimizdə təhsil sistemini ciddi olaraq keyfiyyətcə yaxşılaşdırmaq zərurəti irəli gəlir. Elmi-texniki tərəqqinin sürətli inkişafının tələbləri əsasında ali təhsil sisteminin daha da inkişaf etdirilməsi üzrə bir sıra tədbirlərin həyata keçirilməsi zəruridir.

Ali təhsil müəssisələri istehsalın, elmin və mədəniyyətin tələbatını həssaslıqla və vaxtında nəzərə almalı, yüksək peşə hazırlığını, ideya siyasi yetkinliyi, təşkilatçılıq və idarəetmə fəaliyyəti vərdişlərini, informasiya texnologiyalarının tətbiqini özündə birləşdirən mütəxəssislərə beynəlxalq tələbatın tələblərini ödəməlidir.

Inkişaf etməkdə olan mükəmməl texnika və texnologiyaların tətbiqinin innovativ fəaliyyətin sürətlənməsi tələblərinə uyğun olaraq ali təhsilin keyfiyyətinin yüksəldilməsi, kadrların hazırlanmasının təkmilləşdirilməsi, kadr hazırlığı və ixtisasının artırılması üçün xərclərin qanuna uyğun olaraq artırılması qloballaşma prosesində xüsusi əhəmiyyət kəsb edir. Təhsil üçün xərclər birbaşa sosial məsələ olmaqla bərabər iqtisadiyyatda fəaliyyətin səmərəliliyinə dolayı yolla təsir edən mühüm amillərdən hesab edilir.

Respublikamızın ali təhsil sisteminin qloballaşmanın tələblərinə uyğunlaşmasının mühüm istiqamətlərindən biri onun maddi-texniki bazasının dövrün tələblərinə əsaslanaraq qurulmasıdır. Artıq ali təhsil sisteminin tədris-elm-müəssisə birliyi istiqamətində qurulmasının vaxtı çatmışdır. Yalnız bu yolla ali məktəbləri yüksək məhsuldar yeni texnika, laboratoriya avadanlıqları və digər vasitələrlə təchiz etmək olar. Bu istiqamətin formalaşması həm də müəssisələrin maddi-texniki bazasından tədris prosesində istifadəyə və elmi yeniliklərin tətbiqinə şərait yarada bilər.

Belə üç istiqamətli tədris-elm-istehsal birliyinin yaradılması həm də öyrədənlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına səbəb ola bilər ki, bu da kadr hazırlığında maraqlandırma prinsiplərindən biridir.

Beynəlmiləl kadr hazırlığının müasir istiqaməti uyğun ixtisaslara malik ali təhsil müəssisələri arasında kadr hazırlığı və elmi araşdırmalarda birgə fəaliyyətin yaradılmasıdır. Belə fəaliyyət istiqaməti həm də kadrların ixtisaslarının artırılması üçün şərait yarada bilər.

**Ədəbiyyat**

1. Əhmədov H. Qloballaşma, modernləşdirmə: yeni insan və təhsil problemləri. Təhsil problemləri, 2013. 24-31 avqust, № 63/64

2. Əliyev M. Gələcəyə hesablanmış təhsil siyasəti // Dövlət idarəçiliyi: Nəzəriyyə və təcrübə, 2013, № 1

3. Тумаренко Л.Г. Миссия Университетского оброзования в условиях глобализации общества. Белорусский государственный университет. Центр проблем развития образования. Минск: Пропилеи, 2002

UOT 338:658

## Qeyri-neft sektorunun inkişafı struktur formalaşdırıcı amil kimi

*i.f.d., dos. Qarayev Maarif Şərif oğlu*
*Mingəçevir Dövlət Universiteti*
*Qarayeva Şəhla Nadir qızı*
*Azərbaycan Texnologiya Universiteti*

Müstəqilliyə qədəm qoyduğumuz ilk günlərdən ölkəmizdə milli-mənəvi dəyərlərin qorunmasına böyük diqqət yetirilir. Bu məsələni ulu öndərimiz H.Əliyev prioritet istiqamətlərdən biri kimi müəyyən etmiş və möhtərəm prezidentimiz İlham Əliyev tərəfindən bu istiqamət daim inkişaf etdirilir. Ölkəmizdə bu sahədə coxlu işlər görülmüşdür və görülməkdə davam edir. Təbii ki, başqa sahələr kimi bu sahənin inkişaf səviyyəsi müəyyən dərəcədə ölkə iqtisadiyyatının inkişaf səviyyəsindən asılıdır. Son dövrlərdə dünyada baş verən qlobal proseslər iqtisadiyyatımızın inkişafına təsirsiz də ötməmişdir. XXI əsrdə dünya vahid bazara çevrildiyindən və ölkəmiz də bu bazarın subyektlərindən olduğundan, iqtisadiyyatımızın inkişafı üçün elə iqtisadi siyasət yetirmək lazımdır ki, qlobal böhranın təsiri gələcəkdə də əhəmiyyətli olsun. Baxmayaraq ki, artıq biz postneft dövründə yaşayırıq, heç bir sosial proqrama, milli-mədəni irsimizin öyrənilməsi və bütün dünyaya çatdırılmasına vəsait qoyuluşu azaldılmamış, əksinə bu istiqamətlərə diqqət daha da artırılmışdır. Ölkə prezidenti özünün son iki aydakı çıxışlarında demək olar ki, iqtisadiyyatda görülməsi vacib olan işlər kompleksinin proqramını göstərmişdir. Qarşıya qoyulan məsələlərin həllinə nail olmaq üçün iqtisadiyyatda struktur dəyişikliklərinin aparılmasını tövsiyyə etmişdir.

Təklif olunan tədqiqat işində bu məqsədlə struktur formalaşdırıcı amil kimi qeyri-neft sektorunun inkişafına Azərbaycan dövlətinin struktur siyasətinin prioritet istiqamətlərindən biri kimi baxılır. Bu gün bir daha Prezident İlham Əliyevin söylədiyi “Biz gələcəyimizi təkcə neft sənayesinə bağlamamalıyıq, orada işlər çox uğurla gedir və bu sahə Azərbaycana böyük valyuta ehtiyatları gətirəcəkdir. Lakin biz öz siyasətimizi elə aparmalıyıq ki, sanki Azərbaycanda neft yoxdur. İqtisadiyyatın bütün sahələri, ilk növbədə qeyri-neft sektoru, infrastruktur inkişaf etməlidir. Ancaq bu yolla biz Azərbaycanı hərtərəfli inkişaf etmiş ölkəyə çevirə bilərik”. Ölkə prezidentinin çox vaxtında söylədiyi bu fikirlərdən düzgün nəticə çıxarılmı, ölkə iqtisadiyyatı birtərəfli inkişaf etdirilməmiş, neft sektoru ilə yanaşı qeyri-neft sektorunun inkişafına da xüsusi diqqət verilmiş və qayğı göstərilmişdir.

Ölkəmizdə qeyri-neft sektorunun bir sıra sahələri, xüsusilə də nəqliyyat, rabitə, ticarət, sənaye, tikinti sahələri müvəffəqiyyətlə inkişaf etdirilir. Fikrimizcə, ölkəmiz üçün səciyyəvi olan aşağıdakı qeyri-neft sahələrinin inkişaf etdirilməsinin diqqət mərkəzində saxlanılması və investisiyaların çox hissəsinin ilk növbədə həmin sahələrə yönəldilməsi məqsədəuyğun olardı:

a) aqrar bölmənin modernləşdirilməsi və çoxsahəli kənd təsərrüfatının formalaşdırılması;

b) ölkədə turizmin daha da inkişaf etdirilməsi;

c) böyük özəlləşdirmənin həyata keçirilməsi hesabına xarici investorları cəlb etməklə strateji əhəmiyyətli sənaye sahələrinin yeni əsaslarla inkişaf etdirilməsi;

d) 2014-2015-ci illərdə ölkəmizdə yüngül sənaye məhsullarına olan tələbatın cəmi 10 faizə qədər istehsal edildiyindən, bu sahəyə diqqət artırılmalıdır.

Mütəxəssislərin yekdil rəyinə görə, milli ərzaq təhlükəsizliyinin təmin olunması baxımından bütün istehsalların 70-80 faizi ölkənin daxilində istehsal olunan məhsulların payına düşməlidir. Məsələyə bu mövqedən yanaşıldıqda aydın olur ki, ölkəmiz kartof və bitki yağı ilə təmin olunma sahəsində milli ərzaq təhlükəsizliyi meyarlarına uyğun vəziyyətə çatmışdır. Ümumiyyətlə, respublikamızda bitki məhsulları ilə təmin olunma səviyyəsi taxıl məhsulları müstəsna olmaqla yaxşıdır. Ölkənin taxılla təminatında ciddi dönüş yaradılması üçün taxıl əkini sahələri genişləndirilməli, məhsuldar toxum növlərindən istifadə olunmalıdır.

Əhalinin qida rasionunda xüsusi yer tutan heyvandarlıq məhsullarına gəldikdə, ərzaq məhsullarının tərkibində heyvan mənşəli məhsulların mütləq və nisbi artımı təmin edilməlidir. Belə vəziyyətin əsas səbəblərindən biri, Ermənistanın torpaqlarımızın 20 faizinin işğalı üzündən örüş-

otlaq sahələri xeyli azalması, yay otlaqlarının $\frac{2}{3}$ -i hissəsindən çoxunun, biçənək sahələrinin 15 faizə qədərinin eroziyaya uğramasıdır. Bütün bunlar göstərir ki, aqrar bölmənin hərtərəfli inkişaf etdirilməsi və modernləşdiirlməsi sahəsində hələ çox iş görülməlidir.

1. Aqrar sənayenin texniki təchizat səviyyəsi yüksəldilməlidir. Ölkəmiz bu göstəricilərə görə dünya orta səviyyəsindən xeyli geri qalır. Bu isə əmək qabiliyyətli əhalinin daha çox hissəsinin aqrar bölmədə çalışmasına səbəb olur.

2. Suvarmanın tənzimlənməsi məqsədi ilə suvarma kanallarının texniki vəziyyətinin yaxşılaşdırılmalıdır.

3. Torpaqların münbitliyinin yüksəldilməsi üçün aqrar-texniki tədbirlərin gücləndirilməsi, elmi cəhətdən əsaslandırılmış əkin dövriyyəsinin tətbiq edilməsi zəruridir.

4. Heyvandarlıqda damazlıq işinin yaxşılaşdırılması yemçiliyin tərkibində yol verilən nöqsanların aradan qaldırılması və məhsul istehsalının artırılması vacibdir.

Qeyd edilən tədbirlər ölkəmizdə 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair. "Dövlət Proqramı"nda nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsində qismən nəzərə alınsa da iqtisadiyyatın aqrar bölməsinin inkişaf etdirilməsi və problemlərin reallaşdırılması üçün qeyd edilən tədbirlər bu gün xüsusilə aktualdır.

Bir mühüm amili xüsusilə qeyd etmək lazımdır. Manatın devalvasiyası zamanı bəzi məhsulların qiymətində ciddi artımın yaranması ilə bağlı məsələlər müzakirə olunarkən məlum oldu ki, struktur siyasəti düzgün qurulsa, idxaldan asılılığı azaltmaq olar. Ölkəmizdə istehsal olunan məhsullarda qiymət artımının yaranmasının əsas səbəbi bu məhsulların maya dəyərində idxalın payının hədsiz çox olmasıdır. Halbuki, ölkəmizdə bu məhsulları istehsal etmək olar. Misal üçün quş əti və yumurtanın baha olmasının əsas səbəbi istifadə olunan yemin, xüsusi ilə qarğıdalının kənardan gətirilməsidir. Lakin biz öz istehsalımız hesabına bunu minimuma endirə bilərik.

Belə hesab edirik ki, aqrar -sənaye kompleksində modernləşdirmə tədbirləri ölkədə əkin sahələrinin optimal strukturunun müəyyən edilməsi ilə əlaqəli aparılmalı və bu struktur müəyyən edilərkən idxaldan asılılığı minimuma endirmək üçün zəruri olan məhdudiyyətlər nəzərə alınmalıdır.

Əksər ölkələrdə dövlət büdcəsinin gəlir mənbələri içərisində turizm xüsusi yer tutur, baxmayaraq ki, bu ölkələrin əksəriyyətində təbii vasitələrlə müalicə imkanları olduqca məhduddur. Belə bir həqiqəti qeyd etmək lazımdır ki, bu zənginliyin başlıca ünsürü olan təbii şərait heç zaman tükənmir, əksinə özünün əhəmiyyətini həmişə saxlayır. Belə təbii şərait Azərbaycanda var və turizmi inkişaf etdirmək üçün olduqca böyük imkanlar yaradır. Bu sahənin beynəlxalq standartlara uyğunlaşdırılması üçün dövlət və özəl qurumlar tərəfindən bir sıra tədbirlərin həyata keçirilməsinə baxmayaraq, vəziyyət heç də ürək açan deyil. Bu sahədə işlərin yüksək səviyyədə olması təkcə büdcə gəlirlərinin artmasını deyil, həm də ölkəmizin hər bir ərazisinin malik olduğu imkanları, milli adət-ənənələri, Azərbaycan xalqının tarixi-mədəni irsini, ayrı-ayrı regionların və şəhərlərin tarixini əks etdirən nəfis şəkildə tərtib olunmuş məlumat reklam xarakterli vəsaitlərin və onların nəşr edilib dünyada geniş yayılmasının, həmçinin milli sənətkarlıq məhsullarının istehsalının və satışının genişləndirilməsini nəzərdə tutur. Həm də bu, birtərəfli xarakter daşımamalıdır, vaxtaşırı əlavə mərhələ tamamlanmalıdır. Bu imkanlardan düzgün istifadə olunması ölkəmizin iqtisadiyatında struktur dəyişikliklərində mühüm rol oynaya bilər. Azərbaycan dövləti turizmin inkişafı məqsədi ilə 2007-2016-cı illər üçün Dövlət Proqramı işlənib hazırlanmışdır. Proqramda turzmin bütün növlərinin inkişafı nəzərdə tutulur.

Hesab edirik ki, ölkəmizi turizmin ən əlverişli imkanı kimi tanıtmaq üçün yeni Azərbaycan əmtəə turizm nişanının və bu sahədə Azərbaycan brendlərinin reklam-təbliğat, təlimat-sorğu fəaliyyəti canlandırılmalı, regional mədəni turizm marşurutlarının yaradılması və inkişaf etdirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi prioritet istiqamətlər olmalıdır. Turizm infrastrukturunun təkmilləşdirilməsi, turizm zonalarının hüquqi statusunun müəyyənləşdirilməsi, peşəkar kadrların hazırlanması, bu sahədən beynəlxalq təcrübədən istifadə olunması, turizm bazarının tələblərinə müvafiq qiymət strategiyasının hazırlanması bu sahədə səmərəliliyin yüksəldilməsi üçün başlıca vasitələr olmalıdır.

**Ədəbiyyat**

1. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli sərəncamı ilə təsdiq edilmişdi
2. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 29 dekabr 2012-ci il
3. Məmmədli O.Q. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, 2008

UOT 681.39.1

## Milli-mədəni irsimizin qorunmasında intellektual kitabxana-informasiya şəbəkəsi

*tex.f.d., dos. Məmmədova Kifayət Aslan qızı*
*Mingəçevir Dövlət Universiteti*

Milli dəyərlərimizin təhlükəsizliyinin təminində kitabxanaların müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsi, kompyuter və informasiya-proqram təminatı ilə təmin olunması çox vacib məsələlərdən biridir. Respublika üzrə kompyuterləşdirilmiş intellektual kitabxana-informasiya şəbəkəsinin yaradılması və inkişaf etdirilməsi, kitabxana şəbəkəsinin idarəetmə strukturunun təkmilləşdirilməsi istiqamətində görülən mühüm işlər dünya informasiya sistemlərində Azərbaycan kitabxana resurslarının təbliğinin və beynəlxalq informasiya mübadiləsinin həyata keçirilməsi üçün mühüm addımlardan biridir. Respublikanın milli-mədəni irsinin və informasiya ehtiyatlarının qorunması və gələcək nəsillərə çatdırılması məqsədilə Azərbaycan Milli Kitabxanasının modernləşdirilməsi, müasir informasiya texnologiyaları ilə təmin edilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi günün ən aktual məsələlərindən birinə çevrilmişdir.

Tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanılmasında, ötürülməsində və cəmiyyətin intellektual, mənəvi potensialının inkişafında mühüm rol oynayan kitabxana şəbəkəsinin dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsindən istifadə etməklə təkmilləşdirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi ən vacib hesab edilən məsələlərdən biridir.

Kitabxana siyasəti dövlətin həm iqtisadi, həm təhsil, həm mədəniyyət, həm də informasiya siyasətinin üst-üstə düşdüyü sahədir. Cəmiyyətin sənəd-informasiya tələbatının ödənilməsi funksiyasını həyata keçirən bir təsisat kimi kitabxanalar vətəndaş cəmiyyətinin formalaşmasında zəruri vasitə rolunu oynayır. Kitabxanalar mövcud sənədlərin saxlanc yeri olmaqla yanaşı, müasir texnologiyalar sayəsində informasiya dünyasına açılan qapı rolunu oynayır.

Hazırda kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, elektron kataloq və elektron kitabxanaların yaradılması, Azərbaycan Milli Avtomatlaşdırılmış Kataloqlaşdırma Formatının hazırlanması, milli toplu kataloqunun yaradılması istiqamətində bir sıra işlər görülmüşdür. Milli-mənəvi irsimizin – əsrlərdən gələn adət-ənənələrimizin qorunub saxlanması, kitab abidələrinin mühafizəsi, bərpası və onların rəqəmsal informasiya daşıyıcılarına köçürülməsi, kitabxana kataloqlarının retrokonversiyası və xidmət səviyyəsinin yüksəldilməsi həyata keçirilmişdir.

Kitabxana-informasiya sahəsində həll olunmamış əsas problemlərdən biri kitabxana fondlarının mühafizəsi və bərpası məsələsidir. Respublikada kitab fondlarının bərpa mərkəzləri yaradılmadığından, xüsusi əhəmiyyətli nəşrlər sıradan çıxır və mövcud fondlarda qoruna bilmir. Fondlarda saxlanılan nadir kitabların rəqəmsal daşıyıcılara köçürülməməsi, yaxud da informasiya təhlükəsizliyinin təmin edilməməsi səbəbindən bir sıra dəyərli əsərlərimiz alim və tədqiqatçılar, geniş oxucu kütləsi tərəfindən az istifadə edilir.

Kitabxanaların beynəlxalq əlaqələr sahəsindəki fəaliyyəti müasir tələblərə cavab vermir. Ölkədə milli biblioqrafiyanın, milli formatın, elektron kitabxananın, toplu kataloqun, korporativ

kitabxana şəbəkələrinin olmaması milli dəyərlərimizin dünya informasiya məkanında layiqli təmsil edilməsinə imkan vermir.

Cəmiyyətin məlumatlandırılmasına yönəldilən və bununla da onun həm daha da demokratikləşməsinə, həm də dünya birliyinə inteqrasiya etməsinə rəvac verən kitabxana sisteminin köklü şəkildə modernləşdirilməsi və yenidən qurulması nəzərdə tutulur.

Kitabxana şəbəkəsində informasiya telekommunikasiya texnologiyasının istismarı zamanı informasiya təhlükəsizliyinin təmini məsələsinə xüsusi yer verilmişdir. Təhlükəsizliyin təmini dedikdə, informasiya texnologiyasından istifadə etməklə, təşkilati və inzibati səviyyələrdə bazalaşdırılan kompleks məsələlərin səmərəli həlli başa düşülür. Belə sistemlərə misal olaraq vahid verilənlər bazasının ümumi informasiya mühitində vahid aparat-proqram kompleksi əsasında birləşdirilən obyektlərin təhlükəsizliyinin təmini sistemini və mühafizənin texniki vasitələrini özündə birləşdirən inteqrallaşdırılmış təhlükəsizlik sistemini göstərmək olar. Bu sistemə aşağıdakı altsistemlər çoxluğu daxildir: nəzarət sistemi; müraciətin idarə edilməsi; mühafizə televiziya sistemi (videomüşahidə); siqnalizasiya mühafizə sistemi; yanğın siqnalizasiya sistemi; bina və qurğuların (elektrik, ventilyasiya, standarta uyğunlaşdırılma və s.) mühəndis kommunikasiya idarəetmə sistemi.

Təhlükəsizliyin təminatı planında ən başlıca məsələ informasiya təhlükəsizliyinin təmini və məlumatların qorunması məsələsidir. İnformasiya təhlükəsizliyi mühitində istifadəçi xidmətləri kimi virus bazasının yenilənməsi və işçi brandmauer (virusa qarşı qoyulan sədd) vasitəsilə antivirus müdafiə tövsiyyə edilir. Brandmauer – TCP/IP protokolları səviyyəsində istifadəçi kompyuterlərinin müdafiəsini təmin edir. Adətən bu məsələlər bir proqram paketi çərçivəsində inteqrallaşdırılır. Müxtəlif sistemlərin vahid inteqrallaşdırılmış təhlükəsizlik sistemi (İTS) çərçivəsində birləşdirilməsi kitabxananın təhlükəsizliyinin kompleks təminatı məsələsini müasir səviyyədə həll etməyə imkan verir.

Ktabxana təhlükəsizlik sisteminin bütün kompleksinin mərkəzləşdirilmiş idarə edilməsi, İTS-ə tam daxil olan altsistemlərin idarə edilməsi və distansion müşahidə olunması operatorlara obyektin fəaliyyətinin və onun alt sistemlərinin tam təsvirini yaratmağa kömək edir.

Altsistemlər arasında məntiqi əlaqələrin proqramlaşdırılması inteqrallaşdırılmış sistemin effektivliyini və etibarlığını yüksəltməyə imkan verir. Operatorların bütün fəaliyyətinin və ayrı-ayrı altsistemlərin işlərinin qeydiyyata alınması və sənədləşdirilməsi İTS-nin işinin təkmilləşdirilməsinə imkan verir. Məlumatların təhlili əsasında işçi heyətin işinin düzgünlüyünü real olaraq qiymətləndirmək, qeyri-hüquqi fəaliyyət faktlarını bərpa etmək, təhlükələri və təsdiqlənməmiş müraciət faktlarını qeydə almaq olar.

Avtomatlaşdırılmış kitabxana sisteminin strukturu və modullarına daxil olan inzibati avtomatlaşdırılmış iş yerində parametrlərin konfiqurasiya olunması, istifadəçi sistemlərinin hesaba alınması, verilənlər bazasına müraciət hüquqlarının idarə olunması, indeksləşdirilmiş yazıların idarə edilməsi, axtarış atributlarında yazı elementlərinin əks olunması, verilənlər bazasının ehtiyat surətinin yaradılması, bütün əməliyyatlar üzrə statistik verilənlərin yığılması və təhlili nəzərdə tutulur. Yazıların müxtəlif kodlaşdırmada ISO2709 standartına müvafiq olaraq yüklənməsi-boşaldılması, müxtəlif növlü sənədlərin (məsələn, audio, video, elektron resurslar) kataloqlaşdırılması, MS Excel formatında çıxış formalarının təşkili həyata keçirilir. Oxucuların qeydiyyata alınmasında qəbul-təhvil və verilmiş ədəbiyyatların sayı, oxucu biletlərinin ştrix-kodlaşdırma texnologiyasından istifadə etməklə oxucu sifarişləri nəzərdə tutulur. Sərbəst nüsxələrin mövcudluğu və yerləşdiyi yer haqqında informasiyaların avtomatik alınması, ədəbiyyatların əldə edilməsinə elektron növbələrin daxil edilməsi, kitabların verilməsi, cari sifarişlər tələbata uyğun tərtib edilmişdir. İndeksli lüğətlərdən istifadə etməklə müxtəlif axtarış meyarları üzrə istifadəçilər haqqında və sənədlərin təsviri üzrə sifarişlərin qəbulu üzrə operativ məlumatların alınması, istifadəçilərə informasiyaların verilməsi ilə bağlı statistik verilənlərin toplanmasına müxtəlif tələblər qoyulmuşdur.

Kitabxana statistikası kompleksi kitabxanaların statistikasının avtomatik yığılması və sonuncu istifadəçilərin statistik verilənlərinin təsviri üçün xidmət edir. Kompleks aşağıdakı istifadəçilərin məlumatlarını təsvir etmək üçün MOLAP (Multidimensional On-Line Analytical Processing –

Çoxölçülü Operativ Analitik Emal) texnologiyadan istifadə edir. MOLAP arxitekturalı sistemdə ilkin və çoxölçülü verilənlər çoxölçülü VB-də və ya çoxölçülü lokal kubda saxlanır. Verilənlərin bu üsulla saxlanılması OLAP əməliyyatlarının yüksək sürətini təmin edir. Lakin çoxölçülü baza əksər hallarda izafi olur. Onun əsasında qurulan kub ölçülərin sayından çox asılı olur. Ölçülərin sayı artdıqca kubun həcmi eksponensial artır. Bu isə bəzən verilənlərin həcmini "partlayış artımına" gətirib çıxara bilər və nəticədə sistem iş qabiliyyətini itirə bilər.

Operativ verilənlər müxtəlif mənbələrdən toplanır, təmizlənir, birləşdirilir və relyasiya anbarında yerləşdirilir. Bu zaman onlar hesabatların qurulması vasitələrinin köməyi ilə təhlil üçün əlverişli olacaq. Sonra verilənlər hissə-hissə və ya bütöv şəkildə OLAP-təhlil üçün hazırlanır. Onlar xüsusi OLAP-verilənlər bazasına yüklənə və ya relyasiya anbarda qala bilər. Onun ən vacib elementi verilənlərin strukturu, yerləşməsi və ötürülməsi haqqında metaverilənlərdir. Nəticədə anbarın müxtəlif komponentlərinin səmərəli qarşılıqlı təsiri təmin olunur.

OLAP serverdə saxlanan çoxölçülü verilənlərə müraciəti təmin edir. OLAP sisteminin əsas məqsədi istifadəçi sorğularına açıq olan çoxölçülü cədvəllərin qurulmasından ibarətdir. Bu cədvəllər və ya çoxölçülü kublar ilkin və ya aqreqatlaşdırılmış verilənlərin əsasında qurulur. Həmin verilənlər həm relyasiya, həm də çoxölçülü məlumatlar bazasında saxlana bilər. İstifadəçi OLAP sistemi ilə qarşılıqlı əlaqə yaratmaqla informasiyaya baxış keçirə bilər, verilənlərin müxtəlif kəsiklərini ala bilər, detallaşdırma, yığma, paylama, vaxta görə müqayisə kimi analitik əməliyyatları yerinə yetirə bilər. OLAP sistemi ilə bütün işlər problem sahəsinin terminləri ilə aparılır.

OLAP – anbarda toplanan verilənlərin hər tərəfli təhlili vasitələri cəmi kimi müəyyən edilir. OLAP-ın nəzəri vasitələrini operativ verilənlərə və ya onların dəqiq surətlərinə tətbiq etmək olar.

Bu işdə müasir İKT-nin səmərəli tətbiqi və istifadəsi ilə vahid ümummilli kitabxana şəbəkəsinin formalaşdırılmasının və beynəlxalq informasiya mübadiləsinin təmin edilməsi, habelə ölkənin milli kitabxana sisteminin dünya informasiya məkanına inteqrasiya olunması məqsədilə müxtəlif altsistemlərdə qərarların qəbulu prosesinin informasiya modelləşdirilməsi həyata keçirilmişdir.

### Ədəbiyyat


1. Xələfov A. A., Qurbanov A.İ. Kitabxanaların kompüterləşdirilməsinin əsasları: Dərslik. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2006, 200 səh.

3. Alışova N. Milli mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. Bakı, 2011, 85 səh.

2. Мусаева Н.Н. Основные направления компьютеризации в ВУЗ-овских библиотеках Азербайджана // Материалы конференции "Библиотеки в мировом информационном и интеллектуальном пространстве. М:. 2001, Ч. 2., 272 с.

4. Nigel Pendse. "What is OLAP? An analysis of what the often misused OLAP term is supposed to mean. Retrieved on 2008, pp.12-11



UOT 330.341:316.4


## Ölkənin sosial-iqtisadi inkişafında milli mənəvi dəyərlər amili


*i.f.d, dos. Qasımov Asəf Məhərrəm oğlu*
*doktorant Kazımov Xaqani Ehtiram oğlu*
*Azərbaycan Dövlət Aqrar Universiteti*


Ölkəmiz müstəqillik illərində sosial-iqtisadi inkişaf mərhələsinə daxil olmaqla bu sahədə ciddi irəliləyişlər əldə etmişdir. Həyata keçirilən sosial-iqtisadi islahatlar Azərbaycanı qısa müddət ərzində regionun lider dövlətinə çevirdi. Yeni tarixi şəraitdə ümümmilli lider Heydər Əliyevin müəyyən etdiyi daxili və xarici siyasəti uğurla həyata keçirən Prezident İlham Əliyev Azərbaycanda bütün sahələrdə əldə edilmiş nailiyyətləri daha da yüksəkliklərə qaldırdı. Belə ki, 2003-cü ildən bəri

ölkənin bütün makroiqtisadi inkişaf göstəricilərində sürətli irəliləyiş müşahidə olunur. Ölkəmiz öz iqtisadi inkişaf tempinə görə nəinki regionun, dünyanın lider dövlətlərindən birinə çevrilmişdir. Bu dövrdə ümumi daxili məhsul 3,4 dəfə, iqtisadiyyatın qeyri- neft sektoru 2,6 dəfə, əhalinin büdcə gəlirləri 16 dəfə artmış, ölkəyə qoyulan sərmayənin həcmi 170 mlrd. ABŞ dollarından artıq olmuşdur. Son on il ərzində iqtisadi sahədə əldə olunan uğurlar nəticəsində Azərbaycan Dünya Bankının reytinqində aşağı gəlirli ölkələr qrupundan yuxarı orta gəlirli ölkələr qrupuna keçmişdir.

Azərbaycanın iqtisadi sahədəki bu nailiyyətləri ölkə əhalisinin həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olmuşdur. Son on ildə yoxsulluğun səviyyəsi 49 faizdən 5,3 faizə, işsizlik isə 5 faizə düşmüşdür, əhalinin gəliri 6,5 dəfə artmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycanın bu uğurları beynəlxalq təşkilatlar və nüfuzlu reytinq agentlikləri tərəfindən də yüksək qiymətləndirilir. Məsələn, Dünya İqtisadi Forumunun 2014-2015-ci il üzrə Qlobal Rəqabətlilik Hesabatına əsasən Azərbaycan 144 ölkə arasında 38-ci sıradadır.

Son dövrlər dünya bazarında neftin qiymətinin kəskin azalması ilə bağlı bütün neft ölkələrində gəlirlərin azalması ölkəmizin iqtisadiyyatına da təsirsiz ötüşməmişdir. Lakin hökumətimizin qeyri-neft sektorunun sürətli inkişaf etdirilməsi ilə bağlı görülən tədbirlər bu sahədə itkiləri minimallaşdırmağa kömək edir.

2015-ci il ərzində qeyri-neft sənayesinin ümumi buraxılışının artım tempi 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz bəndi artmışdır. Artım tempinin yüksəlməsinə emal sənayesinin bir çox aparıcı sahələrinin (qida məhsullarının istehsalı, tikinti materiallarının istehsalı, kimya sənayesi, maşın və avadanlıqların quraşdırılması və təmiri, hazır metal məmulatların istehsalı, kompüter, elektron və optik məhsulların istehsalı və s.) artım templərinin yüksək olması təsir etmişdir. Qeyd olunan dövrdə qeyri-neft sənayesində yaradılmış əlavə dəyərin xüsusi çəkisi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,9 faiz civarında artmışdır.Qeyd olunan il ərzində iqtisadiyyatda əsas kapitala qoyulmuş cəmi investisiyaların 55,1 faizi və ya 8796,3 milyon manatı qeyri-neft sektoruna yönləndirilmişdir. Əsas kapitala qoyulmuş investisiyaların 7,7 faizi, qeyri-neft sektoruna yönləndirilən investisiyaların isə 14,0 faizi və ya 1229,2 milyon manatı qeyri-neft sənayesi bölməsinin inkişafında istifadə edilmişdir [1].

Ölkənin qeyri-neft sektorunda əsas və potensiallı sahələrdən biri hesab olunan aqrar sektorda bir sıra müsbət nəticələr əldə olunmuşdur. Belə ki, 2015-ci ildə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 5635,3 milyon manat təşkil etmişdir ki, onun da 2874,2 milyon manatı heyvandarlıq, 2761,1 milyon manatı isə bitkiçilik məhsulları olmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsal indeksi 6,6 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 2,5 faiz, bitkiçilik məhsulları üzrə isə 11,3 faiz artmışdır. 2015-ci ildə əsas kapitala yönəldilmiş ümumi vəsaitin 2,4 faizi kənd təsərrüfatına sərf edilmişdir [1].

Bütün dövrlərdə bəzi olkələrdə siyasi-iqtisadi inkişafın sürətli xarakteri bəzən əhalinin diqqətini mənəvi-mədəni, multikultural istiqamətdəki real uğurlardan yayındıra bilir. Amma qeyd etmək lazımdırki, heç bir sürətli iqtisadi inkişaf mənəvi inkişafdan təcrid olunmuş şəkildə baş verə bilməz. Eləcə də iqtisadi inkişaf olmayan yerdə də millətin və xalqın mənəvi tamlığı və bütölüyü mümkün olmur. Deməli, iqtisadi inkişaf mənəvi inkişafla həmahəng olduqda əsl və davamlı sosial-iqtisadi inkişafa nail olmaq olar.

Ölkə Prezidenti cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə qeyd edib ki, bu gün Azərbaycanın qarşısında duran vəzifələrdən biri də neft amilini insan kapitalına çevirməkdir. Doğrudan da inkişaf etməkdə olan ölkələrin əksəriyyətində insan kapitalı davamlı sosial-iqtisadi inkişafın əsas amilinə çevrilməklə yanaşı xalqın, millətin mənəvi dəyərlərinin saxlanmasına və inkişafına böyük töhfələr verir.

Bu gün Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması, təbliği istiqamətində mühüm işlər görülür və bu işlər davam etdirilməkdədir. Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, din, milli-mənəvi dəyərlərin qorunması sahəsində də ardıcıl siyasət həyata keçirir. Məlum olduğu kimi, dövlətimizin başçısının 2014-cü il noyabrın 27-də imzaladığı sərəncama əsasən ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2014-cü il dövlət

büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə 2,5 milyon manat vəsait ayrılıb [2].

Qloballaşma dövründə Azərbaycanın sosial-iqtisadi inkişafı xalqımızın mənəvi inkişafı əsasında baş verir. Ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi nailiyyətlərdə yalnız onun zəngin təbii ehtiyatlarını deyil, eyni zamanda xalqın mənəvi dəyərlərini də xüsusi qiymətləndirmək lazımdır.

**Ədəbiyyat**


1. www.economy.gov.az
2. http://www.xalqqazeti.com/az/news/interview


UOT 008, 330.341:316.4;330.35:316.4

## Milli-mənəvi dəyərlərin və mədəni irsin qorunmasının sosial-iqtisadi əsasları

*Tağıyev Arif Məmmədhəsən oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Milli-mənəvi dəyərlər və mədəni irs olduqca geniş anlayış olmaqla, hər bir millətin, xalqın əsrlər boyu yaradaraq qoruyub saxladığı ən qiymətli sərvətidir. Milli-mənəvi dəyərlər və mədəni irs xalqın tarixinin, onun bir millət kimi formalaşması və transformasiyasının ayrılmaz tərkib hissəsi kimi qəbul edilir. Odur ki, millətin, xalqın mövcudluğu, bir millət kimi özünü dərk etməsi, inkişafı və dünya sivilizasiyasına inteqrasiyası, ilk növbədə, onun tarixinin, dilinin, dininin, zəngin mənəvi dəyərləri və mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsindən çox asılıdır. Məhz bu baxımdan Azərbaycan xalqının müasir dövrümüzə qədər özünün mövcudluğunun, dövlətciliyinin, özünəməxsusluğunun qoruyub saxlaya bilməsində əsas amil özünün milli-mənəvi dəyərlərinə və mədəni irsinə sadiqliyi və həssaslığı olmuşdur. Burada əsas şərtlərdən biri də xalqımızın milli dövlətcilik uğrunda vvvqədim tarixlərdən bəri apardığı mübarizə ruhu olmuşdur. Hətta yaxın tarixi zamanda iki dəfə özünün müstəqilliyini bərpa etdikdən sonra həyata keçirdiyi dövlətçilik siyasətinin kökündə xalqın milli-mənəvi dəyərləri, dili, milli mentaliteti, adət-ənənələri əsas yer tuturdu. Xalqin milli-mənəvi dəyərlərinin qorunmasının vacibliyinə Ümummilli liderimiz Heydər Əliyev xüsusi önəm verirdi. Belə ki, bu barədə özünün 13 avqust 2001-ci il tarixli bəyanatında söyləmişdir ki, “Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir” [3].

Milli-mənəvi dəyərlərin və mədəni irsin qorunması, inkişaf və təbliğ edilməsi Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənablarının və onun başçılığı ilə Azərbaycan dövlətinin daim diqqət mərkəzində olan strateji hədəflərdən biridir. Məhz Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 21 dekabr 2012 ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanunu və 14 fevral 2014-cü il tarixli sərəncamı ilə təsdiq olunmuş“Azərbaycan Respublikası Mədəniyyət Konsepsiyası” nın əsas məqsədi və müddəaları Azərbaycan mədəniyyətinin inkişafının, daxili və xarici təhdidlərdən (saxtakarlıq, mənimsəmə, təhriflər, tarix və mədəniyyət abidələrinin məqsədli şəkildə məhvi və sair) qorunmasının və dünya mədəniyyətinə uğurlu inteqrasiyasının əsas istiqamətlərini, mədəniyyət hüquqlarının təminatı formalarını müəyyən edir. Konsepsiya mədəni sərvətlərin, o cümlədən maddi və qeyri-maddi mədəni irs nümunələrinin, Azərbaycanın xarici dövlətlərdə milli-mədəni irsinin, beynəlxalq hüquq normalarına əsaslanaraq qorunması, bərpası, təbliği və təşviqi istiqamətində genişmiqyaslı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bu sənədlərdə qeyd edildiyi kimi “Konsepsiyanın əsas məqsədi Azərbaycan xalqının bütövlüyünün qorunması şərti ilə, mədəniyyət siyasətinin təminat mexanizmlərinin müasir dövrün tələblərinə uyğunlaşdırılması, mədəni irsin qorunması,

yaradıcılığın dəstəklənməsi və inkişafının təmin olunmasından ibarətdir... Konsepsiyanın əsas vəzifələri mədəniyyətin bütün sahələrinin, o cümlədən mədəniyyət siyasətinin idarəetmə, hüquqi, maliyyə, informasiya, insan resursları, maddi-texniki infrastruktur və beynəlxalq əməkdaşlıq kimi təminat mexanizmlərinin inkişafını, mədəniyyət sahəsində göstəricilərin yüksək səviyyəyə çatdırılmasını və mədəni irsin təhlükəsizliyi üçün tələb olunan islahatların aparılmasıdır"[2].

Müasir dünya təcrübəsi göstərir ki, xalqın milli-mənəvi dəyərlərinin və mədəni irsinin qorunması və gələcək nəsillərə çatdırılması problemlərini ancaq dövlətin və onun subyektləri üzərinə qoyulması düzgün deyil. Bu, hər bir vətəndaşın, ictimai birlik və təşkilatların gündəlik fəaliyyətinin prioritetlərindən biri olmalıdır. Bu sahədə "Heydər Əliyev Fondu"nun fəaliyyətini xüsusilə qeyd etmək yerinə düşər. Fond tərəfindən ölkəmizdə və dünyada ən yüksək səviyyədə Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin və mədəni irsinin qorunub saxlanılması, müdafiə edilməsi və gələcək nəsillərə çatdırılması, dünyanın ən yüksək və mötəbər qurumlarında təmsil edilməsi sahəsindəki fəaliyyəti və uğurlar qazanması daha geniş tədqiqat mövzusu olsa da, əminliklə demək olar ki, Fondun fəaliyyəti nəinki xalqımız, hətta geniş dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

Bir daha dünya təcrübəsinə istinad etsək görərik ki, xalqın milli-mənəvi dəyərlərinin və mədəni irsinin qorunub saxlanılması, müdafiə edilməsi və gələcək nəsillərə çatdırılmasının vacib şərtlərindən biri də onun sosial-iqtisadi və maddi-maliyyə cəhətdən əsaslandırılmasıdır. Araşdırmalar göstərir ki, ancaq vaxtı ilə qüdrətli, güclü, varlı dövlətçiliyi olan xalqların milli dəyərləri və mədəni irsi tarixin bütün çətinliklərinə dözə bilmiş, minilliklərlə qorunub saxlanılmış və bu günümüzə qədər gəlib çatmışdır. Xüsusilə maddi irsin qorunmasında iqtisadi amillər əsas hesab edilsə də, bu günümüzün təcrübəsi göstərir ki, hətta qeyri-maddi irsin qorunmasında da sosial-iqtisadi amil əsas yerlərdən birini tutur. Məlum olduğu kimi mədəni irs maddi və qeyri-maddi formada dəyərləndirilir. Bu mənada Azərbaycan xalqının və onun dövlətçiliyinin tarixi öz əksini ölkəmizin ərazisində və ondan kənarlarda bu günümüzə qədər gəlib çıxmış və ya qalıqları tapılmış uzaq tariximizin maddi irs nümunələrində, o cümlədən orta və yaxın əsrlərdə yaradılmış memarlıq, xalq sənətkarlığı, müxtəlif təyinatlı mədəniyyət və incəsənət nümunələrində və çox zəngin qeyri-maddi irs nümunələrində tapmışdır. Bununla belə hər bir xalqın mədəni irsinin, xüsusilə qeyri-maddi irsinin təcavüzdən qorunmasının vacib şərtlərindən biri onun dünya ictimayyəti tərəfindən qəbul edilməsi və tanınmasıdır. Onun şərtləri isə öz əksini müvafiq beynəlxalq sənədlərdə tapır. Belə sənədlərdən biri də YUNESKO-nun 2003-cü il sentyabr ayında Parisdə keçirilən 32-ci sessiyasında qəbul edilmiş"Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyada qəbul edilmişdir. Azərbaycan 2006-cı ildən bu Konvensiyaya qoşulmuşdur. Hazırda bu Konvensiyanın qeyri-maddi mədəni irs siyahısına Azərbaycana aid 6 qeyri-maddi mədəniyyət nümunəsi daxil edilmişdir: Azərbaycan muğamı (2008-ci ildən), Novruz bayramı və Azərbaycan aşıq sənəti (2009-cu ildən), Azərbaycan xalçaçılıq sənəti (2010-cu ildən), Tar musiqi alətinin hazırlanması və onda ifa edilməsi (2012-ci ildən), Çövkan, Azərbaycan Respublikasında Qarabağ atı ilə oynanılan ənənəvi oyun (2013-cü ildən) və Azərbaycan kəlağayısı (2014-cü ildən). Araşdırmalar göstərir ki, həm maddi, həm də qeyri-maddi irsin qorunub saxlanılması, bərpa və təbliğ edilməsi kifayət qədər maddi vəsait tələb edir. Bu xərclər, ilk növbədə, dövlətin üzərinə düşür və öz əksini dövlətin büdcə və qeyribüdcə vəsaitlərində, məqsədli təyinatlı fondlarda tapır. Bu mənada son illərdə Azərbaycanın dövlət büdcəsində "mədəniyyət və incəsənət" xərclərinin təhlili göstərir ki, dövlətin iqtisadi qüdrəti artdıqca bu sahəyə ayrılan vəsaitin həcminin artrılması imkanları da yüksəlir. Belə ki, bu sahəyə 2005-ci ildə cəmi 45,5 milyon manat vəsait ayrıldığı halda 2010-cu ildə 145,2 milyon manat, 2011-cu ildə 163,8 milyon manat, 2012-cu ildə 184,7 milyon manat, 2013-cu ildə 226,6 milyon manat, 2014-cü ildə isə 248,5 milyon manat vəsait ayrılmışdır. Bu xərclərin böyük bir hissəsi mövcud mədəniyyət abidələrinin, muzeylərin, teatrların və digər bu yönümlü obyektlərin saxlanılmasına xərclənir. Lakin bu xərclər dövlətin milli-mədəni dəyərlərin və mədəni irsinin qorunması və təbliği sahəsində yeganə xərcləri deyildir. Son illərdə bu məqsədlə, o cümlədən yeni muzeylərin, teatrların, məscidlərin, mədəniyyət saraylarının tikintisinə və tarixi abidələrin bərpa olunmasına həm dövlət büdcəsindən, həm də qeyri-büdcə fondlarından küllü miqdarda

investisiya vəsait-ləri ayrılır və istifadə edilir. Azərbaycan dövlətinin bu sahədə fəaliyyəti həm ölkə icti-maiyyətinə, həm də dünya ictimaiyyətinə məlumdur və çox yüksək qiymətləndirilir. Lakin tarixdən məlumdur ki, xalqın milli-mənəvi dəyərlərinin və mədəni irsinin qorunmasını ancaq dövlətin üzərinə qoymaq düzgün olmazdır. Bu məsələ bütün xalqın, onun hər bir vətəndaşının, xüsusən imkanlı iş adamlarının, sahibkarların vətəndaşlıq borcu olmalıdır. Lakin çox təəssüflə qeyd etmək olar ki, bu sahədə vaxtı ilə milli sahibkarlarımız - Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov, Musa Nağıyev və digər tanınmış xeyriyyəçi milyonçuların Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin və mədəni irsinin formalaşdırılması və qorunması sahəsində qoyub getdikləri ənənə, xalq qarşısındakı sosial məsuliyyətlik hissi müasir sahibkarlarımız, iş adamları, milli sərvətlərimiz hesabına küllü miqdarda var-dövlət əldə etmiş insanlar tərəfindən demək olar ki, tamamilə unudulmuşdur.

Xalqımızın milli-mənəvi dəyərlərinin, mədəni irsinin, adət ənənələrinin qorunub saxlanılması, tanıdılması və təbliğ edilməsində turizmin rolu, xüsusilə xarici turizmin rolu olduqca yüksəkdir. Məlum olduğu kimi, ölkəyə xarici turistlərin cəlb edilməsi üçün yüksək standartlara cavab verən turizm obyektləri, otellər, idman, mədəni-kütləvi və sanatoriya-kurort kompleksləri, digər turizm və xidmət infrastrukturu yaradılmalı, müvafiq kadr potensialı hazırlanmalı, ölkənin bütün regionlarında münbit turizm mühiti və ənənələri formalaşdırılmalıdır. Bu isə həm dövlətdən, həm də qeyri-dövlət sektorundan kifayət qədər yüksək maliyyə yatırımları tələb edir. Odur ki, hazırda turizmin inkişaf etdirilməsi dövlətimizin, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsi siyasətinin əsas strateji hədəflərindən biri hesab edilir, bu sahəyə həm dövlət, həm də digər bazar subyektləri tərəfindən kifayət qədər diqqət yetirilir və böyük maliyyə vəsaitləri cəlb edilir. Məhz bu sahəyə diqqətin artırılması nəticəsində son 10 ildə ölkəmizə gələn xarici turistlərin sayı üç dəfə, son 5 ildə isə iki dəfədən çox artmışdır. Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına görə ölkəmizə sırf turizm məqsədi ilə gələn xarici qonaqların sayı 2005-ci ildə 693 min nəfər olduğu halda, 2010-cü ildə 1280 min nəfər, 2011-ci ildə 1562 min nəfər, 2012-ci ildə 1986 min nəfər, 2013-cü ildə 2130 min nəfər, 2014-cü ildə isə 2160 min nəfər təşkil etmişdir.

Araşdırmalar göstərir ki, Azərbaycan dövlətinin müasir xarici iqtisadi münasibətlərinin və beynəlxalq fəaliyyətinin strateji istiqamətlərindən biri kimi milli mənəvi dəyərlərin və mədəni irsin xarici ölkələrdə tanıdılması və təbliğinə olduqca ciddi yanaşılır və ölkə başçısının daim diqqət mərkəzindədir.

## Ədəbiyyat


1. "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanunu. AR Prezidentinin 21 dekabr 2012-ci il tarixli fərmanı
2. "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası". AR Prezidentinin 14 fevral 2014-cü il tarixli sərəncamı
3. Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin bəyanatı. 13 avqust 2001-ci il
4. Azərbaycanın statistik göstəriciləri 2015. AR DSK, Bakı, 2015, 814 səh.


UOT 338.1:330.34/35:338.26/28: 338.12

## Azərbaycanın qiymətli kağızlar bazarı: reallıqlar və perspektivlər

*Şəfaqətov Günəş Musa oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Müəssisələrin özəlləşdirmə qabağı restrukturizasiyası və sağlamlaşdırılması, həmçinin özəlləşdirmədən sonra dəstəklənməsi tədbirlərinin reallaşdırılması üçün sağlamlaşdırılması məqsədə müvafiq olan, müəssisələrin seçilməsi və onlara maliyyə yardımının edilməsi ilə əlaqədar uyğun tədbirlər gerçəkləşdirilməlidir. Belə tədbirlərdən biri qiymətli kağızlar bazarının

formalaşması və inkişafıdır. Qiymətli kağızlar bazarı digər bazarlar kimi, başa çatmış texnoloji dövrlə birlikdə, bütöv mürəkkəb təşkilati-iqtisadi sistemdir. Bu bazarın əsas təyinatı, xüsusi əmtəə olan qiymətli kağızların alıcıları və satıcılarını görüşdürmək, kapitalın daha səmərəli fəaliyyət sahəsinə çevik, sərbəst axınına uyğun olaraq təqdim etməkdən ibarətdir. Qiymətli kağızlar bazarının ilkin və təkrar bazara bölünməsi emitent və investor arasındakı maraqların müxtəlif kəsişmələrini səciyyələndirir.

İlkin qiymətli kağızlar bazarının məqsədi sərbəst pul ehtiyatlarından istehsal və xidmətlərin inkişafı naminə investisiya qoyuluşu kimi istifadə edilməsi üçün həmin ehtiyatların səfərbər edilməsidir. Yeni buraxılmış qiymətli kağızların ilkin alıcıları, onun sahibidir, onu satmaq hüququna malikdir. Bu hüquq məhdudlaşdırıla bilər və sahibinin qərarı ilə sonra (təkrar) bazarda satıla bilər. Təbii ki, nəticə etibarı ilə, təkrar bazarın fəaliyyət göstərməsi ilkin bazar olmadan qeyri-mümkündür.

Təkrar bazar – emitentlər üçün yeni pul vəsaitlərinin toplanması məqsədi güdmür. Buna baxmayaraq, maliyyə münasibətlərinin formalaşmasında təkrar bazarın əhəmiyyəti inkar olunmazdır. Belə ki, qiymətli kağızlar dərhal və məhdudiyyətsizdir. Yenidən satılması mexanizminin formalaşdırılması investorların etimad dərəcəsinin yüksəldilməsinə, onların yeni qiymətli kağızlar alınmasına sövq edilməsinə (öz iradələrinə uyğun olaraq risqə yol verilən), kompensasiyaların dərəcəsini müəyyən etməyə imkan verir. Təkrar qiymətli kağızlar bazarının müvəffəqiyyəti, onun iştirakçılarından, orada dövr edən qiymətli kağızların növ və miqdarından, etibarlı və çevik informasiyanın yayılmasından, münasibətlərə cəlb olunanların, bu münasibətlərin davamlılığı və bazarın özünün təşkilinin etibarlılığından asılıdır. Beləliklə, o təkrar xaotik (nizamsız) alqı-satqı aktlarını həyata keçirən tədbirlərin cəmi deyil, bu tənzimlənmə və idarəetmə prinsiplərinə əsaslanan mütəşəkkil prosesdir. Təkrar qiymətli kağız bazarı alqı-satqını özündə mərkəzləşdirir (fond birjası) və mərkəzləşdirilməmiş (birjadan kənar bazar) qiymətli kağızların alqı-satqısını ehtiva edir.

Azərbaycan da, yeni iqtisadi sistemə keçidlə əlaqədar, hazırda qiymətli kağızlar bazarının formalaşması mərhələsini yaşayır. Bu səbəbdən, Azərbaycanda son illərdə qiymətli kağızlar bazarını tənzimləyən bir sıra qanunlar və hüquqi aktlar qəbul edilmişdir. Onların arasında «Qiymətli kağızlar haqqında» Azərbaycan Respublikasının 14 iyun 1998-ci ildə qəbul olunmuş Qanunu xüsusi əhəmiyyət kəsb edir. Bu qanunda, Azərbaycan Respublikasında qiymətli kağızların buraxılışı və dövriyyəsi qaydaları tam əksini tapıb.

28 iyul 1999-cu il tarixdə Azərbaycan Respublikası Prezidenti yanında «Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanının imzalanması ilə ölkədə qiymətli kağızlar bazarının fəaliyyət göstərməsinin təməli qoyulmuşdur. Bu tarixdən, qiymətli kağızlar bazarının ayrı-ayrı seqmentləri müxtəlif dövlət qurumları tərəfindən tənzimlənsə də, ölkədə vahid dövlət siyasəti mövcud deyildir. Fəaliyyətə başladığı dövrdən Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi qiymətli kağızlar bazarının təməlini təşkil edən infrastrukturların yaranmasına xüsusi diqqət yetirirdi. Beynəlxalq standartlara müvafiq normativ-hüquqi aktların hazırlanması yüksək peşəkarlıq səviyyəsində fəaliyyət göstərə bilən brokerlərin, dillerlərin, depozitorların, fond birjalarının və qiymətli kağızlar bazarının digər peşəkarlarının yaranmasına səbəb olmuşdur.

Hələlik ölkənin qiymətli kağızlar bazarı əhalinin əmanətlərinin yığılıb toplanmasından və onların investisiyalara çevrilməsindən ibarət olan əsas funksiyalarını tam yerinə yetirə bilmir. 2013-cü ildə qiymətli kağızlar bazarının dövriyyəsinin 97 faizini dövlət qiymətli kağızları, 3 faizini isə müəssisə və təşkilatların qiymətli kağızları təşkil etmişdir. Bundan əlavə, korporativ qiymətli kağızlar bazarında əməliyyatların həcminin böyük olmamasını da qeyd etmək olar. Bunun əsas səbəblərindən bir neçəsini göstərmək olar: – son illərdə əhali tərəfindən özlərini «bank» adlandıran xeyriyyə cəmiyyətlərinə və qeyri-mötəbər banklara qoyulmuş vəsaitlərin itirilməsi; 1998-ci ildə Rusiyada baş vermiş iqtisadi böhranın Azərbaycanın bazarına böyük təsir göstərməsi; qiymətli kağızlarla investisiya edilməsini sərfəsiz edən faiz dərəcələrinin cari vəziyyətə uyğun olmayan səviyyədə olması.

Azərbaycanın qiymətli kağızlar bazarı bir sıra təhlükələrlə də qarşılaşa bilər ki, onlara

aşağıdakıları aid etmək olar: – investisiya riskinin yüksək səviyyədə olması təqdirində investisiyaların ölkə xaricinə ixrac edilməsi; dünyada baş verən maliyyə böhranlarının təsirindən qorunmaması yerli qiymətli kağızlar bazarına belə təsirlərin mənfi nəticələr gətirməsi; korporativ səhmlər bazarının nəzarət paket bazarına çevrilməsi.

Demək olar ki, bu problemlərlə bütün inkişafda olan maliyyə bazarları qarşılaşır. Məsələn, bu problemlər 1890-1930-cu illərdə Amerika və Avropa bazarlarına xas olmuşdur. Müasir şəraitdə, Cənub Şərqi Asiya, Latın Amerikası və Şərqi Avropa dövlətləri belə problemlərə məruz qalır. Bu problemlərin yaranmasına yol verilməməsi üçün, Azərbaycanda qiymətli kağızlar bazarının və investisiya fəaliyyətinin tənzimlənməsinin adekvat sistemi təşkil edilməlidir. Qiymətli kağızlar bazarında dövlət siyasəti ilkin olaraq aşağıdakı məqsədlərə yönəldilməlidir: investisiya və əməliyyat riskinin minimuma endirilməsi; bazar şəffaflığının təmin edilməsi (həm emitentlərin hesabatlarında, həm də investorların və qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının fəaliyyətində); investorların hüquqlarının qorunmasının təmin edilməsi.

Bazarları inkişafda olan müasir dövlətlər ilkin olaraq investisiyalar üçün daxili resursların məhdudluğu problemlərini xarici investisiyaların cəlb edilməsi üzrə dövlət siyasətinin gerçəkləşdirilməsi yolu ilə həll edirlər.

Bu siyasətin iki istiqamətini qeyd etmək olar. Bu, bir tərəfdən Latın Amerikası ölkələri, digər tərəfdən Cənub Şərqi Asiya ölkələrini əhatə edir. Latın Amerikası ölkələrində dünya maliyyə bazarına dərin inteqrasiyanı nəzərdə tutan açıq siyasət yürüdülür. Nəticədə, yüksək səviyyədə inkişaf etmiş maliyyə bazarı yaranır və nəticə etibarı ilə, xarici investisiyaların ölkəyə axını xeyli artır. Bununla belə, bu siyasətin gerçəkləşdirilməsinin ilkin mərhələsində sərmayələrin ölkədən ixrac olunması müşahidə olunur. Asiya ölkələrində isə daxili resursların mövcud olmasını nəzərə alaraq, ancaq xarici investisiyaların birbaşa axınının artmasına yönəldilmiş modelinə üstünlük verilir. Eyni zamanda, xarici sərmayəçilər tərəfindən iqtisadiyyatın bütün sahələri üzrə müəssisələrin alınmasına yol verilməməsi üçün lazımi tədbirlər görülür.

Son illərin təcrübəsinin araşdırılması göstərir ki, Azərbaycanda qiymətli kağızlar bazarı böyük ehtimalla bir müddət borc bazarı səciyyəsini daşıyacaqdır. Belə bazarlarda, adətən, kommersiya banklarının və onların törəmələrinin korporativ qiymətli kağızlarla apardıqları əməliyyatların sayının çoxalması və səhmdar cəmiyyətlərin kapitallarında bankların bilavasitə iştirakı müşahidə olunur. Belə şəraitdə qüvvədə olan bazarın innovasiya inkişafının məqsədləri üçün investisiyaların toplanmasına imkan yaradan geniş əhatəli, effektiv və rəqabətli bazara çevrilməsi istiqamətində zəruri tədbirlər görülməlidir.

Azərbaycanda hazırda reallaşdırılan islahatlar, strateji özəlləşdirmənin gedişatı qiymətli kağızlar bazarının inkişafına təkan verir. Artıq Azərbaycanda fəaliyyət göstərən qiymətli kağızlar bazarı strateji özəlləşdirməni qəbul etməyə hazırdır. Strateji özəlləşdirmə həyata keçirildikcə, korporativ qiymətli kağızlar bazarının inkişafına yeni nəfəs verəcək və bu iş xeyli sürətlənəcək. Belə ki, investisiyaların cəlb edilməsi məqsədilə potensial investorlar üçün əlverişli mühitin yaradılması qiymətli kağızlar bazarının davamlı inkişafı baxımından önəmli bir məsələdir.

Çünki qiymətli kağızlar bazarı geniş əhali kütləsinin iqisadi fəaliyyətə daha fəal cəlb olunması və bu sahədə yüksəlişin təmin edilməsinə mühit yaradır ki, bu da, ölkədə bir çox sosial-iqtisadi problemlərin aradan qaldırılmasını təmin etmiş olur.

Bununla yanaşı, qiymətli kağızlar bazarı dövriyyədə olan sərbəst pul kütləsinin sterilizasiya edilməsi və inflyasiyanın qarşısının alınmasında da əvəzolunmaz rol oynayır.

Qloballaşma şəraitində qiymətli kağızlar bazarını tənzimləyən normativ-hüquqi aktların təkmilləşdirilməsi, investorların hüquqlarının müdafiəsi, qiymətli kağızlar bazarında şəffaflığın artırılması, əlverişli rəqabət mühitinin inkişaf etdirilməsi və beynəlxalq əlaqələrin genişləndlirilməsi istiqamətində reallaşdırılan tədbirlərin fasiləsizliyi təmin edilməlidir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı: Qanun, 2011, 768 səh.

2. “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 15 may 2015-ci il

3. Kapital bazarları və biznes imkanları. Bakı: “NURLAR” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011, 256 səh.

4. Maliyyə bazarlari terminlərinin izahli lüğəti. Bakı, «Nurlar» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2010, 272 səh.

5. Böyük İqtisadi Ensklopediyya. 5 ciliddə. III cild. Bakı: “Litterpress” Nəşriyyatı, 2012. səh. 341-353

UOT 658:005

## Müəssisənin rəqabət üstünlüyünün xüsusiyyətləri

*Hacıyeva Elmira Zülfüqar qızı*
*Mingəçevir Dövlət Universiteti*

Müstəqilliyimizin bərpa olunmasından sonra həyata keçirilən siyasət milli mənəvi dəyərlərimizin qorunub saxlanması və gələcək nəsillərə çatdırılması üçün böyük zəmin yaradır, xalqımızın əldə etdiyi bu böyük nailiyyət milli sərvətimiz olan milli dəyərlərimizin istifadəsini, bəşəri dəyərlərin tərkib hissəsi kimi inkişafını və inteqrasiyasını təmin edir. Xalqımız azad və suveren dövlət quraraq, mədəni-iqtisadi islahatlar aparmaqla, öz milli əxlaqi dəyərlərinə, tarixinə qayıdır, demokratik ölkələrin təcrübəsindən istifadə edir.

Belə bir şəraitdə ölkədə fəaliyyət göstərən müəssisələrdə ciddi dəyişikliklər baş verir, onların istehsal-satış imkanları genişlənir, əmtəə bazarlarında rəqabət daha da kəskinləşir.

Müəssisənin rəqabət üstünlüyünün səviyyəsi müqayisəli üstünlüklər vasitəsilə müəyyən olunur. Müəssisəyə müqaisəli üstünlüyü əmtəə, ona olan tələb və istehsalda istifadə olunan texnologiya gətirir. Bunu nəzərə alaraq əmtəə, tələıb və texnologiyanın həyat tsikli necə öyrənilirsə, bu cür də müəssisənin rəqabət üstünlüyünün həyat tsikli öyrənilə bilər. Müəssisənin həyat tsiklinə aşağıdakı mərhələlərdə baxılır:

1. Yaranma mərhələsi.
2. Artımın sürətləndirilməsi mərhələsi.
3. Artımın yavaşıması mərhələsi.
4. Yetkinlik mərhələsi.
5. Tənəzzül mərhələsi.

Yaranma mərhələsində müəssisənin təşkilati-hüquqi forması seçilir, təşkilatın niyyəti, fəaliyyət profili, məqsəd və vəzifələri müəyyənləşdirilir, rəhbərlik, hakimiyyət xətti və idarəetmənin təşkilati quruluşi seçilir. Müəssisənin fəaliyyət profilinə uyğun olaraq istehsal aparatı, istehsal və əmək şəraiti müəyyənləşdirilir. İşgüzar mühitdə rəqabət mübarizəsinə qoşulmaq üçün müəssisədə məhsulun istehsal olunma imkanları öyrənilir, elmi axtarış təcrübə-konstruktor işləri, marketinq tədqiqatları aparılır. Nəticələr uğurlu olduqda, məhsul və xidmət satışa çıxarılır.

Niyyətin və istehsal profilinin düzgün müəyyən edilməməsi sahibkarı qabaqcadan fəaliyyətində müvəffəqiyyətsizliyə, firmanı isə müflisləşməyə məhkum edir.Yaranma mərhələsində bu, müflisləşmənin ən başlıca amilidir. Çünki, niyyət düzgün müəyyən olunma-yanda, istehsal olunan məhsul və xidmət müştəri tapa bilməyəcəkdir.

İdarəetmə heyətinin ixtisas dərəcəsi müəssisənin normal işini təmin edən vacib amillərdən biridir. İdarəetmə heyətinin ixtisas dərəcəsinin aşağı olması səlahiyyətlərin bölüşdürülməsinə, operativ şəkildə baş verən dəyişikliklərə reaksiya verməyə, idarəetmə qərarlarının qəbul edilməsinə, fəaliyyətin ayrı-ayrı sahələrində strategiya və taktikanın seçilməsinə və idarəetmə həlqələri arasında əlaqə və əks əlaqəyə mənfi təsir göstərir və ilkin rəqabət üstünlüyü mərhələsində müəssisəni müflisləşməyə gətirib çıxara bilər.

Sahibkarın özünün ixtisas səviyyəsinin aşağı olması biznesi artırmaq üçün qabiliy-yətinin kifayət dərəcədə olmamasını göstərir. Sahibkarın ixtisas səviyyəsi aşağı olduqda, firmanın niyyəti məqsəd və vəzifələri, iqtisadi həyatın "üç fundametal məsələsi" yəni nə?, necə?, kimin üçün? düzgün müəyyən olunmur. Bunların düzgün müəyyən olunmaması və ya vaxtında həll edilməməsi firmanı müflisləşmə dərəcəsinə gətirib çıxarır.

Müəssisənin müvəffəqqiyyətlə fəaliyyət göstərməsi üçün marketinq böyük əhəmiyyət kəsb edir. Bazarın seqmentləşdirilməsində potensial alıcıların əmtəə və xidmətlərə olan tələbinin müəyyən edilməsində, məqsədli bazarın seçilməsində əmtəənin mövqeləş-dirilməsində, satış kanalarının müəyyən olunmasında, satışın stimullaşdırılmasında, təbliğat və reklam kampaniyasında buraxılan səhvlər əmtəələrin reallaşdırılmasının çətinləşməsinə, malların yığılıb qalmasına və ya tələb olunan miqdarda əmtəələr istehsal olunmaması üzündən mənfəətin itirilməsinə gətirib çıxarır. Müəssisənin rəqabət üstünlüyünün həyat tsiklinin bütün mərəhələlərində zəif marketinq firmanın səmərəsiz fəaliyyət göstərməsinə gətirib çıxarmaqla müflisləşməni daha da dərinləşdirə bilər.

Borc kapitalının payının yüksək olması daima müəssisə üçün təhlükə yaradır. Kreditorlar qarşısında öhdəliklərin vaxtında yerinə yetirilməməsi müəssisənin borclu elan edilməsinin başlıca səbəbidir.

Müəssisənin normal işi bir çox cəhətdən fəhlə və mühəndisin qarşısına qoyulmuş vəzifələrin necə yerinə yetirilməsindən asılıdır. Bu da onların kifayət qədər ixtisas səviyyəsinə malik olmasını zəruri edir. Müəssisə elə bir situasiya ilə də qarşılaşa bilər ki, əmək bazarında ona lazım olan ixtisaslı mütəxəssislər olmasın. Bu halda o, lazım olan ixtisaslı mütəxəssis hazırlamaq üçün vəsait sərf etməli olacaqdır. Bu isə öz növbəsində məhsul vahidinə çəkilən istehsal xərclərinin yüksəldir ki, bunun nəticəsində də müəsisə mənfəətdən məhrum ola bilər.

Trans-əlavə (törəmə) xərclər-xammal və material tədarükü hazır məhsulun satılması və sairə üzrə müqavilələr bağlanması ilə əlaqədardır. Saziş bağlanmasında operativliyin aşağı olması, tərəfdaşın qeyri-səmimiliyi trans – əlavə xərclərin çoxalmasına gətirib çıxarır. Bu da öz növbəsində firmanın işinin pozulmasına səbəb ola bilər.

Məcmu tələbin kəskin surətdə aşağı düşməsi bütün fəaliyyət növlərinə mənfi təsir göstərir. İstehsalın həcmi aşağı düşür, daimi xərclərin payı çoxaldığına görə məhsul vahidinin maya dəyəri artır və ümumi mənfəət kütləsi aşağı düşür. Əvəzedici məhsullar istehsalının inkişafı firmanın istehsal etdiyi məhsulların bazardan sıxışdırılıb çıxarılmasına, onların istehsal etdikləri məhsullara olan tələbatın azalmasına, firmanın mənfəətinin itirilməsinə və onun müflisləşməsinə gətirib çıxarır.

Müəssisənin ehtiyat strateji resurslar zonasının olması resurslara olan qiymətləri yüksəldir. Buna görə də "yaranma" mərhələsində resursların təchizat sistemi kifayət qədər düşünülmüş olmalıdır.

Yüksək vergi dərəcələrinin olması yalnız yaranma mərhələlərində deyil, həm də müəssisənin həyat tsiklinin digər mərhələlərində də onun fəaliyyətinə mənfi təsir göstərir. Buna görə də dövlət tərəfindən prioritet sahələr kimi müəyyən olunan sahələrdə firma öz fəaliyyətini qurmalıdır. Çünki prioritet sahələrdə vergi, hüquq, kredit və digər sferalar üzrə güzəştlər edilir.

Firmanın fəaliyyətində forsmajor hallar da mühüm əhəmiyyətə malikdir. Belə ki, təsadüfi təsirlər firmanın rəqabət üstünlüyünə təsir edən amillərdən biridir. Forsmajor amillər firmanın rəqabət üstünlüyünün həyat tsiklinin istənilən mərhələsində təsir göstərir.

Müəssisənin rəqabət üstünlüyünü həyat tsiklinin növbəti mərhələsi – artımın sürətləndirilməsidir. Bu mərhələ onunla xarakterizə olunur ki, müəssisənin satış bazarı artır. Çünki bu mərhələdə müəssisə məhsullarına olan tələb təklifi qabaqlayır. Müəssisə bazar seqmentlərindən maksimum gəlir götürür. İşçi heyəti yüksək ixtisas səviyyəsinə malik olur. Bunlar isə öz növbəsində firmanın çiçəklənməsinə və istehsalın çoxalmasına imkan verir. Artımın sürətlənməsi mərəhələsində borc kapitalının yüksək payı, trans-əlavə (törəmə) xərclərin çoxluğu, məcmu tələbin birdən-birə aşağı düşməsi, modanın dəyişməsi, resursların qiymətinin yüksəlməsi, qeyri-sabit fiksal siyasətin olması və forsmajor səbəblər müəssisənin müflisləşməsinə gətirib çıxarır.

Artımın yavaşıması mərhələsində müəssisənin məhsullarına olan tələb yavaş-yavaş azalır. Məhsul və xidmətlərin satış qiymətləri enməyə doğru meyl edir. Araşdırılan mərhələdə müflisləşmə təhlükəsini aşağıdakılar yaradır:

- dövriyyə kapitalının dondurulması;
- idarəetmə çevikliyinin itirilməsi;
- zəif marketinq;
- trans-əlavə xərclərin çoxluğu;
- məcmu tələbin aşağı düşməsi.

Dövriyyə kapitalının dondurulması onun dövretmə əmsalının təhlili əsasında müəyyən edilə bilər. Vəsaitin dövretmə sürəti, başqa sözlə, dövriyyə kapitalının pul formasına çevrilməsi sürəti müəssisənin alıcılıq qabiliyyətinə bilavasitə təsir göstərir. İdarəetmə çevikliyinin itirilməsi idarəetmə reaksiyasını gecikdirir. Demək olar ki, bütün dəyişikliklərə idarəetmə reaksiyası reaktiv surətdə baş verir. Bunun nəticəsində də idarəetmə xərcləri artır və mənfəət itirilir.

Yetkinlik mərhələsində müəssisənin istehsal etdiyi əksər məhsullara olan tələb təkliflə tarazlaşır. Artıq müəssisə əlavə məhsul istehsal edə bilmir və sabitlik hökm sürür. Maya dəyəri və mənfəət göstəricilərində sabitlik yaranır. Bu mərhələdə aşağıdakı amillərin olması təhlükəlidir: dövriyyə kapitalının dondurulması, idarəetmə heyətinin qocalması (yaşlaşması), əsas kapitalın köhnəlməsi, zəif marketinq, trans-əlavə xərclərin çoxluğu, məcmu tələbin aşağı düşməsi, modanın dəyişməsi, resursların qiymətinin yüksəlməsi, qeyri-sabit fiskal siyasətin olması və forsmajor amillər. Bu amillərin bəzilərinin təhlükəli təsiri yuxarıda verilmişdir. Yeni amil olan əsas kapitalın köhnəlməsi digər formalarla müqayisədə əmək məhsuldarlığının aşağı düşməsinə gətirib çıxarır ki, bunun nəticəsində də firma müflisləşməyə uğrayır.

Tənəzzül (sönmə) mərhələsində artıq müəsissənin əksər məhsullarına olan tələbatın aşağı düşməsi başlayır. Firma yeni strateji təsərrüfat zonaları axtarmağa başlayır. Tənəzzül mərhələsində də yetkinlik mərhələsində olduğu kimi firmanın müflisləşməsinə eyni amillər səbəb olur. Lakin bu zaman müəssisənin vəziyyəti ümumi şəraitin əlverişsiz olması üzündən daha da pisləşir.

Beləliklə, yuxarıda qeyd etdiklərimizdən məlum olur ki, müəssisənin müflisləşməsi onun rəqabət üstünlüyünün həyat tsiklinin hər bir mərhələsində baş verə bilər. Buna görə də müflisləşməyə gətirib çıxaran daxili və xarici amillər daima nəzarət altında olmalıdır. Daxili amillərin izlənməsi üçün xarici situasiyalara nəzarət edən mərkəzin yaradılması vacibdir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasında rəqabətin qorunması və təbii inhisarların tənzimlənməsi: qanunlar,normativ sənədlər, analitik materiallar. Bakı, 2000
2. Axundov M.Ə. Müəssisə iqtisadi. Bakı, 2002
3. Bayramov Ə.İ. İnhisarizm. Bakı: “Elm”, 2002
4. Qafarov Ş.S. Müasir iqtisadi sistem və qloballaşma. Bakı, 2005


UOT: 339.9:338.1;339.9:330.34

## Ölkənin iqtisadi inkişafında multikulturalizmin rolu

*Səfərova Təranə Allahverdi qızı*
*Paşayeva Sevda Bəhman qızı*
*Mingəçevir Dövlət Universiteti*

Məlumdur ki, tarixən hər bir dövlətin qüdrətinin əsasında iqtisadi güc, siyasi nüfuz dayanır. Lakin ölkədə milli birlik, bunun əsasını təşkil edən humanitar problemlərin xalqın da qəbul etdiyi kimi həlli olmadan qüdrətli iqtisadi səviyyə mümkün deyildir. Sosial-siyasi sabitlik iqtisadi gücün ən əsas lokomotivlərindəndir, onun da kökündə təbii ki, humanitar məsələlərin vaxtında, operativ həlli durur. Əgər humanitar məsələ və problemlər vaxtında və həm də beynəlxalq normalara uyğun həll olunmasa, gec-tez ölkədə bu zəmində çox ciddi böhran yaşana bilər. Bu da, öz növbəsində, iqtisadi və siyasi proseslərə çox mənfi təsir göstərər. Bundan başqa hər bir insan müəyyən intellekt

sahibidir. Ölkədə müxtəlif dini, milli dəyərlərə məxsus insanların siyasi və hüquqi bərabərliyinin təmin olunması, etnik azlıqların milli-mədəni inkişafına qanunla əsas yaradılması, cəmiyyətin də bu prosesə adi normal yaşayış qaydası kimi baxması ölkədə birliyin sarsılmazlığını təmin edir.

Bu gün ölkəmizdə sağlam tarixi köklərə malik multikulturalizm dövlət rəhbərliyinin düşünülmüş siyasəti ilə daha da inkişaf edir, yeni pozitiv çalarlarla zənginləşir. Dövlət başçısı Azərbaycanda multikulturalizmə münasibət barədə deyib: "Multikulturalizm Azərbaycanda dövlət siyasətidir". Qeyd etməliyik ki, artıq tarixi keçmişimiz də bunu deməyə əsas verir. Eyni zamanda multikulturalizm sayəsində, milli dəyərlərə önəm verilməklə müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər. Multikulturalizmdən imtina etmək yaxşı heç nə vəd etmir. Ona görə ki, bu, təəssüf ki, bütün dünyada getdikcə artan anlaşılmazlığa, fobiyaya, qarşıdurmaya gətirib çıxarır. O, ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların, dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir. Humanist və demokratik nəzəriyyə, yaxud ideologiya olaraq multikulturalizm, tolerantlığın təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, iqtisadi güc, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil. Artan siyasi və iqtisadi qüdrəti, nüfuzu ilə bərabər Azərbaycanın malik olduğu başqa bir önəmli strateji resursu onun siyasi terminologiyada "yumşaq güc – soft power" adı ilə qəbul olunan zəngin mədəni irsi, əsrlərdən bəri özünə kök salmış və Azərbaycan xalqının həyat tərzinə çevrilmiş milli, dini tolerantlığı və multikulturalizmə olan yanaşmasıdır. Başqa sözlə desək, çox minillik tarixində multikulturalizm və tolerantlığın nəinki mümkünlüyünü, hətta inkişafını sübut etmiş Azərbaycan bu xüsusda dünya üçün bir örnəkdir. Ona görə də Bakı bu gün sivilizasiyalararası dialoq və multikulturalizm mövzusunda aparılan qlobal müzakirələrin mərkəzi məntəqələrindən birinə çevrilmişdir.

Azərbaycan dünyanın humanitar kataklizmlər baş verməyən nadir ölkələrindəndir. Humanitar məsələ bu gün özündə mədəniyyətlərin, sivilizasiyaların, konsessiyaların qarşılıqlı münasibətlərini ehtiva etməkdədir. Ölkəmizdə tarixən bu sahəyə ən pozitiv mövqe sərgiləndiyi üçün bu gün Azərbaycan dünyanın humanitar əməkdaşlıq mərkəzinə çevrilib. İlk Forum 2010-cu ilin yanvarında Bakıda keçirildi. Bu tədbir geniş rezonansa səbəb oldu və effektiv nəticələr verən ənənəyə çevrildi. Bu il Heydər Əliyev Mərkəzində keçirilən növbəti Üçüncü Beynəlxalq Forum öz işində humanitar əməkdaşlığın aktual məsələlərini müzakirə edib. Tədbirdə 70 ölkədən 800-ə yaxın qonaq iştirak edib. Onların arasında nüfuzlu ictimai-siyasi xadimlər, sabiq dövlət başçıları, Nobel mükafatı laureatları və başqaları iştirak ediblər. İki günlük Forumda olduqca mühüm, dövrün çağırışlarına cavab verən mövzular səkkiz dəyirmi masada müzakirə obyekti olub: "Texnologiyaların konvergensiyası və gələcəyin konturları - "XXI əsrin çağırışları", "İqtisadi inkişafın humanitar aspektləri", "Elmi innovasiyalar və onların təhsil mühitinə transferi", "Multikulturalizm və özgünlük: cəmiyyətdə dəyər konsensusu axtarışında", "Postmodern dövründə milli özünüdərk", "Davamlı inkişaf və ekoloji sivilizasiya", "Molekulyar biologiya və biotexnologiyanın nailiyyətləri: nəzəriyyədən təcrübəyə", "Qloballaşan informasiya məkanında medianın aktual məsələləri".

Azərbaycan Prezidenti açılış mərasimindəki nitqində Azərbaycanda son illərdə müxtəlif mövzularla bağlı mötəbər beynəlxalq tədbirlər, konfranslar, sammitlər keçirildiyini, Bakının bir növ beynəlxalq əməkdaşlıq mərkəzinə çevrildiyini, Humanitar Forumun da bu sırada öz yeri olduğunu vurğulamışdır: "Bu il Cənubi Qafqazda və Mərkəzi Asiyada ilk dəfə olaraq Bakıda Davos Ümumdünya İqtisadi Forumu, Madrid Klubunun toplantısı keçirilmişdir. Artıq iki dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Bakı Humanitar Forumunun da bu sırada öz yeri vardır. Fikrimizcə, Forum çərçivəsində aparılacaq diskussiyalar, fikir mübadiləsi beynəlxalq humanitar əməkdaşlığa öz töhfəsini verməkdədir. Belə tədbirin Azərbaycanda keçirilməsi yəqin ki, təbiidir. Çünki bütün dövrlərdə Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələri sülh, əmin-amanlıq, qardaşlıq şəraitində yaşamışlar. Azərbaycanda hökm sürən ictimai-siyasi quruluşdan asılı olmayaraq bütün dövrlərdə Azərbaycan dözümlülük, tolerantlıq məkanı olmuşdur. Bu gün müstəqil Azərbaycan öz siyasətini bu təməl üzərində qurur. Yaşadığımız XXI əsrin xarakterik xüsusiyyəti bütün dövlətlərin istər iqtisadi, istər siyasi arenasına, istərsə də sosial həyatına qloballaşma prosesinin təsirlərini gətirməsidir. Yer kürəsində əhalinin sayı durmadan artır. Bir çox ölkələrdə

iqtisadiyyat zəifdir, əhalinin tələbini ödəmir. Nəticədə milyonlarla insan aclıq çəkir, ehtiyac içindədir. Buna görə də digər ölkələrə kütləvi axın başlayır. Bundan başqa, hər bir ölkənin sosial tələbi vardır ki, bu da iqtisadiyyatın qarşısına daim yeniləşmək, müasirləşmək və verilən sosial sifarişi ödəmək vəzifələrini qoyur. Bu tələb, ilk növbədə, öz əhalisinin sosial ehtiyaclarını ödəməklə bağlıdır. Həmin tələbin öhdəsindən gələn dövlətlər digər kasıb ölkələr üçün cəlbedici olurlar, miqrantlar üçün iş və dolanışıq yeri kimi maraqlı görünürlər. Nəticədə, qanuni və qeyri-qanuni miqrasiya başlayır. Həmin ölkələrə miqrasiya nə qədər güclü olarsa, o qədər də iqtsadi, sosial və nəhayət, siyasi balansda tarazlıq pozula bilər. Buna görə də hazırda qloballaşma prosesinin qarşısında duran ən mühüm vəzifələrdən biri və önəmlisi beynəlxalq iqtisadi inteqrasiyanı sürətlə və səmərəli həyata keçirməkdən ibarətdir. İqtisadsi inteqrasiya nəticəsində bəzi ölkələr tranzit dövlətlərə çevrilir, bəziləri müxtəlif iqtisadi birliklər yaradır, bəziləri isə ərazilərində azad iqtisadi zonalar təşkil edir. İnteqrasiya prosesində də təbii və qeyri-təbii miqrasiya baş verir. Bu zaman humanitar məsələ aktual problem kimi öz həllini tələb edir, beynəlxalq problem və dövlətlərarası sazişlərlə, beynəlxalq normalarla öz həllini tələb edir. Bütün qeyd etdiyimiz məsələlərin səmərəli həll edilməsi isə ölkənin iqtisadiyyatının inkişafına əhəmiyyətli təsir edir.

Bütün deyilənlərdən belə nəticəyə gəlirik ki, respublikada Prezident İlham Əliyev tərəfindən elan olunmuş multikulturalizm siyasətinə yardım edən proqramların, layihələrin işlənib hazırlanmsı və reallaşdırılması zəruridir.

Multikulturalizm siyasəti yeritməklə resbublikamız ilk növbədə ölkə daxilində olan mədəniyyətlərin təbii yolla inteqrasiyasına nail olacaq. Bu, dövləti ayrı-ayrı mədəniyyətlərarası ziddiyyətlərə qarışmaqdan və bununla sosial sabitliyi daha da gərginləşdirmək riskindən qoruyacaq. Dövlət gücünü daha çox əsas milli ideyanın reallaşmasına – iqtisadi inkişaf və sosial rifahın yüksəldilməsinə sərf edəcək.

## Ədəbiyyat


1. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı, 2004
2. Cəlilov M. Qloballaşma prosesi və müasir cəmiyyətin inkişaf problemləri. Bakı, ADİU, 2004
3. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı, 2001


UOT 327

## Qloballaşma – problemlər və üstünlüklər

*Paşayev Mürsəl Əbil oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Bəşəriyyət dəyişən iqtisadi, sosial-mədəni və siyasi dəyişikliklər mərhələsindədir. Yer kürəsində yaşayan bütün xalqların, millətlərin və ölkələrin inteqrasiyası qloballaşmanı zəruri amillərdən birinə çevirmişdir. Müasir dünya siyasətində bir çox inkişaf prosesləri və meyilləri müşahidə olunsa da qloballaşma, inteqrasiya və demokratikləşməni xüsusi olaraq ayırırlar. "Qloballaşma" son 20 il ərzində intellektual diskussiya meydanında aktuallığına görə, bəlkə də, ən çox müzakirə olunan və eyni zamanda dəqiq, konkret müəyyən edilməyən proseslərdən biridir. Bu, mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesə müxtəlif yanaşmalar mövcuddur və sadəcə olaraq gələcəyin nəzəri modeli haqqında diskussiyalar deyil, bütün dünyanı əhatə edən sivilizasiya prosesinin təhlilinə cəhdlərdir. Qloballaşmanın daha çox maliyyə-iqtisadi, sosial-siyasi, hərbi və informasiya aspektlərindən bəhs edirlər. Lakin qloballaşma bütövlükdə cəmiyyətin həyat fəaliyyətinə həm müsbət, həm də mənfi təsir göstərir, yəni qloballaşma ikili və ziddiyyətli prosesdir.

Qloballaşmaya neqativ yanaşanlar belə hesab edir ki, o milli mədəniyyəti məhv edir, dövlətin müstəqilliyini inkar edir, cəmiyyətə yad olan istehsal standartlarını zorla yeridir və s. Başqa bir

qisim alimlər isə qloballaşmanı sivilizasiyaların toqquşması və müharibəsi kimi qəbul edir. Buna baxmayaraq, qloballaşma dünyadakı siyasi proseslərə, beynəlxalq münasibətlərə və hətta etika və mənəviyyata da təsir edir. Eyni zamanda qloballaşmanın xalqlara tam olaraq nə verə biləcəyi böyük bir sirr olaraq qalır. Qloballaşma adlanan fenomeni anlayaraq  dəyərləndirə bilmək üçün öncə bu hadisəni xüsusiyyətləri, səbəbləri və nəticələri ilə birlikdə qavramaq və onun hazırkı vəziyyətini araşdırmaq və ən əsası onun Azərbaycana olan təsirlərini öyrənmək lazımdır. Yaxşı olardı ki, ölkəmiz bu prosesdə müşahidəçi və ya obyekt deyil, iştirakçı və ya subyekt olsun.

Qloballaşma termini etimoloji cəhətdən latın termini olan "qlobus"– yəni Yer kürəsi sözü ilə əlaqədardır. Bu və ya digər proseslərin ümumi-planetar xarakter daşıdığını, ifadə etdiyini göstərir. Məsələn, qlobal ekoloji problem, qlobal ərzaq çatışmamazlığı, qlobal iqlim dəyişməsi, qlobal təhlükəsizlik və s. Elmi ədəbiyyatlarda XX əsrin ikinci yarısından sonra dünya miqyasında baş verən fundamental prosesləri izah etmək üçün "qloballaşma" terminindən ilk dəfə 1967-ci ildə istifadə edildiyi bildirilir. Qloballaşma termininin yaranmasını professor Teodor Levitin adı ilə bağlayırlar. O, 1983-cü ildə "Harvard biznes revyu" jurnalında çap etdirdiyi "Bazarların qloballaşması" məqaləsində bu terminlə transmilli korporasiyaların istehsal etdiyi ayrı-ayrı məhsulların bir-birinə qovuşması fenomenini ifadə etmişdir. Qloballaşmanın ilk dəqiq işlənmiş nəzəri modelləri 1980-1990-cı illərdə ortaya qoyulmuşdur. Azərbaycan alimlərindən akademik Ramiz Mehdiyev, professorlar A.Şükürov, S.Xəlilov və R. Mustafayev qloballaşmanın müxtəlif aspektlərinə dair tədqiqat əsərləri yazmışdır. Azərbaycan cəmiyyətinin istənilən ictimai-siyasi hadisəsinə qloballaşmanın müəyyən təsirinin proyeksiyası kimi baxmaq olar. Odur ki, qloballaşma prosesi ilə bağlı geniş diskussiyaların aparılmasına və Azərbaycanın bu prosesdə yerinin müəyyən edilməsinə ciddi ehtiyac var. Qloballaşma prosesi Azərbaycana necə təsir göstərəcək? Azərbaycan bu prosesdə özünəməxsusluğunu saxlaya biləcəkmi? Qloballaşma qlobal problemlər yaratmırmı? Bu tip sualların araşdırılması qloballaşma prosesində Azərbaycanın gələcək inkişaf perspektivlərini daha yaxşı başa düşməyə imkan verə bilər.

Qloballaşmanın iradəmiz xaricində inkişaf edən bir proses olduğunu nəzərə alaraq buna ciddi hazırlaşmağımız tələb olunur. Azərbaycan qloballaşma prosesinə məhz təhsildən başlamalıdır. Hazırda ölkəmizdə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də sürətli dəyişikliklər baş verir. Lakin hələ həll olunmalı bir sıra problemlər qalmaqdadır. Ali təhsilin modernləşdirilməsinin əsas məqsədi ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Boloniya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbediciliyinin və rəqabət qabiliyyətinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, habelə informasiya cəmiyyətinin və müasir biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılmasıdır. Bir sıra beynəlxalq təhsil layihələrində iştirak və Boloniya prosesinə qoşulmağımız bu sahədə müəyyən addımların atıldığını göstərir. Bununla belə, Azərbaycanın təhsil sisteminin qloballaşma prosesindən müsbət şəkildə yararlandığını söyləmək çətindir. Təhsil üçün hazır proqramlar Qərbdən olduğu kimi alınmaqdadır. İnfrastrukturu olmadan alınmaqda olan bu sistemlərin bizdə nə qədər faydalı ola biləcəyi isə sual doğurur. Təhsil siyasəti yenidən elə qurulmalıdır ki, informasiya-texnoloji, texniki, mədəni sahələrdə innovasiya proseslərinin genişlənməsi şəraitində düzgün istiqamət götürmək qabiliyyətinə malik mütəxəssislər hazırlana bilsin.

Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrıseçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir.

Faktlar onu göstərir ki, iqtisadi qloballaşma prosesi mədəni və yaxud siyası qloballaşmadan daha sürətlə gedir. Qloballaşma dünyanı vahid bir iqtisadi məkan kimi nəzərdə tutur, amma onun mahiyyəti yalnız iqtisadi bütövləşmə ilə məhdudlaşmır. Qloballaşma həm də hərbi-siyasi, sosial-mədəni, elmi-texniki bütövləşməni şərtləndirən tarixi bir faktora çevrilmişdir. Mədəniyyətin qloballaşması geniş mənada dünya iqtisadiyyatının və informasiya texnologiyalarının inkişafının nəticəsi olaraq xalqların dünya dövlətləri sisteminə inteqrasiyasını, onlar arasında mədəni əlaqələrin

inkişafını və qarşılıqlı mədəni təsirini nəzərdə tutur. Mədəniyyətin qloballaşması dünya mədəni dəyərlərinin sintezini və yeni formada təşəkkülünü nəzərdə tutur. Qloballaşmanın neqativ tərəfi mədəni özünəməxsusluğun qismən və ya tam itirilməsi təhlükəsi ilə bağlıdır, pozitiv tərəfi isə xalqların dünya sisteminə inteqrasiya olunması prosesinin sürətləndirilməsi, başqa xalqlarla mədəni əlaqələrin genişləndirilməsi və insanların miqrasiyası ilə bağlıdır. Azərbaycan dövlətinin qarşısında duran ən böyük vəzifələrdən biri də öz mədəni genefondunu yenidən nəzərdən keçirmək, yeni dəyərlər sistemini formalaşdırmaqdır. Bunun üçün ilk öncə dərin hüquqi və infrastruktur islahatlara ehtiyac var.

Qlobal problemlərin həlli qlobal əməkdaşlığın olmasını tələb edir - heç bir ölkə ayrılıqda qlobal təhlükəyə çevrilən ərzaq çatışmazlığını, enerji və ekoloji problemləri həll edə bilməz. Bir çox ölkələrdə yoxsulluqdan, aclıqdan, xəstəlikdən, təbii fəlakətlərdən, epidemiyalardan əziyyət çəkən insanlara qlobal miqyasda yardımların göstərilməsi, terrorizmdən, millətçilikdən, irqçilikdən, diktator özbaşınalığından, qeyri-demokratik idarəçilikdən əziyyət çəkən xalqlara yardım göstərilməsi qlobal əməkdaşlığın genişlənməsini tələb edir.

Qloballaşma prosesi formaca beynəlmiləlçiliyə və beynəlxalq əməkdaşlıq səylərinə xeyli oxşasa da, mahiyyətcə onlardan ciddi fərqlənir. Belə ki, qloballaşmanın mahiyyətində bu prosesin aparıcı tərəflərinin iqtisadi və siyasi maraqları dayandığı üçün ölkələrarası siyasət də güclünün diktə etdiyi qaydalarla qurulur. Qloballaşma mahiyyətcə nə millətçiliyin, nə də separatizmin əleyhinə deyil. Əksinə, qloballaşmanın mahiyyəti dolayısı ilə həm millətçiliyi, həm də separatizmi dəstəkləyir. Cəmiyyət daxilində vətəndaş birliyinin olmaması üçün müxtəlif tipli potensial etnik münaqişələr təhlükəsinin yaradılması və separatizm ocaqlarının saxlanması da qloballaşmanın "gizli" mahiyyətindən irəli gəlir. Qloballaşma iqtisadi və hərbi yolla güclü tərəfindən zəifin istismar edilməsidir. Zəif ölkənin həmişə zəif vəziyyətdə saxlanması üçün tətbiq edilən yollardan biri də onun daha kiçik hissələrə parçalanması və parçalanan hissələr arasında ziddiyyətlərin yaradılmasıdır. Başqa sözlə, zahirən beynəlmiləlçiliyi və ya inteqrasiyanı təbliğ edən "qloballaşma" mahiyyətcə millətçiliyi dəstəkləyir. Odur ki, qloballaşmada aparıcı olan qüvvələr ölkələr arasında münaqişələrin yaradılmasına müxtəlif ideoloji vasitələrlə çalışırlar. Dünyanın "qloballaşan" və "qloballaşmayan" hissələrə ayrılması və ikincilərin zor vasitəsilə "qloballaşmaya cəlbi" yeni müstəmləkəçilik siyasətinin tərkib hissəsidir. Elə bil dünya siyasətində qəribə paradoks yaranıb. Öz müstəqilliklərini əldə etmək və milli özünəməxsusluqlarını qorumaq üçün yüz illərlə mübarizə aparan, itkilər verən xalqlar qloballaşma prosesinin ideoloji "tələsinə" düşərək öz tarixi nailiyyətlərini bir anlığa qurban verirlər.

Əslində qloballaşmanın yaratdığı imkan və fürsətlərdən millətin və dövlətin uzun müddətli inkişaf strategiyalarına uyğun olaraq istifadə etmək lazımdır. Ancaq bu, o demək deyil ki, inkişaf etmiş ölkələri geridən təqib etmək lazımdır. Ölkənin hazırkı vəziyyətini və hər cür potensialını nəzərə alıb inkişaf etmiş ölkələrin həyata keçirdikləri bir çox elmi iqtisadi-siyasi-demokratik və s. siyasətləri onlarla eyni zaman bölümündə həyata keçirmək mümkündür.

Qloballaşmanın gətirdiyi, bəlkə də ən vacib dəyəri: elmi-informasiyanı asan və ucuz əldə etmək, ölkəyə və cəmiyyətə faydalı olanları müxtəlif sahələrdə tədbiq etməkdir. Azərbaycan onu əhatə edən dünyadan təcrid oluna və yalnız özü haqqında düşünə bilməz: dünyanın getdikcə genişlənən proseslərinin içində olaraq qarşılıqlı münasibətlərin həm müsbət, həm də mənfi xüsusiyyətlərini dərk edərək, təkamül yolu ilə öz milli mədəniyyətini, elmini, biliklərini, təhsilini inkişaf etdirməlidir. Qloballaşma Azərbaycan kimi kiçik ölkələr üçün böyük şanslar verən unikal bir imkandır. Azərbaycan dünyaya açılmaq, özünü və mədəniyyətini dünyaya tanıtmaq baxımından böyük imkanlara malikdir. Azərbaycanın qloballaşmanın xaricində qalmaması və bu prosesdə zərərinin minimum, faydasının isə maksimum olmasına diqqət yetirməsi vacibdir.

## Ədəbiyyat


1. Cəlilov M. Qloballaşma prosesi və müasir cəmiyyətin inkişaf problemləri. Bakı, ADİU, 2004
2. Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən:modernləşmə xətti. Bakı, 2008

3. Sivil İnkişaf Mərkəzi, Qloballaşmaya doğru (məqalələr toplusu). Bakı, 2006
4. Şükürov A. Qloballaşmış cəmiyyətlər: dünən, bu gün və sabah. Bakı, 2006
5. Уткин А.И. Глобализация: процесс и осмысление, Москва, 2001

УДК 620.9:001.891.57 620.9:007

## Диагностика – эффективный метод повышения надежности турбоагрегата

*Алиева Земфира Ахмед кызы*
*Мингечевирский Государственный Университет,*
*диссертант Института системы управления НАНА*

В практике все чаще сталкиваются с проблемой решения задач диагностики сложных технических систем с большим числом возможных дефектов, требующих быстрой локализации для предотвращения серьезных аварийных ситуаций.

Несвоевременное обнаружение слабых мест может привести к необратимым катастрофическим последствиям.

Раннее предупреждение развития дефектов, их распознавание будут способствовать созданию и развитию новой стратегии технического обслуживания турбоэнергоустановок ТЭС на основе технической диагностики их состояния. Раннее обнаружение и локализация дефектов помогают эффективно изменять сроки ремонтов, планировать расходы запчастей и материалов и успешно проводить маркетинг энергетического производства. С помощью методов технической диагностики можно обнаружить как явные, так и скрытые дефекты и принять необходимые меры по предупреждению отказов. Эта стратегия позволит "отодвинуть" расчетное время наработки на отказ, увеличить ресурс работы и долговечность турбоустановки, продлить срок службы, принципы, на основании которых выполняется поиск и обнаружение дефектов.

Анализ вибраций – мощный инструмент для оценки технического состояния турбоагрегата. Возникновение и развитие значительной части дефектов турбоагрегата, как правило, вызывает изменения в его вибрационном состоянии. Эти изменения, как и развитие большинства дефектов, обычно происходят в течение достаточно длительного промежутка времени. Общие причины вибрации машин: неуравновешенность, дефекты в подшипниках, недопустимые люфты и зазоры, изношенность, аэродинамические и гидравлические силы и т.д. Но для полного понимания процессов, происходящих в таком сложном механизме как турбина, требуется знание как параметров вибрации, так и режимных и тепломеханических параметров. Глубина анализа при диагностировании в значительной степени зависит от временного периода, на базе которого выполняется диагностирование, что требует длительного накопления и хранения используемой при диагностировании информации. В системах диагностики учитывается не только время развития дефекта, но и режим работы турбины. Выделяют в основном четыре режима работы системы, определяемые режимами работы турбоагрегата: пуск, стационарный режим, остановка, расхолаживание.

Анализ вибрационных характеристик при пуске и выбеге значительно повышают достоверность диагностирования многих дефектов. Но контроль вибрации на этих режимах требует реализации методов высокоскоростного многоканального измерения.

АСУ крупных станций выполняют задачу по сбору и обработке большого количества данных, вибрационные параметры не контролируются или контролируются в объеме, недостаточном для задач вибродиагностики.

Методы диагностирования нельзя рассматривать в отрыве от средств, на которых реализуется процесс диагностирования. Наиболее простые методы могут быть реализованы в виде инструкций или рекомендаций, в которых приводятся необходимые таблицы, графики,

номограммы, осциллограммы, полученные на основе обобщения опыта, позволяющие оценить текущее техническое состояние объекта, идентифицировать возникновение или развитие дефектов на основании сравнения диагностических признаков.

Наиболее сложные методы диагностирования, требующие выполнения большого количества расчетов, математического моделирования объекта, обработки большого объема информации, реализуются на вычислительной технике.

В настоящее время в целях диагностирования объектов все шире используются экспертные системы.

Экспертная система – это система искусственного интеллекта, использующая знания из сравнительно узкой предметной области для решения возникающих задач и объединяющая возможности компьютера со знаниями эксперта в такой форме, что может предложить разумный совет или осуществить решение поставленной задачи. В большинстве случаев эти знания организуются в виде некоторой совокупности правил, позволяющих делать заключения на основе исходных данных или предположений. Экспертные системы приобретают все большую популярность в решении проблем диагностики. Экспертные системы служат еще и средством обучения, для вторых позволяют не упустить некоторые подробности или частности в поведении объекта диагностирования.

Методы диагностирования сводятся к методам распознавания образов дефектов. Эти методы используют один из следующих подходов или некую их комбинацию:

1. Детерминированный.
2. Статистический.
3. Вероятностный.

Границы между этими подходами очень условны. Статистический и вероятностные подходы оперируют в основном одинаковыми понятиями.

Детерминированный подход основан на логических методах распознавания, т. е. методах, использующих логические связи между признаками и состоянием объектов. Отличительным свойством этих систем является их быстродействие и возможность практически полной автоматизации процесса диагностики.

Использование статистических методов диагностирования для уникального и единичного оборудования затруднено, т. к. при достаточно редком появлении дефектов затруднительно получить представительные выборки.

Одним из самых популярных вероятностных подходов является метод, разработанный Р. Байесом. Теорема Байеса и его формула позволяют, используя априорную вероятность возникновения дефекта и некоторые данные, подтверждающие выдвинутое положение, рассчитать новое значение вероятности того, что положение о наличии дефекта истинно. Очень важным является то, что оценка наличия диагностических признаков осуществляется с использованием нечеткой логики.

Решение задачи диагностики технического состояния турбин тепловых электростанций связано со следующими проблемами:

- необходимостью диагностирования на ранней стадии их развития для предотвращения аварийных остановов;
- сложностью идентификации причин аварийных остановов.

Турбоагрегат относится к классу сложных систем. Сложной называется система, если она состоит из большого числа взаимосвязанных и взаимодействующих между собой элементов и способна выполнять сложную функцию. С точки зрения теории систем для турбин характерны:

- функциональная избыточность. Простая система может находиться только в двух состояниях: исправном и неисправном. Сложная система при отказе отдельных элементов и даже целых подсистем, как правило, не теряет своей функциональности, а происходит только снижение ее эффективности;
- большой срок эксплуатации . Эта особенность сложных систем налагает требование к их высокой безотказности и долговечности;

- высокая надежность отдельных подсистем турбины, ее аварийные остановы достаточно редкие события. Зачастую они связаны не с самим состоянием агрегата, а с вспомогательными устройствами, приборами КИПиА.


### Литература

1. Бермант А.Ф., Краткий курс матанализа – 7. М.: Наука, 1979. 725 с.
2. Васильев Ю.Н., Игуменцев Е.А. и др. Виброконтроль технического состояния газотурбинных ГПА. М.: Недра, 1987. 199 с.
3. Сулейменов Б.А., Мутанов Г.М., Сулейменов А.Б. Интеллектуальные системы управления: теория, методы, средства. Алматы: КазНУ имени аль-Фараби, 2012, 237 с.
4. Турбина ПТ-80. Инструкция по эксплуатации. Алматы: ТЭЦ-2, 33 с.
5. Урьев Е.В., Агипитова Ю.Н. Проблемы создания систем технической диагностики турбоагрегатов. // Теплоэнергетика, № 11, 2001, с. 25-30


UOT [002:004]: 316.774

## Müasir Azərbaycanın İKT siyasəti ulu öndər Heydər Əliyevin irsindən qaynaqlanır


*Əmiraslanova Rəsmiyyə İsrayıl qızı*
*Mingəçevir Dövlət Universiteti,*
*AMEA İnformasiya Texnologiyaları İnstitutunun dissertantı*


Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi müxtəlif dövrlərdə ölkənin tərəqqi və davamlı inkişafına çox böyük töhfələr vermişdir. Dahi siyasətçinin qayğı və diqqəti bütün sahələrdə olduğu kimi eynilə İKT sahəsində də öz bəhrəsini vermışdir. Bu gün respublikamızda informasiya və telekommunikasiya texnologiyaları (İKT) sahəsinin ardıcıl və sistemli inkişafının, informasiya cəmiyyətinin formalaşması prosesininin bünövrəsini XX əsrin 70-ci illərində özünü xalqına və onun inkişafına həsr edən ulu öndər Heydər Əliyev qoymuşdur [5]. Belə ki, təhsil, elm, eləcə də elmi tədqiqat obyektləri, ölkənin rifahına xidmət edəcək strateji zavodların tikintisi, fəaliyyəti ulu öndərin ilk növbədə diqqət etdiyi əsas məsələlərdən idi. Bu münasibətin nəticəsidir ki, respublikada elektron avadanlıq istehsal edən zavodlar, Kosmik Tədqiqatlar Mərkəzi, "Neftqazavtomatika" və s. kimi elmi-tədqiqat müəssisələri işə salınmış, Azərbaycana ilk böyük elektron hesablama maşını - "BESM-6" gətirilmiş və "Respublika avtomatlaşdırılmış idarəetmə sistemləri"–"RASU Azərbaycan" və müxtəlif kompyuter şəbəkələri quraşdırılmışdır. "AZON", "NORD" elm-istehsalat birlikləri, Radiozavod, Elektron Hesablama Maşınları Zavodu, "Peyk", "Ulduz" kimi nəhəng istehsalat komplekslərinin tikilib istifadəyə verilməsi, eləcə də elmi-tədqiqat işlərinin səmərəliliyini artırmaq və nəticələrini sınaqdan keçirmək üçün "Kristal", "Registr", "Tellur", "Kibernetika", "Biotex", "Mikroelektronika", "Kaskad" xüsusi konstruktor bürolarının fəaliyyətə başlaması da ulu öndər Heydər Əliyevin bu sahəyə verdiyi töhfələrdir [2].

Ulu öndərin respublikaya ikinci rəhbərliyi dövründə də Azərbaycanda sosial-iqtisadi həyatın bütün sahələri kimi İKT sahəsi də uğurla inkişaf etmişdir. Ölkənin müstəqil telekommunikasiya, poçt və teleradio infrastrukturunun formalaşdırılmasına xüsusi önəm verilmiş, 1993-cü ilin avqustunda Azərbaycanla Amerika qitəsi arasında birbaşa rabitənin yaradılmasına imkan verən peyk-rabitə sisteminin açılışına nail olunmuş, ölkəmiz bir çox beynəlxalq təşkilatlara, o cümlədən Beynəlxalq Telekommunikasiya İttifaqına və Ümumdünya Poçt İttifaqına üzv qəbul edilmişdir.

Ölkədə internetin inkişafı da ulu öndərin səyləri nəticəsində təşəkkül tapmışdır. Azərbaycanın yüksək domen adı – ".az" domeni 1993-cü ildə rəsmi olaraq İnternetdə Adlar və Nömrələr üzrə Qeydiyyat Korporasiyası (İCANN) tərəfindən qeydiyyata alınmış, 1994-cü ildə isə Azərbaycan Elmlər Akademiyasının Avtomatlaşdırılmış İdarəetmə Sistemləri şöbəsində (indiki AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu) internetin ilk qovşağı yaradılaraq "Türksat" süni peyki

vasitəsilə Türkiyənin Orta Doğu Texniki Universitetinin İnternet mərkəzinə birləşdirilmiş və beləliklə də, Azərbaycan internetə çıxış əldə etmişdir.

1994-cü ildə "Bakcell", 1996-cı ildə "Azərcell" birgə müəssisələrinin yaradılması ilə ölkədə mobil rabitənin inkişafının əsası qoyulmuş, 1995-ci ildə Azərbaycanda ilk beynəlxalq telefon stansiyası, ilk elektron ATS-lər qurulmuş, 1996-cı ildən isə "AzEvroTel" və "Ultel" müəssisələri lokal telekommunikasiya şəbəkəsi üzrə xidmət göstərməyə başlamışlar.

1996-cı ildə “AzTV 1” milli televiziya proqramı "Türksat" süni peyki vasitəsilə yayımlanmağa başlamış, əsası 1981-ci ildə Heydər Əliyev tərəfindən qoyulan teleqüllə isə 1996-cı ildə istifadəyə verilmişdir. Bu ilk nəhəng radio-televiziya qülləsi, radio-televiziya ötürücüsü olub ölkəmiz və xalqımız üçün çox lazımlı bir qurğu idi [2].

Ümummilli lider Heydər Əliyev 2003-cü ilin fevralında imzaladığı "Azərbaycan Respublikasının inkişafı naminə İKT üzrə Milli Strategiya (2003-2012-ci illər)" sonrakı illərdə Heydər Əliyev siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevin təfəfindən layiqli həllini tapmışdır.Milli strategiyadan irəli gələn vəzifələrin həyata keçirilməsi üçün "Elektron Azərbaycan" Dövlət Proqramı qəbul edilmiş və onların yerinə yetirilməsi nəticəsində İKT sektorunun infrastrukturu müasir texnologiya və avadanlıqların tətbiqi ilə modernləşdirilmiş, güclü qanunvericilik bazası formalaşdırılmış, davamlı və dayanıqlı inkişaf üçün etibarlı baza hazırlanmışdır [1].

Ölkə rəhbərinin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 2011-ci il 23 may tarixli fərmanının həyata keçirilməsi sayəsində dövlət orqanları tərəfindən elektron formada göstərilən xidmətlərin sayı və elektron imzanın tətbiqi uğurla həyata keçirilir. Artıq elektron imzalarn istifadəsi üçün Milli Sertifikasiya Xidmətləri Mərkəzi yaradılmışdır, dövlət orqanlarının informasiya sistemləri arasında informasiya mübadiləsini təmin edən infrastruktur qurulmuşdur, "Elektron hökumət” portalı hazırlanaraq istifadəyə verilmişdir. Bütün dövlət qurumları bunlardan bəhrələnərək vətəndaşlara elektron xidmətlərin göstərilməsini,vətəndaş-məmur münasibətlərinin yeni müstəvidə qurulmasına, şəffaflığın təmin olunmasına, informasiya tələbatının dolğun ödənilməsinə şərait yaratmışdır [4].

"Elektron hökumət" mühitində xüsusi əhəmiyyət kəsb edən informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 sentyabr tarixli fərmanı ilə Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi və Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında əlaqələndirici qurum olan Elektron Təhlükəsizlik Mərkəzi yaradılmışdır.

Müstəqillik tarixinin ən əlamətdar və tarixi hadisələrindən biri kimi diqqət çəkən 2013-cü ilin 8 fevralında ilk milli telekommunikasiya peykimizin «Azerspase-1»in orbitə çıxarılması ilə əlamətdar olaraq Prezident cənab İlham Əliyev 2013-cü ili ölkədə "İKT ili" elan etmiş və bununla bağlı müvafiq sərəncam imzalamışdır. 2015-ci, 2016-cı illərdə əlavə iki peyk orbitə buraxılması və artıq Azərbaycanda kosmik sənayenin inkişafı üçün çox gözəl imkanlar yaranacaqdır. Kosmik elm və texnologiyaların ölkəmizə yol açmasında mühüm xidmətləri olan ümummilli liderin siyasi kursunu müvəffəqiyyətlə davam etdirən prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində telekommunikasiya peyklərinin hazırlanması və orbitə çıxarılması, Azərbaycanın regionda informasiyanın ötürülməsi sahəsində lider ölkəyə çevrilməsi əsas istiqamətlər kimi nəzərdə tutulur [3].

Ölkənin informasiya cəmiyyəti quruculuğu istiqaməti üzrə yüksək hazırlığa malik kadr potensialının formalaşdırılmasını təmin etmək məqsədilə dövlət başçısı İlham Əliyevin 2013-cü il 1 fevral tarixli sərəncamı əsasında İnformasiya Texnologiyaları Universitetinin yaradılması da yüksək inkişafa xidmət edən addımlardandır.

Müasir İKT-nin inkişafının əsas infrastruktur göstəricisi sayılan internetin inkişafı üçün əhəmiyyətli tədbirlər həyata keçirilir. Cənubi Qafqaz, Orta və Mərkəzi Asiya ölkələri arasında rəqəmli televiziya yayımının ilk dəfə Azərbaycanda tətbiq olunmasına başlanılmış və indi ölkə əhalisi tamamilə rəqəmli yayıma keçir.

Ölkədə, xüsusən də regionlarda sürətli internetdən istifadənin genişləndirilməsi və keyfiyyətin yüksəldilməsi məqsədilə “Aztelekom” İstehsalat Birliyinin rayon Telekommunikasiya

Qovşaqlarının xidmət ərazilərində “Genişzolaqlı internetin inkişafı” layihəsi işlənib hazırlanmış və (1 aprel 2014-cü il tarixədək) icrasına başlanılmışdır. “Aztelekom.NET” İnternet Provayderinin əsas vəzifəsi müasir texnologiyalardan istifadə etməklə yüksək keyfiyyətli və sürətli internetə qoşulmanı təmin etməkdir. Vətəndaşlardan telefon və internetlə bağlı təklif, sifariş, və şikayətlərin internet və mobil telefondan SMS vasitəsi ilə qəbulu xidməti yaradılmış, habelə elektron xidmətlərin, distant-təhsil, elektron ticarət və digər fəaliyyət formalarının geniş tətbiqinə nail olmaqdadır.

Dünya Bankı ilə birlikdə ölkənin poçt sisteminin müasir kompyuter şəbəkəsi qurulmuş, bank-maliyyə, elektron dövlət xidmətləri, logistika və digər xidmətlərin göstərilməsinə başlanmışdır.

Möhtərəm Prezidentimiz İlham Əliyevin fərmanı ilə təsdiqlənən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əsas hədəflər və onlara çatmaq yolları qeyd olunub: innovati, rəqabətqabiliyyətli və ixracyönümlü İKT potensialının formalaşdırılması, ölkənin regional informasiya xidmətləri mərkəzinə çevrilməsi, kosmik sənayenin inkişaf etdirilməsi və peyk texnologiyalarının geniş tətbiqi, cəmiyyətin İKT biliklərinin, bacarıqlarının və hazırlığının yüksəldilməsi, "elektorn hökumət"in inkişaf etdirilməsi, İKT istifadəçilərinin informasiya təhlükəsizliyinin təmin edilməsi və s. kimi amillərin vacibliyi vurğulanır. Bu gerçəklik dövlət başçısı İlham Əliyevin 2 aprel 2014-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020- ci illər üçün Milli Strategiya"da da öz əksini tapıb [3].

Azərbaycanın İKT sektorunda ümummilli lider Heydər Əliyevtərəfindən başlanılan ölkə Prezidenti İlham Əliyev tərəfindən davam etdirilən irimiqyaslı, əzəmətli layihələr bundan sonra da uğurla həyata keçirilərək, ölkəmizin ümumi inkişafında əhəmiyyətli rol oynayacaq. Azərbaycanda İKT sektoru hazırda iqtisadiyyat sahəsi kimi dinamik inkişaf edir, eyni zamanda, digər sosial-iqtisadi sahələrin inkişafında və ümumilikdə cəmiyyətin həyatında fəal rol oynayır [4].

## Ədəbiyyat

1. Abbasov Ə. Heydər Əliyev şəxsiyyəti və gələcəyə hesablanmış siyasi kurs. Bakı, 2013, 03 may, yap.org.az
2. Abbasov Ə. Heydər Əliyev və müasir Azərbaycanın İKT siyasəti. Azerbaijan-news.az, Bakı 2013, 03 may, http ://azerbaijan-election.net/news/59-heydr-liyev-v-masir-azerbaycann-kt-siyasti.html
3. Elektron Hökumət portalı - http://rabita.az/az/c-layiheler/elektron-hokumet/
4. İmanov K. Heydər Əliyevin irsi Azərbaycanın ən dəyərli əqli mülkiyyətidir // "Respublika" qəzeti, Bakı 2013, 09 may
5. Quliyev A. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin və vətəndaş cəmiyyətinin qurucusudur. DİA.AZ, Bakı 2015, 07 may

UOT 339.924

## Azərbaycanın inteqarsiya siyasəti və milli maraqların qorunmasının geoiqtisadi əsaslandırılması

*Niftəliyev Nazim Fazil oğlu*
*Mingəçevir Dövlət Universiteti*
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı*

Müasir dünya iqtisadiyyatında köhnəlmiş geosiyasət modeli öz mövqelərini tədricən itirərək yerini beynəlxalq münasibətlərin yeni konseptual modelinə - geoiqtisadiyyata təhvil verməkdədir. Yeni texnologiyalar, yeni çağırışlar və yeni imkanlar əsri hesab edilən XXI əsrdə çoxlu sayda ölkələr artıq dünya məkanında öz mövqelərini, bu və ya digər inteqrasiya qruplaşmalarında

iştiraklarını resursların, gəlirlərin bölgüsü və yenidən bölgüsü, rəqabətqabiliyyətliliyin yüksəldilməsi kontekstində nəzərdən keçirirlər. Fikrimizcə, bu yanaşma, faktiki olaraq, müstəqil Azərbaycanın geoiqtisadi strategiyası və siyasətində də daha parlaq nəzərə çarpır və effektiv surətdə tətbiq edilir. Milli maraqların yüksək səviyyədə təmin olunduğu effektiv geoiqtisadi strategiya sayəsində Azərbaycan regional liderə, mühüm regional investora çevrilmiş, ölkəmizin geoiqtisadi əlaqələrinin dərəcəsi artmışdır.

Çoxvektorlu regional iqtisadi inteqrasiya siyasəti nəticəsində geoiqtisadi əlaqələrimizin coğrafiyasının şaxələnməsi, müvafiq olaraq geoiqtisadi nüfuzumuzun arsenalını gücləndirir.

Azərbaycanın siyasi hakimiyyəti 1993-2015-ci illər ərzində ölkənin geosiyasi vəzifələri və inkişaf ehtiyaclarına uyğun gələn fəaliyyət konsepsiyası və strategiyası seçmiş, dövlətin daxili və xarici siyasətinin prioritetlərini, istiqamət və vəzifələrini düzgün müəyyənləşdirmiş, səmərəli daxili və xarici fəaliyyət nümayiş etdirmiş, ölkəni beynəlxalq, regional, çoxtərəfli və ikitərəfli münasibətlər sistemində layiqincə təmsil etmişdir [2].

Qloballaşmanın vüsət aldığı yeni minillikdə Azərbaycan dünyanın universal və qlobal iqtisadi sisteminə müvəffəqiyyətlə inteqrasiya olunur, Avropa İttifaqı, Ümumdünya Ticarət Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və digər transmilli iqtisadi-maliyyə qurumları ilə hərtərəfli əməkdaşlıq edir. Ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə 2015-ci ildə də investisiya siyasətinin əsas prioritet istiqamətlərini infrastruktur sahələrinin inkişafı, investisiya resurslarının qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsinin stimullaşdırılması, regionlar arasında investisiyaların bölgüsünün optimallaşdırılması, ölkədə investisiya fəaliyyətinin sosial istiqamətinin gücləndirilməsi təşkil etmişdir. 2006-cı ildən etibarən ölkədə əsas kapitala 120,9 mlrd. manat həcmində investisiya yönəldilmişdir. 2015-ci ildə əsas kapitala yönəldilmiş vəsaitin həcmi 2005-ci ildəkindən 2,8 dəfə çox olmuşdur.

2015-ci il ərzində iqtisadiyyatın və sosial sahələrin inkişafına bütün maliyyə mənbələri hesabına 16,0 mlrd. manat əsas kapitala investisiya yönəldilmişdir. Əsas kapitala yönəldilmiş ümumi sərmayələrin 44,9 faizi neft sektorunun, 55,1 faizi isə qeyri-neft sektorunun inkişafında istifadə edilmişdir. Bu vəsaitin 56,0 faizni daxili investisiyalar, 44,0 faizni isə xarici investisiyalar təşkil etmişdir. Hazırda adambaşına düşən xarici investisiyaların miqdarına görə Azərbaycan postsovet məkanında lider ölkələrindən biri kimi tanınır.

Azərbaycanın regionda və dünyada nümayiş etdirdiyi balanslı geosiyasət, praqmatik xarici siyasət kursu, uğurlu neft strategiyası, transmilli enerji və nəqliyyat-kommunikasiya siyasəti, regional və milli təhlükəsizlik strategiyası, Avropa Birliyi, NATO, ATƏT, MDB, İKT və b. beynəlxalq-regional qurumlarla yaratdığı tərəfdaşlıq münasibətləri, Qoşulmama Hərəkatına üzv qəbul olunması, əksər beynəlxalq konvensiyalara qoşulması və beynəlxalq aləm qarşısında götürdüyü öhdəliklərin icrası ölkənin xarici aləmlə geosiyasi, geoiqtisadi və hərbi-geostrateji münasibətlərinə müsbət təsir göstərən əsas amillər kimi çıxış etmişdir [4].

Müasir dünyada dövlətlərin geoiqtisadi dəyər ölçüləri həm də mövcud ölkədə yürüdülən sosial-iqtisadi siyasətin xarakteri və effektivliyi ilə ölçülür. Azərbaycan özünün müsbət və pozitiv iqtisadi inkişaf meyillərini – iqtisadiyyatının liberallaşdırılmasını, Qərblə iqtisadi əlaqələrini və bazar iqtisadiyyatı mexanizmlərini inkişaf etdirilməklə yanaşı, həm də ölkə daxilində sabit vətəndaş birliyinin yaradılması istiqamətində mühüm nailiyyətlər qazanmışdır. Ölkədə həyata keçirilən düzgün və fəal daxili siyasət onun ictimai-siyasi mühitini nəzərə çarpacaq dərəcədə modernləşdirmiş, cəmiyyət həyatını demokratikləşdirmiş, sosial-mənəvi sahələri yeniləşdirmiş, vətəndaş cəmiyyəti təsisatlarını formalaşdırmış və müasir dövrün tələblərinə uyğunlaşdırmışdır.

Avropa dəyərlərinə, dünyəvi və hüquqi dövlət prinsiplərinə üstünlük verməsi, vətəndaşlarının təhsil, mədəni və intellektual səviyyəsini yüksəltməsi onun dünyəvi geosiyasi əhəmiyyətini xeyli artırmış, planetar imicinə və geosiyasi xarakteristikasına müsbət təsir göstərmişdir. Hazırda Azərbaycan öz ictimai-siyasi və sosial-mənəvi vəziyyəti, yekdil milli-dini-vətəndaş birliyi, cəmiyyətinin vəziyyəti və s. ilə Cənubi Qafqazın ən sabit və tolerant ölkəsi hesab olunur

Azərbaycan Cənubi Qafqazda həm də xristianıqla islamın sərhədlərinin və sivilizasiyaların qovuşduğu, müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin bir arada fəaliyyət göstərdiyi, dini

dözümlülüyün hökm sürdüyü coğrafi məkan, öz multikulturalist və tolerant cəmiyyəti, sabit ictimai mühiti ilə seçilən dövlət hesab olunur.

Ölkə rəhbərliyinin bu istiqamətdə yürütdüyü ardıcıl siyasət regionda Azərbaycanın geosiyasi nüfuzunu artırmaqla yanaşı, həm də Cənubi Qafqaz və Xəzər hövzəsində regional sabitlik və təhlükəsizliyin təmin olunmasına ciddi təsir göstərir. Bütün bunlar, əlbəttə ki, onun xarici aləmlə geosiyasi tərəfdaşlığına müsbət təsir göstərən əsas amil hesab olunur [3].

Tədqiqatçılar Azərbaycanın üstün geosiyasi resursları sırasına, həmçinin azərbaycanlıların ölkədaxili və beynəlxalq aləmdə nümayiş etdirdiyi vətəndaş birliyini, hakimiyyətin siyasətinə xalqın etimadı və dəstəyini, milli maraqların və ölkədaxili sabitliyin qorunması üçün əhalinin, xüsusən, ziyalıların nümayiş etdirdiyi güclü milli iradəni, vətəndaş əzmini və dövlətçilik təfəkkürünü də aid edirlər.

Bu gün bölgədə ən sabit cəmiyyət, milli, etnik, dini icmalar arasında sülh və tolerantlıq mühiti də məhz Azərbaycanda hökm sürür. Bütün bunlar da öz növbəsində Azərbaycanın Cənubi Qafqazdakı geosiyasi liderliyindən xəbər verir, yürüdülən daxili və xarici siyasətində mühüm amil kimi çıxış edir [1].

Dövlətlərin siyasi, iqtisadi və s. fəaliyyətinin ölçü meyarı, göstəriciləri və müvəffəqiyyəti həm də onun beynəlxalq nüfuzundan, geosiyasi imicindən, qazanılmış reputasiyasından, onu təmsil edən rəhbərlərin (yaxud rəhbər işçilərin) təsdiq olunmuş nüfuzundan, daxildə və beynəlxalq aləmdə nümayiş etdirdiyi fəaliyyətdən, xalqının mədəni və intellektual səviyyəsindən asılıdır. Bu baxımdan Azərbaycan özünün regional imicinə, daxili ideoloji-mədəni resurslarına görə dünyada seçilən yerlərdən birini tutur. Bu yer bir tərəfdən ümummilli lider, dünyada nüfuzlu ictimai-siyasi və dövlət xadimi imici qazanmış Heydər Əliyevin uzun müddət ölkəni beynəlxalq aləmdə təmsil etməsi, müsəlman ölkələri içərisində Azərbaycanın daha çox Avropa dəyərlərinə, dünyəvi və hüquqi dövlət quruculuğu yoluna üstünlük verməsi, xalqın təhsil, mədəni və intellektual səviyyəsinin yüksək olması, dünyanın elm, mədəniyyət və incəsənət xəzinəsinə verdiyi qabaqcıl töhfələrlə, digər tərəfdənsə hazırda Prezident İlham Əliyevin yürütdüyü tam müstəqil demokratik və prinsipal xarici siyasət kursu ilə bağlıdır. Dövlətlərin geosiyasi gücünün və beynəlxalq aləmə təsir imkanlarının əsas göstəriciləri həm də onun bütün dünyanın, ayrı-ayrı regionların ictimai-siyasi, iqtisadi, sosial, təhlükəsizlik mühitinə, beynəlxalq aləmin rəsmi və ictimai rəyinə təsir etmək imkanları, transmilli proseslərdə iştirakı və s. ilə ölçülür. Bu baxımdan Azərbaycanın dünya ölkələrinin alternativ enerji təminatı, transmilli enerji, nəqliyyat kommunikasiya layihələrində iştirakı, digər planetar qlobal proseslərdə – beynəlxalq terrorizmə, narkomaniyaya qarşı mübarizədə, dünya siyasətinin demokratik transformasiyasında, regional inteqrasiya və s. fəal mövqeyi onun bölgədəki geosiyasi gücünü və təsirini, beynəlxalq aləmdəki nüfuzunu, rolunu və dəyərini xeyli yüksəltmişdir.

Lakin nəzərə almaq lazımdır ki, qloballaşma dövrünün müasir çağırışları fonunda bütün ölkələr, o cümlədən dünyanın aparıcı dövlətləri qlobal və regional çərçivədə, müəyyən proseslərin və hadisələrin təsiri altında, habelə qarşılıqlı maraqlar kontekstində tez-tez öz siyasətlərinə müəyyən düzəlişlər edirlər. Azərbaycan da öz milli maraqlarının təmin edilməsinə istiqamətlənmiş siyasi kursuna, əlverişli coğrafi mövqeyinə və kəsb etdiyi transmilli geosiyasi əhəmiyyətinə uyğun olaraq bu və ya digər gedişlər edir və bundan sonra da edəcəkdir.

Bir faktı da qeyd etmək lazımdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsindəki regional qarşıdurmalara və bəzi ölkədaxili problemlərə görə bir çox maraqlı dairələr dünya investorlarına nə qədər Azərbaycanı əlverişsiz bir ölkə kimi təqdim etməyə çalışsalar da, malik olduğu zəngin enerji resursları, Xəzər hövzəsində yürütdüyü effektli neft-qaz siyasəti və reallaşdırdığı çoxsaylı transmilli layihələr onu bütün dünya üçün bir o qədər, cəlbedici və arzuolunan tərəfdaşa çevirmişdir.

Beləliklə, ölkənin müasir geosiyasi xarakteristikası onu deməyə əsas verir ki, müstəqillik əldə edildikdən sonra tarixi baxımdan ötən qısa dövr ərzində Azərbaycan keçid dövrünü başa vurmuş, güclü regional geosiyasi amilə çevrilmiş, qlobal siyasətdə də öz sözü, rəyi və prinsipial mövqeyi ilə seçilən müstəqil dövlət kimi çıxış etməyə başlamışdır.

## Ədəbiyyat

1. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik, Bakı, “Azərbaycan” nəşriyyatı, 2005, 631 səh.

2. Kərimli İ.A. Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri. Bakı, Çaşıoğlu, 2006, 304 səh.

3. Rayner Fraytaq-Virminqhaus. Azərbaycanın xarici və təhlükəsizlik siyasəti // “Azerbaijan Focus” jurnalı, №1, 2009, səh. 107

4. Aleksandros Petersen. Azərbaycanın Avroatlantik baxışları // Azərbaycan focus, № 2, yanvar-mart 2010, səh.197

UOT 339.924

## Aqrar-sənaye kompleksinin dünya təsərrüfatına inteqrasiya meylləri

*Məmmədli Yeganə Zakir qızı*
*Mingəçevir Dövlət Universiteti,*
*Azərbaycan Dövlət Aqrar Universitetinin doktorantı*

Müasir dövrün ən mühüm əlaməti, müxtəlif ölkələrin iqtisadiyyatlarının qarşılıqlı asılılığının güclənməsi, makro və mikro səviyyələrdə inteqrasiya proseslərinin inkişafı, sivilizasiyalı ölkələrin intensiv surətdə qapalı milli iqtisadiyyatdan açıq tipli iqtisadiyyata keçməsindən ibarətdir. Bütün bunlar dünya təsərrüfatının iqtisadi inkişaf qanunauyğunluqlarından irəli gəlir.

Keçid iqtisadiyyatlı ölkələrdə liberal prinsiplərə və malik olduqları müqayisəli üstünlüklərə əsaslanan səmərəli iqtisadi sistemin formalaşdırılması ilə yanaşı, Aqrar sənaye kompleksinin (ASK)-nın dünya təsərrüfat sisteminə inteqrasiyası da olduqca aktualdır. Aqrar sənaye kompleksinin dünya təsərrüfatına səmərəli inteqrasiyasının aşağıdakı istiqamətlərində həyata keçirilir. İqtisadiyyatlı ölkələrdə aqrar siyasətin hədəfləri, ümumilikdə, üç istiqaməti əhatə etməlidir:

- islahatlar aparmaqla aqrar sektorda bazar münasibətlərinin bərqərar olmasına nail olunması və sektorun bazar prinsipləri əsasında tənzimlənməsi sisteminin formalaşdırılması;
- aqrar sektorun yerli potensiala, daxili tələbata və Beynəlxalq Əmək Bölgüsündə üstünlüklərinə uyğun təkmil strukturunun formalaşdırılması;
- dünya aqrar bazarına səmərəli inteqrasiyanın təmin edilməsi.

Aqrar-sənaye inteqrasiyasının obyektiv əsasını məhsuldar qüvvələrin yüksək səviyyəsi, əmək bölgüsünün dərinləşməsi, kənd təsərrüfatının iqtisadiyyatının obyektiv əsasını təşkil edir

Aqrar-sənaye kompleksinin dünya təsərrüfatına inteqrasiyası bir tərəfdən istehsalın ixtisaslaşmasının nəticəsi kimi sahələrin ayrılaraq müstəqil fəaliyyət göstərməsini əks etdirirsə, digər tərəfdən sahələrin qarşılıqlı əlaqəsinin zəruriliyini səciyyələndirir.

Aqrar-sənaye inteqrasiyası kənd təsərrüfatı mənşəli son məhsul istehsalı prosesində texnoloji cəhətdən qarşılıqlı əlaqədə olan sahələrin və istehsal (xidmət) mərhələlərinin istehsal-iqtisadi və təşkilati cəhətdən bir-birinə yaxınlaşması və birləşməsi prosesidir.

Aqrar-sənaye kompleksi – əmək bölgüsünün dərinləşməsi, onun kooperasiyası və inteqrasiyası əsasında məhsuldar qüvvələrin inkişafının obyektiv nəticəsidir. Kənd təsərrüfatında ona xidmət edən və onun məhsullarını emal edərək istehlakçılara çatdıran sahələrlə iqtisadi əlaqələrin genişlənməsi aqrar-sənaye komplekslərinin əmələ gəlməsinə səbəb olur. Aqrar-sənaye kompleksi dedikdə, kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanılması və istehlakçılara çatdırılması ilə məşğul olan xalq təsərrüfatı sahələrinin məcmusu nəzərdə tutulur və aşağıdakı sxematik formada özünü göstərir.




ASK-nın strukturu ardıcıl və paralel əlaqələri olan müxtəlif xarakterli istehsal-texnoloji mərhələlərdən təşkil olunmuş mürəkkəb bir sistemdir. Hər bir mərhələdə kompleksin müəyyən obyektiv bir funksiyası həyata keçirilir

Buradan göründüyü kimi, aqrar-sənaye kompleksi bir-birilə sıx qarşılıqlı əlaqədə olan müvafiq sahə və istehsal sahələri sistemidir. Daha doğrusu, aqrar-sənaye kompleksi kənd təsərrüfatı və ona xidmət edən sənaye sahələri, yeyinti və yüngül sənaye, həmçinin kənd təsərrüfatı məhsullarının tədarükü, nəqli, saxlanması və satışı ilə əlaqədar sahələrdən ibarətdir. Aqrar-sənaye komplekslərinin ən geniş yayılmış forması regional tipli komplekslərdir ki, onlar da, öz növbəsində, kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, emalı və satışı üzrə texnoloji, iqtisadi və təşkilati cəhətdən qarşılıqlı əlaqəli müəssisə və təşkilatların, həmçinin onlarla ünsiyyətli istehsal vasitələri istehsal edən sənaye müəssisələrinin, xidmətedici müəssisə və təşkilatların təbii, iqtisadi və digər şəraitlərin nəzərə alınması şərti ilə bu və ya digər ərazilərdə məcmu şəklində yerləşməsini nəzərdə tuturlar.

Aqrosənaye inteqrasiyası böyük iqtisadi səmərə verən bir prosesdir. Kənd təsərrüfatında bir sıra idarə edilməsi çətin olan təbii amilin, məhsulun həcminin, meyvə, tərəvəzin çəkisinin, növünün proqnozlaşdırması kimi amillərin mənfi təsiri aqrar-sənaye inteqrasiyası nəticəsində əsasən aradan götürülür. Aqrosənaye inteqrasiya prosesləri öz növbəsində iqtisadiyyatın iki mühüm bölməsi arasında obyektiv olaraq meydana çıxan qarşılıqlı əlaqələri daha da gücləndirir və sənayeni arasıkəsilməz tərzdə kənd təsərrüfatı xammalı ilə təmin edə bilən iqtisadi və kommersiya mexanizmi yaradır. Bu cür mexanizm rezonans səmərə əldə etməyə imkan verir. Dünya kənd təsərrüfatında keçən əsrin 60-70-ci illərində baş verən dəyişikliklər, onun sənaye ilə qovuşması vaxt keçdikcə təkmilləşdirildi və nəticədə bu gün dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən aqrar sənaye komplekslərin (ASK) meydana gəlməsi ilə nəticələnmişdir. ASK hazırda dünya əhalisini ərzaqla təmin etmək sahəsində mühüm və əvəzolunmaz amilə çevrilmişlər. Ən ümumi halda ASK sənaye, kənd təsərrüfatı və bir sıra infrastruktur sahələri müəssisələrinin vahid sistemi deməkdir. Bu sistemin əsas məqsədi kənd təsərrüfatında məhsuldarlığı yüksəltmək, itkiləri azaltmaq, meyvə-tərəvəzi vaxtında emal etmək, keyfiyyəti saxlamaq, kənd təsərrüfatı üçün istehsal alət və vasitələri istehsal etmək, kənd təsərrüfatı məhsullarının nəql edilməsini və istehlakçılara keyfiyyətli formada çatdırılmasını, hazır məhsulun vaxtında satılmasını təşkil etməkdir.

Yüksək dərəcədə inkişaf etmiş ölkələrdə bu sahədə böyük nailiyyətlər əldə edilmiş və nəticədə kənd təsərrüfatında məhsuldarlıq qat-qat yüksəlmişdir. Odur ki, aqrar-sənaye kompleksinin modernləşdirilməsi və sahələrarası inteqrasiyanın əsas məqsədlərindən biri, onun dünya standartlarına uyğunlaşdırılması və dünya təsərrüfatına bərabərhüquqlu subyekt kimi inteqrasiyasının təmin edilməsi olmalıdır.

## Ədəbiyyat

1. Aqrar sahə modernləşmə dönəmində: problemlər və onun həlli yolları (kollektiv monoqrafiya). Bakı: Elm, 2009. səh.194-195

2. Verdiyev Ə.Ç. və başqaları "Aqrara sənaye kompleksində sahələr arası inteqrasiya əlaqələrinin səmərəliliyi", Bakı, 1994, səh.106

3. Xəlilov H.A. "Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modernləşdirmə şəraiti", Bakı, 2005

4. www.agro.gov.az

UOT 330 332

## Milli innovasiya ölkə iqtisadiyyatının inkişafının vacib elementi və iqtisadi proseslərin sürətləndiricisi kimi

*Məcidov Rizvan Hacı oğlu*
*doktorant Abdiyeva Gülgün Zeynal qızı*
*Azərbaycan Texnologiya Universiteti*

Hər bir dövlətin iqtisadi inkişafı, elmin inkişafı ilə qarşılıqlı şəkildə əlaqəlidir. Müasir dövrdə yeni texnika və mütərəqqi texnologiyaların fərqli cəhəti dünya standartlarına uyğun və ona cavab verən yüksək rəqabətqabiliyyəti məhsulun istehsalına keçiddir.

Sürətli iqtisadi inkişaf, kapital bazarı, yeni biliklərin, texnologiyaların, məhsul və xidmətlərin yaradılması və istifadəsi Milli İnnovasiya Sisteminin (MİS) ölkənin innovasiyalı inkişafının institusional əsasda yaradılmasına şərait yaradır. Ölkəmiz böyük innovasiya resurslarına və rəqabətqabiliyyətli intellektual potensiala malikdir. Ona görə də elmi-texnoloji potensialın inkişafı və istifadəsinə arxalanan MİS-i formalaşdırmaq olar. Bunun əsasında güclü fundamental elm, ixtisaslı kadrlar, müasir təhsil sisteminin inkişafı durmalıdır.

Qeyd edək ki, MİS-in vahid formalaşma metodologiyası mümükün deyil. Çünki müxtəlif dövlətlərin MİS-i qarşısında müxtəlif məqsədləri dura bilər. Məsələn, Fransada MİS-in məqsədi əlavə iş yerlərinin yaradılmasına, Almaniyada qabaqcıl texnologiyaların inkişafına yönəldilmişdir.

İqtisadiyyatın ümumi tərəqqisinin təmin edilməsində innovasiya əvəzedilməz əhəmiyyətə malikdir. Belə ki, dünya iqtisadiyyatı müəyyən inkişaf mərhələsindən keçib: kənd təsərrüfatı, sənaye və postsənaye dövrü. Son illər yeni qlobal iqtisadi mühitin təkamülü prosesi baş verir. Dünya iqtisadiyyatının sənaye və postsənaye dövrü innovasiya dövrü ilə əvəz olunur.

Aparılan təhlillər göstərir ki, ölkəmizdə rəqabət qabiliyyətli MİS-in yaradılması geniş spektrə malik olan və texnologiyaların tətbiqi iqtisadiyyatın həm dövlət həm də qeyri-dövlət sektorunda fəaliyyət göstərən təşkilatların, müəssisələrin maraqlarına uyğun olmalıdır. Ancaq bu halda tədqiqatların dəstəklənməsi və alınmış nəticələrin istehsala tətbiqi reallığa çevrilə bilər.

MİS-in formalaşması zamanı bu amillərin nəzərə alınması məqsəduyğundur: ölkəmizin iqtisadiyyatının inkişafına təsir göstərmək üçün lazım olan qədər xarici investisiyanın emal sənayesi, elm və texnologiya sahələrinə cəlb edilməsinə səylərin artırılması, istehsal olunmuş məhsulların beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin yüksəldilməsi; ölkədaxili bazarın xarici ölkələrdən idxal olunan məhsullara, bir qayda olaraq, müqavimət göstərə bilməməsi.

Eləcə də innovasiya fəaliyyəti haqqında qanunun daha da inkişaf etdirilməsi üçün aşağıdakı qaydaları özündə əks etdirən normativ aktların qəbul edilməsi tövsiyyə oluna bilər: innovasiya layihələrinin müsabiqə yolu ilə seçilməsi və büdcədən kreditləşdirilməsi; innovasiya fəaliyyəti gösətərn subyektlərə subsidiyaların ayrılması və qrantların verilməsi, dövlət əhəmiyyətli innovasiya layihələrinin dövlət ekspertizasından keçirilməsinin təşkili, texnoparkların və texnoloji biznes inkubatorların formalaşdırılması və lazımi ehtiyyatlarla təmin olunması, innovasiya məhsullarının yaradılması üçün sifarişlərin yerləşdirilməsi.

Bütün bunlar MİS-in formalaşması prosesində elmi-texniki, texnoloji, intellektual potensialından və maliyyə imkanlarından daha rasional istifadə olunmasını tələb edir. Formalaşmaqda olan MİS təkcə biliklərə əsaslanan iqtisadiyyatın inkişafını deyil, həm də respublikamızın dünya innovasiya prosesinin bərabər hüquqlu iştirakçısına çevrilməsini təmin etməkdir.

Hazırda ölkəmizdə fundamental və tətbiqi xarakterli elmi-tədqiqat işlərinə ayrılmış vəsaitlərin müəyyən bir hissəsini elmi-texnoloji işlərin nəticələrinin istehsalda tətbiq olunmasına və seriyalı məhsullar istehsal edilməsinə yönəltmək mümkün deyildir. Ona görə də hətta perspektivli elmi-texnoloji nəticələr vaxtlı-vaxtında istehsala çatdırıla bilmir. Bunun üçün də respublika büdcəsində elmi-texnoloji inkişafa yönəldilməsi nəzərdə tutulan vəsaitlərin həcminin əhəmiyyətli dərəcədə

artırılması vacibdir. Bundan həm də elmi-texnoloji innovasiyaların istehsala tətbiqinə yönəldilən səyləri stimullaşdırmaq məqsədilə istifadə etmək olar.

Respublikamızda innovasiya sahəsi üçün kadrların hazırlanması sisteminin təşkil olunması həlli vacib olan əsas problemlərdən biridir. Belə ki, ölkə iqtisadiyyatında mühüm iqtisadi dəyişikliklərə nail olmaq və milli innovasiya sistemində yaranmış texnoloji gərginliyi aradan qaldırmaq üçün böyük əhəmiyyət kəsb edən problemlərdən biri də elmin aparıcı sahələrində çalışmaq üçün milli elmi kadrların hazırlanmasının dövlət tərəfindən dəstəklənməsinin təmin olunmasıdır. Mövcud olan kadr potensialını, maddi texniki bazanı, innovasiyalara əsaslanan inkişaf imkanlarını nəzərə alaraq, ölkəmizin təhsil ocaqlarının elmi mərkəzləri, elmi tədqiqat institutları ilə sıx inteqrasiya olunmasına real şərait yaradılmalıdır.

Respublikada aparılan müxtəlif təyinatlı islahat proqramlarında mövcud elmi potensialdan düzgün və səmərəli istifadə edilmsi zəruridir. İnsan potensialının inkişafını daim diqqət mərkəzində saxlayan, bu məsələyə xüsusi əhəmiyyət verən ölkə başçısı cənab İlham Əliyev göstərir ki, “...İnsanlarımızın intellektual potensialı çox yüksəkdir.” Bu amil respublikada müxtəlif layihələri planlaşdıran dövlət qurumlarının da daim diqqət mərkəzində olmalıdır.

Qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, Azərbaycanda innovasiya prosesini genişləndirilmək üçün hələ xeyli işlər görülməlidir. İlk növbədə, qanunçuluq bazası yaradılmalı, MİS-in konsepsiyası və inkişaf proqramı qəbul edilməlidir. Fikrimizcə, yuxarıda sadalanan işlər kompleksi ölkəmizdə innovasiya təşkilatlarının uğurlu fəaliyyəti üçün vacib olan münbit iqtisadi mühitin yaradılmasına gətirib çıxaracaqdır.

## Ədəbiyyat


1. Şahbazov K. Menecment. Bakı, 2007
2. Мескон М.Х., Альберт М., Хедоури Ф. Основы менеджмента. Москва, 1997
3. Питер Друкер. Менеджмент: задачи, обйазанности, практика. Москва, 2008


UOT 35; 316

## Korporativ mədəniyyət – milli-mədəni dəyərlərin tərkib hissəsi kimi

*Rəsulov Zaur Yusif oğlu*
*Mingəçevir Dövlət Universiteti*

Məlumdur ki, hər bir iqtisadi fəaliyyət dərin sosioloji köklərə malikdir. Bu baxımdan mədəniyyət cəmiyyətdə insanların davranışlarının, qarşılıqlı münasibətlərinin, motivlərinin formalaşmasında böyük rol oynayacaq irsi dəyər kimi qəbul olunur. Mədəniyyət inkişafın müəyyən tarixi mərhələsində insanların davranışlarını, fəaliyyətlərini və həyatın müxtəlif cəhətlərini ifadə edən kompleks anlayışdır [1].

Texnologiyanın inkişaf tempinın artdığı, qloballaşmanın geniş miqyas aldığı yaşadığımız XXI əsrdə mədəniyyət, mədəniyyətlərarası əlaqələr, milli-mədəni dəyərlər və onların biznes və menecment prosesinə təsiri daha da aktuallaşmışdır. Aparılan tədqiqatlar göstərir ki, əvvəllər qəbul olunmuş bir çox dəyərlər (icraçılıq, nizam-intizam, iyerarxiya, subordinasiya, amirlik, karyera və s.) öz əhəmiyyətini müəyyən qədər itirir və ya ciddi dəyişikliyə məruz qalır. Bununla yanaşı kollektivçilik, tələbatlara istiqamətlənmək, qərarların qəbulunda iştirak və icra müstəqilliyi, etibarlılıq, peşəkarlıq, sabitlik və başqa dəyərlərin əhəmiyyəti xeyli dərəcədə artır [1]. Məhz bu cür şəraitdə istər ölkə daxilində, istərsə də transmilli şirkətlərdə ayrı-ayrı peşə sahibləri müxtəlif dəyərlərə, mədəniyyətə malik insanlarla, eləcə də əməkdaşlarla müxtəlif informasiya, təcrübə, ideya mübadiləsində olur və nəticədə, mədəniyyətlərarası layihələr meydana çıxır, yeni beynəlxalq, müştərək müəssisələr yaradılır [5].

Bir sıra müəssisələrdə strateji və taktiki məqsədlərin qeyri-müəyyənliyi, məqsədə nail olmaq vasitələri və dəyərlər sistemi haqqında işçilərin təsəvvürlərinin olmaması, rəhbər işçilərlə əməkdaşların motivasiyalarındakı ciddi fərqlər təşkilati mədəniyyətin formalaşmasına mane olan ciddi amillər hesab olunur və biznesdə uğura aparan yol bu sahədə səciyyəvi mədəniyyətin rolunun öyrənilməsini, korporativ mədəniyyətin formalaşmasını zəruriyyətə çevirir.

Ölkələrdə olduğu kimi, müəssisələrin də müəyyən mədəniyyət göstəriciləri var. Bu mədəniyyət müəssisə mədəniyyəti, təşkilati mədniyyət və ya korporativ mədəniyyət adlandırılır.

Korporativ mədəniyyətlə milli mədəniyyət arasında ayrılmaz əlaqə mövcuddur. Korporativ mədəniyyət ümumi mədəniyyət ünsürləri üzərində qurulur və xalqın mədəniyyəti ilə sıx bağlıdır.

Korporativ mədəniyyət haqqında müxtəlif elmi mülahizələr irəli sürülmüşdür. Korporativ mədəniyyət insanların dəyərlər haqqında prinsiplər və təsəvvürlər sistemidir. Dəyərlər haqqında təsəvvürlər şirkət üçün nəyin əhəmiyyətli olması süalına cavab verir, prinsiplər isə müəssisənin necə idarə olunması və fəaliyyət göstərməsini anlamağa imkan verir.

Rusiya iqtisadçısı V.D.Kozlov korporativ mədəniyyətə belə tərif vermişdir: «Korporativ mədəniyyət fəaliyyətin formal və qeyri-formal norma və qaydalarının, adət və ənənələrin, şəxsi və qrup maraqların, müəssisə işçilərinin davranışlarının, qarşılıqlı əməkdaşlığın, işçilərin müəssisənin inkişaf perspektivlərində maraqlarının xüsusiyyətləri sistemidir» [1].

Beləliklə, korporativ mədəniyyət bu fəaliyyətin iştirakçılarının qarşılıqlı münasibətlərini və şirkətin dəyərlərini müəyyən edir. Hər bir yeni yaranan müəssisə öz daxili mədəniyyətini formalaşdıraraq özünün daxili (hakimiyyətin bölünməsi, məqsəd və vəzifələrin, səlahiyyət və məsuliyyətlərin dəqiqləşdirilməsi, kollektivdə xoş işgüzar psixoloji iqlimin yaradılması və s.) və xarici münasibətlərinin özülünü qoymuş olur.

Korporativ mədəniyyət istehsal mədəniyyətinin, menecerlərin öz mədəniyyətlərinin formalaşdırılmasından, sahibkarlıq etikasından və mədəniyyətin digər elementləridən asılı olaraq formalaşır.

Korporativ mədəniyyətin əsasını şirkətin işlərinin aparılmasını müəyyən edən biznes fəlsəfəsi və təsəvvürlər təşkil edir. Bu fəlsəfə şirkətdə işlərin reallaşdırılması tərzinin necə aparılmasnı və nə üçün belə aparılması suallarını cavablandırır.

Şirkətin korporativ mədəniyyəti rəhbərlik tərəfindən müəyyən edilən işlərin aparılması prinsipləri və dəyərlər sistemində, etik normalar və rəsmi siyasətdə, şirkətin ənənələrində, şəxsiyyətlərarası münasibətlərdə, heyətin işinə nəzarət təcrübəsində, şirkətin dəqiq müəyyən edilmiş iş qaydalarında və şirkətin xüsusi daxili mühitində təzahür olunur [1].

Korporativ mədəniyyət kimdən asılıdır?

Korporativ mədəniyyətin mənbələri şirkət mülkiyyətçisinin dünyaya, özünə və biznesə münasibətindən son dərəcə asılıdır. Sahibkar şirkətin fəaliyyətində fəal iştirak etməsə belə, o, yenə də şəxsi dəyər və prinsiplərini top-menecerlər vasitəsilə şirkətə ötürür. Bu zaman əgər korporativ mədəniyyətin "səbəbkarı" sahibkardırsa, "ötürücüsü" – top-menecmentdir. Səmərəli korporativ mədəniyyətin inkişafı şirkətin ali rəhbərliyindən asılıdır. Məhz rəhbər bu gün vacib olanı göstərərək, fəaliyyəti, dəyişiklikləri istiqamətləndirərək, nəyisə gücləndirərək və ya zəiflədərək prioritetləri müəyyənləşdirir [3].

Korporativ mədəniyyətin əsas təşkilediciləri adətən şirkətin yaradıcısı, yaxud bu təşkilediciləri şirkətin fəlsəfəsi səviyyəsinə yüksəltmiş, şirkətin riayət olunmalı olan prinsiplər toplusunu, strategiyasını, siyasətini və missiyasını müəyyən etmiş menecerin adı ilə bağlanılır. Vaxt ötdükcə, şirkətin işçi və mütəxəssisələri bu prinsiplərə uyğunlaşırlar və yeni qəbul edilən işçilər sistemlərə uyğunlaşmalı olurlar. Beləliklə, korporativ mədəniyyət şirkətin daxili sosial qüvvələrinin fəaliyyətinin nəticəsi kimi çıxış edir. O, şirkət daxilində xüsusi önəm verilən və qarşılıqlı asılılıqda olan dəyərlər sistemi və davranış normalarnın məcmusudur.

Korporativ mədəniyyət – dəyərlər toplusu və onlardan irəli gələn davranış qaydaları, normaları, həmçinin əməkdaşların şüurunda mövcud olan digər elementlərdir ki, bunlar da rəsmi və ya qeyri-rəsmi liderlər vasitəsilə onların davranışlarında həyata keçirilir və bu, təşkilatda təkrarlanır. Yəni, şirkətdə insan amili varsa, korporativ mədəniyyət də mövcud olacaqdır.

“Weyerhaeuser” şirkətinin nümayəndəsi Effenus Hendersenin sözlərinə görə, qloballaşma şirkət rəhbərləri qarşısında yeni vəzifələr qoyur. Liderlər müasir çoxşaxəli dünyada müxtəlif millətlərdən və dinlərdən olan insanlarla əlaqələr qurmağı və onlara rəhbərlik etməyi bacarmalıdırlar. Şirkətin irəliləməsi ilə bağlı ideyaların həyata keçirilməsi onun bütün əməkdaşları ilə razılaşdırılmalıdır. Adətən təşkilatlarda mövcud olan korporativ mədəniyyət kollektivin bütün üzvləri tərəfindən sübutsuz qəbul edilən və ümumi davranış çərçivələrini nəzərdə tutan mürəkkəb təkliflər kompleksidir.

Müasir rəhbərlər öz təşkilatlarının mədəniyyətinə onun bütün bölmələrini və ayrı-ayrı şəxsləri ümumi məqsədlərə istiqamətləndirməyə, əməkdaşların təşəbbüslərini səfərbərliyə almağa və onlar arasında səmərəli ünsiyyəti asanlaşdırmağa imkan verən güclü strateji vasitə kimi baxırlar. Onlar hər bir təşkilatın özünəməxsus mədəniyyətini yaratmağa çalışırlar ki, bütün qulluqçular onu başa düşüb dəstəkləsinlər. Müasir təşkilatlar bir qayda olaraq çoxmədəniyyətli qurumu təmsil edirlər [4].

Eyni zamanda, qeyd olunmalıdır ki, korporativ mədəniyyət şirkətdə qarşılıqlı münasibətləri tənzimləyən və əbədi təsdiq olunmuş normalar toplusu deyildir. Milli və beynəlxalq iqtisadiyyatda baş verən böhranlar və dəyişikliklər yeni davranış standartlarının, yeni işgüzar qaydaların işlənməsi zərurətini yaratmış olur.

Sonda qeyd etmək lazımdır ki, respublikamız da davamlı inkişaf mərhələsindədir. Digər sahələrdə olduğu kimi, artıq biznesdə də öz işini gözəl bilən menecerlər yetişməkdədir. Odur ki, strategiyanın həyata keçirilməsi, qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün Azərbaycan şirkətlərinə hansı korporativ mədəniyyətin lazım olduğu barədə düşünməlidirlər: əməkdaşlar üçün nə prioritet olmalıdır, onlar nədən əmin olmalıdırlar və hansı davranışı normal hesab etməlidirlər. Məhz buna görə də hər bir biznes-struktur biznes üçün əlverişli olan mədəniyyəti formalaşdırmalı və dəstəkləməlidir. Bu şirkətlər aşağıda qeyd edilən mənəvi dəyərləri öz fəaliyyətində rəhbər tutaraq, şirkətin özünün inkişafı və cəmiyyətə faydalı olması üçün zəruri olan korporativ mədəniyyətinin yaradılmasına səy göstərməlidir [6]:

- əməkdaşların, tərəf müqabillərinin və bütövlükdə cəmiyyətin hüquq və qanuni mənafelərinə hörmət;
- ədalət, yəni hər bir əməkdaşın öz əməyinə mütənasib olaraq şirkətin gəlirindən istifadə etmə imkanının yaradılması;
- bərabərlik, hər kəs üçün bərabər əmək şəraiti, o cümlədən istirahət hüququ və ixtisasartırma hüququnun təminatı;
- şirkətin əməkdaşlarının şirkətin fəaliyyətindən irəli gələn mənfi fəsadlardan qorunması;
- şirkətin əməkdaşlarının peşəkarlıq, təcrübə və şirkətin inkişafında sərf etdikləri zəhmət meyarları əsasında irəli çəkilməsi.

Bu dəyərləri şirkətin hər bir əməkdaşı üçün məcburi etməklə yanaşı, şirkət öz tərəf müqabilləri ilə də əlaqələri həmin dəyərlərə əsasən qurmalıdır.

Fikrimizcə, respublikamızda mövcud olan şirkətlər korporativ mədəniyyəti aşağıdakı prinsiplərin köməyilə daha da möhkəmləndirə bilərlərlər [1]:

- məqsəd və davranışları şirkətin stilinə və məqsədlərinə uyğun gələn yeni işçilərin iş götürülməsi;
- yeni işçilərin korporativ mədəniyyətin prinsipləri ilə sistematik olaraq tanış edilməsi;
- işçi heyətlə söhbətlər zamanı şirkətin tarixi və dəyərləri barədə daim söhbət aparmaq;
- korporativ mədəniyyət normalarına yüksək səviyyədə riayət edən işçilərin mükafatlandırılması və bu normaları pozanların cəzalandırılması.

Beləliklə, Qərblə Şərqin kəsişməsində cografi və siyasi cəhətdən strateji mövqedə yerləşən respublikamızın şirkətləri üçün korporativ mədəniyyət mühüm əhəmiyyət kəsb edir. Məqsədi cəmiyyət və hər bir əməkdaş üçün fayda verən, gəlirlə fəaliyyət göstərən şirkət olmaq olan hər bir Azərbaycan şirkəti həm Qərbə inteqrasiya olmaqla, həm də Şərq adət-ənənələrini saxlamaqla xalqımızın milli-mədəni dəyərlərini əsas götürməli və korporativ mədəniyyətlə düzgün əlaqələndirməyi bacarmalıdır. Bununla yanaşı onlar yaradıcılıq xüsusiyyətlərinin korporativ mədəniyyətin mühüm elementləri arasında yer almasına çalışmalı, təşkilat daxilində rəsmi-işgüzar dilin düzgün seçilməsinə böyük önəm verməlidirlər.

## Ədəbiyyat


1. Kərimov X.Z. Strateji idarəetmə: Metodlar və praktika. Bakı: «Elm», 2006, 196 səh.
2. Beynəlxalq biznes mədəniyyəti / T.Süleymanoğlu, R.Məmmədov// Xalq qəzeti. – 2014. 03 dekabr
3. Biz hansı korporativ mədəniyyəti seçirik? / Ş.Seyidzadə// Biznesinfo.az. – 2012. 02 aprel
4. Mədəniyyətlərarası dialoqun və çeşidliliyin təşviqində korporativ sektorun rolu/AzərTac. – 2013. 31 may
5. Суворова О.Д. Взаимодействие национальной и корпоративной культур: языковой и культурологический аспекты. Дис. …канд. куль. наук. Москва, 2007, 212 с.
6. www.economy.gov.az



UOT 339.924


### Qloballaşma şəraitində iqtisadi inteqrasiyanın Azərbaycanın sosial-iqtisadi inkişafına təsiri


*Əliyeva Təranə Əsman qızı*
*Mingəçevir Dövlət Universiteti*


Milli-mənəvi dəyərlər xalqımızın özünəməxsus xüsusiyyətidir. Azərbaycan xalqının söykəndiyi bu dəyərlər ulu öndər Heydər Əliyevin yaratdığı dövlətçilik prinsiplərinin əsasında durur. Ulu öndərin yaratdığı dövlətçilik prinsiplərinin aparıcı xətti azərbaycançılıqdır. Milli-mənəvi dəyərlərimizi qorumaq bizim ən ümdə vəzifələrimizdən biridir. Bu gün milli-mənəvi dəyərlərimizi təhdid edən müxtəlif amillərlə də rastlaşırıq. Milli-mənəvi dəyərlərimiz xarici təsirlərə məruz qalır. Bu təsirlər isə müasir dünyamızın reallıqlarından irəli gəlir. Bizim milli-mənəvi dəyərlərimizin başqa xalqların mənsub olduqları dəyərlərlə qovuşması prosesi gedir. Biz də dünyada gedən bu prosesdən kənarda deyilik. Milli-mənəvi dəyərləri, milli xüsusiyyətləri, adət-ənənələri qorumaq üçün mühüm işlərin görülməsi zəruridir. Əks təqdirdə, dünyada gedən mədəniyyətlərarası qovuşmada böyük təsir gücü altında mədəniyyətlərin də, milli adət-ənənələrin də assimilyasiyası prosesi gedə bilər.

Azərbaycanda yaxın və uzaq əhatədə gedən sürətli inteqrasiya proseslərinin dərin təhlilinə, ölkəmizin milli təhlükəsizliyinə və perspektivlərinə, yeni geosiyasi reallıqda başlıca inkişaf vektorlarının seçiminə, Avropa və MDB ölkələri ilə dəyişən şəraitdə qarşılıqlı münasibətin və əməkdaşlığın optimal formatının müəyyənləşməsinə olan zərurət bu proseslərin elmi əsaslandırılmış konsepsiyasının olmasını tələb edir.

İnteqrasiya probleminin dünya inkişafının konkret təcrübi reallığı səviyyəsindən, dövlətlərin daxili və xarici siyasətindəki dönüş nöqtələrini müəyyən edən həyati vacib məsələ kimi nəzəri təhlil səviyyəsinə qədər genişlənməsi son yarım əsrdə aşkar müşahidə olunan meyillərdən birinə çevrilmişdir. Bu baxımdan qeyd etmək vacibdir ki, inteqrasiya məsələlərinin bu gün dünya inkişafının mövcud yeni reallıqları və perspektivləri işığında təhlili son dərəcə aktuallıq kəsb edir.

Beynəlxalq inteqrasiya prosesləri son dərəcə çoxşaxəli, rəngarəng məzmunlu fenomendir. Onun konkret mükəmməl ifadəsinin indiyə qədər formalaşmamasının səbəbini məhz prosesin ifadə etdiyi fövqəlmürəkkəb hadisə, faktlar və ziddiyyətli, bəzən bir-birini istisna edən şərhlər və nəzəri mövqelər şərtləndirir. Bunu problemin təhlilində müxtəlif mövqe, yanaşma, dəyərləndirmə və proqnozların ümumi mənzərəsinə qısa nəzər salmaqla da aydın müşahidə etmək olar. Onu da qeyd etmək vacibdir ki, inteqrasiyanın mürəkkəb məzmununun təhlili bir neçə elmi nəzəriyyənin - siyasi, iqtisadi, hüquqi, mədəni və s. araşdırmaların qovuşuğunda kompleks tədqiqat aparılmasını zərurətə çevirir.

Müasir dünyada inteqrasiya ideyasının və inteqrasiya ənənələrinin reallığa çevrildiyi Avropa modeli XX əsrin ikinci yarısının ən möhtəşəm sosial fenomeni hesab olunur. Onun tarixinə, inkişaf qanunauyğunluqlarına, mümkün nəticə və perspektivlərinin təhlilinə yüzlərlə tədqiqat həsr olunmuşdur. Bununla belə Avropa birliyində inteqrasiya proseslərini müşayiət edən ziddiyyətlərin dəf edildiyini, indi və gələcəkdə gözləyən çətinliklərin isə artıq tarixdə qaldığını hələ də heç kim qətiyyətlə söyləyə bilməz. Əksinə, inteqrasiyanın irəliyə doğru atılan hər bir addımında onun daha miqyaslı və daha mürəkkəb problemlər dairəsini şərtləndirdiyini əminliklə demək olar. Bu da bütövlükdə Avropada inteqrasiya modelinin, o cümlədən də bu prosesə xas olan unikal xüsusiyyətlərin əvvəllər müşahidə olunmayan təzahürlərini aşkara çıxarmış, inteqrasiya modellərinin bu vaxtadək qarşılaşmadığı yeni situasiyanın formalaşmasına gətirib çıxarmışdır. Bu və ya digər məsələlər hər şeydən əvvəl inteqrasiyanın anlayış, ideya və proses kimi mahiyyətinə dair aydın təsəvvürlər sisteminin, yekdil qənaətin, ümumən qəbul edilmiş inteqrasiya nəzəriyyəsinin müəyyənləşməsini çox aktual edir.

"İnteqrasiya"nın ideya və anlayış kimi etmoloji mənasının kifayət qədər anlaşıqlı olması şəraitində, onun nəzəriyyə səviyyəsində şərhlər müxtəlifliyini doğurması, əlbəttə ki, paradoksal məqamdır. Öz növbəsində bu da onu göstərir ki, inteqrasiya söz və ideya kimi müstəvidən, real əməkdaşlıq modelinə və inkişaf paradiqması müstəvisinə keçid alandan sonra onun məna (nəzəri və təcrübi) mürəkkəbliyi dərk edilməyə başlanmışdır.

Dünya tarixində inteqrasiya anlayışının geniş tətbiqindən daha əvvəl inteqrasiya ideyası yaranmışdır. İnsanların birlik, sabitlik şəraitində yaşamaq arzuları mütəfəkkirlər, siyasətçilər tərəfindən mükəmməl ideya kimi izahını tapmış, nəzəri ifadə olunmuşdur. Avropa məkanında birlik və inteqrasiya ideyası da başlanğıcından bu günə paradoksal təzahürlərə malik olmuş, reallaşması üçün paradoksal əks məzmunlu tarixi proseslərdən keçmişdir. İlkin dönəmlərdə birləşmənin yolunu müharibə meydanlarında, savaşla imperiyalar yaratmaqda görənlər üstünlük təşkil etmişdir

Bu gün demokratik və azad dövlətlərin möhkəm birliyi kimi Avropa faktiki olaraq vahid iqtisadiyyat sisteminə, müasir dünyanın əsas investisiya mərkəzinə, balanslaşdırılmış sosial siyasətə malik olmaqla beynəlxalq münasibətlərdə çox mühüm rol oynayır.

Əsrlər boyu davam edən Avropadaxili iqtisadi-ticarət əlaqələri burada beynəlxalq nəqliyyat, maliyyə infrastrukturunun şaxələnməsini şərtləndirdi. Ölkələr arasındakı nisbətən qısa "iqtisadi məsələlər" isə milli iqtisadi, sosial, hüquqi sistemlərin bir-birinə qovuşmasını sürətləndirdi. Yaşanılan İkinci dünya müharibəsindən sonrakı sülh və sabitlik, birlik arzusu əlverişli coğrafi amillərlə yanaşı, qarşılıqlı münasibətlərdəki ümumi siyasi abu-havanın optimal məcraya yönəlməsini şərtləndirdi. Birləşmiş Avropanın uğurları yeni yüzillikdə onun ümumdünya iqtisadi və sosial tərəqqisinin lideri olacağını güman etməyə əsas verir.

İnteqrasiya proseslərinin intensiv şəkil aldığı vaxtdan etibarən o, müxtəlif dövrlərdə müxtəlif templərlə davam etmiş, çeşidli amillərlə şərtlənmişdir. Bəzən daha sürətlə, bəzən isə ləngiyərək müxtəlif çətinliklərlə şərtlənmişdir. Bu baxımdan inteqrasiyanın mərhələlər üzrə izlənilməsi, problem və uğurların təhlili ən müxtəlif nəzəri-konseptual şərhlərin meydana çıxmasına səbəb olmuşdur. Bir mərhələdə təklif edilən, optimal hesab edilən konsepsiya növbəti mərhələ üçün məqbul olmamış, yeni yanaşmalara təkan vermişdir.

İnteqrasiyanın politoloji konsepsiyalarında iqtisadi amillərə də mühüm əhəmiyyət verildiyi üçün onları siyasi-iqtisadi yanaşma da adlandırmaq olar. Mövcud mövqelərin müxtəlifliyi hətta "inteqrasiya" termininə verilən fərqli şərhlər səviyyəsində də müşahidə olunur. İnteqrasiya – ETT-nin sürətləndirdiyi ictimai həyatın bütün sahələrində baş verən beynəlmiləlləşmə bazasında inkişaf edir, dövlətlərin və xalqların qarşılıqlı asılılığını artırır.

Azərbaycan suveren dövlət kimi mövcudluğunun ilk günlərindən Avropa məkanı ilə münasibətlərini real siyasi praqmatizm, ən ciddi elmi əsaslar və milli maraqlar üzərində qurmuşdur. Bunların mümkünlüyü isə inteqrasiyanın bütün dövrlərdə ən fundamental sayılan faktoru - alternativsiz "lider resursu" olmuşdur. XX əsrin sonlarında Azərbaycanda dünyaya və Avropaya inteqrasiya proseslərinin spesifikası müstəqilliyin əldə edilməsi və qorunması, dövlətçiliyin qurulması, miqyaslı islahatların aparılması kimi keçid dövrü ilə müşayiət olunması idi.

Müstəqil dövlətçiliyin yaradıcısı, ümummilli lider Heydər Əliyevin inkişafın bütün istiqamətlərində milli maraqlar üzərində qurulan siyasətinin həyata keçirilməsi, beynəlxalq inteqrasiya prosesləri üçün qeyri-tipik olan daxili və xarici əhatədə mürəkkəb problemlərin həll edilməsi MDB məkanı ölkələri arasında Azərbaycanın üstün start imkanları səviyyəsinə çıxarılmasını təmin etmişdir. Dünya siyasətinin görkəmli dahisi Heydər Əliyev inteqrasiyanın liderləri sayılan dünya ölkələri ilə müqayisədə mövcud olan ləngimənin minimuma endirilməsi, islahatların maksimum sürətlə reallaşması üçün bütün potensialı səfərbər etdi.

Əvvəla, ölkəmizdə milli iqtisadiyyatın inteqrasiya tərəfdaşları üçün maraqlı edən inkişaf səviyyəsinə yüksəldilməsi, bazar iqtisadiyyatına keçidin təmin edilməsi həyata keçirildi. Bununla paralel olaraq inteqrasiyanın davamlı prosesə çevrilməsinin müqəddəm - siyasi, demokratik, hüquqi amilləri bərqərar edildi. Azərbaycan regionda inteqrasiya üçün ən böyük etimad qazanan cəlbedici tərəfdaş ölkə imicini təsdiq etdi. Müstəqilliyin ilk on ili ərzində ölkəmizdə inteqrasiyanın görünməmiş templəri təmin olundu. Dünyada mövcud olan inteqrasiya modellərinin, mexanizmlərinin, prinsiplərinin, vektorlarının sintezindən çıxış edən unikal "Azərbaycan-dünya" münasibətləri formalaşdı. Uğurlarımızın əsas səbəbi inteqrasiyanın alternativsiz faktoru kimi dövlətin həlledici rolunun bütün istiqamətlərdə özünü təsdiq etməsidir.

Dünyada tamamilə yeni, qlobal oyun qaydalarının təşəkkülünü, milli, suveren dövlətlər arasında inteqrasiya proseslərinin intensivləşməsini, siyasi quruluşundan, iqtisadi durumundan, milli mentalitetindən asılı olmayaraq bütün ölkələrin bu labüd proseslərə qoşulmasının vacibliyini ümummilli lider siyasi uzaqgörənliklə sezmişdi.

Bu gün Azərbaycan formalaşan yeni geosiyasi nizama uyğunlaşmaq, dünya iqtisadiyyatında özünəməxsus mövqeyi olan dövlətə çevrilmək istiqamətində səylərini artırır, tarixi inkişafında dünyaya inteqrasiyanın növbəti mərhələsini, yeni dövrünü yaşayır. Ölkənin qarşısında böyük məqsədlər durur. Bunlar dünyanın yalnız siyasi deyil, həm də iqtisadi, elmi, informasiya məkanlarına inteqrasiya amillərini də əhatə edir. Ölkənin geosiyasi vəziyyəti nəzərə alınaraq hərtərəfli iqtisadi və sosial inkişafın təmin olunması üçün beynəlxalq maliyyə institutları, iqtisadi təşkilatlar, regional birliklərlə əməkdaşlıq genişləndirilir. Bütövlükdə dünya iqtisadiyyatına inteqrasiya prosesini sürətləndirmək üçün tədbirlər görülür.

## Ədəbiyyat


1. Babaoğlu H. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı, 2010
2. Şirinova T.Ə. Qloballaşma və milli dövlətlərin problemləri. Bakı, 2015
3. Lebedeva M. Dünya siyasəti (A.Eyyubovun tərcüməsi). Bakı, ADİU, 2012


UOT 339.9:338.1; 339.9 : 330.34

## İqtisadi qloballaşma və milli-mənəvi dəyərlər

*Kərimova Mehriban Allahverən qızı*
*Mingəçevir Dövlət Universiteti*

Dünya inkişafının müasir mərhələsinin başlıca meyli miqyası getdikcə böyüyən qloballaşmadır. Qloballaşmaya müxtəlif yanaşmalar mövcuddur. Qloballaşmaya neqativ yanaşan bəzi alimlər hesab edir ki, o milli mədəniyyəti məhv edir, dövlətin müstəqilliyini inkar edir, cəmiyyətə yad olan istehsal standartlarını zorla yeridir və s. Başqa bir qism isə qloballaşmanı sivilizasiyanın toqquşması və sivilizasiyaların müharibəsi kimi qəbul edir. Əslində qloballaşma dünyadakı siyasi proseslərə, beynəlxalq münasibətlərə və milli-mədəni dəyərlərə müsbət təsir göstərir. Qloballaşma bütün dünyanı bürümüş mürəkkəb bir proses kimi qiymətləndirilməkdədir. Dünya kapitalist sisteminin yeni tarixi mərhələsini ifadə edən qloballaşma sanıldığı kimi heç də formal proses deyil. İqtisadi qloballaşmanın ön plana çıxması ilə birlikdə kapitalist sistemini

hərtərəfli əhatə edən qloballaşma əsasən üç sahədə bir-birini tamamlayaraq genişlənməkdədir. Bunlar iqtisadi, siyasi və mədəni sahələrdir. İqtisadi qloballaşma hazırda sistemin başlıca forması olaraq qalmaqdadır.

Iqtisadi qloballaşma milli iqtisadi sistemlərin vahid bir iqtisadi sistem halında birləşməsi, onların qarşılıqlı asılı vəziyyətə gəlməsi və bununla da ölkələr arasındakı bütün iqtisadi münasibətlərin liberallaşmasıdır. Bəzən belə düşünürlər ki, milli dövlətlər arasında hər cür maliyyə, iqtisadi və informasiya sərhədləri götürülməli, azad iqtisadiyyat və ticarət, azad rəqabət, maksimum sərbəstlik üçün münbit şərait yaradılmalıdır. Qloballaşmanın həqiqi mahiyyəti əslində elə bundan ibarətdir. O, iqtisadi inteqrasiya ideyalarının həyata keçirilməsinin yeni və daha da təkmilləşdirilmiş formasını müəyyənləşdirir. Lakin ən inkişaf etmiş dövlətlərin özündə belə qloballaşmadan ehtiyatlananların bu ideyanın millətlərin özünəməxsus tarixi nailiyyətlərini, milli və mənəvi dəyərlərini məhv edəcəyini düşünənlərin olmasına baxmayaraq, qloballaşmanın əsas üstünlüklərindən biri də məhz elə bundan ibarətdir ki, o dünyəvi inteqrasiyanı hər bir xalqın milli maraqları kontekstində təsəvvür etməyə imkan verir.

Qloballaşma prosesinin əsas forması olan iqtisadi qloballaşmanın özəyini ölkəlrin qarşılıqlı iqtisadi inteqrasiyası təşkil edir. Iqtisadi inteqrasiya dövlətlərin təsərrüfat və siyasi cəhətdən elə birləşməsidir ki, bu birləşmədə milli təsərrüfatlar arasındakı əmək bölgüsü müxtəlif səviyyələrdə həyata keçirilir. Belə iqtisadi əməkdaşlıq müxtəlif ölkələr arasında müstəqillik, bərabərlik prinsipi ilə bir-birinin daxili işlərinə qarışmadan bu ölkələrin qarşılıqlı səmərə prinsipi əsasında iqtisadi və elmi-texniki əlaqələrinin birlikdə razılaşdırılaraq həyata keçirilməsindən ibarətdir ki, bunun da özəyində beynəlxalq əmək bölgüsünün dərinləşməsi durur. Beynəlxalq iqtisadi inteqrasiya əmtəə və xidmətlərin sərbəst hərəkəti, kapital və işçi qüvvəsinin beynəlxalq hərəkəti, birgə iqtisadi, valyuta-maliyyə, elmi-texniki, sosial, xarici və hərbi siyasətin razılıq ilə həyata keçirilməsinə əsaslanır. Dünya dövlətləri bu yolla öz istehsal güclərinin, istehsalın səmərəliliyinin artırılmasına nail olur və bunların məntiqi göstəricisi kimi əhalinin rifah səviyyəsinin yüksəlməsinə cəhd edilirlər.

Dünyadakı qloballaşma proseslərindən Azərbaycan Respublikası da kənarda qalmamışdır. Qeyd edək ki, XX əsrin  sonu XXI əsrin əvvəllərində Azərbaycan etnik-milli cəhətdən türk təfəkkürü, dini baxımdan isə islam mənəviyyatı və düşüncə tərzi ilə səciyyələnir. Yaşadığımız bu dövrdə xalqımızın mentaliteti azərbaycançılığın, türkçülüyün və islamçılığın sintezi, vəhdəti şəraitində formalaşmışdır. Qərb dövlətlərinin dünya miqyasında gerçəkləşdirməyə çalışdıqları qlobalizm siyasəti fonunda Qərb dəyərlərinin ölkəmizə intensiv nüfuzu və onun milli-mənəvi dəyərlərin inkişafına təsiri bu gün aktual məsələlərdəndir. Dünya siyasətinin əsas istiqamətlərini təşkil edən qloballaşma, Qərb mədəniyyətinin dünyanın bütün ölkələrinə, o cümlədən Azərbaycana intensiv olaraq nüfuz etməsi ilə müşayiət olunur.

Dünyada mövcud münaqişələri ədalətli şəkildə həll edib bəşəriyyətə sabitlik və sülh gətirmək üçün, ilk növbədə başqa mədəniyyətlərə və düşüncələrə sahib xalqların özünəməxsusluğuna hörmətlə yanaşılmalı, etnomədəniyyətin xüsusiyyətləri nəzərə alınmaqla onun bəşəri dəyərlərlə uzlaşmasına nail olunmalıdır. Azərbaycan Respublikası ümumdünya mədəniyyətinin qloballaşması meyllərindən kənarda qalmamaq şərti ilə milli mədəniyyətin özünəməxsusluğunu qoruyur və eyni zamanda dünyanın mədəni nailiyyətlərindən milli mədəniyyətin tərəqqisində istifadə üçün imkanlar yaradır. Ölkəmiz beynəlxalq öhdəliklərinə uyğun olaraq öz ərazisində tarixi və mədəni abidələrin qorunmasını təmin edir. Mədəniyyətin inkişafı həm də ölkədə gedən digər siyasi və iqtisadi proseslərin inkişafı ilə sıx bağlıdır. Qloballaşmanın dərəcəsindən asılı olmayaraq, biz öz kökümüzə bağlılığımızı itirmirik. Azərbaycan mənəviyyatından, dinindən, imanından qopmamaq şərti ilə qloballaşır. Qloballaşma və inteqrasiya prosesləri məhz texnoloji istiqamətlər üzrə gedir. Mədəniyyət və mənəviyyat məsələlərində mümkün qədər mühafizəkarlıq qorunur.

Bazar iqtisadiyyatının və informasiya texnologiyalarının sürətlə inkişafı dünya dövlətləri sistemində müxtəlif maddi və mənəvi dəyərlərə, o cümlədən mədəni düşüncələrə malik xalqlar arasında əlaqələrin harmonik uzlaşmasını və inkişafını tələb edir. Əgər bu gün dünyada mövcud münaqişələri ədalətli şəkildə həll edib bəşəriyyətə sabitlik və sülh gətirmək istəyi varsa, ilk növbədə başqa mədəniyyətlərə və düşüncələrə sahib xalqların özünəməxsusluğuna hörmətlə yanaşılmalı,

etnomədəniyyətin xüsusiyyətləri nəzərə alınmaqla onun bəşəri dəyərlərlə uzlaşmasına nail olmalıyıq.

İqtisadi inkişafa nail olmaq yolu ilə milli-mədəni dəyərlərin qorunub saxlanılmasına və harmoniyasına nail olmaq vacib şərtdir. Iqtisadi qloballaşma prosesi siyasi qloballaşmadan daha sürətlə gedir. Real görünən odur ki, qloballaşma dünyanı vahid iqtisadi bir məkan kimi nəzərdə tutur, amma onun nailiyyəti yalnız iqtisadi bütövləşmə ilə məhdudlaşmır. Qloballaşma həm də genişlənən beynəlxalq ticarət, sərhədləri aşan maddi qaynaq transferləri, artan xarici investisiyalar, böyüyən transmilli şirkətlər və ortaq təşəbbüslər mənasına gəlməkdədir. Qloballaşma prosesi həm də şirkətlərə hansı ölkəyə mənsub olmasından asılı olmayaraq böyük bazar və investisiya imkanları verir. Bu mənada Azərbaycanın qlobal iqtisadiyyata qoşulması olduqca vacibdir.

## Ədəbiyyat


1. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı, 2001
2. Şirinova T.Ə. Qloballaşma və milli dövlətlərin problemləri. Bakı, 2015
3. Şükürov A.M. Qloballaşmış cəmiyyətlər: dünən, bu gün və sabah. Bakı, 2006


UOT 338.1

# Azərbaycanda milli-mənəvi dəyərlərin qorunmasında sosial-iqtisadi inkişafın rolu

*Namazova Aynur Məhəmməd qızı*
*Mingəçevir Dövlət Universiteti*

Milli-mənəvi dəyərlər hər bir dövlətin inkişafı üçün çox vacib amillərdəndir. Milli-mənəvi dəyərlərimiz xalqımızın simasında zaman-zaman yaşayıb və bizi başqa millətlərdən fərqləndirib. Bu dəyərlərin təbliği, qorunub saxlanılması isə birbaşa ölkədəki sosial-iqtisadi inkişafın səviyyəsi ilə müşayiət olunur.

Mənəvi dəyər özünün fiziki və mənəvi varlığını qoruyub saxlamaq, yaşatmaq üçün hər hansı sosial qrup və ya cəmiyyətin əksər üzvlərinin doğru və lazımlı olduğuna inanıb qəbul etdikləri ortaq dünyagörüş, məqsəd, əxlaq normaları və inanclardır. Milli ideologiya, milli tarix, milli dil, dinimiz, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə, dahi şəxsiyyətlərimiz, milli musiqimiz, muğamlarımız, fərdi yaddaşı, etnos yaddaşını, millətin, xalqın yaddaşını ehtiva edən folklorumuz bizim milli-mənəvi dəyərlərimizdir. Bir sözlə, milli olan bütün nailiyyət və keyfiyyətlərimiz milli dəyərlər sisteminə aiddir. Amma bu dəyərlər sistemi xalqın yaddaşında və dövlət səviyyəsində təsbit olunmazdan əvvəl Ulu Yaradan tərəfindən Qurani-Kərimdə təqdim edilib: "Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq” (Hücürat – 13 ).

Bu gün dövlətin hər cür resurslardan səmərəli istifadə yolları ilə formalaşdırmağa çalışdığı başlıca dəyərlər bunlardır: ədalətli olmaq, ailə birliyinə önəm vermək, vətənsevərliyi aşılamaq, qanunlara hörmət, dinə hörmət, eyni zamanda tolerantlıq, çalışqanlıq, qonaqsevərlik, yardımsevərlik.

Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Azərbaycan dünyada inkişafla bağlı öz modeli ilə tanınıb və bu modelin əsasında dayanan amillərdən biri də məhz milli dəyərlərimizdir. Ölkə başçısı qeyd edib ki, milli-mənəvi dəyərlər, azərbaycançılıq, milli, dini dözümlülük, tolerantlıq, sosial-iqtisadi inkişaf və öz gücümüzə güvənməyimiz bizim inkişafımızı şərtləndirən əsas amillərdir. Milli-mənəvi dəyərlərimizi qorumaq və onları gələcək nəsillərə çatdırmaq üçün bütün imkanlardan istifadə edilməlidir.

Müstəqil Azərbaycan dövlətinin mədəniyyət siyasətinin həyata keçirilməsində əsas çətinliklərdən biri də qloballaşmadır. Müstəqilliyə qədəm qoymuş gənc bir dövlət üçün qloballaşma adı altında milli-mənəvi dəyərlərinin sıxışdırılması onun məhvinə gətirib çıxara bilər. Qloballaşma beynəlxalq aləmdə labüd olan bir proses kimi həyatımızdan yan keçə bilməz. Bir şərtlə ki, bu prosesdən ümumi inkişafımız üçün səmərəli istifadə edə bilək.

Müasir dövrdə ən aktual problemlərdən biri qloballaşma prosesi ilə milli adət-ənənələr arasında optimal nisbətin tapılmasıdır. Qloballaşma prosesi elm, texnika, texnologiya ilə ümumbəşəri dəyərlərlə yanaşı, milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə də düşünülmüş şəkildə, ya da qərəzsiz sirayət etməyə cəhd göstərir. Belə bir şəraitdə, ilk növbədə, nələri qorumaq lazım olduğunu, məhz hansı məsələlərdə məqsədyönlü surətdə ənənələri saxlamaq, hansı yöndə isə yenilikləri qəbul edib tətbiqinə nail olmaq düşünülmüş konsepsiya tələb edir.

Bu gün Azərbaycan sözün həqiqi mənasında dünyada tolerantlığa nümunə olan bir ölkədir. Bu, bütün dünyada qəbul olunur. Təsadüfi deyil ki, dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır. Azərbaycan həm də multikultural bir cəmiyyətdir. Multikulturallıq öz mədəniyyətini inkar etmək demək deyil. Multikulturallıq və tolerantlıq başqa mədəniyyətlərə, başqa dinlərə, başqa xalqların xüsusiyyətlərinə hörmətlə yanaşmaqdır. Tolerantlığın bir çox növləri var və Azərbaycanda bunların hər birinin özünəməxsus yeri var. Lakin Azərbaycan xalqının milli mentalitetindən, adət-ənənələrindən irəli gələrək dini tolerantlıq daha qabarıq şəkildə özünü göstərir. Azərbaycan cəmiyyətinə baxdıqda bu, daha aydın şəkildə görünür.

Əgər iqtisadiyyatımızda açıq qapı elan ediriksə, bunun davamı olaraq mənəvi aləmdə açıq qapı elan etmək olmaz. Baxmayaraq ki, Azərbaycan tolerant ölkədir, dünyanın istənilən şirkəti gəlib Azərbaycanda iş görə bilər, amma istənilən dini cərəyanın burada yayılmasına imkan vermək olmaz. Tolerantlıq o demək deyil ki, radikal cərəyanlar burada istədiyini edə bilər. Milli-mənəvi dəyərlərimizə müdaxilə ediləndə bu, artıq tolerantlıq olmur. Tolerantlıq dözümlü yanaşma deməkdir. Milli-mənəvi dəyərlər hər bir ölkənin özünə məxsusdur və radikal qrupların bu dəyərlərə ziyan vurmasına imkan verilməməlidir.

Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması, onlardan irəli gələn ənənələrin yaşadılması olduqca vacibdir. Bu gün əsas vəzifələrdən biri Azərbaycanda islami dəyərləri qoruyub saxlamaq, müəyyən dairələrin din pərdəsi altında öz siyasi məqsədlərini reallaşdırmaq cəhdlərinin qarşısını almaqdır.

Sosial-iqtisadi sahədə uğurlara imza atan Azərbaycanın beynəlxalq aləmdə nüfuzu getdikcə möhkəmlənməkdədir. Sosial-iqtisadi həyatda dəyişikliklər mənəvi-psixoloji mühitə də öz təsirini göstərir.

Cəmiyyətdə ailə və gender məsələlərinə diqqət artır. Azərbaycan əhalisinin 50.3 faizini təşkil edən qadınlar cəmiyyətdə böyük təsir qüvvəsinə malikdir.

Ölkəmizdə sosial sahədə dövlət siyasətinin prioritet istiqamətlərindən birini məhz ailə siyasəti təşkil edir. Azərbaycan dövləti ailə institutunun qorunması istiqamətində güclü qanunvericilik bazasına malikdir. Ailə institutunun cəmiyyətdəki mövqeyinin möhkəmləndirilməsi bütün dünyada aktual problemdir. Azərbaycan ailəsi həmişə uzun ömürlülüyü və möhkəmliliyi ilə seçilib. Bu, əsasən milli mənəvi dəyərlərin, adət-ənənələrin qorunub saxlanılmasından, müasir dövrə uyğunlaşdırılmasından irəli gəlir. Azərbaycan ailəsi dünyada ən yaxşı ailə modellərindən biri hesab olunur. Ailənin inkişafı və sosial təminatı qadın və uşaq hüquqlarının müdafiəsi "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında öz əksini tapıb. Həmin konsepsiyaya əsasən Azərbaycan dövlətinin inkişafı və gələcək islahatların istiqamətləri müəyyən edilib. Bununla bağlı "Azərbaycan ailə strategiyası"nın, gender bərabərliyi üzrə Milli Fəaliyyət Planının, Uşaq Mili Fəaliyyət Planının, həmçinin uşaq strategiyasının hazırlanması və "Ailə psixoloqu" institutunun yaradılması nəzərdə tutulur. Qeyd edək ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən tədbirlər Azərbaycanın milli, dini dəyərlərinin regionda və dünyada təbliğ olunmasında mühüm əhəmiyyət daşıyır.

Mövcud vəziyyət hər cür milli-mənəvi dəyərə sahib Azərbaycan xalqının səbrli, xarici və daxili hiylələrə uymamağı, vahid qüvvə kimi dövlətçiliyin tələbləri kontekstində birləşməyi, sosial-iqtisadi inkişafı sürətləndirməyi tələb edir.

**Ədəbiyyat**

1. www.academia.edu/.../Qloballaşma_və_Azərbaycanda_milli-mənəvi_dəyə...
2. www.xalqqazeti.com/az/news/interview/5825
3. http://interaztv.com/society/35127

UOT 339.9:338.1; 339.9 : 330.34

## Qloballaşmanın sosial-iqtisadi proseslərin inkişafına təsiri

*Rəhimova Məlahət Firqət qızı*
*Mingəçevir Dövlət Universiteti*

Sosial-mənəvi problemin uğurla həll etmək ücün dövlətin iqtisadi, siyasi, sosial və digər sahələrdə fəaliyyətinin yüksəldilməsini təmin etmək zəruridir. Sosial-iqtisadi proseslərin formalaşmasına, inkişaf etməsinə ən ciddi təsir edən amillərdən biri də qlobollaşma prosesidir. İndi dünyada çox böyük sürətələ qlobollaşma getməkdədir. Bu, müasir şəraitdə internetin, rabitə, infomasiya, nəqliyyat vasitələrinin inkişafı ilə bağlıdır və olduqca təbii bir tarixi posesdir. İqtisadiyyatın, mədəniyyətin, siyasətin sürətlə inteqrasiyası getməkdə, ekoloji, demoqrafik dəyişikliklər baş verməkdədir.

Qloballaşma ölkələr arasındakı iqtisadi, sosial və siyasi, mədəni və mənəvi əlaqələrin inkişafı, fərqli cəmiyyətlərin və mədəniyyətlərin inanc və görüşlərin tanınması, millətlərarası əlaqələrin genişlənməsi kimi fərqli görünən, lakin bir-biri ilə bağlı məsələləri birləşdirən bir anlayışdır. Başqa bir ifadə ilə qloballaşma ölkələrin sahib olduqları maddi və mənəvi dəyərlərin çərçivəsində əmələ gəlmiş münasibətlərin milli hüdudları aşaraq dünya səviyyəsində yayılması və fərqliliklərin bütünlük və uyğunlaşma adı altında birləşməsidir. Bu o deməkdir ki, həyatımızın elə bir sferası yoxdur ki, qloballaşmanın təsirinə məruz qalmasın. Qloballaşan dünyada dövlətin sabaha hansı siyasətlə getməsi, hansı maraqları güdməsi birmənalı qarşılanmır. Çunki qloballaşma prosesləri milli mədəniyyətin imkanlarını məhdudlaşdıraraq bilavasitə mədəni siyasətə təsir göstərir. Iqtisadi, siyasi, milli-etnik problemlərin birlikdə həlli ölkənin bir-birinə inteqrasiyasını zəruri edir.

Qloballaşma mahiyyət etibarilə dünya dovlətlərinin bütövlüyünün, mədəni iqtisadi munasibətlərdə ayrı-seckiliyin aradan götürülməsinə xidmət etməlidir. Təbii ki, bu gün qloballaşmanın bir çox ölkələr üçün yaratmış olduğu problemlər bizi çox narahat edir. Çunki bu problemlər bilavasitə mədəniyyət sahəsində bəşər tarixinin dunyanın inkişaf təcrübəsinin öyrənilməsini, yaradıcılıq əlaqələrinin genişləndirilməsini zərurətə çevirir. Müasir dünya tərəfindən dərk edilən və etirazlarla qarşılanan neqativ təzahürləri siyasi və iqtisadi mənafelərin güdüldüyü, qloballaşmanın üzdə olmayan məqsədləri də vardır ki, son nəticədə mədəni tərəqqiyə dağıdıcı zərbə vurur. Qloballaşma mədəniyyət sahəsində də qeyd edilən mənafelərə xidmət etdiyi təqdirdə bəşəriyyət böyük fəlakətlərlə qarşılaşa bilər. Siyasi sahədə qloballaşma milli dovlətçilik, milli-mənəvi dəyərlər problemi ilə qarşılayır. Milli özünüdərk, milli ləyaqət siyasi qloballaşmanın əsas problemidir.

İnteqrasiya prosesinin qaçılmaz olduğu bir zamanda milli-mənəvi əxlaqi və tərbiyəvi dəyərlərimizin qorunmasına qayğı və maraq daha da artmışdır. Çunki qloballaşmanın ziddiyyətli gedişatından doğan bu zərurət cəmiyyət həyatının bütün sahələrini əhatə etmişdir. Buna görə də biz milli-mənəvi dəyərləri aşınmalardan qorumalı, milli mədəniyyətimizi millətin qloballaşmadan özünü müdafiə vasitəsinə çevirməliyik. Yalnız birgə səmərəli fəaliyyət nəticəsində mədəniyyətin milli ozunəməxsusluğunu, milli-mədəni dəyərləri qorumaq və muhafizə etmək mümkündür. Bir tərəfdən respublikamızda milli və bəşəri dəyərlərin sintezini, dünya təcrübəsinə inteqrasiyanı təmin edən mühitin formalaşdırılması yönündə həyata keçirilən islahatlar dünyanın sosial, mədəni, iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri səviyyəsinə çatmağa şərait yaradır. Digər tərəfdən sosial, mədəni, iqtisadi tərəqqiyə xidmət edən bu prosesdə qarşıya çıxan problemlər isə bilavasitə mədəniyyət

sahəsində bəşər tarixinin, dünyanın inkişaf təcrübəsinin öyrədilməsini, kompleks təlim-tərbiyə sisteminin qurulmasını, yaradıcılıq əlaqələrinin genişləndirilməsini zərurətə cevirir.

Şübhəsiz ki, inteqrasiya prosesinin qaçılmaz olduğu bir dövrdə milli-mənəvi və əxlaqi-tərbiyəvi dəyərlərimizin qorunmasına qayğı daha da artırılmalıdır. Bu zərurət cəmiyyət həyatının butun sahələrini – iqtisadiyyatı, siyasəti və mədəniyyəti əhatə edən qloballaşmanın ziddiyyətli gedişatından, onun görünən və görünməyən tərəflərinin movcudluğundan doğur. Şübhəsiz ki, Azərbaycan Respublikası dünya birliyinin üzvü kimi bu inteqrasiya proseslərindən təcrid oluna bilməz. Deməli, bu gün kənar təsirlər qarşısında milli-mənəvi dəyərlərimizin muhafizəsi probleminə daha ciddi fikir verilməlidir. Ona gorə də biz bu dəyərləri aşınmalardan qorumalı, milli mədəniyyətimizi millətin qloballaşmanın mənfi təzahurlərindən özünü müdafiə vasitəsinə çevirməliyik.

Ümumiyyətlə, təhlillərdən belə ümumiləşdirici nəticəyə gəlmək mümkündür ki, son illərin çətinlikləri ilə yanaşı Azərbaycanın dünyaya mədəni inteqrasiyası şəraitində mədəniyyətin maliyyələşməsi probleminin həlli istiqamətində ümidverici proseslər müşahidə edilməkdədir. Və bu proseslər fonunda milli-mənəvi dəyərlərin mühafizəsi məsələsi də daima dövlət rəhbərliyinin diqqət mərkəzində olmuşdur. Bu da ondan irəli gəlir ki, müstəqilliyinin bərpasından otən illər ərzində Azərbaycanın dövlət müstəqilliyi getdikcə, möhkəmləndirilməkdə, respublikamızda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi daha da sürətlə inkişaf etməkdədir.

Mədəniyyət siyasəti sahəsində qazanılan nailiyyətlər sübut edir ki, Azərbaycanın dövlət müstəqilliyi getdikcə möhkəmləndirilməkdə, respublikamızda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi daha da sürətlə inkişaf etməkdədir. Dövlətciliyin təməlinin, milli varlığın özülünün, əsasının mədəniyyətə bağlı olduğunu aydın dərk edən Ümummilli Heydər Əliyev 13 avqust 2001-ci il tarixli bəyanatında söyləmişdir: “Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir”. Ümummilli liderimiz Heydər Əliyevin yürütdüyü siyasi-mədəni xəttin layiqli davamçısı prezident İlham Əliyevin inamla və sədaqətlə həyata keçirməkdə olduğu mədəniyyət siyasətinin uğurlu nəticələri və perspektivləri artıq göz qabağındadır. Belə ki, “2006-2016-cı illər üçün mədəniyyət sahəsində dövlət inkişaf konsepsiyası”nın əsas qayəsi daxili və xarici dövlət mədəniyyət siyasətinin təminatı mexanizmlərini dünya standartları səviyyəsinə çatdırmaq yolunda mədəni irsin qorunması, yaradıcılığın dəstəklənməsi və mədəni sahələrin dirçəldilməsi kimi prioritet istiqamətləri müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirməklə qədim və möhtəşəm Azərbaycan mədəniyyətinin və incəsənətinin qorunub saxlanılmasına, gələcək inkişafına və dünya mədəniyyətinə uğurlu inteqrasiyasına nail olmaqdır. Mədəniyyət və incəsənətin bütün sahələrində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi həyata keciriləcək islahatların əsas məğzi kimin nəzərdə tutulmuşdur.

### Ədəbiyyat


1. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı, 2001
2. Панарин А.С. Искушение глобализмом. Москва, 2000
3. Уткин А.И. Глобализация: процесс и осмысление. Москва, 2001


UOT 330:34

## Milli iqtisadi inkişafın modeli

*Aslanova Səadət Rəfayıl qızı*
*Mingəçevir Dövlət Universiteti*

Son zamanlarda dünya iqtisadiyyatında baş vermiş dərin geosiyasi və sosial-iqtisadi dəyişikliklər milli iqtisadiyyatın inkişaf modeli probleminə marağı artırmışdır. Baş vermiş dəyişikliklər iqtisadiyyatın bazar istiqamətli formalaşmasında köklü islahatlarla da əlaqədardır.

Milli model milli təsərrüfatın bütövlüyünü formlaşdıran elementlərin məcmusu olub yerli xüsusiyyətlər sırasında xalqların tarixi ənənələrini, genetik köklərini əks etdirir. Milli iqtisadi inkişaf modeli - iqtisadiyyatın mövcud strukturuna, dünya təcrübəsi və milli ənənələrə əsaslanan, milli iqtisadiyyatın sabit, dinamik inkişafını, təkrar istehsalı təmin edən modeldir. İqtisadiyyatın milli modelinin mühüm cəhəti onun xüsusiyyətlərinin, başqa sözlə desək, özünəməxsusluğunun səciyyələndirməsidir. Müasir bazar iqtisadiyyatının milli modelləri bazar mexanizmi və dövlət tənzimlənməsinin xüsusi sahibkarlıq və sosial təminatların sintezinin milli əmsalları fərqləndirilən modellərdir. Əsas meyarlardan çıxış edərək bazar iqtisadiyyatının bir sıra səciyyəvi modelləri (liberal, sosial yönümlü bazar təsərrüfatı, sosial demokratik, tənzimlənən kapitalizm və.s) mövcuddur ki, bunlar da ölkə iqtisadiyyatlarının birinin digərindən fərqlənməsini şərtləndirir. Azərbaycanın inkişaf etmiş ölkələrin iqtisadi modellərinə müraciəti ilkin şəraitin (elmi-texniki baza, iş qüvvəsinin yüksək keyfiyyəti və s.) mövcudluğu, ölkənin dünyanın inkişafının qabaqcıl meyllərinə inteqrasiyasının zəruriliyi ilə şərləndirilir. Məhz bu cəhətləri nəzərə alaraq Azərbaycanın milli iqtisadi inkişaf modelinin formalaşmasında innovativ inkişaf strategiyasının həyata keçirilməsi, elmi - texniki, texnoloji, insan potensialından səmərəli istifadə olunması, iqtisadiyyatın strukturunun modernləşməsi və davamlı inkişafın təmin olunması kimi məsələlər aktualdır.

Müasir iqtisadi modellərin təhlili göstərir ki, Azərbaycanda ümumdünya prosesləri ilə uzlaşan, xarici ölkələrin təcrübəsini nəzərə alaraq onları yerli şəraitlə uyğunlaşdıran inkişaf strategiyası formalaşmışdır. Ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə müəyyənləşdirdiyi bu strategiya alman modelinə-sosial yönümlü bazar iqtisadiyyatına daha çox yaxındır. Azərbaycanın milli iqtisadi inkişaf modelinin səciyyəvi cəhətlərini xüsusi qeyd etmək olar: Birincisi, həqiqətən Azərbaycanda müxtəlif mülkiyyət və təsərrüfat formalarına əsaslanan qarışıq iqtisadiyyatın formalaşması prosesi gedir və dövlət mülkiyyətinin formalarının səmərəli fəaliyyəti üçün bərabər təsərrüfatçılıq mühiti yaradılmışdır; İkincisi, "standart" bazar iqtisadiyyatı ölkələri ilə müqayisədə Azərbaycanda bu gün iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi prosesinin çox güclü olması, ilk növbədə, keçid mərhələsinin ilk illərində iqtisadiyyatın böhran vəziyyətindən çıxarılması, iqtisadi artımın təmin edilməsi, iqtisadiyyatda struktur dəyişikliklərinin həyata keçirilməsi və həm daxili, həm də xarici bazarda rəqabət qabiliyyətli olması üçün əlverişli şərait yaratmışdır. Üçüncüsü, tənzimlənmə nəinki makroiqtisadi səviyyədə, həm də mikroiqtisadi səviyyədə həyata keçirilmişdir. Dördüncüsü, Azərbaycan milli iqtisadi inkişaf modelinə iqtisadiyyatın yüksək dərəcədə sosial yönümlüyü, xalqımızın mentaliteti, tarixən ictimai ənənələrin güclü olması, bir çox sosial problemlərin dövlət tərəfindən həll edilməsi xasdır. Azərbaycan milli iqtisadi inkişaf modeli sosialyönümlü mahiyyət daşıyır. İqtisadi siyasətin sosialyönümlü səciyyə daşıması bir tərəfdən insan amilinə, digər tərəfdən bazar iqtisadiyyatı yolu ilə inkişaf etmiş qabaqcıl dünya dövlətlərinin təcrübəsinə əsaslanır. Eyni zamanda iqtisadiyyatın innovativ inkişafı, modernləşmə strategiyasının həyata keçirilməsi də Azərbaycan milli iqtisadi inkişaf modelində prioritet məsələlərdəndir. Məhz bütün bunlara əsasən deyə bilərik ki, sosial yönümlü iqtisadi sistemin yaradılması, milli iqtisadiyyatın inkişafına təsir edən spesifik amillərin öyrənilməsi və s. aktual məsələlər Azərbaycan milli iqtisadi inkişaf modeli üzrə tədqiqatın predmetini təşkil edir. İqtisadi sistem, insan kapitalı, iqtisadiyyatın ayrı – ayrı sahələri və s. isə milli iqtisadi inkişaf modeli üzrə tədqiqatın obyektinə aid edilir.

Azərbaycanın milli iqtisadi inkişaf modeli vahid iqtisadi siyasətin fundamental prinsiplərinə əsaslanır. Ölkəmizin iqtisadi inkişaf modeli mahiyyətinə görə həm də sosiallığı ilə seçilir. Azərbaycanın milli iqtisadi inkişaf modelinin əsasında sosial dövlət prinsipləri durur. Bu da iqtisadiyyatın sosial yönümlü inkişafını, əhalinin sosial rifahının təmin edilməsini, insan kapitalının inkişaf etdirilməsini nəzərdə tutur. Məhz bunu nəzərə alaraq tədqiq olunan Azərbaycanın milli iqtisadi inkişaf modelinin məqsəd və vəzifələrinə aşağıdakıları aid etmək olar:

1. İqtisadi sistem və onun parametrlərinin tədqiq edilməsi;
2. Milli iqtisadi inkişaf modelinin formalaşmasında mühüm rol oynayan ayrı-ayrı inkişaf modellərinin xüsusiyyətlərinin araşdırırlması;
3. Milli iqtisadiyyatın inkişafına təsir göstərən spesifik amillərin və məqsədlərin aşkar edilməsi;

4. İqtisadiyyatdakı transformasiya proseslərinin tədqiq edilməsi və s.

Azərbaycanın milli iqtisadi inkişaf modeli üzrə tədqiqatlar göstərir ki, bu modelin praktiki əhəmiyyəti dövlətin tənzimləyici rolunun güclü olmasında, mülkiyyət formalarının çoxnövlü olmasında, iqtisadi həyatda sosial-mənəvi aspektlərdən istifadə olunmasında innovasiyalı, diversifikasiya olunmuş və digər aspektlərdə özünü göstərir. Qlobal maliyyə böhranı şəraitində respublikamızın bu prosesə müqavimət göstərməsi dünya dövlətlərində maraqla qarşılanması gerçəkliyi ilə şərtləndirilmişdir. Bu reallığa nəzərən ən müxtəlif iqtisadi mərkəzlər respublikanın davamlı iqtisadi yüksəlişi timsalında XXI əsrin yeni iqtisadi fenomenini görür, Azərbaycan modelinin mahiyyətini öyrənməyə çalışırlar. Bütün bunları nəzərə alaraq Azərbaycanın milli iqtisadi inkişaf modelindən qlobal maliyyə böhranının mənfi nəticələrindən əziyyət çəkən ölkələrin praktikasında, eləcə də iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə proqramların qəbul edilməsində istifadə etmək olar.

## Ədəbiyyat


1. “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 29.12.2012 tarixli fərmanı
2. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. “Elm” nəşriyyatı, Bakı, 2005, 252 səh.
3. Abduləzimov C. Davamlı iqtisadi inkişaf strategiyasının uğurları. Azərbaycan qəzeti, 2010, № 2
4. Atakişiyev M. Azərbaycan sosial-iqtisadi tərəqqi yolunda. Bakı, 2005, 262 səh.
5. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2015-ci ildə qarşıda duran vəzifələrə həsr olunan iclasın materialları. www.president.az 10.01.2015



UOT 008-027.21; 008:001.8; 008:1


# Тенденции развития национально-духовных ценностей в эпоху глобализации


*Хан-Хойская Инга Владимировна*

*Багирова Айтекин Магеррам гызы*

*Азербайджанский Технологический Университет*


Определяя понятие глобализации, свободная энциклопедия – Википедия даёт следующее разъяснение: «Глобализация – процесс изменения структуры мирового хозяйства … На этой базе происходит … разрушение национального суверенитета государств … а также сближение и слияние культур разных стран». В свою очередь, сформировалось понятие национального суверенитета, понимаемого как право каждой нации на самоопределение, сущностью которого является полновластие нации с её политической свободой выбирать устройство общества, в котором каждый её член может постоянно совершенствоваться, что является определяющим условием всех положительных перемен в развитии общества. Такими позитивными переменами могут стать духовный рост человека, приобретение компетенции, в результате получения новых знаний и повышения профессиональных навыков. Такое гармоническое развитие личности возможно лишь при наличии духовных ценностей, которые составляют фундамент культуры. «Культура обогащает народы самым лучшим, что накопило человечество» (изречение Общенационального лидера Азербайджана Гейдара Алиева).

Однако на сегодняшний день реальность такова, что современный человек, живущий в той или иной стране, несмотря на его кажущийся активный образ деловой или общественной жизни, практически пассивен и реально не способен повлиять не только на процессы в

обществе, но и процесс личностного развития. Можно долго рассуждать на тему западного влияния, выявляя его недостатки и положительные стороны, но тем не менее следует признать, что глобализация – это стратегия в области культуры, направленная на принятие ценностей западного бытия всем человечеством - не считается со специфическим содержанием национальных культур, и это проявляется в их поверхностном восприятии: как экзотика, необычный фольклор, чудачество.

Обустройство современного мира – глобализация проявляет себя естественно больше всего в экономической сфере, где господствуют финансовые олигархические структуры, транснациональные компании, получающие выгоду от общемирового разделения труда и от интеграции национальных экономик в мировую. Участвуя в глобальных экономических интеграционных процессах, страны объединяются целиком и всесторонне, поэтому ценностный взгляд полностью осуществляется в экономической модели, но не духовной. С одной стороны, государства, желая сохранить специфичность своей культуры, пытаются спроектировать свой взгляд на национально-духовные ценности миру, а с другой стороны, мировое сообщество должно заинтересоваться национальной культурой, её значимостью, как мировым общим достоянием, но для этого она должна быть богатой и воспринимаемой миром. В таком восприятии есть и свои «подводные камни»: унифицируя культуру под воспринимающего человека в стране с другими национально-духовными ценностями, можно незаметно разрушить свою «кровную» культуру и обезличить человека как носителя данных жизненных ценностей под стандартную личность. Именно это мы и наблюдаем в настоящее время, когда глобализация обезличила практически многие культуры, в том числе и экономически развитых стран.

Глобализация – новое явление в истории человечества, доминирующий общемировой процесс, который стимулируют субъекты, желающие лидерства, получающие экономическую выгоду и строящие ничью культуру, не имеющую в корне национально-духовные ценности, по той простой причине, что они попросту «обезличены», а потому и не несущие за эти ценности и никакой ответственности. Неся в себе бездушие, злобу, низость чувств, такая культура не может выполнить свою главную функцию – понимание человеком истинной жизни, понимание целей общества, счастья, милосердия, терпимости и самосознания. Духовные же ценности мотивируют поведение людей и обеспечивают стабильное отношение между людьми в обществе. Оставаясь самобытными, духовно-национальные ценности должны считаться с требованиями западной культуры, потому что культурным стержнем глобализации является именно она, иначе национальная культура может оказаться в состоянии изоляции. А в таком вакуумном состоянии национальная культура долго не продержится, потому что массовая западная культура всё равно проникнет на её территорию и установит там своё господство.

В таких сложных условиях национальная культура должна быть достойной, оставаться самой собой, обладать ценностью, а не ценой под рыночную конъюнктуру. Воспользовавшись возможностями глобализации, национальная культура может прорекламировать и протиражировать свой образ во многих регионах мира.

Изучая опыт современного мира, можно пронаблюдать как органично вплетаются в ткань нынешней цивилизации некоторые традиционные структуры. Именно традиции позволяют человеку не потеряться, а приспособить свой образ жизни к стремительным изменениям современного мира.

«Народ всегда узнают по его интеллигенции, культуре, науке. Человек должен жить для духовного блага. Тот, кто оберегает свою духовность, будет жить вечно.», – вот какое наследие в виде мудрых изречений оставил нам – гражданам Азербайджана – наш Общенациональный лидер Гейдар Алиев.

## Литература

1. Бирюкова М.А. Глобализация: интеграция и дифференциация культур//Философские науки. № 4. 2000

2. Межуев В.М. Проблема современности в контексте модернизации и глобализации// Полития. № 3. 2000

3. Орлов Ф.И. Социальные издержки глобализации // Социологические исследования. № 7. 2001

4. Федотова Н.Н. Возможна ли мировая культура? // Философские науки. № 4. 2000

UOT 339.9:330.34

**Müasir dövrdə qloballaşma**

*Kərimli Günel Fazil qızı*
*Mingəçevir Dövlət Universiteti*

Qədim dövlətçilik tarixinə malik olan Azərbaycan xalqı hər zaman milli dəyərlərinə sadiq qalaraq, bu dəyərləri əsrlərlə yaşatmış və inkişaf etdirmişdir. Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də aktuallığını qoruyub saxlayır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

Milli dəyərlərimizin qorunması və inkişafı ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Milli dəyərlərimizə, soykökümüzə qayıdışın, milli hisslərimizin oyanışının xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman, bu sahəni diqqət mərkəzində saxlayan ümummilli liderimiz Azərbaycana rəhbərliyinin birinci dövründə xalqımızın milli oyanışının əsası qoyulmuşdur.

Ümummilli lider milli dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan ulu öndər deyirdi: “Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir”.

Müasir zaman isə qloballaşma prosesinindir. Bu ideyanı düşünüb meydana atanlar bəşər tarixində dəfələrlə uğursuzluğa düçar olmuş cəhdlərin aqibətini bilə-bilə nəyə ümid bəsləyirlər? Onlar qloballaşmanın başlıca üstünlüyünü onda görürlər ki, tarixdə hələ heç vaxt dünyanın sabit və təhlükəsiz inkişafını təmin edəcək siyasi-iqtisadi, social-mədəni məkanda birləşdirilməsinə könüllülük prinsipi əsasında cəhdlər olmamışdır. Yəni, XIX əsrdə meydana gələn, XX əsrdə formalaşan və müasir dövrümüzdə sürətlə genişlənməkdə olan bu prosesin – ümumdünya inteqrasiya prosesinin tarixdə analoqu olmayıb.

Qloballaşma prosesinin dərin analitik təhlili göstərir ki, o bəşəriyyətin tarixi inkişaf qanunauyğunluqları əsasında formalaşmış yeni obyektiv tarixi inkişaf mərhələsidir. Qloballaşma ən yeni informatika və telekommunikasiya vasitələri əsasında bəşəriyyətin böyük hissəsinin vahid iqtisadi-maliyyə, ictimai-siyasi və mədəni əlaqələr sisteminə cəlb olunması prosesidir.

Qloballaşma – yer kürəsində bütün ictimai fəaliyyətin beynəlmiləlləşməsi, milli iqtisadiyyatların vahid ümumdünya sisteminə qovuşmasıdır. Bu da, öz növbəsində, kapitalın asanlıqla yerdəyişməsinə, dünyanın informasiya üçün açıq olmasına, texnoloji inqilaba, sənaye cəhətdən inkişaf etmiş ölkələrin kommunikasiya yaxınlaşması əsasında əmtəə və kapitalın hərəkətinin liberallaşmasına, planetar elmi inqilaba, millətlərarası sosial hərəkatlara, yeni nəqliyyat növlərinə, telekommunikasiya texnologiyalarının reallaşmasına, beynəlmiləl təhsilə əsaslanır.

Qloballaşma dövlət təsiri ilə, bazarla müəyyən edilən prosesdir. Qloballaşma həyatın yekcinsləşməsi: qiymətləri, məhsulları, səhiyyənin səviyyəsi və keyfiyyətini, gəlir səviyyəsini, bank qoyuluşlarını dünya səviyyəsində bərabərləşdirmə meyli deməkdir. «Qloballaşma, təkcə, dünyadakı iqtisadi prosesləri dəyişmir, həmçinin onun strukturunu dəyişir. Bəşəriyyətə ağlasığmaz təsirlər edilir, transkontinental və regionlararası proseslər gedir ki, bunlar da, öz növbəsində, miqyasına

görə qlobal qarşılıqlı asılılıq münasibətini formalaşdırır. Dünya iqtisadiyyatı, sadəcə olaraq, qarşılıqlı asılılıq vəziyyətinə düşmür, o, praktiki olaraq vahidə – tama inteqrasiya edilir». Hər bir texnoloji çevriliş təkcə, cəmiyyətin deyil, insanların fərdi həyat tərzində dərin dəyişikliklərə gətirib çıxarır. Cəmiyyətin informasiyalaşması ilə əlaqədar olan müasir texnoloji çevrilişin xüsusiyyətləri ondadır ki, o, bəşəri qarşılıqlı təsirin qloballaşması və universallaşması üçün yeni şərtlər yaradır. Mikroelektronika, kompüterləşmənin geniş inkişafı, kütləvi informasiya və kommunikasiyanın inkişafı, əmək bölgüsü və ixtisaslaşmanın dərinləşməsi sayəsində bəşəriyyət vahid sosial - mədəni bütövlüyün ətrafında birləşir. Bu cür vəhdətin mövcudluğu bütövlükdə bəşəriyyətə, eləcə də ayrı - ayrı şəxslərə öz tələblərini diqtə edir. Qloballaşma müasir dünyanın sosial həyat, siyasət, iqtisadiyyat, mədəniyyət, elm, texnologiya və s. sahələrində yeni keyfiyyət dəyişiklikləri ilə şərtlənən mürəkkəb proseslərin diferensiasiya və inteqrasiyalaşmasında öz əksini tapır. Qlobal sivilizasiyaya doğru dünya inkişafı ümumbəşəri mənafe parametrlərini meydana çıxarır. Qloballaşma - dünya inkişafının məntiqi nəticəsidir, müasir dövrümüzü əhatə edən bir inteqrasiya dövrüdür. Dünyanın qloballaşma ilə dövrələnən inkişafı onun yenidən imperiyalaşma yox, sivilizasiyalaşma istiqamətində hərəkətini məntiqi sayır. O, müxtəlif sivilizasiyaların təmas enerjisindən doğur. Əmtəələrin ölkələr və iqtisadiyyatın bölmələri arasında hərəkəti; xidmətlərin ölkələr və iqtisadiyyatın bölmələri arasında hərəkəti; maliyyə kapitalının ölkələr arasında hərəkəti; insanların iqtisadi əməliyyatları həyata keçirmək üçün ölkələr arasında yerdəyişməsi; intellektual məhsulun və ideyaların tədqiqat və tədris mərkəzləri arasında hərəkəti qloballaşma prosesinin inkişafına təsir etməkdədir.

İqtisadi inteqrasiya (beynəlxalq ticarət əlaqələri, investisiyalar) fərdi əlaqələr (beynəlxalq səfərlər, turizm, beynəlxalq danışıqlar), internet istifadəçiləri, serverlərin sayı və ölkənin beynəlxalq siyasətdə iştirakı (səfirliklərin sayı, beynəlxalq təşkilatların üzvü) parametrlərinə əsasən qloballaşmış ölkə kimi ilk beş yeri İrlandiya, İsveçrə, İsveç, Sinqapur və Niderland tutmaqdadır. Qloballaşma hələ ki, müvəffəqiyyətli inkişaf yolunda olan və sənaye cəhətdən inkişaf etmiş 60-dan yuxarı ölkəni əhatə edən inteqrasiya qruplarını - Aİ (Avropa İttifaqı), NAFTA (Şimali Amerika Azad Ticarət Zonası), ATES (Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatı), ASEAN (Cənubi-Şərqi Asiya Ölkələri Assosasiyası), Merkasur (Cənubi Amerika Ümumi Bazarı) əhatə edir. Bu ölkələr dünya ticarətinin ¾-nü əhatə edir.

Dünya siyasətinin qloballaşması, hələ də tam aydın olmayan müxtəlif yollarla iqtisadi, sosial, siyasi və mədəni həyatın parametrlərini dəyişən sosial transformasiya prosesidir. Qloballaşma ilə meydana çıxan təsirlərin sosial, iqtisadi, mədəni və siyasi təşkilatlarda dəyişikliklərin güclənməsi dünyaya uğurlu inteqrasiya məsələlərinin düzgün müəyyən edilməsində hər bir dövlətin qarşısında duran zəruri faktlardandır və bu da, tədqiqatçılar qarşısında çoxsaylı suallar doğurur: qloballaşmada dövlətin iqtisadi prosesə müdaxiləsi; beynəlxalq iqtisadi münasibətlərin qurulmasında,kapital axınında, iqtisadi və sosial tərəqqinin əsası olan əmək məhsuldarlılığının yüksəldilməsində, eləcə də, qlobal bazarların yaradılmasında dövlətin rolu; ictimai fikrin inkişafında, siyasətin formalaşmasında, qanunların hazırlanmasında, eləcədə qloballaşma zamanı iqtisadiyyatda müstəqil təsərrüfat subyektləri arasında dövlətin rolunun dəyişməsi; informasiya sahəsində kommunikasiyanın qlobal sisteminin dövlətin roluna təsiri; qlobal idarəetmə sisteminin yaradılmasında, sosial şəbəkələrdə, eləcə də transmilli koorporasiyaların işində, o cümlədən kapitalın cəmləşdirilməsidə (transmilli kapital və dövlətin qarşılıqlı asılılığı); həmçinin submilli və üstmilli səviyyələrlə asılılıqda cərəyan edən qloballaşma və regionlaşma strategiyalarında dövlətin rolu; qlobal səviyyədə milli dövlətlər və transmilli təşkilatlar; qloballaşmada rəqabət edən dövlətlərin yaranması və s.

Qloballaşma dünya inkişafının müasir mərhələsinin başlıca meyli kimi getdikcə böyüməkdədir. Əgər bəşəriyyət XX əsri elmi inkişafın nailiyyətlərinin yaratdığı xoş ümidlərlə qarşılamışdısa, qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur. Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin perspektivləri hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir. Sözsüz ki, beynəlxalq hüquq prinsipləri və normalarının aliliyi, dəyişikliklərin təkamül

xarakteri, qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqətlə yanaşı hər bir ölkənin səciyyəvi milli cəhətlərinin də nəzərə alınması bu prosesin müəyyənedici istiqamətləri olmalıdır.

Qlobal sosial təcrid, zərərli sosial təsirlərə malik olduğunu nəzərə alaraq dövlət cəmiyyətdə bir sıra sosial müdafiə xarakterli cavab tədbirlərinin yaradılmasına və dəstəklənməsinə kömək etməli, həmçinin qloballaşmadan daha ədalətli mənfəətin bölüşdürülməsini təmin etməlidir.

## Ədəbiyyat


1. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı: "Azərnəşr", 2003
2. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Milli-mənəvi dəyərlərimizi qoruyaq və nəsillərə çatdıraq. Bakı, 2014


UOT 339.9

## Qloballaşma, sosial-iqtisadi proseslər və milli-mənəvi dəyərlər

*Əzimova Kəmalə Ziya qızı*
*Mingəçevir şəhər 17 №-li tam orta məktəb*

Son dövrlər dünya iqtisadiyyatında qloballaşma prosesi daha sürətli və gözə dəyəndir. Bu zəmində dünya ölkələrinin sərbəst şəkildə dünya bazarına inteqrasiya olunması və bunun üçün lazım olan şərtlərin daha da əlverişli edilməsidir. Qloballaşan dünyada dövlətin sabaha hansı siyasətlə getməsi, hansı maraqları güdməsi birmənalı qarşılanmır. Çunki qloballaşma prosesləri milli mədəniyyətin imkanlarını məhdudlaşdıraraq bilavasitə mədəni siyasətə təsir göstərir.

Qloballaşma mahiyyət etibarilə dünya dovlətlərinin bütövlüyünün, mədəni iqtisadi munasibətlərdə ayrı-seckiliyin aradan götürülməsinə xidmət etməlidir. Təbii ki, bu gün qloballaşmanın bir çox ölkələr üçün yaratmış olduğu problemlər bizi üox narahat edir. Çunki bu problemlər bilavasitə mədəniyyət sahəsində bəşər tarixinin dunyanın inkişaf təcrübəsinin öyrənilməsini, yaradıcılıq əlaqələrinin genişləndirilməsini zərurətə çevirir. Şübhəsiz ki, inteqrasiya prosesinin qaçılmaz olduğu bir dövrdə milli-mənəvi və əxlaqi-tərbiyəvi dəyərlərimizin qorunmasına qayğı daha da artırılmalıdır.

Qloballaşmanın təsiri özünü bütün sahələrdə – ticarət, idman, siyasət, dəb, ətraf mühit, musiqi, hüquq və mədəni eyniyyətdə büruzə verir. Sanki dünyanın bütün regionlarının taleyi qarşılıqlı asılılıq və iqtisadi, siyasi, mədəni əlaqələrin mövcud sərhədlər üzərindən qarşılqlı nüfuzu sayəsində əvvəllər olduğundan qat-qat daha çox dərəcədə bir-biri ilə bağlıdır.

Siyasi sahədə qloballaşma milli dovlətçilik, milli-mənəvi dəyərlər problemi ilə qarşılaşır.

Xalqımızın ulu öndəri H.Əliyev demişdir ki, dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb və heç də bir mənalı olmayan prosesin prespektivləri bizim hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin sabitliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsini kömək etməlidir.

Qloballaşma prosesində fəal iştirak edən Azərbaycan Respublikası Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi olan Tarixi İpək Yolunun mərkəzində yerləşir. Bakı-Tibilisi-Ceyhan magistiral neft kəməri, Qars-Tiblisi-Ərzurum qaz kəməri, Qars-Tiblisi-Bakı dəmir yolu kimi layihələr dünya dövlətləri ilə ölkəmizin arasındakı iqtisadi əməkdaşlığı yüksək bir səviyyəyə gətirəcəkdir. Hal-hazırda da Azərbaycan dövləti tərəfindən aparılan uğurlu siyasətin nəticəsində milli-mənəvi dəyərlərimizin dünyaya inteqrasiya olunması və onun beynəlxalq miqyasda təbliği sahəsində işlər davam etdirilir.

Hər bir xalqın mili-etnik inkişaf tarixi bir sıra maddi və mənəvi amillərlə nizamlanan mürəkkəb bir prossesdir. Əgər biz xalqımızın milli-mənəvi mədəniyyətinin tarixinə ciddi nəzər yetirsək, onun əsas inkişaf mərhələlərini xarakterizə etsək mövcud amillərin böyük bir əhəmiyyət

kəsb etdiyinin şahidi olarıq. Yüksək amallara xidmət edən milli-mənəvi dəyərləri ilə tanınan xalqımızı xarakterizə edən bəşəri ideyalar, adət-ənənələr, milli xüsusiyyətlər özünəməxsusliğunu qoruyub saxlamağı bacarmalıdır. Bir sıra tədqiqaçılar da bu qənaətə gəlirlər ki, qədim köklərə malik olan Azərbaycan xalqı əsrlərin yaddaşlarından süzülüb gələn maddi və mənəvi xəzinəsini qoruyub saxlamağı bacara bilmişdir.

Bir tərəfdən respublikamızda milli və bəşəri dəyərlərin sintezini, dünya təcrübəsinə inteqrasiyanı təmin edən mühitin formalaşdırılması yönündə həyata keçirilən islahatlar dünyanın sosial, mədəni, iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri səviyyəsinə çatmağa şərait yaradır. Digər tərəfdən sosial, mədəni, iqtisadi tərəqqiyə xidmət edən bu prosesdə qarşıya çıxan problemlər isə bilavasitə mədəniyyət sahəsində bəşər tarixinin, dünyanın inkişaf təcrübəsinin öyrənilməsini, kompleks təlim-tərbiyə sisteminin qurulmasını, yaradıcılıq əlaqələrinin genişləndirilməsini zərurətə cevirir. Ona gorə də biz bu dəyərləri aşınmalardan qorumalı, milli mədəniyyətimizi millətin qloballaşmanın mənfi təzahurlərindən özünü müdafiə vasitəsinə çevirməliyik. Bu da ondan irəli gəlir ki, müstəqilliyin bərpasından ötən illər ərzində Azərbaycanın dövlət müstəqilliyi getdikcə möhkəmləndirilməklə,respublikamızda demokratik, hüquqi, dünyəvi, dövlət quruculuğu prosesi daha da sürətlə inkişaf etməkdədir

Mədəniyyət siyasəti sahəsində qazanılan nailiyyətlər sübut edir ki, Azərbaycan dövlət müstəqilliyi getdikcə möhkəmləndirilməkdə, respublikamızda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi daha da sürətlə inkişaf etməkdədir Ümummilli liderimiz Heydər Əliyevin yürütdüyü siyasi-mədəni xəttin layiqli davamcısı prezident İlham Əliyevin inamla və sədaqətlə həyata keçirməkdə olduğu mədəniyyət siyasətinin uğurlu nəticələri və perspektivləri artıq göz qabağındadır. Belə ki, “2006-2016-cı illər üçün mədəniyyət sahəsində dövlət inkişaf konsepsiyası”nın əsas qayəsi daxili və xarici dövlət mədəniyyət siyasətinin təminatı mexanizmlərini dünya standartları səviyyəsinə çatdırmaq yolunda mədəni irsin qorunması, yaradıcılığın dəstəklənməsi və mədəni sənayelərin dirçəldilməsi kimi prioritet istiqamətləri müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirməklə qədim və möhtəşəm Azərbaycan mədəniyyətinin və incəsənətinin qorunub saxlanılmasına, gələcək inkişafına və dünya mədəniyyətinə uğurlu inteqrasiyasına nail olmaqdır. Mədəniyyət və incəsənətin bütün sahələrində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi həyata keciriləcək islahatların əsas məğzi kimi nəzərdə tutulmuşdur[3].

Qloballaşma şəraitində milli-mənəvi dəyərlərin zənginləşməsinə iqtisadiyyatın müxtəlif sahələrinin davamlı inkişafı geniş meydan açır. Bütün bunlara rəğmən sənayenin sürətlə inkişafı, yeni nəqliyyat və rabitə vasitələrinin kəşfi, dünya iqtisadi bazarının formalaşması, kütləvi miqrasi-yalar, beynəlxalq əlaqələrin və mübadilənin intensivləşməsi ölkələrin və millətlərin bir-birlərindən təcrid olunmuş şəkildə mövcudluğuna son qoydu. Bunun davamı olaraq dünya təsərrüfat əlaqələri çox sürətlə artır, beynəlxalq münasibətləri tənzimləyən dünya sistemləri yaradılır, qarşılıqlı mədəni təsirlər artır, böyük məsafələr asanlıqla qət edilir, zamanın gedişi sürətlənir, dünya bütöv, vahid bir tam halını almağa başlayır.

Milli dövlətlərin özlərinin ərazisinə, varına, gücünə və s. görə fərqləndirdikləri halda, iqtisadi qloballaşmanın hər yerə bərabər yayılan bir proses kimi qiymətləndirilməsi düzgün deyil. Buna görə də qloballaşma haqqında sanki, o, hər bir milli-dövlətə və iqtisadiyyatın bütün sektorlarına eyni təsirə malik bir proses kimi danışmaq olmaz.

İqtisadi qloballaşmanın əsasını təbii resurslar və bazarlar üzərində nəzarət uğrunda kəskin rəqabət, mübarizə təşkil edir. Onun əsas faktorları transmilli şirkətlərdir. Bu şirkətlər XX əsrin əvvəllərindən böyük sənaye kampaniyalarının iqtisadi və maliyyə maraqlarının milli sərhədləri aşmağa başladığı dövrdən formalaşmağa başlamışdır. XX əsrin ikinci yarısından regional transmilli şirkətlərin qlobal şirkətlərə çevrilməsi prosesi başlandı. Buna xeyli dərəcədə planetin müxtəlif hissələrini vahid informasiya və iqtisadi məkanda birləşdirən elektron rabitə vasitələri sahəsindəki inqilab təkan verdi. İqtisadi qloballaşma mərkəzləri dünyada çox böyük miqyasda fəaliyyət göstərirlər. Öz iqtisadi gücünə görə bir sıra transmilli şirkətlər ayrı-ayrı dövlətlərlə rəqabət aparmaq imkanına belə malikdirlər. Kapital investisiyası və yeni texnologiyalar üzərində nəzarət imkanları onlara hətta çox güclü dövlətlər üzərində xüsusi fəaliyyət rıçaqları verir. Transmilli iqtisadiyyat isə

beynəlxalq ticarəti də özündə birləşdirməklə yanaşı əlavə xüsusiyyətlərə malikdir. Bunlara trans-milli proseslərin və institutların inkişafı aiddir. İnformasiya texnologiyası sayəsində mümkün olan bu günkü dünya maliyyə bazarının inteqrasiyası siyasi sərhədlər üzərindən bir anda heç bir əngəl olmayan miqyasda sazişləri mümkün edir.

Yeni transmilli iqtisadiyyat çərçivəsində ayrı-ayrı millətlər yalnız tidcarətdən yox, həm də kənardan olan kapital axınından çox asılı olurlar. Bunlar iqtisadi inkişafda yeni texnologiya əldə etməyə və işsizliyi minimuma endirməyə nail olmaq üçün vacib hesab olunur.

Qloballaşmanın milli-mənəvi dəyərlərətəsirini şərtləndirən digər bir amil də standartlaşdırmadır. Standartlaşdırma bu gün qlobal marketinqin əsas elementi olaraq qalır. Bununla yanaşı multimilli müəssisələr artıq anlamağa başlayıblar ki, istehlakçılar standart deyillər, zövqlər və tələblər müxtəlif millətlərdə, mədəniyyətlərdə və regionlarda fərqlənir. Bunu anlamaq, adətən, istehlakçıların marketinq kampaniyalarına və standartlaşdırılmış məhsullara müqaviməti nəticəsində mümkün olur. İstehlakçıların zövqlərinin müxtəlifliyi və mədəni müqavimət lokalizasiya və regionallaşmanın mühüm elementlərinə gətirib çıxarmışdır.

Xalqın milli bütövlüyü mədəni bütövlüklə bağlı məsələləri ortaya çıxarır. Bunlara yalnız millətin daxili mədəni tərkibi yox, həmçinin mədəni cəhətdən fərqli işçi qüvvəsinin miqrasiyası, musiqi və kino kimi mədəniyyət sahələrinin qloballaşması, insan hüquqları, vətəndaşlıq və s. sahələrdə transmilli tənzimləmə qurumlarının mədəni təsiri kimi qlobal meyllər təsir edir.

Bu gün demokratiya ölkənin əmin-amanlığı üçün zəruri şərtlərdən biridir. O, sosial və iqtisadi inkiaşf üçün optimal şərait yaradır. Demokratiya cəmiyyətin və dövlətin birliyinə və təhlükəsizliyinə təhlükə törədən cəmiyyətə xas siyasi, sosial, iqtisadi, etnik xarakterli konfliktləri həll etmək üçün yeganə uzunmüddətli vasitədir. Milli və transmilli maraqlar arasında əlaqələrə danışıqlar və ümumi maraqlar axtarışı daxildir. Lakin maraqlar fərqli olarsa, onlar arasında konflikt də ola bilər. Burada əsas faktor qarşılıqlı asılılıqdır. Beləliklə, bir sıra xarici maraqlar dövlət dəstəyindən asılıdır, həmçinin dövlət institutları da müxtəlif kənar vasitələrdən asılıdırlar.

Ətraf mühitlə bağlı razılaşmaların sıx və hərtərəlif hüquqi və institusional strukturu özlüyündə suverenlik üçün təhlükə törədir. Beynəlxalq institutlar və rejimlər milli hökumətlərin hakimiyyətini təhlükə altında qoyan yeni hakimiyyət mərkəzləri formalaşdırırlar. Dövlətin hakimiyyəti çox sıx beynəlxalq prinsiplər, qaydalar, normalar və institutlar tərəfindən məhdudlaşdırılır.

Mövzu ilə bağlı problemin araşdırılması və təhlili göstərir ki, beynəlxalq aləmdə mövcud olan heç bir dövlət qloballaşma problemlərindən kənarda qala bilməz. Çünki qloballaşma müasir dünyada baş verən dəyişikliklərin əsas mənbəyidir və onun bir çox aspektləri qlobal siyasi sistem çərçivəsində milli-dövlətlərin rolu və bir-birləri ilə, həmçinin digər təşkilatlanmış maraqlarla münasibətlərini dəyişir.

## Ədəbiyyat


1. Abbasov N. Mədəniyyət siyasəti və milli-mənəvi dəyərlər. Bakı, 2008
2. Əliyev H. Müstəqillik yolu. Bakı, AU, 1997
3. Həsənov A. Ağayev Ə. Pedaqogika. Bakı, 2007
4. Mirzə Əhməd Mirzə Xudaverdi oğlu. Əxlaqnamə. Bakı, 1975

**ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ**
**93-CÜ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ**
**“MİLLİ-MƏDƏNİ İRS VƏ ONUN QLOBALLAŞMA ŞƏRAİTİNDƏ**
**TƏBLİĞİ MƏSƏLƏLƏRİ”**
**MÖVZUSUNDA**

**RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI**

***22-23 aprel 2016-cı il***

**MİNGƏÇEVİR – 2016**

*Konfrans materialında istifadə olunan*
*statistik materialların doğruluğuna görə*
*müəlliflər məsuliyyət daşıyır*

Yığılmağa verilib: ____2016
Çapa imzalanıb: ____2016
Format 60 x 84 1/16

F.Ç.V. 15

Tiraj 300

**“AVRORA” nəşriyyatı**